ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

2 /2022

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№2

2022

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2022

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 2/2022.** – Bakı: Mütərcim, 2022. – 376 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций.

Məcmuənin bu sayından başlayaraq müəlliflərin müraciəti və redaksiya heyətinin rəyi əsasında bəzi elmi məqalələrə xüsusi identifikator nömrəsi (DOİ) verilməsi qərara alınmışdır. Bu, Scopus və ya Web of Science platformalarında yerləşdirilmiş məqalə və elmi-tədqiqat işində DOİ verilmiş işə istinad zamanı onun göstərilən bazalara daxil edilməsinə və bu publikasiyaya beynəlxalq status verilməsinə şərait yaradır.

Начиная с этого номера сборника, на основе обращения авторов и отзыва редакционной коллегии некоторым статьям присваивается специальный идентификатор (DOI). При ссылке на эти статьи работ, размещённых на платформах Scopus или Web of Science, это создаст возможность включения данных статей в указанные базы и придаст публикациям международный статус.

© Məqalə müəllifləri, 2022
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2022

DİLÇİLİK - ЛИНГВИСТИКА

F.Q.AĞAYEVA

DOI:10.48652/s4141-1973-3444-y

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İSİM DÜZƏLDƏN AFFİKSLƏR VƏ ONLARIN TƏSNİFİ

Açar sözlər: *isim, söz birləşməsi, nitq vahidi, dil elementləri, qrammatik xüsusiyyət, düzəltmə isimlər, affiks, suffiks, prefiks*

Ключевые слова: *имя существительное, словосочетание, единицы языка, речевой элемент, производные существительные, аффиксы, суффиксы, префиксы*

Key words: *noun, word combination, speech unit, speech element, grammatical feature, derivative nouns, affixes, suffixes, prefixes*

Söz dilin ən məhsuldar və işlək ünsiyyət vahididir. Dil elementlərinin mərkəzi vahidi olan söz həmçinin dilin leksik sistemində də başlıca nitq vahididir. Sözlər tək –tək, yəni bir – birindən təcrid edilmiş halda deyil, nitqdə başqa sözlərlə əlaqədə yaşayır. Buna görə də hər bir sözün öz əsas, leksik mənasından başqa , nitqdə - cümlə daxilində bir və bir neçə qrammatik mənası olur. Sözün səs xassələrini, səs dəyişkənliyini fonetika tədqiq edir; sözün qrammatik quruluşunu, qrammatik dəyişikliklərini qrammatika öyrənir.Sözün qrammatik mənası leksik mənasına nisbətən çox olur.

Sözün qrammatik mənasının nitqdə əhəmiyyəti böyükdür. Qrammatik məna nitqdə sözün anlaşılmasını dəqiqləşdirir; məsələn, ismin əşyanın adını bildirməklə onun kəmiyyətini, məna növünü, halını və sairəni bildirir.

Qrammatik məna sözlərin bir-biri ilə əlaqəsini, danışan şəxsin haqqında danışdığı əşya və ya hadisəyə münasibətini göstərir.

Bildiyimiz kimi, leksika- dilin lüğət tərkibidir və dil üçün qurucu material rolunu oynayır. Dillərin hansı tipə aid olmalarını isə hər bir dilin qrammatikası təyin edir. Qrammatik quruluş dilin ən sabit və tarixən ən az dəyişikliyə məruz qalan hissəsidir. Qrammatika – yunan sözü olub – "yazı incəsənəti" mənasını bildirir və yuxarda da qeyd etdiyimiz kimi dilin qrammatik quruluşunu öyrənir. Morfologiya da qrammatikanın bir hissəsi olub, sözü tədqiq edir. Leksikologiyadan fərqli olaraq morfologiyanı, müxtəlif qrammatik mənaları ifadə edən müxtəlif qrammatik şəkillər – formalar maraqlandırır.

Dilçilikdə dillərin morfoloji quruluşa görə təsnifinin əsasını XIX əsrin əvvəllərində Fredrix Şlegel "Hindlilərin dili və müdrikliyi" əsərini yazmaqla qoymuşdur. Dilçilikdə dillər morfoloji quruluşuna görə amorf, aqlütinativ (iltisaqi), flektiv, inkorporlaşan olur. Tədqiq et-diyimiz Azərbaycan dili aqlütinativ (iltisaqi) quruluşa malikdir. Aqlütinativ latın mənşəli söz olub bitişdirmək, yapışdırmaq mənasını bildirir. Bu cür dillərdə şəkilçi sözün kökünə qoşulur. Bitişdirmək yapışdırmaq mənası da bununla bağlıdır. Bu cür dillərin morfologiyasında bir sıra özünəməxsus xüsusiyyətlər vardır. Bunların bəzilərini aşağıda nəzərdən keçirək:

• Aqlütinativ (iltisaqi) dillərdə söz kök və şəkilçilərə ayrılır.Təbii ki, Azərbaycan dili, eləcə də digər türk dilləri üçün bu xarakterikdir. Kök hər zaman öndə gəlir və heç bir zaman mövqeyini dəyişmir. O, özü şəkilçilərə təsir göstərə bilir,lakin özü heç vaxt şəkilçilərin təsirinə düşmür. Hind – Avropa köklü sözlər türk sözlərinə nisbətən daha çox diffuziya hadisəsinə məruz qalır.

• Aqlütinativ (iltisaqi)dillərin morfoloji quruluşu üçün önlüklər xarakterik deyildir. Azərbaycan dilində önlük iştirak etmir. "Türk sözlərində ön şəkilçisi (prefiks) yoxdur. Prefikslər sözün kökünə təsir edir və nəticədə aldadıcı əsaslar yaradır" (5, 177-178)

Azərbaycan dilində önlüklər alınma sözlərdə özünü göstərir: biməfa, bihuş, namərd, naməhrəm, namunasib və s.

• Aqlütinativ (iltisaqi) dillərdə kökdən sonra gələn şəkilçilərin köməyi ilə sözlər dəyişir. Sözə sözdüzəldici şəkilçi qoşulduqda yeni mənalı söz yaranır: dənizçi, dəmirçi, balıqçı və s. Sözdəyişdirici şəkilçi artırıldıqda isə sözün mənasında deyil, formasında dəyişiklik əmələ gəlir: kitablar, evə, dənizdə və s.

Sözə qoşulan sözdüzəldici və sözdəyişdirici şəkilçilərin yeri məqbul bir qaydaya uyğun gəlir. Belə ki, əgər sözdə həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçi varsa, əvvəlcə sözdüzəldici, sonra isə sözdəyişdirici şəkilçi işlənir: əkin-çi-lər, üzüm-çü-lər, dəniz-çi-lər və s.

• Aqlütinativ (iltisaqi) dillərdə sözyaratmaq imkanları zəngindir. Ona görə də hər hansı sözə bir və bir neçə sözdüzəldici şəkilçi artırmaq mümkündür.

Flektiv dillər də şəkilçili dillərdir. Lakin flektiv dillər bir sıra xüsusiyyətlərinə görə şəkilçili olan aqlütinativ dillərdən seçilir. Tipoloji bölgüyə görə ingilis dili flektiv dillərə aiddir. Flektiv- latınca "flexio" sözündən əmələ gəlib və mənası "əyilmək, başqasına keçmək" deməkdir.

Flektiv dilin aşağıdakı əsas xüsusiyyəti mövcuddur:

• Şəkilçilər bir-biri ilə və köklə möhkəm bağlı olur. Bu dillərdə çox zaman şəkilçiləri kökdən ayırmaq olmur.

• Başqa dillərə nisbətən flektiv dillərdə daxili fleksiya, yəni qrammatik forma yaratmaq üçün söz köklərində səslərin dəyişməsi halları daha qüvvətlidir.

• Bir sözdüzəldici və ya sözdəyişdirici şəkilçi bir neçə qrammatik funksiyaya malik olur.

• Bir şəkilçi bəzən bir neçə qrammatik kateqoriyanı yaratmağa xidmət edir.

Flektiv dillərin hamısının eyni xüsusiyyətə malik olmadığından onlar özləri də iki yerə bölünür: 1) sintetik – flektiv dillər: 2) analitik – flektiv dillər. Sintetik – flektiv dillərin başlıca xüsusiyyəti cümlə daxilində sözlər arasındakı əlaqəni söz özü yaradmasıdır. Analitik – flektiv dillərin başlıca xüsusiyyəti cümlə daxilində sözlər arasındakı əlaqəni müstəqil söz yox, köməkçi sözlər və söz cərgəsi yaradmasından ibarətdir. Tədqiq edəcəyimiz ingilis dili də bura daxildir.

Qrammatik üsullar bütün dillər üçün eynidir, lakin dillər ya bu üsulların hamısından ya da bezilərindən istifadə edir. Azərbaycan və ingilis dillərində sözlər tərkibcə kök və şəkilçidən ibarətdir. Sözün əsas hissəsi dilçilik elmində kök, qeyri-əsas hissəsi isə şəkilçi adlanır. "Sözün ayrıca işlənib müstəqil mənaya malik olan və dəyişməyən hissəsinə kök deyilir". (1, 7) Şəkilçilər isə, köklərin tamamilə əksinə olaraq, sözün əsasını təşkil edə bilmir. Onlar kökdən ayrı işlənmir, müstəqil mənaya malik olmur və söz kökünün tələbinə görə dəyişir. "Sözün ayrılıqda işlənməyən, müstəqil mənaya malik olmayan və söz köklərinə bitişdikdə onların ya şəklini, ya da şəkli ilə birlikdə məzmununu dəyişən hissəsinə şəkilçi deyilir". (1, 7) Sözlərin hamısı eyni quruluşa malik olmur, yəni dilimizdə işlənən sözlərin hamısı sadə söz köklərindən ibarət deyildir. Əgər bütün sözlər sadə kökdən ibarət olsa idi, dilimizdəki sözdüzəldici şəkilçilərin yaranmasına ehtiyac qalmazdı. Dilimizdə işlənən sözlərin bəzisi bir kökdən, bəzisi bir köklə bir sözdüzəldici şəkilçidən, bəzisi də iki və daha artıq sözün birləşməsindən ibarət olur. Odur ki, sözləri quruluşuna Gülarə Abdullayeva görə 3 qismə

ayırmaq olar: 1. Sadə sözlər. 2. Düzəltmə sözlər. 3. Mürəkkəb sözlər. Məsələn, balıq, balıqçı, balıqqulağı. Bu misallarda balıq sözünü daha kiçik mənalı hissələrə bölmək mümkün deyil. Deməli, yalnız bir kökdən ibarət olan sözlər sadə sözlərdir. Düzəltmə sözlər isə kök və budaq morfemdən, yəni kök və şəkilçidən ibarət olur. Balıq sözü bir kökdən ibarət olduğu halda, balıqçı sözü düzəltmə sözdür, çünki balıq sözünə -çı şəkilçisini artırmaqla yaranmışdır. Beləliklə, tərkibində bir kök və sözdüzəldici şəkilçi olan sözlərə düzəltmə sözlər deyilir. Düzəltmə sözlərin müəyyənləşdirilməsində iki cəhəti əsas tutmaq lazımdır. Birincisi, köklə düzəltmə söz arasında üzvi bağlılıq olmalıdır, yəni yaranmış söz, yeni məna məhz kökdəki mənanın əsasında yaranır. İkincisi, söz o vaxt düzəltmə söz kimi götürülə bilər ki, onun kökü dilimizdə ayrıca işlənmiş olsun. Ərəb dilindən dilimizə keçmiş sədaqət, şücaət sözləri, eləcə də, Azərbaycan dilinin öz sözlərindən olan barış, yarış, güləş, dağıntı sözləri məhz bu cəhətdən düzəltmə söz sayıla bilməz.

Affiksasiya üsulu affikslərin sözün kökünə affikslərin qoşulmasından ibarətdir. Affikslər – qrammatik mənaya malik olan morfemlərdir. Affikslər dildə sözdən kənarda fəaliyyət göstərmir, onlar sözün kökünə əlavə olunur. Onlar söz yaratmağa və söz dəyişməyə xidmət göstərir. Sözün kökündə istifadə olunma yerinə görə affiksləri prefikslərə,infikslərə və postfikslərə bölmək olar. Prefikslər kökdən öndə gəlib,infikslər sözün tərkibində, postfikslər isə kökdən sonra gəlir.Azərbaycan dili türk dillər ailəsinə, ingilis dili öz tipinə görə flektiv hind- avropa dillərinin german qoluna aiddir. Turk dillər ailəsində prefikslərdən istifadə olunmur, bütün qrammatik üsullar yalnız postfikslərin vasitəsi ilə ifadə olunur. Azərbaycan dilində prefiks qəbul edən sözlər mənşəcə azərbaycan sözləri deyil, digər dillərdən alınma sözlərdir. Nəticə etibari ilə sözlər prefiksləri ilə birgə başqa dillərdən azərbaycan dilinə keçib. Əsl azərbaycan dilinə mənsub olan bütün sözlər isə kökdən başlayır, onun ardından isə postfikslər zənciri gəlir. Məsələn; əllərimdən- burada əl- sözün kökü, lər – cəm şəkilçisi, im- I çəxs mənsubiyyət şəkilçisi, dən- çıxışlıq hal şəkilçisidir.

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində affiksasiya üsulunun iki növündən istifadə olunur. Belə ki, ingilis dilində affikslər həm söz kökündən öndə, həm də söz kökündən sonra işlənə bilir. Məsələn: dislike, incorrect, misunderstand, disappear, overdone, unknown. Dis-, in-, mis-, dis-, over-, un- prefikslərini misal göstərmək olar. Sufikslərə misal olaraq religious, fictional, friendship – ious, - al, - ship.

“Affixus” – latın sözündən əmələ gəlib mənası “bərkidilmiş” deməkdir. Prefiks – praefixum latın sözündən əmələ gəlib – “önə bərkidilmiş” deməkdir. Postfiks – postfixum latın sözündən əmələ gəlib – “sona bərkidilmiş ” mənasını ifadə edir və ilk dəfə dilçiliyə İ.A. Boduen de Kurtene tərəfindən gətirilib.

Postfikslər sufikslərə və fleksiyalara bölünür. Sufiks və fleksiyalar qrammatik məna tiplərinə görə fərqlənir. Sufikslər – “derivasiyon” mənalı postfikslərdir. Fleksiyalar isə - əlaqəli postfikslərdir.

Dildə olan affikslər köklərdə əmələ gətirdikləri məzmun və şəkildəyişikliyinə görə, başqa sözlə, vəzifəsinə görə də iki növə ayrılır. 1. Sözdüzəldici, 2. Sözdəyişdirici şəkilçilər.

Sözdüzəldici şəkilçilər əlavə olunduqları nitq hiss ələrinə görə də müxtəlif olur. Onların bir qismi yalnız isimlərə, bir qismi yalnız fellərə, bir qismi isə həm isim, həm sifət, həm say, həm də əvəzliklərə artırıla bilər.

Müasir Azərbaycan dili şəkilçiləri ilə dilimizə məxsus isim, sifət, say və əvəzliklərdən, eləcə də dilimizə fars , ərəb, rus dillərindən və rus dili vasitəsilə başqa dillərdən keçmiş isim və sifətlərdən düzələn isimlərdir. Bura daxil olan isimlər aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir.

- **- lıq (-lik, - luq, - lük)** vasitəsi ilə sadə isim və sifətlərdən, həmçinin feldən düzələn sifətlərdən, say və əvəzliklərdən keyfiyyət, xasiyyət, vəzifə, peşə, hal – vəziyyət, yer və əşya adı ifadə edən isimlər düzəlir: Məsələn: adamlıq, insanlıq, ucuzluq, suzgünlük, yaxşılıq, satqınlıq, həkimlik, mənlik, birlik və s.
- **-laq** şəkilçisi vasitəsilə yer bildirən isimlər düzəlir:yaylaq, otlaq, duzlaq, qışlaq və s.

• **-ça,- çə** vasitəsilə kiçiltmə mənalı isimlər düzəlir: dəftərçə, tarixçə, meydança, bağça və s.

• **-çı (-çi, -çu, -çü)** şəkilçisi vasitəsi ilə Azərbaycan, fars, ərəb, rus dili sözlərindən və rus dili vsitəsilə başqa dillərdən keçmiş isimlərdən peşə, sənət, məşğələ, adət, xasiyyət, əqidə, meyil,hal- vəziyyət və s.mənaları ifadə edən düzəltmə isimlər əmələ gəlir: arabaçı, yazıçı, əməkçi, dilçi, ədəbiyyatçı, traktorçu,əlaçı, təşviqatçı, traktorçu, tankçı və s.

• **-cıq (-cik, cuq, -cük): - cığaz (- ciyəz, - cuğaz, - cüyəz)** şəkilçiləri vasitəsilə Azərbaycan dili isimlərindən kiçiklik və əzizləmə məzmunu bildirən isimlər düzəlir: evcik, gözcük,qızcığaz, daxmacıq, quşcuğaz və s.

• **-lı (-li, - lu, -lü)** şəkilçisi vasitəsilə isim köklərindən cümlədəki yerlərinə görə yer münasibəti, keyfiyyət, sahiblik, familiya, əlamət, nəsil, ailə, mənalarını ifadə edən düzəltmə isim əmələ gəlir: kəndli, şəhərli, dağlı, məktəbli və s.

• **-daş** şəkilçisi vasitəsilə yerlik, həmrəylik və iştirak bildirən isimlər düzəlir: yoldaş, vətəndaş, əməkdaş, məsləkdaş və s.

Fars, ərəb dilləri şəkilçiləri ilə fars , ərəb isim və məsdərlərindən düzələn isimlər isə aşağıdakı şəkilçisi vasitəsilə düzəlir:

• **-iyyət** şəkilçisi vasitəsilə ictimai məhfum, hal-vəziyyət bildirən isimlər düzəlir: hakimiyyət, nailiyyət, cəmiyyət, şəxsiyyət, fəaliyyət və s.

• **-iyyat** şəkilçisi vasitəsilə elm, nəzəriyyə, proses, bütövlük bildirən isimlər düzəldilir: ədəbiyyat, ictimaiyyat, külliyyat, nəqliyyat, kəşfiyyat, əməliyyat və s.

• **-dar** şəkilçisi vasitəsilə isimlərdən peşə, vəziyyət bildirən isim düzəlir: maldar, heyvandar, əməkdar, hökmdar və s.

• **-keş** şəkilçisi vasitəsilə isimlərdən peşə sahibi və əlamət məzmunu ifadə edən isim, bəzən də sifət düzəlir: zəhmətkeş, azarkeş və s.

• **- at, -ət** şəkilçisi vasitəsilə isimlərdən xasiyyət, keyfiyyət, əxlaq, adət bildirən isimlər düzəlir: məlumat, təbliğat, təşviqat, təchizat və s.

• **-stan** şəkilçisi vasitəsilə yer, ölkə bildirən isimlər düzəlir: Dağıstan, Gürcüstan, gülüstan və s.

• **-iyyə** şəkilçisi vasitəsilə ləqəb, idarə, nəzəriyyə bildirən isimlər düzəlir: nəzəriyyə, fərziyyə, Səfəviyyə və s.

• **-i, - vi** şəkilçisi vasitəsilə ləqəb, titul bildirən isimlər düzəlir: Nizami Gəncəvi, Nəsimi, Xaqanı, Dilbazı, Təbrizi və s.

• **-zadə** şəkilçisi vasitəsilə familiya bildirən isimlər düzəlir: Həsənzadə, Quluzadə, Agazadə və s.

• **- şünas** sözünü bəzi isimlərə əlavə etməklə sənət, elm sahəsinə mənsubiyyət bildirən düzəltmə isimlər yaranır: şərqşünas, hüquqşünas, mətnşünas və s.

Rus dili və rus dili vasitəsi ilə başqa dillərdən keçən şəkilçilərə rus və başqa dillərin isimlərindən düzələn isimlər aşağıdakı şəkilçilər vasitəsilə düzəlir.

• **-izm** şəkilçisi ilə quruluş, dünyagörüşü bildirən isimlər düzəlir: idealizm, kapitalizm, materializm, sosializm və s.

• **-ist** şəkilçisi ilə elm, nəzəriyyə, cərəyan bildirən isimlər düzəlir: marksist, realist, idealist, sosialist və s.

Azərbaycan dili şəkilçiləri ilə Azərbaycan dili fellərindən düzələn isimlər isə aşağıdaki şəkilçilərlə düzəlir:

• **-ıq (-ik,-uq,ük,-q)** şəkilçisi ilə müəyyən proses və hərəkətin nəticəsində əmələ gələn məfhumları bildirən isimlər düzəlir: tapşırıq, bacarıq, minik, qoruq, buruq, bölük və s.

• **-ış (-iş, -uş, -üş, -yış,)** şəkilçisi vasitəsilə hal- vəziyyət, hərəkət bildirən isimlər düzəlir: çağırış, baxış, açılış, gəliş, gediş, vuruş, duruş və s.

- **-ma (- mə)** şəkilçisi vasitəsilə proses, hal- vəziyyət bildirən isimlər düzəlir: uydurma, döşəmə, gəlmə, qızdırma, dolma,vuruşma, döyüşmə, çalışma və s.
- **-aq, -ək** şəkilçisi vasitəsilə müxtəlif əşya adlarını bildirən isimlər düzəlir: yataq, döşək, dayaq, ələk, çörək və s.
- **-caq(-cək)** şəkilçisi vasitəsilə əşya və alət adlarını bildirən isimlər düzəlir: yelləncək, diyircək və s.
- **-im (-im,-um, - üm)** şəkilçisi vasitəsilə şəkilçisi vasitəsilə hal vəziyyət, hadisə, ölçü, qədər, bacarıq bildirən isimlər düzəlir: yığım, biçim, ölüm, dözüm və s.
- **-gə** şəkilçisi vasitəsilə: süpürgə, döngə və s.
- **-ar (-ər)** şəkilçisi vasitəsilə: açar, Sevər, Gülər, çıxar, yetər və s.
- **-tı (-ti, -tu, -tü)** şəkilçisi vasitəsilə müəyyən bir prosesin nəticəsində meydana çıxan isimlər: bağırtı, qaraltı, ağartı, gurultu, göyərti və s.
- **-qı (-qu, -ğı,-ğu, -ki, -kü, -gi, -gü)** şəkilçisi vasitəsilə əşya, vəziyyət, mücərrəd məfhumları bildirən isimlər düzəlir: pusqu, çalğı, durğu, vurğu, sarğı, sevgi, seçki, səpki və s.
- **-qın (-ğın, - qun, - ğun, -gin, - kin, -gün, -kün)** şəkilçisi vasitəsilə hadisə və vəziyyət bildirən isimlər düzəlir: basqın, qırğın, daşqın, qaçqın, yanğın, uçqun və s.
- **-ın (-in)** şəkilçisi vasitəsilə hadisə, proses, nəticə və s bildirən isimlər düzəlir: biçin, səpin, əkin, gəlin, axın və s.
- **- id (-üd)** şəkilçisi vasitəsilə nəsihət, yer və s. bildirən isimlər əmələ gəlir: keçid, öyüd və s.
- **-ı (-i, - u, -ü)** şəkilçisi vasitəsilə fiziki proses və nəticə bildirən isimlər düzəlir: yazı, qorxu, çəki, ölçü, ölü, sürü və s.
- **-ıcı (-ici, -ucu, -ücü)** şəkilçisi ilə peşə, sənət, xasiyyət və s. bildirən isimlər əmələ gəlir: atıcı, yırtıcı, satıcı, alıcı, qurucu, sürücü və s.
- **-acaq (-əcək)** şəkilçisi vasitəsilə alət, vəsait, hal- vəziyyət və s bildirən isimlər əmələ gəlir: yanacaq, çapacaq, qanacaq, dönəcək, gələcək, duracaq və s.
- **-cə** şəkilçisi vasitəsilə mücərrəd mənalı isimlər əmələ gəlir: düşüncə, əylancə və s.
- **-gəc** şəkilçisi vasitəsilə alət adları bildirən isimlər əmələ gəlir: süzgəc, üzgəc və s.
- **-ır (-ir)** şəkilçisi ilə fayda, mənfəət bildirən isimlər əmələ gəlir: gəlir, yatır (xəzinə) və s.
- **-ıc** şəkilçisi vasitəsilə hüdud bildirən isim əmələ gəlir: ayrıc, dalğıc və s.
- **-ıntı (-ıntı, -untu,- üntü)** şəkilçisi vasitəsilə müəyyən bir prosesin nəticəsini bildirən isimlər əmələ gəlir: qazıntı, yeyinti, çırpıntı, çöküntü və s.

Müasir ingilis dilində söz kökünə artırılan məhsuldar affikslər aşağıdakılardır:

- **-er** şəkilçisi vasitəsilə peşə, sənət, məşğələ, isimlər əmələ gəlir: teacher, worker, reader və s.
- **- ist** şəkilçisi ilə elm, nəzəriyyə, cərəyan bildirən isimlər düzəlir: communist, telegraphist, dramatist və s.
- **-ess** peşə- sənət, hal-vəziyyət bildirən isimlər əmələ gətirir və qadın cinsini yaradan affiksdir: heiress, hostess, actress və s.
- **-ness** hal-vəziyyət bildirən isimlər yaradan affiksdir: carelessness, madness, blackness və s.
- **-ism** şəkilçisi ilə quruluş, dünyagörüşü bildirən isimlər düzəlir: socialism, nationalism, imperialism və s.

Qeyri-məhsuldar isim yaradan şəkilçilər isə aşağıdakılardır:

- **- hood** şəkilçisi ilə hal-vəziyyət bildirən isimlər düzəlir: manhood, childhood və s.
- **-dom** şəkilçisi ilə quruluş bildirən isimlər düzəlir: freedom
- **- -ship** şəkilçisi ilə münasibət bildirən isimlər düzəlir: friendship, relationship və s.

- **-ment** şəkilçisi ilə hal- vəziyyət bildirən isimlər düzəlir: development
- **-ance** şəkilçisi ilə əlamət bildirən isimlər düzəlir: importance
- **-ence** şəkilçisi ilə düzələn isimlər: dependence
- **-ty** şəkilçisi ilə xasiyyət, vəziyyət bildirən isimlər düzəlir: cruelty
- **-ity** şəkilçisi ilə düzələn isimlər: generosity

Şəkilçilərin ikinci qisminə sözdəyişdirici şəkilçilər daxildir. Bu şəkilçilər Azərbaycan dilinin öz şəkilçiləridir və həmişə sözün sonunda işlənir. İngilis gilində sözdəyişdirici şəkilçilərdə sözün sonuna əlavə olunur. Bu şəkilçilər yalnız sözün formasını dəyişdirir, məzmununa isə ciddi təsir etmir. Bu şəkilçilər sözlər arasında qrammatik əlaqənin təmin olunmasına xidmət edir. Bütün qrammatik kateqoriyaların şəkilçiləri sözdəyişdirici şəkilçilər qrupuna daxildir. Bu kateqoriyalar, başlıca olaraq isim və fellərə məxsus olur. Başqa nitq hissələri bunların vəzifəsini daşıdığı zaman həmin kateqoriyaların şəkilçilərini qəbul edə bilir. Bu baxımdan kateqoriyaların əlamətlərini – şəkilçiləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Kəmiyyət kateqoriyası şəkilçiləri, 2. Hal kateqoriyası şəkilçiləri, 3. Mənsubiyyət kateqoriyası şəkilçiləri, 4. Xəbərlik kateqoriyası şəkilçiləri, 5. İnkarlıq kateqoriyası şəkilçiləri, 6. Şəxs kateqoriyası şəkilçiləri, 7. Zaman kateqoriyası şəkilçiləri. 8. Təsir kateqoriyası şəkilçiləri; 9. Növ kateqoriyası şəkilçiləri. Qrammatik kateqoriyaların şəkilçiləri sözdəyişdirici şəkilçi olub, qrammatik mənanın ifadə olunmasına, sözlər arasında qrammatik əlaqənin yaranmasına xidmət edir.

Kəmiyyət kateqoriyası şəkilçilərinə müasir Azərbaycan dilində **-lar, -lər;-q,-k; -ız (-iz, -uz, -üz)** morfoloji vasitələri ilə ifadə olunduğu halda ingilis dilində **-s** sufiksi, bəzi sözlərin kökünə isə **-en** şəkilçisi isimlərdə bu kateqoriyanı yaratmağa xidmət edir. İngilis dilinin kəmiyyət kateqoriyası bəzi isimlərdə sözlərdə saitlərin dəyishməsi ilə də yarana bilir: Məsələn: man-men; woman-women; foot-feet; tooth-teeth; goose- geese; mouse- mice; louse – lice.

Mənsubiyyət kateqoriyası iki söz arasında atributiv əlaqəni bildirir. Müasir ədəbi dilimizdə işlənən mənsubiyyət kateqoriyasının şəkli əlamətləri aşağıdakılardır:

Birinci şəxsin təki saitlə bitən isimlərə **-m (**ata**m,** nənə**m),** saitlə bitən isimlərə **-ım,- im, - um, -üm;**

Birinci şəxsin cəmi saitlə bitən isimlərdə **-mız, - miz, - muz, - müz,** samitlə bitən isimlərdə **-ımız, -imiz, - umuz, - ümüz;**

Ikinci şəxsin təki saitlə bitən isimlərə **-n,** saitlə bitən isimlərə -ın, -in, - un, -ün;

İkinci şəxsin cəmi saitlə bitən isimlərə **-nız, - niz,- nuz, - nüz,** saitlə bitən isimlərə **-ınız, - iniz, -unuz, -ünüz;**

Üçüncü şəxsin təki və cəmi saitlə bitən isimlərə **-sı, - si, - su,- sü** saitlə bitən isimlərə **-ı, -i, -u, -ü.**

İngilis dilində mənsubiyyət kateqoriyasını bildirən şəkilçi yoxdur.

Müasir Azərbaycan dilində ismin halları və onların xüsusiyyətləri aşağıdakılardır:

1) Adlıq hal; 2)yiyəlik hal- 2 cür olur: a) müəyyən yiyəlik hal (**- ın, - in, -un,-ün; -nın, - nin, -nun, -nün**) b) qeyri-müəyyən yiyəlik hal (**şəkilçisiz**); 3) təsirlik hal (**-ı, -i, -u, - ü; - nı, - ni, -nu, -nü**); 4) yönlük hal (**- a, - ə**); 5) yerlik hal (**-da, - də**); 6) çıxışlıq hal (**-dan, - dən**).

Müasir ingilis dili üçün xarakterik olan analitizm özünü isimdə daha qabarıq şəkildə büruzə verir. Azərbaycan dilindən fərqli olaraq , ingilis dilində ismin yalnız iki halı vardır:1) ümumi hal (the Common Case); 2) yiyəlik hal (genitive case). (6, 30)

Müasir ingilis dilində ismin ümumi halda olduğunu bildirən xüsusi şəkilçi yoxdur. Bu halda ismi morfoloji baxımdan səciyyələndirən formal əlamət onun şəkilçisizliyi hesab edilə bilər. İsmin yiyəlik halı əsasən şəxs və əşya arasında mövcud olan yiyəlik, sahiblik əlaqəsini ifadə edir. Bu və ya digər əşyanın kimə məxsus olduğunu bildirir. Müasir ingilis dilində ismin yiyəlik halı tək isimlərdə **'s**, cəm isimlərdə isə apostrof **(')** vasitəsilə düzəldilir. Məsələn: the girl's mother, the commander's order təkdə; the girls' mother, the commanders' order – cəmdə olur. (6, 31)

Müasir Azərbaycan və ingilis dillərinin morfoloji quruluşa görə fərqli qruplara aid olduğunu nəzərə alsaq, bu dillərdə söz yaradıcılığı zamanı yeni sözlərin əmələ gəlmə üsulları da fərqlidir. Bir dil üçün məhsuldar olan üsul digər dil üçün qeyri məhsuldardır. Azərbaycan dili aqlutinativ dillərə aid olduğundan burada affikslərdən geniş istifadə olunur. Affikslərdən Azərbaycan dilində yalnız postfikslərdən istifadə olunur. Baxmayaraq ki, ingilis dilində şəkilçilərdən Azərbaycan dilinə nisbətən az istifadə olunur, lakin burada prefiks, infiks və postfikslərdən, yəni bir sözlə affikslərin bütün növlərindən flektiv morfoloji quruluşa malik olan ingilis dilində rast gəlinir. Mənşəcə Azərbaycan sözlərinin tərkibində nə prefikslərə nə də infikslərə rast gəlinmir. İsimlərin tədqiqindən aydın olur ki, yalnız alınma sözlərdə prefikslərdən istifadə olunur. Sözdəyişdirici şəkilçilərdən də Azərbaycan dilində ingilis dilinə nisbətən daha çox istifadə olunur.

Ədəbiyyat

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, “Maarif”, Bakı, 1983.
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı, 2007.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2007.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010.
5. Qurbanov A. Ümumi dilçilik.I cild, Bakı- Elm-2011.
6. Musayev O. İngilis dilinin qrammatikası. “Maarif”, Bakı, 2003.
7. Oljas Suleymenov. Az-ya. Bakı, 1993.
8. Арнольд И.В. The English Word, Москва, 1973.
9. Каушанская В.Л., Ковнер Р.Л., Кожевникова О.Н., Прокофьева Е.В., Райнес З.М., Сквирская С.Е., Цырлина Ф.Я., A Grammar of the English Language, Баку,2004.
10. Реформатский А.А. Введение в языковедение. Москва,1967.
11. Geoffrey Leech, Benita Cruickshank, Roz Ivanic, English Grammar and Usage, Longman, 2001
12. Michael Swan. Basic English Usage. Oxford University Press.2003

Ф.Г.Агаева

Аффиксы, образующие существительные, и их классификация в азербайджанском и английском языках

Резюме

Слово — самая продуктивная и активная единица речи в языке. Слова живут не сами по себе в отрыве друг от друга, а в связи с другими словами. Слова в разных языках образуются по-разному, и одним из таких способов является добавление суффикса к основе слова. Если учесть, что современные азербайджанский и английский языки по своему морфологическому строению относятся к разным группам, то и способы образования новых слов в словообразовании в этих языках различны. Метод, продуктивный для одного языка, непродуктивен для другого языка. Поскольку азербайджанский относится к агглютинативным языкам, здесь широко используются аффиксы. Английский язык относится к флективной морфологической структуре. В азербайджанском языке используются только постфиксы. Хотя суффиксы в английском языке используются реже, чем в азербайджанском языке, префиксы, инфиксы и постфиксы, т.е. все типы аффиксов, встречаются в английском языке.

F.G.Aghayeva

Noun forming affixes and their classification in Azerbaijani and English

Summary

Word is the most productive and active unit of speech in language. Words do not live alone in isolation from each other, but in connection with other words. Words in different languages are formed in different ways, and one of these methods is to add a suffix to the stem of the word. If we

take into account that modern Azerbaijani and English languages belong to different groups according to their morphological structure, the methods of formation of new words in word formation in these languages are also different. A method that is productive for one language is unproductive for another language. As Azerbaijani belongs to agglutinative languages, affixes are widely used here. English belongs to inflectional morphological structure. Only postfixes are used in Azerbaijani. Although suffixes are less commonly used in English than in Azerbaijani, prefixes, infixes and postfixes, ie all types of affixes, are found in English.

Rəyçi: filol.f.d. N.O.Babayeva

Redaksiyaya daxil olub: 21.05.2022

A.E.ALIYEVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

DİLÇİLİKDƏ MƏTNİN STRUKTUR-SEMANTİK VƏ KOMMUNİKATİV TƏŞKİLİ MƏSƏLƏSİ

Açar sözlər: *mətn, dilçilik, struktur, semantik, kommunikativ, komponent, əlaqə, cümlə, təşkil*
Ключевые слова: *текст, лингвистика, структура, семантический, коммуникативный, составная часть, контакт, предложение, организовать.*
Key words: *text, linguistic, structure, semantic, communicative, component, relation, sentence, organize*

Ümumiyyətlə dilçilikdə mətn mövzusu mübahisə doğuran mövzulardan biridir və müxtəlif aspektlərdə maraq doğurur. Eyni zamanda mətnin komponenləri arasında məntiqi-sintaktik əlaqə vasitələrinin bütün həcmini təsvir edə biləcək xüsusi araşdırmalar hələki yoxdur.

Məlumdur ki, hər bir mətnin əsas xüsusiyyəti onun məzmununun və mənasının məntiq və sintaktik bağlılıqla səciyyələndirilir. Mətnin bağlılığı cümləni əmələ gətirən elementlərin bağlılığı ilə sonuncuların vahid həddə bağlılığı və həm məna, həm də formal olan yüksək frazalı birləşmələrin formal əlaqəsi cümlədə müxtəlif sintaktik və üslubi vasitələrlə həyata keçirilir.

Müasir dilçilikdə mətn nitq fəaliyyətinin manifestasiyası təfəkkür prosesinin təsvirində informasiyanın verilməsi üsulu kimi səciyyələndirilir.Lakin fikrin hər cür ifadəsi, hər bir məlumat dilin quruluşunda və ilk növbədə dil vahidlərinin kommunikativ üzvləşməsində tabelilik qanunları ilə gerçəkləşir. Mətnin dil baxımından öyrənilməsində minimal dil vahidləri kimi ilk öncə cümlənin dil və kommunikativ quruluşunun, sonra fikrin kompleks quruluşunun ifadəçisi kimi frazafövqü vahidlərin və nəhayət bütövlükdə mətnin öyrənilməsi diqqət mərkəzində durur. Elmi tədqiqat işində mətnin komponentlərinin struktur-semantik əlaqələri öyrənmək və mətnin kommunikativ təşkilini şərh etmək nəzərdə tutulur. Bundan ötrü ilk növbədə müxtəlif dilçilərin mətnin məna quruluşu haqqında fikirlərini öyrənmək,onları müqayisə etmək və tədqiqatın təsvir prinsiplərini müəyyən etmək lazımdır. Mətni dil faktı və nitq faktı kimi tədqiq etmək,onun sərhədlərini müəyyənləşdirmək vacibdir. Mətnin semantik və sintaktik quruluşunun təhlili onun vahidi olan mürəkkəb sintaktik bütövün funksiyasını xarakterizə etməyə şərait yaradır. Mətn bir sıra komponentlərin, cümlələrin müəyyən şəkildə qurulmuş qarşılıqlı əlaqəsindən yaranır. Mətn öz tərkibinə müxtəlif quruluşlu cümlələr qəbul edir və bu müxtəlif strukturlu sintaktik vahidlər mətnin tərkibinə daxil edilərkən özlərinə məxsus struktur-semantik sərhədlərində əriyirlər (mətnin komponentləri funksiyasını yerinə yetirirlər). Mikromətn öz tərkibindəki komponentlərin sayına görə iki əsas növə ayrılır: 1) ikikomponentli mətn və 2) çoxkomponentli mətn.

Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə onu əhatə edən cümlələr birliyində, mətn mühitində struktur-semantik xüsusiyyətlərini tam şəkildə üzə çıxara bilir. Cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur.

Mətnin yaranmasının əsaslı qanunauyğunluqları vardır. Mətnin təşkili mexanizmi, qurulma texnikası ardıcıl gələn cümlələrdə semantik proqressiya ilə bağlıdır. Bu sahədəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra dil problemlərinin həllinə kömək edir, dilin funksional əhəmiyyətini daha ətraflı üzə çıxarır. (1, 93)

Mətn – möhkəm daxili struktur-semantik əlaqələri olan cümlələr birliyidir. Mətn sözü bir dilçilik termini kimi, müxtəlif mənalarda başa düşülür. Belə ki, mətnin linqvistik nəzəriyyəsinin işlənməsi müasir dilçiliyin inkişafının ümumi istiqamətlərindən biridir və mətn

nəzəriyyələri kommunikativ proses modelini qurmaq üçün zəruridir. Mətndə kommunikativ fəaliyyət zamanı ötürülən üç informasiya tipi mövcuddur: koqnitiv, dil və kommunikativ.

Koqnitiv informasiya-insanın fəaliyyəti nəticəsində əldə olunmuş və işarə sistemləri ilə sosial şəkildə ifadə olunmuş dünya haqqında bilikdir. Koqnitiv informasiyanın insan tərəfindən necə təsəvvür olunması, hafizədə saxlanması biliyə çevrilməsi və davranışa təsiri maraq doğuran sahədir. Koqnitiv informasiya, ilk növbədə, biliyin məzmunu ilə bağlıdır, o mətni göndərənin subyektiv təsirindən azaddır və buna görə də səmərəli praktik fəaliyyət üçün yararlıdır.

Dil informasiyası dünya haqqında dil vahidlərindəki informasiyadır. Bu informasiya həmin vahidlərin referensial, qrammatik və prakmatik vahidlərində mövcuddur. Dil informasiyasında əsas diqqət biliyin məzmunundan onun formasına yönəlir. Kommunikativ informasiya isə mətndə ifadə olunmuş müəllif fikri haqqında informasiyadır, yəni bu, yalnız mətn ötürücüsünün şüurundakı qeyri-dil obyektləri haqqında məlumat deyil, həmçinin onun əks olunan hadisəyə şüurlu şəxsi qiyməti, eləcə də onun hissləri, emosiyaları və s. haqqında məlumatı, yəni mətni ötürənin nəyi kommunikasiya predmeti etməyin vacib saydığını ehtiva edir. Kommunikasiya predmeti və yaxud nitq predmeti-lüğəvi mənasında predmetlik simasına malik mətn vahididir. Predmetin adları mətndə obyektiv reallığın konkret predmetlərini adlandıran identifikasiya funksiyasında və yaxud öz ümumiləşmiş semantikalarını saxlayaraq təsnifedici funksiyada çıxış edir. Mətnin məzmunu onun kommunikasiya aktında iştirak edənlər tərəfindən necə başa düşüldüyü və necə şərh olunduğu ilə təyin olunur. Başqa sözlə onların öz dil və koqnitiv bilikləri eləcə də kommunikasiya aktının həyata keçdiyi şərait nəzərə alınmaqla hansı informasiyanı bu mətndə əlaqələndirdikləri ilə bağlı məsələlər ön plana çıxır. (2, 123)

Kommunikativ aspektdə nəzərdən keçirilən dil vahidləri ən yüksək dəyərlər şkalası ilə qiymətləndirilir. Bu halda sırf praqmatik amil digərləri üzərində üstünlük təşkil edir. Doğrudan da, bütövlükdə dil və onun bütün elementləri şərti işarələr vasitəsilə aktual informasiyanın mübadiləsi yolu ilə sosial kollektivin üzvləri arasında əlaqə yaratmaq kimi müəyyən sosial vəzifənin yerinə yetirilməsinin təmin olunmasına xidmət edir. Dil vahidlərinin kommunikativ aspektdə təhlili yalnız bir meyarı, yəni kommunikativ səmərəliliyi ön plana çəkir. Mətn dil vahidi kimi qəbul olunmasa da, bu mənada istisna təşkil etmir. Dil kodunun hər hansı bir realizəsi kommunikativ səmərəlilik baxımından qiymətləndirilə bilər və qiymətləndirilməlidir.

Mətnin kontekstlə əlaqəsinə xüsusi diqqət ayıran C.Layonz qeyd edir: ”Mətnlər, məhsulları olduqları kontekstlərin tərkib hissələridir. Kontekstlər isə, öz növbələrində, müəyyən situasiyalarda yazıçıların yaradıcılığı olan mətnlərin vasitəsi ilə yaradılır və daimi olaraq transformasiyaya uğrayır” (5, 24).

N.Enkvist həmçinin mətnin ətraf həyat ilə bağlılığını önə çəkir: ”Mənaya malik olması üçün mütləq müəyyən real situasiya daxilində mövcud olmalıdır” (2, 36). Mətnin mənası yalnız onun eksplisit və implisit şəkildə təqdim olunmuş çalarlarını fon bilikləri ilə qarşılıqlı əlaqəsi sayəsində aktuallaşır. Beləliklə, mətnin formalaşması qanunauyğunluqları ciddi qaydalardan deyil, məhz mətnin özünün kommonikativ səciyyəsindən asılıdır. Başqa sözlə, mətn statik vahid deyil, sərhədləri müvafiq kommunikativ məqsədlə təyin olunan, hərəkətli kommunikativ vahid kimi özünü biruzə verir. Q.Kolşanski mətnin məhz bu baxımdan nəzərdən keçirir: “Hal-hazırda, bu faktı etiraf etmək zəruridir ki, həm real funksiyada həm də dilçilik tədqiqatında başlanğıc kommunikasiya aktı zamanı nisbətən bitmiş ünsiyyət parçası, ünsiyyətin koqnitiv, informasiya, psixoloji və sosial yükünü daşıyan və müəyyən qaydalara uyğun strukturlaşmış və təşkil olunmuş dil vahididir” (2, 89).

Bu aspektdə həsr edilmiş əsərlərin təhlili bizim fikrimizcə, bütöv mətndəki struktur əlamətlərin xarakterinə müəlliflərin verdiyi tərifin mübahisəli olduğunu göstərir. Bir tərəfdən, bütöv mətn cümlə ilə müqayisədə yüksək və öz əlamətlərinə görə ondan fərqli sintaktik vahid kimi nəzərdən keçirilir, digər tərəfdən – bütöv mətnin strukturu mahiyyətcə öz aralarında əlaqəli olan cümlələrin sadə toplusu kimi müəyyənləşdirilir.

Düşünmək olar ki, əgər bütöv mətn öz strukturuna malik sintaktik vahid hesab edilirsə, onda hər şeydən əvvəl həmin strukturun məhz bütöv mətn üçün xarakterik olan və onu başqa səviyyənin vahidi kimi cümlənin strukturunda fərqləndirən spesifikası göstərilməlidir. Əgər bütöv mətnin məhz bu spesifikası üzə çıxarılıb müəyyənləşdirilməyibsə, onda o, keyfiyyətcə xüsusi bütöv bir mətn kimi deyil, məhz bir-birilə öz aralarında dil vahidi-cümlənin müxtəlif tip sintaktik əlaqələri vasitəsilə bağlanmış nitq axını kimi meydana çıxacaq. Mətn dilçiliyinin inkişafı, xüsusilə bizim mətnlər vasitəsilə kommunikasiya aktını həyata keçirməyimiz, eləcə də bir cümlədən ibarət mətnin mövcudluğu ilə bağlı fikirlər cümlədən sonrakı struktur vahid kimi məhz mətnin nəzərdən keçirilməsi vacibliyini irəli sürür.

Mətnin strukturuna baxış. Bəzi müəlliflər onun xətti xarakterini qeyd edir və mətnə, bir-birilə müxtəlif vasitələr və müəyyən qaydalar ilə bağlanmış cümlələrin xətti ardıcıllığı kimi tərif verirlər. Digərləri isə, mətnin yalnız xaricən cümlələrin xətti ardıcıllığı kimi təşkil olunduğunu xüsusi vurğulayaraq göstərirlər ki, bu səciyyə çoxölçülüdür. Onların fikrincə, mətnin yalnız cümlələrin öz aralarında əlaqələnmiş ardıcıllığı kimi müəyyən edilməsi kifayyət deyil. Şübhəsiz ki, komponentlərin qarşılıqlı əlaqəsinin təsviri zamanı ola bilsin ki, mətn strukturunun relevant əlamətləri qeyd edilsin, lakin burada göstərilmir ki, müəyyən cümlələrin məhz məna ardıcıllığı ifadə etməsi, yəni mətn kimi qavranılması üçün zəruri şərtlər hansılardır. Mətnin strukturunun belə hərtərəfli tədqiqi mətndəki əlaqəliliyin xətti xarakteri haqqındakı fikri qismən təkzib edir və belə bir nəticəyə gəlməyə imkan verir ki, mətn qarşılıqlı əlaqəli amil və elementlərdən ibarət olan kompleks çoxölçülü birləşmədir.

Müşahidələr göstərir ki, mətn struktur əlamətlərin müəyyən məcmusuna malik bir sıra hissələrdən ibarətdir. Fikrimizcə, cümlənin özünün onu təşkil edən hissələrin əsasında tədqiq edilməsi mətnin funksional-üslubi və kompozisiya xüsusiyyətlərini, üslubi potensialını, praqmatikasını tam və hərtərəfli şəkildə müəyyənləşdirməyə imkan verir. Bunu isə ayrı-ayrı cümlələrin təhlilinə əsaslan- maqla etmək olmaz, çünki onların strukturu və xüsusiyyətləri mətnin müxtəlif funksional üslublarda spesifikasını və onun daxilində müxtəlif üslubi vasitələrin istifadə imkanlarını üzə çıxara bilmir. Nəticə etibarilə mətnin təhlili üç əsas amilə - struktur (formal), semantik (məzmun) və kommunikativ (funksional) söykənir.

Keçən əsrin 80-ci illərində mətnin linqvistik nöqteyi-nəzərindən struktur təhlili onun bir neçə, nisbətən azsaylı cümlələri və yaxud məna münasibətlərilə birləşmiş başqa komponentləri arasındakı əlaqələri öyrənməklə məhdudlaşıb. Belə ki, mətni adekvat şəkildə başa düşmək üçün onun hüdudları kənarına çıxan cümlələrarası əlaqəni izləmək zəruridir. Bununla bağlı tədricən mətnin normal əlaqəliliklə yanaşı (koheziya), məntiqi əlaqəlilik (koherentlik) sayəsində formalaşdığı fikri üstünlük qazanmışdır.

Mətnin struktur bütövləşməsini təmin edən koheziya bir sıra amillərin yardımı ilə reallaşır. Praktik olaraq dilin istənilən səviyyəsi koheziya üçün nə isə verir. Və bu münasibət-lər arasında iki ən ümumiləşdirici qrupu ayırmaq lazımdır. Bunlardan biri mətn komponentləri arasında xətti ardıcıllıq, digəri isə komponentlərin nəzəri çoxluq kəsişməsi münasibətləri, yəni onların daxili strukturunda bir-birini eksplisit və yaxud implisit təkrar edən element və təzhürlərin mövcudluğundan ibarətdir. Qeyd etmək lazımdır ki, mətndəki komponentlər arasındakı həmin münasibətlər əsas etibarı ilə çox sıx və bir-birinin içinə girmiş şəkildə özünü göstərir. Bu münasibətlər qarşılıqlı şəkildə intensional olaraq bir-birini tələb edir. Digər tərəfdən onların işləm məqamları mətnin ən müxtəlif səviyyələrinə aid olur. Bununla belə, özlüyündə, əlaqəlilik mətn qəbuledicisinə mətnin mənasının başa düşülməsi üçün kifayət deyil. Belə ki, komponentləri arasında çoxsaylı sıx əlaqələrə malik mətni formalaşdırmaq asan olsa da, onun başa düşülən olması və şərhi çətindir. Mətn çərçivəsindəki "əlaqəlilik" sadəcə sözlər arasında mövcud əlaqələrə əsaslanmır. Çünki mətni qəbuledənə məna bitkinliyinə malik mətni bu cür xüsusiyyətə malik olmayan formal əlaqəli dil parçasından ayıra bilmək imkanı verən amil mövcuddur. Hal-hazırda mətn dilçiliyi mətnlərin təhlili, formalaşması, təsnifatı, strukturu, eləcə də kommunikasiya prosesində mətnlərin funksiyalarını müəyyən

edən linqvistik və ekstralinqvistik səbəbləri tədqiq etməklə məşğul olur. Əslində bu məsələlərin tədqiqi mətn dilçiliyinin tədricən diskursiv təhlil ilə əvəzlənməsinə gətirib çıxarmışdır.

Artıq son onilliklərdə daha çox tədqiqatçı əsl qrammatik münasibətlərin cümlədən kənarda mövcud olması fikrini etiraf etməyə başlamışdır. ABŞ-da daha çox "diskurs təhlili" kimi tanınan, Avropada isə "mətn dilçiliyi" kimi qəbul olunan bu tədqiqat sahəsi A.Məmmədovun da qeyd etdiyi kimi dilçilik obyektləri arasında daha böyük parçalara, xüsusən də, mətnlərə aid olan anlayışlarla təyin oluna bilən münasibətlərlə məşğul olur (2, 38). Mətnlə, yəni müxtəlif cümlələr birliyi ilə bağlı hər hansı tədqiqata başlamazdan əvvəl mətn anlayışının özünün iki məqamda işlənəcəyinin nəzərə almaq lazımdır. K.Abdullayev qeyd edir ki, burada dilçiliyin obyekti olan mətni və mətn dilçiliyinin obyekti olan mətni bir-birindən fərqləndirmək lazımdır. Dilçilik nöqteyi-nəzərindən ən müxtəlif profilli mətnlər tədqiqata cəlb oluna bilər və onların təhlil edilmə aspektləri də müxtəlif ola bilər. Məsələn, hər hansı ədəbi mətn prinsip etibarilə həm sintaktik, fonetik, leksik və morfoloji aspektlərdən təhlilə cəlb oluna bilər. Ancaq mətnin özü də xüsusi struktur-semantik birləşmə kimi təhlil obyektidir və göstərilən problemin tədqiqi ilə mətn dilçiliyi məşğul olur (1, 179).

Mətn dilçiliyinin güclü inkişafının nəticəsində son illər ərzində dilçilik tədqiqatının tamhüquqlu obyektinə çevrilmiş mətnə müraciət dil vahidlərinin məzmun tərəfinin öyrənilməsi üçün geniş imkanlar açır. Belə ki, öz müxtəlif təzahür formalarında əqli prosesin qanunauyğunluqlarının əks etdirir.

Dilçilikdə mətnə hazır məhsul, nitq-əqli prosesin nəticəsi kimi baxılır. bir çox dilçilər, o cümlədən A.Məmmədov qeyd edir ki, "mətn" termininin bir neçə işləm növü vardır (3, 144). Bir tərəfdən mətn anlayışı, danışanın fikrinə əsasən, özündə bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir söyləmi (diskursu) təyin etmək üçün işlənir. Digər tərəfdən isə bu terminlə hekayə, roman, məqalə və s. kimi nitq əsərləri adlandırılır.

İ.R.Qalperin isə mətni "başlığa və müəyyən məqsədyönlüyə və praqmatik mərama malik leksik, qrammatik, məntiqi, stilistik əlaqələrin müxtəlif vasitəsilə birləşmiş bir sıra xüsusi vahidlr ilə birgə bitmiş və ədəbi işlənmiş nitq əsərini təşkil edən dil nişanlarının qaydalı və yazılı birliyi" kimi təyin edir (2, 18).

"Mətn" termininin təyini hələ də mübahisəli məsələlərdən biri olaraq qalır, bu məsələ dilçilər tərəfindən müxtəlik cür izah olunur. Bəzi alimlər yalnız yazılı mətnlərin mövcudluğundan danışırlar, bəziləri isə mətnin şifahi və yalnız monoloji nitqdə mövcudluğunu qeyd edirlər. Başqa bir qrup isə mətnə dialoji nitqdə istənilən nitq aktının reallaşması kimi baxırlar. H.Viddovsona görə isə "mətn dilin həqiqi elementlərindəndir və dilçilik tədqiqatının mücərrəd hissəsi olan cümlədən fərqlidir". Biz dilin bir parçası mətn kimi fərqləndiririk, belə ki, bu yalnız kommuikasiya məqsədi yaranır" (1, 4).

O.İ.Moskalskaya isə mətnin bölgüsünü belə təyin edir: 1) bütöv nitq əsəri-mətn, yəni sözün geniş mənasında mətn və yaxud makto-mətn, 2) mürrəkəb sintaktik bütöv – sözün kiçik mənasında mətn və yaxud mikro-mətn (4, 4).

Qeyd etmək lazımdır ki, makro-mətnin ayrılması və müəyyənləşməsi belə imkan verir ki, həmin makro-mətnə daxil təşkiledici komponentləri dəqiq şəkildə ayıraq və onların təbiətini adekvat şəkildə təhlil edək. Makro-tekstdən fərqli olaraq mikro-tekst əslində xüsusi linqvistik metodların köməyilə öyrənilə bilər. Dilçilik ədəbiyyatlarında mikrotekstlə yanaşı tekst, diskurs, abzas, frazafövqü vahid və s. işlənir. Qeyd etmək lazımdır ki, ümumi qəbul olunan fikir isə mətnin bir sıra vahidlərdən ibarət və əlaqəlilik, bitkinlik və daxili təşkil olunma təzahürlərinə malik spesifik bir quruluş kimi başa düşülməsidir. Bir çox dilçilər, o cümlədən, D.Boqranda hesab edir ki, mətni elə bir sintaktik kompleks ki, başq sintaktik kompleksin, yəni cümlənin nisbi qeyri-bitkinliyini, müəyyən semantik çatışmazlığını aradan götürür. Mətnin özü, beləliklə, mütləq məna bitkinliyini nümayiş etdirir. Bundan çıxış edərək, ele demək olar ki, mətn resipiyent tərəfindən semantik informasiyanı alma prosesində əsas faktor kimi çıxış edir (6, 39).

Bütün bu deyilənlər sintaktik səviyyənin daxilində mətn mövcudluğunun dəqiq və

məntiqi şəkildə əsaslanıdrılmasını zəruri edir. Burada belə bir sual ortaya çıxır ki, cümlənin semantik informasiya planındakı semantik çatışmazlığının əsl mahiyyəti nədən ibarətdir? İlk növbədə mətnin, sintaktik kateqoriya kimi, dil vahidi kimi öyrənilməsini əsaslandırmaq üçün cümlənin nitq vahidi kimi qeyri – müstəqilliyini sübüt etmək lazımdır.

K.Abdullayeva görə mətni də eyni ilə cümlə kimi başlanğıc, orta və son mərhələlər bölmək mümkündür. Mətnin başlanğıcı sanki, bütün mətn quruluşunun əsas, temantik düyününə çevrilir. Başqa sözlə, başlnğıc cümlənin quruluşundakı mübtədanın yerinə yetirdiyi funksiyanı yerinə yetirir. Mətnin başlanğıcı, adətən, ümumi girişlə xarakterizə olunur ki, bu ümumi girişdə bu mətnin qurulması proses boyu tədricən konkretləşdirilir.

Mətnin araşdırılması zamanı üzə çıxan tədqiqatlar müxtəlif tipli mətnlərə daha diferensial yanaşmlara gətirb çıxarmışdır. Belə ki, artıq mətnin sərhədlərinin kifayət qədər dəyişkən olması bir çox dilçilər tərəfindən qəbul edilmişdir.

N.Enkvist mətnə ən ümumidən ən xüsusiyə qədər dörd tərif vermişdir və onları belə bölmüşdür:

1) Mətn mənalı işarələrdən ibarət ardıcıllıqdır.
2) Mətn mənalı işarələrin ardıcıllığıdır.
3) Mətn təbii dildə mənlı işarələrdən ibarət olan ardıcıllıqdır.
4) Mətn təbii dildə mənalı işarələrin ardıcıllığıdır (3, 71).

N.Enkvist həmçinin mətnin həyatla bağlılığını ön plana çəkərək, qeyd edir ki, mənaya malik olması üçün mətn mütləq müəyyən real situasiya daxilində mövcud olmalıldır. Bir daha qeyd etmək lazımdır, mətn həm real fnkusiyada, həm də kommunikasiya aktı zamanı nisbətən bitmiş ünsiyyət parçası, ünsiyyətin koqnitiv, informasiya, psixoloji və sosial yükünü daşıyan və müəyyən qaydalara uyğun strukturlaşmış və təşkil olunmuş dil vahididir.

Ədəbiyyat

1. Abdullayev K.M.Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998, 284 s.
2. Məmmədov A.Y.Dilçiliyin müasir problemləri. Bakı , 2008, s, 38-56.
3. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələri sistemi. Bakı: Elm, 2001, 144 s.
4. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010, 96 s.
5. Cook G.Discourse Oxford University Press, 1996, 167 p.
6. De Beaugrande R. Text, Discourse and Process toward a multidisciplinary Science of text. London: Longman, 1980, p. 383-408.

А.Э.Алыева

Проблема структурно-семантической и коммуникативный организации текста в языкознании

Резюме

Известно, что лингвистика текста-молодая область науки. Интерес к этой области науки значительно выросло за последние 20 лет и стал значимым объектом серьезных исследований. Это не случайно. Важно исследовать текст как факт языка и речи, определить его границы. Семантическая и синтаксическая структура текста, которая является единицей анализа характеризует функцию сложных синтаксических условий.

A.E.Aliyeva

The problem of structural-semantic and communicative organization of the text in linguistics

Summary

It is known that,text linguistics is a young field of science.Interest in this field of science has increased significantly over the 20 years, has been the unequivocal object of serious research. This is

not accidental. It is important to explore the text as a fact of language and speech, to defermine its borders. Analysis of the semantic and syntactic structure of the text allows you to characterize the complex syntactic function with its unit.

Rəyçi: dos. A.X.İsayeva

Redaksiyaya daxil olub: 24.05.2022

M.M.ASLANOVA
baş müəllim

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

B.VAHABZADƏNİN ŞEİRLƏRİNİN DİLİNDƏ ÇOXMƏNALI SÖZLƏR VƏ OMONİMLƏR

Açar sözlər: *leksik-semantik söz qrupları, çoxmənalı sözlər, omonimlər*
Ключевые слова: *лексико-семантические группы слов, многозначные слова, омонимы*
Key words: *lexico-semantic groups of words, polysemantic words, homonyms*

Hər bir görkəmli sənətkarın ədəbi dilin təkmilləşdirilməsində, onun lüğət tərkibinin zənginləşməsində özünəməxsus yeri vardır. Belə qələm ustadlarından biri də Azərbaycanın xalq şairi, akademik Bəxtiyar Vahabzadədir. Xalqın həyatını, keçmişini, bugününü dərindən bilən, onun gələcəyini ürək yanğısı ilə düşünən şairin poeziyası dilin əsl mahiyyətini, onun təsir gücünü araşdırmaqdan ötrü zəngin materialdır. Şair dilimizin incəliklərindən – sözdən böyük məharət və incə zövqlə istifadə edərək mükəmməl şeir inciləri yazmışdır.

Dağın zirvəsində saçaqlanan gün,
Qızıl tellərini səpir çəmənə,
Yenə səhər-səhər görüşmək üçün
Gendən əl uzadır yarpaqlar mənə. (4, s. 140)

B.Vahabzadənin Azərbaycan dilini zəngin və imkanlı bir dil kimi qiymətləndirir. O, "Dilimiz – ədəbiyyatımız" məqaləsində az sözlə dərin mənalar ifadə edən bayatılardan yazır: "Az sözlə böyük fikirlər ifadə edən şeir növünü yalnız zəngin və imkanlı bir dil yarada bilər; Bu faktlar özü də bizim dilimizin dünyanın zəngin dilləri ilə yanaşı olunduğunu təsdiq edir".

Bu dil – bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil – bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil – əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz hədiyyə verək. (4, s. 35)

Ana dilini bütün varlığı ilə sevən, onu yad ünsürlərdən qoruyan, hər kəsi buna səsləyən şair özünü dilin namusunu qoruyan əsgər hesab edir.

Vətən dildir, dil vətən
Ayırmaq mümkünmüdür
Onları bir-birindən?
Deyirəm ən adicə
Bir vətənpərvərəm mən
Dilimin namusunu
Qoruyan bir əsgərəm mən. (4, s. 20)

Xalq şairi "Ana dili", "Mənim anam", "Latın dili", "Dil-vətən" və s. şeirlərində, "İstiqbal", "Gülüstan", "Şəbi-hicran" poemalarında açıq və dolayı şəkildə ana dili məsələlərinə toxunmuş, dilinə laqeyd olanları, "öz doğma dilində danışmağı ar bilən ədabazları" tənqid atəşinə tutmuşdur.

B.Vahabzadənin öz fikirlərini hansı formada ifadə etməsinə baxmayaraq yaradıcılığının əsas mahiyyətini ümumxalq dilinin zəngin qaynağı təşkil edir.

Dilimizdə ən sadə və işlək sözlərin əksəriyyətini çoxmənalı sözlər təşkil edir. Sözün bir neçə mənada işlənməsi anlaşılmazlıq yaratmır, əksinə yeni ifadələrin yaranmasına xidmət edir.

Sənətin, ilhamın, eşqin gur səsi
Qorxaq ürəklərdən niyə ***gen düşür****?*
Ehtiyat güdəndə, sözün gülləsi,
Həmişə hədəfdən ***didərgin düşür****. (5, s. 33)*

"Düşmək" feilinin rəngarəng məna çalarları müxtəlif şeirlərdə sənətkar tərəfindən məharətlə verilmişdir.

Mənim sevgilimin payıza çatmış
Xınalı saçları ***yadıma düşdü****. (5, s. 54)*

Hər bir sənətkarın istedadı, bacarığı onun sözə fərdi məna verə bilmək qabiliyyəti ilə ölçülür. B.Vahabzadə də sözü hamının işlətdiyi mənasından uzaqlaşdıraraq fərdi ifadələr yaratmaqla dil tariximizdə özünəməxsus yer tutmuşdur:

Ürəklərə yolaçan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara ***yol açmış***
Dərdlərdən söz açan dərdli sözlərin
Ayrılıq dərdinə dərman olubdur. (5, s. 94)
...
Özüm tel olaydım, ***açaydım qanad.*** *(5, s. 95)*

Göründüyü kimi, bu nümunələrdə "**açmaq**" sözü müxtəlif mənalarda işlənmişdir. Bir sözün təkrar işlədilməsi şeirin dilini korlamır, çünki hər dəfə yeni bir mənada işlənir ki, bu da şeirin dilinə bədiilik, gözəllik verir.

Çoxmənalı sözlər daha çox feil, isim və sifətdən ibarət olur ki, şairin şeirlərinin dilində də onları müşahidə etmək mümkündür.

Elə bil şeh çilənmiş
Üstünə ***ağ çiçəyin.*** *(5, s. 191)*
...
Ağ evdə *düşünən var millətin halını. (5, s. 204)*
...
Yarpaqsız ağaca, bənzərimiz var,
Quru budaqları *tərk etdi quşlar. (4, s. 232)*
...
Dünya ***quru bir səs***
Qəm çəkməyə dəymək. (4, s. 49)
...
Qızıl vaxtı *xərclədikcə*
Sən idrakın göylərində
hansı ***qızıl qata*** *çatdın? (5, s.77)*
...
Cavanlıq gətirdi qoca ölkəyə,
Bir günün içində ***qızıl inqilab.*** *(5, s. 191)*

B.Vahabzadə fikrini, düşüncəsini, hisslərini ifadə etmək üçün söz axtarışında çətinlik çəkən şair olmamışdır. O, eyni sözü müxtəlif birləşmələrin tərkibində çox ustalıqla işlədərək müxtəlif leksik vahidlər yaratmışdır.

Qəlbinə yaxşı bax,
Qəlbin *çox* ***soyuq****! (4, s. 151)*
...
Gözü buz bağlayan bulaqlar kimi,
Soyuq adamın da qəlbi kor olur. (4, s. 151)

Omonim sözlər ədəbi, bədii yaradıcılıqda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir. Sənətkarlar omonimlərin vasitəsilə dildə ahəngdarlıq, musiqilik yaradır.

Ürəyimdə bu dünyanın
Möhnət dağı, ağrı dağı!
Bu dağların ağrısına
*Dözə bilməz **Ağrı dağı**. (4, s. 65)*
...
***Zaman** keçdi,*
*Zəmanəmdə "Qırat", "Dürat", "**Zaman**" oldu. (4, s. 107)*

Birinci nümunədə "**ağrı**" sözü əzab-əziyyətlərin çoxluğu və dağın adı mənalarında, ikinci nümunədə "**zaman**" sözü vaxt, müddət və ata verilmiş ad kimi işlənmişdir.

Omonimlər bədii ədəbiyyatda əvəzedilməz dil vahidləridir. Zahirən biri digərinə bənzəyən bu sözlərin bədii üslubda işlədilməsi, qarşılaşdırılması şeirin dilindəki ahəndarlıq və səlisliyi artırır, mənanı qüvvətləndirir, oxucunun diqqətini ifadə edilən fikrə cəlb edir.

"Həqiqi sənət nümunələrində eyni səs tərkibli leksik vahidlər poetik mənanın arxa plana keçməsinə yol vermir, əksinə, fonetik cild etibarilə eyniyyət təşkil edən sözlər öz obrazlı mahiyyətini gözəl poetik formalarda yeni məzmunu ifadə etmək mütəhərrikliyini büruzə verir". (4, s. 42)

Səhərdən bu yerə səfərdəyik biz
*Maşın da adamlar **tək** yorulur yəqin. (4, s. 54)*
...
*İtkin düşən **tək** qardaşım gələ bilər (4, s. 105)*

Omonim sözlər əsas məna ilə yanaşı, sözün tamamilə yeni mənada işlənməsi əsasında yaranır. Belə ki, dildəki bir qrup ümumi isimlər xüsusi isimlərə keçərək omonim əmələ gətirir.

*Ürəyimdə **Sarı** dağdan enən daşın*
səsi dindi. (5, s. 109)
...
*Bilirəm, bu ağdır, bu boz, bu **sarı.** (5, s. 102)*
...
*Baxdı qəfəsdəki bülbülə **sarı** (5, s. 171)*
...
*Nəvainin **şirin-şirin** sözləri*
Körpü saldı Cığataydan Oğuza (5, s. 48)
...
Bacar, qızım,
*Leyli kimi, **Şirin** kimi sevməyi sən. (5, s. 77)*

Bir sıra omonimlər morfoloji yolla, yeni söz düzəltməklə yaranır. Müxtəlif nitq hissələrinə aid olub, lakin müxtəlif qrammatik formalarda eyni şəkildə səslənən bu sözlərə morfoloji omonim deyilir.

***Gələcək** illərə ərmağan kimi,*
Xandan saray qaldı, Fətəlidən söz. (5, s. 40)
...
*Cavanlar **gələcək**, cavanlar ancaq,*
Bugünkü məclisin sənə dəxli yox. (5, s. 304)
...
*Mən sənin həm **atan**, həm anan oldum*
Axırda beləcə aldanan oldum. (5, s. 305)
...
Güclünü qaldıran çiyinlərinə,
*Gücsüzü çiynindən **atan** dünyadı. (5, 318)*

Nümunələrin birincisində "**gələcək**" sözü feildən düzələn isimdir. İkincidə isə qəti gələcək zaman şəkilçisi qəbul etmiş feildir. Üçüncü nümunədə "**ata**" sözünə II şəxsin mənsubiyyət şəkilçisi artırılmışdır. Dördüncü misalda isə **atmaq** feilinə feli sifət şəkilçisi artırılmışdır.

Şeirin bədii mətninin mənimsənilməsində, oxuyuca aydın çatdırılmasında omonimlərin, ona oxşar çalarlarının işlədilməsi B.Vahabzadə yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir.

Sən sevgi dənizi, mənsə bir ***ada***
Könlümü bağladım yalnız bir ***ada****. (5, s. 260)*
...
Kal alma kimi üzü torpağa ***düşüncə****,*
Gördüm ki, yatır hər otun altında ***düsüncə****. (5, s. 104)*
...
Gəlin*, cizgiləri könüldən silək,*
Hüdudsuz göylərə baxaq, dincələk. (5, s. 60)
...
Gəlin *nə dedisə ər qulaq asdı. (5, s. 309)*

Omonimlər bədii dildə – şeirdə bədii təsvirin ifadələrində böyük əhəmiyyət daşıyaraq oxucuda, dinləyicidə emosional ruh yaradır, nitqin obrazlılığını təmin edir.

Sən hardan biləsən, gözün ləzzəti
Qəlbin ağrısına dönür bu ***yaşda****. (5, s. 128)*
...
Mən sənin oduna yaş ağac kimi,
Asta cızıldayıb asta yanırdım. (5, s. 284)
...
İndi gözlərin aydın, ***dil*** *dodaqla görüşdü,*
Dilin *kitaba düşdü, dilin qəzetə düşdü. (5, s. 210)*

Ədəbiyyat

1. Alməmmədova S. B.Vahabzadə poeziyasının dili. Bakı, 2010.
2. Həsənov A. Azərbaycan dilinin leksikası. Bakı, 1988.
3. Hüseynov M. Poeziya dilində omonimlərin üslubi ifadə tərzi. Bakı, 2010.
4. Vabahzadə B. Seçilmiş əsərləri. II cilddə. Bakı, 2004.
5. Vahabzadə B. Payız düşüncələri. Bakı, 1981.

M.M.Асланова

Многозначные слова и омонимы в языке стихов Б.Вахабзаде

Резюме

Применение различных групп слов в художественном стиле и их уместное использование показывает творческое использование языка художниками и мастерство. Язык произведений Б.Вахабзаде сочетает в себе основные черты его индивидуального творческого стиля. Лексические пласты в стихотворениях поэта отличаются друг от друга по содержанию и значению, каждая лексическая единица отличается своим лексико-семантическим значением, образностью, эмоционально-экспрессивными качествами.

M.M.Aslanova

Polysemous words and homonyms in the language of poems by B.Vahabzade

Summary

The use of different groups of words in the art style and their appropriate use shows the artists creative use of language and artisanship. The language of B.Vahabzade's works of literature combines the main features of his individual creative style. Lexical layers in the poet's poems differ from each other in content and its lexical-semantic meaning, figurativeness, emotional and expressive qualities distinguish meaning, each lexical unit.

Rəyçi: dos. Ç.H.Məmmədova
Redaksiyaya daxil olub: 24.05.2022

S.N.ASLANOVA
e-mail: aslanova-saadat@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

TERMİNOLOJİ LÜĞƏTLƏR VƏ ONLARIN TƏRTİBİ PRİNSİPLƏRİ

Açar sözlər: *terminologiya, lüğət tərkibi, alınma söz, lüğət maddəsi, tərtib etmək*
Ключевые слова: *терминология, словарный состав, заимствованное слово, словарная статья, составлять*
Key words: *terminology, dictionary content, borrowed word, dictionary entry, to compile*

Hər bir dilin lüğət tərkibi xalqın tarixini, mədəniyyətin inkişafındakı rolunu əks etdirir, onun varlığını yaşadır. Hər bir dildə lüğətin yaradılması həmin dildə danışan xalqın mədəni həyatında mühüm hadisə kimi dəyərləndirilməlidir. Lüğət hansı dildə yaranırsa-yaransın, o normativ bir lüğət olmalıdır. Bu, o deməkdir ki, lüğətdə əks olunan söz və terminlər düzgün işlədilməli, məna və məna çalarları verilməlidir. Lüğətlər tərtib edilərkən həm elmi-nəzəri, həm də əməli-tətbiqi cəhətləri nəzərə alınmalı, lüğət materialı lazımınca toplanılmalı, sistemə salınmalı, dəqiqləşdirilməli, sonra isə leksikoqrafikaya daxil edilməlidir.

Dilin lüğət tərkibini, əsasən, neytral sözlər təşkil edir və onlar üslubi xarakter daşıyır. Terminologiyada da terminlər həmişə neytral söz kimi fəaliyyət göstərir, çünki onların işlənmə sahəsi də məhdud deyildir. Onlar neytral söz kimi həm də üslubi mahiyyət daşıyır.

Lüğət tərtib edilərkən, birinci növbədə, sözlük məsələsini həll etmək lazımdır. Belə ki, sözlərin seçilib verilməsi həmişə polemika doğurur. Sözlük hər hansı bir lüğətə daxil edilən söz və ifadələrin siyahısı deməkdir.

Bütün dillərdə olduğu kimi Azərbaycan dilində də terminoloji lüğətlərin tərtib edilməsi dilçilikdə hazırkı dövrdə ən inkişaf etmiş sahələrdən biridir. Terminoloji lüğətləri izahlı lüğətlərin terminoloji sözlüyünün tərtibi üçün əsas amil hesab etmək olar.

Terminoloji lüğətlərin tərtibi məsələsində mübahisə doğuran fikirlər mövcuddur. Belə ki, M.İsmayılova terminoloji lüğətləri tərtib olunduqları dilə görə iki əsas qrupa bölür: 1. Birdilli; 2. çoxdilli terminoloji lüğətlər (5, s. 162).

Müəllif daha sonra birdilli lüğətlərin tərtibində aşağıdakı halları qeyd edir: 1. Sözlüyə daxil ediləcək terminlərin seçilməsi; 2. Sözlüyün verilməsi prinsiplərinin işlənməsi; 3. Lüğət maddəsinə daxil ediləcək məlumatların siyahısını hazırlamaq; 4. Lüğət maddəsində məlumatın verilməsi formasını müəyyənləşdirmək: 5. Lüğət maddəsində müxtəlif xarakterli məlumatların düzülmə ardıcıllığının müəyyənləşdirilməsi: 6. Lüğət maddəsində istifadə ediləcək işarə və ayırmaların (kursivlərin) təyini; 7. Lüğət maddəsinin birindən digərinə istinadən verilməsinin səbəblərini və yollarını müəyyənləşdirmək; 8. Lüğətdə əlavənin verilməsi məsələsini həll etmək; 9. Lüğətin tərtibində istifadə edilmiş ədəbiyyat siyahısının verilməsinin vacibliyini müəyyənləşdirmək; 10. Lüğətdən istifadə qaydalarının hazırlanması; 11. Lüğətə aid statistik məlumatların çıxarılması (2, s. 167).

A.Qurbanov lüğətlərdən bəhs edərkən onları məzmun və xarakterinə görə iki hissəyə bölur: a) ensiklopedik lüğətlər; b) filoloji (dilçilik) lüğətlər (4, s. 8).

Müəllif tərcümə lüğətlərinin iki növünü göstərir: iki və çoxdilli (4, s. 121).

H.Həsənov isə lüğətləri məzmun və xarakterinə – sözü və ya məfhumu necə izah etməsinə görə beş qrupa bölür: 1. “Filoloji lüğətlər”. 2. “İdeoqrafiya lüğətləri”. 3. “Ensiklopedik lüğətlər”. 4. “Tədris lüğətləri”. 5. “Tezlik lüğətləri” (1, s. 248).

S.Sadıqova “Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı” adlı monoqrafiyasında yazır: “Fizika-riyaziyyata aid nəşr olunan terminoloji

lüğət"ləri qarşıya qoyulan məqsədlə əlaqədar, əsasən, üç qrupa ayırmaq olar: 1. İkidilli terminoloji lüğətlər; 2. Çoxdilli terminoloji lüğətlər; 3. İzahlı terminoloji lüğətlər (3, s. 16).

Terminoloji lüğətlərin tərtibi haqqında fikirləri yekunlaşdıraraq belə bir qənaətə gələ bilərik ki, S.Sadıqovanın bölgüsü daha münasib, daha düzgündür. Çünki birdilli terminoloji lüğət dildə, demək olar ki, yoxdur. Belə ki, birdilli lüğət hər hansı bir dil götürüldükdə, onun orfoqrafiya sözlüyü nəzərdə tutulur. Ancaq terminologiya sahəsində orfoqrafiya nöqteyi-nəzərindən hələ indiyə qədər elə bir lüğət mövcud deyildir. Buna görə də terminologiyada "birdilli lüğət" ifadəsini işlətmək doğru deyildir.

İzahlı lüğətlər ikidilli və çoxdilli lüğətlərə nisbətən dilimizdə azlıq təşkil edir. Bu cür lüğətlərə aşağıdakıları misal göstərmək olar: M.Məhərrəmovun "İzahlı psixoloji lüğət" (Bakı: ADU, 1960), O. Osmanov və B. Abdullayevin "Məktəblinin izahlı coğrafiya lüğəti" (Bakı, Maarif, 1979), "Elmi məlumat nəzəriyyəsi və təcrübəsi üzrə izahlı terminologiya lüğəti" (Bakı: Az ET. 1966), "Məktəblinin fizika lüğəti" (Bakı: Maarif, 1976), S. Babayevanın "Azərbaycanca-rusca və rusca-azərbaycanca arxiv terminləri lüğəti" (Bakı: 1998), S. Sadıqovanın "Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti" (Bakı: Elm, 1998), "Xarici iqtisadi əlaqələr (terminlər) lüğəti" (Bakı: Azərbaycan. 1991). N. Sevidəlivevin "Dini terminlər lüğəti" (Bilik, 1996). R. Əfəndi və K. Əliyevanın "Azərbaycanın xalça və xalçaçılıq terminləri lüğəti" (Bakı; Elm, 1998), Z. Verdiyevə. F. Ağayeva. M. Adilov "İzahlı dilçilik terminləri" (Bakı: Maarif, 1989).

Araşdırmalar göstərir ki, terminologiya sahəsində hazırda çoxdili və ikidilli lüğətlər daha geniş yayılmışdır. Azərbaycan dilinin terminologiyasında da bunun şahidi oluruq.

Göründüyü kimi, terminoloji lüğətlərdə üç, dörd, beş və daha çox dilə məxsus terminlər əhatə olunmuşdur. Adıçəkilən terminoloji lüğətlərdən də məlumdur ki, çoxdilli terminoloji lüğətlərin sözlüyü, əsasən, dünya dilləri arasında xüsusi yeri olan rus dili və milli dillər arasında tərtib edilmişdir. Həmin lüğətlərdə, əsasən, aşağıdakı ümumi prinsiplər nəzərə alınmışdır:

1. Sahə terminlərinin ekvivalenti bəzi hallarda Azərbaycan dili ilə yanaşı beynəlxalq dildə də verilmişdir.

2. Əcnəbi terminləri ifadə edərkən milli dilimizə uyğunlaşdırılmış sinonim sözlərdən də istifadə edilmişdir.

3. Bütün lüğətlər tərcümə prinsipinə əsaslanmışdır.

4. Söz və ifadələr çox yerdə kalka üsulu ilə verilmişdir.

5. Bütün sözlüklər əlifba sırası ilə verilmişdir.

Terminoloji lüğətlər içərisində ən geniş yayılanı ikidilli lüğətdir. Bunların da əksəriyyəti, əsasən, rusca-azərbaycanca terminoloji sözlüklərdən ibarətdir.

İrihəcmli ingiliscə-azərbaycanca lüğətlərin olmasına baxmayaraq, təəssüf ki, ingilis dilinin bu cür inkişaf edib yayıldığı bir vaxtda indiyə kimi texnikaya dair ingiliscə-azərbaycanca və yaxud da azərbaycanca-ingiliscə terminoloji lüğətlər tərtib edilib çap olunmamışdır. Lakin rusca-ingiliscə və ingiliscə-rusca belə lüğətlərin sayı çoxdur. Hətta onların bir neçəsinin adlarını da çəkə bilərik. Məsələn, təkcə "Англо-русский политехнический словарь" kitabı Moskvada beş dəfədən çox nəşr olunmuşdur: hər dəfə də təkmilləşdirilmiş şəkildə. Lüğətlərdə bütün terminlər, onların hər bir mənası (hansı çoxmənalıdırsa) və hər bir mənanın ayrı-ayrılıqda söz-termin birləşmələri lüğətdə əlifba-yuva üsulu ilə verilmişdir. Mürəkkəb terminlər əsas sözün yuvasında öz əksini tapmışdır.

Hər bir yuvada əsas termindən sonra onun feili birləşmələri, həmin terminlə başlanan mürəkkəb terminlər, nəhayət, əsas terminin ikinci, yaxud üçüncü yerdə duran formaları yerləşdirilmişdir. Hər bir yuvanın terminləri də öz növbəsində əlifba sırası ilə düzülmüşdür.

Terminoloji lüğətlər hazırlanarkən, adətən, iki prinsip üzrə iş aparılır: 1) terminləri toplamaq, seçmək, dəqiqləşdirmək, unifikasiya etmək, sonra isə əlifba-yuva prinsipini ona tətbiq etmək.

Fikrimizcə, termin-söz birləşmələrinin toplanıb əlifba-yuva üsulu ilə verilməsi ən əlverişli üsuldur. Çünki nəzərdə tutulan termindən yaranan bütün söz-termin birləşmələri burada öz əksini yaxşı tapır.

Lüğət tərtib edilərkən nəzərə almaq lazımdır ki, sözlüyə Azərbaycan dilinin özünəməxsus söz və terminlərindən əlavə, dilimizə keçmiş bir çox alınmalar da (ərəb, fars, rus və Avropa mənşəli söz və terminlər) daxil edilməlidir. Həmin söz və terminlərin də bəziləri çoxmənalı sözlərdir, onların da mənaları və məna çalarları müvafiq surətdə təsnif olunmalıdır. Terminoloji lüğət üçün göstərilən hər iki prinsip əsasdır və onlar bir-biri ilə vəhdət təşkil edir.

Ümumiyyətlə, ingiliscə-azərbaycanca və yaxud azərbaycanca-ingiliscə texniki terminlər lüğəti tərtib edilərkən aşağıdakı prinsipləri nəzərə almaq lazımdır:

1. Lüğət yalnız texniki elmlərin müasir dövr üçün inkişaf səviyyəsini özündə əks etdirməlidir; 2. Sözlük dəqiqləşdirilməli, lüğətlər üçün mövcud terminlərdən ən müvafiqi, vacibi ehtiva edilməlidir; 3. Müəyyən bir anlayış dildə olan dublet sinonimlə ifadə olunmalıdır. Bu vaxt özündən söz quraşdırmaq, özündən lüzumsuz söz, yaxud termin uydurmaq olmaz; 4. Əcnəbi dillərdən alınmış və həmin dildə vətəndaşlıq hüququ qazanmış texniki terminlər lüğətdə öz əksini tapmalıdır. Termində heç bir dəyişiklik edilməməlidir; 5. Alınma söz və terminler tərcümə olunan dildə həmin sözün ekvivalenti olarsa, ondan istifadə olunmalıdır; 6. Tərcümə olunması mümkün olmayan termin mənbə dildə olduğu kimi saxlanmalıdır; 7. Tərcümə prosesində tərcümə olunan dilin qrammatik qayda-qanunlarından geniş istifadə olunmalıdır; 8. Tərtib olunmuş hər hansı bir lüğət "yuva" üsuluna əsaslanmalıdır; 9. "Yuva" üsulu ilə tərtib olunan lüğətdə ümumi kökdən düzələn sözlər, yaxud terminlər "yuvalarda" – yəni fəqərələrdə qruplaşdırılır və hər bir lüğət maddəsinin başlığı və ya digər kökdən (kök sözdən) ibarət olur. "Yuva" üsulu ilə yerləşdirilən sözlərin bir-biri ilə əlaqəsi və yaxınlığı daha çox hiss olunur və nəzəri tez cəlb edir.

Göründüyü kimi, bu proseslər sözalmanın səbəblərini, mənbələrini, alınma yollarını, tiplərini və formalarını, eləcə də alınmalarda baş verən semantik dəyişmələri ətraflı öyrənməyə imkan verir.

Ədəbiyyat

1. Həsənov H. Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1998, 306 s.
2. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı: Nurlan, 2000, 268 s.
3. Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı: Elm, 1973, 186 s.
4. Qurbanov A.M. Azərbaycan lüğətçiliyinə dair. Bakı, 1992. 40 s.
5. Бабкин А.М., Шендецов В.В. Словарь иноязычных выражений и слов. Л.: Наука, 1981, 696 с.

С.Н.Асланова

Терминологические словари и принципы их составления

Резюме

Развитие терминологии напрямую связано с бурным развитием научной мысли, связанных с ней видов деятельности, науки и техники, информатики и вычислительной техники. Классификация и систематизация технических терминов имеет важное значение в нормализации научно-технической терминологии. Именно на основе классификации определяются факторы усвоения терминов в языке-рецепторе, овладения материальной формой полученной лексической единицы путем приближения к фонетическим, графическим, грамматическим и лексико-семантическим характеристикам языка-получателя. В настоящее время научно-технические достижения, в том числе высокий уровень развития информационных технологий, приводят к использованию этих технологий в различных областях, появлению в языке новых терминов и составлению терминологических словарей исходя из этого требования.

S.N.Aslanova

Terminological dictionaries and principles of their compilation

Summary

The development of terminology in linguistics is directly related to the rapid growth of scientific thought, related activities, science and engineering, computer science and computer technology. Classification and systematization of technical terms is important in the normalization of scientific and technical terminology. It is on the basis of classification that the factors of assimilation of terms in the receptor language, acquiring the material form of the obtained lexical unit by approaching the phonetic, graphic, grammatical and lexical-semantic characteristics of the receiving language. At present, scientific and technical achievements, including the high level of development of information technology, lead to the use of these technologies in various fields, the emergence of new terms in the language and the compilation of terminological dictionaries based on this requirement.

Rəyçi: f.f.d. S.Məmmədova

Redaksiyaya daxil olub: 22.04.2022

A.M.BAYRAMOVA
filologiya elmləri doktoru, dosent
e-mail: aytenbayramova@rambler.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

DİLDƏ MƏKAN MÜNASİBƏTLƏRİNİN VERBALLAŞMASI

Açar sözlər: *verballaşma, məkan, hal kateqoriyası, sözönü, dil hadisəsi, məkan münasibətləri*
Ключевые слова: *вербализация, пространство, категория падежа, предлог, языковой феномен, пространственные отношения*
Key words: *verbalization, space, the category of case, preposition, language phenomenon, spatial relations*

Dialektik materializmdən məlumdur ki, h*ərəkət, məkan* və *zaman* materiyanın mövcudluq formalarıdır və insan şüurundan asılı deyildir. Hərəkət zaman çərçivəsində məkan daxilində baş verir. Bu atributlar həyatın, yaşamın, gerçəkliyin varlıq, mövcudluq formasıdır.

Maddi aləm, ətraf mühit, təbiət insan cəmiyyətlərinin, toplum və xalqların dünyagörüşü, həyata baxışı, mentalitet, məişət və mədəniyyətinə təsir edən əsas amillərdir. *Meşə, dağ, dəniz, səhra, çöl, cəngəllik, savanna, buzlaqlar, flora, fauna* insanın əmək və məişət tərzini müəyyən edən, şərtləndirən təsirlərdəndir.

Y.S.Stepanov məkanı qavramağa etnosun yaşadığı ərazinin quruluşunun, bu etnosun milli-mədəni xüsusiyyətlərinin təsiri barədə yazmışdır: "…məkana münasibət insan davranışının normalaşmış aspektidir. Müxtəlif milli mədəniyyət mühitdə tərbiyə almış şəxslər məkana onların ölkələrində qəbul edilmiş modelə (patterns) uyğun şəkildə yanaşırlar. (15, s. 64) Məkanın ölçüləri vardır. İnsan məkanı üçölçülü fəza kimi qavrayır. Bununla belə uzunluq (məsafə), sahə və həcm ölçüləri vardır və onlar kəmiyyətlə qiymətləndirilir. Məkanın təşkilindəki fərq yalnız bununla məhdudlaşmır. Məsələn, Yaponiyada küçələrin kəsişməsinin adı olur, küçənin özünə isə ad verilmir. Ərəb bir yerə getməklə bağlı adi suala elə cavab verir ki, avropalı onu başa düşmək üçün ərəblərin işarələr sistemini tam bilməlidir. Prussiyadan olan almanlar üçün otaqda adamla pəncərədən, qapının kandarından danışmaq yetərlidir. Amerikalılar üçün otaqda olmaq bütünlüklə içəridə olmağı və əli qapının dəstəyindən ayırmağı nəzərdə tutur. Burada da implisit kəmiyyət müşahidə olunur, dildə ifadə isə hal sisteminə söykənir. (3, s. 84-85)

Avropa dilçiliyində hal ilk dəfə L.Yelmslevin əsərində diqqət mərkəzinə çəkilmişdir. Müəllif universal "çərçivə" modelini qurmuş və onunla bir sıra konkret dilləri təsvir və müqayisə etmişdir. Danimarka dilçisinin fikrinə görə hal kateqoriyasının əsasında məkan münasibətləri durur. O, 216 nəzəri mümkün halı ayırmış, onları əsas mənaya görə qruplaşdırmağın əleyhinə olmuşdur. (3) L.Yelmslevin hal kateqoriyası nəzəriyyəsi tənqid olunmuş və qəbul edilməmişdir. 1936-cı ildə R.Yakobson, üç il sonra de Qroot hala aid konsepsiyalar yaratmışdır. R.Yakobsona görə, hər bir halın ümumi mənası vardır və hal sırf morfoloji təbiətə malikdir. Halın xüsusi mənaları isə söz birləşmələrinə aid olub ümumi mənanın kombinator variantlarıdır. O, hal və sözönülü birləşmələri fərqli hadisələr saymışdır. (16, s.138, s.143)

N.A.Baskakov türk dillərinin 6 əsas halını ayırmış və onları qrammatik və məkani hallar qruplarına bölmüşdür. Onun fikrinə görə, türk dillərində bundan başqa 5 rudiment hal da vardır. Onların işlənməsi ölçü, zaman və yer bildirən sözlərlə məhdudlaşır. Müəllifin ayırdığı rudiment hallar aşağıdakılardır:

1. Müqayisə halı. Müqayisə obyektini ifadə edir. Şəkilçiləri: *-dağ/-dək, -dac/-dec, -tac/-tec*; məsələn, *baladac* (uşaq kimi), *at bacındac* (at başı kimi).

2. Müqayisəli hədd halı. Müqayisə halı funksiyasında işlənir. Məsələn, *ustuq pazınca* (şor), *dizincə, tacğaça* (mayqa boyunca).

3. Alət halı. *-ın/-in* - qızğın (altay) - *qışda*.

4. Çıxış yeri. *-tın/-tin*; *suğtöbertin* (çayın aşağısında), *tın* (buradan).

5. Yönlük istiqamət.*-qarı/-keri; -qara/-keçe-* teskeri (başı aşağı); *tışqarı - çölə*. (11, s.273)

Hər hansı dilin strukturunun müasir vəziyyətinə görə izahını tapmayan dil hadisələri az deyildir. Dil sisteminin vahidləri müxtəlif funksiyaları yerinə yetirir. Bir sıra dillərin sistemində elə vahidlər vardır ki, bu cür vahidlər başqa sistemli dillərdə yoxdur. Sözönülər belə vahidlərdəndir. Hind-Avropa dillərində sözönülər sözlərin bir-biri ilə əlaqlənməsində xüsusi rol oynayır. Hal qrammatik kateqoriyası da sözlər arasındakı münasibət əsasında formalaşır. Lakin bu, o demək deyildir ki, sözönülər hal qrammatik kateqoriyasının ifadə vasitələri sayılmalıdır. Sözönülərin ifadə etdikləri mənalara görə onları təsnif edirlər. Belə təsniflərdə məkani sözönülər də fərqləndirilir. Məkani sözönülər bir sıra dillərin qrammatik vahidlər sisteminə daxildir. İngilis dilində də məkan münasibətlərinin ifadə olunması üçün məkani sözönülərdən geniş istifadə edilir. Azərbaycan dilində çıxışlıq hal şəkilçisi qəbul etmiş sözün əlaqələndiyi sözlə yaratdığı konstruksiya və ondan doğan semantika ingilis dilində *out of* tərkibli sözönü ilə əlaqələndiyi sözün birləşməsindən əmələ gələn konstruksiyanın semantikasına ekvivalent olur. Təbii ki, tərsinə transformasiya da mümkündür. İngilis dilindəki *out of* sözönüsü ilə əlaqələnən sözün əmələ gətirdiyi birləşmə Azərbaycan dilinin çıxışlıq hallı konstruksiya ilə eyni mənanı ifadə edir. İngilis və rus dillərində eyni və yaxın semantikanı ifadə edən ekvivalent sözönülər vardır. Tədqiqatçılar məkani sözönülərin semantikasını öyrənərkən referentlə relyatum arasındakı həndəsi, daha doğrusu, məkani münasibəti nəzərdən keçirirlər. Bir sıra tədqiqatçılar referent və relyatum arasında yalnız məkani deyil, başqa əlaqlərin də mövcudluğundan bəhs etmişlər. (6, s.343-364; 7, s.358)

Mənşəcə ingilis dilinə aid olan *out of* sözönüsü ilkin olaraq "without", "abroad" mənasında işlənmişdir. Orta ingiliscədə sözönü *oute, ute* şəklində olmuşdur. Tərkibi sözönünün ikinci komponenti *of* "away" mənasında olub orta ingilis dili dövründə *off* vapriantından törəmişdir. (10, s. 331, 337) Müasir ingilis dilində *out of* önlüyünün ilkin məkani mənası referentin daxili məkanı tərk etməsi ilə bağlıdır. Çox zaman bu məkan üçölçülü, qapalı və məhduddur. Dil daşıyıcıları qapalı məkanı açıq məkanla qarşılaşdırırlar. Açıq məkan məhdudluq səciyyəsinə malik deyildir. Məkani sözönülərin dildə işlənmə xüsusiyyətləri də dil daşıyıcısının məkana münasibətindən irəli gəlir. Məkana etnokulturoloji səviyyədəki münasibət sözönülərin işlənmə məqamlarında aşkara çıxır. İngilis dilinin *out of* önlüyünün işlənmə sferası genişdir. Onun müxtəlif distribusiyaları vardır. Aşağıda buna dair bəzi nümunələr verilmişdir.

They went down to the quay and got *out of* their boxes a number of books. (8, s.22)

They walked on till they were *out of* earshot. (8, s.25)

The missionary gave him a contemptuous look and without a word flung *out of* the room. (8, s. 24)

'Don't you dare to speak to me,' she screamed. 'If you insult me İ shall have you turned *out of* here.' (8, s.25)

I won't go *out of* the house if that'll suit him. It's no more'n a fortnight.' (8, 30) 'But don't you know, doesn't everyone here know, that he's a forger and that he's been a convict? He ought to be hounded *out of* civilized society.' (8, s.50)

Tədqiqatçılar ingilis dilində *out of* önlüyünün işlənmə məqamında məkanın qapalılığını əsas götürürlər. Azərbaycan dilində "Zakir evdən çıxdı", "Pərvin mətbəxdən çıxdı", "Şakir dəhlizdən eyvana keçdi" kimi cümlələrdə məkan mövcuddur, qapalıdır və hərəkət bu məkandan çıxmağı ifadə edir. Çıxışlıq haldakı söz tərk edilən məkanı bildirir. İngilis dilinə

aid verilmiş nümunələrdən aydın görünür ki, sözönü yalnız qapalı məkan ifadə edən sözlərlə əlaqələnmişdir.

Məkanın daxili və xarici məkan bölgüsü və qapalılıq şərti mümkündür. Lakin bu şərt həmişə əsas deyildir.

"Buğa da yaş burnunu dağlardan gələn geşniş ətrinə tuta-tuta onun qabağında gedirdi.

– Səni arabaya qoşub odun daşıyacağam Yevlaxdan Xaldana.

– Bə niyə Yevlaxdan Xaldana?

– Nə bilim, bəlkə, Xaldandan Yevlaxa". (9, s.14)

Nümunədəki "dağlardan gələn geşniş ətri" birləşməsində çıxışlıq halın ifadə etdiyi məkan qapalı deyil, hərəkət (gələn geşniş ətri) qeyri-müəyyən məkan boyu hüdudsuzdur. Hərəkətin yalnız çıxış yeri vardır. Proses danışıq anından əvvələ (keçmişə) və gələcəyə doğru fasiləsizdir. Deməli, Azərbaycan dilində çıxışlıq halın işlənməsi üçün zəruri şərt hərəkətin başlanğıc yeri, başlanğıc nöqtəsidir. Bunu hərəkətin hər üç zamana aidliyi də təsdiq edir. Hərəkət keçmişdə başlayıb və bitməyib, davam etməkdədir. İkinci və sonrakı cümlələrdə gələcəkdə baş verəcək fəaliyyətin başlanğıc və son məkan qarşılaşdırılır. Başlanğıc məkan çıxışlıq halda, hərəkətin bitəcəyi məkan yönlük haldadır. Müəllif nitqində başlanğıc və son məkanların yerdəyişməsi baş verir (bəlkə, Xaldandan Yevlaxa) vardır. Əvəzləmə çıxışlıq haldan istifadə qaydasına təsir göstərmir. Yenə də hərəkətin başlanğıc nöqtəsinin ifadə olunması məqsədilə məkan bildirən sözə şəkilçi artırılır. Obyektlər arasında qapalılıq yoxdur. Şərti ərazi hüdudu, sərhədi (Xaldan, Yevlax) var.

Çıxışlıq Azərbaycan dilində məkani-qrammatik hal kimi səciyyələndirilir və məzmununa görə isimlərdə yer, məkan anlayışı ifadə edir. Eyni zamanda, ismin bu halı həm iş və hərəkəti, həm də əşyanın çıxış, yəni başlanğıc nöqtəsini bildirir. Çıxışlıq halın qrammatik funksiyasının ifadə olunmasında *dan/-dən* şəkilçiləri iştirak edir. Hal şəkilçisi qəbul etmiş sözdə əşyanın, obyektin, subyektin, predmetin çıxış, başlanğıc yeri mənası özünü daha çox göstərir: *tövlədən, damdan, sudan, işıqdan, çöldən, daşdan, qumdan* və s. Bu halda olan söz cümlədə xəbərlə əlaqələnir. Məsələn, "Maralın tamaşasına rayon mərkəzindən də gəlirdilər. Balalarını bu gün-sabah yuvadan çıxarıb, yavaş-yavaş ov eləməyə öyrətməlidir. ...Sonra cibindən dəsmal çıxarıb, Bilal əmi gözünün yaşını silərdi". (13, s.39)

İngilis dilindəki *out of* Azərbaycan dilinin çıxışlıq halının əvəzləyicisi deyildir. Lakin müəyyən situasiyalarda onların ekvivalentliyi müşahidə olunur. Qapalı obyekt bildirən isim "çıxmaq", "getmək", "gəlmək", "qayıtmaq", "düşmək" kimi hərəkət feilləri ilə idarə olunduqda və məkanı ifadə edən isim hərəkətin başlanğıc nöqtəsi, yeri olduqda çıxışlıq halın *out of* ilə ekvivalentliyi mümkünləşir. Məsələn, *evdən çıxmaq, avtobusdan düşmək, məktəbdən gəlmək, bağdan getmək, metrodan çıxmaq* və s.

İngilis dilinin qrammatikasında göstərilir ki, *out of* önlüyü yalnız bir nəqliyyat növünü tərk etməkdən danışılarkən istifadə olunur. Minik maşınından çıxmaq, düşmək zamanı *out of* işlədilir. Avtobus, qatar, tramvay, metro, kimi nəqliyyat vasitələri və ümumiyyətlə, ictimai nəqliyyat növündən düşməyi, çıxmağı ifadə edərkən *off* önlüyü istifadə edilir. Bu, real obyektlərin müxtəlif cür konseptuallaşdırılmasından irəli gəlir. İngilis və rus düşüncə tərzinə görə, minik maşını daxili məkana malikdir və bu daxili məkan hamı üçün deyildir. Digər nəqliyyat növləri isə ictimaidir. Bəzi tədqiqatçıların fikrinə görə, minik maşını üçölçülü və qapalıdır. İctimai nəqliyyat isə yastı və açıqdır. (5, s. 81-83) Zənnimizcə, bu fikirdə yastılıq və ya ikiölçülük qüsurludur. Aydındır ki, avtobus, tramvay, gəmi və s. də üçölçülü obyektdir. Onların həcm böyüklüyü yastılıq doğurmur. Təbii ki, həcm ölçülərinin böyüklüyü təsəvvürə təsir göstərir. Lakin məhz bu cəhətin *out of* və ya *from* sözönülərindən hansının işlədilməsi üçün meyar seçilə bilməz. Etnokulturoloji amil mənsubiyyətlə bağlı ola bilər. Qapalılıq xüsusiyyəti də bununla müəyyən dərəcədə əlaqələnir. Fərdin özünə məxsus olan minik maşını başqaları üçün qapalıdır. İctimai nəqliyyat isə hamı üçün açıqdır. Şəxs öz maşınından, öz

evindən çıxdığı kimi çıxır. Rus dilində "с" və "из" sözönülərinin işlənməsində də bu cəhət müşahidə olunur. *Я вышел из машины. Я только с поезда (с самолоета, с автобуса)* və s.

Onu da qeyd etmək lazımdır ki, ingilis və rus dillərində ictimai nəqliyyatın daxili məkanından çıxmaq zamanı *out of* önlüyü işlədilir. Məsələn, kupedən çıxmaq, kabinədən düşmək və s.

İngilis dilində daxili obyektin keyfiyyət xüsusiyyətlərinin dəyişməsi *out of* önlüyünün işlədilməsinə əsas verir. Məsələn, *out of water; out of smoke; out of light* və s. Müqayisə et: *yağışdan çıxdıq, yağmura düşdük*.

Out of önlüyünün semantikasının özünəməxsusluğu çıxış obyektindən hərəkətin istiqaməti ilə də müəyyənləşir. Əgər çıxış obyekti konseptuallaşırsa, sözönüdən istifadə etmək olmur. İngilis dilinin *out of*, eləcə də rus dilinin "из" önlüyü cəhətləri (North, South, East, West) və istiqaməti (left, right, front, back) bildirən sözlərlə işlənmir. Halbuki, bu sözlər real gerçəklikdə müəyyən məkanı bildirir. (Bax: 5, s.344) Bəzən bunu qeyd edilən sözlərin müəyyən istiqamətdə sonsuz uzanan məkan ifadə etməsi ilə əlaqələndirirlər. Belə hallarda ingilis dilində *from* önlüyü istifadə olunur.

Azərbaycan dilində qeyd olunan xüsusiyyətli sözlərin çıxışlıq hal şəkilçisi qəbul etməsində heç bir məhdudiyyət yoxdur. Rus dilində *şimaldan gəlmək, şərqdən xəbər vermək, soldan/sağdan soxulmaq, qabaqdan gəlmək, qarşıdan gəlmək, arxadan vurmaq, yandan baxmaq* kimi birləşmələr geniş istifadə olunur.

Eyni situasiyanın dərkində və təqdimatında milli ayırma da müşahidə olunur. Məsələn, "из-за" önlüyü ilə yiyəlik halında olan isimlərdən ibarət ad qruplarında məkanın qavranmasında bəzi xüsusiyyətlər aşkara çıxır. Məsələn, polyak dilində rus dilindəki "добавил из-за порога" birləşməsinə müvafiq gələn ifadədən istifadə olunur. Rus dilində isə bu, ifadəsini "добавил уже за порогом" birləşməsində tapır. Qeyd edilən cəhət etnokulturoloji səciyyə daşıyır. Ruslar üçün evin kandarı ayıran sərhəd deyil, evin şərti sərhədidir. Bu yer insan üçün simvolik müdafiə səciyyəsi daşıyır, yaşayış məkanını xarici məkandan ayırır. Qədimdə əcdadları, uşaqları evin kandarında basdırmaq ənənəsi olmuşdur. Bu ənənə evi qoruma kimi izah edilmişdir. Pravoslav evlərində qapının sağ küncünə şamlar xaç şəklində bərkidilir. Belə hesab olunurdu ki, kilsədən cümədə axşam mərasimindən gətirilmiş şamlar sehrli qüvvəyə malik olur. Slavyan toylarında bəylə gəlin evin kandarını keçəndə onların başına buğda səpirdilər. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanda da toy mərasimində gəlin daxil olacağı otağın kandarında saxlanılır, onun başına düyü, şirniyyat səpilir, gəlin evun kandarında qoyulmuş nimçəni ayağını üzərinə basmaqla sındırır. Ruslarda evin kandarında oturmaq, onun üzərindən tullanmaq, pul vermək, həmçinin evdə yaşamayan şəxsin evinin kandarını tapdalamaq neqativ hadisə kimi qəbul olunur. Ona görə də rus dilində "из-за порога" deyil, "за порога" birləşməsindən istifadə edilir. Azərbaycanda da qapının kandarında, açıq pənəcərədə üzü çölə oturmaq yaxşı sayılmır.

"Идти лесом" birləşməsi Azərbaycan dilinə "meşə ilə getmək" kimi tərcümə olunur. Tədqiqatçılardan bəziləri danışıq dilində *-nan, -nən* şəkilçilərinin istifadə edilməsini birgəlik və bəzən isə alət halı adlandırırlar. *Meşəynən getmək, avtobusnan getmək, maşınnan getmək* və s. İlə (-la, -lə) dilimizdə həm qoşma, həm bağlayıcı, həm də şəkilçi kimi işlənir. Şəkilçiləşməyə doğru gedir. Onun altı mənası qeyd olunur: a) müstəqim obyekt; b) birgəlik obyekti; c) vasitə obyekti; ç) tərz obyekti; d) məkan obyekti; e) zaman obyekti. (4, s.299) Yuxarıda rus dilindən tərcümə qarşılığı olan "meşə ilə getmək" birləşməsində "ilə" qoşmadır, məkan obyekti məzmunu daşıyır. Göründüyü kimi, rus dilinin "идти лесом" birləşməsinə uyğun gələn "meşə ilə getmək" birləşməsində "meşə" Azərbaycan dilində hal şəkilçisi qəbul etməmişdir. Daha doğrusu, ismin sıfır şəkilçili vəziyyətindədir.

Rus dilində sözönüsüz alət halının başqa yerə aparan yol mənası qeydə alınır. Diskret və müəyyən obyektləri bildirən sözlər bu tipli konstruksiyalarda işlənmir. İngilis və fransız dillərində "идти лесом", "двигаться полем" tipli formalar yoxdur. Müqayisə et: *traverser la*

foret (meşəni keçmək/meşədən keçmək/meşəni kəsmək (kəsib keçmək); ing. *Walk through the field* (çöldən getmək/çöldən keçərək getmək, çölün üstündən getmək) və s.

Çıxışlıq halda olan sözlər qoşmalarla işlənir. Çıxışlıq hal şəkilçisi sözə əlavə olunur, sonra, qabaq, əvvəl, bəri kimi qoşmalarla birlikdə cümlədə zaman zərfliyi olur; başqa, savayı, əlavə, ötrü qoşmaları ilə birlikdə səbəb, fərqlənmə məzmunu yaradır: "*Həmin gün Səkinə xala da davadan bəri açmadığı sandığı açıb çoxdan bəri geymədiyi sarı paltarını çıxartdı. ... Məmmədağa bircə onu bildi ki, bərkdən qışqırdı, daha sonrasını bilmədi, bir də iki gündən sonra evlərindəki çarpayısında özünə gəldi*". (1, s.60)

Kommunikasiya prosesinin uğurlu olması adresantın ifadə etdiyi informasiyanın adresat tərəfindən düzgün qavranılmasından asılıdır. Ötürülən informasiya bir sıra parametrlərlə səciyyələnir. Belə parametlərdən predikativlik, zaman və məkan münasibətləri, mənsubluq, kəmiyyət, modallıq, cins nitqin qavranmasına xüsusi təsir göstərir. Eyni dilin daşıyıcıları arasında ünsiyyətdə qeyd olunan parametrlərin ümumi məzmuna təsiri relevant olmur. İrrelevantlıq kommunikasiyada iştirak edənlərin eyni bir mədəniyyətə mənsubluğundan irəli gəlir. Bununla belə, onu da nəzərə almaq lazımdır ki, bir dil çərçivəsində, bir dil c əmiyyətində fərdi şüurların tam üst-üstə düşməsi mümkün olmadığı kimi, fərdi konseptlər də bir-birinin tam eyni deyildir. Yəni, eyni dilin daşıyıcıları da həm informasiyanı ötürmək prosesində, həm də onu dərketmədə fərqli nəticələrə gələ bilərlər. Müxtəlifsistemli dillərin daşıyıcılarından hər biri doğma dilin xüsusiyyətlərini nitqlərində nəzərə alır. Deməli, müxtəlifsistemli dillərin daşıyıcıları arasındakı ünsiyyətdə mədəniyyətlərarası kontekst daha çox fəallaşır. Hər bir dil sistemində məkan münasibətlərinin ifadəsi vacib şərtdir. Çünki məkan dildən asılı olmayaraq mövcuddur. Bizim məkan qavramımız dilin və dilin məkanı ifadə edən vasitələrinin köməyi ilə baş verir.

Məkan mənası olan sözlər maddi aləmin özünəməxsus hissələrə bölünməsini, onun dildə əksini tapmaq xüsusiyyətlərini özündə birləşdirir. Dağ, dərə, meşə, dəniz, sahil, bağ, bağça, meydan və s. sözlərdə məkan anlamı vardır. Biz dağa müəyyən hündürlüyü olan, müəyyən ərazini özündə birləşdirən yer kimi baxdıqda söz bilavasitə məkanı ifadə edir. Bu halda dağın döşü, dağın ayağı, dağın dibi bir məkanı hissələrə ayırmaq prosesinin nəticəsi olaraq formalaşır. Bu və ya digər obyektin, predmetin, əşyanın yerini göstərərkən müxtəlif dil vasitələrindən istifadə olunur. Azərbaycan dilindəki yerlik hal məkan münasibətinin ifadə olunmasında əhəmiyyətli rol oynayır.

Məkanla bağlı qrammatik vasitələr anlaşmanın düzgün qurulmasına xidmət edir. Məkan–zaman–hərəkət/hal bir sistem təşkil etdiyindən onları bildirən vahidlər arasında həm eksplisit, həm də implisit əlaqələr vardır. Bir çox dillərdə hərəkət feilləri hərəkətin istiqaməti barəsində müəyyən məlumat verir. Hərəkət feillərini hərəkətin bir istiqamət və ya çox istiqamət üzrə getməsini bildirmək cəhətdən iki əsas qrupa bölmək olar. Məsələn, rus dilində biristiqamətlilik *идти, ехать, плыть, лететь* və s., çoxistiqamətlilik (*ходить, ездить, плывать, летать* və s.) feillərində özünü göstərir. Azərbaycan dilində getmək, gəlmək feilləri eksplisit olaraq biristiqamətliyə işarə edir. Uçmaq, üzmək istiqamət baxımından bir qədər qeyri-müəyyən səciyyə daşısa da, çoxistiqamətlilik müəyyən mənada üzdədir. Gəzmək, dolaşmaq, dolanmaq kimi feillərdə hərəkət çoxistiqamətlidir. Onlar hərəkətin başlanğıc nöqtəsi barədə informasiya daşımırlar.

Feillər yerdəyişməni və onun formasını (getmək - *идти*, üzmək - *плыть*, uçmaq - *лететь*) və ya hərəkət tempini (getmək - *идти*, qaçmaq - *бежать*) ifadə edir. Rus linqvo-kulturologiyası üçün istiqamətin ifadəsində sözönülər səciyyəvidir (*заехать, прийти, убежать, подъехать* və s.).

İngilis dilində istiqamətə və digər əlamətlərə görə detallaşma nəzərə çarpmır. Məsələn, *to go* feili rus dilindəki *прийти, уйти, въехать*, *to come* feili isə *прийти, приехать, подойти* feillərinin qarşılığı ola bilir. Azərbaycan dili ilə ingilis dili arasında bu feillərdə ekvivalentlik nəzərə çarpır to *go – getmək, to come – gəlmək.*

Rus dilindəki hərəkət feillərində sözönülər istiqamət semi daşıyır. Bu feillər (*прийти, уйти, въехат* və s.) isimlərin hal formaları ilə birləşərək lokativ mənanı ötürür. Buradan belə nəticə çıxır ki, rus dilinin daşıyıcısı üçün məkan müəyyən zonalara bölünür. Bir zonadan digərinə keçmə *прийти, приехать* feilləri ilə, eyni zona daxilindəki hərəkət isə *подойти, подъехать* feilləri ilə ifadəsini tapır. "Xarici" və "daxili" zonalara bölgü də aparmaq olur. Xarici zonadan daxili zonaya keçid "войти", "въехать" feilləri ilə ifadə olunur. Rus dilində məkana daxil olmağa münasibətdə də fərqlilik vardır. Ona görə də otağa dəhlizdən, balkona küçədən keçid *войти* feili ilə verilir. Otaqdan eyvana, dəhlizə keçid *выйти* feili ilə ifadəsini tapır.

"Gəlmək" hərəkət feili olub eyni zamanda müəyyən dərəcədə hal-vəziyyət və təfəkkür, görmə və eşitmə prosesi ilə də bağlıdır. Bu feil hərəkətin istiqamətini göstərir, əsasən, "üzü danışana tərəf hərəkət etmək, yerimək, yaxınlaşmaq" semlərindən birini aktuallaşdırır, məkan və zaman baxımından yerdəyişmə bildirir.

Türk dillərində "sınırlama", "hüdudlama" halı da maraq kəsb edir. Qaraqalpaq dilində bu hal "-ğaşa, -geşe" şəkilçiləri ilə düzəlir və Azərbaycan dilinin "yönlük hal+qədər", "yönlük hal+kimi" modellərinə uyğun gəlir-yaqıngaşa-yaxına qədər, tan şəhərgeşə-sabaha qədər, elegeşe-indiyə qədər və s.

Ədəbiyyat

1. Elçin. Bir görüşün tarixçəsi. Bakı: Azərnəşr, 1977, s.338.
2. Lakoff G. Ten Lectures on Cognitive Linguistics.Volume: 1, 2018.
3. Hall E.T. Proxemics //Current Anthropology 9, 2-3, 1968, p.p. 83-95.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, s.358.
5. Jackendoff R., Landau B. Spatial Language and Spatual Cognition. Hillsdale, NJ.
6. Lawrence Erlbaum, 1971, pp. 343-364.
7. Leech G.N. Language and Tact (L.A.U.T. series A. No. 46). Trier, 1977, p.250.
8. Maugham W. Somerset. Syxty-five short stories. London, Octopus Books Limited, 1998, 937 p. Elektron mənbə: wsmaugham-syxty-five-short-stories_ 0905712692.pdf.
9. Səmədoğlu V. Gürzəçöl yazıları. Bakı: Parlaq imzalar, 2016, s.160.
10. Skeat W.W. The Concise Dictionary of English Etymology. London: Wordsworth ed. LTD, 2007, p. 643.
11. Баскаков Н. Историко-типологическая морфология тюркских языков. Москва, Наука, 1979, с. 273.
12. Ермакова О.П. Переход качества в количество (о природе интенсификаторов) // Логический анализ языка. Квантитативный аспект языка. Москва, Индрик, 2005, с. 272-279.
13. Лосев А.Ф. Введение в общую теорию языковых моделей (История лингвофилософской мысли). Москва, Едиториал УРСС, 2004, с.294.
14. Маляр Т.Н., Селиверстова О.Н. Пространственно-дистанционные предлоги и наречия в русском и английском языках. Munchen: Verlag Otto Sagner, 1998, с.358.
15. Степанов Ю.С. Основы общего языкознания. Москва, Высшая школа, 1995, с.303.
16. Якобсон Р.О. Избранные работы. Москва, Прогресс, 1985, с.456.

А.М.Байрамова

Вербализация пространственных отношений в языке

Резюме

В статье рассматривается вербализация пространственных отношений между разными предметами внутри пространства на материале разносистемных языков. Пространственные отношения образуют сложную систему, охватывающую локализацию объектов и предметов, их смещение относительно друг друга. Поскольку объекты могут находиться в статическом или динамическом состоянии в пространстве, пространственные отношения принимают разные формы. Динамика в пространстве требует выражения смещения объекта, а не его местоположения. Точно так же, как необходимо определить направление вербализации движения в

пространстве, неопределенность его выражается средствами языка. Пространственные отношения вербализуются разными языковыми средствами в разносистемных языках. Лингвокультурные факторы также важны для выражения пространственных отношений.

Грамматические единицы, связанные с пространством, помогают формировать понимание, так как пространство-время-движение/состояние образуют систему, указывающую как на явные, так и на неявные отношения между единицами, представляют во многих языках глаголы действия, предоставляют информацию о направлении движения. Каждый из представителей разносистемных языков учитывает в своей речи особенности родного языка. Таким образом, межкультурный контекст активизируется в общении между носителями разных языковых систем. Выражение пространственных отношений является важным условием любой языковой системы, потому что пространство существует независимо от языка, а понятие пространства определяется посредством языковых средств, которые и выражают пространство.

A.M.Bayramova

Verbalization of Spatial Relations in the Language

Summary

The article deals with the verbalization of spatial relations between different objects within the space on the material of the languages of different systems. Spatial relations form a complex system, covering the localization of objects, their displacement referring each other. Since objects can be in a static or dynamic state in space, spatial relationships take many forms. Dynamics in space requires the expression of an object's displacement, not its location. Just as it is necessary to determine the direction of the verbalization of movement in space, its indeterminacy is expressed by means of the language. Spatial relations are verbalized by different linguistic means in the languages of different systems; besides, linguistic and cultural factors are also important for expressing spatial relations. Grammatical units connected with the space help to build understanding, as space-time-motion / state forms a system, indicating both explicit and implicit relations between the units that represent them. In many languages, action verbs provide information about the direction of movement. Each of the representatives of multi-system languages takes into account the peculiarities of their native language in their speech. Thus, the intercultural context is activated in communication between speakers of different language systems. The expression of spatial relations is an important condition for any language system, because space exists independently of language, and the concept of space is defined by means of linguistic means, which express space.

Rəyçi: filol.f.d., dos. S.E.Qurbanova

Redaksiyaya daxil olub: 10.06.2022

A.M.BUDAQOVA
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: aynurbudagova@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ NEOLOGİZMLƏRİN ROLU

Açar sözlər: *təkamül prosesi, dil qanunları, dil sistemi, semantik və üslub çalarları*
Ключевые слова: *эволюционный процесс, языковые законы, языковая система*
Key words: *evolutionary process, language laws, language system*

XVIII əsrin ortalarında meydana gələn "neologizm" ifadəsi özü o dövr üçün yeni bir söz hesab edilirdi və yeni məna verilmiş söz ya da ifadəyə istinad edirdi. Yunan mənşəli "Neo" (yeni) və "Logos" (elm) sözlərinin birləşməsindən yaranmış neologizm sözü "yeni bir şey tapmaq", "törətmək", "gətirmək" mənalarını bildirir. Neologizmlər hər tarixi dövr üçün tamamilə yeni leksik vahid olan sözlərdir. Çox zaman birbaşa müəyyən bir insana, nəşrə, dövrə və ya hadisəyə aid olurlar (3, 62-63). "Neologizm" termini bir dilin materialına əsaslanaraq yeni yaradılmış birinə tətbiq edilir, dildə mövcud olan bir sözün və ya bir ifadənin sözəmələgətirmə modellərinə tam uyğundur, əvvəllər bilinməyən, mövcud olmayan yeni bir anlayış, mövzu, elm sahəsi, peşə və s. ifadə edir. Məsələn: *reactor* – nüvə reaktoru, *biocide* – bioloji müharibə. Neologizmlərə eyni zamanda dildə mövcud olan sözün bilinən bir konsepsiyasını ifadə etmək üçün yeni yaradılmış sinonimlər, sözün müşayiətedici semantik və üslub çalarlarına əsasən mənası ilə üst-üstə düşən və yeni mənada işlənən sözlər aiddir. Məsələn, *boffin* (gizli işlə məşğul olan bir alim, əksər hallarda hərbi məqsədlə) sözü alim sözünə yaxın sinonim sözdür, lakin fərqli bir semantik məna daşıyır. Bu leksik yeniliklərin meydana çıxma səbəblərinə görə dildə sabitliyinə, istifadə tezliyinə, sonrakı taleyə görə müəyyən fərqliliklər vardır. Neologizmlərin bəziləri dilə möhkəm daxil ola bilər, digərləri isə daha az sabit və nisbətən qısa müddət ərzində istifadədən çıxa bilər. Neologizmlərin yaranma səbəbi sosial və elmi-texniki tərəqqidir: yeni sosial-iqtisadi reallıqların meydana çıxması, elm və texnika sahəsində kəşflər, mədəniyyət sahəsindəki nailiyyətlər hesabına dildə yeni sözlər yaranır. Neologizmin əlaməti əksər ana dilində danışanlar üçün bir sözün mütləq yeniliyidir. Söz çox qısa müddətdə neologizm hesab edilir. O, fəal şəkildə istifadə olunmağa başlayan kimi yenilik əlamətini itirir və adi hala gəlir. Hal-hazırda *cosmodrome* (kosmodrom), *radar* (radar), *launch vehicle* (fırlatma vasitəsi), *programming* (proqramlaşdırma) sözləri neologizm deyildir. Bu sözlər yarandığı dövrlər üçün yeni idi, lakin indi hamı tərəfindən mənimsənilir və başa düşülür. Beləliklə, yuxarıda göstərilənlərdən neologizm anlayışının zamana və nisbi cəhətdən dəyişkən olduğu aydın olur, söz sahibləri özlərində yenilik hiss etdikləri müddətcə bir söz neologizm olaraq qalır. Araşdırmada vacib bir sual həm də yeni bir sözün necə yaradıldığı sualıdır. Yeni bir söz (yaradıcı) yaradan şəxs fərdiləşdirmə və orijinallığa can atır. Sonra söz bir neçə sosiallaşma (cəmiyyətdə qəbul) və leksikləşmə (dil sistemində konsolidasiya) mərhələlərindən keçir. Söz, kütlə arasında yayan kəşfiyyatçılar tərəfindən qəbul edilir. Bunlar, bir qayda olaraq, universitet müəllimləri, məktəb müəllimləri, müxbirlər və media işçiləridir. Sonra söz dövri mətbuatda qeyd olunur. Sosiallaşmanın növbəti mərhələsi sözün geniş ana dilində danışan kütlələr tərəfindən qəbul edilməsidir. Ardından leksikləşdirmə prosesi gəlir və daha sonra – yeni bir sözün adekvat istifadəsi üçün bacarıqlara yiyələnmə, yəni anadilli istifadəçilər tərəfindən kommunikativ və praqmatik sərişdəyə yiyələnmə prosesi baş verir. Şərti olaraq reallıq obyektinin "neologizasiya zənciri" aşağıdakı kimi təmsil oluna bilər: a) yeni söz (yaradıcı), b) sözün sosiallaşması (cəmiyyətdə qəbul

edilməsi), c) sözün leksikləşdirilməsi (dil sistemində istifadəsi) (1) Bir sözün ictimailəşməsi və leksikləşdirilməsi prosesləri vasitəçilərin qarşılıqlı təsiri ilə baş verir (məsələn: müəllimlər, reportyorlar, aktyorlar, media vasitəsi ilə və s.).

Bilirik ki, dil daim inkişafdadır. Dil daima inkişaf edən və dəyişən dinamik sistemdir. İctimai, mədəni, elmi və siyasi həyatımızda baş verən dəyişikliklər, texnologiyanın müasir inkişaf səviyyəsi, eləcə də mədəniyyətlərarası ünsiyyət dilin təkamül prosesini ortaya çıxarır (2, 35-44). Dilin təkamül prosesini şərtləndirən amillərə ictimai, mədəni, elmi və siyasi həyatımızda baş verən dəyişikliklər, texnologiyanın müasir inkişaf səviyyəsi, eləcə də mədəniyyətlərarası ünsiyyət aiddir. Dil və nitq prosesində neologizmlərin rolu böyükdür. Çünki dilin lüğət tərkibi daim dəyişikliyə məruz qalır, bəzən dildə mövcud olan sözlər və ifadələr əsasında yeniləri meydana gəlir. Dildə baş vermiş bu dəyişikliklər lüğət tərkibindən əlavə gündəlik həyatımızın hər aspektinə müəyyən təsir göstərir. Yeni yaradılmış kəşflərin və ixtiraların adlandırılması vacib olduğu üçün zəngin lüğət tərkibinə ehtiyac yaranır. Yeni sözlər (neologizmlər) təfəkkür yaradıcılığımızın məhsulu hesab olunur və gündəlik danışıq zamanı əmələ gəlir.

İngilis dili də digər dillər kimi davamlı inkişafdadır. Lüğət dilin ən hərəkətli təbəqəsi olaraq danışan cəmiyyətin sosial, mədəni və digər sahələrində baş verən bütün dəyişikliklərə ən həssaslıqla reaksiya verir, çünki məhz söz "həyatın güzgüsü" hesab edilir. Həm də müasir dilçiliyin sözəmələgətirmənin müxtəlif cəhətlərinə daim artan marağını da sözün dilin mərkəzi vahidi olması ilə izah etmək olar. Sözün bir leksik vahid kimi uyğun xüsusiyyətləri dilin digər elementlərinin xüsusiyyətləri ilə kəsişir. Bu qarşılıqlı təsir dil sisteminin bütövlükdə işləməsinin əsasını təşkil edir. Neologizmlərlə zəngin olan mətnləri tərcümə edərkən mütəxəssislər bir sıra çətinliklərlə qarşılaşırlar. Ədəbi tənqiddə və tərcümə nəzəriyyəsində şübhəsiz ki, problemlər vardır. 19-cu əsrin oxucusu üçün neologizm olan bir çox söz müasirimiz üçün adi sözlərə çevrilmişdir. Və bu əsrin ortaq sözlərindən bəziləri arxaizm halına gəlmişdi. Bununla birlikdə, əsərin yarandığı dövrdə ifadə ediciliyi artırmaq və danışığı dəqiq bir şəkildə çoxaltmaq üçün müəllif tərəfindən müəyyən məqsədlər üçün hər hansı bir neologizm tətbiq edilmişdir. Neologizmlərin tərcümə edilməsində əsas çətinlik yeni bir sözün mənasını başa düşməkdir. Neologizmin həqiqi tərcüməsi verilmiş neologizmin hansı söz növünə aid olmasından asılı olaraq aşağıda verilmiş metodlardan istifadə etməklə həll olunur. Neologizmlərin yaranma səbəbi sosial və elmi-texniki tərəqqidir: yeni sosial-iqtisadi reallıqların yaranması, elm və texnika sahəsində kəşflər, mədəniyyət sahəsindəki nailiyyətlər nəticəsində yeni sözlər meydana gəlir. Neologizmin əlaməti əksər ana dilində danışanlar üçün bir sözün mütləq yeniliyidir. Söz çox qısa müddətdə neologizmdir. Söz fəal şəkildə istifadə olunmağa başlayan kimi yenilik əlamətini itirir və adi hala gəlir. Beləliklə, neologizm anlayışı zaman və nisbi cəhətdən dəyişkəndir: söz sahibləri özündə yenilik hiss etdikcə bir söz neologizm olaraq qalır. (2, 34-45) Bütün neologizmlər, onların morfoloji quruluşu və məna təbiəti, yeni bir sözə ehtiyac duyulduğunda, ingilis söz ənənələrinə uyğun olaraq formalaşır. Müasir ingilis dilində yeni sözlərin formalaşmasının bir çox yolu vardır. Bunlara birləşmə, konversiya, qısaltmalar, sifətləşdirmə, substantivizasiya, tərs sözəmələgətirmə, leksik-semantik yol, səslərin növbələşməsi və s. aiddir. Lakin bu metodların hamısı eyni dərəcədə istifadə olunmur və sözyaratma müddətində hər birinin nisbəti eyni deyildir.

Neologizmlər, adətən, müvafiq dil qanunlarına, onun söz formalaşdırma məhsuldar modellərinə görə formalaşır. Lakin ədəbi və kitabşünas neologizmlər bəzən məhsuldar olmayan söz formalaşdırma üsulları ilə yaradılır. Belə hallarda sözformalaşdırma vasitələrinin təsir gücü daha qabarıq, daha aydın, daha çox hiss olunur. Bu səbəbdən yeni sözyaratma vasitələri özləri çox zaman üslubi bir vasitə kimi çıxış edirlər. Müasir ingilis dilində neologizmlərin formalaşmasının ən xarakterik üsulları sözlərin mənalarını qarışdırmaq, çevirmək və dəyişdirməkdir.

Cəmiyyət həyatının vacib bir tərəfi təhsildir. Son zamanlarda yeni tədris metodları aşağıdakı neologizmlərlə işarə olunur. Məsələn: sleep-teaching – "yuxuda öyrənmək", CLASS (Computer-based Laboratory of Automated School System – Avtomatlaşdırılmış Məktəb Sisteminin Kompüter əsaslı laboratoriyası) – "proqramlaşdırılmış öyrənmə metodu", TEFL (Teaching English as a Foreign Language - ingilis dili xarici dil kimi) – "İngilis dilinin xarici dil kimi tədrisi sistemi", multimedia lecture – "bir neçə informasiya vasitələrinin vasitəsilə deyilən mühazirə (video yazı, televiziya, maqnitofon və s.)", telelecture, telecourse – "televiziyada maarifləndirici proqram" və s. Yeni tədris müəssisələrinin meydana çıxması sayəsində yeni sözlər yarandı. Məsələn, megaversity – "minlərlə tələbəsi olan böyük bir universitet", multiversity – "çox sayda fakültəyə sahib bir universitet". Student, pupil – "məktəbli, şagird, öyrənci" terminləri əvəzinə "educatee, schooler" daha çox istifadə olunmağa başladı; educationalist – "təhsil sahəsində mütəxəssis (nəzəriyyəçi və ya praktikant)" termini ortaya çıxdı. (4, 5, 6)

Bir dilin inkişafı, əsasən, sözəmələgətirmə sisteminin inkişafı, yeni söz yaradıcılıq modellərinin formalaşması, mövcud olanlardakı dəyişikliklər, məhsuldarlığında artım və ya azalma və sözün bir çox digər amilləri ilə əlaqədardır. Yeni sözlərin yaradılması, ilk növbədə, elm, texnika, mədəniyyət, sosial münasibətlər və s.-nin inkişafı nəticəsində daim ortaya çıxan yeni anlayışların ifadəsində cəmiyyətin ehtiyaclarının dilində əks olunması kimi həyata keçirilir. Bir dildə söz formalaşdırma proseslərinin inkişaf tendensiyalarının qurulması, leksikoqrafiyanın nəzəriyyəsi və praktikasının təkmilləşdirilməsi və s. həmişə leksikologiyanın ən vacib problemləri olmuşdur. İngilis dilində neologiya nəzəriyyəsində bir çox problemli tədqiqat sahəsi mövcuddur. Bunlara, ilk növbədə, həm ekstralinqvistik (sosiolinqvistik və ya funksional-praqmatik korrelyasiya) və həm də dildə üstünlük təşkil edən məhsuldar modellərin linqvistik şərti baxımından amillərin, mərhələlərin, yeni sözlərin və mənaların yaranma mexanizminin sistemli təhlili daxildir. Şübhəsiz ki, müasir ingilis dilinin kütləvi ünsiyyət (mətbuat, televiziya, radio) tərzi və dili kimi funksional və üslub çeşidləri, reklam, işgüzar ünsiyyət, elm, texnologiya, elektronika, tibb, maliyyə, moda, siyasət kimi ictimai həyat sahələri olduğu müəyyən edilmişdir və bir sıra sosiolingvistik səbəblərdən, müasir ingilis dilində yeni söz ehtiyatının əsas "tədarükçüləri" hesab edilir. (4, 5, 6)

Ədəbiyyat

1. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I hissə. Bakı: Nurlan, 2003
2. Veysəlli F.Y. Dilçilik ensiklopediyası. Bakı, Mütərcim, 2006
3. Longman Dictionary of Contemporary English, 3rd Edition, printed in Great Britain by Clays Ltd, 2000
4. https://englishclassviaskype.com/
5. https://www.academia.edu/6852006/Neologisms_in_English_language_Jan_Kolar
6. http://refleader.ru/jgeujgmermeraty.html

А.М.Будагова

Роль неологизмов в обогащении английского языка

Резюме

В статье рассматривается роль неологизмов в обогащении английского языка. Как известно, словарный запас любого языка постоянно обновляется и пополняется. Слова исчезают, устаревают, другие, наоборот, появляются и начинают активно использо-ваться носителями языка. Лексические ресурсы языка можно обогащать разными способами. Главный источник пополнения словарного запаса автор видит не в заимствовании слов из других языков, а в формировании новых лексических единиц на основе родного языка с использованием различных методов словообразования. Появление нового слова - результат борьбы двух тенденций - тенденции языка к развитию и тенденции к сохранению. Однако, чтобы более

адекватно отражать, воспроизводить и комбинировать новые идеи и концепции, необходимо реконструировать, дифференцировать и создавать новые единицы языка в целом и словарного запаса в частности. В статье исследуются понятие и особенности «неологизма», описываются истоки неологизмов в английском языке. Автор также постарался показать особенности нововведений в словаре английского языка.

A.M.Budagova

The role of neologisms in the enrichment of the English language

Summary

The article deals with the role of neologisms in the enrichment of the English language. It is known that the vocabulary of any language is constantly updated and enriched. Words disappear, become obsolete, others, on the contrary, appear, and begin to be actively used by native speakers. The lexical resources of a language can be enriched in different ways. The author sees the main source of replenishment of vocabulary not in borrowing words from other languages, but in the formation of new lexical units based on the mother tongue using various word-formation methods. The emergence of a new word is the result of a struggle between two tendencies - the tendency of language to develop and the tendency to preserve. However, in order to more adequately reflect, reproduce and combine new ideas and concepts, it is necessary to reconstruct, differentiate and create new units of language in general and vocabulary in particular. The article explores the concept and features of "neologism" and describes the origins of neologisms in English. The author also tried to show the features of innovations in the English dictionary.

Rəyçi: dos. G.F.İsrafilova

Redaksiyaya daxil olub: 11.04.2022

P.M.CƏFƏROVA
müəllim

DOI:10.48652/m5483-4812-9684-k

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ CÜMLƏ VURĞUSUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *cümlə vurğusu, melodiya, intonasiya, ritm, heca*
Ключевые слова: *фразовое ударение, мелодия, интонация, ритм, слог*
Key words: *sentence stress, melody, intonation, rhythm, syllable*

İngilis dilində cümlə vurğusu söz vurğusuna nisbətən daha mürəkkəb akustik hadisədir. Bu səbəbdən cümlə vurğusunun təbiəti, növləri və funksiyaları müxtəlif baxımdan izah edilir. Cümlə vurğusuna müxtəlif tərəfdən yanaşmağın nəticəsində dilçilikdə cümlə vurğusu anlamını ifadə edən toplu yaranmışdır.

Cümlə vurğusu anlayışı, adətən cümlə daxilində bir qrup sözün qüvvətli, ucadan tələffüz olunması, yaxud cümlənin sonuncu mənalı sözünün artikulyator- akustik baxımdan ayrılması, fərqlənməsi kimi izah edilir. Bu mənada cümlə vurğusu məntiqi, yaxud sintaqma vurğusu kimi başa düşülür. Bir qrup dilçilər cümlə vurğusunu cümlədə bütün vurğulu, vurğusuz və zəif vurğulu sözlərin məcmusu kimi izah edir. Bu planda cümlə vurğusu bir dil hadisəsi kimi bir qədər geniş mənada izah edilir.

Başqa bir qrup dilçilər cümlə vurğusuna cümlənin yalnız xarici qabığını müşayət edən və onun daxili məzmunu ilə əlaqəsi olmayan artikulyator- akustik bir hadisə kimi baxır. Digər dil hadisələri kimi, cümlə vurğusuna da forma və məzmun birliyinin vəhdəti baxımından yanaşmaq lazımdır. (3, s. 147) Cümlədə bu və ya digər ünsürün seçilməsi neyro-fizioloji bir proses kimi nitq fəaliyyətinin məqsəd və vəzifəsi ilə, nitq aktının şərtləri ilə, dilin öz daxili imkanları ilə, konkret kontekst və nəhayət, danışanın düşdüyü situasiya ilə, psixoloji-emosional vəziyyəti ilə şərtlənir. Cümlə vurğusunun prosodik tərəfi onun ifadə planını xarakterizə edirsə, cümlədə bu və digər ünsürlərin cümlənin məzmunundan, danışanınn niyyətindən, məqsədindən, asılı olaraq seçilməsi cümlə vurusunun məzmun planını xarakterizə edir.

Qara saçlı / qızı çağırın gəlsin. (xitab)
Qara saçlı qızı / çağırın gəlsin. (mübtəda)

Cümlə vurğusu da variant və invariantın qarşılıqlı əlaqəsindən fəaliyyət göstərir.

a) Cümlə vurğusunun artikulyator – akustik və perseptiv xüsusiyyətlərinin özündə birləşdirən fonetik variantlar.

b) Artikulyator- akustik obrazın məna anlamı təəssüratını özündə birləşdirən funksional variantlar. Cümlədə bütün vurğulu, vurğusuz sözlərin məcmusunu özündə birləşdirən, semantik yükün dəyərindən və danışanın münasibətindən asılı olaraq, cümlələrdə müəyyən sözlərinvə birləşmələrin artikulyator - akustik, semantik baxımdan ayrılmasını, cümlələrin ritmik- melodik baxımdan formalaşmasını və qavranılmasını təmin edən prosodik vasitəyə cümlə vurğusu deyilir. (2, s.92-93)

Cümlə vurğusu söz vurğusunun artikulyator - akustik bazası əsasında yaransa da, bu iki fonetik hadisəni eyniləşdirmək olmaz. Cümlə və söz vurğusunun özünəməxsus xüsusiyyətləri və fərqləndirici əlamətləri var.

Söz vurğusu sözlərin və söz birləşmələrinin ayrılmaz əlaməti kimi çıxış edirsə, cümlə vurğusu cumlə və cümlədən böyük olan vahidlərin ayrılmaz ünsürü kimi çıxış edir. Ayrılıqda götürülmüş sözlərdə vurğunun yeri həmin dilin aksent quruluşunun özünəməxsus qanunauyğunluğu ilə şərtlənirsə, cümlə daxilində sözlərin vurğu daşıması sözlərin semantik yükündən, sintaktik funksiyasından, mövqeyindən asılı olur. Məsələn: Children, turn the water on. (xitab)

Children, turn the water on. (mübtəda).
Children, turn the water on. (tamamlıq)

Cümlə daxilində ritmik meylin təsirindən və cümlənini məzmununa uyğun qarşılaşdırma nəzərdə tutulduqda, söz vurğusunun yeri dəyişə bilər. Məsələn:

Janes composition is dood. Her composition is excellent.

Söz vurğusu dil vahidlərini bir səs kompleksində söz və söz birləşmələri formasında birləşdirdiyi halda, cümlə vurğusu (ritmik qrup sintaqmları), cümlə və cümlədən böyük olan sintaktik vahidləri birləşdirir, onları məzmuna müvafiq şəkildə təşkil edir.

Cümlənin kommunikativ tipindən, sintaktik quruluşundan kontekstdən və situasiyadan, nitqin üslubi xüsusiyyətində subyektin fikrə münasibətindən asılı olaraq, cümlə daxilində prosodik baxımdan müəyyən dəyişikliyə uğrayır və əlavə çalar alır. Məsələn : 'Is there any difference between them?

Əgər danışan situasiyaya maraq deyil, nrazılıq ifadə edirsə, bu halda cümlələrin aksent-melodik strukturu dəyişəcək. Is there any difference between them?

Sözün fonetik strukturu cümlə daxilində melodiyanın, tempin, tembrin, fasilənin, ritmin və cümlə vurğusunun hesabına əlavə çalarlıq alır. Məsələn: What do you want? - Nə lazımdır? What do you want? - Axı nə istəyirsən?

İkinci cümlədə köməkçi feilin vurğu daşıması melodiya ilə vurğunun qarşılıqlı fəaliyyəti "qəzəb, hiddət" kimi emosional münasibət ifadə etməyə artikulyator - akustik perseptiv zəmin yaradır. Məsələn: We are at the lesson. Tom has five English books. Bu cümlələrdə beş söz, altı heca vardır. Hecaların sayının bərabər olmasına baxmayaraq. Birinci cümlə sürətlə, ikinci cümlə nisbətən ləng tələffüz olunacaq. Çünki birinci cümlədə bir vurğulu heca, ikinci cümlədə isə dörd vurğulu heca var.

Söz və cümlə vurğusu ritmik baxımdan oxşar əlamətlərə malik olsalar da, onlar arasında fərq var. Çoxhecalı sözlərdə ikinci dərəcəli vurğunun olması ritmik meyillə şərtlənir. Cümlə daxilində ritmik əvəzlənmə, nitqin ritmik xüsusiyyətləri isə cümlə vurğusunun zəminində həyata keçirilir. Nitq prosesində söz vurğusu nitqin ritminə tabe olur və müəyyən dəyişikliyə uğrayır.

İki qüvvətli və bir zəif, bir qüvvətli vurğuya malik olan sözlər cümlə daxilində öz vurğularını itirə bilir. Məsələn: She is just good - looking. She is a good – looking girl. Söz vurğusunun ritmik xüsusiyyəti yalnız fonetik xarakter daşıyırsa, cümlənin ritmik qruplara bölgüsü, həm qrammatik, həm də semantik mahiyyət kəsb edir. Məsələn: She nevere remembered her dosctors instructions. She nevere remembered her in those days.

Söz və cümlə vurğusunu fərqləndirən mühüm cəhətlərdən biri də onların akustik əlamətləridir.

Söz daxilində hecalar prosodik xüsusiyyətləri baxımından biri digəri ilə qarşılaşdırıla bilər. O dildəki dinamik vurğu aparıcı rola malikdir.

Söz və cümlə vurğusunu fərqləndirən əsas əlamətlərdən biri də söz vurğusunun statik, cümlə vurğusunun dinamik olmasıdır.

Cümlə daxilində vurğunun hərəkiliyi, dinamikliyi, cümlədə yeni mənanın formalaşmasına, müxtəlif modal – emosional münasibətlərin ifadəsinə gətirib çıxarır. Odur ki, söz vurğusundan fərqli olaraq, cümlə vurğusuna dinamik kateqoriya kimi baxmaq lazımdır.

Cümlə vurğusu, hər şeydən əvvəl fiziki hadisədir. Belə ki, o dilin səs materialı kimi, müəyyən hersə, amplitudaya malikdir. Cümlə vurğusu həm də fizioloji hadisədir. Cümlə vurğusu özlüyündə mənaya malik deyil. Vurğunun ayrılıqda öz mənası olmasa da, o, konkret leksik-sintaktik struktur çərçivəsində müəyyən fonetik- fonoloji məzmun kəsb edir. Məsələn: What are you working for? – Nə iş görürsən?

What are you working for? – Hansı mükafat üçün işləyirsən?

Mənə qızıl saat zənciri verin. – qızıl saat üçün zəncir

Mənə qızıl saat zənciri verin.- saat üçün qızıl zəncir.

Nitq axınında cümlələrdə və cümlədən böyük olan nitq parçalarında müəyyən sözlərin ayrılmasını təyin edən, daha doğrusu, cümlə vurğusu təəssüratı, təsirini yaradan hansı əlamətlərdir?

İngilis və Azərbaycan dillərində cümlə vurğusu üzrə aparılan təcrübi tədqiqatın nəticələrinə görə, cümlə vurğusu fonetik təbiəti etibarı ilə hər iki dildə özünəməxsus akustik əlamətlərlə səciyyələnir. (1, s. 222)

İngilis və Azərbaycan dillərində cümlə vurğusu fonetik təbiəti etibarı ilə kompleks məcmusunu özündə birləşdirir.

Cümlə vurğusunun artikulyator əsasını nitq orqanlarını, o cümlədən aşağı və orta tə-ləffüz üzvlərinin intensive işi təşkil edir. Cümlə vurğusu melodiya ilə həyata keçirilən və nu iki proses nitq axınının inteqrasiya və differensasiyasını tənzim edir. Cümlə vurğusu nitq axınında iki funksiya yerinə yetirir. Cümlətəşkiledici və mənaformalaşdırıcı funksiyalar. Cümlə vurğusunun cümlətəşkiledici funksiyası onunla ifadə olunur ki, o, nitq axının ritmik qrupları, sintaqmlarda sintaqmları cümlələrdə, cümlələri isə cümlədən böyük olan nitq vahidlərində, bütöv bir kontekstdə, abzasda birləşdirməklə, ayırmaqla, nitq axınına ritmik, sintaqmatik üzvlənmə və perseptiv xarakter verir. Cümlə vurğusunun mənaformalaşdırıcı funksiyası onunla izah olunur ki, o, sintaqmlarda, cümlələrdə və cümlədən böyük olan nitq vahidlərinin strukturunda bir və ya bir neçə sözü süçməklə, nəzərdə tutulan informasiyanın və münasibətin verilməsini təmin edir. Bu funksiya özünü bir neçə formada göstərir:

Mənafərqləndirici funksiya

Modal emosional funksiya

Rekoqnitiv funksiya

Hər hansı bir cümlə və cümlədən böyük olan sintaktik vahidlər nitq prosesində söyləm formasında müəyyən bir məlumatın və fikrin daşıyıcısı kimi çıxış edir. Eyni zamanda leksik tərkibə və sintaktik struktura malik olan cümlələrin ritmik-melodik strukturunda, semantik məzmununda, kommunikativ növündə, məntiqi və modal məzmununda dəyişiklik yaranır. Bəs eyni leksik vahidli və sintaktik strukturlu cümlələrin müxtəlif informasiya və modal emosional münasibətlər ifadə etməsinə təsir göstərən nədir? Funksional baxımdan cümlə vurğusunun aşağıdakı növləri vardır.

Semantik-sintaktik vurğu - Sözlər bir leksik vahid kimi lüğətdə vurğuya malikdir. An-caq onlar nitq prosesində cümlə və cümlədən böyük olan söyləmlər tərkibində olarkən, bir qrup sözlər öz vurğusunu itirir, bir qrup sözlər isə vurğu qəbul edərək, digər supraseqment ün-sürlər hesabına əlavə çalarlıq alır. Məsələn: She sat at the window with her hands in her hand.

Modal – predikativ vurğu- Sintaqma və cümlələrin sonuncu vurğulu sözünü müşayiət edən vurğuya modal predikativ vurğu deyilir. Onunla xarakterizə olunur ki, cümlənin strukturunda müəyyən bir sözü ayırmaqla, cümlənin kommunikativ mərkəzini qeyd edir. Hər hansı bir məlumatın konkretləşməsini təmin edir. This is my niece Niss Smith. (xəbər) This is my niece Niss Smith. (xitab)

This is my niece Niss Smith. (əlavə)

1. İntellektiv vurğu – Eyni leksik tərkibə və sintaktik quruluşa malik olan cümlələri mənasına görə fərqləndirən vurğuya intellektiv vurğu deyilir. Məsələn:

What is he like ? – He is an iron master.

2. Predikativ vurğu. Real faktorların modallığına əsaslandığından, o, subyektiv modal münasibətləri əsasən, özündən kənar edir. Funksoyası onunla izah olunur ki, o, pedikatı olmayan cümlələrdə predikativlik yaradır, sözləri, söz birləşmələrini kommunikativ cümlə növü kimi formalaşmasını akustik- perseptiv baxımdan təmin edir. Məsələn, A warm night. The best planet in London. A cold hostile star. (4, s. 10-11).

3. Modal vurğu. Modal vurğunun funksiyası onunla ifadə olunur ki, o, nitq prosesində parantezaları, xitabları, tərəddüd bildirən sözləri və modal feilləri müəyyən mövqedə qeyd etməklə, cümlənin məzmununa danışanın münasibətini ifadə edir. Məsələn: In fact, I am never wrong. You will be able to come.

4. Emfatik vurğu. Cümlələrin yüksək emosionallığını, ifadəliliyini, effektivliyini, estetik tutumunu təmin edən vurğuya deyilir. Emfatik vurğunun funksiyası onda ifadə olunur ki, o, cümlələrin daxili emosional təsir yükünü üzə çıxarmaqla, müxtəlif keyfiyyətli subyektiv – modal münasibətlərin ifadə olunmasını təmin edir. Emfatik vurğu cümlənin məzmununda yeni obyektiv modal məna yaratmır. O, yalnız cümlənin məzmununu emosional baxımdan qüvvətləndirir, ona əlavə emosional məna verir. Məsələn: What the devil have I done with my slippers?

Ədəbiyyat

1. Axundov A., Babayev S., Zeynalov F.H. İngilis və Azərbaycan dillərində vurğunun ritmo-melodik xüsusiyyətləri . Bakı, 1996.
2. Babayev S., Qarayeva M. English phonetics. Bakı, 2005
3. Vassilyev V.A. English phonetics. M., 1980.
4. Zeynalov F. H. Practical English phonetics. Bakı, “Mütərcim” 2012

П.М.Джафарова

Основные особенности фразового ударения

Резюме

Статья посвящена взаимосвязи фразового ударении. А также мелодии в английском языке. В статье было предпринята попытка изучения основных функций фразового ударения в связной речи. А также взаимосвязан фразового ударения компонентами интонации, особенно с мелодией.

Таким образом, в данный статье фразового ударения рассматривается на фонетическом и на функциональном уровнях.

P.M.Jafarova

The main pecularities of Sentence stress in English

Summary

The article deals with the interrelation of sentence stress and melody in the English language. In the article an attempt is made to study the major functions of sentence stress in connected speech. And its relation to the components of the intonation, especially to melody.

Thus, sentence stress is being studied on the phonetic and functional levels in the article.

Rəyçi: filol.f.d. K.A.Alırzayeva

Redaksiyaya daxil olub: 25.05.2022

Ə.B.ƏKBƏROVA
baş müəllim
e-mail: esmaye@inbox.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

FRANSIZ DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ROLU

Açar sözlər: *semantik xüsusiyyətlər, dil strukturu, frazeologizmlər, obrazlılıq, danışıq tərzi.*
Ключевые слова: *смысловые особенности, структура языка, фразелогизмы, образность, разговорность.*
Key words: *phraseological phrase, scope, lifestyle, word stock public phenome-non, emotional expression, national treasure.*

Dilin lüğət tərkibində hazır şəkildə mövcud olan və məcazi məna kəsb edən birləşmələr frazeoloji birləşmələr adlandırılır. Frazeoloji birləşmələr insanların uzunmüddətli müşahidə və həyat təcrübələrinin məhsulu olub, məxsus olduğu xalqın həyata baxışını, dünyagörüşünü, düşüncə tərzini, mentalitetini özündə əks etdirir. Frazeoloji birləşmələr nitqə obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidlərindəndir. Frazeologizmlərə həm bədii, həm publisist, həm də digər üslublarda rasi gəlinir. Onlar ədəbi dilin yazılı növündə, əsasən bədii əsərlərdə, xüsusi üslubi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu böyüdür, bədii əsərin emosionallığına, üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir. Frazeologizmlər möhkəm milli xüsusiyyətə malikdir. Hər hansı bir dilin frazeologizmlərini öyrənməklə, biz həmin dilin sahibi olan xalqın mədəniyyəti, tarixi, həyat və yaşayış tərzi ilə yaxından tanış oluruq.

Hər bir dilin özünəməxsus frazeoloji birləşmələri var. Təsadüfi deyildir ki, belə birləşmələri aid olduğu dilin milli sərvəti adlandırırlar. Frazeoloji birləşmələr dilin öz səciyyəvi vahidi olub, başqa dilə hərfən tərcümə olunması mümkün deyildir. Fransız dilinin də kifayət qədər özünəməxsus frazeoloji birləşmələri vardır və belə birləşmələr bu dildə rəngarəngliyi və müxtəlifliyi ilə diqqəti cəlb edir.Fransız dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürəkkəb frazeoloji sistem minillik tarixə malikdir. Onlar müxtəlif ictimai tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. Fransız dilinin frazeologizmlərinin əmələgəlmə mənbəyi, əsasən, xalq danışıq dili, yazılı ədəbiyyat və folkloru olmuşdur.

XX əsrin əvvəllərində frazeologiya məsələləri ilə bir çox dilçilər məşğul olmuşlar. Belə alimlərə İsveç dilçisi Şarl Balli (1909), Ferdinand dö Sössür (1916), Albert Sisley (1921), Qomelis dö Boyer (1922), E.Polivanov və N. Vinoqradov (1930-1940), Ogen Koşeryu və başqalarını göstərmək olar.

XX əsrin əvvəllərində frazeologiya məsələləri ilə ilk dəfə Şarl Balli məşğul olmuşdur. O, dilçilik tarixində birinci olaraq frazeologiyanı leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirmişdir. O, dildə sabitləşən söz birləşmələrini "frazeoloji ifadə", onlardan nisbi müstəqillyini saxlayan sözlərin iştirakı ilə düzələn söz birləşmələrini "frazeoloji qrup", elementləri tamamilə bir-birilə əlaqədar olan söz birləşmələrini "frazeoloji bitişmə" adlandırmışdır. Bunlardan başqa, Ş. Balli "ara tip" adlı qrupu da qeyd etmişdir. (Essai de lexicologie du français moderne Chapitre IV P 53. P.87-94)

Frazeoloji birləşmələr danışıq dilinin zənginləşməsində çox böyük rol oynayır. Hər bir birləşmənin öz tarixi və öz yaranma forması vardır. Bəzən çatdırmaq istədiyimiz fikir heyvanlar, çansız əşyalar və təbiət hadisələri ilə müqayisədə verilir. Bütün bunlar dilə zənginlik və məna çalarları gətirir. Fransız dilində isə ismin hal kateqoriyası olmadığından, müxtəlf variantlarda sözönlərindən və köməkçi feillərdən istifadə olunur.Ana dili ilə müqayisəli tədqiq

ediləndə isə tərcümə prosesində xeyli məsələlər aydınlaşır, müxtəlif dillərin quruluşu, daxili məna imkanları, oxşar və fərqli cəhətləri üzə çıxır.

1. Frazeoloji birləşmələrin tərkibi dəyişməz olur:

En avoir marre - cana yığılmaq, bezmək.

Ex: Salers a le cafard. İl est en tôle depuis quatre ans lui, et il **en a marre** (G.de Maupassant. Mont-Oriol. P.43).

Ex: En fuyant le loup rencontrer la louve, tomber de la poêle dans la braise – yağışdan çıxdıq, yağmura düşdük.

2. Bu ifadələr dildə hazır şəkildə mövcud olur:

Qarder rancune ȧ qn – kin bəsləmək, küsü saxlamaq.

Ex: Son père s`emportait,levait la main, lui **gardait** longtemps**rancune** pour les quatre francs qu`il trouvait en moins ȧ la fin de la quinzaine(E.Zola . La Fortune des Rougon. 71).

3. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və yalnız məcazi mənada işlənir:

Se porter comme une chêne –palıd kimi möhkəm olmaq

Ex: Votre père est toujours vaillant? Oui.İl est en plein forme, il **se porte comme un chêne**.(A.Dumas.Le Comte de Monto–Cristo.p.83).

Ex: Cela lui va comme une bague à un chat – uzunqulağa yaraşan kimi yaraşır.

4. İki və daha artıq sözdən ibarət olur:

Etre dans une misère noire – səfillik içərisində olmaq.

İl n`ya pas de quoi fouetter un chat - itə atmağa daş yoxdur.

Ex: L`entrevue eut lieu le mardi matin, le jour ou le coron **tombait ȧ la misère** noire (E.Zola.Germinal.p.127).

5. Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşür:

Garder une dent ȧ qn –dişlərini qıcamaq, qəzəblənmək.

Tout chien est bon dans sa maison – hər şey öz yerində gözəldir.

Ex: On murmurait,d`ailleurs qu`Antoine Colas avait eu ȧ souffrir de ses perfidies et lui **gardait une dent** (G.de Maupassant.Mont-oriol. p.195)

6. Cümlədə tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olur:

Etre sur des épines – tikan üstündə oturmaq

Ex: En ce moment donc monsieur d`Adjuda –Pinto était **sur des épines** et voulait sortir; en se disant que Mme Beauséant apprendrait cette nouvelle (H.de Balzak. Le père Goriot. p.168).

7. Birləşmə daxilində müqayisə yaradır:

Etre une brousaille colossale.

Ex: Ce jardin ...**était une broussaille colossale**, c'est-ȧ-dire quelque chose qui est impénétrable **comme une forêt**,peuple**comme une ville**, frissonnant comme **un nid**,sombre **comme une cathedrale**, odorant comme un bouquet,solitaire **comme une lombe**, vivant **comme une foule**.

(Réné Georgin. Les secrets du style. Paris, 1961.p.143)

8. Sözönləri ilə işlənir:

En avoir assez – cana doymaq, bezmək.

9. Bəzən bir sözdən bir neşə frazeoloji birləşmə yaranır: Ex:

boire un bon **coup** - artıqlaması ilə içmək

*recevoir**un coup** de soleil*- aşıq olmaq, vurulmaq;

*se donner **un coup** de soleıl* - şənlik içərisində olmaq;

*tenir**le coup***- davam gətirmək;

Ex: Le forgeron, qui tenait sa rédingote tenait Gervaise ȧ son bras gauche et Virginie ȧ son brat droit: İ1 **faitsait panier** ȧ deux ances.

10. Elə birləşmələr də olur ki, həm həqiqi , həm də məçazı - mənada işlənir:

laver la tête à qn – baş yumaq, yaltaqlanmaq

Ex: La mère lave la tête de sa fille – ana qızının başını yuyur.

İl lui lavait la tête pour sa mauvaise conduite – o, pis hərəkətinə görə ona yaltaqlanırdı.

Müasir fransız dilində frazeoloji vahidlər onu təşkil edən komponentlərin mənasından asılı olaraq bir neçə qrupa bölünür. Mütəxəssislərin təsnifatını nəzərdən keçirdikdə, frazeoloji birləşmələrin aşağıdakı növlərinin olduğunu görə bilərik:

1. Feili frazeoloji birləşmələr: Feili birləşmələrdə olduğu kimi, frazeoloji birləşmələrdə də əsas tərəf feilin təsriflənməyən formaları ilə ifadə olunduqda feili frazeoloji birləşmələr əmələ gəlir. Azərbaycan dilində olduöu kimi, fransız dilində də feili frazeoloji birləşmələr rəngarəng və intensiv işlənmə xüsusiyyəti ilə diqqəti cəlb edir. Nümunələrə diqqət yetirək:

a) Arriver comme dans un fauteuil – asan qələbə qazanmaq

Ex: Ce n`est pas facile d `arriver dans une fauteuil.

b) Briller comme un fer rouge - qızmış dəmir kimi parıldamaq

Ex: Les mouvements qu'il venait de faire avaientra vive au creux du dos ces escarres qui le brillaient comme un f e r rouge(R. M a r t i n d u Ga rd) .

2. İsmi frazeoloji birləşmələrdə isə məcazi mənalı birləşmənin əsas tərəfində adlar qrupundan olan söz dayanır.

Laborieux comme une abeille; colombe de la paix; coup de main; combattant pour la paix; arme blanche; pauvre diable.

Ex:Soetkin, femme de Claes, était une bonne commerce, matinale comme

I 'aube et diligente comme une abeille(Ch.d e Co s t e r) .

3. Zərfi frazeoloji birləşmələr:

Tout a coup;tout de suite; sur le champs; par jour; jamais de la vie; à belles dents.

Raide comme - top kimi sərrast

Ex:Un soir, elle (madame Lerat)s'approcha du monsieur et luienvoya raide comme balle que ce qu'il faisa it la n 'e ta it pas bien(Z o 1 a).

4. Sözönülü frazeoloji birləşmələr:

A cause de; histoire de; de peur que; de crainte que; grâce à.

Ex:En mettant sa main au feu –canını oda yaxaraq

5. Sifəti frazeoloji birləşmələr:

Dur comme le fer –dəmir kimi - möhkəm

Ex:C'etait un typo bien français, le Frangais inte llig en t qui n 'est pas "humain" Un caillou dur comme de fer: rien n'y peut penetrer...(R. Rolland).

Sinonim, omonim və antonim frazeoloji birləşmələr – les locutions phrazéologiques omonymes, sinonymes et antonymes

Frazeoloji birləşmələr omonim, sinonim və antonim ola bilir.

Frazeoloji sinonimlər - Frazeoloji sinonimlər dedikdə eyni və yaxın mənalı frazeoloji birləşmələr başa düşülür. Ex:

a) Avoir de la chance - bəxti gətirmək;

Ex:Vous avez de la chance. Parce que vos enfants et votre mari vous aime - Sizin bəxtiniz gətirib.Əriniz və oğlanlarınız sizi sevir.

b) Avoir de la veine – bəxti gətirmək, şansı tutmaq;

Ex: Vous avez trouvé du travail. Donc, vous avez de la veine – Siz iş tapmısınız. Deməli, bəxtiniz gətirib.

c) Etre né coiffé – bəxti əvvəldən gətirmək;

Ex: Oui, on a raison de dire des gens qui sont bien nés; celui-laest né coiffé.(G.Flaubert, L`Education sentimentale). – Bəli, adamlar haqlıdırlar. Onun bəxti əvvəldən gətirib.

Frazeoloji omonimlər - Frazeoloji omonimlər dedikdə eyni frazeoloji birləşmənin müxtəlif mənalar ifadə etməsi başa düşülür. Belə birləşmələrin əksəriyəti "avoir, être, faire, prendre, mettre" feillərinin köməyi ilə düzəlir.

Ex: Il était une fois, dans la ville de Foix, une marchande de foie qui disait : ' Ma foi, c'est la première fois et la dernière fois que je vends du foie dans la ville de Foix. '

Frazeoloji antonimlər – Frazeoloji antonimlər dedikdə elə birləşmələr nəzərdə tutulur ki, onlar bir-biri ilə əks mənalar ifadə etsin. İstər sözlərin, istərsə də frazeoloji birləşmələrin antonimliyi bədii ədəbiyyatda antiteza yaratmaq baxımından əlverişli vasitə hesab olunur. Frazelji antonimlər leksik-semantik cəhətdən çox rəngarəngliyi ilə diqqəti cəlb edir. Bu baxımdan onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Hərəkət, fəaliyyət bidirənlər:

Ex: Relentir le pas – presser, accélérer le pas;

addımları yavaşıtmaq-addımları yeyinlətmək.

2. Əlamət, keyfiyyət bidirənlər:

Ex: Avoir froid - avoir chaud - soyuqlamaq – istilənmək

3. Miqdar, kəmiyyət məzmunu ifadə edənlər:

Ex: Mon verre **n`est pas grand**, mais je bois dans **mon petit verre**–başqasının əlinə göz dikməmək

4. Məsafə bidirənlər:

Ex: Avoir **une longue vue** – ne pas voir plus loin que le but de son nez - uzaqgörən olmaq – burnunun ucundanuzağı görməmək.

5. Cəki, güc, sürət mənası ifadə edənlər:

Ex: Etre fort comme un boeuf – être très faible

Öküz kimi güçlü olmaq – çox zəif olmaq

6. Mücərrəd keyfiyyət məzmunlu birləşmələr: (sadə, mürəkkəb, şişirtmək, çoxaltmaq, azaltmaq və s.) bildirir:

Ex: Faire maigre chaire – faire bonne chaire – paxıl olmaq–əliaçıq olmaq

7. Hal-vəziyyət (zənginlik, dovlət, sərvət - kasıblıq) bidirənlər:

Ex: Etre riche, etre pauvre - zəngin olmaq, yoxsul olmaq

8. Emosional münasibət məzmunu ifadə edənlər:

Ex: Faire le modeste – faire l`important, prendre des airs;

adi görkəm almaq – ciddi görkəm almaq

9. Zahiri görkəm mənası ifadə edənlər:

Ex: avoir des jambes de coq - avoir des jambes gros - cöp kimi ayaqları olmaq, ayaqları dolu olmaq.

10. Tərz bildirənlər:

Ex: Parler français comme une boeuf – parler français comme un perroquet.

Fransızca qırıldatmaq - fransızca bülbül kimi ötmək

11. Emosional və intellektual xüsusiyyət bildirənlər:

Ex: Etre copin comme cochon – se traiter comme le chien et le chat;

yaxın dost olmaq; it-pişik kimi davranmaq.

12. Xasiyyət bidirənlər:

Dur (sec) comme un caillou - daş kimi bərk,sərt; mou comme du colon - quzu kimi həlim

13. Müqayisə məzmununa malik olanlar:

Etre secret comme un coup de canon – sirr saxlamamaq; être secret comme un tombeau – qəbir kimi

Ədəbiyyat

1. Dictionnaire de l ’Academie Française. Huitieme edition, 2 vol. Paris, 1932.
2. E.Littre. Dictionnaire de la langue fransaise, 7 vol. Paris, 1958.
3. İ.N.Timescova, B.A.Tarxova. Essai de lexicologie du français modern. Leningrad, 1967.
4. Larousse du. XX sieclc en six volumes (1927-1933). Paris.
5. P. Larousso. Grand dictionnaire universel en 17 vol. (1866-1876). Paris.
6. Réné Georgin. Les secrets du style. Paris, 1961. p.143.
7. Ş.Balli. Essai de lexicologie du français moderne. Chapitre IV. p. 53; p.87-94.
8. E.Zola. Germinal. p.127.

А.Б.Акбарова

Роль фразеологических соединений во французском языке

Резюме

«Выражение состоит из сочетания двух или более слов, являющихся прямой частью речи, компоненты которого синтаксически и семантически неразделимы, структурно сходны со свободными словосочетаниями или предложениями, готовыми к наличию в языке и традиционно либо в одной формы или грамматически. Фразеологизмы называются видоизмененными конструкциями». Фразеологические сочетания являются одной из языковых единиц, придающих речи образность и выражающих мысли. Фразеологизмы используются в художественном, публицистическом и других стилях. Им отводится особая стилистическая роль в письменной форме литературного языка, преимущественно в художественных произведениях. Фразеологические сочетания повышают мощность мысли писателя, служат эмоциональности художественного произведения, обогащению стилистических качеств. Фразеологизмы имеют ярко выраженный национальный характер. Изучая фразеологию любого языка, мы знакомимся с культурой, историей, бытом и бытом людей, говорящих на этом языке. Эта сложная фразеологическая система, сформировавшаяся в результате исторического развития, имеет тысячелетнюю историю.

A.B.Akbarova

The role of phraseological compounds in French

Summary

“An expression consists of a combination of two or more words that are a direct part of speech, the components of which are syntactically and semantically inseparable, structurally similar to free word combinations or sentences, ready to be present in the language and traditionally either in one form or grammatically. Phraseologisms are called modified constructions”. Phraseological combinations are one of the linguistic units that bring figurativeness to speech and express ideas. Phraseologisms are used in artistic, publicist and other styles. They have a special stylistic role in the written form of literary language, mainly in works of art. Phraseological combinations increase the capacity of the writer's thought, serve the emotionality of the work of art, the enrichment of stylistic qualities. Phraseologisms have a strong national character. By studying the phraseology of any language, we get acquainted with the culture, history, way of life and way of life of the people who speak that language. This complex phraseological system, formed as a result of historical development, has a millennial history.

Rəyçilər: filol.f.d., dos. U.B.Mürşüdova,
ADPU-nun Şəki filialının
“Dillər və onların tədrisi texnologiyası” kafedrası
(29.04.2022-ci il tarixli iclasın qərarı (pr. №7))

Redaksiyaya daxil olub: 29.04.2022

L.R.ƏLİYEVA
doktorant

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

QƏDİM DÖVR İNGİLİS DİLİNİN FORMALAŞMASINA TƏSİR EDƏN ƏN MÜHÜM TARİXİ HADİSƏLƏR

Açar sözlər: *sintetik dil, analitik dil, eramızdan əvvəl, işğalçı tayfalar, feodal münasibətləri, Xristianlıq*
Ключевые слова: *синтетический язык, аналитический язык, до н.э., феодальные отношения, Христианство*
Key words: *synthetic language, analytical language, BC, invading tribes, feudal relations, Christianity*

Müasir ingilis dilinin təkamül dövrünü diaxronik aspektdə araşdırdıqda fərqli dövrlərdə dilin fonetik, qrammatik və leksik sistemini müqayisə etdikdə onun tarixən köklü dəyişikliklərə uğradığını müşahidə etmək olar. Ən başlıca fakt olaraq onu demək kifayətdir ki, qədim dövrdən başlayaraq orta dövrə, təxminən XI əsrin əvvəllərinə qədər ingilis dili şəkilçili sintetik dil olmuşdur. Qədim dövr ingilis dilində cümlə üzvləri arasındakı sintaqmatik əlaqələr müxtəlif paradiqmlər vasitəsilə ifadə olunurdu. Belə ki, isimlərdə zəngin hal, mənsubiyyət və cins şəkilçiləri, feilin zaman formalarını, məchul növünü, şəkil kateqoriyasını ifadə edən çoxlu sayda morfoloji əlamətlər bu dövr ingilis dilinin qrammatik sistemi üçün xarakterik idi. Şəxs, yiyəlik və işarə əvəzlikləri isimlə və sifətlə şəxsə, kəmiyyətə və cinsə görə uzlaşırdı. İsimlərin cinslərə görə bölgüsündə artikllar mühüm rol oynayırdı. Tədqiqatçılar qədim ingilis dilinin qrammatik quruluşunu çox zaman müasir alman dilinin daxili sistemi ilə müqayisə edirlər, hansı ki, bu dil həm sintetik, həm də analitik formalarla zəngin, qrammatik cins kateqoriyasının "hökmranlıq etdiyi" bir dildir. İngilis və alman dilləri Hind-Avropa dilləri ailəsinin german yarımqrupuna aid olub tarixən german tayfalarının dillərinin təsiri altında formalaşmışlar və onların leksik sistemində oxşarlıq olsa da, lakin tarixi inkişaf, müəyyən daxili və xarici amillərin təsirilə ingilis dilinin qrammatik sistemi fərqli istiqamətdə inkişaf etmiş, dildəki şəkilçilərin əksəriyyəti, qrammatik cins kateqoriyasını ifadə edən morfoloji əlamətlər zəifləyərək tədricən dili tərk etmişlər. Qədim ingilis dilində vurğulu hecada tələffüz olunan sait səslər orta dövrdə zəifləyərək *e* hərfi ilə yazılmış və [ə] səsi ilə tələffüz olunmuşlar, müasir dövr ingilis dilində isə çox zaman *e* hərfi tələffüz olunmur. Məsələn,

Qədim dövr	Orta dövr	Müasir dövr
stān-as	ston-es	stones – daşlar
sun-u	sun-e	son – oğul
sun-a	sun-e	sons – oğullar
lōc-ode	lok-ede	looked – göründü (8)

Mütəxəssis rəylərinə görə, bunun başlıca və ən əsas səbəblərindən biri ingilis dilinin formalaşdığı tarixi mühit, irimiqyaslı işğallar dövründə işğalçı dilin yerli dilə təsirinin nəticəsidir. Bununla bağlı A.C.Bou və T.Keibl belə yazırlar: *"Bugünkü ingilis dili əsrlərin inkişafını özündə əks etdirir. İngilis dili daim dəyişən, inkişaf edən və yenilənən bir dildir. Bu dəyişikliyi ingilis dilinin lüğət tərkibində və qrammatik quruluşunda görmək olar. Bir zamanlar şəkilçili, sintetik dil olan ingilis dili bu gün analitik dildir"* (2, s. 2-3).

M.Paşayeva ingilis dilçisi H.Svitə istinad edərək yazır: *"Dilin öz inkişafı prosesində kəsb etdiyi müəyyən fonetik-morfoloji əlamətlərə əsaslanaraq ingilis dilçisi Henri Svit dövrləri aşağıdakı şəkildə adlandırmışdır:*

1. Qədim ingilis dili dövrü – tam/dolu/sonluqlu dövr/(full endings)
2. Orta ingilis dili dövrü – zəifləmiş sonluqlu dövr / (levelled endings)

3. Yeni ingilis dili dövrü – sonluqları itirilmiş dövr/ (lost endings)" (1, s. 41-42).

Qeyd edək ki, Henri Svitin ingilis dilinin tarixini tədqiq etməkdə xüsusi rolu olmuşdur. O, Qədim dövr ingilis dilinin tarixi ilə bağlı bir neçə əsər yazmışdır. Hətta onu *"Dünyaya qədim ingilis dilini öyrədən şəxs" (The man who taught the world old English)* (5) adlandırırlar.

Qeyd olunduğu kimi, müasir ingilis dilinin formalaşma və inkişaf tarixi müxtəlif səviyyəli barbar tayfalarının qarət və işğalçılıq, müstəmləkə yürüşləri ilə formalaşan dövrə təsadüf etmişdir. Yalnız qüdrətli Roma imperiyası dövrünə görə adalara yüksək təhsil, mədəniyyət gətirmişdir. Lakin bu sivilizasiya da digər barbar tayfaları Anqlo-Saksonlar tərəfindən dağıdılmışdır. Adalara yeni gələn Anqlo-Saksonlar buranın daimi sakini oldular, V əsrdən başlayaraq adalarda Anqlo-Sakson dövrü başlamışdır. Alimlər ingilis dilinin tarixinin Anqlo-Saksonlardan başladığını qeyd edirlər. Qədim ingilis dilini hərtərəfli tədqiq edən H.Svit qədim dövr ingilis dilini *"Anqlo-Sakson ingilis dili"* (6, s. 15) adlandırmışdır.

Sözügedən mövzu ilə bağlı birinci məqalədə qeyd olunduğu kimi eramızdan əvvəl VI-III əsrlərdə adalar Selt tayfaları, eramızın I-V əsrlərində quldarlıq dövrünün qüdrətli dövləti Roma imperiyası tərəfindən işğal olunaraq əsrlərlə əsarət altında saxlanılmışdır. Hər yeni gələn işğalçı köhnəni sıxışdırıb aradan çıxararaq adalarda hökmranlıq etmişdir. Romalılar beş əsrə qədər adaların sahibi olmuş, öz dillərini, dinlərini, mədəniyyətlərini, adət və ənənələrini Britaniya adalarına gətirmişdilər. Keçən beş əsr müddətində latın və yunan dilləri adada hökmran dil olmuş, bütün dövlət sənədləri bu dildə yazılmış və latın dili yüksək səviyyədə təhsil almaq üçün əsas dil olmuşdur.

Lakin V əsrin ortalarından başlayaraq daxildən qul üsyanları, xaricdən isə qitədə işğalçılıq müharibələri aparan germandilli barbar alman tayfalarının aramsız hücumlarının nəticəsində Roma imperiyası zəiflədi və süqut etdi. Artıq Roma imperiyasının adalardakı hökmranlığı da zəifləyərək tədricən aradan qalxdı. Latın dili dövlət və kilsənin dili olsa da, sadə xalq selt dilində danışırdı, onlar latın dilini başa düşmürdülər.

V əsrin ortalarında qitədə işğalçılıq müharibələri aparan alman tayfaları Gaulu (indiki Fransa ərazisini) işğal edərək Şimal dənizini keçib Britaniya adalarına üz tutdular və 449-cu ildə ilk dəfə Yutlar (Jutes), sonra Anqlo və Sakson tayfaları ada torpaqlarını işğal etməyə başladılar. Onlar işğal etdikləri əraziləri əvvəlcə qarət məqsədilə ələ keçirsələr də, sonralar burada məskunlaşmağa, yerli Selt tayfalarını sıxışdırıb adadan çıxarmağa başladılar. Seltlər ya onlara tabe olur, ya da adanın dağlıq hissələrinə qaçaraq orada məskunlaşırdılar.

Tədqiqatlar göstərir ki, V əsrdən başlayaraq Britaniya adalarında yaşanan tarix, eləcə də qədim ingilis dilinin formalaşması Anqlo-Sakson tayfalarının adı ilə bağlıdır.

Anqlo-Saksonlar iri şəhərlərdə deyil, kəndlərdə yaşayıb əkinçilik və maldarlıqla məşğul olduqlarına görə onlar romalıların inşa etdiyi qalaları, qəsrləri, evləri dağıdır, daş yolları sökür və kəndlərdə özlərinə kiçik evlər qururdular. Ona görə də, bu gün İngiltərədəki əksər kəndlərin adı Anqlo-Sakson mənşəlidir. Məsələn, sonu *ton – hedge – çəpər, burgh, bury – to hide – gizlətmək, ham – home – ev, field – tarla çöl* sözləri ilə bitən, yer bildirən isimlər Anqlo-Sakson mənşəlidir. Bura *Northampton, Southampton, Brighton, Preston, Salisbury, Canterbury, Edenburgh, Middlesbourgh, Nottingham, Birmingham, Cheltenham, Sheffield, Chesterfield, Mansfield* (10, s. 55) və s. sözlər aiddir. Bunlar Anqlo-Sakson mənşəli toponimlərdir.

İngilis dilinin formalaşmasına təsir edən digər mühüm hadisə Britaniya adalarında Xristianlıq dininin qəbul olunması olmuşdur. Bu VI əsrin sonu (597-ci il) Müqəddəs Avqustinin və qırxa qədər rahibin Roma Papası tərəfindən Britaniya adalarına göndərilməsi ilə başladı və VII əsrin ikinci yarısında başa çatdı. Bu zaman Britaniya adası Roma imperiyasına tabe idi. O zamankı Anqlo-Sakson tayfaları çoxallahlığa *(paganism)* sitayiş edirdilər. Lakin Xristianlıq adada vahid din elan olundu. İlk olaraq Anqlo-Sakson kralları və yüksək təbəqə nümayəndələri bu dini qəbul etdilər, sonra isə digər krallıqlara xristianlıq sürətlə yayıldı. Latın dili ölkədə əsas dilə çevrildi. Adada kilsə xaqanlığı başladı. O zamanlar latın dili yüksək, ziyalı təbəqəsinin dili idi. Xristianlığın qəbul olunması adaya o dövrün

mədəniyyətini və təhsil sistemini gətirdi. Latın dili beynəlmiləl dil olaraq işlədilirdi. Adada çoxlu kilsələr və monastırlar tikildi. Rahiblər adanın hər yerində xristianlığı təbliğ edir, dini məktəblərdə yerli gənclərdən gələcəyin latın dilini mükəmməl bilən rahiblərini yetişdirirdilər. Kilsə artıq xalqı itaətdə saxlamağın digər bir vasitəsinə çevrilmişdi. O dövrün alimləri Latın dilində təhsil alır və öz kitablarını bu dildə yazırdılar. Məsələn, 673-735-ci illərdə yaşamış rahib Bid *(The Venerable Bede – hörmətli Bid)* (10, s.77) latın dilində mükəmməl təhsil almış və Anqlo-Sakson tarixindən bəhs edən *Ecclesiastical History of the English People – İngilis xalqının kilsə tarixi* əsərini bu dildə yazmışdır. Qeyd edək ki, bu əsər qədim ingilislərin tarixi haqqında məlumat verən yeganə əsər olmaqla öz dəyərini bu gün də qoruyub saxlamaqdadır.

Artıq dövlət sənədləri latın dilində yazılırdı. Çünki bütün bunlar Roma Britaniyasında baş verirdi. Xristian dininin təsiri altında yunan və latın mənşəli sözlər ingilis dilinə daxil olur, onun fonetik və qrammatik sistemində dəyişikliklərə səbəb olurdu. Məsələn, bu gün ingilis dilində işlədilən *mathematics, physics, arithmetic, geography, theatre, democracy, Europe, galaxy, marathon, marmalade, music, planet* və s. sözləri yunan dilindən; *school, paper, candle, scholar* və s. kimi sözlər latın dilindən keçmişdir. Qeyd edək ki, müasir ingilis dilində işlədilən sözlərin 60%-i latın mənşəli sözlərdir. Onlar ingilis dilində işlədilərkən müəyyən dəyişikliklərə uğramışlar. Məsələn, *villa-villa, house; antiqua – antique, old; longa – long; pictura – picture; nova – new; provincia – province; fama – fame; aqua – water; lingua - language* və s. (4, s.1).

Anqlo-Saksonlar Britaniya adalarında məskunlaşdıqları 250 il ərzində artıq özlərinin yeddi krallıqlarını yaratmışdılar: Esseks, Sasseks, Mersia, Kent, Nosambria, Cənubi Anqlia və Vesseks. Bu krallıqlar arasında adada hökmranlıq uğrunda mübarizə gedirdi. Bəzən üstünlük bir krallıqdan digərinə keçirdi. Krallıqların ən güclüləri Nosambria, Mercia və Vesseks olmuşdur. Lakin IX əsrdən başlayaraq Vesseks əsas krallıq oldu və digər krallıqları öz ətrafında birləşdirdi. Beləliklə, birləşmiş krallıqların, başqa sözlə gələcək İngiltərə dövlətinin əsası belə qoyuldu. Bütün xırda krallıqlar da vahid halda birləşdi. Bunun başlıca səbəbi o dövrdə Qərbi Avropanı lərzəyə salan yeni işğalçı tayfaların hücumları idi. 793-cü ildə adaya hücum edən yeni tayfalar Skandinaviya yarımadasından gələn Norveç, İsveç və Danimarka əsilli tayfalar idi. Onlar VIII əsrin sonundan X əsrin oratalarına qədər müddətdə Britaniya adalarına hücumlar etmişlər. Yeni tayfalar müxtəlif tarixi mənbələrdə fərqli adlarla – qitənin Şimal hissəsindən gəldiklərinə görə *the Northmen – Şimal adamları (*və ya *the Normans),* ən çox hücumlar danimarkalılar tərəfindən olunduğuna görə *the Danes – danimarkalılar, the Vikings – Vikinqlər* adlandırılırdılar. Qədim skandinav dilində *vikinq* sözü *a pirate raid – dəniz quldurlarının hücumu* və ya *vikja* sözündən olub *to move swiftly – cəld hərəkət etmək* və ya *vik – an inlet – nazik dəniz körfəzi* sözlərindən yarandığı güman edilir. Və ya *a fast-moving sailors - mahir, cəld hərəkət edən dənizçilər* mənasında da başa düşülə bilər (9).

Bu tayfalar əvvəlcə işğalçılıq məqsədilə gəlsələr də, sonralar daha güclü donanma ilə gələrək ada torpaqlarının xeyli hissəsini ələ keçirdilər. Skandinaviya adalarından gəlmiş tayfalar da Anqlo-Saksonlar kimi eyni mənşədən olub çox yaxın, anlaşıqlı dildə danışırdılar. Anqlo-Saksonlar adalara hakim olduqdan sonra onlar xeyli inkişaf etmiş, Xristian dinini qəbul etmiş, adaların əvvəlki sakinlərini sıxışdırıb çıxararaq ölkənin ucqar yerlərinə – Şotlandiya, Uels və İrlandiyaya tərəf qovmuşdular. Bu gün də onların danışdıqları dil Qall dili olub Selt mənşəlidir.

Britaniya adalarını zəbt edən tayfalar burada bir neçə əsr məskunlaşdıqlarına görə onlar bura məhrumiyyətlərlə bərabər öz sivilizasiyalarını da gətirirdilər. Skandinaviya tayfaları hələ də aşağı səviyyədə yaşasalar da, onlar cəsur döyüşçü, mahir dənizçi və tacir idilər. Demək olar ki, onlar suların tam hakimi idilər. Vikinqlər o zaman üçün mükəmməl hesab olunan gəmilər, qayıqlar düzəldir, yeri dəmir alətlərlə şumlayırdılar. Onlar adaları zəbt edən kimi burada məhsuldarlığı artırmağa, ticarəti inkişaf etdirməyə, donanma yaratmağa başladılar. Ölkədə feodal münasibətləri sürətlə inkişaf etməyə başladı.

Skandinaviya yarımadasından gəlmiş yeni tyuton tayfaların Britaniya adalarına hücumu ada torpaqlarının dördüncü dəfə yadellilər tərəfindən işğal olunmasının başlanğıcı oldu. Onlar adalara hücum edərək Kent, Anqlia, Nosambria krallıqlarını asanlıqla ələ keçirdilər. Çünki o zaman birləşmiş krallıqlar müharibəyə hazır deyildi, onların yaxşı ordusu və donanması yox idi. 835-ci ildə Danimarkalılar Vesseks krallığına hücum etsələr də, kral Eqbertin qoşunları onları məğlub etdi. Aramsız hücumlara baxmayaraq Danimarkalılar Vesseks krallığını ələ keçirə bilmədilər.

871-ci ildə Vikinqlər Vesseks krallığına yenidən hücum etsələr də, oranı yenə də işğal edə bilmədilər. Bu zaman krallığa Eqbertin nəvəsi kral Alfred başçılıq edirdi (871-899).

Kral Alfred düşmənin qarşısını ala bildi. O, krallıqları qoruyacaq istehkamlar tikdirdi, nizami ordu və güclü donanma yaratdı. Bunun üçün o, qitədən mütəxəssislər gətirtdi. Kral Alfredin qoşunları bir neçə dəfə düşməni məğlub etdi və 886-cı ildə bağlanmış müqaviləyə əsasən Vesseks və Mersia krallığının bir hissəsini vikinqlər tərk etdilər, lakin digər krallıqlar onların əlində qaldı. Beləliklə, Britaniya adaları iki hissəyə ayrıldı. Geniş ərazi Vikinqlərin əlində qaldı və o, Deinlou (the Danelaw) - *"Danimarkalıların qanunlarının hökmranlıq etdiyi yer"* (10, s.89) adlandırıldı.

Britaniya adalarının yalnız bir hissəsi kral Alfredin tabeliyində qaldı. Bağlanmış sülh müqaviləsindən sonra kral Alfred ölkədə yeni quruculuq işləri ilə məşğul oldu, ölkəni yeni qanunlar əsasında idarə etməyə başladı. Ölkənin bütün kişiləri hərbi təlimlərə cəlb olundu, təhsil, elm inkişaf etdirildi. Kral dağıdılmış kilsə və məbədləri bərpa etdirdi, məktəblər açdı, hamının təhsil almasını tələb etdi. O, yunan və latın dillərində təhsillə yanaşı sadə xalqın danışdığı Anqlo-Sakson dilinin də inkişaf etdirilməsinə çalışdı. O zaman latın dilində yazılmış qanunlar toplusunu, İngiltərənin tarixinə dair əsərləri Anqlo-Sakson dilinə tərcümə etdirdi ki, sadə xalq da bu kitabları oxuya bilsin. Kral Alfredin əmri ilə İngiltərənin tarixi Anqlo-Sakson dilində yazılmışdır. Qeyd edək ki, Anqlo-Sakson ingilis dilinin dil kimi formalaşmasında, inkişaf etdirilməsində və gələcəkdə bir xalqın dilinə çevrilməsində kral Alfredin rolu böyükdür. Əbəs deyildir ki, onu ingilis xalqı tarixi xidmətlərinə görə *Alfred the Great – Böyük Alfred* (10, s.87) adlandırmışdır. Bəlkə də, müasir ingilis dilinin ilkin forması hesab olunan Anqlo-Sakson ingilis dili tarixi dönəmin elə anında formalaşmış və inkişaf etmişdir ki, bu dili ortadan qaldıracaq başqa güclü bir gəlmə dil olmamışdır. Çünki Anqlo-Saksonlara qədər Britaniya adaları Seltlər, daha sonra Roma imperiyası tərəfindən istila olunsa da, onların dili vahid dilə çevrilməmişdir. Bir işğalçı digərinin dilini, mədəniyyətini sıxışdırıb sıradan çıxarmışdır. Əlbəttə, onların dillərinin ingilis dilində izləri qalsa da, bu tayfaların dili deyil, məhz Anqlo-Saksonların dili adada hökmran dil oldu. Dövlət sənədləri, yüksək səviyyəli zadəgan təhsili latın və yunan dillərində olsa da, sadə xalq yerli dialektdə danışırdı, onlar latın dilini başa düşmürdülər. Eyni zamanda 450-ci ildən başlayaraq Vikinqlərin istilasına qədər olan dövrdə, təxminən VIII əsrin sonu 793-cü ilədək olan dövrdə Anqlo-Saksonlar adalarda, xüsusilə onun daha əlverişli coğrafiyaya malik olan indiki İngiltərə ərazisində yaratdıqları yeddi krallıqda eyni dilin dörd müxtəlif dialektlərini danışmışdılar. Qədim ingilis dilinin təkamül proseseindən bəhs edən K.Klöver yazır: *"Bizim eradan əvvəl V-VI əsrlərdə Anqlo, Sakson və Yut tayfaları Britaniya adalarını işğal etdi. Onların danışdığı dil demək olar ki, oxşar olub müasir Friz (hazırda Niderlandın şimal-şərqində danışılan dil) dilinə bənzəyirdi və qədim ingilis dili adlanırdı. O zamanlar qədim ingilis dili dörd dialektdə – İngiltərənin şimalında Nosambria, orta hissədə Mersia, İngiltərənin cənubunda və qərbində Vest Sakson və cənub hissədə Kent dialektlərində danışılmışdır"* (7, s. 3). Bu dialektlər eyni bir dilin, yəni Anqlo-Sakson ingilis dilinin variantları olub danışan insanlar tərəfindən qarşılıqlı olaraq başa düşülürdü. Sonralar bura hücum edən Skandinav tayfaları da oxşar dil danışdıqlarından bu gələcəkdə ingilis dilinin daha da zənginləşməsi və inkişafı üçün şərait yaratmışdır. *"Biz bütün bu dialektləri dedikdə Qədim ingilis dilini nəzərdə tuturuq. 1500 il bundan əvvəl heç kim*

Avropanın ucqar hissəsində tərk edilmiş Roma müstəmləkəsində işğalçı tayfalar tərəfindən danışılan bir dilin bu gün dünyəvi bir dilə çevriləcəyini təsəvvür edə bilməzdi" (3, s. 4).

X əsrin ikinci yarısında Vesseks krallığı daha da gücləndi, Skandinaviyalılarla gedən müharibələrdə Vesseks qoşunları qalib gəldi, onlar Vikinqlərin əlində olan bütün torpaqları geri qaytardılar və vahid İngiltərə krallığını yaratdılar. Lakin danimarkalılar ölkədən çıxarılmadı, onlar yeni krallığa tabe olaraq yaşamağa davam etdilər və adaların sakinlərinə çevrildilər. Onların dili Anqlo-Sakson dili ilə eyni kökdən olduğuna görə, onlar bir-birlərini asanlıqla başa düşürdülər. Britaniya adalarını zəbt edən dövlət və tayfalar bu torpaqlarda uzun müddət məskunlaşdıqlarına görə adalardakı həyatın inkişafı üçün də çalışmışlar. Belə ki, skandinaviyalılar meşələri qıraraq əkinçiliklə məşğul olur, ticarəti və gəmiqayırma işini gözəl bacarırdılar. Beləliklə, Britaniya adalarında əmək münasibətlərinin inkişafı feodal münasibətlərinin inkişafına yol açırdı. Britaniya adalarında iri, zəngin torpaq sahibləri zümrəsi formalaşmışdı ki, onlar *lordlar (landlords)* adlandırılırdı. Dövlət artıq belə zəngin adamların mənafeyini qoruyaraq onların hesabına möhkəmlənirdi. Artıq İngiltərə vahid krallıq olaraq inkişaf edirdi. Lakin X əsrin sonlarına doğru Danimarkalıların Britaniya adalarına yeni hücumlara başladı və XI əsrin əvvəllərində onlar bütün İngiltərə torpaqlarını ələ keçirdilər. Kanute (1017-1035) özünü Danimarka, Norveç və İngiltərənin kralı elan etdi. O, İngiltərədəki hakimiyyətini möhkəmləndirmək üçün zadəganlara arxalanır, onlara yüksək imtiyazlar verir, xalqı əsarətdə saxlamaq üçün vergiləri artırırdı. Kanute hakimiyyətini möhkəmlətmək üçün Xristian dinini qəbul etdi və Xristianlıq onun krallıq etdiyi bütün dövlətlərdə vahid din oldu. Kanutenin vəfatından sonra Danimarka krallığı zəiflədi və İngiltərə yenə müstəqil olaraq Anqlo-Sakson kralları tərəfindən idarə olunmağa başladı.

Beləliklə, 793-cü ildən 1066-cı ilə qədər olan dövrdə Britaniya adaları Skandinaviyadan gəlmiş Danimarka, Norveç və İsveç mənşəli barbar alman tayfaları tərəfindən zaman-zaman işğal olunmuş, onların dilləri, həyat tərzi Anqlo-Saksonların yaşam tərzinə və dillərinin formalaşmasına təsirsiz ötüşməmişdir. Bu gün də ingilis dilində skandinav mənşəli sözlər işlənməkdədir. Məsələn, *happy, low, loose, ill, weak, to take, to die, to call, sister, husband, sky, fellow, law, window, leg, wing, harbour* sözləri; *Grimsby, Whitby, Lowestoft, Lincolnshire, Yorkshire, Derbyshire* (10, s.98) və s. toponimləri buna misal göstərmək olar.

Ədəbiyyat

1. Paşayeva, M. M. İngilis dilinin tarixi (qədim dövr) (Mühazirə kursu). Redaktor O. Musayev. Bakı, 1972. 136 s.

2. Baugh, A.C., Cable,T. A History of the English Language. Sixth Edition. – London and New York, 2008, 428 p.

3. Carole Hough and John Corbett. Beginning Old English. 2007. 249 p.
www.users.pfw.edu/flemingd/Hough_Beginning OE.pdf

4. English Vocabulary Derived from Latin. www.enhancemyvocabulary.com

5. Henry Sweet: The Man who taught the world Old English.
www.thijsporck.com/2016/05/29/henrysweet/#:~:text=Henry

6. Henry Sweet, M.A. Anglo-Saxon Reader in Prose and Verse with Grammatical Introduction, Notes and Glossary. Oxford University Press, 1871. 413 p.
www.archive.org/details/ananglosaxonrea00whitgoog/page/n6/mo

7. Klöver, Carolin. Evolution of the English language. Essay. GRIN Verlag. 2018. 8 p.
https://www.grin.com/document/2018

8. OLD ENGLISH GRAMMAR AND EXERCISE BOOK.
www.web.uvic.ca/hrd/oe/docs/oe_grammar.htm

9. www.history.org.uk/primary/resources/

10. Zaitseva, S.D. Early Britain. Moscow "Prosveshcheniye" 1981. 254 p.

Л.Р.Алиева

Наиболее важные исторические события, повлиявшие на формирование древнего английского языка

Резюме

Изучение естественных языков с диахронической точки зрения начинается с изучения эволюционного процесса, которому они подверглись, по отношению к истории народа, которому принадлежит язык. В этом смысле современный английский можно считать языком с богатым историческим становлением. На английский язык сильно повлияли языки других европейских племен, а также греческий и латинский языки, принесенные на острова Римской империей. В этом смысле английский претерпел глубокие изменения в течение эволюционного периода и развивался иначе, чем другие индоевропейские языки. Это вторая статья на эту тему и в ней рассматриваются важные события, повлиявшие на формирование древнеанглийского языка - нападения скандинавских племен на Британские острова, принятие христианства на острове и другие факторы, повлиявшие на формирование англо-саксонского Английский.

L.R.Aliyeva

The most important historical events that effect on the formation of ancient English language

Summary

The study of natural languages from a diachronic point of view begins with the study of the evolutionary process to which they have undergone in relation to the history of the people to whom the language belongs. In this sense, modern English can be considered a language with a rich historical development. English has been heavily influenced by the languages of other European tribes, as well as Greek and Latin, brought to the islands by the Roman Empire. In this sense, English underwent profound changes during the evolutionary period and developed differently from other Indo-European languages. This is the second article on this topic and it examines the important events that influenced the formation of the Old English language - the attacks of the Scandinavian tribes on the British Isles, the adoption of Christianity on the island and other factors that influenced the formation of the Anglo-Saxon English.

Rəyçi: filol.e.d., prof. A.Y.Məmmədov

Redaksiyaya daxil olub: 18.03.2022

T.M.GÖZƏLOVA
baş müəllim
e-mail: gozelovat@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ DÜNYA XALQLARININ MİLLİ XÜSUSİYYƏTLƏRİNİ ÖZÜNDƏ ƏKS ETDİRƏN FRAZEOLOGİZMLƏR HAQQINDA

Açar sözlər: *frazeologizm, mədəniyyət, milli xüsusiyyət, etnonim, stereotip, etno frazeologizm*
Ключевые слова: *фразеология, культура, национальный характер, этноним, стереотип, этно-фразеологизм*
Key words: *phraseologie, culture, national character, ethnonym, stereotyped, ethno phraseologism*

Frazeologiya lingvistikanın iki və daha artıq sözdən ibarət sabit söz birləşmələri ilə məşğul olan və yüz illik ənənəyə malik bir sahəsidir. İsveçrəli dilçi alim Çarls Balli frazeologiyanın ilk tədqiqatçısı hesab edilir. O, ilk dəfə (1905) frazeologiya məfhumunu irəli sürmüş və göstərmişdir ki, frazeologizmlərin mövcudluğu onların semantik təbiətindədir. O, frazeologiyaya müstəqil bir fənn kimi deyil, üslubiyyatın bir sahəsi kimi baxırdı. Bu gün isə frazeologiya dedikdə aşağıdakılar başa düşülür.

1) Frazeologiyanın tədqiqi ilə məşğul olan dilçilik elmi sahəsi
2) Vahid bir dildə frazeologizmlərin tərkibi (V.Flayşera: 9)

30-cu illərin sonlarında Ç.Ballinin ideyaları sovet dilçi tədqiqatçılarının diqqətini cəlb etdi. Bu zaman frazeologiya müstəqil dilçilik sahəsi olaraq artıq inkişaf etmişdi. 40-cı illərdə frazeologiya rus dilçi alimi V.V.Vinoqradovun adı ilə bağli idi və 50-ci illərdə artıq frazeologiya sahəsində böyük sıçrayış yarandı. Sovet dilçiləri və ən əsas da rus dilçi alimi Vinoqradov Ç.Ballinin ideyalarını qəbul etmiş və bunu daha da inkişaf etdirmişdir. Vinoqrodovun frazeologizmlərin təsnifatında və təsvirində boyük xidmətləri olmuşdur. O, frazeologiyanın müstəqil bir fənn kimi yaradıcısı olmuş, rus dilində frazeologiya haqqında təlimi formalaşdırmış, onu nizama salmış, və semantik qruplara bölmüşdür. Bundan sonra alman dilçilik elminə güclü təsir edən rus dilində xeyli sayda elmi əsərlər (E.D.Polivanov, Q.O.Vinokur, S.İ.Abakumov, A.A.Bulaxovskiy və s.) yazılmışdır.

Rus dilçiləri A.A.Potebnya, A.A.Şaxmatov və F.F.Fortunatovun əsərlərinin nəşrindən sonra frazeologiya sovet dilçilik elminin müstəqil bir sahəsinə çevrilmişdir.

50-ci illərdə frazeologizmlərin və sözlərin oxşar və fərqli cəhətlərinin öyrənilməsinə çox diqqət yetirilmişdir. Frazeologizmlər dilin vahid quruluşu kimi təsvir olunmuşdur. (Axmanova 1957)

60-cı illərdə frazeologiyanın obyektinin tədqiqi metodikası V.L.Arxangelskiy, N.N.Amosov, A.V.Kunun, dildə frazeologizmlərin sistem təşkili İ.İ.Çernişeva, N.M.Şanskiy, frazeologizmlərin tarixi inkişafı V.N.Mokiyenko, A.İ.Fyodrov, frazeologizmlərin komponentlərinin valentliyinin əlamətləri S.D.Popova, həmçinin lüğətlərdə frazeologizmlərin təsvirinin işlənilməsi A.M.Babkin, A.İ.Molotkov və s. dilçilərin diqqətini cəlb etmiş və onlar tərəfindən bu sahələr ətraflı işlənilmişdir.

II dünya müharibəsindən sonra frazeologiyanın tədqiqinə aid alman dilli germanistikada heç bir nəzəri iş olmamışdır. Alman dilli məkanda frazeologiya yalnız 20-ci əsrin 70-ci illərindən geniş tədqiq olunmağa başlanmışdır. Bu mövzu ilə ilk olaraq İ.İ.Çernişova 1970-ci ildə özünün "Müasir alman dilinin frazeologiyası" kitabında frazeologiyanın tərifi, təsnifatı, polisemiyası, sinonimiyası barədə çox geniş və ətraflı şəkildə yazmışdır. (İ.İ.Çernişova, 1970)

Son illərdə frazeologiya sistemi rus, ukrayna, gürcü, türkmən, qazax, özbək və s. dillərin frazeologizmləri əsasında yeni metodlarla tədqiq edilmiş və inkişaf etdirilmişdir.

Azərbaycan dilçiliyində frazeologiya əsasən yaxın vaxtlarda tədqiqatçıların diqqətini cəlb etmiş və onlar da frazeologiya sahəsində xeyli iş görmüş, bu mövzu ilə əlaqədar bir sıra əsərlər yazmış, frazeologiyanın ümumi və xüsusi mərhələlərini aydınlaşdırmılar.

Azərbaycan dilinin frazeologiyası barədə ilk dəfə M.Hüseynzadə özünün "Müsir Azərbaycan dili" adlı əsərində məlumat vermişdir. Bundan sonra S.Cəfərovun Azərbaycan dilinin idiomlarından bəhs edən məqaləsi çapdan çıxmış, və ardınca onun müxtəlif illərdə çap olunan kitablarında bu barədə bir qədər də geniş bəhs edilmişdir. S.Cəfərov Azərbaycan dilindəki frazeoloji vahidləri bütöv bir halda "sabit söz birləşmələri" adlandırmaqla onları "sabit idiomlar" və "qeyri-sabit idiomlar" olmaqla iki qrupa ayırmışdır.

1958-ci ildə S.Murtuzayevin M.F.Axundovun komediyalarında işlədilən frazeologiyalardan bəhs edən kitabı çap edilmişdir. Sonralar həmin əsər müəyyən dəyişikliklərlə yenidən çapdan çıxmışdır.

Ə.Orucov Azərbaycan dilinin izahlı lüğətinə həsr etdiyi kitabında frazeologiyadan bəhs etmiş və frazeologiyanın leksikografiya ilə əlaqəli məsələlərinə toxunmuşdur. Bir qədər sonra A.Qurbanovun frazeologiyanın bəzi məsələlərinə dair "Metodiki göstəriş əvəzi" adlı dərs vəsaiti çapdan çıxmışdır.

1967-ci ildə A.Qurbanovun ali məktəb tələbələri üçün yazdığı dərslikdə frazeologiya aid müəyyən məlumat verilmişdir. Onun 1977-ci ildə çap edilmiş "Müasir Azərbaycan dili" və H.Bayramovun "Azərbaycan dilinin frazeologiyasının əsasları" adlı dərs vəsaiti Azərbaycan dilinin frazeologiyasının tədqiqi tarixində mühüm hadisədir. Frazeologiyanın obyekti, frazeologizmlərin əlamətləri, məna çalarları, onların söz və sərbəst söz birləşmələri ilə əlaqəsi, əmələ gəlmə yolları kimi məsələləri ilk dəfə bu əsərdə geniş şəkildə şərh edilmişdir.

Frazeologizmləri dərindən tədqiq edən dilçilər belə bir qənaətə gəlmişlər ki, dilçiliyin bu sahəsi leksikologiyanın tərkib hissəsi deyil, xüsusi dilçilik fənnlərindən biri kimi nəzərdə tutulmalıdır.

Frazeologiyaların mənbəyi onun məxsus olduğu xalq, həmin xalqın tarixi, mədəniyyəti, adət-ənənəsi, həyat tərzi, yaşadığı təbiətdir. Odur ki, frazeologizmlər məxsus olduğu xalqın keçdiyi tarixi dövrləri, adət və ənənələri, təfəkkür tərzini, dünyagörüşünü və psixologiyasını özündə əks etdirir. Buna görə də frazeologizmləri dir dildən digərinə tərcümə edən zaman çətinliklər yaranır.

İnsan cəmiyyətdə yaşadığı və ictimai varlıq olduğu üçün cəmiyyət üzvləri ilə ünsiyyət qurmalıdır. Lakin bəzən ünsiyyət alınmır. Buna səbəb isə mədəniyyətlərin müxtəlif və fərqli olmasıdır. Bu müxtəliflik və fərqlər də dildə öz əksini tapır.

"Dil mədəniyyətin güzgüsüdür. Burada yalnız insanı əhatə edən real dünya, həyatın real şərtləri deyil, həm də xalqın ictimai özünə inamı, onun mentaliteti, milli xüsusiyyətləri, həyat tərzi, adət-ənənələri, mənəviyyatı, dəyərlər sistemi, həyata baxışı, dünyagörüşü özünü əks etdirir. "Dil mədəni dəyərləri leksikada, qrammatikada, frazeologiyada və ədəbiyyatda qoruyub saxlayan mədəniyyətin xəzinə sandığıdır. (Ter-Minosova: 14)

Hər bir frazeologizmin tədqiq edilə biləcək öz tarixçəsi vardır. Məhz frazeologizmlərin mənşəyinin araşdırılması bizə nə üçün bu və ya digər xalqa iddia edilən xarakterik xüsusiyyətlər, keyfiyyətlər və pis vərdişlər aid edilir kimi dəyərli məlumatları verə bilər. Bu baxımdan frazeologizmlər mədəniyyətə məxsus məzmunun daşıyıcıları olduqlarını və bunu nə dərəcədə ifadə etdiklərini kifayət qədər nümayiş etdirirlər. Sübut olaraq tarixi şəxsləri və yerləri, müəyyən bir dövrə aid mentalitetləri, adət-ənənələri, münasibətləri və s. ifadə edən frazeologizmləri misal göstərmək olar. Frazeologizmlər "yaddaş xəzinəsi" olduğunu üçün onların ümumi müzakirəsinində digər xalqların həyatına və mədəniyyətinə baxışın mümkünlüyünü qəbul etmək olar. (C.Földes 2005, 323)

Qeyd etmək lazımdır ki, frazeologizmlərin təqdim etdiyi təsvirlər heç də həmişə həqiqətə uyğun gəlmir. Frazeologizmlərin "güzgü metaforası" adlandirilan təsir gücü olur. Güzgüdə ozünü görən həqiqəti və həmçinin təsdiqi axtarır. Əyər güzgü amansızdırsa bu zaman güzgüyə baxan buna müsbət autostereotip eynəyi taxaraq baxır. Nəticədə digər xalqlara qarşı ancaq ümümiləşdirmə və yarım həqiqət formasında ifadə olunan tənqidi baxış yaranır. Buna görə də onlar hazır, ənənə və mədəniyyət vasitəsilə möhürlənmiş proyeksiyanı, məcburiyyəti simvolizə edirlər və təcrid olunmuşa və əmin olmayana baxırlar. Bu cür eynək etnik korluq təhlükəsinə və fərdi baxış qabiliyyətinin itməsinə səbəb olur.

Hər bir insan böyüyüb boya - başa çatdığı mədəniyyətə görə fərqli təsir bağışlayır. Heç kim şübhə etməz ki, alman fransızdan, amerikandan, hindlidən, çinlidən, türkdən, azərbaycanlıdan fərqlidir. Bunu aşağıda verilmiş nümunələrdən aydın görmək olar, məs.: Lerne in İtalien, kleide dich in Deutschland, flirte in Frankreich, schmause in Polen - *Italiyada öyrən, Almaniyada geyin, Fransada nazlan, Polşada tolazla;* Der Pole wird betrogen vom Deutschen, der Deutsche vom Italiener, der Italiener vom Spanier, der Spanier vom Juden, der Jude vom Teufel - *Polyakı alman, almanı italyan və ispan, ispanı yəhudi, yəhudini şeytan aldadar;* Der Deutsche glaubt an Gott, wie der Teufel an seine Hörner – Alman Allaha Şeytan öz buynuzlarına inandığı kimi inanır; Der Deutsche ist klug bis Mittag, bald danach wird er töricht – *Alman günortaya qədər ağllıdır, bundan az sonra başını itirir;* Einen Deutschen erkennt man an seinem Singen, einen Hund an seinem Bellen - *Alman mahnı oxumağından, it hürməyindən taninar;* Nähre dich dem Deutschen nicht ohne einen Stock – *Almana dəyənəksiz yaxınlaşma (azərbaycan dilində də uyğun "İtlə dostluq et amma çomağını əlindən yerə qoyma);* Ein hungriger Pole ist böse und ein satter Pole ist müde – *Ac polyak əsəbi, tox polyak yorğun olur;* Ein Engländer ist jemand, der Dinge macht, weil sie vorher gemacht wurden, ein Amerikaner ist jemand, der Dinge macht, weil sie vorher noch nicht gemacht wurden – *İngilis o kəsdir ki, əvvəllər görülən işləri görər, amerikan isə o kəsdir ki, heç vaxt görülməyən işləri görər;* Die Chinesen sind höflich, fleißig, vielleicht auch ein bisschen hinterlistig – *çinlilər nəzakətli, çalışqan, həmçinin bəlkə də bir az məkrli və hiyləgərdirlər;* Einem Russen kommen die besten Gedanken hinrerher – *Rusun ağılına ən yaxşı fikir sonradan gəlir (rusun sonrakı ağılı); Einem Müslim kommen die besten Gedanken hinterher – müsəlmanın sonrakı ağıli;* Die Russen sind Säufer, grob, ohne Manieren – *Ruslar çox spirtli içki qəbul edən, kobud və özünü apara bilməyəndir.*

Hər bir millət, hər bir insan müxtəlif keyfiyyətlərinə - yaşına, cinsinə, saç düzümünə, geyiminə, davranışına, dərisinin rənginə, etnik mənsubiyyətinə görə bu cür kateqoriyalara bölünür.

Stereotiplər – qpup və şəxslərin elə təsvirləridir ki, burada onların müəyyən keyfiyyətləri sadələşdirilir. Stereotiplərdə neytral və pozitiv dəyərləndirmələr ola bilər.

Elə keyfiyyətlər vardır ki, kimsə onu neqativ dəyərləndirir. Belə olan halda da mühakimələr ümumi münasibəti ifadə edir.

Yəqin ki, millətlər və etnik qruplar kimi etnostereotiplər – yaxud etnik mühakimələr çox qədimdən mövcuddur. Bütün dil mədəniyyətlərində digər xalqlar yaxud da digər mədəni çevrələr barədə stereotip təsəvvürlər olmüşdur və qrupların həyat tərzi və vərdişlərinin faktlara həmçinin də obyektiv həqiqətə uyğun gəldiyini göstərmir. Bu uyğunsuzluğun səbəbi hər şeydən əvvəl bir etnik qrupun (millət, mədəniyyət, cəmiyyət və s.) digər bir etnik qrup üzvlərinin görüşməsi, qarşılaşması zamanı yaranan münasibətlərindən asılıdır. Əcnəbini qəbul edildiyi cəmiyyətdən fərqləndirən əlamətləri vardır. Əcnəbinin yaxud da naməlumun fərqlı tərəflərinin (nəzərə çarpan əlamətlər yaxyd davranış tərzləri) görünməsi ilə qarşıdurma baş verir – bu da əcnəbi qrupa qarşı özünü müəyyənləşdirməyə, nizama salmağa və məsafə saxlamağa kömək edir. Bu əlamətlərə görə də o, gərginlik yaradır. Buna səbəb onun özünü mövcud nizam-intizama müvafiq formada nizamlamasıdır. Qəbul edilən qrup özünü təhlükədə hiss edir və əcnəbinin dəyərləndirməsini tələb olunan hesab edir.

Stereotiplər etnofrazeologizmlərin (yaxud da etnofaulizmlərin) yaranması üçün əsas səbəbidir. (Etnofaulizm məfhumu 1944-cü ildə amerika psixoloqu A.A.Robak tərəfindən düşünülmüşdür.) Etnofrazeologizmlər etnik auto- və heterostereotiplərin çox yaxşı daşıyıcılarıdırlar.

Etnofaulizm - bir etnik qrupun, digər bir etnik qrupa olan neqativ münasibəti səbəbindən yaranan təsvirdir. Belə təsvirləri özündə əks etdirən xeyli etnofaulizm nümunələri vardır, məs.: ingilislər üçün ada meymunları (*İnselaffen),* fransızlar üçün qurbağa yeyənlər (*Froschfresser)*, italyanlar üçün şpagetti yeyənlər *(Spaghettifresser),* almanlar üçün kələm yeyənlər *(Kräutfresser),* kartof alman yaxud da kartof yeyənlər *(Kartoffeldeutsch oder Kartoffelfresser)*, Türkiyədə yaşayan kürdlər üçün dağ türkləri *(Bergturken)*, türklər üçün dönər yeyənlər *(Döner-Fresser)* və s. ifadələr işlədilir. Bu cür etnofrazeologizmlər incik formada, təhqiramiz ifadələr kimi işlədilir.

Heterostereotiplər frazeologizmlərdə əcnəbi xalqların təbii təsvirlərini əks etdirirlər.

Fransızlar musiqini çox sevirlər, etibarlıdırlar, positiv, cəsur, tolerantdırlar, onlar üçün sevgi, dostluq, hədiyyələr çox önəmlidir, məs.: französisch krank sein/französische Krankheit – *fransız xəstəliyi (qonoreya);* Bu xəstəliyə həm də englische, italienische, russische Krankheit - *ingilis, italyan, rus xəstəliyi* də deyilir. französisch einkaufen – *oğurluq etmək;* jemandem französisch vorkommen – *ağılsız, sırtıqtəsiri bağışlamaq;* wie Gott in Frankreich leben – *qayğısız, firavan yaşamaq;* ein französisches Bett – *ikinəfərlik geniş çarpayı;* sich auf französisch empfehlen/verabschieden – *vidalaşmadan, hörmətsizlik edərək gizlincə bir yeri (qonaqlığı, şənliyi) tərk etmək;* französischen Urlaub machen - *əsaslı səbəb olmadan işə, dərsə getməmək;* jemand spricht französisch wie die Kuh spanisch – *çətın, başa düşülməyən dildə danışmaq;* Nimm das Leben mit einem Lächeln und die Tränen werden Freudetränen sein – *Həyata gülümsə ki, göz yaşların sevinc göz yaşlarına çevrilsin;* Für ein mutiges Herz ist nichts unmöglich – *Cəsarətli ürək, cəsarətli insan üçün heç bir şey mümkünsüz deyil;* Die Zeit heilt alle Wunden - *Zaman bütün yaraları sağaldır;* Die Musik drückt aus, was nicht gesagt werden kann – *Dilin deyə bilmədiyini musiqi ifadə edir;* Kleine Geschenke erhalten die Freundschaft – *Kiçik hədiyyələr dost qazandırır;* Wenn ein Freund etwas Schlechtes getan hat, vergiss nie, was er alles Gutes getan hat – *dost azacıq pis bir iş edibsə, etdiyi bütün yaxşı işləri də heç vaxt unutma və s..*

Alman dilində dünyanın müxtəlif xallqlarını, onların adət-ənənəsini, milli xüsusiyyətlərini özündə əks etdirən saysız-hesabsız frazeologizmlər mövcuddur. Məsələn: Da ist Holland in der Not – *çox çətin durumda olmaq;* wie ein Holländer durchgehen – *diqqətsiz olmaq*; einen Holländer machen - *tez aradan çıxmaq, əkilmək;* holländisch gehen – restoranda, kafedə, barda yalnız öz hesabını ödəmək; russisches Roulette – *riskli hərəkət;* jemanden russisch lieben – *kimdənsə ötrü darıxmaq;* voll wie ein Russe – *həddən artıq spirtli içki qəbul etmiş;* einen Russen haben – *həmişə içkili olmaq;* jemandem einen Russen aufbinden – *kimisə aldatmaq;* Tatarennachricht – *səhv məlumat, həqiqəti əks etdirməyən qorxunc xəbər;* jemandes Kleider lernen hebräisch - *əşyalarını qirov qoyan adam haqqında;* Judenschule – *çox səs-küylü, qarmaqarışıq;* eine Judenschule aufmachen – *çox səs-küy salmaq*; wie ein Ferkel in der Judenküche – *arzuolunmaz. Istənilməyən şəxs;* die jüdische Hast – *tələm-tələsik, plansız, həyəcanlı;* wie ein Jude handeln – *kəskin, ağıllı danışıqlar aparmaq;* christlicher Jude/getaufter/katholischer Jude – *mənfəətpərəst, öz mənafeyini güdən adam;* die Judennase - *əyri burun;* Judenbeine - *əyri ayaqlar;* kein Geld, keine Schweizer - *əvəzsis heç nə yoxdur;* ein Gehirn haben wie ein schweizer Käse – *başıboş, səfeh;* Die Schweden kommen – *təhlükə yaxınlaşır;* jemandem den Schweden wünschen – *kiməsə bədbəxtlik arzulamaq;* den Schwedentrunk erhalten – *qəddar, qeyri-insani;* wie die Schweden hausen – *hər şeyi dağıtmaq, xarabazara çevirmək;* einen Schweden aus sich machen –*axmaq, səfeh davranmaq;* alter Schwede – *dost, yoldaş;* hinter den schwedischen Gardinen sitzen – *həbsxanada olmaq;* jemandem Spanisch vorkommen – *qəribə, anlaşılmaz olmaq*; für

jemanden Spanisch sein – *şübhəli, qəribə olmaq;* stolz wie ein Spanier – *çox qürurlu;* spanische Dörfer - *anlaşılmaz;* spanische Krankheit – *siflis xəstəliyi;* britischer Abgang – *vidalaşmadan, çıxıb getmək;* feine englische Art – *nəzakətli, diqqətli;* von der englischen Rasse sein – *arıq, cılız olmaq;* mit englischer Ruhe – *sakit, fleqmatik;* sich auf englisch empfehlen – *vidalaşmadan çıxıb getmək, nəzakətsizlik etmək;* englisch einkaufen – *yalan danışmaq, oğurluq etmək;* englische Krankheit - *əyri onurğa sütunu, raxit; sui-qəsd etmək;* Scheidung auf Italienisch – *hay-küylə ayrılmaq, boşanmaq;* etwas ist faul im Staate Dänemark – *iş yolunda getmir, problemlər var;* alle Wohlgerüche Arabiens –*həddən artıq, xoşagəlməz dərəcədə parfimeriyadan istifadə etmək, pis iylənmək ;* so stark wie ein Turke – *çox güclü;* der Kaffee auf Türkisch – *türk qəhvəsi;* einen Türken bauen/etwas türken – *aldatmaq, yalan söyləmək, kələk gəlmək;* wie ein Türke rauchen – *siqareti siqaretə calamaq;* für jemanden ist alles Griechisch – *başa düşülməyən, görünməyən, aydın olmayan;* griechische Alphabet – *aydın olmayan, başa düşülməyən;* böhmische Dörfer – *qəribə, başa düşülməyən;* böhmisch einkaufen- *oğurluq etmək ;* böhmisch schlau – *çox bic, hiyləgər;* ägyptische Finsternis – *tutqun, qaranlıq;* ägyptische Plagen – *çoxlu bədbəxtçilik yaşamış;* mit den Chinesen Bruderschaft getrunken haben/Chinesen spielen – *paxıllıqdan saralmaq;* chinesisch reden/für jemanden chinesisch sein – *başa düşülməyən, anlaşılmayan dildə danışmaq;* der deutsche Michel – *dürüst, məqsədə doğru can atan, savadsız, sadəlövh, ləng, yuxulu, çalışqan, lakin qaba, kobud insan haqqında kinayəli ifadə;* der wahre Jakob – *dürüst insan, yaxud vasitə haqqında;* deutsche Rechnung – *restoranda, barda ayrı-ayrı, yalnız öz hesabını ödəmə;* frech wie Oskar - *özünü sırtıq, abırsız aparan adam haqqında;* blinder Hesse – *sadəlöhv adam;* wie in einer deutschen Predigt sitzen – *başa düşülməyən dil, görünməyən fakt;* nicht mehr deutsch verstehen/kein Deutsch verstehen – *başa düşülməyən, aydın olmayan dil;* auf gut deutsch – *aydın, başa düşülən dildə, açıq danışmaq;* noch tief im deutschen Sauerkraut stecken – *yad ölkədə hələ də alman adət-ənənələri və düşüncə tərzi ilə yaşamaq;* deutsches Sauerkraut gegessen haben – *alman adət-ənənələri ilə tanış olan;* Mein Name ist Hase, ich weiß von nichts – *kimsə bir işdə əli olduğu halda onu boynundan atan zaman bu ifadəni işlədir;* so schnell schießen die Preußen nicht – *özünü dəyərləndirmə (zarafatyana ifadə);* stolz wie ein Preuße – *məğrur, qürurlu, özünəgüvənən;* miteinander preusisch sein – *bir- birinə qarşı pis davranmaq;* Schotten/schottisch – *simiclik, xəsislik, ifrat qənqaətcillik;* amerikanische Lebensweise – *amerikan həyat tərzi (bir çox tələbatların, istəklərin ödəniş müqabilində yerinə yetirilməsi nəzərdə tutulur);* der amerikanische Traum – *tez bir zamanda kariyera qurma;* der reiche Onkel/die reiche Tante aus Amerika – *zəngin, varlı adam;* jemand hat Zigeunerblut in sich – *istedadlı musiqiçi, dinamik rəqqas haqqında; Zigeunerschönheit – həddən artıq gözəl qadın haqqında;* der Zigeuner und seine sieben Söhne – *çox uşağa sahib olan və uşaqları ilə fəxr edən insan;* wie der Zigeuner mit dem Speck – *oğru;*

Almanlarla polyaklar arsında illərlə hökm sürən neqativ tarixi münasibət və almanların polyakları bəyənməməsi səbəbindən alman dilində xeyli stereotiplər və mühakimələr mövcuddur. Almana görə polyak sivil deyil, geridəqalmışdır, məs.: Alle Polen klauen Autos – *polyakların hamısı maşın oğrusudurlar;* polnische Wirtschaft/Zustände wie im polnischen Reichstag/es geht im Konkubinat zu, wie in einem polnischen Jahrmarkt – *xaotik, səliqəsiz, anarxik;* polnisch verheiratet – *nigahsız, qeyri-qanuni bir yerdə yaşamaq;* polnisches Rindvieh – *axmaq, gic zarafatlar edən adam;* polakieren – *alış-veriş zamanı müştərini aldadaraq, hiylə-kələklə çox qazanc əldə etmək;* polniş betteln – *ev-ev, qapı-qapı gəzərək dilənmək;* polnisch – *saxta, hiyləgər;* Polakkerei – *sırtıqlıq;* polnischen Urlaub machen – *boş-boş veyillənmək, işləməmək;* voll wie ein Pole - *çoxlu spirtli içki qəbul etmiş, kefli;* polnisch reparieren – *xarab olmuş cihazın iş qailiyyətini qapaz və ya təpik vurmaqla yenidən bərpa etmək;* polnischer Abgang/polnisches Freibad/polnischen Abschied nehmen – *nəzakətsizlik, vidalaşmadan bir yeri tərk etmək;* polnischer Gulasch - ətsis guyaş; ein deutscher Fuß passt

nicht in einen polnischen Schuh – *almanın ayağı polyak çəkməsinə yaraşmaz* (*almanların polyakları sevmədiklərinə görə);*

Müxtəlif xalqlara aid etnonimli frazeologizmləri təhlil edərkən həmin xalqlar haqqında düzgün bilik əldə etmək olurmu, onların digər mədəniyyətə düzgün baxışını, onların həqiqi və obyektiv qiymətləndirilməsini mümkün edirmi? Bu hələ sual altındadır. Əksər hallarda etnofrazeologizmlər digər xalqlar haqqında stereotipik qiymətləndirmənin daşıyıcıları, müxalif baxışların və hisslərin nəticələridirlər: biz – siz. Bunlar həm də xalqların bir-birinin həyat tərzi, adət-ənənələri və vərdişləri haqqında kifayət qədər biliyinin olmamasının nəticəsində yaranır.

Frazeologizmlər zamanından, məkanından, etnik mənsubiyyəyyətindən asılı olmayaraq, bütün dünya xalqlarının folklor yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Dünyanın heç bir xalqının etnokosmik düşüncə sistemini atalar sözlərindən kənarda bütöv bir halda təsəvvür etmək mümkün deyil. Frazeologizmlər ümumən milli poetik düşüncənin, milli ictimai şüur və psixologiyanın mühüm struktur hadisəsidir.

Ədəbiyyat

1. Ахманова О.С. Очерки по обшей и русской лексикологии. М.: Учпедгиз, 1957, 296 с.
2. Burger, Harald: Phraseologie. Eine Einfwhrung am Beispiel des Deutschen. Berlin: Erich Schmidt Verlag 2010. S.11
3. Fischer.H.: Ethnische Stereotypen in der gegenwärtigen Volkserzählung. In: Brednich.R.W. / Uther, H-I. (Hrsg.) Fabula. Zeitschrift fwr Erzählforschung. 31. Band. Berlin, New York 1990, 263-271
4. Fleischer, Wolfgang (a:) Phraseologie der deutschen Gegenwartssprache. Leipzig: 1982. 308 S.
5. Fleischer, Wolfgang (a:) Phraseologie der deutschen Gegenwartssprache. Thübingen: Niemeyer 1997. S.3
6. Földes Csaba, 2009, Box Interkulturalität. Die unbekannte Bekannte (nicht nur) für Deutsch als Fremd- / Zweitsprache. Rückblick, Kontexte und Ausblick, in: Wort. Trier 59, 2009, 3, Seite 503-525
7. İradə Məlikova. Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri. Bakı - 2016
8. Мальцева Д.Г. Страноведение через фразеологизмы. Пособие по немецкому языку. Москва: Высшая школа, 1991. 173 с.
9. Маслова В.А. Лингвокультурология. Москва: Издательский центр «Академия», 2001. 208 с.
10. Palm C. Phraseologie. Eine Einführung. Tübingen. 1995
11. Тер - Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Издательство МГУ, 2008. 352 с.
12. Чернышева И.И. Фразеология современного немецкого языка. М.: Высшая школа, 1970. 380 с.

Маслова В.А. Лингвокультурология. Москва: Издательский центр «Академия», 2001. 208 с.

Lüğətlər

1. Duden. Das große Wörterbuch der Deutschen. Wörterbuch. 3. Auflage Mannheim, 1999, s.2922
2. Duden: Redewendungen. Wörterbuch der deutschen Idiomatik. 2. Auflage, Band 11. Mannheim, Leipzig (u.a) 2002
3. Duden: Deutsches Universalwörterbuch. 5. Auflage. Mannheim, Leipzig (u.a.) 2003
4. Langenscheidt. Großwörterbuch. Deutsch als Fremdsprache. Berlin und München: Langenscheidt Verlag, 2008, 1307 S.

Т.М.Гёзалова

Про фразеологии на немецких и азербайджанских языках отражающие национальные особенности народов мира

Резюме

Фразеология – это наука или преподавание фиксированных словных связей языка, которые может взять на себя функцию и значение отдельных слов (лексемы) в системе и предложении.

В последнее время большое внимание уделяется изучению языка в связи с культурой. В этой связи интерес к фразеологии возникает как отражение национальных традиций, культуры, мировоззрения людей. В этом отношении фразеологизмы называются знаками культуры.

Фразеология – это наука или преподавание фиксированных словных связей языка, которые может взять на себя функцию и значение отдельных слов (лексемы) в системе и предложении.

Стереотипные представления о других нациях глубоко укоренились в жизни каждой языковой культуры. Люди любят говорить о других, с видом на свои слабости и пороки. Более того, они часто приписываются другим. Они по большей части являются результатом оппозиционных взглядов: мы – вы – но и также являются результатом нашего отсутствия знаний о других народах, об их образе жизни и привычках. Такие суждения всегда встречаются, и никто не думает о том, соответствуют ли заявления в них истине. Однако, часто эти популярные высказывания становятся стабильными лексикализированными единицами языка – фразеологизмы. Возникают следующие вопросы: Какие народы встречаются в немецких и азербайджанских фразеологизмах? Какие качества приписываются народам? В какой степени предрассудки фразеологизированы?

В этой работе представлены немецкие и азербайджанские фразеологизмы с этнонимической составляющей. Выясняются вопросы о том, какие народы встречаются при использовании фразеологических целей и какие характеристики приписываются отдельным народам. Часто можно услышать такие выражения, как «темпераментный как итальянец», «скупой, как шотландец», «аккуратный, как немец», «пьяный, как русский» и.т.д.

T.M.Gozalova

About phraseology German and Azerbaijani languages, reflecting the national features of the world people

Summary

In recent times, much attention has been paid to learning the language in connection with culture. In this respect, interest in phraseology arises as a reflection of national traditions, culture, people's world views. In this respect, phraseologisms are called culture signs. Phraseology is the science or teaching of fixed word connections of a language, which can take over the function and meaning of individual words (lexeme) in the system and sentence. The stereo-typical notions of other nations are deeply rooted in the life of every linguistic culture. People like to talk about others, overlooking their own weaknesses and vices. What's more, these are often attributed to others. They are for the most part the result of oppositional attitudes: we – you – but they are also the result of our lack of knowledge about other peoples, about their ways of life and habits. Such judgments meet ... Such judgments are always encountered and one does not think about whether the statements in them correspond to the truth. Often, however, these popular lyrical statements become fixed lexicalized units of language ... phraseologisms. The following questions arise: Which nations and peoples occur in the German and Azerbaijani phraseologisms? What qualities are attributed to the peoples of German and Azerbaijani? To what extent are prejudices phraseologized? In this work, German and Azerbaijani phraselogisms with ethnonymic components are presented. The questions are investigated as to which peoples occur in the use of phraseological purposes and which characteristics are attributed to the individual peoples. Often one hears such expressions as "temperamental as an Italian", "stingy as a Scot", "drunk as a pole", "ordinary as a German" etc.

Rəyçilər: filol.f.d., dos. X.S.Əsgərova,
filol.f.d. A.Q.Cabarova
Redaksiyaya daxil olub: 20.04.2022

G.H.MEHDİYEVA
e-mail: gulbeniz57@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

QAFQAZ ALBANİYASININ QƏDİM TOPONİMLƏRİ HAQQINDA

***Açar sözlər**: albanların tarixi, toponimlər, etimologiya, yaradılışı.*
***Ключевые слова**: «История Албан», топонимы, этимология, происхождение.*
***Key words:** thoponyms, written article, etimology, origin, analysis.*

Bir xalqın varlığını sübuta yetirəcək ən vacib dəlillərdən biri toponimlərdir. Sadalananlar həmin torpaqların uzun illərdən bəri türklərin dədə-baba yurdu olduğunu göstərməklə yanaşı, eyniadlı yaşayış məskənləri olan Azərbaycan türklərilə qan qardaşlığını da bir daha təsdiqləyir. Erkən orta əsrlərin öyrənilməsində orta fars - erməni (qrammatik xüsusiyyətləri və demək olar ki, tam şəkildə eynilik təşkil edən) ərəb mənbələrinin böyük rolu olmuşdur. Pəhləvi dilində daş, qala divarı üzərində həkk olunan bir sıra epiqrafik yazılarda Azərbaycanın ölkə adları öz əksini tapmışdır. T.I.Hacıyev yazır: «*Etnoslar gəlib-gedirlər, toponimlər isə yerində durub müşahidə aparır, gələnləri qəbul edir, gedənləri yola salır, ona ilk dəfə verilən adı özü ilə yaşadır. Azərbaycan toponimləri də bu torpağın qədim tərcümeyi-halını bizə çatdırır*» (7, s. 36). Akademikin çox düzgün fikrinə əlavə olaraq demək istərdik ki, zaman dəyişir, dövrlər bir-birini əvəz edir. Yeni dövr -yeni ali hakimiyyət, yeni siyasət, həyata yeni bir baxış deməkdir. Məhz, dəyişən zamanla bərabər dəyişən siyasət, toponimlərin inkişaf taleyində mühüm rol oynayır. Lakin tarix onda buraxan dərin kökləri və izləri zaman-zaman ona edilən təhriflərə baxmayaraq, qoruyur və dövrümüzə çatdırır. M.Kalankatuklunun "Alban tarixi" kitabının onomastikası onun lüğət tərkibinin mühüm hissəsini təşkil edir. Azərbaycanda bir çox yer adlarının dəqiq etimoloji izahını vermək baxımından X əsrə aid edilən M.Kalankatuklunun "Alban tarixi" əsəri böyük elmi əhəmiyyət kəsb edir. Müasir dövrümüzdə yer adlarının araşdırmasına olan maraq leksikasının onomastika şöbəsinin spesifik xüsusiyyətlərilə izah olunur. Xalqın düşüncəsini, möhtəşəm mədəniyyətini əsrlər boyu özündə cəm edən toponimiya, etnosların tarixi mənşəyi problemlərini bir güzgü kimi əks etdirir və bu problemin həllində mühüm rol oynayır.

Toponim yeni dil sisteminə adət edərək fəaliyyət göstərir və yaşayır. Sivilizasiya dəyişir, bununla bağlı etnos itir, qədim mədəniyyət unudulur. Lakin fonetik təhrifə məruz qalmış toponimlər fonetik şəklini dəyişərək də yaşaya bilir.

Tancik – "Elə bu vaxt Tancikdən olan Mxitar adlı tərkidünyalılardan birisi, müqəddəs Qüds şəhərini görmək üçün iki yoldaşı ilə birlikdə oraya, bütün müqəddəslərin ziyarətinə getdi və tam bir il orada qaldı" (9, s.112).

"Tandzik *tan* və *zik/cik* hissələrinə ayrılır. Kiçik Tan mənasında olub, indiki Bulutan (əsli Ulu Tan) sözünün antonimi sayılır" (5, s. 386). "Alvan tarixindəki türk sözləri, eləcə də Zaqafqaziyanın V-X yüzilliklər yazılı abidələrində qeydə alınan türkizimlər Qafqazın şimal-şərqindəki savir-xəzər birliyi dillərinin -j, -, ç- / ç-, d-, c-, z- / dialektlərini əhatə etdiklərini deməyə imkan vermir. Çünki "Alvan tarixi"ndə (VII-X əsrlər başqa Zaqafqaziya mənbələrində olduğu kimi) "xaqan müavini", "tidun hun və xəzərlərdə yüksək zabit çini", zer (cer) tegin (yer teqin yerinə) "təkin, şəhzadə, vilayətin, ölkənin canişini" və başqa sözlərə rast gəlinir. Bu o deməkdir ki, "Alvan tarixi"nin müəllifi savir-xəzər birliyi dillərinin z(dz) dialektlərindən olan türkizim-

lərlə yanaşı z (dz) dialekt variantını da (zer-yer "yer") qeyd etmişdir" (14, s. 49). Deməli, belə nəticəyə gəlirik ki, z, dz səs birləşməsi "yer" anlamında başa düşülür. *Tan* morfemine "Dialektoloji lüğət"də rast gəlirik: Tan (Qazax, Mingəçevir, Şəmkir) – arxın içindən çıxarılaraq kənarına tökülmüş torpaq - Tan olarsa, su arxadan daşar (Qazax) - Arxın tanına kimi əkiflər (Mingəçevir) - Tan suyu qoymur qırağa dağılmağa (Şəmkir) (1, s. 479). *Cik/cig* morfemini şəkilçi kimi deyil, məhz ayrıca bir söz kimi götürsək, yenə lüğətdə Kaku zonasında "Dağ ətəyində otlaq" (1, s.78) anlamında başa düşülür. *Tancik* toponimi "Dialektoloji lüğət"də verilən məlumata əsasən, "torpaq, otlaq" anlamındadır. Bütün bu təhlillərdən belə nəticəyə gəlirik ki, "Tancik//Tandzik torpaq, yer, otlaq" mənasını verən məkan anlamlı xüsusi isimdir.

Girdiman – "Sonra xəbər alır ki, Girdimanda hələ bütpərəstlərdən qalan var. (9, s. 33). "VII əsrin ortalarında Girdıman knyazlığı Cavanşirin vaxtında böyüyərək bütün Albaniyanı əhatə edən çarlığa çevrilmişdi" (8, s. 205). ".....Qardman toponimi qədim gürcü dilində *Qardaban* şəklinə düşmüşdür və indi də Gürcüstanda Qardabani kimi tələffüz edilir və yazılır" (12, I,cild, s.106). *Gird* morfeminin mənası (Cəlilabad) büsbütün, tamamilə; (Lənkəran) - Balıq toru toxuyan alət; *Girtman* (Basarkeçər) - kərki - Girtmannan ə:ağ üssə ağacı yonur (1, s.183-184). *Man* morfeminə gəldikdə isə (Ağcabədi, Ağsu, Bakı, Bərdə, Cəbrayıl, Füzuli, İmişli, Kürdəmir, Qarakilsə, Lənkəran, Salyan) I - eyib; (Bərdə) II - nöqsan (1, 344). "Man" sözü ümumtürk mənşəli və çox mənalı morfemlərdəndir. Bu morfemin semantikası da bir-birindən fərqli şəkildə izah olunur. Həmin komponentin ifadə etdiyi məna incəliklərini türk dillərinin ən qədim əlamətlərini qoruyub saxlamış olan etnonimlərdə, toponimlərdə, hətta antroponimlərdə müşahidə etmək olur (11, s.117). M.Kaşğarinin "Divan"ında "man" sözünün ayrıca mənası da verilmişdir: man yaşlığ koy - dörd yaşını keçən qoyun mənasında başa düşülür (12, I, s.126). Qədim Türk Lüğətində *Qirt- qısa saç* mənasında verilmişdir (3, s. 446). Mahmud Kaşğaridə 1. *gödək, qısa kəsilmiş otlar* mənasında; 2. (məcazi mənada) *girt kişi* yəni *simic, xəsis adam* mənasında verilmişdir (12, I, s. 342). Göstərilən bu nümunələr semantik cəhətdən bir-birindən uzaq olduğundan konkret bir fikrə gələ bilmədik.

Aruc – "Qriqor onu öz Aruc şəhərciyinə apardı" (9, s.135). Mənbədə toponimin adı yalnız bir dəfə çəkilir. "Qədim türk lüğəti"ndə *uc* son deməkdir. *Ar* – morfeminin isə "Qədim türk lüğəti"ndə bir neçə mənası var. Məsələn: 1) kürən, boz, qırmızı təhər 2) aldatmaq, cəlb etmək; 3) yorulmaq; 4) ayırmaq (olar beş tənrilərig xormuzda tənridə artılıar; Они отделили пять богов от бога Ормузда) (3, s.123). 1590-ci ilə aid türkcə mənbədə Ərinc kimi təqdim edilir. Mənası məlum deyil.

Çola – "Dərbənd yaxınlıgında olan Çola" (9, s. 41). "Uxtanesdə Çola Dərbənddir". Çola (Çoqa) Rubas çayının və Bilicinin yanında olan Torpaqqala adlanan xarabalığın yerində idi. "Ço-qa yaxud Jola hərfən at yeri, yaxud atlı adamların, yaxud hunların yaşadığı yer deməkdir. Hazırda yerli şivələrdə ata ço və yaxud çu" deyilir (6 s.36). *Çol/Çul* toponimi qədim türk mənşəli cul tayfasının adındandır və indi də Azərbaycanda Çullu adlı kəndlərimiz var (6, s.29). Mənbədə Çola keçidi toponiminə rast gəlirik: "Bundan sonra şahın sarayına xəbər çatdı ki, saysız-hesabsız xəzər qoşunları Çola keçidini aşaraq bizim ölkəyə daxil olublar" (9 s. 29). Mənbənin "Qeydlər və şərhlər" bölməsində verilən məlumata görə Çola keçidi Dərbənd keçididir (9, s. 211). Çola qapısı və Çola darvazası – "Onlar qəflətən Çola qapısından keçir və şəhərin keşikçiləri və İran şahının keçidin ətrafına yerləşdirdiyi başqa qoşunlara əhəmiyyət vermədən qartallar kimi başı aşağı hücum edərək Kür çayı tərəfəyönəldilər" (9, s. 96). "Onlar bir neçə gündən sonra Dərbənd yaxınlığında olan Çola darvazasına çatdılar" (9, s.155). Hər iki nümunədən bəlli olur ki, Çola darvazası, yaxud qapısı Çola şəhərini qoruyan qala divarlarına bərkidilmiş (adından məlum

olduğu kimi) möhkəm qapılardır. Xalqın dilində belə bir deyim var: "Dəmir qapı Dərbənddə" Güman edirik ki, bu qapılar həqiqətən möhkəm olduğundan simvolik xarakter daşıyır.

Qoltaqarak – "Düşmən orduları dəryasının dağları bizi aparandan sonra, bu dalğalar katalikosumuzu da tərtib edib onu qayalı dağlarda yerləşən Qoltaqarak kəndindən qovdular" (9, s. 106). Bu toponimin adı mənbədə bir dəfə çəkilir. "Dialektoloji lüğət"də *qol* morfemi (Baskeçid, Borçalı dialektinde) divar mənasında *taqar/tağar* isə "ölçü vahidi" mənasındadır (4, s. 43). Z.Bünyadov yazır: "Əl-İdrisi "Nəzhət ul – maştaq fi ixtiraq əl afaq" əsərində yazır: Toponimdəki *taq* sözünün türk dillərindəki sözü olması aydın deyil. Onu həm də "taqvarı" tikinti kimi (2, s.76) başa düşmək olar (8, s.185).

Şəki – "Bundan sonra müqəddəs katalikos allah civarına köçdü və onun taxtında Şəkinin keçmiş yepiskopu, Uxtanesin matəminə dəvət olunmuş xeyirxah və nəcib Yeliazar seçildi" (9, s. 144). İ.M.Dyakonovun fikrincə, Şəki şimalda Kür çayının sağ axarından tutmuş indiki Gəncə və Qazaxdan, cənubda Urmu gölünün sahillərinə qədər uzanırdı. Bu şəhər əvvəllər Şakaşena adlanmış, əsrlər ötdükcə, yüzilliklər adladıqca müasir Şəki formasını almışdır. Hələ vaxtilə Ptolomey Suran və Sakan tayfalarının adlarını çəkirdi (4, s. 6).

Qeyd edək ki, bu adlar Şəki və Şirvan toponimlərinin yunanca yazılış formasıdır. IX əsr ərəb müəllifi əl-Məsudidən məlum olur ki, Gürcüstandan şərqdə yaşayan xristian dinli Sanar tayfası ilə Albaniyadakı Qəbələ mahalı arasında Şəki adlı ölkə yerləşir. Onu deyək ki, IX əsr ərəb coğrafiyaşünasçısı Balazuri bu toponimi Şakkan kimi yazır (ərəb dilində adlarda bəzi səslərin qoşalaşdırılması mövcuddur, məsələn Aran əvəzinə Arran, Araz əvəzinə Arras və s.). Deməli, Ptolomeydə Sakan, III əsr mənbəsində Şikan, VII əsr mənbəsində Sakan, Balazuridə (IX əsr) Şakkan, əl-Məsudidə (X əsr) Şeki kimi qeyd olunan adlar eyni əyalətin və etnonimin müxtəlif dillərdə yazılış formasıdır və Şəki əyalətinin qədim adıdır. Deməli, Şəki toponimi qədim türk tayfalarının məskəni olmuş etnotoponimdir. M.Kalanktuklunun "Albaniya tarixi" kitabının onomastikası onun lüğət tərkibinin mühüm hissəsini təşkil edir. Azərbaycanda bir çox yer adlarının dəqiq, fonetik tərkibcə daha düzgün əks olunması baxımından, X əsrə aid edilən abidə böyük elmi əhəmiyyət kəsb edir. Bu mənbədə Almaniyada (yəni Azərbaycanın şimal hissəsində) yerləşən o dövrdəki inzibati ərazi bölgüsünə görə kəndlər, şəhərlər, dağlar, çaylar, müqəddəs məbədlər, yaşayış məntəqələri və hətta təpə və düzənliklərin adı verilmişdir.

Albaniya ərazisində qeydə alınmış toponimlərin əksəriyyəti türk mənşəlidir. Kalankatuklunun əsərində qeydə alınmış toponimlər bunlardır: Alban, Habant, Aracank, Arandcinak, Aranrot, Qarqar, Qoroz, Kanqark, Kolb, Kolt, Meda, Arank, Meda Kolmank, Pazkank, Trtu, Tuçkatak, Çol, Çur, Şavarşen, Şakaşen, Gəncə, Xarqlank, Xunanakert, Türküstan və s. Bu toponimlərin abant, araz, aran, qarqar, gorus, kəngər, kol, (kul), çol, (çul) peçeneq, tərtər, katak, xun, (hun), savir, sak, türk və s. tayfa adlarından yarandığı müəyyən edilmişdir. Əsərdə ərazinin relyefi ilə bağlı və ya təsviri xarakterli toponimlər də vardır. Qak, Tavratəpə, Araşan, Qalaqudəşt, Vaykunik, İlerk, Dizak, Balasakan, Balaberd, Puhavank, Həcər ölkəsi, Dastakert, Varaçan, Qeqarükunik, Ağbəd, Şalat, Sqük, Kərnəkəş və s. toponimlərini buna nümunə göstərmək olar.

Ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bircildlik. Bakı, 1964, 568 s.
2. Bünyadov Z. Məmmədov H. (Qaramanlı) Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı: Elm, 2001, 215 s.
3. Древнетюркский словарь / Ленинград: Наука, 1969, 677 с.

4. Дьяконов И.М. Некторые лингвистические данные и проблема связей населения Восточного Кавказа и Закавказья с древним Востоком с III-I тыс. до н. э. / Материалы семинара по проблеме происхождения и формирования азербайджанского народа. Баку:1966, 56-58 с.
5. Əliyev İ., Məmmədzadə K. Qarabağın Alban abidələri. Bakı, 1997, 26 s.
6. Əhmədov T.M. El-obamızın adları. Bakı: Gənclik, 1984,128 s.
7. Hacıyev T., Vəliyev K.H. Azərbaycacn dili tarixi, oçerklər və materiallar. Bakı: Maarif, 1983, 186 s.
8. Hüseynli Ə. Xalqımızın mənlik heykəli // "Sovet Naxçıvanı" qəzeti, 1986-cı il 30 yanvar.
9. Kalankatuklu M. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər Z.Bünyadovundr. Bakı: Elm, 1993, 269 s.
10. Kazımov Q. Azərbaycan dilinin tarixi. Bakı: Təhsil, 2003, 584 s.
11. Kazımov C. XI yüzilliyin tarixi onomastik leksikası. Bakı, 2008, 231 s.
12. Kaşğari M. Divanü Lüğat-it-Türk. Bakı: Ozan, 2006, I cild, 400 s.
13. Kaşğari M. Divanü Lüğat-it-Türk. Bakı: Ozan, 2006, IV cild, 760 s.
14. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, 248 s.

Г.Г.Мехтиева

О древних топонимах Кавказской Албании

Резюме

В истории тюркских народов произведение Мусы Каланкатуклу «История Албан» занимает особое место. В книге «История албан» есть много топонимов тюркского происхождения. Главная цель нашей статьи – сделать этимологически-лингвистический анализ топонимов Танджик, Шеки, Гирдман, Чола, Арудж, Колгатарак а также выяснить их не только происхождение, а определить их окаменевшие следы.

G.H.Mehdiyeva

About ancient toponyms of Caucasian Albania

Summary

Musa Kalankatuklu's "History of Alban" has a special place in the history of the Turkic peoples. Thoponyms of Turkic origin take up a special place in the historical monuments, rich in Tangic, Shaci, Girdman, Chola, Arug, Colgotarac onomastic units. The main goal of this article is to find and reveal traces of such female names.

Rəyçi: dos. N.Sadıqova

Redaksiyaya daxil olub: 11.06.2022

S.S.MƏMMƏDOVA
müəllim

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏTNİN YARANMASINDA TƏKRARLARIN ROLU

Açar sözlər: *təkrarlar, sintaqma, leksik vahidlər, mətn elementləri, konnektorlar*
Ключевые слова: *повторы, синтаксис, лексические единицы, текстовые элементы, коннекторы*
Key words: *repetitions, syntax, lexical units, text elements, connectors*

Məlumdur ki, mətnin yaranmasında təkrarlar böyük rol oynayır. Mətndə özünü göstərən təkrarlar spesifik bir sistem yaradır. Başqa sözlə desək, mətndə təkrarların ən müxtəlif struktur növlərinə rast gəlmək mümkündür və özünün struktur mürəkkəbliyindən və ya sadəliyindən asılı olmayaraq təkrar prinsip etibarilə mətnin bütövlüyünə xidmət edir. Təkrar qapalılıq xüsusiyyətinə malik olub, mətnin daxili vahidi kimi fəaliyyət göstərir. Mətndə isə qapanma olmaya da bilər, daha dəqiq desək, onda qapanma açıq və ya gizli şəkildə baş verir. Qapanmanın gizli olması faktı üstünlük təşkil edir.

Qeyd etmək lazımdır ki, təkrar kimi bütöv cümlə strukturu özünü göstərə bilər. Yəni, bütöv cümlə təkrar olunarkən mətn daxilində təbii şəkildə həmin cümlə öz müstəqilliyini kifayət qədər itirmiş olur və təbii şəkildə cümlənin struktur dəyəri azalır. V.V.Vinoqradov belə hesab edir ki, hətta bütöv cümlə sintaqma kimi çıxış edə bilir, belə olduqda biz onu öz-özlüyündə deyil, daha böyük mürəkkəb birliyin komponenti və ya məna hissəsi kimi götürürük (3, s.124). Digər vacib məqam ondan ibarətdir ki, mətndə elə hissələr olur ki, onun özünəməxsus düyünlü nöqtələrində məhz cümlənin təkrarı daha effektiv rol oynayır. Bu düyün nöqtələrinin komponentlərini bir-birinə bağlamaq ehtiyacı zamanı söz birləşməsindən və ya ayrı-ayrı sözlərdənsə, cümlədən istifadə etmək daha vacib olur (1, s. 236).

Mətnin yaranmasında bir sıra leksik vahidlər iştirak edir, lakin qeyd edək ki, eyni mətndə təkrar edilən leksik vahidlər situasiyadan asılı olaraq bəzən mübtəda, bəzən tamamlıq və s. olur:

İsmin təkrarı ilə mətnin formalaşması. Məsələn,

Gün vurub balıqları qurutmuşdu. Bayaqdan yekə görünən balıqlar indi balacalaşmışdılar, büzüşmüşdülər. Yəqin, ona görə belə idi ki, balıqlar sudan çıxanda hələ ölməmişdilər. Ürəkləri, ciyərləri sağıydı. İndi isə onları keçirmişdi haça ağaca, bir-bir götürüb qoyurdu imisti torpağa və sığallaya-sığallaya sayırdı. Balıqları əlində o qədər gəzdirmişdi ki, yulğun kollarına dəyməkdən pulları tökülmüşdü və elə bil döyülmüşdülər.

Göründüyü kimi, kiçik bir mətndə *balıq* sözü dörd dəfə təkrar olunmuşdur və mətnin formalaşmasına səbəb olmuşdur.

Mətndə isimlərin təkrarı leksik münasibətləri təmin edir, yəni, mətnin semantik sahəsində leksik münasibətlər formalaşır. Həmin münasibətlər mətnin məzmununu açır, hadisənin başlanması və sona yetməsini təmin edir.

İngilis dilində digər bir nümunəyə nəzər salaq.

I saw the door of his house open and Edward in person emerge. You know, of course, that Immanuel Kant was in the habit of taking his daily walk at a certain hour and when once he came out of his house an hour earlier than usual they turned pale.

Mətn daxilində ismin təkrarı mənanı açmaq üçün gərəkli vasitəyə çevrilir. Bəzən məna bu yolla şaxələnir, parametrləri genişlənir.

Əvəzliyin təkrarı ilə mətnin formalaşması. Mətn mənanın açılması prosesində formalaşır. Mənanın açılmasında işarə əvəzlikləri mühüm rol oynayır. Mətn daxilində işarə əvəzlikləri həm təkrar olunur, həm də əvəzlik aid olduğu sözlə birlikdə təkrarlanır. Məsələn:

I saw Edward hurrying toward me. He carried neither cane nor gloves. He wore his working coat, a venerable garment in black alpaca and a wide awake hat. He did not see me and the suspicion flashed across my mind that he did not want to.

Müqayisə olunan dillərdə işarə əvəzlikləri çox maraqlı semantik xüsusiyyətlərə malikdir. İşarə əvəzlikləri cümlə və mətnlərdə deyktik məna yaxın əşyalara işarə edir. İngilis dilində "this", Azərbaycan dilində "bu" yaxın əşyaların göstəricisi kimi çıxış edir. İşarə əvəzlikləri həmin dillərin mətnlərində iki mühüm funksiyanı yerinə yetirir. Bir tərəfdən, sintaktik funksiyanı təmin edir, o biri tərəfdən isə cümlədə aktual üzvlənmənin reallaşmasına kömək edir. İşarə əvəzliyinin deyktik mənası yaxınlıqda yerləşən əşyalara münasibətdə meydana çıxır. Bu cür işarə əvəzlikləri dialoji nitq üçün xarakterikdir. Nümunələri nəzərdən keçirək:

"Kim götürüb bu kitabı?"— Bu kitabı?— Bu kitabı Sərxan götürüb.

V.Dressler aktual üzvlənmə və mətnin yaranması imkanlarından danışarkən göstərir ki, mətni təşkil edən cümlələr əlaqə vasitələrinin konnektorlarıdır. Buraya anafora, katafora, leksik təkrarlar, deyktik sözlər və s. aid edilir.

Mətndə işarə əvəzliklərinin işlənməsində kataforik funksiya təkrar edilən quruluşun zəncirindən asılıdır. Mətndə əsas kataforik quruluş iki elementdən – antesedentdən (öndə gələn söz, söz birləşməsi və ya cümlə) və təkrardan ibarətdir. Mətndə antesedent və təkrar isimlə ifadə olunur. Mətnin birinci cümləsində "bir" sözü, ikinci cümləsində isə "o" işarə əvəzliyi təkrar edilən ismə aid olur, belə kataforik əlaqə mətni düzəldir.

Sifətin təkrarı ilə mətnin formalaşması. Mətn daxilində sifət aid olduğu sözlə yanaşı təkrarlanır və mətnin daxili elementlərini bir-birinə bağlayır. Bu tip mətnlərin inkişafı bütövdən hissələrə doğru gedir. İzahetmə, dəqiqləşdirmə belə mətnləri xarakterizə edir. Məsələn,

Böyük qardaş Davud barədə çox danışdı, çox tərifləndi onu, öz ailəsi adından, bu qəsəbənin az qala yarıdan çoxunu təşkil eləyən əqrəbası adından minnətdarlıq elədi ona və dedi ki, başqa millətdə olsaydı, xilas elədiyinin qohum-əqrəbasından yəqin ki, bir mükafat, hədiyyə umardı, bəlkə də, lap dili ilə istəyərdi. Böyük qardaş onun igidliyini, mərdliyini lap ala buluda qaldırdı, hələ üstəlik qol-qabırğasını sındırsa da, mərdlik, xeyirxahlıq barədə kimdənsə eşitdiyi bir şeir də dedi.

İndi isə ingilis dilində digər olan aşağıdakı nümunəni nəzərdən keçirək.

He was a large, fat, blond man, with a fleshy white face, pale, blue eyes, and greying fair hair. He generally wore a pale blue tie to bring out the colour of his eyes.He spoke in a low, even voice, with an apt choice of words.

Sayın təkrarı ilə mətnin formalaşması. Qeyd edək ki, cümlələrin mətndə düzgün üzvlənməsi və qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsi söylənilən fikrin düzgün başa düşülməsinə kömək edir. Say və ona aid olan sözün mətndə təkrarı belə bir funksiyanı yerinə yetirir. Məsələn,

Bizim Gülnar bacımızın indi beş qardaşı var. Özü də çox gözəl təsadüfdür ki, biz dördümüz də neftçiyik, beşinci qardaşımız da neftçiliyi özünə peşə seçib, baxmayaraq ki, dənizçi də ola bilərdi. Ancaq beşinci qardaşımız, bizim eləmədiyimiz, bəlkə də, eləyə bilmədiyimiz, daha böyük fədakarlıq eləyib. Öz həyatını təhlükəyə atıb bacımızı ölümün pəncəsindən qoparıb.

İndi isə ingilis dilində olan belə bir nümunəni nəzərdən keçirək.

His wife was left without a penny. His two sons, two daughters, lads of twenty and twentyone, were in the coal business, but that, too, was involved in the general ruin.

Feilin təkrarı ilə mətnin formalaşması. Feilin eksplisit təkrarı mətni sintaqmatik planda formalaşdırır. Eyni mətndə işlənən feillər qarşılaşır, aktuallaşaraq cümlələr arasında sintaktik-semantik münasibətləri təmin edir.

When at last he pulled through, the doctors said that he must go, into the country, and since he was still extremely weak insisted that a nurse should go with him. Mr.Trafford wanted him to go to Bournemouth so that she could run down for weekends and see that everything was well with him, but Driffield had a fancy for Cornwall, and the doctors agreed that the mild airs of Penzance would suit him.

Azərbaycan dilində digər bir nümunəyə baxaq.

Nübar arvad beləcə çox söylədi, o, işin sonrasından qorxurdu. Qorxurdu ki, Baladayı camaatın pıçapıçından hürküb nişanı geri götürsün, sonra mərəkə "ərəb elə qan düşə".

Hər iki mətndə ağlamağın, qorxmağın, düşünməyin səbəbi eyni feillərin təkrarı ilə aydınlaşır, səbəb münasibətləri göstərilir. Eyni feillərin bir-birindən intonasiya ilə ayrılması mətni bir-birinə tematik-rematik baxımdan bağlayır.

Bu cür mətnlərin birinci cümləsində fikir açıqlanmır. İkinci cümlədə birinci cümlədə olan feilin təkrarı ilə xətti bağlılıq yaranır, məna ortaya çıxır.

Söz birləşmələrinin təkrarı ilə mətnin formalaşması. Təkrarın mətnyaratma funksiyası özünü söz birləşmələrində də göstərir. Söz birləşmələri mətndə aktuallaşaraq təkrar olunur, mətndəki cümlələri bir-birinə bağlayır. Məsələn,

Yazın o vaxtları ki, Abşeron bağlarında gilənarlar çiçəklərini tökürdü, nar ağacları isə təzəcə çiçək açırdı, xına rənginə boyanırdı. Yazın o vaxtları ki, külək şam ağaclarının limon tozunu eyvanın taxta döşəməsinə səpirdi və səhər eyvana çıxıb evə qayıdanda otağın taxta döşəməsinə ləpir düşürdü.

Verilən nümunədən göründüyü kimi, mətnin təşkilində əsas aparıcı vahid *"Yazın o vaxtları"* söz birləşməsidir. Həmin söz birləşməsi mətnin məzmununun açılmasında iştirak edir. Açılan məzmun isə zamanla bağlıdır.

Qeyd edək ki, mətn cümlələrin sistemi əsasında qurulur. Bu sistemə cümlələrin təkrarı da daxildir. Mətndə cümlələrin təkrarı isə mənanın təşkil olunmasına xidmət göstərir. Bəzi mətnlərdə onu təşkil edən cümlələr təkrar edilir və aktuallaşır, bu isə mətndə olan mikrostrukturların birliyi hesab edilir (4, s. 104)

Deyilənlərdən belə nəticəyə gəlirik ki, təkrar çox vaxt üslubi vasitə kimi qəbul edilsə də, söyləmin kommunikativ qüvvəsini gücləndirmək üçün gah yanaşı, gah sonrakı cümlədə və yaxud ardıcıl olaraq mətn daxilində işlənə bilər. Təkrarların mətndə işlədilməsi söyləmin tərkibində semantik mənanı qüvvətləndirməkdir. Məlumatın nüvəsi kimi ekspressivlik bildirən təkrarlar şəxs, əşya və ya fikrin intensivliyini və müqayisəsini də ön plana çıxarır.

Ədəbiyyat

1. Абдуллаев К.М. Лингвистика текста. Баку, 1984
2. Abdullayev Ə. Mətn və Diskurs. Bakı, 2011
3. Виноградов В.В. Вопросы синтаксиса современного языка. Москва, 1970
4. Марова Н. Актуальное членение и анализ текста. Москва, 1989.

С.С.Мамедова

Роль повторов в формировании текста
на английском и азербайджанском языках
Резюме

Известно, что повторы играют важную роль в формировании текста как на английском, так и на азербайджанском языках. Повторы в тексте создают определенную систему. Иными словами, в тексте можно встретить различные структурные типы повторов, и независимо от своей структурной сложности или простоты повтор служит принципиальной целостности текста. Хотя повтор часто рассматривается как стилистический инструмент, его можно использовать либо рядом, в следующем предложении, либо последовательно в тексте, чтобы усилить

коммуникативную силу речи. Использование повторов в тексте заключается в усилении смыслового значения предложения.

S.S.Mammadova

The role of repetitions in the formation of the text in the English and Azerbaijani languages

Summary

It is known that repetitions play an important role in the formation of the text both in the Azerbaijani and English languages. Repetitions in the text create a certain system. In other words, various structural types of repetitions can be found in the text, and regardless of its structural complexity or simplicity, the repetition serves as the fundamental integrity of the text. While repetition is often seen as a stylistic tool, it can be used either side by side, in the next sentence, or sequentially in a text to enhance the communicative power of speech. The use of repetitions in the text is to enhance the semantic meaning of the sentence.

Rəyçi: filol.e.n., dos. R.Şabanov

Redaksiyaya daxil olub: 05.05.2022

T.M.MƏMMƏDOVA
baş müəllim
e-mail: cavid89mehdiyev@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FRANSIZ DİLİNDƏ SÖZÖNÜLƏR, SÖZÖNÜLƏRİN NÖVLƏRİ VƏ ARTİKLLA BİRLƏŞMƏSİ

Açar sözlər: *sözönülər, sözönülərin növləri, sözönülərin artiklla birləşməsi*
Ключевые слова: *предлоги, типы предлогов, слияние предлогов с артиклем*
Key words: *prepositions, types of prepositions, the combination of prepositions with articles*

Sözönülər cümlə üzvləri arasında tabelilik əlaqəsi yaradan və bu üzvlərin biri-birinə olan qrammatik münasibətini bildirən köməkçi nitq hissəsidir. Sonsuz funksiyalar daşıyan dilin bu üzvləri fransız dilində də geniş işlənməkdədir. Fransız dilində "hal" kateqoriyası olmadığı üçün isimlər hallanmır və həmin şəkilçiləri sözönülər əvəz edir. Fransız dilində bir çox sözönü vardır. Məs.: **"à"** sözönü – Azərbaycan dilində ismin yönlük və yerlik hal şəkilçilərinə uyğun gəlir.

Je vais **à** l'Université. – Mən Universitetə gedirəm.

Je fais mes études **à** l'Université. – Mən Universitetdə təhsil alıram.

Müəyyən artiklın "le" (k.c. tək) və "les" (k. və q. c. cəm) forması **"à"** sözönü ilə birləşərək birləşmiş artikl əmələ gətirir.

À + le – au

À + les= aux

Il dit: Bonjour (à + le) au professeur.

Je parle (à + les) aux étudiants.

Müəyyən artiklın **«l'»** forması və "la" qadın cinsli artikl **"à"** sözönü ilə birləşmir.

À + la = à la

À + e`= à e`

*Il va **à la gare.***

*Il va **à l'école*** və yaxud **"de"** sözönü.

Bu sözönü Azərbaycan dilində ismin yiyəlik və çıxışlıq hal şəkilçilərinə uyğun gəlir.

Le livre **de** Marie est sur le burean. – Marinin kitabı yazı stolunun üstündədir.

Marie sort **de** l'Université à six heures. Mari Universitetdən saat 6-da çıxır.

Müəyyən artiklın **«l'»** (k.c. tək) və "les" (k. və q.c. cəm) forması **"à"** sözönü ilə birləşərək birləşmiş artikl əmələ gətirir.

de + le= du

de+ les = des

les livres **du** professeur

les livres **des** élèves

Müəyyən artiklın **«l'»** forması və "la" qadın cinsli artikl "de" sözönü ilə birləşmir. Məs.: Les livres **de la** petite fille. Les livres **de l'**ami de ma soeur.

1. "à" – a[4] (a, ə, ya, yə) – yönlük halı, da[2] (da, də) – yerlik halı əvəz edir
2. de[4] – (dan[2] – çıxışlıq halı, in[4] – yiyəlik halı) əvəz edir
3. près **de** – yanında
4. entre – arasında
5. parmi – arasında
6. du miliau **de** – ortasında

7. autour **de** – ətrafında
8. au centre **de** – mərkəzində
9. dans – da[2]-a[4]
10. sur **(au dessus de)** – üstündə (hündürlükdə, yuxarıda)
11. sous **(au dessous de)** – altında (aşağıda)
12. devant – qarşısında
13. derriere – arxasında
14. vers – tərəf
15. pour – üçün
16. par – dan[2], da[2]
17. avec – ilə
18. sans – sız[4]
19. chez – gilə, gildə
20. dehors – çölə, çöldə
21. à côté **de** – yanında
22. avant – əvvəl
23. grace **à** – sayəsində
24. à cause **de** – səbəbindən, ucbatından
25. proposer **de** – təklif etmək
26. avoir peur **de** – qorxmaq
27. décider **de** – qərara almaq
28. s' approcher **de** - yaxınlaşmaq
29. s' éloigner **de** – uzaqlaşmaq
30. s'interésser **à** – maraqlanmaq
31. diriger vers – yönəlmək
32. avoir besoin **de** – ehtiyacı olmaq
33. s' occuper **de** – məşğul olmaq
34. entrer **dans** – içəri girmək (otaq mənasında)
35. entrer **à** – qəbul olmaq, daxil olmaq (texnikum, universitet mənasında)
36. parler **à** – danışmaq (kiminləsə söhbət etmək)
37. parler **de** – danışmaq (nə isə, kiminsə haqqında danışmaq)
38. jouer **de** – çalmaq (musiqi alətində)
39. jouer **à** – oynamaq (oyun oynamaq)
40. se préparer **à** – hazırlaşmaq
41. commencer **à** – başlamaq
42. donner sur – açılmaq
43. être content **de** – razı olmaq
44. comme c'est agreable **de** – nə xoşdur

Sözönülərin funksiyasını Azərbaycan dilində əksər hallarda hal şəkilçiləri, bəzən isə qoşmalar ifadə edir. Məs: "à la maison" – "evdə" (hal şəkilçisi), "avec mon amie" – "rəfiqəm ilə" (qoşma)

Cümlə üzvləri arasında yaratdıqları münasibətlərə görə fransız dilindəki sözönülər iki qrupa bölünür:

1. Müəyyən tabelik əlaqəsi yaratmaqla bərabər müxtəlif münasibət (zaman, məkan və s.) bildirən sözönülər: **dans, sur, sous, entre, devant** və s.

2. Yalnız tabelik əlaqəsi yaradan sözönülər: **à, de**

Tərkib etibarı ilə sözönülər sadə, düzəltmə və mürəkkəb olur:

Sadə: **dans, sur, à, de, par**

Düzəltmə: **pendant, excepté, durant**

Mürəkkəb: **près de, à côté de**

1. Konkret münasibətlər bildirən sözönülər. Zaman münasibəti bildirən sözönülərdən ən əsasları bunlardır:

avant (əvvəl) avant la leçon (dərsdən əvvəl)
après (sonra) après la réunion (iclasdan sonra)
depuis (dan, dən – çıxışlıq hal şəkilçisi)
depuis le matin (səhərdən)
pendant (zamanında, vaxtında)
pendant la récréation (tənəffüs vaxtı)

2. Məkan münasibəti bildirən sözönülər **sous** (altında) **sous le toit** (damın altında), **sur** (üstündə) **sur le bureau** (yazı stolunun üstündə), **chez** (gilə, gildə) **chez mes amis** (dostlarımgildə), **près de** (yaxınlığında) **près de l'Université** (Universitetin yaxınlığında), **à côté de** (yanında) **à côté de l'école** (məktəbin yanında), **autour de** (ətrafında) **autour du jardin** (bağın ətrafında), **parmi** (arasında) **parmi les étudiants** (tələbələrin arasında), **entre** (arasında) **entre nous** (bizim aramızda)

Bəzi sözönülər həm zaman, həm də məkan mənası verə bilir. Məs:

Dans 1. məkan mənası – **dans** la salle (otaqda)
2. zaman mənası – **dans** deux heures (iki saatdan sonra)

Vers 1. məkan mənası – **vers** la maison (evə tərəf)
2. zaman mənası – **vers** huit heures (saat səkkizə yaxın)

Jusqu'à 1. məkan mənası – **jusqu'à** la ville (şəhərə qədər)
2. zaman mənası – **jusqu'à** midi (günortaya qədər)

1. "Avec", "par", "pour" və "sans" sözönüləri

Bu sözönülər tabelilik əlaqəsi yaratmaqla bərabər müxtəlif münasibətlər ifadə edir.

a) **"avec"** sözönü adətən birgəlik münasibəti bildirərək Azərbaycan dilinə "ilə" qoşması kimi tərcümə olunur: Məs.: Elle joue **avec** ses enfants. – O, öz uşaqları ilə oynayır.

b) **"par"** sözönü cümlədə ismi feilə tabe edir. **"Par"** sözönü məchul növdə olan feillərlə və yaxud təsirli feillərin **participie passe** (feili sifət) forması ilə işlədilərək ismə subyekt mənası verir və Azərbaycan dilinə "tərəfindən" sözü kimi tərcümə olunur. Məs.: C'est écrit par moi. – Bu, mənim tərəfimdən yazılmışdır. La ville occupée par les ennemis était affamée. – Düşmənlər tərəfindən alınmış şəhər aclıq keçirirdi.

"Par" sözönü aktiv formalı feillərlə işlədilərək ismə məkan mənası verir və Azərbaycan dilinə "ilə" qoşması və yaxud çıxışlıq hal şəkilçisi "dan", "dən" kimi tərcümə olunur. Məs.: İl faut passer **par** cette rue. – Bu küçə **ilə** keçmək lazımdır. Yaxud: "Bu küçədən keçmək lazımdır".

c) **"Pour"** sözönü ismin, əvəzliyin, yaxud məsdərin feilə tabe olmasını bildirir və Azərbaycan dilinə əksər hallarda **"üçün"** qoşması ilə tərcümə olunur. Məs.:

J'ai acheté ce livre **pour** vous. – Mən bu kitabı sizin **üçün** almışam.
Elle acheté des jouets **pour** son fils. – O, öz oğlu **üçün** oyuncaq alır.
İl travaille **pour** vivre. – O, yaşamaq **üçün** işləyir.

ç) **"Sans"** sözönü ismi feilə tabe edir və Azərbaycan dilinə inkar affiksi "sız[4]" kimi tərcümə olunur. Məs.: Sans livre – kitabsız.

"Sans" sözönü bəzən məsdəri də feilə tabe edir. Məs.: Elle parle sans réfléchir. O, düşünmədən danışır.

Belə hallarda **"sans"** sözönü məsdərlə birlikdə Azərbaycan dilinə feili bağlama kimi tərcümə olunur.

2. Yalnız qrammatik tabelik münasibəti yaradan sözönülər.

Yalnız qrammatik tabelik münasibəti yaradan sözönülər sırasına, əsasən, iki sözönü **"à"** və **"de"** sözönüləri daxildir. **"à"** sözönü, adətən ismin məsdərini və yaxud vurğulu əvəzliyin feilə tabe olmasını ifadə edir. Məs.: Donnez ce livre **à** Pierre. – Bu kitabı Pyerə verin. Elle ne pense qu'à toi. – O, yalnız sənin haqqında düşünür. Commencez à lire. – Oxumağa başlayın.

"à" sözönü əksər hallarda məna etibarı ilə Azərbaycan dilinin yönlük və yerlik hal şəkilçilərinə uyğun gəlir. Məs.:

Nous allons à l'Université. – Biz universitetə gedirik.

Nous sommes à l'Université. – Biz universitetdəyik.

"de" sözönü aşağıdakı hallarda işlədilir.

a) **"de"** sözönü ismi ismə tabe edərək təyini söz birləşmələri yaradır. Məs.: le journal **de** mon père (atamın qəzeti), une rue **de** village (kənd küçəsi), une maison **de** bois (taxta ev)

b) **"de"** sözönü ismi feilə tabe etdikdə Azərbaycan dilindəki çıxışlıq hal şəkilçisinə uyğun gəlir. Məs.: Elle vient **du** village. – O, kənddən gəlir. İl parle **de** ses enfants. – O, öz uşaqlarından danışır.

c) **"de"** sözönü məsdəri başqa bir feilə tabe etdikdə Azərbaycan dilinin təsirlik hal şəkilçisinə uyğun gəlir. Məs.: Finisser de lire! – (Oxumağı qurtarın.)

"Sözönülər" dilin ayrılmaz və araşdırmaya daima ehtiyacı olan bir sahəsidir.

Ədəbiyyat

1. Штейнберг И.М. Возникновение новых предлога во французском языке. 1972
2. N.Steinberg. Grammaire française. 1962
3. Ш. Балли. Общая лингвистика и вопросы французского языка. 1955
4. И.Н. Попова, Ж.А. Казакова, Г.М. Ковальчук - Французский язык

Т.М.Мамедова

Предлоги, типы предлогов, слияние предлогов с артиклем во французском языке

Резюме

В статье рассматриваются французские предлоги, типы предлогов, слияние предлогов с артиклем. Во французском языке существительные не склоняются, их заменяют предлоги. По составу предлоги бывают просте, сложные и производные. В статье показано формы развития предлогов, употребляемых в значении времени и пространства. А также говориться о предлогах выражающих конкретные отношения и предлогах, которые создают только грамматические отношения подчинения.

T.M.Mammadova

Prepositions, types of propositions, fusion of prepositions with an article in French language

Summary

In the article are considered French prepositions types of prepositions merging prepositions with article. In the French language the nouns do not tend to replace their preposition. In terms of prepositions there are simple, complex and derivative. The article shows the forms of development of prepositions used in the meaning of time and space. And also to speak about prepositions expressing specific relations and prepositions which create only grammatical relations of subordination.

Rəyçi: filol.f.d., dos. T.Cəlilova

Redaksiyaya daxil olub: 17.05.2022

Ş.M.QOCAYEVA
e-mail: 22shahla@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SÖZ VURĞUSUNUN FONETİK TƏBİƏTİNƏ DAİR

Açar sözlər: *vurğu, ton, heca, statik*
Ключевые слова: *акцент, тон, слог, статический*
Key words: *stress, tone, syllable, static*

Sözlər dilin lüğət tərkibinin vahidləri kimi vurğudan kənarda təsəvvür edilməzdir. Məfhumlar söz cildində "yaşadığı" kimi, sözlər də səs və prosodik elementlər cildində "yaşayır" L.R.Zinderə görə, söz vurğusunun əsas fonoloji funksiyası ondan ibarətdir ki, fonem kimi vurğu da sözün zəruri elementidir. Alimin fıkrincə, bu və ya digər dildə vurğunun yeri düzgün olmadıqda, eləcə də, akustik vasitələrlə düzgün ifadə edilmədikdə, həmin söz o dildə məna ifadə etməyən fonem birləşməsindən başqa bir şey deyil (1, s. 260). Biz sözdə vurğulu hecanı ona görə tanıyırıq və qavraya bilirik ki, o, vurğusuz hecalarla birlikdə dildə müəyyən məna kəsb edir (1, s. 265). Belə ki, ayrı-ayrı dillərdə vurğulu heca vurğusuz hecalara nisbətən müəyyən prosodik vasitələrlə, o cümlədən səs tonunun yüksəkliyi, hecanın uzunluğu, daha çox intensivliyi, saitin keyfiyyəti ilə ayrılır. Lingvistik ədəbiyyatlarda german dillərində, o cümlədən ingilis dilində dinamik vurğunun işlənməsi qeyd edilir. G.P.Torsuyevə görə, saitlərin vurğusuz vəziyyəti dildə xüsusi bir fonemin yaranmasına səbəb olmuşdur. Fizio-akustik nöqteyi-nəzərdən neytral səs [ə] vurğusuz vəziyyətdə saitin zəiflənməsinin nəticəsidir (2, s. 102). Bununla belə, ingilis dilində söz vurğusunun fonetik təbiətinə dair dilçilər arasında müxtəlif fıkirlər vardır. Henri Svit ingilis dilində vurğunu səsin ucalığına bərabər tutur. Noel-Armfild vurğuya artikulyator gücün dərəcəsi kimi baxır, bununla da o, söz və cümlə vurğusunu fərqləndirmir. İ.Vard vurğunu enerji qüvvəsinin daha çox artmasının nəticəsi və səsin ucalığının artması kimi başa düşür. Bununla belə, o göstərir ki, "aksentlik" təsiri yalnız vurğudan deyil, həm də səsə daxilən xas olan sonorluqdan, onların uzunluğundan, yüksəklik fərqindən və bu halların müxtəlif kombinasiyalarından asılı ola bilər. D.Counz vurğunu səsə, yaxud küyə sərf olunan ümumi artikulyator gücün dərəcəsi kimi müəyyənləşdirir. Güclü nəfəs vermə sayəsində eşitmə zamanı vurğu daha çox ucalıq təəssüratı yaradır. Bununla belə, D.Counza görə, nəzərə çatdırma effekti səsin keyfiyyətindən, uzunluqdan, vurğudan və səsin yüksəkliyindən asılıdır. Lakin, bunun əksinə olaraq D.Counz ingilis dili saitlərinin uzunluğunun vurğudan asılı olması faktını da qeyd edirdi (3**,** s. 28). Yuxarıda deyilənlərdən aydın olur ki, ingilis dilində vurğu dinamik xarakter daşıyır və bu da tələffüzün gücünün və ucalıq dərəcəsinin artması ilə müşayiət olunur.

Q.P.Torsuyevə görə, ingilis dili söz vurğusunun dinamik tipə malik olması, mahiyyət etibarı ilə bütün dilçilər tərəfindən qəbul edilir (3**,** s. 28). Bununla belə, V.Yassem hesab edir ki, ingilis dilində vurğu daha çox uzunluq fərqlərinə əsaslanır (3, s. 29). İngilis dilində fonetikaya aid olan dərsliklərdə ingilis dilində söz vurğusunun təbiəti müxtəlif baxımdan izah edilir. Bununla yanaşı, söz vurğusu və cümlə vurğusu mahiyyət etibarı ilə fərqləndirilmir və yüksəklik komponenti heç bir şərtsiz söz vurğusunun komponentinə daxil edilir (3, s. 29). Məsələn, A.L.Traxterev nəfəsvermənin gücünü vurğu adlandırır və göstərir ki, vurğunun gücünün artma dərəcəsi ingilis dilində adətən uzunluğun artması və səs tonun yüksəkliyinin dəyişməsi ilə müşayiət olunur (4, s. 29).

V.N.Vitomskaya yazır ki, vurğu ayrı-ayrı fonemləri daha böyük vahidlərdə (heca, takt, fraza) birləşdirir, onların ümumi ritmik-melodik şəklini formalaşdırır. İngilis dilində vurğu

dinamik, tonik, kəmiyyət, keyfiyyət xarakterinə malikdir və tonik xarakter üstünlük təşkil edir. Bununla yanaşı, vurğu ilə səs tonunun yüksəkliyi arasında asılılıq elə sıxdır ki, müəyyən hallarda akustik təsirin vurğu, yaxud melodiya ilə yarandığını söyləmək çətindir, yaxud akustik effekt onların hər ikisi ilə yaranır (5, s. 11). Q.P.Torsuyev ingilis dili vurğusunu söz əsasına görə güc vurğusu kimi müəyyənləşdirir, bununla belə, o, qeyd edir ki, (vurğu) keyfiyyət, kəmiyyət və musiqili xarakterə malikdir. Bununla yanaşı, müəllif melodik (musiqili) komponent intonasiya hadisəsinə aid edir və söz vurğusunu intonasiya hadisəsindən dəqiq fərqləndiyini göstərir (2, s. 30).

O.Dikuşina ingilis dilində söz vurğusunu belə xarakterizə edir: "İngilis dilində dinamik vurğu aydın ifadə edilir, ancaq onda kəmiyyət, keyfiyyət komponentləri yoxdur." Belə ki, ingilis dilində uzun saitlər vurğudan asılı olmayaraq qısa saitlərə qarşı qoyulur. Onun fikrincə, burada vurğu əsas rol oynamır. Vurğusuz vəziyyətdə bir sıra hallarda saitlər reduksiyaya uğrayır. Lakin bununla yanaşı, ingilis dilində elə hallar vardır ki, vurğusuz vəziyyətdə saitlər keyfiyyət baxımından vurğulu hecadakı saitlərdən fərqlənmir (6, s. 88-89).

Söz vurğusu ilə cümlə vurğusunun fonetik fərqini müqayisə edən Q.P.Torsuyev göstərir ki, söz vurğusu ilə cümlə vurğusunda ümumi olan komponent güc komponentidir. Melodik komponent, onun fikrincə, cümlə vurğusunun tərkibinə daxildir. Bu komponent, ümumiyyətlə, ingilis dili sözlərinin fonetik strukturuna xas deyil. Uzunluq komponenti həm söz, həm də cümlə vurğusuna aiddir, ancaq emfatik uzunluq və qısalıq halları söz vurğusuna xas deyil (3, s. 32).

A.V.Vasilyevə görə, ingilis və rus dillərində vurğulu hecalardan səs tonunun yüksəkliyi və tonun istiqamətinin dəyişməsi, güclü nəfəs vermə və güclü əzələ gərginliyi ilə ayrılır. Güclü tələffuz isə vurğulu hecada səslərin uzunluğunun artması, xüsusi ilə saitin aydın, reduksiyasız tələffüzü ilə müşayiət olunur (7, s. 90).

S.M.Babayev, M.Q.Qarayeva söz vurğusunun təbiətindən bəhs edərkən göstərirlər ki, ingilis dilində söz vurğusu başlıca olaraq dinamikdir. Bununla yanaşı, orada qeyd olunur ki, vurğulu hecalar vurğusuz hecalara nisbətən ucadır, uzundur, keyfiyyətcə aydındır. Madam ki, fonemlər vurğulu vəziyyətdə vurğusuzlara nisbətən ucadırsa, keyfiyyətcə aydındırsa, bu halda biz deyə bilərik ki, ingilis dili vurğusu həmçinin keyfiyyət vurğusudur. Belə ki, keyfiyyət vurğusu dinamik vurğunun bir komponentidir və o, özü ayrılıqda işlənmir. İngilis saitləri vurğusuz vəziyyətdə öz əsas xarakterik xüsusiyyətini saxlaya bilər. İngilis saitləri vurğudan asılı olmadan uzun və qısa ola bilər. Belə ki, kəmiyyət komponentinin ingilis dili söz vurğusu üçün əhəmiyyəti yoxdur (8, s. 116).

M.A.Sokolovaya görə, ingilis dilində söz vurğusu dinamik və tonik xarakterlidir və bu komponentlər digər komponentlərə üstün gəlir. Bununla yanaşı, o qeyd edir ki, söz vurğusunun kəmiyyət və keyfiyyət komponentləri də həmçinin əhəmiyyətlidir (9, s. 121-122).

P.Leydfogedə görə, İngilis dilində vurğulu heca vurğusuzdan uzun, qüvvətli və yüksək tonla deyilir (10, s. 43). İngilis fonetistləri D.Kristal, A.Qimson belə bir fikirlə razılaşırlar ki, ingilis dilində söz vurğusu, yaxud aksent-gücün, səs tonunun, uzunluğun və keyfiyətin dəyişməsi ilə müşahidə olunan mürəkkəb bir hadisədir (11, s. 121).

Belə ki, A.Gimson sözlərdəki hecaların qabarıqlığını dörd fonetik vasitə ilə (vurğu, səs tonunun yüksəkliyi, səsin keyfiyyəti, uzunluq-kəmiyyət) reallaşdığını qeyd edir. A.Gimsona görə, vurğu-səsin ucalığı, vurğunun siqnal edilməsində təsirli vasitə deyildir. Burada digər vasitələrin olmasını nəzərə almaq lazımdır. Belə ki, sözlərdə vurğunu siqnal edən qabarıqlığın fərqləndirilməsi səs tonunun yüksəkliyi ilə əlaqədar olur. O, səs tonunun yüksəkliyi ilə vurğunun ümumi münasibətini aşağıdakı kimi xülasə edir:

– sözdə olan əsas vurğu səs tonunun istiqamətinin potensial şəkildə dəyişməsi ilə əlaqədardır;

– sözdə olan ikinci dərəcəli vurğu normal halda səs tonunun istiqamətinin dəyişməsi ilə əlaqədar deyildir;

– hecaya verilən qabarıqlıq səs tonunun səviyyəsinin potensial dəyişməsi; yaxud ritmik vurğu və kəmiyyət/keyfiyyət qabarıqlığı ilə realizə olunur. Belə ki, vurğu ilə səs tonunun birləşərək bir kompleks təşkil etdiyindən, demək olar ki, bu kompleks sözdə vurğunun dərəcələrini siqnal edən güclü faktordur (11, s. 225).

A.Gimson sözlərdə hecaların qabarıqlığına təsir edən faktorlar içərisində saitlərin keyfiyyətini də qeyd edərək göstərir ki, səslər içərisində saitlər samitlərə, sonorlar küylü samitlərə nisbətən qabarıqlığa malikdir. Uzun saitlərin və diftonqların reduksiyasız formalarının da qabarıqlıqla əlaqəsi vardır (11, s. 227). Beləliklə, ingilis dilində vurğunun təbiətinə dair apardığı təhlildən A.Gimson belə bir nəticəyə gəlir ki, danışıqda səs tonunun dəyişməsi dinləyici üçün qabarıqlığı siqnal edən ən ümumi vasitədir. Vurğuya gəlincə, o qeyd edir ki, vurğu tələffüzün enerji gücü kimi müəyyən edilsə də, o, danışan üçün tələffüzün gücü, dinləyən üçün səsin ucalığı olub, qabarıqlığın siqnal edilməsində ən az təsirə malikdir (11, s. 227).

İngilis fonetisti P.Rouç vurğunun təbiəti ilə bağlı bir növ A.Gimsonun fikirləri ilə bölüşərək yazır ki, sözdə qabarıqlıq dörd əsas faktorla yaranır: ucalıq, uzunluq, səs tonunun yüksəkliyi və keyfiyyət. Ümumilikdə, bu dörd faktor birləşmədə və birlikdə hərəkət edir, fəaliyyət göstərir. Bununla belə, sözdəki hecalar bəzən yalnız onlardan biri, yaxud ikisi vasitəsilə qabardılır. Eksperimental tədqiqat göstərir ki, bu faktorlar bərabər əhəmiyyətə malik deyildir. Lakin sözdə ən güclü qabarıqlıq təsiri səs tonunun yüksəkliyi ilə yaranır və uzunluq da həmçinin güclü faktordur. Səsin ucalığı və keyfiyyəti hecanın vurğulu olmasına çox az təsir göstərir (12, s. 74).

Beləliklə, yuxarıda aparılan araşdırmadan aydın olur ki, ingilis dilində söz vurğusunun fonetik təbiətinə dair dilçilər arasında yekdil fıkir yoxdur. Bununla belə, ingilis dilinin söz vurğusundan bəhs edən fonetistlər güc faktorunu birinci sıraya qoyurlar. Bununla da ingilis dilində söz vurğusunun dinamik xarakterə malik olmasını ön plana çəkirlər.

İngilis dilində söz vurğusunun təbiətinə dair fikir müxtəlifliyinin səbəbi, fikrimizcə, söz və cümlə vurğusuna eyni prizmadan yanaşılmanın nəticəsidir. Səs tonunun yüksəkliyinin dəyişməsi, Q.P.Torsuyevin qeyd etdiyi kimi, cümlə vurğusu üçün xarakterikdir. Söz vurğusu, C.Cəfərovun qeyd etdiyi kimi, statik kateqoriya olduğundan səs tonu statik vurğu ilə xarakterlidir. Uzunluq komponentinə gəlincə, qeyd edilməlidir ki, ingilis dilində uzunluq söz səviyyəsində distinktiv olduğundan, L.R.Zinderin qeyd etdiyi kimi, uzunluq söz vurğusunu siqnal edən əsas komponent kimi çıxış etməsi istisna olunur (13, s. 263). Bununla belə, ingilis dilində qısa saitlər vurğulu mövqedə vurğusuz saitə nisbətən uzun tələffüz oluna bilər. İngilis dilində uzun saitlər də müxtəlif fonetik mövqelərdə variativləşərək aksent, kombinator, ritmik, sillabik uzunluqla səciyyəvi olsalar da, tarixi uzunluğunu-distinktiv əlamətlərini saxlayır.

Biz də ingilis dilində söz vurğusunun təbiətinin dinamik xarakterli olduğuna şərik çıxır və qeyd etmək istərdik ki, hecanın dinamikliyi ona sərf olunan hava axınının enerjisi, artikulator cəhətdən əzələlərin intensiv işi ilə ölçülür. Odur ki, müəyyən sözdə hecaların qabarıqlığı onlara verilən enerjinin gücü ilə bağlıdır. Sözdə səs tonunun yüksəkliyi və ucalığı ilə formalaşan qabarıqlıq amillərinin əsasında təbii olaraq güc, enerji amili dayanır. Bu baxımdan biz ingilis dili söz vurğusunun təbiətinin izahında dinamik (güc) komponentini əsas götürürük, digər amilləri ikinci dərəcəli olduğuna tərəfdar çıxırıq.

Ədəbiyyat

1. Дубовский, Ю.А. Анализ устного текста и его составляющих / Ю.А.Дубовский. – Минск: Высшая школа, – 1978. – 138 с.

2. Bəşirova, A.Q. Azərbaycan dilində vurğu. / A.Q.Bəşirova. – Bakı: BDU, – 1994. – 112 s.

3. Торсуев, Г.П. Экспериментальные исследования английского словесного ударения // Москва: Ученые записки МГПИИЯ. Т.18. – 1960. – 1-130 с.

4. Торсуев, Г.П. Строение слога и аллофоны в английском языке / Г.П.Торсуев. – Москва: Наука, – 1975. – 239 с.

5. Витомская, В.Н. Основы английской фонетики / В.Н.Витомская. – Москва: Иностранная литература, – 1948, – 382 с.
6. Дикушина, О.И. Фонетика английского языка / О.И.Дикушина. – Москва, – 1952. – 350 с.
7. Vasilyev, V.A. English phonetics / V.A.Vasilyev. – Moscow, – 1980. – 254 p.
8. Babayev, S.M. English phonetics / S.M.Babayev, M.G.Garayeva. – 4th edition. – Baku, – 2009. – 322 p.
9. Schemerling, S.P. Aspects of sentence stress / S.P.Schemerling. – London, – 1976. – 127 p.
10. Schemerling, S.P. Aspects of sentence stress / S.P.Schemerling. – London, – 1976. – 127 p.
11. Gimson, A.C. Cimson's pronunciation of English. 6th edition / F.C.Gimson. – London, – 2001. – 339 p.
12. Rogerson, P. Speaking clearly / P.Rogerson, J.Gilbert. – Cambridge University Press, – 1996. – 136 p.
13. Зиндер, Л.Р. Общая фонетика / Л.Р.Зиндер. – Москва: Высшая школа, – 1979. – 312 с.

Ш.М.Годжаева

О содержании фонетической природы словесного ударения

Резюме

В данной статье рассматриваются взгляды лингвистов на содержание фонетической природы словесного ударения. Основная цель статьи – определить природу словесного ударения. Мысли таких лингвистов, как П.Рауч, А.Гимсон, А.В.Васильев и др. о фонетической природе словесного ударения упоминаются в статье.

Sh.M.Gojayeva

On the content of phonetic nature of word stress

Summary

This article deals with the views of linguists on the content of phonetic nature of word stress. The main goal of the article is define the nature of word stress. The thoughts of linguists such as P.Rouch, A.Gimson, A.V.Vasilyev and others about phonetic nature of word stress are referred in the article.

Rəyçi: filol.f.d. X.Ə.Qocayeva

Redaksiyaya daxil olub: 31.05.2022

G.Z.RƏHİMOVA
baş müəllim

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ MÜSBƏT-QİYMƏTLƏNDİRİCİ NİTQ AKTLARINDA QİYMƏTLƏNDİRMƏ OBYEKTİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***Açar sözlər**: nitq aktı, qiymətləndirmə, bəyənmə, tərif, iltifat, yaltaqlıq*
***Ключевые слова:** речевой акт, оценка, одобрение, похвала, комплимент, лесть*
***Key words:** speech act, evaluation, approval, praise, compliment, flattery*

Müasir dilçilik nitqin funksional tərəfinin öyrənilməsi, həmçinin ünsiyyət quranların nitq davranışı ilə də fəal məşğul olur. Bu işdə müsbət qiymətləndirici nitq aktlarında qiymətləndirmə obyektlərini təyin etməyə cəhd göstərilməsidir. Bir neçə yaxın, lakin eyni olmayan şifahi-kommunikativ fenomenləri müsbət qiymətləndirmənin nitq aktlarına aid edirik: bəyənmə, tərif, iltifat və yaltaqcasına tərif. Qiymətləndirici nitq aktlarının tədqiqi son onilliklər ərzində antroposentrik bir oriyentasiya ilə xarakterizə olunan müasir dilçilik üçün böyük maraq doğurur. Qiymətləndirmənin funksional semantikası A.A.İvinanın, E.M.Volfun, E.B.M.Tsuinin və s. əsərlərində öz əksini tapmışdır. Ən çox sosiolingvistik və psixolinqvistik əsərlər iltifata (R.K. Herbert, N.Volfson, J.Terner, D.Sperber, D.Uilson və başqaları) həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, xarici tədqiqatçılar tərifin hər hansı bir ifadəsini bir iltifat kimi təfsir edərək iltifat və tərif arasında fərq qoymurlar. Bu, tərifin faktiki nitq aktına həsr olunmuş xarici tədqiqatların olmaması ilə əlaqədardır.

Tərif ifadə edən nitq aktı İ.A.Konova, L.I.Kloçko kimi alimlər tərəfindən öyrənilmişdir. S.V.Volınkina və R.V.Serebryakovanın əsərləri tərif və iltifat ifadə edən nitq aktlarının müqayisəli tədqiqinə həsr edilmişdir. Yaltaqcasına tərif ifadə edən nitq aktı C.V.Dorda və E.S.Petelinanın araşdırma obyektidir; ikincisi onu tərif ifadə edən nitq aktı ilə müqayisə edir. Qeyd edək ki, E.S.Petelina tərif və bəyənmə arasında fərq qoymur və bəyənmənin bütün kontekstlərini tərifin nitq aktı kimi təqdim edir. Bəyənmə ifadə edən nitq aktı seçilmiş müsbət qiymətləndirmə aktları arasında ən az öyrənilən dir. Bildiyimiz qədər, bu günə kimi bəyənmənin nitq aktı kimi hərtərəfli praqmalinqvistik təsviri olmayıb. Ən əhəmiyyətlisi E.V.Yaroşeviçin bəyənmə konstruksiyası ilə paradiqmatik sintaksis baxımından təşviq konstruksiyalarının müqayisəsi təqdim olunur. Müsbət qiymətləndirici ifadələrinə dair tədqiqatçılarda bir çox suallar yaranır, bunlardan biri də bu nitq formasiyalarının qiymətləndirmə obyekti ilə fərqləndirilməsidir. Bu problemin həllinə ehtiyac bu işin aktuallığını müəyyənləşdirir. Tədqiqatın məqsədi, əsas praqmatik xüsusiyyəti müəyyən edən bir obyektin hərəkətlərinin və ya müsbət keyfiyyətin təsnifatı olan bəyənmə, tərif, iltifat və yaltaqcasına tərif ifadə edən nitq aktlarıdır ki, bunlar da koordinatlar daxilində həyata keçirilir: Danışan (qiymətləndirmə mövzusu) – Dinləyici (onun obyekti kimi də çıxış edə bilər). Tədqiqatın mövzusu müasir ingilis dilindəki bədii dialoq diskursunda reallaşan bəyənmə, tərif, iltifat, və yaltaqcasına tərif ifadə edən nitq aktlarının funksional və semantik xüsusiyyətləridir. İşin məqsədi bəyənmə, tərif, iltifat və yaltaqcasına tərif ifadə edən nitq aktlarındakı qiymətləndirmə obyektini fərqləndirməkdir. Qarşıya qoyulan məqsəddən aşağıdakı vəzifələr irəli çıxır: 1) müsbət qiymətləndirici aktları təsnif etmək; 2) müsbət qiymətləndirici nitq aktlarının illokutiv məqsədlərini müəyyənləşdirmək; 3) qiymətləndirmə obyektlərini müsbət qiymətləndirici nitq aktlarında fərqləndirmək.

Bəyənmə, tərif, iltifat və yaltaqcasına tərif ifadə edən nitq aktları illokutiv sinkretik aktlardır, çünki eyni zamanda iki və ya daha çox illokusiyanı həyata keçirirlər, bunların

arasında birincil və ikincil fərq qoyulmalıdır. Bəyənmə, tərif, iltifat və yaltaqcasına tərif ifadə edən nitq aktları ilk növbədə müsbət qiymətləndirici məqsədi ilə həyata keçirilir. Obyektin, keyfiyyətlərinin və ya fəaliyyətinin müsbət qiymətləndirici ifadəsi ümumi, dəyişməz bir nitq aktı məlumatı üçün illokutiv məqsəddir. Müsbət qiymətləndirici aktları həmsöhbətə diqqəti göstərməyi tövsiyə edən həm müsbət nəzakət strategiyasını, həm də "yumşaldan modal paketdə bir ifadə hazırlamağı" nəzərdə tutan mənfi nəzakət strategiyasını həyata keçirir (2, s. 131). Müsbət qiymətləndirici ifadələr məzəmməti, narazılığı yumşaltmaq üçün təqdim edilə bilər, onlar mövzunu nəzakətlə dəyişdirməyə kömək edir və s. Müsbət qiymətləndirici nitq aktlarının ifadə və etiket qaydaları ekstralinqvistik kontekstlə müəyyən edilir və bu səbəbdən dəyişkəndir, müsbət qiymətləndirici ifadə isə daimi xarakterlidir.

Bildiyiniz kimi bir dəyər ifadəsi, danışanın insanlar, əşyalar, hadisələr, vəziyyətlər haqqında mühakiməsidir (3, s. 200). Bəyənmə ifadə edərkən danışan istənilən fikrin, qərarın rasionallığını, müəyyən bir obyektin estetikliyini, dəyərini, faydasını bildirir. Tərif ifadə edərkən adresant birinin gördüyü işin, alınan nəticələrin düzgünlüyünü, dəyərini bildirir. İltifat ifadə edərkən danışan adresantın görünüşünü və ya fəaliyyətini müsbət qiymətləndirir, onları nailiyyət kimi şərh edir. Yaltaqcasına tərif ifadə edərkən adresant bunu tərif və ya iltifat kimi ötürməyə çalışır. İltifat və ya tərif ifadə edən adresant yaltaqlanmaq və ya nəzakətə əsaslanaraq adresatla münasibətlərdə razılığın qorunması istəyinə əsaslanaraq onu həvəsləndirmək niyyətindədir. Eyni zamanda yaltaqcasına tərif edən adresant adresatı təşviq edərək yalnız adresantın öz maraq dairəsində onu hərəkətə təhrik etmək niyyətindədir. Qiymətləndirici nitq aktlarının obyektləri həm canlı, həm də cansız obyektlər və mücərrəd anlayışlar ola bilər. Bir şəxs qiymətləndirilirsə, o zaman qiymətləndirmə obyektləri onun görünüşü, geyimi, davranışı, zövqü, əxlaqi və intellektual keyfiyyətləri, davranışı, hərəkətləri və fəaliyyətinin nəticələri ola bilər. Əgər müsbət qiymətləndirmə obyektləri cansız əşyalar və ya mücərrəd anlayışlardırsa, bu cür ifadələr bəyənmə olaraq şərh olunur. Bəyənmə ifadə edən nitq aktında qiymətləndirmə obyekti adresat ilə üst-üstə düşmür, çünki cansız əşyalar və təbiət hadisələri ilə söhbət aparmaq mümkün deyil: danışan yalnız müsbət emosional yükünü həmsöhbət ilə bölüşə bilər. Bəyənmə ifadə edən nitq aktında bəyənilmiş xüsusiyyətləri təsvir edək: 1. "You're going to where they're filming, love?" the driver asked me, pulling away. "Yup." "**Nice day for it**" (5, p. 86) (hava). 2. The Loxford sign gleamed briefly from the black hedgerows. "**Lovely village**," Mike Vinson said, "**smashing**. I grew up in Harlesden. You don't know you're born, growing up here" (12, p.82) (məkan). 3. "I know the one," said Lord Naughton. "Me too," said Ma Gamble. "**It's a beautiful song"** (5, p.451) (musiqi parçası). 4. "I just thought we could get a bite to eat and then… see." "**Sounds good**," I say, as we start walking (7, p.166) (fikir). 5. "**Fascinating**!" says Kent, taking a sip of tea. "**I adore all these quaint old British customs**. Do you know any others?" (6, p.178) (adət-ənənələr).

Belə ki, daxili, sənət əşyaları, yeməyin hər müsbət qiymətləndirilməsi bizim tərəfimizdən bəyənmə kimi yozulmur. Əgər otaq, ev, mənzil, bağ, mebel və ya sənət obyektinin sahibi ilə söhbətdə müsbət qiymətləndirilirsə, belə bir ifadə bizim tərəfimizdən bəyənmə kimi deyil, iltifat və ya yaltaqcasına tərif olaraq sahibinin zövqünə görə şərh olunur: "Thank you," I said before she could disappear, "for showing me your beautiful home" (8, p. 109) (İltifat). Sənət, ədəbiyyat, elm əsərləri yaradıcılarının iştirakı ilə müsbət qiymətləndirilirsə, belə bir dəyər ifadəsi də bəyənmə deyil, iltifat və ya yaltaqcasına tərifdir, bu halda nailiyyətdir: "About your novels," he said. "**The plots are so well-laid**. For instance in The Seventh Child, although of course one feels that Edna will never marry…" (11, p. 191). Ünsiyyət quranlar restorandakı yeməkləri və ya mağazada alınan yeməkləri sevirlərsə və bunu müsbət qiymətləndirirlərsə, ünsiyyətlərinin nəticəsi bəyənmədir. Əgər adresant aşpaza və ya ziyafət ev sahibinə yemək barədə müsbət danışırsa, deyilən ifadə kulinariya bacarıqları və ya ləzzəti və təşkilati bacarıqları iltifat olaraq adlandırılmalıdır. Müqayisə üçün hər iki vəziyyəti təqdim

Bu və ya digər şəxsin dilindən çıxmış sözlər, deyimlər "xalq arasında zərbü-məsəl olub" qalır. "Ənənəvi, arxaik mədəniyyətlərlə bu tipli mətnlər, adətən, nüfuzlu şəxslərə və toplumlara istinad edilərək danışılır..." (7, s.54). Bu məsəllər etnik "toplumun inanc enerjisi ilə yüklənmiş fraqmentlərdir, etnik davranış streotipləri və etnik fəlsəfi normalardır, nüfuzlu sözlərdir" (7, s.56).

Misal gətirdiyimiz mətnlərdə məsəllər ibrətli qənaətlər olaraq hadisələrin, əhvalatların "içində hasil olur": "Qəlibləşmiş bu sintaktik konstruksiyalar dilin məntiqi axarında gerçəkli, düşüncə və mətn kontekstində reallaşmaqla bərabər, həm də müəyyən situasiyalarla bağlı şəkildə ortaya çıxır (2, s.221).

Baharlının salnaməsində "keçmiş günlər", "əski günlər" xronotopik dəyərə malikdir. Dəyərli nə varsa, onda olubdur. Baharlı öz hekayətində şahzadə Bəhmən Mirzənin yaşam tərzindən danışarkən bir ibrətamiz hadisəni misal gətirir. "Belə ki, şahzadənin bir qadağanı var idi ki, heç bir nəfərdə cürət yox idi ki, xaric adam ilə bir kəlmə danışa və bir kimsədə də o cürət yox idi ki, onun əhi-əyalin mənzilinə tərəddüd edə. Gündüzlər gözətçilər və gecələr darvaza qıfıllı həmişə tənbeh ilə qadağan edərdi ki, hər kəs öz oxumağında və öz şənini bilməkdə olsun. Və şahzadənin bu əmrindən və nizam və zabitəsindən tamam övladı və əyalı incik idilər. Elə ki, mərhum oldu bir müddət bisərü palıq ilə keçirdilər. Sonra keçən günlərini bir-bir yada salmaq ilə peşman olub, öz naşükürlərinə iqrar etdilər və fayda olmadı. Belə ki, atalardan məsəl qalıbdır. Keçən gün ələ düşməz, calasan günü-günə.

Və yenə belə deyiblər ki: İnsanın yaxşı günə davamı olmaz, amma pis günə davamı olar. Belə ki, zahir olur" (1, s.294).

Atalar sözü və məsəlin bol istifadə olunduğu əsər M.Baharlının "Əhvalati-Qarabağ"dır ki, bu da müəllifin folklor üslubuna xas olan mühüm bir cəhətdir. Salnamə təhkiyəsindən hiss olunur ki, Baharlının üslubunda folklor təfəkkürü üstün mövqeyə malikdir. Məsələn:

"Yenə bir karvansara Göhər ağa təmir elətmişdi, məscidi camelərə vəqf etmişdir. İndi Həsən ağanın təsərrüfündədir. Belə ki, karvansaranı təmir edən vaxt o işə baş çəkib fəhlə, bənnasının muzdun verən Süleyman xan imiş. O cəhətə görə Süleyman xan oğlu Həsən ağa iddia edib alıblar. Əvvəl bir dəfə od düşüb yandı. Həsənağa peşman olub, yenə məscidlərin ixtiyarına verdi. Və sonra dübarə yenə geri alıb, indi xarabadır və zibil tökərlər. Belə ki, məsəldir: "Mərd mərddən kəsər, Murtuzəli hər ikisindən" (1, s.278).

Salnamədə digər bir məsəl Məhəmməd bəy Cavanşirin Mustafa xan tərəfindən öldürülməsi ilə əlaqədar söylənilir: "Məhəmməd bəyi övrəti ilə at üstə gətirilər Mustafa xanın həyətinə. Mustafa xan evdən çıxıb Məhəmməd bəyi söyür ki, a filan-filan olmuş! Sən gəlib mənim əhli-əyalımı girmisən. Məhəmməd bəy deyir ki: Filan-filan olmuş gəlmişdim səni öldürüm. Nə fayda əlimə düşmədin. İndi məni qolubağlı görübsən. Bir qolum açıq olsaydı, tamam Şirvanı qılınca çəkəydim. Ta görəydin dünyada necə oğullar var. Nə edim ki, Səlim xan namərdlik etdi. Məni sənin qabağına qolu bağlı göndərdi. Bu sözdə Mustafa xan içəri girib, bir tüfəng əlində çıxıb çölə və Məhəmməd bəyi at üstə vurub öldürür və Səlim xana çox razılıq yazır. Mustafa xan Məhəmməd bəyi öz əli ilə öldürüb, Məhəmməd bəyin övrətin intiqam üçün alıb və bir neçə ay saxlayır. Sonra bir atlıya qoşub göndərib Qarabağa. Sonra o övrəti mayor İmaməli ağa alıbdır. Bəli, məsəldir deyiblər: "Nə namərdə bel bağla, nə cəfa çək o candan" (1, s.290).

Beləliklə, paremioloji vahidlər, aforizmlər üzvü şəkildə salnamə üslubuna daxil edilir və təhkiyə polofonikliyi yaradır, yəni, folklor sözü ilə tarixi-informativ söz bir-birini üzvi şəkildə tamamlayır, maraqlı bədii, estetik çalarlar qazandırır. "Qarabağnamə" müəlliflərinin canlı danışığına, şifahi nitqin özəlliklərinə dərindən bələdliyi aydın hiss olunur. Ata sözləri və məsəllər folklor hadisəsi olub etnik-mədəni substratın mənalarını özündə ehtiva edir.

Ədəbiyyat

1. Baharlı. Əhvalati-Qarabağ. Qarabağnamələr. II kitab. 1991, s. 269-302.
2. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2017, 424 s.
3. Çələbi F. "Koroğlu" poeziyası ilə atalar sözləri və məsəllərin qarşılıqlı əlaqəsi \\ "Arxetip" jur., №1, 2017, s.58-114.
4. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-ci ildən 1805-ci illərdə siyasi vəziyyətinə dair. Qarabağnamələr. I kitab. 1989, s.149-183.
5. Əliyev K. Atalar sözləri və aforizmlər \\ Folklor və ədəbiyyat. Bakı: Nurlan, 2-17, s.3-13.

6. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Yeni nəşrlər evi, Ülm, 1999, 216 s.
7. Kamal R. “Kiatbi-Dədə Qorqud”un kommunikativ məkanı: miforitual aspekt. Bakı: Elm və təhsil, 2013, 204 s.
8. Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ. Qarabağnamələr. II kitab, s. 93-202.
9. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr. I kitab, s. 5-102.
10. Mirzə Camal Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab, s.104-148.
11. Mirzə Yusif Qarabaği. Tarixi-Safi. Qarabağnamələr. II kitab, Bakı, s. 5-92
12. Пермяков Г.Л. Основы структурной паремиологии.М., 1988.
13. Пермяков Г.Л. Паремиологический эксперимент. Материалы для паремиологического минимума. М., 1971.

Л.К.Мейбуллаева

Функция паремиологических единиц в составе структуры «Карабах-наме»

Резюме

Карабах-наме (Карабахские хроники) представляют собой сборник летописей по истории Карабахского ханства, написанных разными авторами (Мир Мехди Хазани, Бахарлы, Мирза Адыгзалбек и др.). В этих хрониках отражены важные события, произошедшие в общественно-политической жизни Карабахского ханства, повествования о поведении исторических личностей в той или иной ситуации.

Эти историко-художественные тексты, написанные в стиле восточной хроники, имеют синкретический характер: это и биографии карабахских ханов, и летопись в целом. Наряду с традиционной восточной летописной традицией на стиль летописей отчетливо ощущается влияние фольклорного мышления, в частности, в текстах мир Мехди хазана, Бахарлы фольклорное слово как авторитетное слово принимает активное участие в построении сюжета. Это связано, прежде всего, с активным участием жанров дидактического дискурса (пословицы и поговорки). Пословицы и поговорки, мудрые идиомы формируют афористическое пространство текстов.

L.K.Meybullayeva

The function of paremiological units in the structure of "Karabakh-name"

Summary

Karabakh-name (The Karabakh Chronicles) is a collection of chronicles on the history of the Karabakh Khanate written by various authors (Mir Mehdi Khazani, Baharly, Mirza Adygzalbek, etc.). These chronicles reflect important events that took place in the socio-political life of the Karabakh Khanate, narratives about the behavior of historical figures in a particular situation.

These historical and artistic texts, written in the style of an oriental chronicle, have a syncretic character: these are biographies of the Karabakh khans, and the chronicle as a whole. Along with the traditional Eastern chronicle tradition, the influence of folklore thinking is clearly felt on the style of chronicles, in particular, in the texts of Mir Mehdi Khazani, Baharly, the folklore word as an authoritative word takes an active part in plot construction. This is primarily due to the active participation of the genres of didactic discourse (proverbs and sayings). Proverbs and sayings, wise idioms form the aphoristic space of texts.

Rəyçi: filol.e.d., prof. R.K.Rəsulov

Redaksiyaya daxil olub: 10.05.2022

N.T.MİRZƏYEVA
doktorant
e-mail: necibemirzayeva1@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

HƏRBİ JURNALİSTİKA VƏ YAZIÇILAR

***Açar sözlər**: publisistika, müharibə, pasifizm, məqalə, yaradıcılıq*
***Ключевые слова:** публицистика, война, пацифизм, статья, творчество*
***Key words**: journalism, war, pacifism, article, creativity*

XX yüzilliyin rus və Qərbi Avropa ədəbiyyatında publisistika nəzəriyyəsinin inkişafı daha çox "publisistika" anlayışının birmənalı şəkildə şərh olunmaması, tarixi və ədəbi prosesin janr xüsusiyyətləri, həmçinin bir sıra digər səbəblərlə bağlı olan çoxsaylı müzakirələrlə müşaiyət olunurdu. Hərbi publisistika bir zamanlar ədəbiyyat nəzəriyyəsində ciddi yer tutan ədəbi-tənqidi publisistika janrının şəklini dəyişmiş formasıdır. Əlbəttə, gündəliklər, memuarlar və ya xatirələr vahid sənədli janrın tərkibinə daxil olduğu kimi bu janr da həmin əsaslarla mövcud olmaq hüququna malikdir. Hərbi publisistika adi, mülki publisistikadan ("sülh zamanında") fərqli olaraq müəyyən hadisələrlə, daha dəqiq desək, konket bir dövrlə sıx bağlı olur. "Qaynar nöqtələr" xaricində isə hərbi publisistika solğun və süni görünür.

Bu fakta müasir tənqidçi-ədəbiyyatşünas Y.P.Proxorov diqqət yetirmişdir. O, qeyd edirdi: "*Hər bir dövrün publisistika qarşısında öz tələbləri vardır... Cəmiyyətimizdə (*rus cəmiyyətində – M.N.*) publisistika sənətinin xüsusiyyətləri onun inkişafının hər bir mərhələsində ümumi qanunauyğunluqlara baxmayaraq özünü müxtəlif cür büruzə verir və bu xüsusiyyətlər unikal hadisələrə səbəb olur*" (1).

Beləliklə, əvvəllər ictimai qanunlar üzrə mütəxəssislər publisist adlandırılırdı. Bu sözün müasir mənaya yaxın olan ilk mənalarına rus demokratlarının əsərlərində rast gəlinir. XIX əsrin birinci yarısında "hərbi publisistika" termini mövcud deyildi. Əgər hərbi məqalələrdən söz gedirdisə, o zaman tənqidçilər ona ümumi publisistikanın bir qolu kimi yanaşırdılar. Rus tənqidçisi V.Q.Belinski qeyd edirdi ki, "publisist" sözü "publika", yəni "tamaşaçı" sözündən əmələ gəlmişdir. Belinskiyə görə publisistin fəaliyyəti mühüm ictimai problemlərin qoyuluşu vasitəsilə tamaşaçıya göstərdiyi təsirlə ölçülür. Bu məsələdə Belinski xüsusi diqqəti publisistik məlumatın ünvanlandığı, mütəxəssis olmayan, lakin geniş oxucu dairəsindən təşkil olunan insanlara ayırırdı. N.M.Karamzinin yaradıcılığı ilə bağlı V.Q.Belinski "publisizm" terminindən "kütləvilik" sözünün sinonimi kimi (yəni, "geniş istifadə dairəsinə malik") istifadə edirdi. (2). Bizim üçün maraq kəsb edən bu termin digər demokrat və mütəfəkkirlərin tənqidi məqalələrində də hərbi çalarlardan başqa bütün müxtəlif çalarlarda – ictimai, sosial, sırf siyasi, bədii, sənətşünaslıqda və s. istifadə olunurdu. N.A.Dobrolyubov "Keçən ilin ədəbi xırdalıqları" adlı əsərində publisistikanı ictimai-siyasi məsələlər üzrə ədəbiyyat kimi nəzərdən keçirir. O, bu məqalədə hərbi publisistika haqqında, ümumiyyətlə, danışmır, lakin onu bədii ədəbiyyatdan, daha doğrusu, poeziyanı elmdən ayırır. XIX əsrin ikinci yarısında leksikoqrafiyada ilk dəfə olaraq 1864-cü ildə "publisistika" sözü qeydiyyatdan keçirilmişdi. F.Tollun "Stolüstü lüğəti" publisistika sözünün aşağıdakı tərifini təklif edir: "*Publisistika – siyasi və ictimai məsələlərdən xəbər verən ədəbi əsərlərdir*" (3, s. 235).

Ədəbi-tənqidi və bədii publisistika məhdudiyyət tanımır: yazıçı ona maraqlı olan, bir tərəfdən qəhrəmanlıq, digər tərəfdən isə torpaqların işğalı, təcavüzkarlığın tez-tez rast gəlinmədiyi istənilən bir mövzunu seçə bilər. Hərbi publisistikada isə əksinə, müəlliflərin bütün diqqəti müəyyən obyektlərə cəlb olunmuş olur. Məsələn, E.Heminquey, K.Simonov və

digər bütün mütərəqqi hərbi publisistlər üçün o dövrün publisistikasında əsas mövzu vətənin müdafiəsi mövzusu idi. Amerikalı yazıçı I Dünya müharibəsi dövründə müharibəni başlayanların müdafiəsinə qalxa bilməzdi. Buna görə də öz məqalə və oçerklərində, onun bioqrafı Karlos Beykerin iddiasına görə, Heminquey ağrı və acıyla "itirilmiş nəsillər" haqqında yazırdı. Bu problem üzrə hərbi publisistikadan daha çox povest və romanları əhatə edən tənqidi-monoqrafik ədəbiyyat daha genişdir. Hamıya məlum olan bir şeyi yenidən danışmağa ehtiyac yoxdur. Yalnız E.Heminqueyin öz vətəninə olan dərin bağlılığını qeyd etmək istərdik. O, kökündən qoparılmış, öz doğmaları və yaxınları ilə əlaqələrini itirmiş nəsillər haqqında yazırdı. Yazıçının fikrinə görə Amerikanın faciəsi məhz bunda idi. Rus sovet ədəbiyyatı bu cür kəskin problemlə üzləşməmişdi. Lakin vətən mövzusu, məlum səbəblərdən, K.Simonovun hərbi publisistikasının mərkəzində dayanırdı. Onun bir çox oçerk, məqalə, yazışmalarında və qısa məlumat xülasələrində sovet insanlarının maddi dəstəkdən daha çox mənəvi dəstəyə ehtiyacları olduğu qeyd edilirdi. Hərbi epizodların birbaşa iştirakçısı olmuş və ya (nadir hallarda) digər iştirakçıların xatirələrinin izi ilə yazan publisistin sözü faşizmə qarşı mübarizədə mənəvi silahlardan biri idi. Bu baxımdan K.Simonov publisistikasının məsuliyyətliliyini və nəticəliliyini qiymətləndirməmək mümkün deyil.

İstənilən müharibə, aparıcı hərbi jurnalistlərin fikrinə görə, öz fəlakətli nəticələri ilə ən böyük şər, bəladır. Publisistin vəzifəsi – şərə, bəlaya çarə tapmaqdır. Bir sıra müasir tədqiqatçılar hərbi publisistikanın tərifini verərkən nəzərə çarpacaq üstünlüyün daha çox konseptuallıq və məzmunluluq əlaqəsinin olmasında görürlər. Y.A.Lazebnik bədii publisistikada obrazın müstəqil dəyərini qeyd edir: "*Məhz obrazlılıq onu təşkil edən ən mühüm elementlərdən biridir. Lakin hərbi publisistikada müəllif, bir qayda olaraq, bədii publisistika prinsiplərinin əsaslarını pozaraq yaradıcı düşüncə tərzindən uzaqlaşmağa çalışır. Burada daha çox publisistik obrazın xüsusi məntiqi-səmərəli bir başlanğıca tabe olması təsdiqlənir*" (4, s. 16).

Bununla yanaşı, hərbi publisistika da bədii ədəbiyyatın bir hissəsidir. Hər halda bunu, şübhəsiz ki, E.Heminqueyin və K.Simonovun oçerk, məqalə, yazışmalar, rəy və reportajları təsdiq edə bilər. Bu cür əlaqə tarixən yaranmışdır. "Rus hərbi publisistikası bədii ədəbiyyatın "qeydiyyatından keçmiş" "kobud, kələ-kötür, lakin hər halda tanınan və qəbul edilən bir bölməsidir" deyən V.V.Uçonova haqlıdır (5, s. 10).

Hərbi publisistikanı bədii roman ədəbiyatından fərqləndirən meyarları müəyyən edərkən birincinin (hərbi publisistikanın) spesifik vəzifələrini və funksiyalarını, daha dəqiq desək, reallığı ifadə etmə xüsusiyyətlərini nəzərə almaq lazımdır. Həm rus, həm də qərb yazıçılarının hərbi oçerk və məqalələrində sənədlilik publisistikanın bütün digər növləri və formalarından daha böyük, bənzərsiz rol oynayır. Bunula yanaşı, əsl hərbi publisistikanı bu və ya digər formada bədii ədəbi əsərlərdə özünü büruzə verən və bədii fenomen kimi çıxış edən publisistlik anlayışından fərqləndirmək lazımdır. Tənqidçi L.A.Meşkova bu fenomeni "*poetikanın özünəməxsus kateqoriyası, əsərdə müəllif sözünün açıq şəkildə təcəssümü*" adlandırır (6, s. 40). Bu açıqlıq qismən də olsa, K.Simonov, E.Heminquey və müxtəlif millətlərdən olan digər yazıçıların hərbi publisistikasında da mövcuddur. Lakin o, obrazlılıq baxımından poetikanın amilinə çevrilə bilməz, çünki hərbi məqalələrdə bədii uydurma tarixi faktlardan uzaqlaşmaqdır. Bu isə hərbi publisistikada yolverilməz qüsurdur.

Hərbi publisistika jurnalistika ilə sıx bağlıdır. Peşəkar jurnalist məktəbi Heminqueyin sülh dövründəki publisistikası və onun hərbi publisistikasında böyük rol oynadı. K.Simonov üçün jurnalistika hərbi mövzularda olan yaradıcılığının mühüm mərhələsi idi və bu yaradıcılıq onun povest və romanları ilə paralel olaraq inkişaf edirdi. Bunlar bir-birindən ayrılmaz anlayışlardır.

Bu baxımdan bütün dövri mətbuat janrlarının materialları publisistikanın tərkibinə daxildir və hərbi jurnalistika ümumi mənada publisistikanın bir hissəsini təşkil edir. Digər tərəfdən (geniş olmayan mənada) hərbi publisistika qəzet və jurnal çıxışlarının bir növüdür, həmçi-

nin jurnalistikanın sözün əsl mənasında bir hissəsi, M.S.Çerepaxovun da qeyd etdiyi kimi, "*jurnalistikanın ağır artilleriyasıdır*" (7, s. 24).

Lakin hərbi publisistika jurnalistika ilə eynilik təşkil etmir. Bu cür yanaşmanın doğru olduğunu sübut etmək cəhdləri, demək olar ki, yüz il bundan əvvəl olmuşdu. O zamanlar nəzəriyyəçilərin "informasiya və hərbi publisistika arasındakı publisistikaya kölgə salan, faktın təbliğatın təsir vasitəsi kimi istifadə olunmasını məhdudlaşdıran maneəni məhv etmək" çıxışları birmənalı səslənirdi.

Əhəmiyyətli sayda qəzet və jurnal nəşrlərinin, həqiqətən də, publisistik keyfiyyətə malik olmasına baxmayaraq indiki dövrümüzdə jurnalistikanın tamamilə hərbi publisistika ilə eyniləşdirilməsinin mümkünsüzlüyü aydın nəzərə çarpır. Əgər funksional aspektdən yanaşılarsa, bunu görmək o qədər də çətin olmaz. Olduqca aydın görünür ki, hərbi publisistikada informasiya funksiyası ikinci plana keçir, burada əsas funksiya xəbərin daha inandırıcı formada çatdırılmasıdır. İşin mahiyyəti ondan ibarətdir ki, XX yüzillikdə daha böyük döyüşlər haqqında məlumatlar teleqraf, digət texniki və ya kəşfiyyat vasitələri ilə müəyyən müddət ərzində xalq kütlələrinə çatdırılırdı. E.Heminquey və K.Simonovun, həmçinin digər hərbi jurnalistlərin əsgər və qərargah rəhbərinin də bildiyi hadisəni yenidən danışmalarına ehtiyac yox idi. Əslində başqa şeyə ehtiyac duyulurdu: hərbi oçerk və məqalələri xəbərin inam yaratmaq metodu kimi istifadə olunduğu bir bəyannaməyə çevirmək. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı şablon ifadə deyildi. O, düşmənə qalib gəlməyə çağırırdı, bu qələbəyə, mübarizənin gücünə və ədalətliliyinə olan inama dəstək verirdi. Qəhrəmanlıq əməllərinin polemik informasiya mənbələrində işıqlandırılması bu şüarı daha da canlandırırdı. Yuxarıda adları qeyd olunan rus və Qərb yazıçıları, publisistləri öz qələmlərini qılınca çevirmişdilər. Hərbi jurnalist üçün inandırmaq – insanların emosiyalarına təsir göstərən, onların mənəvi ruhunu yüksəldən və bununla da qələbəni yaxınlaşdıran ən yaxşı üsullardan biridir. M.Y.Koltsov əbəs yerə hərbi publisistikanı "polemik və başdan-ayağa qərəzkar janr" adlandırmamışdı (8, s. 110).

Bəzən tənqidi fikirdə və ya elmi məhsulda dərin kök salmış nəzəriyyə özünü müharibədə, ondan fərqli olan real həyatda doğrultmurdu. Bu zaman təcrübə öz sözünü deyirdi. Hərbi publisistikanın yüksək səviyyəyə malik olması onunla izah olunur ki, publisistika janrında böyük təcrübə toplanmışdı. E.Heminquey I Dünya müharibəsinin faciəvi hadisələrinə, K.Simonov və başqaları 1941-ci ilin hadisələrinə az da olsa, hazırlıqlı idilər. Məsələn, gənc K.Simonov 1941-ci ilə qədər ədəbiyyat və incəsənət haqqında məqalələr yazırdı. Bundan əlavə o, hərbi jurnalist kimi Monqolustanın Xalkin-Qol qaynar nöqtəsində də olmuşdu. Keçmiş illərin təcrübəsi təkcə K.Simonova deyil, həm də digər rus yazıçılarına hadisələri müqayisə etməyə, müəyyən qanunauyğunluqları üzə çıxarmağa və son nəticədə, artıq xalqın ağır sınaqları dövründə hərbi publisistikanı ədəbi cəhətdən daha yetişkin, düşünülmüş, geniş auditoriyanın tələblərinə cavab verən səviyyəyə çatdırmağa imkan verirdi. Hətta ölkənin ali hərbi rəhbərliyi də jurnalistlərin müəyyən məsləhətlərini qəbul edir və öz planlarında düzəlişlər edirdi.

Hərbi publisistikanın real həyatı daha geniş, əhatəli şəkildə əks etdirməsinə diqqət yetirmək vacibdir. Rus yazıçılarının diqqət mərkəzində sıravi insanların taleləri, mühüm döyüşlərin inkişafı, arxa cəbhədəki qəhrəmanlıq mübarizəsi, müttəfiqlərin fəaliyyəti, faşistlərin zülmü və bir çox başqa şeylər dururdu. Hərbi publisistika qəhrəmanlıq salnaməsi, sovet xalqının mənəvi yenilməzlik güzgüsü idi. Beş il davam edən müharibə müddətində hərbi publisistika bu və ya digər müəllifin antifaşist dünyagörüşünün formalaşmasını müşahidə etməyə, onun fikir və baxışlarını olduqca aydın şəkildə müəyyən etməyə imkan verirdi. K.Simonov, A.N.Tolstoy, İ.Q.Erenburq, L.Leonov, A.Fadeyev, M.Şoloxov, V.Qrossman, V.Vişnevski, B.N.Polevoy, N.S.Tixonov və başqa yazıçıların yazdıqları ən yaxşı əsərlər qəzet və jurnallarda çap olunduqdan sonra ertəsi gün yoxa çıxmır, əksinə artıq müharibədən sonra da ayrı-ayrı məqalələr toplusunda nəşr olunmaqda davam edirdi.

Ədəbiyyat

1. Прохоров, Е.П. Искусство публицистики / Е.П.Прохоров, Москва: Художественная литература, 1984, 199 с.
2. Белинский, В.Г. Собрание сочинений: (в XIII томах). Статьи. Публицистика. / В.Г.Белинский, Москва: Художественная литература, 1939. т. XI, 377 с.
3. Настольный словарь для справок по всем отраслям знания: (в 3-х томах) / Издание Ф. Толля. – Санкт-Петербург, – 1864. Т. 3. – 302 с.
4. Лазебник, Е.А. И мысли, и эмоции // Москва, Советская печать, 1965, № 8, с. 10-18.
5. Учёнова, В.В. Актуальные проблемы теории публицистики // Москва, Вестник Московского университета. Серия 10. Журналистика, 1975. № 3, с. 9-12.
6. Мешкова, Л.А. К спорам о публицистичности в художественной литературе // Москва, Вестник Московского университета. Серия 10 Журналистика, 1988. № 2, с. 37- 47.
7. Черепахов, М.С. О тенденциях развития жанров советской публицистики //Москва, Вестник Московского университета. Серия 10, Журналистика, – 1964. №1, с. 23-39.
8. Кольцов, М.Е. Писатель в газете / М.Е.Кольцов, Москва: Просвещение, 1961, 231 с.

Н.Т.Мирзоева

Военная публицистика и писатели

Резюме

В статье исследуются функции и задачи военной публицистики – как одно из направлений художественной публицистики, которое в свою очередь становится более актуальным в годы войны. Анализ сделан на основе материалов опубликованных русскими и западными писателями ведущих пресс-органов того времени. Здесь, в первую очередь, рассматриваются взгляды и подходы российских критиков и литературоведов касательно публицистики. В то же время, на западе и в Америке интерес вызывают разные подходы западных критиков к понятию военной публицистики.

Этапы исторического развития публицистики в военные годы, которые ценятся, как неотъемлемая часть литературно-художественного творчества своеобразны. При определении критериев, отличающих военную публицистику от художественной, необходимо учитывать специфические задачи и функции первой (военной публицистики), а точнее, особенности выражения действительности. В военных очерках и статьях, как русских, так и западных писателей, документация играет большую и своеобразную роль, чем все остальные виды и формы публицистики.

Актуальна и мысль о том, что военная публицистика связана с журналистикой. Некоторые рассматривают военную публицистику, как форму газетно-журнального репортажа, а также как часть журналистики, как указывает российский критик М.С. Черепахов, это «тяжелая артиллерия журналистики». Сегодня очевидна невозможность полного отожествления публицистики с военной журналистикой. Если подойти к этому вопросу с функциональной точки зрения, то это не так сложно заметить. В военной публицистике информационная функция отходит на второй план, где основная цель состоит в том, чтобы более убедительно донести сообщение.

N.T.Mirzayeva

Military journalism and writers

Summary

The article analyzes the functions and tasks of military journalism, which is a branch of fiction journalism and became more relevant during the war years. The analysis is based on the materials of Russian and Western writers published in the leading media of that time. First of all, the views and approaches of Russian critics and literary critics on journalism are considered. At the same time, in the West and in America, different approaches of Western critics to the concept of military journalism also arouses interest.

The historical-development stages of military journalism, which is valued as an integral part of literary and artistic creativity, are unique in the war years. When defining the criteria that distinguish

military journalism from fiction, it is necessary to take into account the specific tasks and functions of the former (military journalism), or more precisely, the features of expressing reality. In the military essays and articles of both Russian and Western writers, documentary plays a greater and more unique role than all other types and forms of journalism.

The idea that military journalism is related to journalism is also relevant. Some see military journalism as a form of newspaper and magazine reporting, as well as part of journalism, as Russian critic M.S. Cherepakhov points out, "heavy artillery of journalism." Today, the impossibility of fully equating journalism with military journalism is obvious. If approached from a functional point of view, it will not be so difficult to see.

Rəyçi: filol.f.d. X.A.Abbasova

Redaksiyaya daxil olub: 10.05.2022

E.QARAGÖZOVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: e.garagozova.bsu@gmail.com

DOI:10.48652/b4692-2502-1391-t

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA ƏDƏBİ CƏRƏYANLAR: SENTİMENTALİZM, TƏNQİDİ REALİZM VƏ SOSREALİZM

Açar sözlər: *sentimentalizm, tənqidi realizm, sosrealizm, Azərbaycan ədəbiyyatı, ədəbi cərəyanlar*
Ключевые слова: *сентиментализм, критический реализм, соцреализм, азербайджанская литература, литературные течении*
Key words: *sentimentalism, critical realism, socialist realism, Azerbaijani literature, literary movements*

XX əsr Azərbaycan ədəbiyyatı yalnız bədii mündəricəsinə görə yox, müxtəlif ədəbi meyl və cərəyanların əksi baxımından da çox zəngindir. Bu tarixi dövrdə baş verən ictimai-siyasi hadisələr ədəbiyyatın formalaşmasına təsirsiz ötüşməmiş, onun inkişaf yollarında müəyyən fərqli və spesifik məqamların meydana çıxmasına rəvac vermişdir. XX əsr Azərbaycan ədəbiyyatının ilkin dövründə, əsrin əvvəllərində ədəbiyyatımızda aparıcı cərəyanlar tənqidi realizm, romantizm, sentimentalizm idi. Həmin dövrdə digər cərəyanların da izləri ədəbiyyatımızda müşahidə edilirdi. Lakin bu cərəyanların estetikasına aid məqamların ədəbi mətnlərdə əksi fraqmentar xarakter daşıyırdı. 1920-ci ildə Azərbaycanın Sovet İmperiyası tərəfindən işğalından sonra ədəbiyyatda aparıcı cərəyan sosialist realizmi – sosrealizm elan edildi. Bu araşdırmada biz sentimentalizm, tənqidi realizm və sosrealizm cərəyanlarının Azərbaycan ədəbiyyatında təzahürünə diqqət yetirəcəyik.

Sentimentalizm. XVIII əsrin II yarısında meydana çıxan sentimentalizm cərəyanı klassisizm cərəyanına əks mövqeni, bu cərəyanın kanonlarına etirazı özündə ehtiva edirdi. Klassisizm tələblərinin, çərçivələrinin sərtliyinə, öz inkişafında artıq psevdoklassisizm mərhələsinə qədəm qoyduğuna, sırf elitar, aristokratik ədəbiyyata çevrildiyinə görə yeni çağın aparıcı qüvvəsinə çevrilməkdə olan orta təbəqənin tələblərinə cavab verməkdə aciz idi. Klassisizmin antik ədəbiyyatdan bəhrələnən qəhrəmanları, süjetləri artıq oxucunu cəlb etmirdi. Bu kontekstdə yaranan sentimentalizm sadə insanları, onların cari həyatını, məişətini, duyğularını, təbiət təsvirlərini, psixoloji məqamları ədəbiyyata gətirdi.

Bəzən sentimentalizmi romantizmlə eyniləşdirirlər. Lakin bu iki cərəyana məxsus əsərlər təsvir və obraz elementləri baxımından oxşar görünsələr də, mahiyyət və ideyaca tam fərqli nümunələrdir. Romantizmin əsas obyekti qəhrəman, sentimentalizmin obyekti isə duyğulardır. Bu iki cərəyanın qəhrəmanları xarakter baxımından da fərqlənirlər. Sentimental qəhrəman xeyirxah və sadə olduğu halda romantik qəhrəman melanxolik və mürəkkəbdir. Məhəbbət sentimental qəhrəmanı mənəvi baxımdan xilas edir, romantik qəhrəman isə məhəbbətin qurbanına çevrilir. Azərbaycan ədəbiyyatında Əbdül (A.Divanbəyoğlu) və Arif (H.Cavid) obrazları sentimentalizmlə romantizmin səciyyəvi qəhrəmanları kimi bu sadaladığımız xüsusiyyətləri simvollaşdırırlar.

Dünya ədəbiyyatşünaslığında A. Grenet, C. Jodry, L. Guilhamet, J. Barkhausen, J. Mullan, P. Orlov, M. Trinskaya sentimentalizmin nəzəri əsasları ilə bağlı araşdırmaların müəllifi kimi tanınırlar. Azərbaycan ədəbiyyatşünaslığında sentimentalizmin tədqiqindən söz açdıqda isə ilk xatırlanan imza mərhum ədəbiyyatşünas professor Hüseyn Həşimlidir. Onun 1990-cı ildə dərc olunmuş "Ədəbiyyat nəzəriyyəsi kursunda sentimentalizm ədəbi cərəyanının öyrədil-

məsi” adlı metodik göstərişi bu cərəyanın Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi sahəsində atılan ilk addımlardandır. Hüseyn Həşimli daha sonralar bu sahədə tədqiqatlarını davam etdirərək “Azərbaycan ədəbiyyatında sentimentalizm” (1998) adlı sanballı araşdırmasını elmi ictimaiyyətə təqdim etmişdir. Bu cərəyanla bağlı nəşr edilmiş tədqiqatlar sırasında Baba Babazadənin “Azərbaycan sentimentalizmi” (2003) monoqrafiyasını da göstərə bilərik.

Qərb və Rusiya ədəbiyyatından fərqli olaraq Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanı öz ifadəsini, əsasən, XX əsrin əvvəllərində yaranan bədii nümunələrdə tapmışdır. “Ədəbiyyatımızda S.M.Qənizadə, A.Divanbəyoğlu, İ. Musabəyov, N.Bəsir, C. Cabbarlı və başqalarının yaradıcılığında təzahür edən sentimentalizm” (H.Həşimli) A.Divanbəyoğlunun yaradıcılığında daha aydın və ardıcıl şəkildə izlənir. “Duman”, “Fəhlə”, “İlan”, “Ərdoy dərəsi”, “Cəng”, “Dan ulduzu”, “Can yanğısı”, “Əbdül və Şahzadə” əsərlərinin müəllifi olan Abdulla bəy Divanbəyoğlu, həm də tariximiz, folklorumuzla bağlı materialları toplayaraq tədqiq etmiş, ömrünün sonuna qədər elmi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Abdulla bəy Divanbəyoğlunun “Əbdül və Şahzadə” və “Can yanğısı” əsərləri Azərbaycan ədəbiyyatında sentimentalizmin kanonlarının tədqiqi üçün önəmli bədii mənbə rolunda çıxış edir.

“Əbdül və Şahzadə” povestinin əsas qəhrəmanı Əbdül sentimentalizmin qəhrəman konsepsiyasına – duyğularla dərk edən və başqalarının dərdlərini anlayıb əzab çəkən insan obrazına tam uyğundur. Povestin əsas atributları sentimetal göz yaşları və ölüm səhnələridir. Cəmiyyətin duyğulara düşmən kəsilməsinə etiraz edən Əbdülün əmisi qızı Şahzadə ilə məhəbbəti də insanın qəlbini heçə sayan bu qaragüruhun qurbanı olur.

Sıradan insanların duyğularını, fundamental mənəvi dəyərləri, sadə həyatı təsvir edən Qərb sentimental romanlarından fərqli olaraq A. Divanbəyoğlunun əsərində bütün bu sadalanan keyfiyyətlərlə yanaşı maarifçilik ideyaları, qadın azadlığı problemi əsas xətt kimi vurğulanır. Əsər boyu Əbdülü məşğul edən əsas problem qadınların duyğularının cəmiyyət tərəfindən diqqətə alınmaması və bunun doğurduğu problemlərdir: “Əbdül tətil günlərini evdə keçirirdi. Hər şey onun xoşuna gəlirdi, ancaq bir şey – qadınların kişilər qarşısında cəsarətsizliyi, utancaqlığı, hətta çəkinməyi və qorxması onu təşvişə salırdı.” (1, s. 36) Bu cəhət sentimentalizm cərəyanının Azərbaycan variantının əsas fərqləndirici keyfiyyətlərindəndir. Sentimentalizmin maarifçilik və qadın azadlığı ideyaları ilə tandemdə yaranan bu milli variantı tarixi şəraitdən, milli-mənəvi keyfiyyətlərdən qaynaqlanır. Əsərin Əbdüllə Sonanın sevgisi ilə bitməsi isə sentimentalizmin qəhrəmanın məhəbbətlə xilası ideyasının bədii ifadəsi kimi təzahür edir.

Abdulla bəy Divanbəyoğlunun “Can yanğısı” povestinin də əsas mövzusu duyğuların əsarətinin və qadın hüquqsuzluğunun gətirdiyi faciələrdir. Əsərin əsas xəttini namus ləkəsini təmizləyib qaçaq düşən Əhmədin kənddə rast gəlib sevdiyi Ruqiyyə ilə məhəbbəti təşkil edir. Böyük məhəbbətlə bir-birinə bağlanan cütlük şəhərə köçdükdən sonra əsərin kulminasiya nöqtəsi başlayır. Şəhər mühiti Əhmədin xarakterindəki gizli, mənfi məqamların aşkara çıxmasına şərait yaradır. Onun Ruqiyyəyə olan sevdası uzaq bir xatirəyə çevrilir. Əhmədin dönüklüyü, onun üstünə günü gətirməsi Ruqiyyənin dərddən çərləyib ölməsinə, Əhmədin isə peşman olaraq dərviş həyatına qədəm qoymasına səbəb olur. Sentimental kanona uyğun olaraq təsvir olunana əzab, ölüm və peşmanlıq triadası fonunda qəhrəmanın duyğu təkamülü problemi önə çəkilir: “Dərviş bir dua zikr etdi və sonra dedi:

– Böylə bir gurultu onda – Ruqiyyə can verəndə də oldu. O gurultu mənim canıma elə bir fəna qorxu salıbdır ki, əvvəl gurultu canıma vahimə salır, amma sonra bərkişəndə qorxu çıxır... Ruqiyyə məni belə gündə qoydu, canını xilas etdi. Canımda yanğı, qəlbimdə yanğı, könlümdə yanğı, gözlərimdə yaş qoyub getdi... Ruqiyyə öldü, köhnə eşq, köhnə məhəbbət oyandı...” (1, s.181)

“Can yanğısı” povestində sentimentalizmin əsas kanonlarından daha biri – qəhrəman-şəhər təzadı da öz əksini tapmışdır. Bu cəhət də sentimentalizmi romantizmdən fərqləndirən əsas keyfiyyətlərdəndir. Romantizmdə qəhrəman cəmiyyətə qarşı qoyulursa, sentimentalizm-

də əsas antaqonist ünsür şəhərdir. Bu səbəbdən də Əhmədlə Ruqiyyənin məhəbbətinin həzin sonu məhz qəhrəmanların şəhərə köçmək ləri ilə bağlıdır.

Abdulla bəy Divanbəyoğlunun yaradıcılığı sentimentalizmin əsas keyfiyyətlərini özündə ehtiva etməklə yanaşı cərəyanın Azərbaycan modelinin əsas keyfiyyətlərini – maarifçi-didaktik ünsürləri və dövrün çağırışlarını – qadın azadlığı məsələsini əks etdirir.

Tənqidi realizm. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında realizmin növbəti mərhələsi – tənqidi realizm epoxası hakim mövqedə idi. Əsasında sənətin həyata obyektiv baxışı dayanan realizmin təşəkkül etaplarında bu münasibət öz kəskinlik dərəcəsinə görə fərqlənir. Erkən realizmdə bu münasibətin məğzini reallığın təsviri, maarifçi realizmdə isə reallığın redaktəsi təşkil edir. Tənqidi realizm etapında artıq maarifçiliyin (oxu: redaktənin) qarşısında aciz qaldığı məqamların tamamilə dəyişdirilib yenidən qurmaq cəhdi meydana çıxır. 1920-ci illərə qədər, yəni sosrealizm hakim cərəyan elan edilənədək ədəbiyyatımızda aparıcı olan bu cərəyanın nümayəndələri, əsasən, "Molla Nəsrəddin" satirik jurnalının ətrafında birləşmişdilər. Akademik İsa Həbibbəyli yazır: " "Molla Nəsrəddin" jurnalı tənqidi realizmin ədəbi cəbbəxanasını təşkil edirdi. Ona görə də tənqidi realizm ədəbi cərəyanı ilə "Molla Nəsrəddin" ədəbi məktəbi anlayışları eyni mətləbi ifadə edir." (4, s. 90)

"Molla Nəsrəddin" jurnalı ideya və mündəricə baxımından dövrünün qabaqcıl nəşri, müasir təbirlə desək, "neo jurnal" idi. Jurnalın adı, tərtib prinsipləri, bölmələri qarşıya qoyulan ideyaya – cəmiyyəti qəflətdən ayıltmağa yönəlməklə bərabər dövrün oxucusunun psixologiyasına və zövqünə də hesablanmışdı. "Molla Nəsrəddin" jurnalının yaranması haqqında danışılarkən çox zaman Cəlil Məmmədquluzadənin "Xatiratım" əsərinə əsaslanaraq onun Tiflisdə çıxan "Kukureku" jurnalından təsirləndiyi danılmaz fakt kimi qeyd olunur. Qulam Məmmədli isə "Molla Nəsrəddin" salnaməsində bunu doğru olmadığını söyləyir və fikrini faktlarla əsaslandırır: "1906-cı ilin əvvəllərində "Vozrojdenye", "Baku", "Həyat", "Novoye obozreniye", "Kavkazskoye utro", "Tərcüman", "İrşad" və digər qəzetlərin Naxçıvan ziyalılarından Cəlil Məmmədquluzadənin Tiflisdə "Molla Nəsrəddin" adlı şəkilli yumorostik-satirik jurnal çıxaracağını xəbər verdikləri zaman "Kukureku" jurnalı hələ yox idi və Mirzə Cəlil olmayan jurnalı görüb, onu nümunə kimi götürə bilməzdi." (5, s.68)

Cəlil Məmmədquluzadənin yaratdığı jurnal mükəmməl bir proyekt idi. "Molla Nəsrəddin" jurnalı ətrafında birləşən ədiblər – Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi və digərləri dövrün əsas bəlalarını, cəmiyyəti və xalqı inkişafdan saxlayan məqamları xalqın öz dilində, sadə bir təhkiyə ilə işıqlandırırdılar. Əzim Əzimzadə, Oskar Şmerlinq və İosif Rotterin çəkdiyi karikaturalar isə savadsız insanların belə jurnalla maraqlanmasına, dərginin xalq məhəbbəti və populyarlıq qazanmasına rəvac verirdi. Bu səbəbdən ilk satirik jurnal olsa da, "Molla Nəsrəddin" tənqidi realizmin ən kəskin silahına və qərargahına çevrilə bildi.

Jurnalın yaradıcısı Cəlil Məmmədquluzadə öz bədii yaradıcılığı ilə də Azərbaycan tənqidi realizm modelinin banisi mövqeyində çıxış edir. Ədibin yaradıcılığının əsas xəttini milli şüurun oyanışı təşkil edirdi. Cəlil Məmmədquluzadə yaradıcılığına nəzər saldıqda tənqidi realizm üçün xarakterik olan obyektivlik, tipiklik, konflikt, detallara enmə, bədii dilin sadə danışıq dilinə yaxınlaşdırılması, cəmiyyətin inkişaf tempinə və tendensiyalarına əlahiddə maraq diqqəti cəlb edir.

Cəlil Məmmədquluzadə öz obrazlarını cəmiyyətin alt qatlarından götürür, onların detallı təsvirini verir. Əgər Cəlil Məmmədquluzadə mətnlərindən hadisələri çıxarıb ancaq təsvirləri saxlasaq belə, yenə əsərin ideyasına heç bir xələl toxunmaz. Xudayar katdanın xarici görünüşü, onun danışığı, bitlənməsi oxucuda ona qarşı neqativ münasibət formalaşdırır. Novruzəlinin xana pərəstişkəranə müraciəti, öz balalarının boğazından kəsib xana gətirdiyi sovqatın tərkibi, görkəmi onun xarakterini əks etdirir. "Anamın kitabı"ndakı üç qardaşın geyiminin və otaqlarının təsviri isə onların insan kimi mahiyyətini və Vətənə münasibətlərini anlamaq üçün kifayətdir.

Maarifçi realistlərdən fərqli olaraq tənqidi realistlər passiv təbliğat xarakterli monoloqlar deyil, sərt realist səhnələr vasitəsilə cəmiyyətin oyanışına nail olmağa çalışırdılar. Cəlil Məmmədquluzadə üslubunun özəlliyi onun sərt realist səhnələri təsvir etməklə yanaşı cəmiyyətin bu faciələrə biganəliyini də ustalıqla vurğulamasındadır. Ədib öz mətnlərinə ironik bir çalar qatır, hadisələri həmin cəmiyyətin üzvlərindən birinin anlayacağı tərzdə nəql edir. Məhz bu səbəbdən "Danabaş kəndinin əhvalatları"nda Məmmədhəsən əmi və Zeynəbin bu qədər tragik bir həyat yaşaması qanunauyğunluq kimi görünür. "Ölülər" cəmiyyətin ən böyük faciəsini ifadə etsə də, müəllif onu komediya adlandırır və əsərin yeganə mənəvi cəhətdən ayıq obrazı İsgəndər daim keflidir.

Bu gün Cəlil Məmmədquluzadənin ədəbiyyatımıza gətirdiyi obrazlar artıq arxetipə çevrilməkdədir. Kəndli Novruzəli, Usta Zeynal, Katda Xudayar, Danabaş kəndi, Məmmədhəsən əmi müəyyən əsərlərin obrazları çərçivəsindən çıxaraq öncə idioma çevrilmiş, daha sonra isə arxetipik motivlər kimi ədəbiyyatımızda işlənməyə başlamışlar. Müasir Azərbaycan ədəbiyyatında Orxan Fikrətoğlunun Xeybər obrazı, Səfər Alışarlının "Üç xanım" hekayəsi Cəlil Məmmədquluzadə üslubunun bu gün də yaşadığının bariz sübutudur.

Sosrealizm. Sosrealizm XX əsrin ədəbi cərəyanları içərisində məkan məhdudiyyəti və siyasi-avtoritar mənşəyi ilə seçilən cərəyan kimi ədəbiyyatşünaslığa daxil olmuşdur. Məkan məhdudiyyəti bu cərəyanın sırf keçmiş SSRİ və sosializm ideyasının dəstəkləndiyi ölkələrdə rəvac tapmasından qaynaqlanırdı. Siyasi-avtoritar mənşəyi isə cərəyanın müəyyən, qapalı bir siyasi rejimin ideologiyasının əsas atributlarından birinə çevrilməsinə və həmin rejimlə assosiasiya olunmasına gətirib çıxarmışdır. Tarixin göstərdiyi kimi məkan məhdudiyyəti və siyasi-avoritar mənşə bu cərəyanın zaman baxımndan da məhdud çərçivədə inkişafına və qəfil bitməsinə səbəb oldu. Cərəyanların mahiyyəti və genezisi ilə bağlı apardığımız bugünəqədərki araşdırmalarımıza əsasən cərəyanın dalğavari proses olduğunu deyə bilərik. Fikrimizcə, ədəbi cərəyanın inkişaf spektrini simvolik olaraq süjetin elementləri ilə ifadə etmək mümkündür. Hər bir cərəyan ədəbi qanunlara uyğun şəkildə ilkin, kulminasiya və sönmə fazalarından keçir. Bəli, cərəyanın sönmə fazası uzunmüddətli ola, müəyyən elementləri növbəti cərəyanla qarışaraq müəyyən bir müddət varlığını qoruyub saxlaya bilər. Lakin istənilən halda bu sönmə mütləqdir və ən əsası ədəbi qanunların təbiətinə uyğun şəkildə baş verir. Lakin sosrealizm cərəyanı ədəbi deyil, siyasi mənbədən qaynaqlandığı, plan əsasında, proyekt şəklində yaradıldığı üçün rejimin bitməsi cərəyanın da sönmə fazasını tam keçmədən qəfil ədəbi gündəmdən silinməsi ilə nəticələndi.

Sosialist realizmi ideoloji sifarişə əsaslanan ədəbiyyat olduğundan "ədəbiyyatın partiyalılığı" dövrün tələbi və əksər hallarda əsərin işıq üzü görə bilməsinin yeganə yolu idi. Sosrealizm ədəbiyyatı əslində olanı deyil, olması gərəkəni əks etdirirdi. Bu səbəbdən sosrealizm sosial realizmdən daha çox sosial utopiyaya yaxın idi. Lakin ideologiya bu ədəbi cərəyanın romantik sosial utopiya şəklində deyil, sxematik sosial utopiya formasında olmasını tələb edirdi. İdeologiyanın tələb etdiyi sxematikliyin, quruluğun, şüar xəttinin bədii həllini ədəbiyyatımızda ən gözəl şəkildə Sara Oğuz təqdim etmişdir. Sara Oğuzun müstəqillik illərində qələmə aldığı "Beton evdən yazılar" povestinin qəhrəmanı sosrealizmin təmsilçilərinin ironik şəkildə təsvir edilmiş prototipidir. Əsərin qəhrəmanı bütün əsərlərini sözün əsl mənasında çərçivələr cədvəlinə əsasən qurur: əvvəlcə çərçivə çəkilir, daha sonra onun əsasında cansız, ruhdan məhrum "sənət əsəri" yaradılır. "Böyük və məşhur heykəltəraş" təsadüfən çərçivələr cədvəlinə diqqətsiz yanaşanda, "cızığından çıxanda" konfuz yaşanır, onun yaratdıqlarını sistem qəbul etmir: "Min həngamə ilə poladəridən gəlib çıxdı at sarayının qabağına. Burda məlum oldu ki, at sarayının darvazası "Poladəridən"ə dardı. Ümumiyyətlə, ölkədə bu monumentin sığacağı qapı yoxdur. Bədbəxtçiliyin yekəliyinə bax. Sən demə, çərçivələr cədvəlini quranda ölçülərini dəyişib böyütmüşəm. Odur ki, başıma bu müsibət gəlib. Ay mənim zay başım! Gör nəyin ölçüsünə biganə qalmışam? Çərçivələr cədvəlinə, güzəranamızın təməl daşına yaradıcı yanaşmaq fikrinə düşmüşəm. Ay mənim zay başım!" (6, s. 45). Təsadüfi deyil ki, obrazın

örnək aldığı "çərçivələr cədvəli"ni ona məhz hərbi hissədə qulluq edərkən komandiri olmuş zabit öyrətmişdi. Əsərində kütləvi mədəniyyət anlayışını obrazın vasitəsilə guya lakonik, əslində isə ironik şəkildə "kütmədəniyyət" adlandıran Sara Oğuz bu elementlə sosrealizmin əsas keyfiyyətlərini vurğulamağa nail olmuşdur. Dəqiqlik, əmrə tabelik, lakoniklik, sərtlik, çərçivə daxilində fəaliyyət göstərmək kimi keyfiyyətlər rejimin ədəbiyyata tətbiq etmək istədiyi və ondan gözlədiyi özəlliklər idi.

Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının 70 ilə yaxın, SSRİ ilə bağlı olan dönəmi sosrealizm cərəyanının hakim olduğu ədəbi arealın bir hissəsidir. Dövr "sovet ədəbiyyatı dövrü" adlandırılsa da, həmin zaman çərçivəsində fəaliyyət göstərən ədiblərin hamısı sırf sosrealizm ədəbi cərəyanını təmsil etmirdilər. Bəli, dövrün və rejimin tələbinə uyğun olaraq bədii mətnlərdə sovet ideologiyasına uyğun elementlərin əksi mütləq idi. Lakin sırf sosrealizm ədəbi cərəyanın təmsilçiləri özəl bir pleyada təşkil edirdilər. Həmin pleyadanın və dövrün parlaq ədəbi imzalarından biri Süleyman Rəhimovdur. Onun "Şamo", "Saçlı" romanları, "Məhtəban", "Mehman", "Kəsilməyən kişnərti" povestləri, müxtəlif səpkili hekayələri Azərbaycan sosrealizminin tanınan nümunələridir. Elçinin "Sosrealizm bizə nə verdi" monoqrafiyasında qeyd etdiyi kimi "....biz sosrealizmin XX əsr Azərbaycan ədəbiyyatının inkişafına vurduğu zərərdən qətiyyən sərf-nəzər etməməli, həmin ədəbi zərərin nəticəsində itirdiklərimizi müəyyənləşdirməli və bu boşluqları doldurmağa çalışmalıyıq. Eyni zamanda, sosrealizm dövründə Azərbaycan ədəbiyyatının inkişafı bu ədəbiyyatın tarixində çox mühüm və prinsipal mərhələ təşkil edir və biz bunu da görməli, tədqiq etməli, elmi-nəzəri təsnifatını verməli, əldə edilmiş bədii-estetik dəyərləri qiymətləndirməyi bacarmalıyıq." (2, s.57)

XX əsr Azərbaycan ədəbiyyatının əsas simalarından olan Süleyman Rəhimovun yaradıcılığı nəinki qeyd edilən dövrün, ümumən Azərbaycan ədəbiyyatı tarixinin ədəbi tendesiyalarının öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdən baxdıqda Süleyman Rəhimovun yaradıcılığını və Azərbaycan ədəbiyyatında yerini aşağıdakı qısa tezislərlərlə vurğulaya bilərik:

1. Süleyman Rəhimov yaradıcılığı sosialist realizminin – sosrealizmin ədəbi kanonlarının bədii təzahürünün bariz, diqqətəlayiq nümunələridir. Onun yaradıcılığı sosrealizmin bir ədəbi cərəyan kimi tədqiqi üçün yetərli, spesifik bədii mənbədir.

2. Süleyman Rəhimov "Şamo" əsəri ilə Azərbaycan ədəbiyyatında roman-epopeya janrının seçilən nümunəsini meydana qoymuşdur.

3. Süleyman Rəhimovun "Şamo", "Saçlı", "Mehman" əsərləri dövrün, sosrealizmin tələblərini ümumi, sxematik şəkildə təsvir etməklə məduldlaşmır. Əsərlərin adından da göründüyü kimi yazıçının əsas diqqət yönəltdiyi, vurğulamaq istədiyi məqam tarixin keşməkeşlərindən keçən İNSAN-dır.

4. Süleyman Rəhimovun mövzu dairəsi yalnız sosrealizmin tərənnümü ilə bağlı deyil. Onun folkor süjetləri və motivləri əsasında qələmə aldığı "Güzgügöl əfsanəsi", "Arpaçay əfsanəsi", "Gülən balıq", "Ovqan və ilan", "Kəsilməyən kişnərti" əsərləri yazıçının yaradıcılığında mühüm möqeyə malikdir. Bu əsərlərdə yazıçının yazı manerası, bədii dili, ümumən yaradıcılığı fərqli aspektdən açılaraq sosrealizm çərçivələrini aşır.

5. Süleyman Rəhimovun əsərlərində milli-etnoqrafik məqamların təzahürü onun yaradıcılığını sırf sosrealizmin tərənnümü kimi qəbul etməyə imkan vermir. Yazıçı istifadə etdiyi ifadələr, ibarələr, deyimlər, təsvir etdiyi etnoqrafik lövhələrlə milli-etnik məqamları vurğulamağa, əsərin canlı həyat lövhəsi kimi qavranılmasına nail olur.

Beləliklə, Süleyman Rəhimovun əsərləri proyekt xarakterli, siyasi ideologiyaya əsaslanan bir cərəyanı təmsil etsə də, ədəbiyyat tariximizin bəlli dövrünün və sosrealizmin Azərbaycan modelinin öyrənilməsi üçün əhəmiyyətlidir.

Ədəbiyyat

1. Divanbəyoğlu A.. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 36 s.
2. Elçin. Sosrealizm bizə nə verdi? – Bakı: "Mütərcim", 2010.
3. Ədəbiyyat nəzəriyyəsi kursunda sentimentalizm ədəbi cərəyanının öyrədilməsi (Mətn): Metodik göstəriş /Hazırlayan. Y.İ.Axundov, H.M.Həşimov; Red. S.İ.Vəliyev; Rəyçi. İ.Ə.Həbibov, N.B.Orucəliyev; Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu. Bakı: 1990, 26 s.
4. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019
5. Məmmədli Q. Molla Nəsrəddin salnaməsi, Naxçıvan: Əcəmi, 2009
6. Oğuz S. Beton evdən yazılar. Bakı: Yazıçı, 2014.

Э.Гарагозова

Литературные течении в азербайджанской литературе XX века: сентиментализм, критический реализм и соцреализм

Резюме

Азербайджанская литература XX века очень богата не только своим художественным содержанием, но и отражением различных литературных течений. Общественно-политические события, происходившие в этот исторический период, не остались незамеченными в становлении литературы и способствовали возникновению определенных отличий и специфических моментов в ее развитии. В азербайджанской литературе начала XX века ведущими течениями были критический реализм, романтизм, сентиментализм. В то время в нашей литературе наблюдались следы и других течений. Однако отражение эстетики этих направлений в художественных текстах было фрагментарным. После оккупации Азербайджана Советской империей в 1920 году ведущим направлением в литературе был объявлен социалистический реализм - соцреализм. В данном исследовании мы сосредоточимся на проявлениях сентиментализма, критического реализма и соцреализма в азербайджанской литературе.

E.Garagozova

Literary movements in Azerbaijani literature of the XX century: sentimentalism, critical realism and social realism

Summary

Azerbaijani literature of the 20th century is very rich not only in its artistic content, but also in the reflection of various literary movements. The socio-political events that took place during this historical period did not go unnoticed in the formation of literature and contributed to the emergence of certain differences and specific moments in its development. In Azerbaijani literature of the early 20th century, critical realism, romanticism, and sentimentalism were the leading trends. At that time, traces of other currents were observed in our literature. However, the reflection of the aesthetics of these trends in literary texts was fragmentary. After the occupation of Azerbaijan by the Soviet Empire in 1920, socialist realism was declared the leading trend in literature. In this study, we will focus on the manifestations of sentimentalism, critical realism and socialist realism in Azerbaijani literature.

Rəyçi: prof. R.M.Qeybullayeva

Redaksiyaya daxil olub: 16.05.2022

N.F.XANKİŞİYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

A.C.M.SMİT YARADICILIĞININ POETİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *antoloq, incə ritorika,təsəvvürçü, metafizik dünyagörüşü,*
Ключевые слова: *антолог, тонкая риторика, имажинист, метафизическое мировоззрение*
Key words: *antologist, subtle rhetorics, imagist, metaphysical understanding*

Artur Cames Marshall Smith (8 noyabr 1902 - 21 noyabr 1980) Kanadalı şair və antoloq idi. O, Leon Edel, Leo Kennedi, A. M. Klein və F. R. Skottun daxil olduğu Monreal Qrupunun üzvü idi. Bu şairlər hələ Viktoria dövrü mədəniyyətində möhkəm kök salmış modernizmin görkəmli nümayəndələri idilər.Smit Monrealda anadan olub, lakin 1918-ci ildən 1920-ci ilə qədər İngiltərədə yaşayıb və burada o, müasir poeziyadan xəbərdar olub. Monreala qayıdan Smit 1921-ci ildə Mak Gill Universitetinə daxil oldu. 1924-cü ildə orada bakalavr pilləsində olarkən o, "MakGill Daily Literary Supplement" üçün yazılar yazıb və birgə redaktorluq edib.1925-ci ildə aspirant kimi o, F. R. Skottla birlikdə "Mak Gill Fortnightly Review" jurnalını qurdu. "The McGill Fortnightly" digər gənc yazıçıları, o cümlədən, A. M. Klein, Leo Kennedy və Leon Edeli özünə cəlb etdi. Scott və Smitin bu gənc yazarlar üzərində böyük təsiri olmuşdur.1931-ci ildə Edinburq Universitetində doktorluq dərəcəsi almışdır.1936-cı ildə Smit Miçiqan Dövlət Kollecində (indiki Miçiqan Dövlət Universiteti) professor oldu və 1972-ci ildə təqaüdə çıxana qədər orada dərs dedi. O, Kanada mövzularına yönəlmiş bir çox məşhur əsərləri ilə həm alim, həm də şeir müəllifi kimi tanındı. Hələ 1939-cu ildə Smit Kanada poeziyasının antologiyasının hazırlanmasına dəstək olmaq üçün müraciət etmişdi. 1943-cü ildə onun ilk antologiyası nəşr olundu: Kanada Poeziya Kitabı, orada fərqli bir Kanada səsinin olduğunu iddia etdi. Kitabı ədəbiyyatşünas Northrop Fray yüksək qiymətləndirdi və onun nəşrini Kanada ədəbiyyatında mühüm hadisə adlandırdı.Smit 1943-cü ildə ingilisdilli poeziya və ya dram üzrə General Qubernator Mükafatını ilk şeir toplusu olan (News of the Phoenix and Other Poems) "Feniks xəbərləri və digər şeirlər" görə qazandı. 1966-cı ildə Kanada Kral Cəmiyyəti onu "Lorne Pierce" medalı ilə təltif etdi. 1972-ci ildə Smit təqaüdə çıxanda Miçiqan Dövlət Universiteti "A.C.M. Smit Mükafatı" tərtib etdi və hər il bu mükafat bir Kanadalı şairin diqqətəlayiq toplusuna verilir.Smitin "Tənha diyar" şeirinə 1978-ci ildə Violet Archer tərəfindən musiqi bəstələnmişdir.(7)

Məlum olur ki, hər bir tarixi kəşf layihələr nəticəsində əldə edilmiş bir innovasiya modelidir. Göründüyü kimi, nəzəri mülahizələr layihə işini, ümumiyyətlə, unikal bir məhsul və ya nəticə yaratmaq üçün həyata keçirilən, xüsusi məqsədi olan müvəqqəti bir fəaliyyət kimi təsvir edir. Bu baxımdan onun idarə olunması xüsusi bir istedad, bacarıq və perfomans tələb edir. İ.Babayev, Anderson, M. C., Berggren, C., Kerzner H., Hensman, N., Valenta, K., & Jaafari, A. (2004; 2007) layihənin idarə edilməsini daha geniş perspektivlərdən araşdırır və gələcək layihələri idarə edilməsində bir sıra yanaşma və konsepsiyaları təqdim edir. (9, 11). C. Arqyus, JK. Pinto, D.Vren (Argyris, C. Pinto JK., Wren D., 1977) öz qeydlərində layihələrin idarə edilməsi üzrə tədqiqat sahələrinin inteqrativ xarakterini işıqlandırırlar. Tədqiqatçılar layihələrə olan marağın psixologiya, pedaqogika, biznesin idarə edilməsi, təşkilat nəzəriyyəsi, sənaye mühəndisliyi və sosiologiya kimi fənlərin tədrisindən irəli gəldiyini vurğulayırlar. Bu baxımdan layihənin idarə edilməsi, tədqiqatın fokus fenomeninə, yəni layihələrə diqqət yetirmək üçün müxtəlif fənlərin tədrisi potensialına malik bir tədqiqat sahəsi kimi görünür. Perspektivliyin genişliyi çətin və maraqlı olsa da, layihənin idarə edilməsi tədqiqatlarında iddia edilir ki, bəzi əsas məsələlər davamlı dialoq və ünsiyyətlə müşayiət olunmalı və layihənin idarə edilməsinə aid tədqiqat sahəsinin kimliyi və məzmunu ilə bağlı ətraflı müzakirəyə ehtiyac olduğu müdafiə edilməlidir.

İlkin olaraq qeyd olunmalıdır ki, məhdud mənada layihələrin idarə olunması, onların tərkibinə daxil olan, müəyyən bir sahənin inkişafını təmin etmək məqsədi daşıyan və konkret tədbirləri özündə birləşdirən müxtəlif mövzulara istiqamətlənmiş bir proses kimi başa düşülə bilər. Daha geniş mənada isə layihə fərdi qaydada idarəçiliyin və məqsədlərə müvafiq olaraq idarəetmə koordinasiyasını nəzərdə tutur. Digər tərəfdən, tədqiqatçılar layihələrin idarə edilməsi səmərəlilyini layihənin effektivliyini ölçən obyektiv meyarların olması ilə əlaqələndirir

və bunu xarici təsirlərdən asılı olan bir fəaliyyət kimi dəyərləndirilər. Hər hansı bir layihə məqsədlərinə çatmaq üçün optimal parametrlər daxilində özünü hədəfdə saxlayır və öz vəzifəsini yerinə yetirir.

Təklif olunan tövsiyələr dörd bənddə ümumiləşdirilmişdir.

Birincisi, layihələrin idarə edilməsi ilə bağlı müxtəlif ideyalar olduğundan qeyd olunan perspektivləri, metodologiyası və strategiyaları izah edilməlidir.

İkincisi, tədqiq olunan sahə daha yaxşı başa düşülməli və ən vacib yolu tipologiyalar ətraflı şəkildə izah etmək lazımdır. Daha əvvəl qeyd edildiyi kimi xüsusi layihələr və onların səmərəli idarə olunması üçün alternativ kateqoriyaların və fərqli nəzəriyyələrin yaranmasına diqqət yetirmək lazımdır. Burada fərqli nəzəriyyələrin təhlili və faydası üçün faktiki mühit yaradılmalıdır.

Üçüncüsü, layihələr müxtəlif səbəblərə görə yaradılır və layihələrin konkret təşkilati problemlərini dəqiq həll etmək üçün həyata keçirilir. Burada bir-birini tamamlayan ideyalar iki təşkilati problemi, əməkdaşlıq və koordinasiya vasitəsilə idarəetməsi nəzərə alınmalıdır.

Nəticə etibarilə, idarəetməni təkmilləşdirmək üçün layihələrdə əməkdaşlıq və koordinasiyanın daha yaxşı konseptuallaşdırmaq və mövcud nəzəriyyələrin müxtəlif təşkilati problemlərin həll etmək lazımdır. Əks halda, praktikada həll olunan problemlər çox vaxt bir-birinə qarışmış olur. Bu fərqlər tətbiq olunan perspektivlərə, tədqiq olunan layihənin növünə, hədəf olunan problemə və cəlb olunan proseslərə xüsusi diqqət yetirməklə layihənin idarə edilməsi tədqiqatlarının müqayisəsində faydalı hesab edilməlidir.

Əmək bazarında baş verən sürətli dəyişkənliklər, texnologiyadakı çevik imkanlar, menecerlərin istedad və ya məntiqi düşüncəsi, komanda üzvləri arasında kommunikasiya bacarıqlarına malik olması layihə menecerlərinə daha çox məlumat toplamağa və araşdırmağa imkan verir.

Araşdırmalar sübut edir ki, layihələr yeni məzmuna malik olmalı və ali təhsil səviyyəsində bir çox perspektivləri nəzərə almalıdır. Burada layihə idarəolunması xüsusiyyətləri yeni perspektivlərin qazanılması ilə izah edilməlidir.

Son 10 ildə isə qeyd olunan akademik sahələr üzrə *layihənin təşkili, planlaşdırılması, informasiyanın və risklərin idarə edilməsi* ən çox müzakirə və müqayisə edilən mövzuların içərisində daha çox diqqət tezliyi əldə etmiş oldu. Akademik təhsil sahəsi kimi layihə kontekstli idarəetmə mövzularına satınalma, maliyyə və layihə müqavilələrinin sahələri, strategiyaları, nailiyyət meyarları və tələblərin idarə olunması kimi digər mövzular prioritet təşkil edir.

Digər akademik sahə kimi aparılan təhlillərdə Turner (1998) layihələrin idarə olunmasını maddi və maliyyə resurslarının yeni bir şəkildə təşkil olunduğu, unikal işin müəssisənin öhdəsinə götürdüyü bir səy, bir spesifikasiya kimi təqdim edir, kəmiyyət və keyfiyyət məqsədlərini izah edərək idarəetmənin səmərəliliyini faydalı dəyişikliklər çərçivəsində sərf olunan xərc və vaxt məhdudiyyətlər əsasında həyata keçirilən bir əməliyyat adlandırır. Layihə idarə edilməsinin əsas fon nəzəriyyəsi uğurlu layihələrin yol xəritəsini təsvir edən bir neçə aspektlərin bölüşdürülməsidir. Turner və Kerznerə (1998) görə layihə əsaslı idarəetmə beş funksiyanı: *təşkilat, əhatə dairəsi, vaxt, keyfiyyət və qiyməti* əhatə edir. Tədqiqatçılar iddia edirlər ki, layihə müəyyən spesifikasiyalar çərçivəsində xüsusi məqsədi olan hər hansı fəaliyyət və tapşırıqlar silsiləsidir; müəyyən bir başlanğıc və bitmə tarixi vardır; maliyyələşdirmə limitlərinin olması gözlənilir; pul, insanlar və avadanlıq istehlak etmək və çoxfunksiyalı bir prosesdir.

G. Vebster (Webster G., 2009) iddia edir ki, bugünkü müəssisələrin təşkilati strukturları və resurs təminatı layihənin idarə edilməsində adekvat sistem çevikliyinə səbəb olur və yüksək biznes nəticələrinə nail olmaq vasitəsi kimi qəbul edilir .

R.Loo, M. Radujković ilk dəfə layihələrin idarə olunmasının uğur faktorunu müəyyən etmiş, bu nəzəriyyəni fərqli xüsusiyyətlərə malik üç fərqli layihə üzərində müqayisə etmişdir. Layihələri nəzərdən keçirərək araşdırdığı uğur faktorunu əlaqəli şəkildə layihənin idarə edilməsinin uğur potensialına əsaslandığını qeyd edir və bununla da gözlənilən layihə uğurunu

proqnozlaşdırmağı bacarır. Onun fikrincə, layihə uğurunun proqnozlaşdırılması ilə nəticə arasında heç bir əlaqə yoxdur; layihələrin kiçik elementlərə bölünməsi vasitəsilə təşkilatın layihə idarəçiliyinin zəif tərəflərinin xəritələşdirilməsinə kömək edə bilər. Bu halla təkmilləşdirmə tədbirləri müəyyən edilə və həyata keçirilə bilər. Avstraliyalı tədqiqatçı Hensman (2004) layihə idarəçiliyinin son vəziyyətini nəzərdən keçirərək diqqətini dörd əsas sahə üzrə qeyd edib.

1) yeni məhsul və xidmətlər üzrə təşkilati strategiyaya nail olmaq üçün layihənin idarə edilməsinin istifadəsi

2) müəyyən vaxt ərzində layihənin icradan əvvəlki və icradan sonrakı aşağı fəaliyyətlərinin əlaqələndirilməsi və idarə edilməsi

3) layihənin icra prosesinin səmərəliliyi onun kommersiya dəyəri, həcmi, həyat dövrü performansı, ətraf mühitə və sosial təsirlərə əsaslanan layihənin uğur meyarlarının müəyyən edilməsi

4) layihələrin təşkilində insan resurslarının idarə edilməsi və sosial-mədəni və davranış aspektlərinin müəyyən edilməsi

Layihələrin idarə edilməsi üzrə müasir biliklərin artması və layihə idarəçilərinin və ya menecerlərinin resurslarla işləmək bacarıqlarının təkmilləşməsi layihələrin uğurlu bitməsi üçün çox vacib şərtdir. Tədqiqat işinin əsas məqsədi gələcəkdə aparılan layihələrdə menecerlərin qarşılaşacağı əsas problemləri nəzərdən keçirməkdir. Layihə idarəetmə mövzusu daxilində çoxlu sayda dərc edilmiş tədqiqat işləri Lİ (PM) xüsusiyyətlərinə dair sistemli ədəbiyyat təhlili aparılmış və 15 ildə nəzərəçarpan problem və çətinlikləri arqumentativ şəkildə izah edə bilmişlər.

Əmək bazarında baş verən sürətli dəyişkənliklər, texnologiyadakı çevik imkanlar, menecerlərin istedad və ya məntiqi düçüncə zəifliyi, komanda üzvləri arasında kommunikasiya problemləri layihə menecerlərini daha çox məlumat toplamağa və araşdırmağa vadar edir.

Ədəbiyyat

1. İ.Babayev, Layihələrin idarə edilməsi, Bakı, 2014, 120 s.

2. Anantatmula V. Role of technology in project manager performance model. Project Management Journal, 2008, 39(1): 34-48

3. Anderson, M. C. (2007). ‘Why are there so many theories? A classroom exercise to helpstudents appreciate the need for multiple theories of a management domain’, Journal of Management Education, 31/6: 757–76.

4. Aarseth, W., Rolestadas, A., & Anderson, B. (2014). Managingorganizational challengesinglobal projects. International Journal of Managing Projects in Business, 7, 103-132.

5. Argyris, C. (1977). ‘Double-loop learning in organizations’, Harvard Business Review, September-October: 115–25.

6. Avots, I. (1969). ‘Why does project management fail’, California Management Review, 12/1: 77-82.

А.Дж.Ахундлу

Роль эффективности в управлении проектами

Резюме

Статья излагает результативность управления проектами. В современный период управление проектами, даёт возможность овладевать передовыми знаниями. Управляющим проектами или менеджерам даёт возможность умение работать с ресурсами, совершенствовать проекты, а также удачно завершать их. Основная цель исследовательской работы заключается в том, чтобы в будущем при работе с проектами уметь преодолевать основные проблемы возникающие у менеджеров. Проект имеет цель показывать индивидуальные правила управления и согласно поставленным целям, координации управления. Управление проектами её результативности зависит от измерения эффективности, имеющихся объективных критерий их взаимодействия, а также зависимость от внешних факторов.

A.J.Akhundlu

The role of efficiency in project management

Summary

The paper discusses effective project management. Developing modern project management knowledge and improving the skills of project managers by working with resources is a very important step towards successfully completing projects.

The main purpose of the research is to examine the key issues managers will face in future projects.It involves individual and goal-oriented management coordination. Project management efficiency is associated with the existence of objective criteria that measure its effectiveness and, at the same time, is valued as an activity dependent on external influence.

Rəyçi: ped.f.d., dos. G.F.Novruzova

Redaksiyaya daxil olub: 10.05.2022

A.X.BARATOV
magistrant

M.T.BALAKİŞİYEV
magistrant

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ VƏ DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN VƏTƏNPƏRVƏLİK HİSSİNİN FORMALAŞDIRILMASININ TƏDQİQİ

Açar sözlər: *vətənpərvərlik, fiziki tərbiyə dərsləri, şagirdlər, dərsədənkənar məşğələlər, məktəb.*
Ключевые слова: *патриотизм, уроки физкультуры, школьники, внеурочная работа, школа.*
Key words: *Patriotism, physical education classes, students, extracurricular activities, school.*

Ailədən sonra ikinci tərbiyə ocağı adlandırdığımız məktəblərimizdə şagirdlərin vətənpərvərlik yönündə maariflənməsində müəllimlərimizin hətta deyərdim ki, birinci vəzifələrindən biridir. Qeyd etdiyim kimi məktəbin, müəllimin vəzifəsi təkcə elmlər haqqında bilik vermək, onların sirlərini açıqlamaq deyil, həm də vətənə layiqli övlad, torpağını, bayrağını sevən şəxsiyyət yetişdirməkdir.

Yuxarı sinif şagirdləri (X-XI sinif şagirdlərinin) bu günün şagirdi sabahın isə əsgərləridir. Yuxarı sinif şagirdləri mütləq şəkildə fiziki tərbiyə dərslərində iştirak etməlidirlər, çünki onlarda vətənin müdafiəsinə başlamamışdan əvvəl bir neçə keyfiyyətlər formalaşmalıdır. Biz bu keyfiyyətlərə - sürət, qüvvə, dözümlülük, çeviklik, elastiklik və s. misal çəkə bilərik. Qeyd etdiyimiz bu keyfiyyətlərin şagirdlərimizdə inkişaf etdirilməsində, aşılanmasında, vərdiş halına çevrilməsində məktəblərdə keçirilən fiziki tərbiyə dərslərinin və həmçinin fiziki tərbiyə müəllimlərinin üzərinə çox böyük yük düşür.

"Fiziki tərbiyə – ümumi tərbiyənin bir hissəsidir. O, hərəkət vərdişlərinin formalaşmasına və insanların fiziki qabiliyyətlərinin inkişafına yönəldilmiş pedaqoji prosesdir. O cəmiyyətlə birgə yaranır və cəmiyyətin qanunları ilə inkişaf edir. Fiziki tərbiyə insanın hərtərəfli inkişafında əsas yerlərdən birini tutur və tərbiyənin başqa növləri ilə sıx əlaqədardır" (2, s. 244).

Fiziki tərbiyə dərslərində ümumiyyətlə həyat üçün ən vacib sayılan bir sıra hərəkətlər öyrədilir. Məsələn biz bunlara yerişi, qaçışı, müvazinəti saxlamağı, tullanmaları, qamətin formalaşması üçün hərəkətləri misal göstərə bilərik. Həmin hərəkətlərdən istifadə edərək bacarıq və vərdişlərə sahib olmağı şagirdlərin gündəlik həyatları üçün iki cəhətdən əhəmiyyətli sayılır:

Birinci - şagirdlərin gündəlik həyatlarında, gün rejimində qarşılarına çıxan hər bir çətinlikləri aradan qaldırmaqla yanaşı, həm də onlarda bu istiqamətli işdə (yazı yazmağı, məktəbdə faydalı əməklə məşğul olmağı, valideynlərinə işlərində kömək göstərmək, turist yürüşləri, ekskursiyalara getdikləri zaman maneələri asanlıqla dəf etmək, kələ-kötür yerləri gəzmək, dağlara qalxmaq və yaxud enmək və s.) xüsusi müvəffəqiyyətlər də əldə edirlər.

İkinci - isə biz bura fiziki tərbiyə dərsləri zamanı öyrədilən ayrı-ayrı fiziki hərəkətlərdən və mütəhərrik oyunlardan qazanılmış bilik, bacarıq və vərdişlər ümumtəhsil məktəblərində tədris olunan əmək, təbiətşünaslıq və s. fənlərin keyfiyyətinin artırılmasına köməkliyi aid edə bilərik.

"Fiziki tərbiyə vasitələrindən onlardan düzgün şəkildə istifadə olunması insanların intellektual inkişafı və əmək qabiliyyətinin artırılmasına müsbət təsir göstərir. Orta təhsilin məzmununu yenilənməsi, təlimin idrak fəaliyyətinin intensiv şəkildə artması uşaq orqanizminin inkişafına daha çox tələblərin irəli sürülməsinə zəmin yaradır. Gün rejimi şəraitində fiziki tərbiyə dərslərinin orqanizmin funksional iş qabiliyyətini, uşaqların əqli və fiziki iş qabiliyyətini artırır" (4, s. 269).

Yuxarıda da qeyd elədiyimiz kimi belə keyfiyyətlər formalaşmasında qüvvə, sürət, dözümlülük, çeviklik ilk sırada dayanır.

"Vətənpərvərlik tərbiyəsi müstəqil vətənimizi müdafiə etməyə hazır olmaq, vətənin yolunda qüvvə və bacarığını sərf etmək, lazım gəldikdə hətta canından keçmək keyfiyyətlərinin formalaşması kimi əsas mahiyyət daşıyır" (3, s. 60).

Müstəqil Azərbaycan dövlətini qoruyub saxlamaq və inkişaf etdirmək, onun sivil dövlətlər arasında öz yerini tutmasına nail olmaq üçün gəncləri milli-vətənpərvərlik hissləri əsasında tərbiyə edən vasitələrdən biri də fiziki tərbiyə dərsləri və dərsdənkənar tədbirlərdir.

Belə deyə bilərik ki, hər birimizdə olan vətən sevgisi hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik deyə bilərik həm də insanlarda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığımız mübarizədə bizdə inam hissini gücləndirir. Vətənpərvərliklə bağlı araşdırmalar apardığımız zaman bir daha öyrənirik ki, vətənpərvərlik anlayışı özündə vətənə və millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunların zirvəsində ən əsas Vətən üçün ölüməyə, öz canınını vətən yolunda qurban verməyə daim hazır olmaq dayanır. Bu vətənpərvərliyin ən uca və ali formasıdır.

Qədim zamanlardan bu günümüzə kimi Azərbaycanın daima mərd, qorxmaz, cəsur, mübariz oğul və qızlarımız olmuşdur. Doğma vətəni həmişə sevmiş, onun qədrini bilmiş, doğma torpağının bir qarışını belə düşmənə verməmiş, vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Belə oğullarımıza biz tarixi keçmişimizdə Cavanşiri, Babəki, Koroğlunu bu günümüzün qəhrəmanlıq tarixini bəzəyən oğullarımıza isə Polad Həşimovun, İlqar Mirzəyevin, Mübariz İbrahimovun, Fərid Əhmədovun, Qürbət Tarverdiyevin, Muxtar Qasımlını, Siyavuş Muradovun və s. adlarını çəkə bilərik.

"Azərbaycan xalqının igid oğullarından yadelli işğalçılara qarşı mübarizəsi tarixi keçmişimizdirsə, Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir. O şərəfli Şəhidlik zirvəsinə ucalan vətən övladları doğma yurdun, elin-obanın sədaqət rəmzləri və məhəbbət simvolu hesab olunurlar. Onlar vətən torpağı uğrunda canlarını qurban vermişlər" (1, s. 365).

Müşahidələrimizdən aydın olur ki, yuxarı sinif şagirdlərinin əsl vətənpərvər kimi tərbiyə olunmasında bəzi çatışmamazlıqlar mövcuddur. Bu çatışmamazlıqlara: məktəblərdə lazımi səviyyədə vətənpərvəliklərlə bağlı tədbirlərin keçirilməməsi, müəllimlərin şagirdlərlə bu mövzu ətrafında söhbətlərin aparılmaması, yuxarı sinif şagirdlərinin arasında VMH yarışlarının təşkilinin çox az keçirilməsidir. Bu boşluqların doldurulmasında təlim-tərbiyə ilə məşğul olan bütün qurumlarda, o cümlədən orta ümumtəhsil məktəblərində lazımi işlər görməlidir. Bu istiqamətdə geniş elmi tədqiqat işlərinin aparılmasına böyük ehtiyac vardır.

Bizim apardığımız tədqiqatın əsas məqsədi yuxarı sinif şagirdlərinə vətənpərvəliklə bağlı maarifləndirici tədbirlər keçirmək, məktəblərdə VMH yarışları təşkil etmək, hərbi idman oyunları keçirmək və bunun nəticəsində onlarda vətənpərvər, əqidəli, dözümlü, cəsurluq kimi keyfiyyətlər formalaşdırmaqdır.

Tədqiqatın birinci mərhələsində: X-XI sinif şagirdləri arasında vətənpərvərliklə bağlı fikirlərini, şagirdlərin bu mövzuda məlumatlarının hansı səviyyədə olmasını, dərslərdə müəllimlərin bu yönümdə şagirdlərlə söhbətlər aparılıb-aparılmamasının öyrənilməsidir. Bunu da biz anket sualları tərtib edərək öyrəndik. İkinci mərəhələdə: Yuxarı sinif şagirdləri ilə sıx şəkildə kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri aparılması, hərbi idman oyunlarının keçirilməsi, VMH üzrə yarışların təşkil olunması vətənpərvərliklə bağlı intelektual oyunları keçirilməsidir.

Biz tədqiqat işimizə X^a, X^b, XI^a, XI^b sinifləri cəlb etdik. Bunlardan X^a, XI^a eksperment, X^b, XI^b isə nəzarət siniflər olaraq seçilmişdir. Apardığımız tədqiqat işi 2 mərhələdən ibarət olmuşdur. I mərhələ 15 oktyabrdan – 15 dekabr 2021 ci ilə qədər, II mərhələ isə 17 yanvardan – 17 mart 2022 ci ilə qədər dövrü əhatə etmişdir.

Birinci mərhələdə (müəyyənedici) fiziki tərbiyə dərslərində müşahidələr aparılmış, fiziki

tərbiyə müəllimləri ilə vətənpərvəliklə bağlı söhbətlər aparılmışdır. Onların bu sahədə barəsində fikirləri və problemlə bağlı vəziyyət öyrənilmişdir. Yuxarı sinif şagirdlərinin bu mövzuda anket sualları təqdim etməmişdən qabaq uşaqların ümumi bilik səviyyəsi öyrənilmiş, fiziki tərbiyə dərslərinin tədris planında vətənpərvəliklə bağlı məlumatların olub-olmaması araşdırılmış və təhlillər aparılmışdır. Birinci mərhələdə eyni zamanda biz şagirdlərin ümumi bilik səviyyəsini müəyyən etmək üçün uşaqlarnan açıq suallar formasında sorğusu aparmışıq.

Anket sualları:

1.Sizin fikrinizcə vətənpərvər kimdir?

2.Vətəni nə üçün sevmək lazımdır?

3. Vətəndaşlıq borcu nədir?

4.Vətən uğrunda canlarından keçən şəhidlərimizi necə yad edirsiniz?

5. Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarından, Milli qəhrəmanlarımızdan kimlərin adını çəkə bilərsiniz?

6. Son vaxtlar vətənpərvərlik mövzusunda hansı əsərləri oxumusunuz?

7. Sənin ən sevdiyin qəhrəmanlar kimlərdir?

8. Vətənpərvərliklə bağlı yazan yazıçılardan kimləri tanıyırsınız?

9. Sən özünü daha çox hansı qəhrəmana bənzədirsən?

10. Hansı qəhrəmanların həyatı səni daha çox maraqlandırıb?

11. Vətənpərvərliklə bağlı hansı atalar sözləri və bayatıları bilirsən?

12. Ölkəmizlə bağlı olan tarixi günlərdən hansılarını bilirsiniz?

Anket sorğusuna X-XI siniflərdə təhsil alan cəmi 75 nəfər şagird cəlb etdik. Şagirdlərlə apardığımız ilkin anket sorğusundan əldə etdiyimiz cavablardan belə məlum oldu ki, şagirdlərin vətənpərvərliklə bağlı olan bilikləri, düşüncələri onların bu istiqamətdə inkişaf etdirilməsi metodikası haqqında bilikləri bəsitdir.

Eksperimental və nəzarət qruplarında ilkin apardığımız anket sorğularından aldığımız nəticələri aşağıdakı cədvəllərdə görmək olar.

X^b və XI^b nəzarət siniflərin göstəriciləri

Sıra sayı	Siniflər	Şagird sayı	Suallara dolğun cavab verən şagirdlərin sayı	Suallara zəif cavab verən şagirdlərin sayı	Fərq
1	X^b	17	5	12	7
2	XI^b	18	9	9	0
∑		35	14	21	7
$\overline{X}$		17.5	7	10.5	3.5

X^a və XI^a ekspermental siniflərin göstəriciləri

Sıra sayı	Siniflər	Şagird sayı	Suallara dolğun cavab verən şagirdlərin sayı	Suallara zəif cavab verən şagirdlərin sayı	Fərq
1	X^a	21	6	15	9
2	XI^a	19	3	16	13
∑		40	9	31	22
$\overline{X}$		20	4.5	15.5	11

Uşaqların vətənpərvərliklə bağlı biliklərini artırmaq üçün biz ikinci mərhələdə (öyrədici) fiziki tərbiyə müəllimlərindən xahiş etdik ki, eksperimental siniflərdə fiziki tərbiyə dərsləri təklif etdiyimiz tövsiyyələrdən istifadə etsinlər.

Bunlar:

1. Uşaqlara fiziki tərbiyənin əhəmiyyəti və vətənpərvəliklə bağlı məlumatlar vermək
2. Şagirdlərə vətəni müdafiə etməyi, onu düşmələrdən qorumağı, vətənə məhəbbət, qəhramanlıq, yoldaşlıq, sədaqət və başqa nəcib xüsusiyyətləri izah etmək;
3. Şagirdlərə tariximiz haqqında məlumat vermək;
4. Siniflər arasında hərbi-idman (VHM) yarışları təşkil etmək;
5. Məktəblilərlə birgə "döyüş şöhrəti" muzeyi yaratmaq;
6. Şagirdləri dövlət rəmzlərimiz (dövlət bayrağı, gerbi, himn) haqqında bilikləndirmək;
7. Qəhramanlarımızın həyatı onların igidlikləri haqqında biliklər vermək;
8. Milli qəhramanlarla görüşlərin təşkil olunması;
9. Vətənpərvəlik mövzusunda şəkil, rəsm sərgiləri təşkil etmək;
10. Vətənpərvərlik hisslərinin formalaşdırması üçün dərsədənkənar tədbirlərin təşkil olunması.

2 ay müddətində fiziki tərbiyə müəllimlərinə təklif etdiyimiz tövsiyyələrdən istifadə edərək dərsləri keçdikdən sonra eksperimental siniflərin göstəriciləri nəzarət siniflərin göstəricilərinə nisbətən yüksək oldu. Bunu aşağıdakı cədvəllərdə görmək olar.

X^b və XI^b nəzarət siniflərin göstəriciləri

Sıra sayı	Siniflər	Şagird sayı	Suallara dolğun cavab verən şagirdlərin sayı	Suallara zəif cavab verən şagirdlərin sayı	Fərq
1	X^b	17	4	13	9
2	XI^b	18	8	10	2
∑		35	12	23	11
$\overline{X}$		17.5	6	11.5	5.5

X^a və XI^a ekspermental siniflərin göstəriciləri

Sıra sayı	Siniflər	Şagird sayı	Suallara dolğun cavab verən şagirdlərin sayı	Suallara zəif cavab verən şagirdlərin sayı	Fərq
1	X^a	21	19	2	17
2	XI^a	19	18	1	17
∑		40	37	3	34
$\overline{X}$		20	18.5	1.5	17

Tədqiqatın nəticələri bunlardır:

- uşaqların vətənpərvəliklə bağlı olan biliklərini artması;
- onların vətənə olan məhəbbət hissinin daha da güclənməsi;
- qəhramanlarımız haqqında biliklərin artması;
- öz tarixini daha da dərində bilməsi;
- uşaqlarda mərdlik, qorxmazlıq, fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik, cəsarət kimi keyfiyyətlərin formalaşması;

- Azərbaycan Silahlı Qüvvələrinin döyüş və əmək ənənlərini yaşatmaq və daha da inkişaf etdirməsi;
- Azərbaycançılıq ideaologiyalarına layiqincə xidmət etmək;
- komandada uğurla qarşılıqlı əlaqə qurmaq bacarığı.

Qeyd etdiyimiz kimi vətənpərvərlik tərbiyəsini təkcə təlim prosesində aparılan işlərlə məhdudlaşdırmaq olmaz. Bu işdə dərsdənkənar tərbiyə işlərinin müxtəlif formalarından, yol və vasitələrindən istifadə etmək lazımdır.

"Dərsdənkənar işin əhəmiyyəti çox böyükdür. O uşaqların hərəki fəallığının artırılmasına və onların sağlamlığına yardım edir; onların fiziki kamilliyi, fərdi maraqlarını təmin edir və idmanla məşğul olmağa maraq fomalaşdırır, şagirdlərin sosial fəallığını inkişaf etdirir. Şagirdlərlə aparılan dərsdənkənar tədbirlər onların hərtərəfli inkişaflarına kömək edir. Belə ki, adət-ənənələrimizə sadiqlik, milli kökə bağlılıq, inam tərbiyə etmək dərsdənkənar işlərin mahiyyətini təşkil edir". (5)

Azərbaycan Silahlı Qüvvələrinin şanlı qəhrəmanlıq tarixi ilə tanışlıq gənclər üçün zəruri olan cəsurluq və şücaət, mərdlik, xalqa və vətənə sədaqət kimi keyfiyyətlər tərbiyə edir. Məktəbdə vətənpərvərlik tərbiyəsinin bütün sistemi gənclərin qəlbində yaşlı nəslin keçmiş ənənələrinə yüksək inam və sədaqət hissini alovlandırmalı, hər bir oğlan və qız dərindən hiss etməlidir ki, o, öz babalarının, atalarının və böyük qardaşlarının dönməz davamçısıdır. Məktəbdə vətənpərvərlik tərbiyəsinin əsas məzmununu məhz bu prinsip təşkil edir.

Şagirdlərin vətənpərvərlik tərbiyəsində dərsdəndənkənar işlərin forma və üsulları müxtəlif və rəngarəng olur. Məsələn, Azərbaycan ordusunun yaradılması günü, 9 May - Qələbə Günü 8 noyabr Zəfər bayramı və s. tarixi günlərə hazırlıq görülməsi və təntənəli surətdə qeyd edilməsi, hərbi hissələrə, döyüş yerlərinə, qəhrəmanların abidələrinə ekskursiyaların təşkili, Qarabağ müharibəsinin veteranları və Azərbaycan ordusunun döyüşçüləri ilə görüşlərin keçirilməsi gənc nəslin milli şüurunun inkişafına öz təsirini göstərir. Vətənpərvərlik mövzularında aparılan söhbətlər, ədəbi-bədii gecələr, müzakirələr keçirmək, şəkilli albomlar, fotosərgilər, fotoalbomlar təşkil etmək və s. gənc nəslin milli şüurunun təşəkkül tapmasına təsir göstərən vasitələrdir. Məktəblərdə bu vasitələrin hər birindən müntəzəm istifadə olunur ki, bunlar da şagirdlərdə vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsinə səbəb olur. Gənc nəslin yaddaşında dərin iz buraxır.

Ədəbiyyat

1. Adışirinov K.F. Həyatı nəsillərə örnək olan qəhrəman. Tarixi səlnamə Bakı: "Elm və Təhsil", 2019, s. 365
2. Məcidov.N.B. Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası. Dərslik, Bakı: 2018, s. 244
3. Məmmədli R, Əhmədova S. Vətənpəvərlik tərbiyəsi ümumilli xilas yolumuzdur, Bakı: 2016, s. 60
4. Talıbov.Y.R. Azərbaycan mütəfəkkirləri və maarifçilərinin əsərlərində ailə tərbiyəsi. Bakı: Maarif, 2002, s. 269
5. http://tehsiljurnali.az/mektebmuellim/2156-sinifdnxaric-v-mktbdnknar-tdbirlrin-imkanlarndan-istifad.html

А.Х.Баратов, М.Т.Балакишиев

Исследование формирования патриотизма у старшеклассников на уроках физической культуры и внеурочной деятельности

Резюме

Если уроки физкультуры и внеурочная деятельность в общеобразовательных школах организованно, то систематически, системно на основе народного патриотизма будут организовываться и будут использоваться все принципы работы в этой области, и уровень национального патриотизма учащихся повысится. Информирование учащихся о наших героях, организация

патриотических конкурсов, организация патриотических игр, проведение интеллектуальных конкурсов, информирование о наших государственных символах окажут положительное влияние на формирование у детей чувства патриотизма.

A.Kh.Baratov, M.T.Balakishiyev

Study of the formation of patriotism in high school students in physical education classes and extracurricular activities

Summary

If physical education classes and extracurricular activities in secondary schools are organized in an organized, regular, systematic manner on the basis of national patriotism, and all the principles of work are used in this area, the level of national patriotism of students will increase. Giving students information about our heroes, organizing patriotic competitions, organizing patriotic games, holding intellectual competitions, informing about our state symbols will have a positive impact on the formation of children's sense of patriotism.

Rəyçi: ped.f.d. M.Z.Heydərova

Redaksiyaya daxil olub: 24.05.2022

E.O.CABBAROVA
e-mail: dcel_cabbarova1980@mail.ru

DOI:10.48652/v0161-8079-9810-d

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Ə.Rəsulzadə küç., 305)

AZƏRBAYCAN TARİXİ DƏRSİNDƏ VƏTƏNPƏRVƏRLİYİN GƏNC NƏSLƏ ÖYRƏDİLMƏSİ

Açar sözlər: *Vətən, vətənpərvərlik, Azərbaycan, azərbaycançılıq, gənclər, tarix, Azərbaycan tarixi, Azərbaycan tarixi dərsi, təhsil, tədris.*

Ключевые слова*: Родина, патриотизм, Азербайджан, азербайджанство, молодежь, история, учение история Азербайджана, урок истории Азербайджана, образование.*

Key words*: Homeland, patriotism, Azerbaijan, Azerbaijanism, youth, history, history of Azerbaijan, the lesson of history of Azerbaijan, education, teaching*

Mövzunun aktuallığı: Vətən bizim varlığımızdır, fəxrimizdir, qururumuzdur. Vətən hər birimizin müqəddəs səcdəgahı, pənahı, ümid yeridir. Vətən torpağının müqəddəsliyi, onun yağılardan qorunmasının vacibliyi dastanlarımızın əzəli ulusu "Dədə Qorqud"da böyük məhəbbətlə tərənnüm edilir. Vətən ana ilə bərabər tutulur. Oğuz igidləri "Vətən haqqı ana haqqıdır" - kəlamının işığında Vətənin keşiyində ayıq-sayıq dayanıb, onu göz bəbəyi kimi qoruyurlar.

Vətənimizi dərin məhəbbətlə sevməli və onu hər an qorumağa hazır olmalıyiq. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq isə vətənpərvərlikdir. Vətənpərvərlik vətənə məhəbbət, əcdadaların ənənələrinə hörmət deməkdir. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini əks etdirir. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür.

Ümummilli liderimiz, Dahi öndərimiz Heydər Əliyev vətənpərvərliyi, vətəndaşlıq duyğusunu, xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edərək bu haqda fikrini bü cür ifadə etmişdir:

“Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən ,öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır”.

“Azərbaycanın gələcəyi gənclərə məxsusdur”- deyən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclərimizin hərtərəfli inkişafına imkanlar açan müvafiq tədbirlər həyata keçirmiş və tez bir zamanda müstəqil Azərbaycanımızın gələcəyini qoruyub saxlaya biləcək gənc nəsillərin yetişdiyinə əminliyini belə ifadə etmişdir: “Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir”. Həmçinin gənclərin vətənpərvərlik tərbiyəsinə azərbaycançılığı, qəhrəmanlığı əxz etməklə bütün çətinlikləri aradan qaldırmaq vasitəsi kimi baxırdı: "Siz də Azərbaycan xalqına xidmət edərək... Vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli

bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük diqqətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Cünki, vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə bütöv bir xalqın gələcəyini təmin edən əsas amillərin ən mühümüdür. Vətənpərvərlik gənclərdə vicdan, ləyaqət, ədalət hisslərini tərbiyə edir, şəxsi mənafe, eqoizimdən uzaqlaşdıraraq millət, xalq sevgisini oyadır. Bu isə öz növbəsində dövlətin demokratik prinsiplərlə idarə olunmasına, xalqın mənafeyinə xidmət edilməsinə zəmin yaradır. Bu mövzunun öyrənilmə və işlənilmə zərurətidə məhz bundan irəli gəlir və bu səpkidə işlənilən bütün mövzular hər zaman xüsusi əhəmiyyət və aktuallıq kəsb edir.

Mövzunun əsas məzmunu: Hazırda qloballaşan dünyada ölkəmizin qarşısında duran prioritet hədəf - XXI əsrin çağırışlarına cavab verən bilik və bacarıqlarına malik olan, soykökünə bağlı, ənənəvi milli-mənəvi dəyərləri qoruyub saxlayan və bölüşən, Vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan, müasir və kreativ düşüncəli, innovasiyalardan baş açan yeni nəslin formalaşdırılmasına nail olmaqdan ibarətdir. Əslində bu hədəflər müasir Azərbaycan təhsilinin və milli tərbiyənin qarşısında duran əsas priotetlər və strateji istiqamətlərdir. Bu strateji hədəfə çatmağın əsas alət və vasitələrindən biri uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə işinin səmərəli təşkilidir.Vətənpərvərlik hissi uşağa kiçik yaşlarından, ilk növbədə ailədə aşılanmalıdır. Beləki, ilkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar – milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailədə qayğı, məhəbbət, şərəf, qeyrət, namus və s. kimi kateqoriyalar məhz məktəbəqədər yaş dövründə daha sürətlə formalaşmağa başlayır. Uşaqların mənəvi əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, əxlaq tərbiyəsi, ailə həyatı ilə bağlı olan məsələlər ilk uşaq çağında təşəkkül tapır. Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kiçik yaşlı uşaqları müstəqil həyata hazırlamaq, uşaqların tərbiyəsindən, xüsusilə də vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyəsindən həlledici dərəcədə asılıdır.

Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninə bağlılıq tərbiyəsidir. Ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn – rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir. Buna görə də uşaqlarda hələ erkən yaşlarından bütün müsbət keyfiyyətlərlə yanaşı vətənpərvərlik hissinində formalaşdırılması həm ailələrin həmdə məktəbəqədər təhsil müəssisələrinin borcudur. Hansıki müasir dövrümüzdə bu məsələ həmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur. (1, s.15). Görkəmli mütəfəkkirlərimizdən biri olan M.F. Axundov uşaqlara nəcib əxlaqi keyfiyyətlər aşılamağa, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, cəmiyyətin üzvlərinin xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olmalarını arzu edir və həyatda da belə görmək istəyirdi. (2, s. 113). Uşaqlara yalnız bir neçə dəyərləri öyrətməklədə kifayətlənmək olmaz. Vətənpərvərlik hissini ilkin davranışlara, vərdişlərə həkk etmək lazımdır, yəni istər təbiətə münasibətdə, insanlara münasibətdə, ümumilikdə insan həyatının hər bir sahəsində vətənpərvərlik hissi olmalıdır (3). “Mən öz xalqımı sevirəm, öz xalqımın vətənpərvəriyəm” deyən Ulu Öndər Heydər Əliyev uşaq və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında milli mənəvi dəyərlərimizin qorunmasını, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini əsas hədəf hesab edirdi (4).

Gənclərimizin vətənpərvərlik ruhunda böyüməsi işinin mühüm istiqamətlərindən birini heç şübhəsizki, qeyd olunduğu kimi təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Azərbaycan Respublikasının Təhsil Qanununun (2009) 4-cü maddəsində təhsilin əsas məqsədi aşağıdakı şəkildə şərh edilmişdir: Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək. (5, s. 15).

Gənc nəslin vətənpərvər ruhda böyüməsində Tarix fənninin böyük əhəmiyyəti vardır. Azərbaycan tarixşünaslığının banisi görkəmli mütəfəkkir A.A.Bakıxanov 1841-ci ildə yazdığı Gülüstani-İrəm əsərinin müqəddiməsində tarix elmini əvəzi olmayan tərbiyə və əxlaq məktəbi olduğunu qeyd edərək yazırdı: "Bu elm insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə, onu mənəvi elmlərin qiymətlərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmdardır ki, bütün adəm övladı onun əmrlərinə boyun əyməkdədir... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yolların anladır".A.Bakıxanov göstərirdi ki, "vətən tarixi"ni bilmək insanlarda milli təfəkkürün inkişafına, vətənpərvərlik hislərinin tərbiyə edilməsinə, dostu düşməndən ayırmağa, millət üçün, vətən üçün faydalı və zərərli olanları fərqləndirməyə imkan verir" (6, s. 3). Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrə, milli-mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir. Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir (7, s. 8).

Təlim-tərbiyə prosesində milli duyğular, milli amil həmişə ön planda olmalıdır. Beləki, hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etmək olmalıdır. Dərsliklərdəki mövzuların şagirdlərin vətənpərvər ruhda böyüməsinə təsiri danılmazdır. Amma bu tərbiyənin formalaşmasında müəllimlərdən də çox şey asılıdır ki, onlar həmin mövzuları tədris etməklə gənclərdə vətənpərvərlik hisslərinin yaranmasına şərait yarada bilsinlər. Azərbaycan tarixi dərslərində tarix müəlliminin qarşısında duran vəzifələrdən ən birincisi gənc nəsilə vətənin nə olduğunu, onun haradan başladığını aşılamaqdır. İnsan öz ölkəsi, Vətəni haqqında nə qədər çox məlumatlı olursa, torpağını da sevərək onu qorumağı özünə borc hesab edir. Gənclərə izah olunmalıdır ki, vətən dedikdə, biz yalnız müəyyən sərhədləri olan bir torpaq sahəsi başa düşmürük. Vətən bizim üçün ilk növbədə anadır. Çünki o, bizi bir ana kimi öz qoynunda bəsləyir, boya-başa çatdırır. Biz bu torpağın havasını udur, suyunu içir, çörəyini yeyirik. Azərbaycan bizim hamımızın ümumi vətənidir. Hər birimizin yaşadığı şəhər, kənd, ev bu torpağın üzərində yerləşmişdir. Vətən ulu babalarımızın uyuduğu torpaq, gələcək nəsillərin yaşayış yeridir. Ata-babalarımız tarix boyu bu torpaqlarda sakin olmuş, onu əkib-becərmiş, qorumuş, onun uğrunda vuruşmuşlar. Vətənin daşlı-qumlu, heç bir məhsul verməyən şoran, altı da, üstü də zəngin təbii sərvətlərlə dolu olan torpaqları da bizim üçün qiymətlidir. Onu göz bəbəyimiz kimi qorumalıyıq. Bu məsələylə əlaqədar olaraq Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmrinə əsasən, 2013-2014-cü tədris ilindən

başlayaraq ümumi təhsil müəssisələrinin V-XI siniflərində ilk dərsin "Mənim Vətənim – doğma yurdum" mövzusuna həsr olunması qərara alınıbki, buda təqdirə layiqdir. Tarix dərslərində gənclərimizə mövzuları izah edərkən hər dəfə qeyd olunulmalıdırki, vətənpərvərlik vətən sevgisi, vətənə olan məhəbbətdir. Vətənə məhəbbət hissi olmayan adamda əxlaqi kamillikdən danışmaq olmaz. Bunun nə qədər yüksək hiss olduğunu görkəmli şairimiz S.Vurğun belə ifadə etmişdir. "Xalq eşqi, vətən məhəbbəti insanın həyat nəfəsidir". Vətən torpağı, xalqın mənəvi həyatı tükənməz bir xəzinədir.

Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti bu və ya digər dərəcədə tarixin gedişinə təsir göstərir. Tarix şəxsiyyətlərin fəaliyyətindən xeyli dərəcədə asılı olur. Onların fəaliyyətlərinin əsasının başa düşülməsi və nəticələrinin düzgün qiymətləndirilməsi, eyni zamanda bir sıra tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə və gələcəkdə baş verə biləcək digər hadisə və təzahürləri proqnozlaşdırmağa imkan yaradır. Buna görə də şagirdlərin keçmişdə və həmçinin müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti barədə araşdırmalar aparmaq, müqayisələr və təhlillər əsasında fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir. Məhz bu zərurətdə belə bir əsas yaradır: Tarix dərslərində, xüsusəndə Azərbaycan tarixi dərsində tarix müəllimi tariximizin müdrik və uzaqgörən sərkərdələrinin, hökmdarlarının, dövlət başçılarının mənəvi irsinə nəzər salmalı, onları lazımi səviyyədə öyrənməli, nəzəri-tarixi baxımdan tədqiq edərək təhlilini verməli, gənc nəslə aşılanmasının imkanlarını araşdırmalıdır. Azərbaycan tarixi dərslərində mövzuları izah edərkən dərslik və proqramla kifayətlənmək olmaz. Həyat davam etdikcə yeni hadisələr, onları doğuran səbəblər də bunu tələb edir. Ona görə də şagirdlərə onlar haqqında da məlumat vermək önəm daşıyır. XI sinfə çatan hər bir şagird Azərbaycan ərazisində mövcud olan dövlətlərdən, baş verənlərdən xəbərdar olmazsa, müasir dövrdə baş verən hadisələrə düzgün qiymət verə bilməz. Şagirdlər Azərbaycan ərazisinə edilən işğalçı yürüşlər, bu ərazilərə hansı imperiyaların marağı olduğunu bildikdən sonra müasir dövrdə baş verən prosesləri analiz etmək qabiliyyətinə malik olur və sərbəst düşünə bilirlər.

Tarix dərslərində Azərbaycan torpaqlarının düşməndən müdafiə olunmasında qəhrəmanlıqlar, şücaətlər göstərən milli qəhrəmanlarımızın, şəhidlərimizin ibrətamiz həyat yollarından gətirilən nümunələr, misallar böyük təsir gücünə malikdir. Onların döyüş yolu, qəhrəmanlıq nümunələri haqqında gənclərə geniş məlumatlar verilməlidir. Gənclər işğal olunmuş torpaqlarımızı, sərhədlərimizi bilməli, şəhidlərimiz haqqında məlumatlı olmalı, milli qəhrəmanlarımızı tanımalıdırlar. Beləki, ancaq vətənə bağlı olan, vətənini sevən insan vətən uğrunda həmişə fədakarlıq edər, hətta öz canından da keçə bilər. Böyük türk şairi Mithat Cemal Kuntay "Torpaq - əgər uğrunda ölən varsa vətəndir!" - demişdir. Torpağın uğrunda ölən yoxsa, o torpaq vətən ola bilməz. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Tariximiz həmişə sübut edib ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini daima qorumağa hazır olan mətin gənclər yetişdirib. Müstəqil dövlətdə yaşayan hər bir gənc, ilk növbədə, bu dövlətin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidirlər. Buna görədə Azərbaycan tarixi dərslərində bu məsələyə xüsusi diqqətlə toxunulmalıdır. Gənclərimiz bir daha bilməli və dərk etməlidir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir. Gənclərin mütəmadi olaraq müharibə veteranları və zabitlərlə görüşləri təşkil olunmalıdır. Çünki, veteran və zabitlərlə görüşlər onlara örnək olur. Gənclər qarşılarında müharibənin ağrı-acısını yaşayan, od-alovun içindən keçən qəhrəman insanları görəndə onlara bənzəmək istəyirlər. Bu cür görüşlər şagirdlərin Vətənə, doğma yurdlarına qarşı məhəbbətlərini artırır, onları vətənin müdafiəsinə hazırlayır. Əsas odur ki, onlar vətənpərvər ruhda tərbiyələnib daim özlərini vətənin əsgəri hesab edirlər. Həmçinin gənclərimiz hərbi hissələrə, muzeylərə, Bayraq meydanlarına aparılmalı, onlara tariximiz, müstəqilliyimiz haqqında məlumatlar verilməlidir.

Tarix müəllimləri şagirdə vətənpərvərlik sözünün yalnız çiynində silah, əynində hərbi forma cəbhədə vuruşmaq olmadığını bildirməlidir. İxtisasından asılı olmayaraq müəllim hər bir şagird üçün nümunədir. Əgər müəllim, öz fənnini tədris edib uşaqlarda milli ruhu aşılayırsa, demək öz funksiyanı müəyyən qədər yerinə yetirir. Əgər bir idmançımız bayrağımızı hər hansı idman arenasında göylərə qaldırırsa, bu da vətənpərvərlikdir. Ona görə də buna kompleks yanaşılmalıdır. Hər bir müəllim 45 dəqiqəlik dərsin 10 dəqiqəsini buna ayırsa, yaxşı nəticə alınar. Vətənpərvərliyi, mənəvi əqidəni düşmənə nifrətsiz təsəvvür etmək qeyri mümkündür. Tarix müəllimləri istər dərsdə, istərsə də sinifdənkənar tədbirlərdə yeri gəldikcə şagirdlərə şüurlu surətdə dərk etdirməlidirlər ki, ermənilərin xalqımıza qarşı törətdikləri bütün cinayətlər insana xas olmayan vəhşilikdir. Ermənilərin xalqımızın başına gətirdiyi bütün müsibətləri gənclərə ayrı-ayrılıqda izah etməli, həmçinin müasir dövrümüzün ən ağır cinayətlərindən olan Xocalı, 20 yanvar faciəsini, Şəhidlər xiyabanı qeyd etməklə gənclərdə düşmənə nifrət hissini formalaşdırmalıdırlar.Yaxşı olar ki, bütün bu vəhşiliklərə aid videokasetlər göstərilsin, filmlər nümayiş etdirilsin.

44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi şücaət bir vətənpərvərlik məktəbidir. Bu məktəbi öyrənmək, şahidlərimizin xatirəsinə hörmətlə, qazilərimizə diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur. Azərbaycan tarixi dərslərində Vətən müharibəsinin nəticələri nəzərə alınmaqla, Azərbaycanın qələbəsini təmin edən amillər təhlil olunmalı, "Qarabağ dərsləri", "Qarabağ şahinləri", "Milli qəhrəmanlar", "Qarabağ müharibəsi qəhrəmanları", "Şuşa əməliyyatı" adlı dərslər təşkil olunmalı, Qarabağ müharibəsi qəhrəmanları, qaziləri, şəhidləri, iştirakçıları haqqında ensiklopedik soraq kitabları hazırlanmalı, sənədli filmlər çəkilməli, həmin insanlar yetişməkdə olan uşaq və gənclərə yetərincə tanıdılmalıdır. Vətəni qorumaq nə qədər müqəddəsdirsə, ölkənin tərəqqisi üçün faydalı olmaq da o qədər önəmlidir. Yunan filosofu Sokrata görə, vətənpərvərlik döyüşdə vuruşub böyük qəhrəmanlıq göstərməklə bitmir. Hər bir insanın üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirmək də vətənpərvərlikdir. Qeyd olunduğu kimi "Vətənpərvərlik yalnız ön cəbhədə vuruşmaq deyil, həm də ölkənin inkişafı üçün müasir dövrün tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməkdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılmasında ümumi təhsilin xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Ona görə də ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzində olan vəzifədir.

Nəticə: Beləliklə, mövzu üzərində işlədikdən sonra o nəticəyə gəlirik ki, vətənpərvər, azərbaycançılıq hisslərinə malik olan gənclər yetişdirmək vəzifəsi həm Azərbaycan tarixi dərslərində tarix müəllimləri tərəfindən həyata keçirilməli, həmdə cəmiyyətin bütün sahələrində bu məsələ təbliğ edilməli, ən başlıca hədəfə çevrilməlidir. Çünki, məhz xalqını, millətini dərin məhəbbətlə sevən və onu hər an qorumağa hazır olan vətənpərvər vətəndaşlarımızın mövcudluğu, müstəqil quruculuq yolu seçən ölkəmizin daha da inkişaf etməsinə və hər zaman təhlükəsizliyinin qorunmasına zəmanət verir.

Ədəbiyyat

1. Məmmədəli Hənnan oğlu Ağayev "Pedaqoji fikir tarixində tərbiyə və təhsil". Bakı -2011.178 s.
2. Şahbaz Şamıoğlu (Musayev)."Mirzə Fətəli Axundzadənin gürcü müasirləri" Monoqrafiya. Bakı-2012, 116 s.
3. "Vətənpərvərliyi təkcə gənclərə şamil etmək olmaz, kompleks yanaşma olmalıdır.Yeni qanun layihəsi ilə bağlı açıqlama "https:// www. Xalqcebhesi. az/ news/politics/73946.html
4. "Ümummilli lider Heydər Əliyev və dövlət uşaq siyasəti mövzusunda" tədbir keçirmişdir. http://aqupdk.nakhchivan.az/mtbuat-xidmti/xbrlr/448-2019-05-06-13-40-55.html
5. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı-2009.

6. Bakıxanov A. Gülüstani-İrəm. Bakı -1951. 252 s.
7. ”Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı. (Kurrikulumu)(V-XI siniflər)”Bakı-2013.144s
8. Qasımova A.Q. Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi yeniyetmələrin tərbiyəsinin vasitəsi kimi. Bakı-2003.157s.
9. Əmirov Mübariz. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti)Bakı- 2011.706 s.

Э.О.Джаббарова

Воспитание чувства патриотизма у подрастающего поколения на уроках истории Азербайджана

Резюме

В статье подробно анализируются понятия Родина и патриотизм, широко обсуждается важность и необходимость процесса изучения темы патриотизма у нашей молодежи на уроках истории Азербайджана. Отмечается, что осуществление этого процесса учителями истории на уроках истории Азербайджана, служит воспитанию подрастающего поколения, нашей молодежи на основе национально-духовных ценностей, в патриотическом духе. В основе существования и развития каждого сильного народа, нации и государства, его развития и высоких достижений и в готовности в любое время защитить его безопасность - лежит наличие патриотически настроенной молодежи и граждан.

E.O.Jabbarova

Teaching patriotism to the younger generation at the lessons of history of Azerbaijan

Summary

In the article, the concepts of homeland and patriotism are analyzed in detail, the importance and necessity of the process of teaching patriotism to our youth in the history lessons of Azerbaijan is widely discussed. It is noted that the implementation of this process by history teachers in Azerbaijani history classes serves to educate the younger generation, our youth on the basis of national and spiritual values, in a patriotic spirit. The existence of patriotic youth and citizens is at the root of the existence and development of every strong people, nation and state, its constant high achievements and readiness to protect its security at any time.

Rəyçi: t.f.d. V.Baxışov

Redaksiyaya daxil olub: 10.06.2022

Z.H.CƏBRAYILOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

FONETİKA TƏDRİSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *fonetika, əlifba, səs və hərf, vurğu, sözdə vurğunun yeri, heca, saitlər, samitlər, ahəng qanunu, transkripsiya, fonetik təhlil.*

Ключевые слова: *фонетика, алфавит, звук и буква, ударение, место ударения в слове, слог, гласные, согласные, закон гармонии, транскрипция, фонетический анализ.*

Key words: *phonetics, alphabet, sound and letter, accent, place of accent in a word, syllable, vowels, consonants, law of harmony, transcription, phonetic analysis.*

Fonetika dilçiliyin bir bölməsi olaraq dilin səs tərkibindən, səs qanunlarından, səs sistemindən bəhs edir. Azərbaycan dilində sistematik kursun öyrənilməsinə məhz fonetika ilə başlanılır. Fonetika bəhsinin tədrisi qarşısında qoyulmuş əsas vəzifələri konkret olaraq belə qruplaşdırmaq olar:

1. Fonetikanın tədrisi ilə əlaqədar olaraq şagirdlərdə aydın təsəvvür yaradılmalıdır. Danışıq səsləri haqqında bir bilik sahəsi kimi fonetika dilin səs sistemi, səslərin əmələ gəlməsi, onların hərflərlə ifadəsi, əlifba, heca, vurğu və s. mövzular haqqında şagirdlər ətraflı məlumatlandırmalıdır;
2. Bu bəhs şagirdlərə səslə hərfin, orfoqrafiya və orfoepiyanın fərqini, yazılı və şifahi ədəbi dilin müqayisəsini, bunların qarşılıqlı münasibətini dərk etdirməlidir;
3. Fonetika bəhsinin tədrisi şagirdlərin orfoepik vərdişlərə yiyələnməsində bir növ zəmin olmalıdır;
4. Fonetika şagirdlərə Azərbaycan əlifbası haqqında bilik verməlidir;
5. Fonetika nitqdəki səslərin yaranması, fiziologiyası haqqındakı məlumatı şagirdlərə çatdırmalıdır.

Orta məktəblərdə fonetika bəhsi ilk dəfə ibtidai sinifdə keçilir. Lakin ibtidai sinif şagirdlərinə bu bölmə haqqında verilən məlumat çox da geniş olmayıb, fonetika barədə yalnız ümumi təsəvvür yaradır.

Fonetika daha ətraflı, müfəssəl şəkildə V sinifdə tədris olunur. Dilçiliyin ilk bölməsini öyrədən müəllim öz işində məsuliyyətli olmalı və çalışmalıdır ki, şagirdlər fonetikaya aid hər bir mövzunu şüurlu surətdə mənimsəsinlər. Çünki gələcəkdə dilçiliyin digər bölmələrini yaxşı öyrənməkdə fonetika onlar üçün bir növ açar rolunu oynayacaqdır.

Elə birinci dərsdən müəllim şagirdlərə anlatmalıdır ki, «fone» yunan sözüdür, mənası isə «səs» deməkdir. Fonetika dilimizin səs tərkibini öyrənir. Şagirdlərə izah olunmalıdır ki, eşitdiyimiz hər səs (maşın səsi, yağışın səsi, yerə düşən hər hansı bir əşyanın səsi və s.) fonetika deyil. Fonetika yalnız danışıq səslərini əhatə edir. Bu zaman müəllimin gündəlik həyatda işlədilən və səslə bağlı olan telefon, maqnitofon kimi sözləri şagirdlərin yadına salıb bu sözlərin mənasını izah etməsi yerinə düşər.

Şagirdlər bu məsələni anlamalıdırlar: insanda o vaxt fikir əmələ gəlir ki, onu ifadə etməyə söz də vardır. Sözsüz fikirləşmək də mümkün olmaz. Sözlər danışıqda səslərlə, yazıda isə hərflərlə ifadə olunur.

Bəs səslər necə yaranır? Müəllim ilkin olaraq şagirdləri danışıq səslərini yaradan üzvlərlə tanış etməlidir. Ağ ciyərlər, nəfəs borusu, səs telləri, dil, dodaqlar, dişlər, burun boşluğu danışıq səslərinin əmələ gəlməsində iştirak edir.

Səslərin yaranmasını praktik şəkildə öyrətmək məsləhət görülür. Şagirdlər ilk olaraq sözdən səsləri ayırmağı öyrənir, onların tələffüzündə ağız boşluğunda olan maneələri, həmin

səslərin deyilməsində hansı danışıq üzvlərinin iştirak etməsini tapıb göstərirlər. Müəllim təcrübə əsasında şagirdlərə anladır ki, tələffüz zamanı səslərin bəzisi ağız boşluğunda müəyyən maneələrə rast gəlirsə, digərləri heç bir maneəyə toxunmadan asanlıqla tələffüz olunur. Məhz bu xüsusiyyətə görə də səslər sait və samit olmaqla iki yerə bölünür.

Müəllimin tapşırığı ilə şagirdlər səsləri tələffüz edib, onların sait və ya samit olduğunu göstərirlər. Şübhəsiz ki, bu zaman onlara ibtidai sinifdə öyrəndikləri biliklər yardımçı olacaqdır.

Sait və samitləri fərqləndirə bilən şagirdlər daha sonra onların bölgüsü ilə tanış olurlar. Müəllim dilin, dodaqların və alt çənənin vəziyyətinə görə saitlərin növlərini, səs tellərinin vəziyyətinə görə isə samitlərin növlərini misallar vasitəsilə izah edir. Bu məqsədlə əyani vəsaitdən (məsələn, sxemdən) istifadə etmək məqsədəuyğundur.

Dilin vəziyyətinə görə saitlərin bölgüsünü (qalın və incə) öyrəndikdən sonra növbəti mövzunu – ahəng qanununu anlamaq şagirdlərə çətinlik törətmir. Dərslikdə ahəng qanununun tərifi belə verilir: sözdə qalın və ya incə saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilir. Qalın və incə saitləri öyrənən şagirdlər ahəng qanunua görə sözdə onların bir-birini izləməsinə diqqət yetirirlər: **a**-n**a**-l**a**-**rı**n, ç**i**-çək-lər-dən, **ə**s-gə**r**-lə**r**.

Müəllim onu da qeyd etməlidir ki, şəkilçilər sözə onun son hecasının ahənginə uyğun olaraq artırılır. Məsələn, ki-t**a**b-d**a**, Na-d**i**r-dən, i-l**a**n-l**a**r və s.

Samit səslər səs tellərinin iştirakına görə iki cür olur: kar və cingiltili. Həm kar, həm də cingiltili samitlər tələffüz zamanı ağız boşluğunda müəyyən maneəyə rast gəlirlər. Lakin kar samitlərin tələffüzü zamanı səs telləri iştirak etmir, səs ancaq küydən ibarət olur. Cingiltili samitlər tələffüz edilərkən səs telləri titrəyir və küylə bərabər avaz yaranır. Deyilənlərin yaxşı anlaşılması və yadda qalması üçün bu sxemdən istifadə etmək olar:

Kar samitlər	ş	f	x	k	p	s	ç	t	h	k′	-	-	-	-	x′
Cingiltili samitlər	j	v	ğ	g	b	z	c	d	-	q	l	m	n	r	y

Xüsusi diqqət yetiriləcək məsələlərdən biri də sait və samitlərin tələffüzü məsələsidir.

Müəllim izah etməlidir ki, saitlərin deyilişində əsas yeri onların uzun tələffüz edilməsi tutur və dilimizdə işlənən müəyyən sözlərdə müxtəlif saitlər uzun tələffüz olunur. Yazı lövhəsində saitlərin uzun tələffüzünə aid misallar yazılır və şagirdlərin iştirakı ilə bu misalların sayı artırılır:

№	**Yazılır**	**Tələffüz edilir**
1.	Nadir	[N a: d i r)
2.	alim	[a: l i m)
3.	sakit	[s a: k i t)
4.	razı	[r a: z ı)
5.	saat	[s a: t)
6.	dovşan	[d o: ş a n)
7.	nümunə	[n ü m u: n ə)
8.	mətbəə	[m ə t b ə:)
9.	əla	[ə: l a)
10.	elan	[e: l a n)
11.	Nəsimi	[N ə s i: m i)
12.	şölə	[ş ö: l ə)
13.	maaş	[m a: ş)
14.	narahat	[n a: r a h a t)

Müxtəlif samitlərin tələffüzünə aid də yuxarıdakı qaydada nümunələr yazmaq olar:

№	Yazılır	Tələffüz edilir
1.	çörək külək	[çörəy) [küləy)
2.	kanal kadr	[k'anal) [k'adr)
3.	içdi Üçtəpə	[işdi) [Üştəpə)
4.	əlbəttə hətta	[əlbətdə) [hətda)
5.	xəstə kəskin	[xəsdə) [kəsgin)
6.	dərd savad	[dərt) [savat)
7.	ağac çəkic	[ağaç) [çəkiç)
8.	corab cavab	[corap) [cavap)
9.	nəhəng pələng	[nəhənk) [pələnk)
10.	zənbil sünbül	[zəmbil) [sümbül)
11.	nöqsan məqsəd	[nök'san) [mək'səd)
12.	saqqal qonaqlar	[sakqal) [qonaxlar)

Bu sözlər izah olunarkən müəllim şagirdlərin diqqətinə onu da çatdırmalıdır ki, yazıda və tələffüzdə səs və hərflərin sayı fərqli ola bilər. Məsələn: növbə sözündə 5 hərf, 4 səs, saat sözündə 4 hərf, 3 səs, ailə sözündə 4 hərf, 5 səs, dostluq sözündə 7 hərf, 6 səs vardır.

Sözlərin deyiliş və yazılışını bir-biri ilə qarşılaşdırmaq şagirdlərin daha çox mənimsəyə biləcəkləri ədəbi tələffüz normaları səviyyəsində verilməlidir. Müəllim şagirdlərə sözləri kitab dilində tələffüz etməməyi tövsiyə etməlidir. Yəni, Moskva sözündə «o» hərfi varsa, tələffüzdə [a) səsi vardır və bu səsi «o» kimi tələffüz etmək düzgün deyildir.

Ədəbiyyat dərslərində də şagirdlərin diqqəti bu məsələyə yönəldilməlidir.

Müəllim dilin fonetik qanunauyğunluqlarını göstərməklə Azərbaycan dilinin səs tərkibini anlamaq, onu dərk etmək işində şagirdlərə yardımçı olur.

İbtidai sinifdən şagirdlərin heca haqqında məlumatları vardır. V sinifdə bu biliklər təkrar edilməli və bəzi yeni məlumatlar əsasında genişləndirilməlidir.

Müəllim göstərməlidir ki, heca sözlərin asanlıqla hissələrə bölünməsi deməkdir. Sözdə neçə sait varsa, o qədər də heca olduğu misallarla izah edilməlidir. Şagirdlər bilməlidirlər ki, Azərbaycan dilində bir, iki, üç və çoxhecalı sözlər var. Şagirdlərin fəal iştirakı ilə müxtəlif hecalı sözlər söylənilir: ot, qol, baş, gül, a-na, bi-bi, za-man, bə-növ-şə, Mə-di-nə, A-zər-bay-can, ə-da-lət-siz-lik, za-bi-tə-li, is-ti-qa-mət-lən-di-ril-miş və s.

Heca öyrədilərkən onu da bilmək vacibdir ki, sözlər hecalara bölünüb sətirdən-sətrə keçirilərkən tək hərfi sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz. A-ta, a-na, ü-tü, o-taq sözləri bu qəbildəndir. Müəllim eyni zamanda bir sıra sözlərin sətirdən-sətrə keçirilmə qaydaları haqqında da şagirdlərə izahat verməli və onları nümunələr üzərində işlətməlidir. Bununla əlaqədar tapşırıqlar, çalışmalar da hazırlamaq olar.

Bu cür tapşırıqlar üzərində işlədikdən sonra şagirdlər sözlərin sətirdən-sətrə keçirilməsi qaydalarına asanlıqla yiyələnirlər.

«Çünki sözlərin sətirdən-sətrə keçirilməsi qaydaları başlıca olaraq hecalara əsaslanır. Bu qaydalar sistem halında öyrədilməli, bunun üçün təmrinlər aparılmalı və öyrədici yazılardan istifadə olunmalıdır» (1, 349).

Müəllim bu tip yazılardan istifadə zamanı sətirdən-sətrə keçmək işində şagirdlərin buraxdıqları nöqsanları müəyyən etməli və düzgün variantı onların nəzərinə çatdırmalıdır.

Vurğu mövzusunun tədrisində şagirdlərə Azərbaycan dilinin türk dilləri ailəsinə aid olduğunu və bu dillərdə vurğunun əsasən, sözün son hecasına düşdüyünü xatırlatmaq məqsədəuyğundur. Əvvəlcə vurğunun ümumi tərifi şagirdlərin nəzərinə çatdırılmalıdır.

«Sözdəki hecalardan və cümlədəki sözlərdən birinin başqalarına nisbətən ucadan (qüvvətli) deyilməsi vurğu adlanır» (2, 104).

Sözlərin düzgün tələffüzündə vurğunun rolu böyükdür. Şagirdlər bilməlidirlər ki, dilimizdə başqa dillərdən keçən sözlər də vardır və bu sözlərdə vurğu ilk, eyni zamanda orta hecaların üzərinə düşə bilər.

Vurğusu müxtəlif hecaların üzərinə düşən sözlərə aid misallar göstərilməli və onlar düzgün tələffüz olunmalıdır. Məsələn:

Vurğusu birinci hecada olan söz: A'-si-ya

Vurğusu ikinci hecada olan söz: Av-ro'-pa, av-to'-bus

Vurğusu üçüncü hecada olan söz: mor-fo-lo'-gi-ya

Müəllim vurğunun böyük rolundan danışarkən göstərməlidir ki, vurğunun yerini dəyişməklə söz tamam başqa məna ifadə edə bilər. Məsələn, alma' (meyvə), a'lma (inkar forma da olan feil); şaxta' (soyuq), şa'xta (mədən).

Əlifba haqqında məlumat verərkən müəllim onun ərəb sözü olduğunu qeyd etməli və göstərməlidir ki, «hər bir fonoqrafik yazıda işlədilən hərflərin cəminə və bunların müəyyən düzülüşünə əlifba deyilir. Əlifba termini ərəb əlifbasının birinci (əlif) və ikinci (ba) hərflərinin adlarının birləşməsindən əmələ gəlmişdir» (3, 703).

Müəllim «əlifba» termininin izahından və tərifindən sonra şagirdlərə onu da başa salmalıdır ki, əlifba hərflərin müəyyən sıra ilə düzülüşü deməkdir. Əlifbada hər bir hərfin adı var. Məsələn, [b) səsini bildirən hərf «be», [l) səsini bildirən hərf «el» və s. Adlanır. Saitlərdə isə hərfin və səsin adı eynidir. Müəllim çalışmalıdır ki, şagirdlər hərflərin düzülüşünü öyrənsinlər, yadda saxlasınlar. Onlara izah olunmalıdır ki, eyni hərflə başlanan sözləri əlifba sırası ilə yazdıqda onların ikinci hərfi nəzərə alınır, ikinci hərf də eyni olduqda üçüncü hərf əsas götürülür. Məsələn: ana, ata, Azad, Fəridə, fəsil, fəza və s.

Şagirdlərə əlifbanın tarixi haqqında da məlumat vermək onların dünyagörüşünü zənginləşdirər.

Fənn müəllimi şagirdlərin sərbəst işləmələri üçün onlara müəyyən sözləri fonetik təhlil etməyi tapşıra bilər. Müəllim fonetik təhlildən öncə şagirdlərə fonetik transkripsiya anlayışı barədə məlumat verməlidir.

«Dildəki səsləri və səs variantlarını dəqiq surətdə yazıya köçürmək üçün istifadə edilən xüsusi hərflər işarələr sistemi ümumiləşmiş halda fonetik transkripsiya adlanır. «Transkripsiya» sözü isə latınca trans (köçürmə) və sriptio (yazı) sözləri tərkibindən dizəldilmiş bir termindir. Mənası da sözləri yazıda deyilişinə daha uyğun əksetdirmə üsulu deməkdir» (4, 12).

Bunun ardınca fonetik təhlilin aparılma qaydası şagirdlərin nəzərinə çatdırılmalıdır:

1. Sözün səs və hərf tərkibinin müqayisəsi
2. Sözün hecalara bölünməsi
3. Sözün vurğusunun qoyulması
4. Sözün ahəng qanununa tabe olub olmaması
5. Səslərin növləri və əsas xüsusiyyətlərinin göstərilməsi.

Şagirdlərə bir daha aydın olur ki, fonetik təhlil hərflərə görə yox, səslərə görə aparılır.

Fonetika bəhsinin tədrisi zamanı müəllim müvafiq çalışmalardan, test tapşırıqlarından, əyani vəsaitlərdən, təqdimatlardan istifadə edə bilər.

Ədəbiyyat

1. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, ADPU, 2003, 425 s.
2. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, Nurlan, 2003, 450 s.
3. Qurbanov A.M. Ümumi dilçilik. I cild (2 cilddə). Bakı, Nurlan, 2004, 748 s.
4. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. I hissə. Fonetika,Ö orfoepiya, orfoqrafiya. Bakı, Şərq-Qərb, 2007, 253 s.
5. Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Maarif, 1978, 325 s.

6. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Qismət, 2014, 380 s.
7. Qasımov İ.Z., Əliyeva S.F. Azərbaycan dili. Bakı, Naksuana, 2006, 340 s.

З.Г.Джабраилова

Некоторые вопросы обучения фонетике

Резюме

Фонетика, как раздел языкознания, изучает звуковую систему языка. Этот раздел должен дать учащимся понимание различия звука и буквы, правописания и орфоэпии, сравнение письменного и устного литературного языка, их взаимосвязи, отношения. Преподавание фонетики должно стать для учащихся своеобразным фундаментом в развитии орфоэпических привычек. Первичные сведения о разделе фонетика даются учащимся в начальной школе. Обширное, подробное объяснение этой проблемы относится к V классу. Учитель, преподающий фонетику, первый раздел языкознания, должен быть ответственным в своей работе, стремиться к сознательному овладению фонетикой учащимися.

Z.H.Jabrayilova

Some issues of teaching phonetics

Summary

Phonetics, as a branch of linguistics, studies the sound system of language. This sphere of science should help students understand the difference between sounds and letters, orthography and orthoepy, the comparison of written and oral literary language, their interrelation and relationship. The teaching of phonetics should be a kind of basis for the development of orthoepic skills of students.Preliminary information about phonetics is given to students in primary school. A detailed explanation of this discussion begins in the 5th grade. A teacher who teaches phonetics, the first subdivision of linguistics, must be responsible in his work and try to teach phonetics to students consciously.

Rəyçi: prof. İ.Z.Qasımov

Redaksiyaya daxil olub: 24.05.2022

A.Q.ƏHMƏDOV
magistr

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr., 429)

MƏKTƏBDƏ ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *pedaqoji peşəyönümü, pedaqoji proses, əlbir fəaliyyət, tərbiyə, mənimsəmə.*
Ключевые слова: *педагогическая профессиональная ориентация, педагогический процесс, совместная деятельность, воспитание, усвоение.*
Key words: *teacher professional orientation, the pedagogical process, the joint activity, upbringing, learning.*

Məktəblini dərindən öyrənmək, onların peşə meylini, maraq və qabiliyyətlərini müəyyənləşdirməkdə müəllim valideynlərin köməyinə arxalanır. Uşağı ata-anadan yaxşı tanıyan yoxdur və onun gələcək taleyi də heç kəsi valideynlər qədər maraqlandırmır. Buna görə də təlim sahəsində olduğu kimi tərbiyə sahəsində də müəllimin gördüyü hər bir iş valideyn tərəfindən müdafiə olunmalıdır. Bu, eynilə məktəbin apardığı peşəyönümü işinə də aiddir.

Müəllim valideynlərə şagirdlərin maraq göstərdiyi başlıca sahələr, onların məktəbdəki tədris və ictimai fəaliyyəti, peşəyönümü ilə bağlı məktəbdə aparılan işlər barəsində məlumat verməli, onlara övladlarının seçdikləri peşənin düzgün olması fikrini təlqin etməli, uşaqlarını daha da həvəsləndirməyə istiqamətləndirməlidir. Xüsusilə müəllimlik peşəsini seçmək istəyən şagirdlərin valideynləri ilə iş diqqət mərkəzində dayanmalıdır. Çünki son zamanlar müəllim nüfuzunun aşağı düşməsi ilə əlaqədar olaraq bir çox valideynlər müəllimlik peşəsinə meyl göstərən övladlarını bu arzudan uzaqlaşdırmağa çalışır, onları zorla istəmədikləri peşəni seçməyə məcbur edirlər. Nəticə isə çox acınacaqlı olur. Həyatda öz yerini tapa bilməmək hər bir gənc üçün çox böyük fəlakətə çevrilir. Bu isə iqtisadiyyatın geriliyi, cəmiyyətin maddi və mənəvi sarsıntısı, hər bir mütəxəssis üçün dövlətin sərf etdiyi vəsaitin havaya sovrulması deməkdir. Təəssüf ki, bu gün də məktəblərimizdə pedaqoji fəaliyyətə heç bir fitri qabiliyyəti, marağı olmayan müəllimlər çalışırlar. Onlar bir yox, bir neçə nəsli küt, savadsız və korafəhim böyüdürlər.

Valideynlərlə aparılan sorğulardan belə bir cəhət diqqəti cəlb edir ki, onların əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Bizim fikrimizcə, şagirdlərin müəllim peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Müşahidələr göstərir ki, valideynlər kiçik yaşlarından qızları həmin peşələrə daha çox rəğbətləndirirlər. Son dərəcə maraqlı olan bu sosial-psixoloji fenomeni nə ilə izah etmək olar? Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar ailə tərbiyəsinin bütün sahələrində, o cümlədən peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu hər şeydən əvvəl qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Respublika Statistika İdarəsi Demoqrafiya laboratoriyasının apardığı tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların miqdarı azalır, başqa sözlə azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqların hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. "Uşağın kələcəyini" özləri vaxtında həll etmək istəyirlər. Onu, bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edirlər. Bəs bu peşə modelində müəllimlik peşəsi hansı yeri tutur?

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi səciyyələndirən təsəvvürlər geniş yayılmışdır. Bu təsəvvürlərin bərqərar olmasında analar

xüsusilə fərqlənirlər. Bəs valideynlərin müəllimlik peşəsinə münasibətinin dəyişməsi nə ilə əlaqədardır?

Son illərdə müəllimlik mahiyyətcə kütləvi peşəyə çevrilmiş, onun əhəmiyyəti bilavasitə nəsillərin varisliyində və elmi-texniki tərəqqinin inkişafında oynadığı rola görə deyil, daha çox rentabellik dərəcəsinə görə qiymətləndirilməyə başlanılmışdır. Bu zəmində də müəllimlik barəsində yeni stereotiplər formalaşmış və o ən çox qadın peşəsi kimi qiymətləndirilmişdir.

Müasir dövrdə valideynlər peşələrə daha çox güzəran psixologiyası baxımından yanaşırlar. Müəyyən edilmişdir ki, valideynlərin üçdə iki hissəsi uşaqların nə ilə maraqlandıqlarını bilmir.

Bəs peşəseçmə kimi vacib dövlət əhəmiyyətli bir məsələyə düzgün yanaşmaqda məktəb valideynlərə hansı aspektdə kömək göstərə bilər?

Təcrübə göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək tələb olunur. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, onlara uşaqların peşəseçmə işi ilə bağlı düzgün istiqamət vermək məktəbin qarşısında duran başlıca vəzifələrdəndir. Çünki valideynlər öz uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdir. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valvdeynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək lazımdır. Bəzən peşə yararlığı sahəsində məlumatsızlıq bizim hamımıza çox baha başa gəlir. Ona görə də şagirdlərin fərdi xüsusiyyətlərinin və keyfiyyətlərinin aşkara çıxarılmasında, bu keyfiyyətlərin seçilmiş peşənin tələblərinə cavab verib-vermədiyini müəyyənləşdirməkdə məktəbin valideynlərə köməyi zəruridir.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif həlqədir. İlk baxışdan hər şey öz qaydasında görünür: indi məktəblərə təşkilatların nümayəndələri daha tez-tez təşrif gətirir, şagirdlərin maraqlarına müvafiq dərnək və fakultativlər, müəssisələrə ekskursiyalar təşkil edilir, qəzet səhifələrində təhsil və işlə təmin olunma ilə bağlı elanlar tez-tez dərc edilir.

Lakin bütün bunlara baxmayaraq, peşələr haqqında şagirdlərin məlumatları istənilən səviyyədə deyildir. Bu işdə məktəblə yanaşı, valideynlər də öz imkanlarından tam istifadə etməlidirlər.

Məktəbin valideynlərlə apardığı peşəyönümü işinin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. Valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;

2. Şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması.

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq məktəbdə valideynlərlə iş planı tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd - peşəyönümü işində valideynləri müəllimlərin, şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir.

Sinif rəhbəri valideyn komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin uçotunu və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir: qrup və fərdi şəkildə aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə silahlandırmaq üçün təşkil edilən pedaqoji lektoriyalar və s.

Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada fərdi və qrup şəklində təşkil edilə bilər.

Fərdi iş formalarına: valideynlərlə söhbətlər; hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər; həkim məsləhəti aiddir.

Qrup şəklində aparılan iş formalarına:

– uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi, uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi, peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər; valideyn konfransları; valideyn yığıncaqları; peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr.

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla bitməyib, məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini tələb edir.

Ədəbiyyat

1. Qaralov Z.İ. və b. Məktəbdə peşə oriyentasiyası üzrə iş. –B.: Maarif, 1974. – 207 s;
2. Qaralov Z.İ., Hüseynov Ə.M. Məktəblilərdə peşələrə maraq və meyllərin yaranmasına təsir edən amillər. -B.: Maarif, 1976. – 82 s.,
3. Qaralov Z.İ., Hüseynov Ə.M. Bütün peşələr yaxşıdır, istədiyinizi seçə bilərsiniz. –B.: Maarif, 1979. – 112 s.
4. Məhərrəmov Ə.M. Azərbaycanda pedaqoji kadr hazırlığının inkişaf tarixi (1961-1981-ci illər). – B.: ADPU, 1998. –150 s.

А.К.Ахмедов

Особенности оргонизации педагогической профориентации учащихся в школе

Резюме

В статье исследуется педагогическая профориентации учащихся. Устанавливаются проблемы возникающие в этом процессе и выявлены пути их решения. Определяется роль совместной работы педагогического коллектива с родителями. Это положительно влияет на педагогический процесс.

Статья может быть полезна в работе учителей - практиков и исследователей. Текст статьи позволяет повысить качество обучения.

A.G.Ahmadov

Joint activities of schools the educational professional orientation of students

Summary

This article examines educational vocational guidance of students. Installed, the problems encountered in this process and identify ways to address them. Defines the role of the teaching staff work together with parents. This has a positive effect on the educational process.

The article may be useful in the work of teachers - practitioners and researchers. Text of the article to enhance the quality of learning.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 25.05.2022

A.H.ƏLİYEVA
e-mail: aliyevaalmaz1518@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBDƏ SOSİAL PEDAQOQUN VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ ÜZRƏ APARDIĞI İŞİN FORMALARI

Açar sözlər: *vətəndaşlıq tərbiyəsi, tərbiyə nəzəriyəsi, ailə tərbiyəsi, sinifdənxaric iş, şagird şəxsiyyəti.*
Ключевые слова: *воспитание гражданства, теория воспитания, семейное воспитание, внеклассная работа, личность учащихся.*
Key words: *education citizenship, theory of education, family education, class work, the identity of students.*

Kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi sistemində mühüm əhəmiyyət daşıyan komponentlərdən biridir. Tədqiqat işinin predmetinə ailədə uşaqların vətəndaşlıq tərbiyəsi prosesi daxil olduğundan məktəbdə tərbiyə prosesini xüsusi olaraq izləməyi qarşımıza məqsəd qoymamışıq. Ailədə uşaqların vətəndaşlıq tərbiyəsinin səmərəliliyini artırmaq məqsədi ilə ailənin məktəblə qarşılıqlı əlaqəsinin təsir dairəsini müəyyənləşdirmiş, məktəblə ailənin problem baxımından qarşılıqlı əlaqəsinin təqdim etdiyimiz iş sisteminə daxil olan forma və yollarının səmərəliliyini üzə çıxarmağa çalışmışıq.

Uşaq məktəbə daxil olduqdan sonra onun həyatının yeni mərhələsi başlayır. Xüsusilə uşağın təlim fəaliyyətinə başlaması ilə məktəb onun həyatının mərkəzinə çevrilir. Məktəbdəki uşaq kollektivi, müəllimin şəxsiyyəti, onun baxışları, söhbətləri, qarşılıqlı münasibətlər şagirdlərin dərslərdə aldıqları biliklər, məktəbdə keçirilən müxtəlif sinifdənxaric tərbiyəvi tədbirlər və s. bütün bunlar kiçik məktəblinin tərbiyəsi və inkişafına, o cümlədən vətəndaşlıq hazırlığına çox böyük təsir göstərir.

Məktəbdə formalaşdırılan düzgün davranış, bacarıq və vərdişlərin ailədə daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsi üçün mühüm əhəmiyyət kəsb edir. Ailə və məktəbin tələblərdə vahidliyi, razılıqlı və qarşılıqlı əməkdaşlığı uşaqlara verilən düzgün tərbiyənin başlıca şərtlərindən biridir. Tədqiqatdan müəyyənləşdirdik ki, bu əməkdaşlıq, əlaqə əsasən məktəbin təşəbbüsü ilə həyata keçirilir. Məktəbin valideynlərlə əlaqəsinin müxtəlif mütərrəqi formaları artıq geniş yayılmışdır. Ailənin təşəbbüskar kimi bu sahədə fəaliyyətini öyrənmək məqsədi ilə 50 ailədə (Gəncə şəhərində və ətraf kəndlərdə) anket sorğusu keçirdik.

Valideynlərin əksəriyyəti ya arzusu olmadığına görə, yaxud vaxt ayırmadığına görə məktəblə əlaqə saxlamır. Və ya uşağı məktəbə aparıb-gətirəndə onun müəllimi ilə, necə deyərlər, "at üstü" söhbətlə kifayətlənir. Müəyyən qism valideynlər məktəbin təşəbbüsü ilə olan tədbirlərdə iştirak edir, çox az qism valideynlər isə öz təşəbbüsü ilə məktəblə, müəllimlə əlaqə saxlayır, oradakı tədbirlərlə tanış olur, pedaqoji biliklərə yiyələnir və uşağın tərbiyəsində, o cümlədən vətəndaşlıq tərbiyəsində tələblərdə vahidliyi gözləyirlər. Beləliklə, öyrənilən ailələrin cəmi 35%-i tərbiyə işini məktəblə qarşılıqlı əlaqədə qurduğunu qeyd etmişdir.

Təcrübi-eksperimental öyrənmə məqsədi ilə həmin 50 ailənin uşaqlarının oxuduqları məktəblərlə birlikdə valideynlərin hamılıqla iştirakı və əlaqəsini təmin edən, onları pedaqoji biliklərlə tərbiyə sənəti ilə silahlandırmağa imkan verən iş planı hazırladıq. Müxtəlif iş formalarından istifadə edildi. Valideynlərlə bir illik ardıcıl, planlı, sistemli aparılan tədbirlərdən sonra tədricən ailə ilə məktəb arasında iş üslubu formalaşdı. Bu müddətdə, əlbəttə, məktəb də öz işini canlandırdı, yenidən qurdu. Tədqiqat göstərdi ki, ailədə tərbiyəvi təsirlərin səmərəliliyi xeyli dərəcədə məktəbin bu işdə iştirakından asılıdır və valideynlərin məktəblə əlaqəsinin zəifliyinin əsas günahkarı başlıca olaraq elə məktəbin özüdür.

Tədqiqat nəticəsində müəyyənləşdirdik ki, valideynlərin məktəblə əlaqəsini gücləndirmək, valideynlərin arzusunu nəzərə alaraq hər hansı tərbiyəvi sahədə, tutaq ki, bizim öyrəndiyimiz vətəndaşlıq tərbiyəsi üzrə ailədə səmərəliliyi artırmaq üçün məktəb pedaqoji cəhətdən öz rəhbər rolunu həmişə yerinə yetirməlidir. Bütün valideynləri bu işə səfərbər etməli, hazırlamalıdır. Tərbiyə işinə həvəs göstərən, yaxud məktəblə müntəzəm əlaqə saxlayan, ailədə vətəndaşlıq tərbiyəsinə diqqət yetirən beş-on ailə ilə ümumi vətəndaşlıq tərbiyəliliyi səviyyəsinə nail olmaq mümkün deyildir. Ona görə də biz ilkin olaraq məktəbin ailə ilə problem baxımından işinin təşkilini həyata keçirdik. Məktəb pedaqoji kollektivlərinin valideynlərlə əlaqəli işini məlum iki istiqamətdə həyata keçirdik: fərdi və kollektiv. Bu istiqamətlərdə aparılan işlərin müxtəlif formalarından istifadə edildi. Məsələn, gənc valideynlər üçün "Pedaqoji bilik klubu" təşkil edildi, valideynlər üçün hüquqşünasların, iqtisadçıların, pedaqoqların söhbətləri təşkil edildi, uşaqların hərəkətləri vətəndaşlıq tərbiyəsi baxımından valideynlər qarşısında müəllimlər tərəfindən təhlil edildi, valideynlərə Azərbaycan torpaqlarının bir hissəsini işğal edən erməni təcavüzkarlarının törətdikləri hərəkətləri əks etdirən filmlər göstərildi, milli qəhrəmanlarla görüşlər keçirildi, şagirdlərin evlərinə gedib ailəyə uşaqların vətəndaşlıq tərbiyəsinə aid olan məsləhətlər verildi və s.

Valideynlərlə fərdi işin müntəzəm və məzmunlu aparılması problem baxımından xüsusi əhəmiyyət təşkil edir. Tədqiqatdan müəyyənləşdirdik ki, bu, ayrı-ayrı valideynlərlə adicə söhbət kimi olmamalıdır. Mürəkkəb və rəngarəng olan bu işi müəllim planlı, sistemli olaraq qurmalı, hər bir fərdi görüşün nəticə verməsinə irəlicədən düşünüb-daşınıb cəhd göstərilməlidir. Fərdi iş müəllimin valideynlə fərdi görüşü formasında olduğu kimi, valideynin də müəllimə müraciətində öz əksini tapa bilər. Hər iki halda müəllim valideynin ən yaxşı məsləhətdaşına çevrildikdə vəziyyət daha aydın aşkarlanır və ona çarə qılmaq asanlaşır. Belədə valideyn öz problemləri, çətinlikləri, hətta heç kəsə söyləmədiyi ailədaxili münasibətləri barəsində müəllimlə "dərdləşir", necə deyərlər, ailə mətbəxində nə varsa açır, tökür. Bu halda müəllim ailədəki vəziyyəti, ailə üzvlərinin hərəkət və davranışlarını dəqiq təsəvvür edə bilir, ona görə də problemə düzgün pedaqoji-psixoloji mövqedən yanaşmaq imkanına malik olur. Lakin burada inam doğuran bir şərt nəzərə alınmalıdır. Gərək fərdi söhbətin məzmunu yalnız valideynlə müəllim arasında qalsın, uşağa, ya kiməsə çatdırılmasın.

Valideyn əmin olmalıdır ki, müəllimə etibar edərək onunla uşağın hərəkəti, davranışı və s. haqqında danışdıqları müəllim tərəfindən yerli-yersiz uşaq üçün xatırlanmayacaq və anaya qarşı narazılıq doğurmayacaq. Təcrübi işi müşahidə edərkən bu cür faktlarla qarşılaşmışıq. Müəllim uşağın davranışından narazı qalarkən onu danlayır və əlavə edib deyir ki, elə anan da sənin evdə pintiliyindən gileylənirdi. Belə yanaşma, əksinə, uşaqda valideynə qarşı narazılıq yaradır və ümumiyyətlə işə fayda vermir. Valideynlə söhbətdən uşağın evdəki, ailədəki hərəkət və davranışının necəliyini öyrənən müəllim yalnız özü üçün qeydlər götürür, uşağın məktəbdəki davranışı və fəaliyyəti haqqında valideynə məlumat verir, tələblərdə vahidliyi gözləmək üçün birlikdə təsir mövqeyi müəyyənləşdirirlər.

Valideynlərin müəllimlə fərdi işinin və yaxud əksinə (müəllimlə valideynin) bir səmərəlilik doğuran şərti də müəllimin, yaxud valideynin sözü ilə əməlinin bir olmasıdır. Əgər valideyn müəllimə uşağın səhhəti ilə əlaqədar (unutqan olması, dözümsüzlüyü, qan azlığı, ürək qüsuru və s.) məlumat verir, bunun nəzərə alınmasını və ya aradan qaldırılması üçün təmrinlərdən istifadə edilməsini xahiş edirsə, müəllim bu tələbi yerinə yetirməlidir. Əgər söz verib icra etməzsə, valideynin inamsızlığına səbəb olar, nəticədə fərdi iş ya baş tutmaz, ya da nəticəsiz qalar.

Təcrübi müşahidələr zamanı valideynlərin müəllimdən fərdi olaraq uşağının görməsi ilə əlaqədar partada yerinin dəyişdirilməsini, yaxud tez-tez soruşulmasını, yaxud uşaqla münasibətdə yumşaq və ya sərt olmağı, küsəyənliyinin nəzərə alınmasını və s. xahişlərin edildiyinin şahidi olmuşuq. Valideyn şıltaqlığından irəli gəlməyən bütün məlumatlar nəzərə alındıqda, xahişlər yerinə yetirildikdə valideyn-müəllim fərdi işi uğurlu olur. Müəllimə valideynin ina-

mı, şagirdlərin həm məktəbdə, həm ailədə hörmət və tələbkarlıqla, tələblərdə vahidliklə tərbiyə edilməsi onun əsl vətəndaş kimi formalaşmasına şərait yaradır, uşaq düzgün vətəndaşlıq dərsləri alır.

Ədəbiyyat

1. Abbasov A.N. Ailə pedaqogikası. Dərslik. – Bakı: Mütərcim, 2019.
2. Əliyev A.B. Yuxarı sinif şagirdlərində vətəndaşlıq ləyaqəti tərbiyəsi üzrə işin təşkili yolları. Nam. diss. – Bakı, 1996.
3. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Seçilmiş əsərləri. III cild. – Bakı: OKA Ofset, 2012.
4. Qaralov Z.İ. Tərbiyə. 3 hissəli. – Bakı: Ünsiyyət, 2003.

А.А.Алиева

Формы организации работ соспедагогов по воспитанию гражданства в школе

Резюме

В статье исследуются возможности воспитания гражданства у детей младшего возраста, выясняются пути реализации этих возможностей. Устанавливается, что посредством игр, семейных трудов, семейных бесед можно прививать воспитание гражданства у детей младшего возраста. Статья значима в работе педагогов-исследователей и учителей практиков.

A.H.Aliyeva

Forms of the organization of work of sospedagog on the education of itizenship at school

Summary

The article investigates the possibility of citizenship education for young children, it turns out the realization of these opportunities. It is stated that through the games, family papers, family conversations can instill citizenship education for young children. The article is significant in the work of teachers, researchers and teacher practitioners.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 25.05.2022

M.İ.ƏMRAHOV
tarix elmləri doktoru, professor
e-mail: emrahov48@mail.ru

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

M.M.ƏMRAHOVA
baş müəllim

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Ə.Rəsulzadə küç., 305)

44 GÜNLÜK MÜHARİBƏ DÖVRÜNDƏ "ƏSGƏRƏ MƏKTUB!" LAYİHƏSİNDƏ MƏKTƏBLİLƏRİN İŞTİRAKI

Açar sözlər: *Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi, təhsil sistemi, "Əsgərə məktub!" layihəsi*
Ключевые слова: *Первая Карабахская война, Отечественная война, система образования, проект "Письмо солдату!"*
Key words: *The First Karabakh War, the Patriotic War, the education system, "Letter to the Soldier!" project*

I Qarabağ müharibəsi dövründə Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağda 693 məktəb, 855 uşaq bağçası dağıdılmışdır. İşğala qədər Şuşada 7 məktəbəqədər uşaq müəsssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, Laçında 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər təhsil müəssisəsi, 5 musiqi məktəbi, 1 internat və 1orta texniki peşə məktəbi, Ağdam rayonunda 34 uşaq bağçası və körpələr evi, 89 ümumtəhsil məktəbi, Kəlbəcər rayonunda 2 məktəbəqədər müəssisədə 70 uşaq tərbiyə alır, 8 ibtidai, 43 səkkizillik, 26 orta məktəbdə 12 min şagird oxuyurdu. Qubadlı rayonunda işğala qədər fəaliyyət göstərən 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisələrində çalışan 1280 nəfər müəllimin 925 nəfəri ali təhsilli idi. Zəngilan rayonunda işğaldan əvvəl 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki peşə və musiqi məktəbi vardı. Füzuli rayonunda vaxtilə mövcud olmuş 86 və Cəbrayıl rayonlarındakı 73 məktəb hazırda Azərbaycanın müxtəlif rayonlarında fəaliyyət göstərmişdir. Ermənilər tərəfindən həyata keçirilən separatçı fəaliyyət nəticəsində Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonlarda yerləşən 6 peşə təhsili müəssisəsinin fəaliyyəti tamamilə dayandırılmış, 5 peşə təhsili müəssisəsi isə müvəqqəti olaraq digər bölgələrə köçürülmüşdür. Müvəqqəti olaraq digər bölgələrə köçürülən peşə təhsili müəssisələri arasında Kəlbəcər, Laçın və Cəbrayıl Peşə Məktəbləri və Füzuli Dövlət Peşə Təhsil Mərkəzi də olmuşdur.

44 günlük Vətən müharibəsi təhsilimizdə yeni itkilərə səbəb oldu. 20 təhsil işçisi döyüşlərdə qəhrəmanlıq və şücaət göstərərək şəhidlik zirvəsinə ucaldı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid təhsil işçilərindən 19 nəfəri "Vətən uğrunda", 7-si "Şuşanın azad olunmasına görə", 3-ü "Füzulinin azad olunmasına görə", 2-si "Xocavəndin azad olunmasına görə", 4-ü "Cəsur döyüşçü", 4-ü "Döyüşdə fərqlənməyə görə", 5-i "Qubadlının azad olunmasına görə", 5-i "Cəbrayılın azad olunmasına görə", 2-si "Laçının azad olunmasına görə", 1 nəfəri "İgidliyə görə", 1 nəfəri "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi. (3)

İşğal altında olan torpaqlarımızın azad edilməsi üçün səfərbərliyə qoşulanlar sırasında 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərdilər. (3) Bakı məktəblərinin 354 məzunu şəhidlik zirvəsini fəth etdi (4). Bakı Şəhər Təhsil İdarəsinin ümumi təhsil məktəblərində çalışan müəllimlərdən 95 nəfəri (onlardan

24-ü fənn müəllimi, 71-i isə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbərdir) hərbi mükəlləfiyyətlə bağlı vəzifələri yerinə yetirmək üçün səfərbərlik xidməti orqanları tərəfindən hərbi toplanışlara cəlb edilmişdir". (6)

44 günlük müharibədə, məktəb infrastrukturuna ciddi ziyan dəydi – 60 təhsil müəssisəsi dağıntılara məruz qaldı. Ermənistanın törətdiyi terror aktlarının ilk qurbanları məktəblilər oldu. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 10 məktəbli həlak oldu, 16 məktəblimiz yaralandı (6). Gəncədə baş verən terror aktı nəticəsində yaralananların 10-u məktəblidən Ömər Mehdiyev Gəncə şəhəri 32 nömrəli tam orta məktəbin 2-ci, Səlim Mustafazadə həmin məktəbin 11-ci, Murad Cavadov 3-cü, Dinarə Muradova 2-ci, Rauf Muradov 4-cü, Hüseyn Əliyev 3-cü, Sevinc Rəhimova 6-cı sinif şagirdləri idilər. Aysu Əliyeva Gəncə şəhəri 20 nömrəli tam orta məktəbin 10-cu, Şəfa və Şəmiddin Şirinovlar 25 nömrəli tam orta məktəbin 6-cı və 7-ci sinfində təhsil alırdılar. (2, s.319)

Lakin müharibə bölgələrindən 100 kilometrlərlə uzaqda olan şəhərlərin raket atşinə tutulması Azərbaycan xalqını, xüsusilə, cəbhəyanı ərazilərin əhalisini qorxutmadı. Bunun əsas səbəbi xalqın prezidentə inamı və güvəni idi. (1)

Arxa cəbhənin ön cəbhə ilə əlaqələrinin möhkəmlənməsində, əsgərlərin arxa cəbhədəki vəziyyətlə tanışlığında və xalq-ordu birliyinin yaranmasında "Əsgərə məktub!" layihəsi mühüm rol oynadı. Bu layihədə məktəblilər xüsusi fəallıq göstərdilər**.** Məktublarda şagirdlər öz arzu və istəklərini bildirir, onlarla qələbə sevinclərini bölüşürdülər. Hər məktub bir məktəblinin ordumuza, ordumuzun əsgərinə səmimi müraciəti, onun vətən sevgisi ilə döyünən ürəyinin diqtəsi idi. Müzəffər ordumuzun qəhrəman əsgərləri işğaldan azad olunmuş torpaqlarda məktəblilərimizin göndərdiyi məktubları oxuyaraq yalnız olmadıqlarını, bütün Azərbaycan xalqının ürəyinin onlarla birlikdə Qarabağda, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Füzulidə, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada döyündüyünü hiss edirdilər.

Şəki şəhər Heydər Əliyev Mərkəzi və Şəki Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin 9 saylı kitabxana filialı, Şəki regional ASAN Xidmət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilən "Əsgərə məktub" layihəsinə qoşulan müəllimlər və məktəblilər Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinə göstərdiyi möhkəm iradəyə görə minnətdarlığını, var gücüylə dəstəyə və döyüşə hazır olduqlarını bildirməklə onlarda ruh yüksəkliyini daha da artırmaq üçün "Əsgərə məktub" layihəsi vasitəsilə Vətənin keşiyində duran əsgərlərimizə ürək sözlərini, mənəvi dəstəklərini öz məktublarında qeyd edirdilər.

Əsgərə yazılan məktubların əsas ideyasını "Pələng ruhu tülkü ruhuna dəyişilə bilməz" ideyası təşkil edirdi. Məsələn, Yusifzadə Ayan Vüqar qızı yazırdı: "Salam, qələbə tarixini yazan Azərbaycan əsgəri! Mən, Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və Təbiət elmləri liseyinin 8-ci sinfində oxuyuram. Biz sizinlə çox qürur duyuruq. Çünki siz Azərbaycan xalqının arzularını yerinə yetirirsiniz. ...Mənim atam şəhid polkovnik Vüqar Yusifovdur.... Atamın ən çox bayraq sancmaq istədiyi yer Kəlbəcər idi. Mən çox istərdim ki, siz Kəlbəcərə bayraq sancanda atamın adını da çəkəsiniz. ...Torpaqlarımızı yağı düşməndən azad edib evinizə, əzizlərinizin yanına, doğma yurdlarınıza sağ-salamat qayıdasınız". (5)

Əsgərə məktub" layihəsi Türkiyə və Rusiya mediasının diqqət mərkəzində idi. Türkiyənin "Haber Global", "CNN Türk", "A Haber", həmçinin Rusiyanın "Pervıy Kanal", "NTV", "Rossiya-1" və "Rossiya-24" telekanalları "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub" layihəsini əks etdirən xüsusi reportajlar hazırlamışlar. Layihə çərçivəsində qəhrəman Vətən övladlarına ünvanlanan mesajlar əks olunub, vətəndaşlarımızın yüksək qələbə əzmində olduqları, tezliklə işğaldan azad olunacaq torpaqlarda Azərbaycan Bayrağının dalğalanacağına əminlik nümayiş olunub. Reportajlarda Silahlı Qüvvələrə Yardım Fondu üzrə ödənişlərin ASAN ödəniş" sisteminə uğurla inteqrasiya olunduğu da diqqətə çatdırılıb. (1)

İnstaqram izləyiciləri və "Əsgərə məktub" layihəsində iştirak edən Qarabağ müharibəsi veteranları, qaziləri və Cəmşid Naxçıvanski adına Hərbi Lisey kursantları cəbhə bölgəsində

döyüş mövqelərində qulluq edən əsgərlərə yazılan məktubları əsgərlər oxuyub və video çəkiliş vasitəsi ilə məktubları cavablandırıblar.

Ölkənin bir çox bölgəsində qurulmuş mobil poçt qutularına axışan azərbaycanlılar 30 ilə yaxındır ki, erməni işğalı altındakı şəhər və kəndləri xilas etmiş əsgərlərə duyğu və sevgilərini göstərirdilər.

Ədəbiyyat

1. "Azərbaycan" qəzeti, 2020, 18 aprel.

2. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru, 27 sentyabr-10 noyabr 2020-ci il). Bakı: ŞƏRQ-Qərb, 2021, 444 s.

3. https://mektebgushesi.az/2021/10/05/44-gunluk-v%C9%99t%C9%99n-muharib%C9%99sind%C9%99-671-mu%C9%99llim-dusm%C9%99n%C9%99-qarsi-vurusub/

4. https://konkret.az/baki-mekteblerinin-sehid-olmus-354-mezunu-ve-20-muellimnin-xatiresi - anildi/

5. https://www.moderator.az/news/357597.html

6. https://telebe.az/mekteb/muharib%C9%99-dovrund%C9%99-t%C9%99hsil-sah%C9%99sind%C9%99-bas-ver%C9%99n-%C9%99sas-hadis%C9%99l%C9%99r-vacib-m%C9%99qamlar/

М.И.Амрахов, М.М.Амрахова

Участие школьников в проекте "Письмо солдату!" во время 44-дневной войны

Резюме

В статье сообщается, что оккупация системы образования в годы Первой Карабахской войны и 44-дневной Отечественной войны нанесла нашему образованию новые потери. Сообщается, что в ходе 44-дневной войны школьная инфраструктура была сильно повреждена: разрушено 60 учебных заведений. В ходе агрессии армянских вооруженных сил погибли десятки школьников. В 44-дневную Отечественную войну студенты приняли активное участие в проекте "Письмо солдату!". 20 педагогов отдали свои жизни, проявив героизм и отвагу в боях за Родину.

M.I.Amrahov, M.M.Amrahova

During the 44-day war, "Letter to the Soldier!" participation of students in the project

Summary

The article informs that the occupation of the education system in the First Karabakh War and the 44-day Patriotic War caused new losses in our education. It is reported, that during the 44-day war, school infrastructure was severely damaged- 60 educational institutions were destroyed. Dozens of schoolchildren were killed in the aggression of the Armenian armed forces. In the 44-day Patriotic War, "Letter to the Soldier!" The students took an active part in the project. 20 teachers gave their lives, showing heroism and courage in the battles for the Motherland.

Rəyçi: tarix.f.d., dos. N.Axundova

Redaksiyaya daxil olub: 14.05.2022

Z.Z.HEYDƏROVA
e-mail: heydarova.zarishh@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

SİNİF RƏHBƏRİNİN FƏALİYYƏTİNDƏ PEDAQOJİ ÜNSİYYƏT MOTİVLƏRİ

Açar sözlər: *sinif rəhbəri, pedaqoji peşəkarlıq, pedaqoji ünsiyyət, pedaqoji səriştəlilik, müəllim – şagird münasibəti.*

Ключевые слова: *классный руководитель, педагогический профессионализм, педагогическое общение, педагогическая компетентность, отношения учитель – ученик.*

Key words: *form master, pedagogical professionalism, pedagogical communication, pedagogical competence, teacher – student attitude.*

Ünsiyyət mədəniyyətinə malik olmaq sinif rəhbərinin peşəkarlığının ən mühüm göstəricilərindən biridir. Pedaqoji ünsiyyətin qeyri-demokratik olması və ya düzgün qurulmaması pedaqoji prosesdə elə boşluqların yaranmasına səbəb olur ki, onu heç nə ilə doldurmaq mümkün olmur. Burada peşəkarlıq və səriştəliliyin mövcud olan izləri də itib gedir. Buna görə də düzgün qurulmuş pedaqoji ünsiyyət sinif rəhbərinin peşəkarlığının əsas alətlərindən biri kimi çıxış edir. Buinunla bərabər, onun düzgün məcrada olması sinif rəhbərindən böyük peşəkarlıq və səriştəlilik tələb edir.

Pedaqoji peşəkarlıq və səriştəlilik pedaqoji ünsiyyətlə daim qarşılıqlı təsirdə olan bir proses kimi özünü göstərir. Bunların biri digərinə səbəb olduğu kimi, həm də nəticə kimi özünü göstərə bilir.

Pedaqoji ünsiyyət təhsilalanlarla təhsilverənlərin bir-birini qavraması və anlaması, birinin digərinə təsir göstərməsi və kommunikativ-əlaqə funksiyasına malik olmasısinif rəhbərinin peşəkar fəaliyyətində ən başlıca yerlərdən birini tutur. Pedaqoji ünsiyyət təhsilalanlarla təhsilverənlərin qarşılıqlı fəaliyyət münasibətləri kimi təzahür etdiyindən bu münasibətlərin necəliyi pedaqoji prosesə bu vəya digər dərəcədə öz təsirini göstərir. Bu təsirin pozitiv olması, şəxsiyyətyönümlü xarakter daşıması sinif rəhbərinin peşəkarlığı ilə bilavasitə sıx bağlıdır.

Sinif rəhbərinin peşəkar ünsiyyət mədəniyyətinə malik olması öyrədən və öyrənənlər arasında münasibətlərin formalaşmasında mühüm rol oynayır. Lakin bu münasibət o zaman daha məhsuldar, nəticəyönümlü olur ki, o qarşılıqlı hörmətə, humanist münasibətlərə söykənmiş olsun.

Görkəmli alim, professor M.İ.İlyasov göstərir ki, "müəllim-şagird ünsiyyətinin formalaşmasında müəllim professionallığı, onun hər bir situasiyaya peşəkar yanaşması və pedaqoji qabiliyyətlərə malik olması olduqca mühüm rol oynayır" (1, 154).

Müəllim-şagird ünsiyyətinin səmərəliliyi sinif rəhbərinin peşəkarlığından, onun bir sıra bacarıq və qabiliyyətlərə malik olmasından çox asılıdır. Sinif rəhbəri özünün pedaqoji fəaliyyətində müxtəlif xarakterli, müxtəlif temperamentli şagirdlərlə qarşılaşdığından onların hər biri ilə fərdi ünsiyyət qabiliyyətinə, fərdi yanaşma bacarığına malik olmalıdır. Şagirdlərin heç birinin diqqətdən kənar, "ünsiyyət xaricində" qalmaması üçün onlarla "dil tapmağı" bacarmalıdır. O, hər bir uşağın fərdi xüsusiyyətlərinə bələd olmalı, onlarla ünsiyyətə girmək üçün "açar tapmalıdı". Bu isə pedaqoji işdə peşəkarlıq, fəaliyyətdə səriştəlilik tələb edir.

Görkəmli Amerika psixoloqu D. Karneginintövsiyə etdiyi "Adamları təhqir etmədən və inciklik hissi yaratmadan onlara təsir etməyə imkan verən doqquz qayda"sinif rəhbəri – şagird münasibətlərində də nəzərə alınması vacib olan qaydalar kimi faydalıdır:

1 -ci qayda. Müsahibinizin tərifindən və onun layiqli cəhətlərini səmimi etirafdan başlayın.

2 -ci qayda. Başqalarının səhvlərini birbaşa yox, dolaysı ilə göstərin.

*3 -cü qayda.*Əvvəlcə öz səhvlərinizdən danışın, yalnız bundan sonra müsahibinizi tənqid edin.

4 -cü qayda. Müsahibinizə nəsə əmr vermək əvəzinə, suallar verin.

5 -ci qayda. Adamlara nüfuzlarını xilas etməyə imkan verin.

6 -cı qayda. Adamların ən kiçik uğurlarını belə bəyəndiyinizi bildirin və onların hər bir müvəffəqiyyətini qeyd edin. "Qiymət verməkdə səmimi və tərifləməkdə səxavətli olun".

7 -ci qayda. Adamlara yaxşı nüfuz yaradın, onlar bu nüfuzu doğrultmağa çalışacaqlar.

8 -ci qayda. Həvəsləndirməyə əl atın. Düzəlmiş görmək istədiyiniz səhvin asan düzəldilə bilməsi təsəvvürünü yaradın; elə edin ki, adamları təhrik etdiyiniz məsələlər onlara çətin görünməsin.

9 -cu qayda. Çalışın ki, adamlar təklif etdiklərinizi yerinə yetirməyə şad olsunlar (4, 264).

Pedaqoji fəaliyyətdə yüksək ünsiyyət mədəniyyətinə malik olan sinif rəhbəri məktəblilərlə xoş, səmimi və mehriban münasibət yaratmağı, ünsiyyətə girə bilməyi, uşaqları özündən kənarlaşdırmamağı, onların fəaliyyətinə rəhbərlik etməyi və istiqamət verməyi bacardıqlarından onların hər bir tələbi şagirdlər tərəfindən səmimiyyətlə qəbul edilir və yerinə yetirilir. Burada sinif rəhbəri ilə şagird arasına heç bir "Çin səddi" olmur və sinif rəhbəri pedaqoji prosesi peşəkarlıqla idarə edə bilir.

Müəllimlərin pedaqoji ünsiyyət mədəniyyətinə yiyələnməsi özü də peşəkarlıq tələb edir. Bu, bir tərəfdən müəllimin özünün bioloji xüsusiyyətləri – temperament tərzi, xarakteri, nitq qabiliyyəti və s. ilə əlaqədardırsa da, digər tərəfdən müəllimin sosial statusu, ayrı-ayrı insanlara və bütövlükdə cəmiyyətə olan münasibətləri, uşaqlara olan humanist və nikbin münasibətlərin səviyyəsi, həmçinin ünsiyyət bacarıqlarına nə dərəcədə malik ola bilməsi, pedaqoji stajı və s. ilə bağlıdır.

Təcrübə göstərir ki, heç də bütün sinif rəhbərləri yüksək ünsiyyət tərzlərinə malik ola bilmirlər. Onlar istəsələr də belə bu sahədə yüksək müvəffəqiyyətlər əldə edə bilmirlər. Bu isə bəzən onu necə qura bilmək bacarığının olmamasından, yəni bu sahədə peşəkarlığın aşağı səviyyədə olmasından irəli gəlir.

Pedaqoji ünsiyyətin normal getdiyi bir sinifdə, qrupdavə kollektivdə tədrisin yüksək səviyyədə olması, şagirdlərin fənn maraqlarının dərinliyi, idarəetmənin uğurla getməsi və sinif rəhbəri – şagird münasibətlərində qarşılıqlı anlaşma, sevgi özünü göstərir. Belə siniflərdə və qruplarda sinif rəhbəri – şagird münasibətləri cansıxıcı, yeknəsəq, quru rəsmiyyətçilik hökm sürdüyü siniflərdən və qruplardan fərqli olaraq, qarşılıqlı hörmət, işgüzarlıq, səmimiyyət üzərində qurulur və pedaqoji prosessinif rəhbəri – şagird əməkdaşlığından faydalanır. Qarşılıqlı hörmət, mehribanlıq, xeyirxahlıq, şagirdin şəxsiyyət kimi qəbul edilməsi, onlara qarşı diqqət, qayğı və s. keyfiyyətlər pedaqoji dəyərlər səviyyəsinə yüksəlir və bunlar pedaqoji peşəkarlığın alətinə çevrilir.

Pedaqoji ünsiyyət ona peşəkarcasına, səriştəli yanaşma tələb edir. Ona yiyələnmək sinif rəhbərinin (müəllimin) bir təhsilverən, tərbiyəçi kimi nüfuzunu yüksəltməklə yanaşı, pedaqoji prosesin məhsuldarlığına da müsbət təsir göstərir.

Ədəbiyyat

1. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, Elm və təhsil, 2018.
2. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı, Elm və təhsil, 2013.
3. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı, Elm və təhsil, 2015.
4. Karnegi D. Dost qazanmaq və adamlara təsir göstərmək sənəti. Bakı, Qanun nəşriyyatı, 2015.

З.З.Гейдарова

Мотивы педагогического общения в деятельности классного руководителя

Резюме

В статье определено, что эффективность общения между учителем и учеником во многом зависит от профессионализма классного руководителя, от ряда его способностей и умений. Классный руководитель, в своей педагогической деятельности сталкиваясь с учениками разного характера и темперамента должен обладать способностью индивидуального подхода, индивидуального общения с каждым из них.

Выяснено, что педагогическое общение требует профессионального, грамотного подхода. Научиться этому не только повышает репутацию классного руководителя (учителя) как педагога и воспитателя, а также положительно влияет на производительность педагогического процесса.

Z.Z.Heydarova

Pedagogical society motivies in activity of form master

Summary

Article defines, that the effectiveness of teacher-student communication depends largely on the professionalism of the classroom manager, as well as his ability and abilities. The form master must have individual interpersonal skills, individual approach capabilities, as he faces different pupils with different temperament in his pedagogical activity.

It is clear that pedagogical communication requires a professional, competent approach to it. Learning to have a positive effect on the productivity of the pedagogical process, as well as improving the reputation of form master(teacher) as an educator, educator.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 27.05.2022

G.V.HÜSEYNOVA
e-mail: gunhuseynova1994@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DƏRSDƏ TƏLİM MODELİNİN QURULMASI PROBLEMİ İLƏ BAĞLI MÜLAHİZƏLƏR

Açar sözlər: *dərs, təlim modeli, təlimin problemləri, mülahizə, ümumiləşdirmə*
Ключевые слова: *урок, модель обучения, проблемы обучения, заключения, обобщение*
Key words*: lesson, model of education, problems of teaching, thinks.*

Məlum olduğu kimi, mövcud pedaqoji ədəbiyyatda dərsin quruluşu, dərsin tipləri və s. ətrafında mübahisələr gedir. Məsələn, akademik M.M. Mehdizadə deyir ki, "dərsin quruluşunu onun mərhələləri deyil, komponentləri - didaktik vəzifəsi, tədris materiallarının məzmunu, metodik priyomların sistemi təşkil edir. Məsələnin belə qoyuluşu elmi praktik mənasını itirməsə də, bu, dərsin mərhələli quruluşundan imtina etməyə heç bir əsas vermir, həm də dərsin komponentləri olan təlimnin məzmunu da, metodları da əməli şəkildə məhz onun (dərsin) həmin mərhələlərində yerinə yetirilir" (3, s.19). Bu fikrini əsas götürərək akademik M.M. Mehdizadə özü dərsin quruluşunu belə şərh edir: "Dərsin quruluşu dedikdə biz, onun strukturasını, ardıcıllığını, mərhələləri arasındakı nisbəti və həmin mərhələlərin bir-birini şərtləndirməsini başa düşürük" (3, s.19).

Bizim qənaətimizə görə, iqtibas gətirilən tərifin həm məntiqi, həm də dolğunluq cəhətdən müəyyən təshihə ehtiyacı vardır. Belə ki, əvvəla, "quruluş" və "struktura" eyni anlayış olduğundan "dərsin quruluşu dedikdə biz onun strukturasını... başa düşürük" (sadələşdirsək, "quruluş dedikdə quruluş başa düşürük") cümləsi oxucuya bir şey vermir, mənanı açmır; yəni məntiq dili ilə desək, tərif dövr edir. Halbuki, tərif dövr etməməlidir. Odur ki, cümlə "dərsin quruluşu, yaxud strukturası dedikdə…" şəklində başlanmalı idi.

İkincisi, bizcə, dərsin quruluşu (strukturası) "onun mərhələləri arasındakı nisbəti", yaxud "mərhələlərin bir-birini şərtləndirməsini" yox, bir-biri ilə əlaqəli olan ardıcıl mərhələlərin cəmini əhatə edir. Çünki mərhələlər dərsin tərkib hissələridir və bunların arasında nisbət, şərtləndirmə az, yaxud çox, yaxşı, yaxud pis ola bilər və bundan asılı olaraq dərsin keyfiyyəti, nəticəsi yaxşı və ya pis olar, lakin dərs dərsliyində qalar; ancaq mərhələlərin - tərkib hissələrinin özləri və onların arasında əlaqə olmasa, dərs də olmaz. Demək, dərsin quruluşunun bütövlüyü, mövcudluğu üçün həlledici şərt - nisbət və şərtləndirmə deyil, bir-birilə sıx əlaqədar olan ardıcıl mərhələlərin tərkib hissələrinin cəmidir. Nəhayət, komponentsiz dərs olmur. Müəyyən komponentlər (məsələn, dərsin məzmunu, məqsədi, vəzifəsi, üsulları və s.) dərsin məğzini, başlıca mahiyyətini təşkil etdiyindən, quruluşa da həlledici təsir göstərir. Odur ki, bütün bu əsas cəhətlər (yəni mərhələlərin tərkibi, ardıcıllığı əlaqəsi və s. komponentlər) dərsin quruluşuna verilən tərifdə hökmən öz əksini tapmalıdır. Yuxarıdakı tərifdə isə bunlar yoxdur.

Akademik M.M.Mehdizadə - 1989-cu, ildə Respublika elmi-praktik konfransında etdiyi məruzədə dərsin quruluşu haqqında danışarkən demişdir ki, bu (dərsin quruluşu) onun tipi ilə, məzmunu ilə, bir də əsas didaktik məqsədi ilə müəyyən edilir və hər dərs tipinin quruluşunda aparıcı element (ünsür), yaxud mərhələ əsas didaktik məqsədin həll olunduğu ünsür, yaxud mərhələdir" (4, s.8). Bu fikirlərlə əlaqədar iki qeydi nəzərə çatdırmaq yerinə düşərdi:

1. Vaxtı ilə dərsin təsnifatında didaktik vəzifəni əsas götürən müəllif burada didaktik məqsədi ön plana çəkir (bu daha düzgündür). 2. Təəssüf ki, yenə də didaktik məqsəd – yeganə məqsəd kimi götürülür, tərbiyələndirici və inkişafetdirici məqsədlərinsə heç adı da çəkilmir"

Akademik M.İ.Maxmutovun monoqrafiyasında "Ümumiyyətlə struktura nədir?" sualı qoyulsa da, müəllif özü bu məfhuma konkret bir tərif vermir. O həmin, sual haqqında, N.İ.Kondakovun (5) və V.V.Bıkovun (11) kitablarından sitat gətirir, Bıkovun verdiyi tərifin dərsin quruluşuna yaxın olduğunu qeyd edir (1, s.181). Həmin tərif isə belədir: "struktura dedikdə, obyektin fəaliyyət göstərdiyi prosesdə meydana çıxan tərkibin ünsürləri arasında qarşılıqlı təsirlərin müxtəlif variantları başa düşülür" (12, s.4). Bu tərifin ardınca M.İ.Maxmutov yazır ki, dərs ardıcıllıqla həll olunan didaktik vəzifələrdən və onların həlli üsulları, priyomları və vasitələri sistemindən ibarət olduğu üçün bu tərifi dərsin quruluşuna şamil etmək olar (1, s.181).

Müəllifin bu sözlərindən aydın olur ki, o, dərsin quruluşu üçün mərhələlərin tərkibini, bu mərhələlərin arasındakı ardıcıllığı və əlaqəni deyil, yuxarıda M.M. Mehdizadədən gətirilmiş iqtibasda deyildiyi kimi, dərsin didaktik vəzifəsini və dərsdə tətbiq edilən "üsulların, priyomların, vasitələrin sistemini" əsas götürür. Bizcə, əvvəla, priyomlar üsulların tərkibində tətbiq edildiyi üçün bu cümlədə onları (yəni üsulları və priyomları) yanaşı, həmcins cümlə üzvü kimi işlətməyə ehtiyac yoxdur. Digər tərəfdən, dərsin quruluşundan danışarkən onun mərhələlərini nəzərə almamaq olmaz. Odur ki, biz bu baxımdan Maxmutova irad tutmaqda haqlıyıq.

N.A. Sorokinin "Didaktika" kitabında qeyd edilir ki, "dərsin quruluşu anlayışına - dərsin tərkib hissələrinin nisbəti, ardıcıllığı və qarşılıqlı əlaqəsi daxildir" (6, s.177).

Y.Y. Qolanta görə, dərsin strukturası – "onun hissələrinin möhkəm, ciddi sistemidir" (7, s.16). Bu təriflər əsasən düzgün olsa da, oxucuda məsələnin mahiyyəti haqqında geniş təsəvvür doğurmur, çünki çox qısadır. Həmin sözləri almancadan rus dilinə tərcümə olunmuş "Didaktika" kitabındakı tərif haqqında da demək olar. Həmin tərif belədir: "Dərsin strukturasını onun ayrı-ayrı hissələrinin daxili əlaqəsi və ardıcıllığı təşkil edir" (8, s.311).

Dərsin quruluşu haqqında nisbətən aydın təsəvvür V.A.Onişşukun kitabında verilmişdir: "Dərsin strukturası anlayışına üç əlamət daxildir: tərkib (dərs hansı element, yaxud mərhələlərdən ibarətdir), ardıcıllıq (bu elementlər məşğələdə hansı ardıcıllıqla verilir) və əlaqə (onlar öz aralarında necə əlaqələnir)"(9, s.52).

Ancaq bu tərifdə də natamamlıq var. Belə ki, dərsin əsas komponentlərinə burada da toxunulmur. Halbuki, Kazansevin haqlı yazdığı kimi, dərsin komponentləri "birlikdə götürülməklə hər bir dərsin tipi (və deməli, quruluşu da) müəyyənləşdirilir" (10, s.111).

Başqa kitab və dərsliklərdə də dərsin quruluşuna dair verilən məlumat yuxarıda qeyd olunan tərifər səpgisindədir.

Fikrimizcə, həmin təriflərdəki əsas çatışmazlıq məsələyə birtərəfli yanaşmaqda özünü göstərir: bəziləri dərsin quruluşuna aid tərifi onun mərhələləri ilə, başqaları dərsin didaktik vəzifəsi, üsul və vasitələri kimi komponentləri ilə məhdudlaşdırırlar. Əslində isə dərsdə bunların hamısı olur, özü də kompleks halında olur. Buna görə də dərsin quruluşuna həm onun mərhələlərinin cəmi, həm bu mərhələlər arasındakı ardıcıllıq və əlaqə, həm dərsin mərhələlərində həll olunan konkret məqsəd və vəzifələr, həm istifadə edilən üsul və vasitələrin sistemi, həm də şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması daxildir. Bizcə, dərsin quruluşuna verilən tərifdə bütün bu əlamətlərin hamısı öz ifadəsini tapmalıdır. Əks halda, tərif natamam olar.

Dərsin quruluşunun müəyyənləşdirilməsinə gəldikdə bu, nisbətən mürəkkəb məsələdir. Müəllimin dərsi təşkil edib aparmasında əldə etdiyi nailiyyətlər xeyli dərəcədə məhz onun metodiki cəhətdən düzgün müəyyənləşdirilməsindən asılıdır. Hamıya məlumdur ki, dərsin quruluşu, dərsin tipinə, onun məzmununa və əsas didaktik məqsədinə uyğun müəyyən edilir. Dərsin quruluşu anlayışına "üç əlamətin": tərkib (dərs hansı elementlərdən, yaxud mərhələlərdən təşkil olunur), ardıcıllıq (bu elementlər hansı ardıcıllıqla məşğələlərə daxil edilir), əlaqə (öz aralarında onlar bir-birilə necə əlaqəlidir) daxil edilməsi fikri ilə də razılaşmamaq olmaz. Lakin qeyd etmək lazımdır ki, hər bir dərs tipinin quruluşunda aparıcı element, yaxud mərhələ əsas didaktik məqsədin həll edildiyi mərhələdir. Hər bir dərs tipinin quruluşunda

təkrar olunan mərhələlər də vardır. Bəzi müəllimlər dərsi yeni materialın izahından başlayır, verilən yeni biliklərin möhkəmləndirilməsini əvvəlki dərs üzrə tapşırıqların yoxlanılması ilə əlaqələndirirlər. Təcrübədə sübut edilmişdir ki, əvvəlcədən alınmış biliklərin aşkara çıxarılması və təkmilləşdirilməsi yeni materialın fəal surətdə mənimsənilməsi və möhkəmləndirilməsi ilə birləşdiriləndə mürəkkəb dərsin səmərəsi əhəmiyyətli dərəcədə artır.

Ədəbiyyat

1. Махмутов М.И. Организация проблемного обучения в школе, М., 2007.
2. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, OKA Ofset, 2009.
3. Mehdizadə M.M. Dərsə verilən müasir tələblər, Bakı, 1984..
4. Мехтизаде М.М. Пути усовершенствования урока, Баку, 1989..
5. Кондаков Н.И. Логический словарь. М., 2016.
6. Сорокин Н.А. Дидактика. М., 2014.
7. Голант Я.Я. Организация учебных работ в советской школе. Л., 2007.
8. Didaktika (Alman dilindən ruscaya tərcümə). M., 2009.
9. Онищук В.А. Типы, структура и методика урока в школе. Киев, 1996.
10. Казанцев И.Н. Урок в советской школе. М., 2006.
11. Sadıqov F.B. Pedaqogika. Dərs vəsaiti. Bakı, Adiloğlu, 2016.
12. Быков В.В. Методы науки. М., Просвещение, 2014.

Г.В.Гусейнова

Рассуждении в связи с проблемой создания на уроке модели обучения

Резюме

В статье исследованы уроки с точки зрения современных требований и обобщены отношения к общей модели обучения. Далее дана общая модель урока и приведены научно-педагогические доводы, и показаны образцы постановок нескольких уроков. В статье также приведена ясность требованиям современного урока. Данная статья необходима для ученых-исследователей, учителей практики, студентов.

G.V.Huseynova

Thinks on problem of construction of education models at lesson

Summary

In article lessons are analyses on the basis of modern education, researched the common model of teaching and investigated from the scientific-pedagogical point of view and lighted some lessons models. In article researched the modern characteristics for contemporary lesson. Article would be useful for practice-teachers, scientific researchers and students.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 15.05.2022

A.R.HÜSEYNZADƏ
e-mail: azahuseynzadee@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MÜASİR SOSİAL MÜHİTDƏ UŞAĞIN MƏKTƏBƏ HAZIRLANMASININ BAŞLICA CƏHƏTLƏRİ

Açar sözlər: *tərbiyə, təfəkkür, oyunlar, səhnəciklər, məktəbəqədər tərbiyə müəssisələri.*
Ключевые слова: *воспитание, воображение, игры, сцены, дошкольные воспитательная учреждения.*
Key words: *education, imagination, games, plays, pre-school, education institutions.*

Hər bir ailədə körpə dünyaya gəlir, böyüyür, məktəbə gedir. Onun bu gününü hər bir valideyn səbirsizliklə, ürək çırpıntıları ilə gözləyir. Hər bir uşağın ən parlaq, həyəcanlı, kövrək anları və yüksək əhval-ruhiyyəsi bu günlə bağlıdır. Bununla şəxsiyyətin formalaşmasının yeni və çox məsuliyyətli mərhələsi başlanır. Bu ilk addımın uğurluluğu məktəbəqədərki dövrdə valideynlərin öz övladlarının təlim-tərbiyəsi ilə necə məşğul olmalarından asılıdır.

Nəzərə almaq lazımdır ki, valideynlərin pedaqoji hazırlığının və pedaqoji biliklərə ehtiyaclarının səviyyəsi müxtəlifdir: yüksək səviyyəli pedaqoji hazırlığa malik, qismən hazırlığı olan və heç bir hazırlığı olmayan valideynlər var. Təcrübə göstərir ki, nəinki pedaqoji hazırlığı olmayan, hətta hazırlıqlı valideynlərin bir qismi uşaqların tərbiyəsi üzrə biliklərə ehtiyac hiss edirlər. Onları düşündürən uşağının sağlamlığının təmin edilməsi, təlim əməyinin, yaradıcı fəaliyyətinin, boş vaxtının təşkili, bütövlükdə şəxsiyyət kimi formalaşdırılmasıdır.

Valideyn, həmçinin tərbiyəçi pedaqogika və psixologiya elmləri tərəfindən toplanmış nəzəri biliklər sisteminə az-çox yiyələnməli və uşaqla ünsiyyətində onu rəhbər götürməlidir.

Uşaqlarda ilkin ictimai əlamət və keyfiyyətlərin yaranmasında ailə başlıca rol oynayır. Uşaqların tərbiyəsi yalnız valideynlərin şəxsi işi olmayıb, həm də ictimai vəzifədir. Belə ki, şəxsiyyətin qiyməti həmişə onun cəmiyyət üçün əhəmiyyəti ilə müəyyən edilir. Ona görə müstəqil Azərbaycan dövləti də ailəyə böyük əhəmiyyət verir və ona qayğı ilə yanaşır. Uşağın müvəffəqiyyətlə tərbiyə olunması üçün məhəbbət və qayğı ilə yanaşı, ailənin ümumi mikroiqlimi də mühüm rol oynayır.

Müşahidələrimiz göstərdi ki, I sinfə gələn uşaqların təxminən 40-41 faizi uşaq bağçalarında ictimai tərbiyə görənlərdir. Məktəbəqədər tərbiyə müəssisələri uşağın sonrakı inkişafında, onun qabiliyyətinin, sosial əhəmiyyətli keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə uşaq bağçası tam mənası ilə məktəbin astanası olmaqla uşağın idraki və yaradıcı qabiliyyətini inkişaf etdirir. Çox təəssüf ki, məktəbə gələnlərin xeyli hissəsi yalnız ailə hazırlığını görür. Ona görə də valideynlər, xüsusilə gənc valideynlər yalnız pedaqoji, psixoloji biliklərə yiyələnməklə kifayətlənməməli, həm də əldə etdikləri bilikləri şəxsi təcrübələrində tətbiq etməyi, övladı ilə davranışına nəzarət etməyi öyrənməlidirlər.

Uşağın məktəb təliminə hazırlığından söz düşəndə, adətən, valideynlər, həmçinin tərbiyəçilər onun çoxlu məlumata, saysız-hesabsız informasiya ehtiyatına malik olması kimi qəbul etmişlər. Uşaq çoxlu şer, nağıl, tapmaca bilirsə, dil-dil ötürsə, "Yerin altını da üstünü də bilir"sə, deməli, əqli cəhətdən inkişaf edib. Bu gün həmin anlayış məzmununu dəyişmişdir. İndi əqli inkişafın səviyyəsi uşağın müstəqil müşahidə, araşdırma aparma, müqayisə etmə, mühakimə yürütmə, dediyini sübuta yetirmə, əqli nəticəyə gəlmə bacarığı ilə ölçülür. Təəssüratın çoxluğu uşaqları yora bilər. İnformasiya və biliklərin uşağın fikri fəaliyyətinin nəticəsi olması isə onları yeni axtarışlara həvəsləndirir. İndi uşaqlara informasiya verməkdən

daha çox öyrənməyi öyrətmək tələb olunur. İlk addımlardan müstəqillik onların yaradıcı şəxsiyyət kimi formalaşmalarına təkan verir.

Bu məqsədlə hər bir addımda uşaqlara düşünməyi, mühakimə yürütməyi tələb edən suallar vermək, problem situasiya yaratmaq məsləhətdir. Uşaq düzgün cavab verəndə "Nə üçün belə düşünürsən?", "Bunu nədən bildin?" "Daha necə deyə bilərsən?" və s. kimi suallarla onun zehnini fəaliyyətə gətirmək lazımdır. Sadə bir misal: uşağa kağızdan, tikinti materiallarından, konstruktor dəstindən müxtəlif şeylər quraşdırmağı öyrətmək lazımdır. Nümunəyə görə quraşdırmaq yarımmüstəqil xarakterli faəliyyətdir. Yaxşı olar ki, verilmiş şərtə görə qruplaşdırmaq tələb edilsin. "Kubiklərdən elə qaraj tik ki, sənin maşınlarının ikisi yanaşı girib çıxa bilsin". O qarajı tikib qurtardıqdan sonra işi hansı ardıcıllıqla görməsi, nə üçün məhz bu ardıcıllıqla görməsi xəbər alınmalıdır. Bu, uşağı yaradıcı təfəkkürə, fikri fəallığa təhrik edir.

Uşağın intellektual inkişafı hər addımda onun müstəqilliyini tələb edir. Uşağa hər şeyi hazır təqdim etmək, sual verdikdən sonra fikirləşməyə imkan verməyib kömək göstərmək onun müstəqilliyini boğur. Uşağa həddən artıq nəzarət onun məsuliyyətini azaldır. A.S.Makarenko yazmışdır: "Əgər uşağı həmişə "pedaqoji kəndirdə" tutub saxlasaq tərbiyə üçün çox vaxt tələb olunar. Daim himayəçilik, valideynlik qayğısı onun iradəsini iflic edir. Elə tərbiyə yalnız zərər verir, o qeyri-fəal və zəif iradəli adamlar formalaşdırır" (5, s.162). Uşağa kömək nə qədər çox olarsa, uşaqla işləyərkən valideyn nə qədər fəal olarsa, nəticə o qədər pis olar. Uşaq körpəlikdən öz gücünə inanmalı, şəxsi məsuliyyət anlayışına yiyələnməli, kimsədən kömək gözləmədən öz sözünü deməyə çalışmalıdır. Bunu nəzərə alaraq valideyn uşaqla məşğul olarkən onun fəaliyyətinə rəhbərliyin üç növü olduğunu unutmamalıdır:

1. Uşaq valideynin (yaşlının) fəaliyyətini əks etdirir; valideyn hər şeyi necə yerinə yetirəcəyini incəliklərinə qədər izah edir, uşaq sadəcə olaraq onu yamsılayır.

2. Uşağın fəaliyyəti yaşlı ilə eyni vaxtda (sinxron) yerinə yetirilir. Hər kəs ayrıca işləyir (məsələn, plastilindən fiqur düzəldir), nəticəni tutuşdururlar. Bəzən birgə yerinə yetirirlər.

3. Uşaq daha fəal axtarıcılıq situasiyasına salınır. Tapşırıq tam müstəqil yerinə yetirilir. Bacarmadıqda valideyn ikinci yola qayıdır.

Uşağın məktəbə intellektual hazırlığı geniş mənada onun psixi hazırlığı ilə bağlıdır. Uşağın intellektual səviyyəsi onun hiss orqanlarının inkişafından asılıdır. Hələ erkən onun diqqətini müxtəlif əşyalardan hazırlanmış müxtəlif ölçüdə, formada, rəngdə əşyalara yönəltmək, görmə, eşitmə, lamisə duyğularını inkişaf etdirmək lazımdır. Məlumdur ki, dinləmək eşitmək, baxmaq isə görmək demək deyil. Adətən, ən maraqlı bir bədii əsəri oxuyan valideyn, tərbiyəçi "Başa düşdünmü?" deyə soruşanda uşaq "bəli" deyə dillənir, lakin əsərdən nə isə xəbər alınanda cavab verməkdə çətinlik çəkir. Bəzən bədii parçada söhbətin nədən getdiyini bilmir. Nə üçün? Çünki onun diqqəti tamamilə başqa sahəyə yönəlib. Onu bədii əsər yox, yoldaşları ilə oynamaq, yoldaşında qalmış qələmi almaq, televizora baxmaq, meyvə yemək, şəkil çəkmək düşündürüb. Tərbiyəçinin göstərdiyi əşyaya diqqətlə baxdığı halda, divardakı başqa əşya şəkilləri, yoldaşının hərəkətləri onun diqqətini cəlb etdiyindən tərbiyəçinin göstərdiyini qavramır. Ona görə də uşaqların eşitmə və görmə duyğularının inkişafına diqqət yetirilməlidir. Bunsuz əqli inkişaf mümkün deyil.

Gözlərini həyata yenicə açan uşağın əşya və hadisələr haqqında məlumatlara yiyələnməsi onun üçün sanki bir kəşfdir. İkiyaşlı hər şeyi öyrənməyə həvəs göstərir. Bu, uşağın daxili tələbatına, bilik əldə etməkdə inadkarlığa çevrilir. Uşağın tanış olma səyi öyrənməyə ehtiyacdan irəli gəlir. Onda hər şeyə nüfuz etmək arzusu yaranır. Valideyn, tərbiyəçi uşaqda baş qaldırmış maraq və meyli öyrənməli, istiqamətləndirməli, inkişaf etdirməlidir.

Məktəbə gedəcək uşaqlarda fantaziyanın inkişafına da diqqət yetirilməlidir. Altıyaşlılarda fantaziyanın ilk rüşeymləri və onunla bağlı fantastik yaradıcılıq qabiliyyətləri özünü büruzə verir. Uşaqları sehirli nağıllar aləmindən yavaş-yavaş bu günün elmi-texniki həqiqətlərinə yaxınlaşdırmaq lazımdır.

Tədqiqat nəticəsində müəyyənləşdirdik ki, uşağın məktəbə hazırlıq səviyyəsinin öyrənilməsi müasir dövrün ən mühüm tələblərindən biridir. Ona görə də ibtidai sinif müəlliminin ilk mərhələdə məqsədi uşaqların məktəbə intellektual hazırlığının səviyyəsini öyrənməkdən, hər bir uşaq haqqında müəyyən qənaətə gəlməyin yollarını müəyyənləşdirməkdən ibarət olmalıdır.

Təlim strategiyasını düzgün seçmək və uşağa məhz nələri öyrətmək lazım gəldiyini müəyyənləşdirmək üçün atılmalı ilk addım onun inkişaf səviyyəsinin qiymətləndirilməsidir. Uşağın inkişaf səviyyəsinin qiymətləndirilməsi, başqa sözlə, testləşdirilməsi prosesi, valideynlərin bir çoxunda həyəcan doğurur. Onlar qorxurlar ki, birdən uşaq düzgün cavab verməz, biabır olarlar. Yaxud uşaq pisikər, qorxar.

Bütün bunlara baxmayaraq övladı geridə qalan hər bir valideyn onun nələri bildiyini, nələri bilmədiyini, nələri bacardığını, nələri bacarmadığını bilmək istəyir. Onlar uşağı haqqında çox informasiya əldə etmək və onun nöqsanlarını aradan qaldırmaq istəyirlər.

Pedaqoqlar, psixoloqlar tərəfindən uşağın inkişaf səviyyəsinin qiymətləndirilməsi valideynlərin, tərbiyəçilərin gözlərini açır, uşağın şəxsiyyətini güclü və zəif cəhətlərini, qarşıya çıxan çətinlikləri görməyə və onları aradan qaldırmağa yönəldir. Qiymətləndirmə valideynə düşünmək, araşdırma aparmaq üçün qida verir.

Son illərdə "pedaqoji diaqnostika" anlayışı da təhsil sisteminə ayaq açmışdır. Pedaqoji diaqnostikanın məqsədi uşaqların məktəb təliminə, xüsusilə savad təliminə və riyaziyyatın mənimsənilməsinə nə dərəcədə hazırlanmalarını, sosial vəziyyətini müəyyənləşdirməkdir. Pedaqoji diaqnostika hər bir uşağın təlim materialını mənimsəmə səviyyəsini öyrənir, təlim tapşırıqlarını yerinə yetirmələri üçün fərdi yanaşmadan istifadə olunur.

Diaqnostika aparmağa alışmış tərbiyəçi, valideyn bir halda uşağın məktəbə daxil olma vaxtını gecikdirməyi, digər halda daha qabiliyyətli uşaqları müəyyənləşdirməyi, üçüncü halda uşağa yanaşma tərzini, uşaqla təlimin təşkili qaydasını müəyyənləşdirməyə çalışır. Hər hansı halda uşağın hazırlığı, imkanları, diqqət yetirilən zəif cəhəti, istinad olunmalı qüvvətli yeri müəyyənləşdirməyə imkan verir.

Uşağın məktəbə hazırlığını yalnız onun yerinə yetirdiyi tapşırığın nəticəsi ilə ölçmək düz deyil. Bu nəticəyə ümumi təsəvvürün fonunda baxmaq, aşağıdakıları nəzərə almaq lazımdır: sərbəstdir, həvəslə əlaqəyə girir, ünsiyyət saxlayır (sıxılır, utancaqdır, qapalıdır); nitqi sərbəstdir, lüğət ehtiyatı zəngindir, yanlış söz və ifadə işlətmir (hıqqana-hıqqana danışır, fikrini ifadə etmək üçün lazımi söz tapa bilmir, dialektizmlər, rus dilinə məxsus sözlər işlədir); fikrini rabitəli, sərbəst ifadə edə bilir (qırıq-sökük, məzmunsuz ifadə edir); başqalarını dinləyə bilir, mahiyyətini anlayır (başqalarını dinləyə bilmir, dolaşıqlıq, diqqətin yayınması nəticəsində gec anlayır); sürətlə, ardıcıl, uzun müddət fəal iş görə bilir (ləngdir, fasilələrlə, yarı-yarımçıq iş görür); tapşırıqla maraqlanır, ona məsuliyyətlə yanaşır (maraq göstərmir, laqeyddir, məsuliyyətsizdir) və s.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. - Bakı, Mütərcim, 2016.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. - Bakı, "Ozan" nəşriyyatı, 2008.
3. Əliyev R.İ., Əliyeva G.N. Şəxsiyyətin psixologiyası. - Bakı, ADPU nəşriyyatı, 2010.
4. Əliyev R.İ. Mentalitet. - Bakı, Mütərcim, 2009.
5. Makarenko A.S. Seçilmiş əsərləri. - M., "Prosveşenie", 1997
6. Uşağa istiqamətləndirilmiş proqramın təşkili. - Bakı, "Ünsiyyət", 2012.

А.Р.Гусейнзаде

Основные черты подготовки детей к школьному обучению в современном социальном обстановке

Резюме

В статье показано, что подготовка детей в школу являясь многонаправленным процессом зарождает необходимость соблюдения определенных педагогических требований. В этом процессе необходимо обратить особое внимание на самостоятельность и интеллектуальное развитие ребенка. Определено, что это развитие связано с умственной зрелостью ребенка, которое возможно достигнуть параллельным развитием чувств слуха и зрения.

Статьей могут пользоваться воспитатели детского сада, учителя начальных классов и исследователи.

A.R.Huseynzade

About the basic directions of preparing of children to school edication

Summary

In article, showed that, preparing of children to school is a variousdirectly process, which is doinq necessary oə some pedagogical issues. In this process i tis important to have special kindness to the sustainable intellectual development of a child. Has been determined that, this deverlopment is relation with the braing progress of a child, which is possible to have a parallel deverlopment of sensory of seeing and hearing.

This article is used by the teachers childhoods, also pedagogs if primary classes and investigations.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 25.05.2022

Ş.Ş.İBRAHİMOV
e-mail: shahin.ibrahimov2020@sport.edu.az

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

İDMANÇININ PSİXOLOJİ HAZIRLIĞINDA (ÖZÜNƏ İNAM) İRADİ KEYFİYYƏTİN PROQNOZLAŞDIRILMASININ TƏDQİQİ

Açar sözlər: *hazırlığın növləri, psixoloji hazırlıq, özünə inam, fiziki keyfiyyətlər, fiziki tərbiyə, idmanda psixoloji hazırlıq, psixologiya.*

Ключевые слова: *виды тренировок, психологическая подготовка, уверенность в себе, физические качества, физическое воспитание, психологическая подготовка в спорте, психология.*

Key words: *types of training, psychological training, self-confidence, physical qualities, physical education, psychological training in sports, psychology.*

İdman psixologiyası psixologiya elminin bir istiqaməti olub onun dərindən araşdırılmasını və qanunauyğunluqlarını öyrənir. İdman psixologiyası 20-ci əsrin 60-70-ci illərindən inkişaf etməyə başlamışdır. Buna qədər isə idmançıların psixoloji vəziyyətindən yeni məlumatlar toplanılırdı. Sözsüz ki, bu məlumatlar idmançıların yarış qabağı və yarış sırasında müşahidəsi hesabına formalaşırdı. Sosioloqlar və psixoloqların birlikdə apardığı araşdırmalar onu sübut edirdi ki, təklikdə görülən hazırlıq qrup şəkilində görülən hazırlıqdan daha effektiv olur və buda yarış zamanı idmançıya böyük tövhələr verir. Psixoloqlardan N.F.Suvarova, B.A.Vyatkin və Q.Y.Valınkina öz araşdırmalarında belə nəticəyə gəlmişlər ki, idmançıların psixoloji sabitliyinin pozulması, bəzən pataloji hala gətirib çıxaran həddindən artıq yüklənmələr idmançılarda məşqlərin sayının azalmasına bəzən isə idmançıların ümumiyyətlə idmandan kənarlaşması ilə nəticələnir. Buda idmançılarda aqressiyaya və özünə inam qabiliyyətinin itirilməsi ilə müşahidə olunur. Bunun həll yolu kimi psixoloq E.A.Kulakov göstərirki idmançıların bədənində baş verən pataloji və psixoloji dəyişikliklər vaxtında aşkar edilib aradan qaldırıldıqda və əlavə profilaktik tədbirlər görüldükdə nəinki idmançının idmandan kənarlaşması prosesi baş verər əksinə idmançı daha böyük nəaliyyətlər əldə edər və yeni böyük uğurlar qazanar. Bunun üçün həm təlimçilər həmdə məşqçilər bilməlidir ki, idmanda böyük nəaliyyətlərin əldə olunmasının başlıca şərti təlim-tərbiyə, yarışlara hazırlıq səviyyəsi və daxili psixoloji sabitlikdən irəli gəlir. Təlim-tərbiyə və psixoloji sabitlik təkcə pedaqoji prinsiplər ilə deyil həmdə psixoloji cəhətdən əsaslandırılmış metod və üsullardan istifadə etməklə konkret idmançının psixoloji sabitliyinə və əsəb sisteminə uyğunlaşdırılmış fərdi formada hazırlanmalıdır.

Bura qədər deyilənlər bir daha bizə sübut edirki idmançıların yüksək performans göstərməsində məşqçilər ilə yanaşı psixoloqlarında böyük rolu və zəhməti vardır. Lakin təəssüflər olsun ki, psixoloji hazırlıq deyəndə onun məzmunu heçdə hamı tərəfindən birmənalı qarşılanmır. Bu termin əvvəllər idman sahəsində az işlənsədə mövcud ədəbiyyatların təhlili və araşdırılması zamanı öyrəndik ki, bu termin ilk dəfə 1956-cı ildə istifadə olunub.

Psixoloji hal və iradi keyfiyyət anlaşı təlimçinin, məşqçinin və menecerin yarış zamanı vacib olan psixi proseslərin və şəxsi keyfiyyətlərin formalaşması üçün geniş fəaliyyəti nəzərdə tutur. Aparılan araşdırmalar bir daha sübut edirki psixoloji hazırlıq həmdə fiziki, xüsusi, nəzəri, taktiki və texniki hazırlıqların effektivliyinə müsbət təsir edən vacib amillərdən biridir. Təəssüflər olsun ki, bu zaman idmançının ümumi hazırlığında və psixoloji hazırlığında məşqçinin pedaqoji fəaliyyəti və ustalığı diqqətdən kənarda qalır. A.Popov öz əsərlərində qeyd edir ki: Çox nadir hallarda psixoloji və iradi keyfiyyət hazırlıqları dedikdə həm də idmançının psixoloji hazırlıq məsələlərini həll edən məşqçinin pedaqoji fəaliyyəti

nəzərdə tutulur. Burada qeyd etmək olar ki, pedaqoji fəaliyyətdə məşqçinin psixoloji biliklərə malik olması idmançının psixoloji hazırlığının yüksək səviyyədə təşkil olunmasının əsas şərtlərindən biridir. Məhz burada psixoloji hazırlıqda özünə inam iradi keyfiyyətinin önəmini qeyd etmək olar.

Psixi hazırlıq idmançını məşq prosesinə və yarışa hazırlayan əsas hazırlıq halətidir. Psixoloqlar onuda qeyd edirlər ki, psixoloji hazırlıq idmançının yarışa ümumi hazırlığının bir hissəsidir. Bu zaman məşqçi və təlimçinin məşq və yarış prosesinin planlaşdırılması zamanı psixi hazırlığa ayrılan vaxtda böyük önəm daşıyır. Dahi V.Q.Sivitski öz araşdırmalarında yazır ki, qələbə qazanan idmançı məşqdə güc tələb edən bütün tapşırıqları yerinə yetirib ancaq öz psixotrenniqi ilə psixoloji hazırlıq barədə məşğul olmayıb. Bu zaman qələbə qazanan idmançı öz fiziki hazırlığında irəli getsə də, psixoloji hazırlığında müsbətə doğru heçbir irəliləyiş olmayıb. Çünki fiziki yüklənmə idmançılara iradi səy, diqqətin mərkəzləşdirilməsini, vestibülyar sabitlik və başqa psixi keyfiyyətlərin təzahürünü təşkil edir. Nəticədə həmin idmançının psixoloji vəziyyətində dəyişikliklər baş verir. Buna görə də fiziki hazırlıq yüksək səviyyədə olmalıdı. Psixoloq A.V.Şaboltasın qeydlərinə əsasən demək olar ki, əgər idmançının fiziki hazırlığı nəzərə alınmazsa, onun özünə inam iradi keyfiyyətinin möhkəmləndirilməsinə yönələn tapşırıqlar nəticəsiz qalar. Bu zaman belə bir nəticəyə gəlmək olar ki, hazırlıq zamanı həm fiziki hazırlığın həmdə psixoloji hazırlığın bir-birinə olan nisbəti tapılmalıdır. Belə olan halda idmançının motivasiyasının yüksəlməsidə şərtləndirilir. İdmançının effektivliyinin artılması üçün onun həm fiziki həmdə psixoloji hazırlığı nəzərə alınmalıdır. Ancaq belə olan halda böyük effekt və böyük nəaliyyətlər əldə oluna bilər.

Amerikalı psixoloq V.Q.Sivitski izah edir ki, psixoloji hazırlıq idmançının psixakası ilə aparılan kompleks tədbirlər planıdır. Məlumdur ki, psixi halın əsas tərkibini əsəb sistemi təşkil edir. Çünki, əsəb sistemi başqa sistemlərdən məsəl üçün əzələ, ürək, qan-damar, nəfəs sistemlərindən fərqli olaraq daha həssasdır. Bu zaman qeyd etmək olarki əsəb sistemini və psixi halı idarə edərək bütün başqa sistemləri koordinasiya etmək olar. Buna görə də yüksək nəticələr göstərmək istəyən idmançıların hazırlığında psixoloji hazırlığı və özünə inam iradi keyfiyyətini nəzə almamaq mümkün deyil. Bu gün idmançıların psixoloji hazırlığının əsası psixoloji hazırlıq konsepsiyasının üzərində durur. A.T.Puni qeyd edir ki, bu prinsipə görə psixoloji hazırlıq böyük nəaliyyətlər əldə etmək üçün maneə yox əksinə açılmamış ehtiyat kimi nəzərdə tutmaq daha vacibdir. O, öz əsərlərində bu ehtiyatlardan düzgün istifadə olunarsa böyük nəaliyyətlərin əldə olunması uğuru qaçınılmaz olar yazılarını qeyd etmişdir. Müasir dövrümüzdə idman o, qədər böyük sürətlə inkişaf edirki güclü idmançların fiziki, texniki və taktiki hazırlıqları demək olar ki, eyni səviyyədədir. Belə olan halda onları bir-birindən fərqləndirən əsas cəhət psixoloji hazırlıq və özünə inam iradi keyfiyyətinin nə qədər güclü olmasıdır. Təcrübələr onu göstərir ki, yüksək texniki, taktiki və fiziki keyfiyyətlərə malik olan idmançıların məğlub olunmasıda müşahidə olunub lakin müəyyən qədər zəif olan idmançıların qələbə qazandığınıda hərkəsə məlumdur. Belə hal yalnız psixoloji hazırlığın və özünə inam iradi keyfiyyətinin yüksək olması ilə əlaqələndirmək olar. Yüksək motivasiya və özünə inam idmançının əzmkar ruhunun oyanmasına və yüksək nəaliyyətlər əldə etməsinə gətirib çıxarır. Psixoloji hazırlıq – idmançılarda yarışa psixoloji və mənəvi hazırlığın formalaşdırılması prosesidir. Psixi hazırlıq isə idmançıların psixoloji hazırlıq halətidir. Burada 3 hal müşahidə olunur komanda ilə iş, komanda və onun fərdi xüsusiyyətləri ilə iş. Göründüyü kimi idmançıların fərdi xüsusiyyətləri ayrıca bir psixoloji dərəcə ilə nəzərdən keçirilir. N.F.Kurilkonun qeyd edir ki, idmançı şəxsiyyətinin struktur komponentləri, fərdi xüsusiyyətləri, istiqaməti, iddia səviyyəsi psixoloji hazırlığa həsr olunmuş tədqiqat işlərinin əsas məzmun xəttini təşkil edir. (5)

İdmançıların yarış fəaliyyətinə verdiyi yüksək tələblərlər onu göstərir ki, bu müxtəlif mütəxəssislərin və məşqçilərin birlikdə çalışdığı uzun vaxt tələb edən yaradıcı işidir. Müxtəlif yarış proseslərinin hazırlıq taktikası istensiv və dəyişən şərtlərinin olması həmişə yeni vəzifələr ortaya qoyur və buda yeni maneələrin yaranmasına gətirib çıxarır. Yarışda qalib

gəlmək və yeni nəaliyyətlərin əldə olunması idmançılarda yüksək psixoloji hazırlıq və iradi keyfiyyət tələb edir. Bəynəlxalq dərəcəli məşqçi V.P.Nekrasov yazır ki: İdman zirvəsinə qalxmaq üçün idmançının bədəni və ruhu vahid dinamik gücə malik olmalıdı.



Apardığımız tədqiqat işində tədqiqatın obyektini nəzərə alaraq Bakı şəhərinin 252 saylı orta ümumtəhsil məktəbinin 8ª və 9ª sinif şagirləri iştirak etmişlər. Tədqiqat 14-15 yaşlı şagirdlər arasında aparılmışdır.

Şagirdlərin özünüqiymətləndirməsinin formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək üçün bir sıra testlərdən istifadə etmişik. İlk öncə şagirdlər ilə Dembo-Rubinşteyn testindən istifadə etdik. Bu testin adı 2 psixoloqun adı ilə bağlıdır. Tamara Dembo və S.Y.Rubinşteyn bu testin əsrəyə gəlməsində böyük araşdırmalar etmişlər. Onların fikrincə bu test xoşbəxtlik haqqında təsəvvürləri öyrənmək üçün tərtib olunmuşdur. Biz tədqiqat işimizdə bu testi müəyyən qədər dəyişərək ondan özünəinam qabiliyyətinin artırılması üçün istifadə etmişik. Test ilk dəfə 2 şkala üzrə keçirilsədə keçən dövr ərzində bir çox dəyişikliklərdən sonra 6 şkala üzrə keçirilir. Biz ilk öncə şagirdlərdə özünəinam, rəqibin qiymətləndirilməsi, yarışın əhəmiyyəti və idmançının iştirak arzusu, başqalarının onun haqqında olan fikirləri barədə təssəvvürlərini öyrənmək üçün onlarla sorğu keçirdik. Sorğuda şagirdlərə aşağı, orta və yüksək olan seçimlər verilmişdir. Sorğunun nəticəsinə görə aşağıdakı göstəricilər formalaşmışdır.

Şagirdlərdən özünəinam qabiliyyətinin qiymətləndirilməsi ilə bağlı verilən suallara 18 nəfəri aşağı, 13 nəfəri orta, 9 nəfəri yüksək cavablarını vermişdir.

Göründüyü kimi şagirdlərdən özünəinam qabiliyyətinin aşağı olması daha çoxdur. Motivasiya yüksəldikcə risk səviyyəsi aşağı düşür. Şagirdlər başa düşür ki, hər bir yersiz risk uğursuzluq gətirə bilər.

Cədvəl 1

cavablar	**özünəinam qabiliyyətinin qiymətləndirilməsi**		
	aşağı	**orta**	**yüksək**
Şagirdlərin sayı	18	13	9

Şagirdlərdən qarşıdakı rəqibin hazırlığının qiymətləndirilməsi üçün verilən suallara 14 nəfəri aşağı, 19 nəfəri orta, 7 nəfəri yüksək seçimini etmişdir. Burada rəqibin əvvəlki döyüşlərinin və yarışlarının müşahidə olunması və rəqibin hazırlığı ilə bağlı fikirlər irəli sürülmüşdür.

Cədvəl 2

cavablar	**yarışın əhəmiyyəti və idmançının iştirak arzusu**		
	aşağı	**orta**	**yüksək**
Şagirdlərin sayı	14	17	9

Şagirdlərdən yarışın əhəmiyyətini və idmançının iştirak arzusu ilə bağlı sorğu keçirmişik.

14 nəfər aşağı, 17 nəfər orta, 9 nəfər yüksək seçimlərini etmişdir. Burada yarışının idmançıların karyerasında əhəmiyyəti müzakirə olunmuşdur. Bəzi idmançılarda yarışın əhəmiyyət dərəcəsi daha çox üstünlük təşkil edir bəzilərində isə əksinə. Peşəkar idmançılar əldə olunmuş uğurlar ilə kifayətlənməyib daha yüksək titullar üzrə mübarizə aparırlar. Bu həmdə peşəkarlıq nümayişidir.

Cədvəl 3

cavablar	rəqibin qiymətləndirilməsi		
	aşağı	orta	yüksək
Şagirdlərin sayı	14	19	7

Şagirdlər arasında keçirilən sorğu zamanı onlardan başqalarının onlar haqqında olan fikirlərinin əhəmiyyəti öyrənilmişdir. Bildiyimiz kimi bu yarış vaxtı psixoloji hazırlığa böyük təsir edən amillərdən biridir. Şagirdlərdən 13 nəfəri aşağı, 10 nəfəri orta, 17 nəfəri yüksək seçimlərini etmişdir. Sorğunun nəticəsindəndə məlum olduğu kimi şagirdlərə onların haqqında başqalanının fikirləri yüksək önəm kəsb edir. Psixoloqların fikrincə belə şəxslər tez və gözlənilməz dəyişikliklləti sevmirlər. Yeni hərəkətlər ilə əvvəlki hərəkətlər arasında tarazlığı qura bilmirlər. Belə hallar melanxolik və fleqmatiklərdə müşahidə olunur.

Cədvəl 4

cavablar	başqalarının onun haqqında fikirlərinin əhəmiyyəti		
	aşağı	orta	yüksək
Şagirdlərin sayı	13	10	17

Nəticə etibarı ilə onu demək olar ki, 40 nəfər şagirddən orta hesabla 12 nəfəri yüksək özünəinama və psixoloji hazırlığa malikdir. Psixoloji hazırlığın ümumi səciyyəvi xüsusiyyətlərinin araşdırılması göstərdi ki, psixoloji hazırlıq və özünəinam qabiliyyətinin inkişaf etdirilməsi psixologiyanın idman sahəsi ilə əlaqəsindən onun metod və vasitələrinin tətbiq edilməsindən asılıdır. Psixoloji hazırlıq psixo-pedaqoji təsir sistemidir idmançının məşq fəaliyyətinə, yarışa hazırlığına, uğurla çıxışını təmin edir. Yüksək psixoloji hazırlıq və özünəinam qabiliyyəti ümumi hazırlığın tərkib hissəsi olub idmançıların məşq zamanı əldə etdiyi bacarıq və ustalığı nümayiş etdirməyə imkan verir. Bu keyfiyyətlər içində özünəinam əsas faktor kimi çıxış edir. Özünəinam şəxsiyyətin strukturunda əsas komponentlərdən biri olub, özünü qiymətləndirmə ilə sıx bağlıdır.Sorğular nəticəsində yeniyetmə və böyük yaşlı idmançılarda özünəinama və psixoloji hazırlığa təsir edən amillərin inkişaf etdirilməsi və mənfi təsir edən amillərin müəyyənləşdirilməsinin önəmi birdaha öz əksini tapmışdır.

Ədəbiyyat

1. Əliyev K.Ə. İdmançının qələbə psixologiyası. Dərslik, Bakı, 2008, səh 191
2. Seyidov S.G və Həmzəyev.M.Ə. Pedaqoji psixologiya. Dərslik, Bakı, 2014, səh 425
3. Əlizadə Ə.Ə. Psixologiya elminin vəzifələri. Dərslik, Bakı, 2002, səh 603
4. Seyidov S.İ. Psixologiya. Dərslik, Bakı, 2019, səh 129
5. Şəfiyeva E.İ. Mənəvi və iradi keyfiyyətlər. Dərslik, Bakı, 2009, səh 102

Ш.Ш.Ибрагимов

Исследование прогнозирования волевых качеств
в психологической подготовке (уверенности в себе) спортсмена

Резюме

Желание добиться больших успехов требует научного подхода к спорту. Исследования показывают, что физическая, тактическая и техническая подготовка спортсменов одинакова. В данном случае уровень психологической подготовки определяет того, кто победит. Высокая

психологическая подготовка является основным средством проявления спортсменом своих способностей в любых условиях.

Проведённые исследования показывают, что спортсмены с высоким уровнем уверенности в себе и силы воли показывают лучшие результаты, демонстрируя более высокую психологическую подготовку.

Sh.Sh.Ibrahimov

A study of the prediction of volitional quality in the psychological training (self-confidence) of an athlete

Summary

The desire to achieve great success requires a scientific approach to sports. Research shows that the physical, tactical and technical training of athletes is the same. In this case, the level of psychological preparation determines who will win. High psychological training is the main tool for the athlete to show his abilities in all conditions. Studies show that athletes with a high level of self-confidence and willpower show better results by demonstrating higher psychological training.

Rəyçi: ped. f.d. M.Z.Heydərova

Redaksiyaya daxil olub: 24.05.2022

G.M.KAZIMOVA
e-mail: kazimovagunel863@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏQSƏDYÖNLÜ MÜQAYİSƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN ÖZ TƏLİM NƏTİCƏLƏRİNƏ NƏZARƏTİNDƏ BAŞLICA VASİTƏDİR

Açar sözlər: *müqayisə, kiçik yaşlı məktəbli, nəzarət, riyazi təlim, əqli nəticə*
Ключевые слова: *сравнение, младшеклассников, контроль, математическая подготовка, умственный результат*
Key words: *comparison, primary schoolchildren, control, mathematical training, mental outcome*

Müasir dövrdə ibtidai təlimin qarşısına çıxan əsas məsələlərdən biri fənlərin tədrisi prosesində şagirdlərdə özünənəzarət bacarıqlarının formalaşdırılması, məntiqi mühakimələr zamanı gəldikləri nəticələrin doğruluğunu sübut etməyə tələbat tərbiyə etməkdir. Lakin apardığımız müşahidələrdən aydın olur ki, bu gün orta ümumtəhsil məktəblərimizin ibtidai siniflərində bu məsələ öz elmi-pedaqoji həllini tapmadığına görə o qədər də ürəkaçan deyil. Görkəmli azərbaycan pedaqoqu prof. N.M. Kazımovun apardığı fundamental tədqiqatların nəticələri də bunu sübut edir: "Müəllimlərimizin böyük əksəriyyəti çalışır ki, tədris etdiyi fənn üzrə öz şagirdlərinə proqramda nəzərdə tutulmuş konkret bilik və bacarıq versin; həmin bilik və bacarıqlar vasitəsilə şagirdlərin psixoloji inkişafına, o cümlədən məntiqi mühakimə yürütmək, müqayisələr aparmaq bacarığının inkişafına nail olmaq isə əksər halda kölgədə qalır" (2, s. 6). Tədqiqat yolu ilə müəyyənləşdirə bilmişik ki, prof. Nüreddin Kazımovun düzgün olaraq göstərdiyi bu problemi həll etməyə ibtidai təlim prosesində də geniş imkanlar var. Bu qənaətimizi ibtidai siniflərdə tədris olunan riyaziyyat fənni üzrə bir mövzu əsasında şərh edək:

Riyaziyyatın tədrisi zamanı şagirdlərə mənimsədilən əsas anlayışlardan biri "çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətləridir. Mütəxəssis alimlərin fikrincə bu münasibətlər elə öyrədilməlidir ki, "Çoxlu sayda praktik çalışmalar əsasında uşaqlar iki əşya qrupunun hansında "çox" ("az") əşya olmasını aydınlaşdıraraq və yaxud onlarda bərabar miqdarda əşyalar olmasına əmin olaraq həmin əşya qruplarını müqayisə etməyi öyrənməlidirlər" (93, s.6). Bu müqayisə zamanı istifadə olunacaq praktik tapşırıqların seçilməsinə qoyulan didaktik tələbə də elmi-pedaqoji ədə biyatda rast gəlirik: "Uşaqlar praktik tapşırıqların həllində iki müqayisə edilən çoxluğun elementləri arasında birqiymətli uyğunluğu müstəqil qurmağı öyrənməlidirlər. Uşaqlar belə uyğunluğu qurmaqla müxtəlif praktik işlər prosesində tanış olmalıdırlar" (94, s.106). Bununla biz I sinif riyaziyyat kursunda "çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətlərinin öyrədilməsi ilə əlaqədar pedaqoji ədəbiyyatda irəli sürülən əsas didaktik tələbi qeyd etmiş oluruq.

Bəs təlim prosesində bu tələblər necə həyata keçirilir? Təlim prosesində "çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətlərinin necə tədris olunduğunu və şagirdlər tərəfindən necə mənimsənildiyini öyrənmək məqsədilə I sinfin riyaziyyat dərslərində aparılmış müşahidələr zamanı aydın olur ki, müəllimlərin əksəriyyəti həmin münasibətlərin öyrədilməsinə şagirdlərdən 1-dən 10-a kimi düzünə və tərsinə saymağı tələb etməklə başlayır, sonra sayların müqayisəsinə keçir: -Uşaqlar,bir çoxdur,yoxsa, iki? (iki), Bəs hansı azdır? (bir) ,- Üç çoxdur, yoxsa iki? (üç).

Müqayisə bu qaydada davam edir.

Sonra müəllim şahirdlərdən düzüm taxtasının yuxarı gözünə qırmızı dairə, aşağı gözünə isə iki göy dairə qoymağı tələb edir.

– Uşaqlar, hansı dairələr çoxdur? (qırmızı); -Nə üçün qırmızı dairələr çoxdur? (Çünki qırmızı dairələrin sayı üçdür, göy dairələrin sayı isə ikidir. Üç ikidən çoxdur. Ona görə də qırmızı dairələr göy dairələrdən çoxdur).

Digər əşyalar qrupu da eyni qaydada müqayisə edilir. Bu zaman bir tərəfdən iki əşya qrupunun gözəyarı miqdarca müqayisəsindən alınmış nəticələrin doğruluğu ədədlərin məqayisəsinə istinad edilməklə əsaslandırılır, digər tərəfdən də "çoxdur" və "azdır" münasibətlərindən həm iki əşya qrupunun miqdarca müqayisəsində, həm də iki ədədin müqa yisəsində istifadə olunur. Bunlar nə dərəcədə düzgündür?

Əvvəla, qeyd edək ki, "çoxdur" və "azdır" münasibətlərindən həm əşya qruplarının miqdarca müqayisəsində, həm də iki ədədin müqayisəsində istifadə etmək olmaz. "Çoxdur", "azdır" münasibətləri iki əşya qrupunun miqdarca müqayisəsini xarakterizə edir. İki ədədin müqayisəsini isə "böyükdür" , "kiçikdir" münasibətləri xarakterizə edir. Bu münasibətləri yuxarıdakı şəkildə qarışdırılması kobud elmi səhvlərə gətirib çıxarır.

Bəs natural ədəd və bu ədədlərin müqayisəsi haqqında heç bir təs səv vuru olmayan şagirdlərdən natural ədədlərin müqayisəsindən istifadə etməklə öz nəticələrinə nəzarət etməyi tələb etmək olarmı?

Nəzərə almaq lazımdır ki, məktəbə yenicə gəlmiş uşaqların əslində hələ sistemli biliyi yoxdur. Onlar məktəbə özləri ilə yalnız bəzi sadə həyati müşahidə təcürbələri gətirmişlər.(öz hərəkətlərini, danışıqlarını, işlətdikləri sadə cümlələri izlə mək, müşahidə etmək, öz təvəkkürləri baxımından danışıqlarını və işlət dikləri cümlələri nizamlamaq və s.) Bu təcürbələri şərti olaraq təlimə yenicə başlayan uşaqların ibtidai biliklər sistemi adlandırmaq olar. Şagirdlər ilk addımda öz nəticələrinə nəzarət edərkən yalnız bu ibtidai biliklərdən istifadə edə bilər və etməlidir. Lakin N.A.Mençinskayanın mülahizəsinə görə, natural ədədi və onların müqayisəsini nəinki I sinif şagirdlərinin ibtidai biliklər sisteminə daxil olan, ümumiyyətlə nə riyaziyyatın özü, nə də onun tətbiqi üçün ilk, ən elementar riyazi anlayışlar hesab etmək olmaz. Natural ədəd və onların müqayisəsi mürəkkəb anlayışlardır, (6, s .9). Ona görə də "çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətlərinin tədrisi prosesində iki sonlu əşyalar qrupunun miqdarca müqayisəsindən alınan nəticələrin doğruluğunu iki ədədin müqayisəsinə əsaslanmaqla sübut etmək düzgün deyil. Bu halda əslində nəticənin doğruluğu sübut edilməmiş qalır.

Deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlirik ki, "çoxdur", "azdır" və "bərabərdir" münasibətlərini öyrədərkən şagirdlərin gəldikləri nəticələrin doğruluğuna nəzarət etmələri üçün onların ixtiyarına ən etibarlı vasitə vermək lazımdır.

Zənnimizcə, belə bir vasitə öyrədilməsi proqramda nəzərdə tutulan və metodik ədəbiyyatda öz əksini tapan iki sonlu əşyalar qrupu arasında praktik yolla qarşılıqlı birqiymətli uyğunluq yarada bilmək bacarığı ola bilər. Bu bacarıqlardan iki sonlu əşyalar qrupunu miqdarca gözəyarı müqayisə etdikdə alınan nəticələrin doğruluğunu yoxlamaq, onun dəzgünlüyünü sübut etmək vasitəsi kimi istifadə etmək olar.

Buna nail olmaq üçün əvvəlcə şagirdlərdə özünənəzarətin vacibliyinə ehtiyac hissi oyatmaq lazımdır. "Çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətlərinin tədrisi prosesində özünənəzarətin zəruriliyinə ehtiyac hiss etdirmənin vasitələrindən biri iki əşya qrupunun miqdarca gözəyarı müqayisəsi zamanı alınmış nəticələrin doğruluğuna əvvəlcədən şubhə oyatmaqdır. Р.И. Əliyevin ifadəsi ilə desək, əvvəlcə şagirdlərdə verilmiş təklifin dəzgünlüyünə şübhə toxumu səpmək, sonra isə şübhəni həll etmək lazımdır. Bu, fənlərin tədris olunmasında əsas, vacib prinsiplərdən biridir (3, s.71).

"Çoxdur", "azdır" və "bərabərdir" ("o qədərdir") münasibətlərinin I sinifdə öyrədilməsində qarşılıqlı birqiymətli uyğunluğun köməyi ilə aparılan praktik müqayisənin şagirdlərin özünənəzarət vasitəsi kimi öyrədilməsi bir neçə istiqamətdə ibtidai təlimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:

a) Şagirdlər öz təlim fəaliyyətlərinə nəzarət etdikdə, gəldikləri nəticələrin doğruluğunu sübuta yetirdikdə verilən materialın öyrənilməsinə daha şüurlu yanaşır və onların fənnə marağı artır.

b) Şagirdlər öz nəticələrindəki səhvlərə nəzarət edib, onları aşkara çıxara bilirlər. Belə şagirdlərdə səhvin dəzəldilməsi üçün təşəbbüs oyanır.

c) Şagirdlər yaradıcı düşünməyi, mühakimə yürütməyi, öz fikirlərini əsaslan-dırmağı öyrənirlər. Bu proses şagirdlərin təsəvvürlərinin, dəqqətinin, yaddaşının, təfəkkürünün inkişaf etdirilməsi ilə yanaşı, onlarda fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır.

d) Bu, nəticə etibarilə ibtidai siniflərdə tədris fənlərinin mənimsənilməsinin intensivliyinin artırılmasında, təlimin həyatla daha sıx əlaqələndirilməsində mühüm rol oynaya bilər.

Ədəbiyyat

1. Kazımov N.M. Müqayisənin nəzəri və əməli problemləri. – Bakı, 2005.
2. Kazımov N.M. Məktəb pedaqogikası. – Bakı, 2009.
3. Əliyev R.İ. Təhsilə psixoloji xidmətin sosial-psixoloji məsələləri. «İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnalı, Bakı, 2017, № 3.
4. Блонский П.П. Психология доказывания и ее особенности у детей. – «Вопросы психологии»,1014, № 3.
5. Коротов В.М. Самоуправление школьников. М.,2006.
6. Менчинская Н.А. Вопросы умственного развития ребенка. – М., 1970.
7. Лаврова Н.Н. Логические ошибки младших школьников и некоторые причины их возникновения. В кн.: Дидактика начального обучения. – М., Сб. науч. трудов АО Россия, 2017.

Г.М.Кязимова

Целенаправленное сравнение является главным средством в контроле результатов самообучения у младшеклассников

Резюме

В статье показано, что при усвоении соотношений “больше”, “меньше” и “равно” школьникам на свое усмотрение следует давать самые надежные средства контроля для уточнения своих результатов. В это же время, ранее у школьников необходимо создать сомнение к результатам своего обучения, а затем разрешить эти сомнения. Доказано, что обучение такого средства среди двух групп конечных элементов практическим путем может являться способностью взаимно - однозначного соответствия, которые представлены в программе и отражены в методической литературе.

G.M.Kazimova

Purposeful comparison is the main means of successfully control over learning results of primary schoolchildren

Summary

Article deals with the research of such adopting relationships as "more", "less" and "equal"for pupils need to give them the most reliable means to control the accuracy of their findings or results. At the same time, first of all, students should be skeptical about the outcome of their learning, and then resolve that question. It is proved, that such teaching technique may have the ability to create mutually-practical co-operation between the two end-to-end items that are provided in the program and reflected in the methodology.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 15.05.2022

A.MEHDİYEVA
doktorant

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN MƏDƏNİYYƏTLƏRARASI KOMMUNİKATİV BACARIQLARININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *mədəniyyətlərarası kommunikasiya, kompetensiya, məntiqi əməliyyatlar, didaktik bacarıqlar, bacarığın istiqaməti*

Ключевые слова: *межкультурная коммуникация, компетенция логическое операция, дидактические умение, умение направленности*

Key words: *intercultural communication, competence, logical operations, didactic skills, skill direction*

XXI əsrin pedaqoji proses sahəsində çağırışları içərisində mədəniyyətlərarası kommunikasiyaya yiyələnmək Boloniya prosesinin sənədlərində və Azərbaycan Respublikasının təhsil sahəsində islahatında ehtiva edilmişdir.

Fransız dilində verbal ünsiyyətə yiyələnmək kommunikativ bacarıqların sayəsində baş verdiyindən onun geniş didaktik şərhinə ehtiyac yaranmışdır. Fransız dilində mədəniyyətlərarası ünsiyyətin tədrisinin məqsədi hesab edilməsi bacarıq, kommunikativ kompetensiya, kommunikativ bacarığa yiyələnmədən məqsədə çatmağın çətinliyinin didaktik şərtlərini təlim prosesində ünsiyyətin tədrisində nəzərə almağın vacibliyini irəli sürür.

Mütəxəssis hazırlığı prosesində gələcək kadrların, fransız dili müəlliminin ana və xarici dili mükəmməl bilməsi mədəniyyətlərarası ünsiyyət kimi bir dəyərə yiyələnməyə imkan verir və bu məsələ köklü şəkildə təhsildən, onun keyfiyyətli təlimindən asılıdır.

Müasir Avropa təhsil sistemi "kompetensiyaya söykənən təhsildir" (competence based education). Təlim materiallarına kompetent yanaşma bilik, *b a c a r ı q* (ayırma mənə aiddir) şəxsi keyfiyyətlər də daxil olmaqla *"praktik cəhətdən istiqamətlənmiş, təlim prosesində mənimsənilmiş bilik, bacarıq, münasibətlər, həmçinin dərk edilmiş məqsədyönlü tələb olunan şəxsi keyfiyyətlərdir"* (2, s.8).

İ.A.Zimnyaya 2020-ci ilə qədər kommunikativ kompetensiya sahəsində aparılan tədqiqatları ümumiləşdirərək belə qənaətə gəlmişdir ki, kompetensiya fəaliyyətin müvəffəq həllidir və kommunikativ bacarıqlar həm şəxsiyyətin kompetensiyasına daxil olmaqla xarici dilin mənimsənilməsində, həm də kompetensiyanın müəyyən elementlərini funksionallıq baxımından özündə praktik fəaliyyət zamanı icra etməsidir.

Mədəniyyətlərarası kommunikativ bacarıqlar sahəsində aparılan tədqiqatlar göstərir ki, tələbələr arasında kommunikativ bacarıqların formalaşma səviyyəsi aşağıdır. (7; 5; 8)

Adları qeyd edilən müəlliflərin bu sahədə aparılan digər tədqiqatların nəticələri göstərir ki, tələbələrdə zəif kommunikativ bacarıqların formalaşmasının bir neçə səbəbi var:

1. Tələbələrin *ümumi kommunikativ* bacarıqlarının formalaşmasının aşağı səviyyəsi.
2. Kommunikatim bacarıqların formalaşma səviyyəsinin mədəniyyətlərarası ünsiyyətə təsiri.
3. Peşə hazırlığında kommunikativ bacarıqların tətbiqinin zəruriliyinin dərki.
4. Kommunikativ bacarıqların formalaşmasının didaktik səbəblərinin müəyyənləşdirilməməsi.

Kommunikativ bacarıqlara pedaqoji, psixoloji, didaktik yanaşmalar göstərir ki, bu anlayış aid olduğu predmetdən asılı olaraq dəyişir. Hətta fransız-rus dillərində belə bacarıq eyni mənada işlənməmişdir. Fransız dilində bacarıq iki feildən *savoir* və *faire, savoir-comprendre* bilmək və etmək, bilmək və anlamaq kimi *h ə r ə k ə t* anlayışlarından ibarət olub – mənası

təsəvvürlərin və ya təcrübənin hər hansı fəallığa aid edilməsidir. Bu mürəkkəb sözdə hərəkətin istiqaməti bilikdən – biliyin icrasına yönəlmiş hərəkətin istiqamətinin nəticəsini müəyyən etməklə inkişafa nail olmağı nəzərdə tutur [6, p.163), rus dilindəki "умени" sözünün kökündə "ум" - təfəkkürə, anlamaya və intellektə aid olan ağıl sözü dayanmışdır.

Biliyə uyğun və ağıla uyğun hərəkət hər iki sosio-mədəni davranış üçün xarakterikdir və davranışların mübadiləsi kommunikativ proseslərlə rəftar fərqləri ilə müşayət olunur. Rus dilində "умение" sözünün etimoloji şərhində "idarə etmək" mənası da var və bəzi rus didaktikləri bu etimoloji mənanı nitq fəaliyyətinin idarə etmə bacarığı kimi qiymətləndirmişlər. (9)

Anlayışların linqvistik təhlili bacarığın, kommunikativ və mədəniyyətlərarası kommunikativ söz birləşməsi şəklində tətbiqi anlayışın mürəkkəbliyindən xəbər verir.

Bacarıqların yaranmasının və formalaşmasında təlim materialları üzərində apardığı tədqiqatlara əsasən N.F.Talızina ümumi fəaliyyət prinsipini əsas tutaraq fəaliyyət kateqoriyası əsasında bacarığın 3 komponentdən ibarət olması – 1) biliklər, 2) ona uyğun hərəkət, 3) hərəkətə müvafiq məntiqi əməliyyatlar fikrinə gəlmişdir. (4, s.155)

Mədəniyyətlərarası kommunikativ bacarıqlara yiyələnmək üçün əvvəlcə bacarığın məzmununu mənimsəmək, sonra isə ona müvafiq hərəkət etmək zəruridir. Lakin bu ilkin görüntüdür. Mədəniyyətlərarası kommunikativ bacarıqların ilkin kommunikativ cəhdi oxşar, müvafiq və ya eyniyyət təşkil edən mədəniyyət məhsullarının formal, qeyri-formal, predmet və linqvistik əlamətlərinin ayrılması, ona müvafiq anlayışların ana və xarici dildən daxil olan hafizə materiallarında və ya daxil olan biliklərin təfəkkür tərəfindən məntiqi əməliyyatlara cəlb olunması cəhdidir və bunlar daxilə keçirilsə də, ünsiyyət aktına çevrilsə də bilik, hərəkət, biri digərini ehtiva etməklə təfəkkürdə linqvistik aktuallaşmağa formal səviyyədə hazır olmalıdır. Bacarığa yiyələnmək onun aid olduğu hərəkətin obrazlaşaraq linqvistik müşayətçi ilə birlikdə ünsiyyət təfəkkürünün komponentinə çevrilməsidir. Mədəniyyətlərarası kommunikasiya ünsiyyətə daxil olarkən 3 fərqləndirici əlamətlə müşayət olunur: 1) Biliyin linqvistik forması; 2) Biliyin linqvistik formasına uyğun qrammatik hərəkətlər sistemi; 3) Ünsiyyət aktına daxil edilmiş biliklər və ona uyğun spesifik bacarıqların kommunikativ xarakter kəsb etməsidir. Biliyin linqvistik forması – məsələn, mədəniyyətlərarası kommunikasiyasının ehtiva etdiyi kommunikativ bacarıq kontekstual xarakter alaraq seçilmiş leksik vahidlər və əgər belə demək mümkünsə, biliyin linqvistik forması kontekstual kommunikativ bacarığın yaranmasını obyektiv olaraq şərtləndirir. Bu kommunikativ bacarığın təyinedici mədəniyyət amilinin linqvistik, sosioloji və didaktik fərqli dəyərlərə malik olmasıdır. Əgər biz onu ünsiyyət aktına anlayaraq daxil edə bilsək – yəni predmeti, onun üzərində hərəkəti və linqvistik obrazını kommunikasiyada kontekstə uyğun inteqrasiya etsək onda mədəniyyətlərarası ünsiyyətə nail ola bilərik. Daha doğrusu, mədəniyyət amilinin kommunikativliyinə linqvistik xüsusiyyətlərinə ünsiyyət səviyyəsində şahidi oluruq. Dediklərimizdən belə nəticəyə gəlmək olar ki, hər biliyin özünəməxsus bacarıq tərzi vardır. Kommunikativ kontekst həm biliyin konkretləşdirilməsini, həm bacarığın biliyə məxsusluğunu motivləşdirə bilir. Ona görə kommunikativ bacarıqların yaranması ünsiyyət situasiyasından qidalanır. Kommunikativ bacarığın ünsiyyət situasiyası vasitəsi ilə motivləşməsi ünsiyyət bacarığının spesifikliyini mədəniyyət amilinin anlanılması səviyyəsindən asılı olaraq onun interferensiya olunmasına psixoloji əsas verə bilir. Ana dilindəki dilə qabil bacarıqlar, fransız dilində ünsiyyətə girmək bacarıqlarının ümumi qabiliyyət halıdır. Ümumi dil fəaliyyətlərinin xüsusi bacarığa – fransız dilində ünsiyyəti həyata keçirən bacarığa çevrilməsi, situasiyanın təsiri altında dil öyrənənin şəxsi istəyindən asılıdır, onun bu sahədə cəhdləri kommunikativ bacarıqların insani dəyər olmaqla xüsusi halının istəkdən asılı olaraq müvafiq icrasıdır. Fransız dilində ünsiyyət bacarığı ümumi qabiliyyətin xüsusi halıdır, çünki xarici dili öyrənmək xüsusi qabiliyyətlər sırasına aiddir.

Fransız dilində ünsiyyət bacarığının təyinedicisi mədəniyyət amilidir, ona bağlı olan biliklərdir. Ünsiyyət xarakterli dil materialları olmazsa, ona uyğun kommunikativ bacarıqlar

formalaşdırmaq olmaz. Mədəniyyətlərarası ünsiyyət təfəkkürün dil materiallarına əsaslanan nitq bacarığıdır.

Fransız dilində ünsiyyət bacarığı həm də ana dilindəki biliklərə əsaslanır, əslinə qalsa, bu avtomatik baş verir, çünki dillərarası müvafiqlik, eyniyyət, oxşarlıq, keçirilmə hadisəsini qeyri-ixtiyari olaraq şərtləndirir. Fransız dilində ünsiyyətə girərkən ana dilini nitq təfəkküründən uzaqlaşdırmaq psixolinqvistik cəhətdən qeyri-mümkündür. Xarici dildə ünsiyyət aktı və təfəkkür arasında ana dili dayanıb və həm də ana dili təkcə ara məsafəni təşkil etmir, o məzmunla, canlı elementlərlə hərəki və var olan dinamik elementlə zəngindir, çox böyük kompensasiya imkanına malikdir. Ona görə mədəniyyətlərarası kommunikativ bacarıqda mədəniyyət səviyyəsində interferensiya və keçirilmənin prinsiplərinə uyğun elementlərin olması məntiqidir. Kommunikativ bacarıq bir və ya bir neçə biliyi (ana və xarici dil və oxşar və ya müvafiq) hərəkətlər sistemini inkişaf etdirə bilər və təlim prosesində bundan yararlanmaq vacibdir.

Xarici dildə kommunikativ bacarıqların mənimsənilməsi bacarığın strukturunu təşkil edən hərəkətlərin ifadə olunduqları vasitələrin mənimsənilməsi ilə başlayır. Yad davranış tərzinin mədəniyyət məhsulundakı ifadə olunmuş nəticələri həm leksik ifadələrlə, həm də qrammatik-predikativ əlaqələrlə kontekstin təsiri ilə reallaşır. Resipient mədəniyyətlərarası kommunikativ bacarığa yiyələnmək üçün linqvistik vasitələr, nitq rəftarları, mədəniyyət məhsulunun təsiri ilə yaratdığı obyektiv təlim situasiyasını və onu nitq ünsiyyətinə daxil edən şəxsin subyektiv münasibətlərini eşitmənin hesabına anlamanı şərtləndirir.

İ.A.Zimnyaya bacarığı kompetensiyaya aid edir və bacarığı fəallığı kommunikativ kompetensiyaya aid edən müəlliflər, məsələn A.P.Sadoxin *"...mədəniyyətlərarası kompetensiyanı bilik, bacarıq və vərdişlərin məcmusu olaraq fərd digər mədəniyyətin münayəndələri ilə müvəffəqiyyətlə peşəkar səviyyədə ünsiyyətə girir"* (3, s. 163). Bu didaktik yanaşmanı İ.A.Zimnyaya daha da dərinləşdirərək xarici dildə kommunikativ kompetensiya dedikdə şəxsiyyətin hər hansı situasiyada ona hərəkət etməyə imkan verəcək bilik və *b a c a r ı ğ ı n d a d a v r a n ı ş k e y f i y y ə t l ə r i n i n* (aralama mənə aiddir) olması fikrini irəli sürürdü (2, s. 7).

A.P.Sadoxinin "peşəkar səviyyədə ünsiyyət" anlayışı və "bacarığın davranış keyfiyyəti" kommunikativ kompetensiyanın treninqlər vasitəsi ilə əldə olunan səviyyəsidir və kommunikativ bacarıq anlanılan hərəkətin nəticəsi olaraq peşəkar və keyfiyyət kimi dəyərinin yaranmasında iştirak edir (3, s. 165). A.P.Sadoxinin və İ.A.Zimnyayanın mədəniyyətlərarası ünsiyyət kimi bir dəyərə yiyələnməkdə apardıqları tədqiqatın nəticələri göstərir ki, bu kommunikativ bacarıq şəxsiyyətin kommunikativ davranışlarının keyfiyyət həllinin icrasının kontekstual halıdır. Mədəniyyətlərarası kommunikativ bacarıq ünsiyyət prosesində şəxsiyyətin peşəkarlığının keyfiyyətinin göstəricisidir. Şəxs amilini kommunikativ akta daxil etməkdə məqsədimiz ünsiyyət aktına sosio-mədəni elementlərin daxil edilməsinin səbəbini onun istəyinin, istəyib bacarmağının nəticəsi olduğunu vurğulayaq.

Biz yuxarıda qeyd etdik ki, xarici dildə kommunikativ bacarıq vasitədən onu doğuran kontekstual hərəkətə doğru istiqamətlənib. Anlama bacarığından törənən daha bir mədəniyyətlərarası kommunikativ bacarığı qeyd etmək istərdik. Nitq ünsiyyətində istifadə olunan leksika, yad mədəniyyətin semantik əlamətlərinə uyğun seçilməsi, sözlərin mənaya görə fərqləndirilməsi didaktik diqqət tələb edir. Nitq ünsiyyətinin yaradılmasında nitq söyləmlərinin qurulması öyrənilən dilin qrammatik normalarını nəzərə almaqla mədəniyyət amilini nitq aktına cəlb etmək olur. Nitq ünsiyyətinin icrası dilin qrammatik və sintaktik müvafiqliyini mədəniyyət kontekstində normativlərə uyğunlaşdırmağın icrası, kommunikativ bacarığın qrammatik bilik ifadəsidir. Semantikanın nitq ünsiyyətinə uyğunlaşdırılması və ya leksik vasitələrin mədəniyyətlərarası ünsiyyət kontekstinə sırınması da kommunikativ bacarığın semantik tərəfidir. Beləliklə, biz bir kommunikativ bacarığın 3 informasiya dayağı olmasının şahidi oluruq. Bu kommunikativ bacarığın əməliyyatlar sisteminin dinamizmi, emosionallığı və operativliyi ilə fərqləndiyinin məntiqi izahıdır. Kommunikativ bacarığın yaranmasının və formalaşmasının bu səbəbi şəxsiyyətlərarası mübadilə prosesidir. Mədəniyyətlərarası kom-

munikativ bacarığın yaranma və formalaşma prosesinin məkan münasibətləri mübadilə situasiyası ilə bağlıdır.

Mədəniyyətlərarası kommunikativ bacarığın qeyd etdiyimiz kimi məzmununu yad mədəniyyət məhsulu təşkil edir, onun semantik təsiri törənən nitq ünsiyyətində şəxsiyyətin linqvistik biliklərinin və kommunikativ bacarıqlarının formalaşma səviyyəsini müəyyən edir. Bu kommunikativ strukturlaşmaya və söz sırasına təsir edir və mədəniyyət məhsulunun nitq bacarığı vasitəsi ilə mənimsənilməsinin əsas kriteriyası olan, ünsiyyətin keyfiyyətindən xəbər verən anlama bacarığıdır. Biz sanki dairəni qapadıq: linqvistik vasitə – ona müvafiq kontekstual hərəkət – dil/nitq qrammatik predikasiyası – anlama bacarığı ilə nəticələnən keyfiyyətli ünsiyyət. Biz bu dairənin qapanmasında kommunikativ bacarığın digər bacarıqlardan fərqli olan mədəniyyətlərarası *m ü b a d i l ə n i n* emosional dinamizmini nəzərə aldıq. Çünki iştirak edən tərəflər arasında ünsiyyətdə şəxs-fəaliyyət (İ.A.Zimnyaya) yanaşması prizmasından baxdıq və şəxs-fəaliyyət müstəvisi xarici dildə kommunikativ bacarığın kontekstual sərhədlərini şəxsiyyət və fəaliyyətlə müəyyən etməklə bu anlayışın zaman-məkan paradiqmasında mənimsənilməsini və formalaşdırılmasını şərtləndirir.

Kommunikativ bacarığın yaranmasında və mədəniyyətlərarası ünsiyyətin mənimsənilməsində şəxsiyyətlərarası *m ü b a d i l ə n i n* xarisi dildə kommunikativ bacarığa çox böyük təsir imkanları var. Kommunikasiya zamanı rəy, fikir müxtəlifliyi, münasibətlərin emosionallığı və dinamizmi obyektiv amildir, mübadilə, rəylərin, fikirlərin hərəkət müstəvisi olmaqla bacarığa kommunikativliyi tam gücü ilə sırıyır və buna səbəb anlama cəhdidir. Hər anlama səviyyəsi, mübadilə prosesinə dərinlik, genişlik, tənqidilik gətirir.

Mübadilə prosesi rəylərin konstruksiyası ilə kommunikativ akta istiqamət verir. Konstruktivlik zamanı mübadilə prosesində razılığa gəlmək, rəyləri şəxsiyyətin istək və arzularına uyğun ortaq məxrəcdə razılaşdırmaqla mübadilə etmək olur. Kommunikativ bacarıq eyni zamanda bir çox qeyri-verbal müşayiətçilərin və kiçicik rəftarların iştirakı ilə həyata keçirilir. Kommunikativ bacarığın zahiri əlamətlərini insanın əl-qol hərəkətləri və fizioqnomik davranışları, kontekstual ifadələri, daxili tərəfini isə anlama təşkil edir. Mədəniyyətlərarası kommunikativ bacarığın yaranması mənimsəmə prosesində idraki fəallığın xüsusi halı kimi həm şəxsiyyətin dil şüurunun fəallığını, həm də nitq ünsiyyətinin geniş icrasını tələb edir.

Deyilənləri ümumiləşdirsək, belə qənaətə gəlmək olar ki, mədəniyyətlərarası kommunikativ bacarıq bilmək, biliyə uyğun hərəkət – hərəkətə uyğun bacarmaq – bacarığa uyğun kontekstual əməliyyatlar – kommunikativ yaradıcı fəallıq və bütün bu prosesləri hərəkətə gətirən istəkdən (motivdən) ibarətdir. Mədəniyyətlərarası ünsiyyətə girmək istəyi elə mədəniyyətin məzmun elementidir, didaktik forumla da kommunikativ bacarığa yiyələnmək istəyidir.

Ədəbiyyat

1. Дащкин М.Е. Коммуникативные умения специалистов систем “Человек-человек” как предметное содержание их подготовки. Афтореф. канд. дисс. пед.наук. Челябинск, 1999, 24 с.
2. Зимняя И.А., И.А.Мазаева, М.Д.Лантиева. Коммуникативная компетентность, речевая деятельность, вербальное общение. Москва, Из-во “Аспект-Пресс”, 2020, 400 с.
3. Садохин А.П. Введение в теорию межкультурной компетенции. Москва, “Киорус”, 2014, 254 с.
4. Талызина Н.Ф. Управление процессом усвоения знаний. МГУ, 1984, 344 с.
5. Тищенко В.А. Классификация коммуникативных умений студентов /zpu-jurnal/ru/zpu/e-publications/2007/Tishenko V.A.
6. Le Robertt Micto Poche. Paris, 1993 // lexicography.online/ etimology/y/уметь
7. cyberlenika.ru/article/n/formirovanie-kommunikativuyhumenie-studentov-vuza/viewer
8. cyberlenika.ru/article/n/kommunikativnye-umeniya-k-voprosu-klassifikasii/ viewer/Tishenko V.A.
9. dic.academic.ru // dis.usf/uslakov/1067178

А.Мехдиева

Психологические особенности навыков межкультурной коммуникации студентов при обучении французскому языку

Резюме

Одним из нововведений, привнесенных реформой образования в процесс межкультурного обучения, является обращение к педагогическому творчеству в формировании коммуникативных умений при овладении французским языком как иностранным. Важнейшим дидактическим фактором, влияющим на формирование коммуникативных навыков французского языка, являются методы реализации опыта учащихся на уровне знаний в области языка/речи.

Навыки межкультурного общения являются неотъемлемой частью умения общаться на французском языке. Поскольку общение на французском языке имеет определенную цель в профессиональном обучении, овладение им зависит от контекстуального решения разговорных навыков. Навыки межкультурного общения могут быть приобретены в конкретном случае речевого общения, поскольку навык состоит из знания, действия и логических операций, так что различные ситуации в каждом конкретном языковом/речевом событии и их воздействие также зависят от языковых навыков. Поскольку межкультурный коммуникативный навык представляет собой форму действия по приобретению одного или нескольких языковых знаний, он иногда может выполнять не одну, а несколько дидактических операций, что отличает коммуникативную способность от других навыков, и это связано с коммуникативным обменом. Пересечение хотя бы двух культур или включение знаний через них в акт общения зависит от динамизма коммуникативной способности. Навыки межкультурной коммуникации являются неотъемлемой частью коммуникативной компетенции. Существует разница между способностью и компетенцией с точки зрения глубины владения межкультурной коммуникацией. Одним из важных способов понимания культурных различий, выраженных в языке, и развития коммуникативных навыков является социальное знание соответствующей культуры.

A.Mehdiyeva

Psychological features of students' intercultural communication skills in teaching French

Summary

One of the innovations brought by the educational reform to the process of intercultural learning is the reference to pedagogical creative activity in the formation of communicative skills in mastering French as a foreign language. The most important didactic factor influencing the formation of communicative skills in French is the methods of implementing students' experience at the level of knowledge in the field of language / speech.

Intercultural communication skills are an integral part of the ability to communicate in French. Since communication in French has a specific purpose in vocational training, mastering it depends on the contextual solution of speaking skills. Intercultural communication skills can be acquired in a specific case of speech communication, because the skill consists of knowledge, action and logical operations, so that different situations in each specific language / speech event and their impact also depends on the language skills. Because intercultural communicative skill is a form of action for the acquisition of one or more linguistic knowledge, it can sometimes perform not one, but several didactic operations, which distinguishes communicative ability from other skills, and this is due to communicative exchange. The intersection of at least two cultures, or the inclusion of knowledge through them in the act of communication, depends on the dynamism of communicative ability. Intercultural communication skills are an integral part of communicative competence. There is a difference between ability and competence in terms of the depth of mastery of intercultural communication. One of the important ways to understand the cultural differences expressed in language and to develop communicative skills is to have a social knowledge of the relevant culture.

Rəyçi: prof. D.Ə.İsmayılova
Redaksiyaya daxil olub: 05.05.2022

S.M.MEHDİZADƏ
e-mail: mustafamehtiyev2610@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA GÜNÜN HİSSƏLƏRİ HAQQINDA TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASI

Açar sözlər: *günün hissələri,bağça yaşlı uşaqlar, gün, sutka, səhər, axşam, sutka vaxt ölçüsü*
Ключевые слова: *части суток, дети дошкольного возраста, день, сутки, утро, вечер, измерение времени суток.*
Key words: *parts of day, preschool children, day, days, morning, evening, measurement the day time.*

Vaxtın ölçülməsi üçün daim təkrarlanan anlayışlar: gecə və gündüzün növbələşməsi, Yerin sutka ərzində öz oxu ətrafında fırlanması, Ayın Yer ətrafında hərəkəti və o cümlədən Yerin Günəş ətrafında dövr etməsi qəbul edilib.

Yer kürəsinin öz oxu ətrafında bir dəfə dövr etməsi bir gün (bir sutka) adlanır. Gün dedikdə Günəşin çıxmasından batmasına qədər vaxt, müddət nəzərdə tutulur. Yer kürəsinin müxtəlif yerlərində və ilin müxtəlif vaxtlarında gecə-gündüz anlayışlarından istifadə edilmişdir. Sutka vaxt ölçüsü kimi 24 saatdır. Buna görə də ölçülən zaman sutka ilə ölçülür. Bu, birinci həqiqi zaman ölçü vahididir. Gün (sutka) dörd hissəyə bölünür: səhər, günorta, axşam, gecə. Belə bölünmə bir tərəfdən obyektiv dəyişikliklərlə – günəşin müxtəlif vəziyyətlərdə, dayanması, ayın çıxması və batması, ulduzlarla bağlıdırsa, digər tərəfdən sutkanın müxtəlif hissələrində insanların müxtəlif, fəaliyyətində istirahət və əməyin növbələşməsi ilə əlaqədardır.

S.İ.Ojeqovun tərtib etdiyi lüğətdə (7, s.155, 173, 409) gündüz məfhumu – sutkanın səhərdən axşamadək hissəsi; gecə – axşamdan səhərədək olan müddət; səhər – günün başlanması kimi izah edilmişdir. Digər mənbədə (2, səh.68,151) isə gecə – günün gün batandan gün çıxana qədər, axşamdan-səhərə qədər olan hissəsi, gündüz – gecə-gündüzün işıqlı hissəsi; gün doğandan gün batana qədər olan müddət; səhər – günün başlanğıcının ilk saatları, sabah açıldığı vaxt; sübh; axşam – günün axırından gecənin başlanmasına qədər olan vaxt, gün batan vaxt; günorta – gündüz saat 12 tamam, Günəşin üfüq üzərində ən yüksək nöqtəyə çatdığı vaxt kimi müəyyən edilir.

Uşaq bağçasında zaman haqqında təsəvvürlərin inkişafına orta qrupda başlamaq lazımdır; böyük qrupda isə bu əsasda ardıcıllığı, günlərin növbələşməsini göstərmək lazımdır. Müşahidələr göstərir ki, müxtəlif yaş qruplarının uşaqları sutka haqqında bilikləri müstəqil mənimsəyə bilmirlər.

Təcrübələr nəticəsində aydınlaşdı ki, bəzən uşaqlar sutkanın hissələrini fəaliyyətə görə, onlara xarakterik vaxt müddətinə görə mənimsəyirlər. Uşaqlara aşağıdakı suallara cavab verməyi təklif etdik: “Sən bağçaya nə vaxt gəlmisən?”, “Nə vaxt yatacaqsınız?”, “Evə nə vaxt gedəcəksiniz?”, “Evdə nə vaxt yatacaqsınız?” və s.

Uşaqlara şəkillər təqdim olundu.

Şəkildəki təsvirə, fəaliyyətin məzmununa görə uşaqlar vaxtı təyin edib, adlandırmalı idilər. Bu tədqiqat uşaq bağçasının bütün yaş qruplarında keçirildi. Bunun nəticəsində aydınlaşdı ki, hətta kiçik qrup uşaqları onlara yaxşı tanış olan daim təkrarlanan fəaliyyətə görə vaxtı təyin etməyə çalışırlar. Uşaqlara şəkilləri göstərib, məzmun üzrə izah edərək orada nə çəkildiyini göstərdikdən sonra “bu nə vaxt olur?” sualı verildi. Vaxtı təyin etməyə çalışan uşaqlar əsasən “səhər” və “axşam” cavabını verdilər.

Orta qrupda uşaqların sutkanın hissələrinin ardıcıllığı haqqında biliklərini yoxladıq. Uşaqların ancaq yarısı günün hissələrini ardıcıllıqla söyləyə bildi. Məsələn, səhərdən sonra

günorta, sonra axşam, gecə olur və gün qurtarır. Sonra yenə səhər olur. Şəkillərə baxaraq, "Bu nə vaxt olur?" sualına cavab almağa çalışdıq. Uşaqlar təsvirləri göstəriçilər kimi qəbul edərək, sutkanın hissələrini adlandırdılar.

Məktəbəqədər yaşlı uşaqların sutkanın hissələrinin ardıcıllığını təyin etmək, adlandırmaq bacarığının mənimsədilməsi zamanı aşağıdakı xüsusiyyətlər qeyd edildi: 1. Günün hissələrinin adının mənimsənilməsinin qeyri-bərabərliyi; 2. Fəaliyyətinin konkret növü və konkret əlamətləri olan böyüklərin tez-tez işlətdikləri hissələrin ayrılması; 3. Şəxsi həyat və fəaliyyət təcrübəsi əsasında sutkanın hissələrinə münasibət; 4. Qayda üzrə günün hissələrinin səhərdən başlanaraq ardıcıllığını müəyyənləşdirmək.

Bu xüsusiyyətlərdən çıxış edərək, uşaqlarda sutkanın hissələri, ardıcıllığı haqqında biliklərin formalaşdırılması üzrə iş metodları müəyyənləşdirildi.

Uşaq zamanı konkret əlamət kimi qəbul edir. Amma bu konkret əlamətlər (səhər işıq olur; uşaqlar bağçaya gedirlər; ata-anamız işə gedir; axşam biz bağçadan, valideynlərimiz işdən evə qayıdır; gecə hər yan qaranlıq olur, hamı yatır) valideynləri növbəli işdə işləyən uşaqlar üçün tam aydın olmur. Buna görə də uşaqların tərbiyə xüsusiyyətləri sutkanın hissələrinin fərqləndirilməsini öyrənərkən mütləq nəzərə alınmalıdır.

Sutkanın hissələrinin fərqləndirilməsinin öyrədilməsi ətraf aləmlə tanışlıq məşğələlərində keçirilməsi daha məqsədəuyğundur. Tövsiyələrimiz əsasında məşğələ keçilən qrupda daha çox sözlü oyunlardan istifadə edildi ki, bu oyunlara sutkanın müəyyən hissələrinin adları daxil edildi. Məsələn, "Hansı söz olmalıdır?" oyununda tərbiyəçi sutkanın hər hansı hissəsinin adını buraxaraq cümlə deyir: "Bağçaya səhər gəlirik, evə isə ... gedirik" və uşaqlar buraxılmış sözü əlavə edirlər. Eyni zamanda tərbiyəçi sutkanın hissələrini təbii obyektiv göstəricilərlə əlaqələndirdi (işıq, qaranlıq, günəşli ay və s.).

Böyük qrupda isə uşaqların sutkanın hissələri haqqında təsəvvürləri genişləndirilərək dərinləşdirildi. Əgər orta qrupda sutkanın hər bir hissəsi hər hansı fəaliyyətin məzmununa görə təyin edilirsə, böyük qrupda isə günün hansı hissəsində nə olduğu əsasında təyin edilir. Bu məqsədlə nisbətən geniş məzmunlu şəkillərdən, məsələn, "Səhərlər uşaqlar məktəbə gedir, axşam isə televizora baxırlar" və s.-dən istafadə olundu.

Uşaqların sutkanın hissələri ilə tanışlığında oyun-səyahətlərin rolu böyükdür. Tərbiyəçi oyunu belə sözlərlə başladı:

Biz sizinlə guya küçəyə gəzintiyə gedirik, baxaq görək səhərlər nə edirlər? Biz evdən çıxanda küçələr tər-təmiz olur. Çünki küçə süpürənlər səhər tezdən küçələri süpürüb təmizləyir. Böyüklər işə tələsir, uşaqlar məktəbə, bağçaya gedirlər.

Bu tipli oyunlar vasitəsilə sutkanın hissələrinin təyin edilməsi uşaqların bacarığını möhkəmləndirir və bu sözləri öz nitqlərinə sərəbəst daxil edə bilirlər.

Bundan başqa, uşaqlar günün hissələrini obyektiv göstəricilər əsasında (Günəşin yerinə görə, havanın işıqlılığına görə və s.) təyin etməyi öyrəndilər. Bu məqsədlə gəzinti zamanı müşahidələr təşkil etdik. Günəşin çıxması və batmasının şəhər şəraitində müşahidə etmək çətin olduğu üçün onların diqqətini səmanın rənginə cəlb etdik. Uşaqlar öyrəndilər ki, səhər Günəş hər tərəfi gur işıqlandırır. Günorta göyün düz ortasında olur, batanda isə səmanın rəngi bozarır, asta-asta hava qaranlıqlaşır.

Uşaqların günün hissələri ilə tanış edilməsində kartlardan istifadə edildi. SƏHƏR – mavi rəng, GÜNORTA – sarı, AXŞAM – boz, GECƏ – qara rənglə fərqləndirildi. Bizim fikrimizcə rəngli şərti işarə simvol kimi verilmişdir. Uşaqlar rəngləri asanlıqla müəyyən məlumat daşıyıcısı kimi qəbul edirlər. Uşaqlar bütün kartları göstərdikdən sonra səhər, axşam, gecə və s. təsvir olunmuş kartı tez tapmağı təklif edirik. Rəngə görə artıq uşaqlar sutkanın bütün hissələrini təyin edirlər. Tərbiyəçi ya şer, ya tapmaca söyləyir və soruşur: "Bu nə vaxt olur"?

Uşaqlar artıq sutkanın bütün hissələri haqqında təsəvvürlərə yiyələndikdən, xarakterik fəaliyyət və obyektiv göstəricilərə istinad edərək onların hər birini rəngli işarələrlə təyin etməyi, düzgün adlandırmağı öyrəndikdən sonra, biz günün hissələrinin ardıcıllığı haqqında

bilikləri dəqiqləşdirməyi qarşımıza bir məqsəd kimi qoyduq: “Biz öyrəndik ki, gün səhərdən başlayır. Bəs səhərdən sonra nə olur? Günorta işdə adamlar, bağçada uşaqlar nə edirlər? Günortadan sonra nə olur? Axşam qurtardıqdan sonra nə olur?”

Böyük qrupda uşaqlarda günün hissələrinin ardıcıllığı, haqqında məlumatlar formalaşdırıldıqdan sonra artıq onlara sutka sözünün mənasını açmaq məqsədə müvafiqdir. Sutka 24 saatdan, 4 hissədən ibarətdir. Səhər, günorta, axşam, gecə. Uşaqlara öyrətmək lazımdır ki, bir sutkanın tam olması üçün bu dörd hissənin hər hansından başlanıb, onda da qurtarmaq lazımdır. Məsələn, bu səhərdən sabah səhərədək, bu günortadan sabah günortayadək və s.

İlin fəsilləri ilə tanışlıq da həmin metodika üzrə təşkil edilə bilər.

Ədəbiyyat

1. Воспитание детей в средней группе детского сада. М., 2011.

2. Левин-Щирина Ф.С., Менджерицкая Д.В. Воспитание и обучение детей трех-семи лет. Учеб. пособие. М., 2005.

3. Подготовка детей к школе в детском саду (Под ред. А.Ф.Сохина, Т.В.Тарунтаевой). М., 2007.

С.М.Мехдизаде

Формирование представлений о частях суток у детей дошкольного возраста

Резюме

В статье выявлены возможности информирования детей дошкольного возраста о частях суток, как утро, день, вечер, ночь, где найдены пути освоения ими этих понятий. Данная идея и методологический подход, основываясь на последние достижения педагогики и психологии, имеет как теоретическое и практическое значение, также оказывают глубокое влияние на дальнейшее развитие нашей педагогической науки.

S.M.Mehdizade

Formation of the ideas about parts of day in preschool children

Summary

The article reveals the opportunities for informing preschool-age children about the parts of day, like morning, afternoon, evening, night, where ways of mastering these concepts. This idea and methodological approach, based on the innovative achievements of pedagogy and psychology, has both theoretical and practical significance, and also have a profound impact on the further development of our pedagogical science.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 25.05.2022

S.İ.MƏMMƏDOVA
e-mail: sevincgdu98@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

SOSİAL PROBLEMLİ AİLƏLƏRDƏ APARILAN TƏRBİYƏVİ İŞLƏRİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sosial tərbiyə, ailə tərbiyəsi, ata nüfuzu, tərbiyə sistemi, uşaq psixologiyası*
Ключевые слова: *социальное воспитание, семейное воспитание, влияние отца, система воспитания, детская психология.*
Key words: *national education, family education, penetration of father, educational system, psychology of a child.*

Övladları üçün yaşayıb-yanan, cəfa çəkən, onun böyüməsinə, xoşbəxt yaşamasına ömrünü gilə-gilə əridən valideyn cütündə ata aparıcıdır. Ata xisləti, ata zabitəsi, ata məhəbbəti uşağın inkişafında və tərbiyəsində əvəzsizdir. Uşağın güvənc yeridir, ata! Onun ürəkli, cəsur, qorxmaz böyüməsinin səbəbkarıdır ata! Ata ailəsinin, övladlarının, bütövlükdə evinin qurucusudur; Ata ailənin qeyrət, ar, namus keşikçisidir! O, ata qüdrəti ilə balalarının gələcəyinin azad, xoşbəxt, bəxtəvər yaşayışının bələdçisidir!

Azərbaycanlı ata ilk növbədə, oğluna kişilik, bütövlük, namusluluq, Vətən təssübkeşliyi, milli ləyaqət aşılamalıdır. Azərbaycanlı oğlu cəsur, mərd olmalı, anasının, bacısının namusunu qorumalı, Vətənin mübariz əsgəri kimi yadellilərdən qəhrəmanlıqla müdafiə etməlidir.

Ata övladlarının təlim-tərbiyəsinin zəhmətini ana ilə müştərək çəkməlidir.

Süleyman padşahın yanına iki qadın gəlir və xahiş edirlər ki, onların şərini kəssin. Onlar südəmər bir uşağın üstündə mübahisə edirlər. Hər ikisi uşağın əsl anası kimi çıxış edirlər. Süleyman padşah bir az fikirləşib deyir ki, uşağı iki yerə şaqqalayıb, hərəsinə bir şaqqa versinlər. Qadınlardan biri buna razılaşır, ikincisi isə ağlayıb yalvararaq deyir ki, uşağa toxunmayın, qoyun uşaq o biri qadına qalsın. Süleyman padşah əmr edir ki, uşağı ikinci qadına versinlər, onun əsl anası odur.

Əsl ananın "şaqqalamayın!" – deyə haray qoparması, gözyaşı tökməsi – onun analığından gələn yalvarışdır. Ana istəməz ki, övladının ayağına tikan bata, daş dəyə. Ana özü ac qalar, susuzluğa dözər, yuxusuz keçinər, ancaq son tikəsini, axırıncı damla su payını övladına verər. O, övladı üçün bütün əzablara hazırdır, təki övladı sağlam və xoşbəxt yaşasın. Məhz bu səbəbdən M.Şəhriyar deyirdi ki, həyatda yaxşılıq bacarmayanlar ana məhəbbətindən məhrum olanlardır. Tərbiyədə ananın rolu atalar sözündə çox sərrast ifadə olunubdur: "Ağıl ana südü ilə verilməyibsə, özgəsindən gözləmə". Ərəblər isə çoxdan deyirlər ki, üç şey adamın gözünü işıqlandırır: yaxşı arvad, ağıllı oğul, mehriban qardaş. Unutmayaq ki, yaxşı oğulu və onun qardaşını da dünyaya gətirən, tərbiyə edən anadır.

Ağrıyanda, əzab çəkəndə, tənhalıq duyğusu bizi bürüyəndə harayımıza sövq-təbii olaraq ilk əvvəl anamızı çağırırıq: "Ay, ay ana!", "Haradasan ana?!", "Sənə qurban olum, köməyimə çat ana!" Əgər anamız yaşayırsa, elə həmin an başımızın üstünü kəsir, ağlayır, göz yaşı tökür, insanları övladı üçün köməyə çağırır. Özünün şirin dili, əlinin hərarəti, gözünün qorası ilə balasına şəfa verir. O, övladı bir balaca toxtayınca, özünə gəlincəyə kimi çörək yemir, su içmir. Elə hey əllərini göylərə qaldırıb, uca tanrıdan balasına şəfa diləyir. Elə ki, balası bir azca şəfa tapır, ana özünü dünyanın xoşbəxti sanır, şadlanır, sevinir, çöhrəsinə dirilik rəngi gəlir. Bütün bunların müqabilində övladın borcu belə analara qurban olmaqdır, onları əzizləmək, yaşatmaq, yaxşı əməlləri ilə ana ömrünü uzatmaqdır.

Çoxumuzun anamız belə olub. Bizi dünyaya gətirəndən əbədiyyata köçüncəyə qədər

özlərini övladlarına fəda ediblər. Bizi oxşayıb, sevir, ayaqüstə qaldırıb, məktəbə göndərib, yedirib, içirib, geyindirib... yaşadıblar bizi ömürlərindən kəsə-kəsə! Yaşadıblar bizi, ac-susuz qala-qala! Yaşadıblar bizi, yuxusuz gecələri kipriklərinə götürə-götürə!

Bütün bu əzablarına baxmayaraq, onların analıq hisslərindən, duyğularından hədsiz istifadə edənlər də olub: ana evdə və istehsalatda işlədikdən sonra, övladlarının ev tapşırıqlarının icrasına kömək göstərib, məktəbə valideyn iclaslarına gedib, onlar üçün bazarlıq edib, paltarlarını yuyub, yeməklərini hazırlayıb... Qadın işi də, kişi işi də görüb onlar.

Qadının evinə, ərinə, övladına münasibətinə görə onları öyrənib qiymətləndirən şəxslər çox olmuşdur. Onlardan biri Əli ibn Sinadır. O, qadınların üç mühüm əxlaqi keyfiyyətə sahib olmalarını zəruri hesab edirdi: a) ağıllı olmalarını; 2) həyalı olmalarını; 3) fərasətli və dərrakəli olmalarını.

N.Tusi isə bununla əlaqədar deyirdi: "Yaxşı qadın ana, dost və kənizə oxşar;

Ləqayətli qadını anaya ona görə oxşatmışlar ki, ərinin yanında olmasını istər, səfərə gedəndə darıxar, onun arzu və istəklərini yerinə yetirməklə əzab və əziyyətə dözər, ana da övladı üçün belə edər.

Dosta ona görə oxşatmışlar ki, əri nə versə razı qalar, vermədiyini üzürlü sayar, malını ondan əsirgəməz, heç yerdə onun əleyhinə çıxmaz.

Kənizə ona görə oxşatmışlar ki, qayğı göstərməkdə, qulluq etməkdə əlindən gələni əsirgəməz, ərinin danlağına dözər, eyblərini örtər, tərifləyər, çörəyini itirməz, ərinin xoşuna gəlməyən işləri görməz...".

Yazıya hələ köçürülməmiş qədim bir nağılımızda qadınlar evinə, ailəsinə diqqətinə görə üç qrupa bölünürlər:

Birinci qrup qadınlar – "horulu-hop" adlanırlar. Onlar ailənin gəlirini məsrəfsiz xərcləyir, normadan artıq və müxtəlif növ yeməklər bişirib yeyər, qənaətlə araları olmaz;

İkinci qrup qadınlar – "cırılı-cırp" adlanırlar. Bələləri daha çox dəbdəbə ilə geyinməyə can atırlar. Onlar hər dəfə təzə paltar həvəsi ilə çoxlu parça alar, cırar, biçər, tikər. Nəticədə də ya bəyənərlər, ya da bəyənməyərlər?!

Üçüncü qrup qadınlar – "qırı-qırp" adlanır və əsl evdar qadın hesab olunurlar. Onlar əyinlərindən, boğazlarından kəsər, qənaətlə yaşayar və bununla da ailənin dolanışığını təmin edərlər.

Qadınlar haqqında aşağıdakı deyim isə "Kitabi-Dədə-Qorqud"dandır: Ozan deyir: "Arvadlar dörd cürdür: birisi soysoldurandır; birisi toydoldurandır; birisi evin dayağıdır; birisi necə deyəsən, boyandır".

Qadınlarla bağlı indi deyəcəyimiz fikirləri isə Ömər İbn Əl-Xəttab demişdir: "Qadınlar üç cür olurlar: birincisi allaha sitayiş eləyən, allahdan qorxan, ərini sevən, doğub törəyən, ərinin yaxşı günündə də, pis günündə də ona həmdəm olan qadın; ikincisi yalnız uşaqlarının qeydinə qalan, üçüncüsü, tövqi lənət olub ərinin boğazına keçən. Kişilər də üç cür olur: birincisi öz ağlı ilə iş görən, fərasətli kişilərdir; ikincisi, daha fərasətli kişilərdir ki, başına bir iş gələndə ağıllı adamlarla məsləhətləşirlər, onların dediyi kimi eyləyirlər; üçüncüsü, qətiyyətsiz düz yoldan bixəbər, məsləhətçi sözünə qulaq asmayan kişilərdir".

Deyilənlərdən aydın olur ki, uşaqların tərbiyəsində daha çox ağırlıq ata-ananın çiyninə düşür. Onların işgüzar, əlbir, ardıcıl zəhmətləri sayəsində övladları ürəklərincə, istəklərincə böyüyür, cəmiyyətdə özlərinə tərbiyələri müqabilində yer tuturlar. Fikrimizi çoxlu sayda müdriklərin dedikləri kəlamlar da təsdiq edir. Ərəb atalar sözündə deyilir: "Ata-ana şöhrətinin şöləsi uşaqların da üzərinə düşür". Aşağıdakı fikirlər isə V.A.Suxomlinskinindir: "Uşaq valideynlərin əxlaqi həyatının güzgüsüdür". "...günəş bir damla suda əks olunduru kimi, ana və atanın əxlaqi saflığı da uşaqda əks olunur". Yazıçı-jurnalist Nurəddin Babayev isə ata-ananın zəhmətinin müqabilində övladlardan hörmət tələb edir: "Övlad üçün dünyada valideyndən əziz, valideyndən mehriban heç kəs yoxdur. Valideynlərinin qədrini bilməyən, onu sevməyən, övlad Vətənin də qədrini bilməz, xalqını da sevə bilməz". İndi deyəcəyimiz sözlər

isə “Kəlilə və Dimnə”dəndir: “Ana və ataya ona kerə hörmət etmək lazımdır ki, hər ikisi sənlə yaradan arasında vasitədir” .

Məhəmməd peyğəmbər deyirdi: “Kiçiyinizin halına acımayan, böyüyümüzün haqqını bilməyən bizdən deyil”. M. Şəhriyar yazırdı: “Ey inkişafda olan bəxtiyar gənc! Təcrübəli qocadan gələcək yolunu öyrən”. M. Əhvədi isə yazırdı: “Qocalığa cavanlıqdan hazırlıq aparmaq lazımdır”. Bu hazırlığın bir yolu da şübhəsiz ki, qocalarla bir yerdə yaşayıb, onların nümunəsini əxz etməkdir. Bu fikir baxımından, Adidey atalar sözündə deyilir: “Yaxşı qoca olmayan yerdə yaxşı cavan da olmaz”. Madaqasqarlılar isə bunu daha sərras deyiblər: “Qocalar arasındakı uşaq aqil olar”.

Bir çox ailələrdə baba, nənə, ata, ana ilə birlikdə daha bir neçə yaxın adamlar – böyük bacı, qardaşlar, hələ ailə həyatı qurmamış əmilər və bibilər... vardır. Bir halda ki, onlar kiçik yaşlı uşaqlarla birlikdə yaşayır, deməli, həmin uşaqların tərbiyəsində onların da müəyyən təsirləri vardır. Onlar gün ərzində azı bir neçə saat uşaqla birlikdə olur, eyni süfrədə nahar edir, televiziyaya baxır, onların bağçaya, məktəbə aparılıb-gətirilməsində, bütün bu kimi qarşılıqlı münasibətdə, kiçiklərin tərbiyəsində iştirak etmiş olurlar. Buna görə də, münasibətlərində, rəftarlarında, oyun və nahar vaxtında mümkün qədər ədəb-ərkana, mədəni davranış qaydalarına əməl etməklə verilmiş tələbin vahidliyinin gözləməklə, doğruçuluq və düzlükləri ilə onlara örnək olmalıdırlar. Belə olarsa, ailə üzvləri onların əhatəsində böyüyən kiçiklərin tərbiyəsinə kömək göstərmiş olarlar.

Ədəbiyyat

1. Axundov S.H., Həsənov A.İ.Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı, Maarif, 1991
2. Babayev N. Qızlar söz istəyir. Bakı,Gənclik, 1977
3. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı, “Səda”, 1994
4. Bünyadov T.Ə. Əsrlərdən gələn səslər. Bakı,Azərnəşr, 1993
5. Abbasov A.A. Milli əxlaq və ailə etikası. Bakı, Mürtəcim, 2010.
6. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, OKA Ofset, 2009.
7. Гаджиева К.Х. Педагогика. Баку, Мутаржим, 2015.
8. Əliyev R.İ. Şəxsiyyət psixologiyası. Bakı, Nurlan, 2010.

С.И.Мамедова

Некоторые особенности воспитательных работ в социально-проблемных семьях

Резюме

В статье исследована роль семьи в национальном воспитании и намного глубже выяснена роль отца и матери и других членов семьи в процессе современного воспитания, а также приводятся новшества. Введение этих новшеств, прививает у азербайджанских детей чувство национальной чести и достоинства, единства, пристрастия к Родине. Статья необходима каждой молодой семье и каждому педагогу. Приведенные примеры несут огромный воспитательный характер.

S.I.Mammadova

Some features of educational work in socially problematic families

Summary

In article is investigated the role of family in national education, also analysis and showed the roles and importance of father, mother, member of family in a contemporary education process. The new feature and application of this character learned to Azerbaijani children national proudness, unity, honor, fanaticism to motherland. Article is necessary for each young family and pedagogue. Different models, notes have a great educational importance.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev
Redaksiyaya daxil olub: 25.05.2022

S.R.MƏMMƏDOVA
e-mail: mmamedova561@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MÜASİR TƏLİM TEXNOLOGİYALARI VƏ TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ

Açar sözlər: *təhsil sistemində inteqrasiya, təlim texnologiyaları, şəxsiyyətyönümlü təhsil, təhsilin modernləşdirilməsi, dövlət müstəqilliyi*
Ключевые слова: *интеграция в систему образования, технологии обучения, личностно-ориентированное образование, модернизация образования, государственная независимость*
Key words: *integration to the education system, education technologies, humanities training, modernization of education, public independence*

Bu gün müstəqillik yolunda uğurla addımlayan Azərbaycan təhsil quruculuğu sahəsində qazandığı nailiyyətlər aparılan ardıcıl və davamlı təhsil siyasətinin nəticəsi kimi meydana çıxmışdır. Cəmiyyət özünün ən çətin problemlərini həll etmək üçün özünə qayıtmalı, daxili aləmini, milli-mənəvi dünyasını təzələməli olur. İlk növbədə, insan resurslarının təkmilləşdirilməsi üçün potensial imkanlarını səfərbər edir. Gənc nəslin yetişdirilməsini, geniş mənada vətəndaş tərbiyəsini böyük uğurlarının bünövrəsinə gətirir. Bununla mənəvi təkamülə nail ola bilir.

Azərbaycanda təhsil islahatı uğurla həyata keçirilir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması, cəmiyyət üçün inkişaf etmiş, beynəlxalq standartlara cavab verə biləcək şəxsiyyətin formalaşdırılması – sosial-iqtisadi və mədəni inkişafın əsasını təşkil edir. Bu şəxsiyyəti yetişdirmək üçün ailə ilə yanaşı, müəllimlərin də üzərinə böyük məsuliyyət düşür.

Hazırkı dövrdə rəqabətəqabil keyfiyyətlərin daşıyıcısı olan şəxsiyyətin formalaşdırılması demokratik cəmiyyətin təhsil sisteminin qarşısında duran ən mühüm problemlərdən biridir. Təhsil sisteminin məzmunca yeniləşməsi yeni təfəkkürü, yeni keyfiyyətləri özündə cəmləşdirən, müasir tələblərə cavab verən bilik, bacarıq və vərdişlərə malik şəxsiyyətin formalaşdırılmasını əsas vəziufə kimi qarşıya qoyur.

Müasir dövrdə həyata keçirilən təhsil islahatının məqsədləri içərisində təhsilin keyfiyyətini yüksəltmək, onu cəmiyyətin müasir tələblərinə uyğun qurmaq əsas yer tutur. Tədris-təlim prosesinin cəmiyyətin müasir tələblərinə uyğun yenidən qurulması təlimin strategiyasının və şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirmə üsullarının dəyişdirilməsi ilə müşayiət olunur. Başqa sözlə, bu gün bütün tədris-təlim prosesində qarşılıqlı fəaliyyətin üzə çıxarılması və öyrənənlərin şəxsi potensialının stimullaşdırılması üçün əlverişli şəraitin yaradılması həlledici əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramında qeyd olunduğu kimi, "cəmiyyət öz gələcəyini təmin etmək məqsədilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstüninkişaf etdirilən sahəyə çevrilməlidir". Bunun üçün təhsilin məzmunu yeni cəmiyyətin insanını formalaşdırmaq baxımdan yeniləşdirilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulum) adlı konseptual sənədinin təsdiq edilməsi haqqında 30 oktyabr 2006-cı tarixli 233 nömrəli qərarında milli və ümumbəşəri dəyərləri, ümumi inkişafı, meyli və maraqları almaqda bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması, tələbyönümlülük, nəticəyönümlülük və inteqrativlik prinsipləri əsasında qurulması çox mühüm vəzifə kimi qarşıya qoyulur. Bu sənəd həm də şagirdlərin idraki imkanlarının üzə çıxarılması, onun inkişaf etdirilməsi üçün real təlim şəraitinin yaradılmasını zəruri edir.

Həmin sənəd öz mahiyyəti etibarilə müasir tələblərə cavab verən, yaradıcı və tənqidi düşüncə tərzinə malik olan çevik gənclər nəsli yetişdirilməyə istiqamətlənmişdir.”

Təhsilin müvəffəqiyyətlə həyata keçirilməsi yollarından biri Təhsil Sahəsində İslahat Proqramında göstərildiyi kimi yeni pedaqoji texnologiyalardan, fəal təlim metodlarından istifadədir. Təhsildə yeni yanaşmaların tətbiqi təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi vasitəsi olub, dünya təhsil sferasında təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Azərbaycanda islahatın aktual fazasını yaşayan ümumtəhsil sistemi, eyni zamanda təhsilin bütün strukturları belə yanaşmalardan kənarda qala bilməz. Ona görə də həmin yanaşmaların, yeni texnologiyalarının pedaqoji-psixiloji təhlilinin aparılması təhsil sisteminin ən aktual problemi kimi qiymətləndirilir.

Şagirdi necə öyrətməyimizdən asılı olmayaraq, həyatda o, nəyi, nə üçün və necə öyrənmək üsulları ilə qarşılaşmalı olur. İsveçrəli alim Jan Piajenin “Ağıl özünü yaratmaqla dünyanı yaratdı” kəlamı hazırda Qərb ölkələrində əsas yer tutan yeni yanaşmaların əsasını təşkil edir. Təhsil sisteminin belə konseptual problemləri, yeni pedaqoji texnologiyaların, innovasiyaların, fəal təlim metodlarının tədris prosesinə gətirilməsini aktualaşdırır. XXI əsrin əvvəllərində ölkəmizin təhsil sistemində aparılan geniş spektrli islahatların məzmunu və xarakteri belə elmi-pedaqoji tədqiqatların səmərəliliyini və effektivliyini bir daha artırır. Özünütəhsil və özünüqiymətləndirmə üzrə “biliyin verilməsi” prinsipindən “tələb olunan bilik və bacarıqların qazanılması” prinsipinə keçilməsi təxirəsalınmaz vəzifələrdən biri kimi qarşıda durur.

Subyektiv-obyektiv münasibətləri əvvəlki dövrdə bütün fəaliyyət sahələrində olduğu kimi şagird və müəllim münasibətlərində də özünü göstərmişdir. Yeni təlim texnologiyalarından istifadə isə subyektiv-subyekt münasibətləri üzərində qurulur və tərəflərin hər ikisindən aktivlik tələb olunur. Demokratik cəmiyyət üçün şagird fəal mövqeli vətəndaş, mənəvi dəyərləri yüksək qiymətləndirə bilən bir şəxsiyyət kimi formalaşdırılmalıdır. Bu baxımdan yeni pedaqoji təfəkkür əsas diqqətini ilk növbədə şagirdin intellektual və yaradıcı inkişafına, mücərrəd təfəkkürünün formalaşmasına, təhlil etmə, əqli nəticə çıxarma, ümumiləşdirmə bacarıq və vərdişlərinin təşəkkülünə, bu kimi digərmühüm pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir.

Təhsilin modernləşdirilməsi təhsil sisteminin qanunauyğun prosesi kimi dəyərləndirilir və dinamik proses kimi həyata keçirilir. Modernləşdirmə müasir dövrün tələblərinə uyğunlaşmaq, yeni tələb və normalara, texnoloji proseslərə uyğunlaşmaqdır. Təhsilin modernləşdirilməsində məqsəd qlobal dəyərlərin və əməkdaşlığın inkişafı naminə rəqabət aparmağa malik intellekt sahiblərinin yetişməsini təmin etməkdir. Təhsildə məzmunun modernləşdirilməsi zamanı onun həm pedaqoji-psixoloji tərəfləri, həm də nəzəri və təcrübi paradiqmaları nəzərə alınır.

Hazırda təhsildə yeni yanaşmaların tətbiqi, dünya təhsil sferasında təsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Ona görə də yeni texnologiyaların pedaqoji-psixoloji təhlilinin aparılması, onun yeni məzmunun hazırlanması bu günümüzün tələbidir.

Strategiyanın uğurlu icrası səriştəli müəllim və təhsil menecerlərinə malik təhsil siteminin yaradılması ilə nəticələnməlidir.

Ədəbiyyat

1. Abbasov A. Pedaqogika. Bakı. Mütərcim, 2010

2. Ağayev Ə. Təhsilin modernləşdirilməsi: tarixilik, varislik, müasirlik. “Müasir mərhələdə pedaqoji elmin inkişaf perspektivləri” toplusu, Bakı. 2004,

3. Ağayev Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // ARTPİ-nin elmi əsərləri, 2006, №1

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəzeti, 2013, 25 oktyabr

5. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006

6. Cəbrayılov İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı. Mütərcim, 2011
7. Dadaşzadə D. İnteraktiv təlim metodları və yeni pedaqoji texnologiyaların tətbiqi təcrübəsindən. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" , 2002, № 1

С.Р.Мамедова

Модернизация образования и технологии современного обучения

Резюме

В статье наряду с интеграцией в систему образования развитых зарубежных стран, также уделено предпочтение результатам ученика и личностно-ориентированному образованию. Личностно-ориентированное образование позволяет технологиям образования успешно интегрировать. Он основан на том, что с внедрением новых педагогических технологий в процесс активизации учебного процесса, развитием лидерских способностей у школьников позволяет повысить уровень образования, что является в настоящее время одной из важных предстоящих проблем.

S.R.Mammadova

Modernization of education and contemporary training technologies

Summary

Article deals with research of the applied importance of integration to the education system based on the world practice, education technologies and humanities training for the pupils. Because the education technologies, modernization of education on the basis of humanities point of view in useful. Also proved, that introduction of new pedagogical technologies, the development of the pupil's leadership skills, and raising the level of education is one of the challenges ahead.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 25.05.2022

Z.Z.MƏMMƏDOVA
e-mail: zahidammmdova@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr., 159)

ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNDƏ MƏKTƏBLƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ

Açar sözlər: *peşəyönümü, birgə pedaqoji fəaliyyət, müəllimlik peşəsi, ailə tərbiyəsi, tərbiyədə müəllimin rolu.*

Ключевые слова: *выбор профессии, совместная педагогическая деятельность, профессия учителя, семейное воспитание, роль учителя в воспитании.*

Key words: *oriented on the profession, the activity of the pedagogic connection, profession of the teachers, the teachers role in the education.*

Məktəblini ata-anasından yaxşı tanıyan, ona yaxşı bələd olan yoxdur. Uşağın gələcək taleyi də heç kəsi valideynlər qədər maraqlandırmır. Buna görə də müəllimin gördüyü hər bir iş, o cümlədən məktəbin apardığı peşəyönümü iş də valideyn tərəfindən müdafiə olunmalıdır.

Aparılan tədqiqatdan belə bir nəticə hasil olur ki, valideynlərin əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Məktəblilərin müəllimlik peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Ata-analar kiçik yaşlarından qızları həmin peşələrə daha çox rəğbətləndirirlər. Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu hər şeydən əvvəl qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Son tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların miqdarı azalır, başqa sözlə azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqların hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. "Uşağın gələcəyini" özləri vaxtında həll etmək istəyirlər. Onu, bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edirlər.

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi səciyyələndirən təsəvvürlər geniş yayılmışdır. Bu təsəvvürlərin bərqərar olmasında analar xüsusilə fərqlənirlər.

Müşahidələr göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək lazımdır. Uşaqların peşəseçmə işi ilə bağlı valideynlərlə düzgün istiqamət vermək məktəbin qarşısında duran mühüm vəzifə ilmalıdır. Çünki valideynlər öz uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdir. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valideynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək daha məqsədəuyğun olar.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif həlqədir. Peşələr haqqında şagirdlərin məlumatları lazımı səviyyədə deyildir. Bu işdə məktəb və valideynlər öz imkanlarından kordinə edilmiş formada istifadə etməlidirlər. Bu baxımdan məktəbin valideynlərlə apardığı işin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. Valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;
2. Şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması.

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq məktəbdə valideynlərlə iş planı tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd - peşəyönümü işində valideynləri müəllimlərin, şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir.

Sinif rəhbəri valideyn komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin uçotunu və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir: qrup və fərdi şəkildə aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə silahlandırmaq üçün təşkil edilən pedaqoji lektoriyalar və s.

Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada fərdi və qrup şəklində təşkil edilə bilər.

Fərdi iş formalarına: valideynlərlə söhbətlər; hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər; həkim məsləhəti aiddir.

Qrup şəklində aparılan iş formalarına: uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi, uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi, peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər; valideyn konfransları; valideyn yığıncaqları; peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr.

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla bitməyib, məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini tələb edir. Buraya: öz işinin ustası olan qabaqcıl valideynlərin (o cümlədən müəllim işləyən, valideynlərin) məktəbə dəvət edilməsi və onlarla görüşlərin təşkil edilməsi; valideyn komitəsi nümayəndələri ilə görüşlərin keçirilməsi və pedaqoji peşəyönümü məsələləri üzrə onlara məsləhətlərin verilməsi; məktəb peşəyönümü kabineti və ya guşəsinin tərtibinə valideynlərin cəlb edilməsi; sərgilərin, yığıncaqların təşkilinə valideynlərin cəlb edilməsi və s. aiddir.

Müəllimlərin valideynlərlə sıx əlaqəsi, onların peşəyönümü tədbirlərinə cəlb edilməsi bu işin məqsəd, vəzifə və formalarını başa düşməkdə və uşaqlara təsirin səmərəliliyini artırmaqda valideynlərə kömək edir.

Şagirdlərin pedaqoji peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailə arasındakı əlaqə formalarından səmərəli istifadə etmək lazımdır. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, pedaqoji peşəyə maraq göstərən şagirdlərin valideynləri ilə iş aparmaqda bu maraqları sabitləşdirmək və möhkəmləndirmək üçün həmin əlaqə formaları böyük əhəmiyyət kəsb edir. Məktəblə ailə arasındakı bütün mövcud əlaqə formaları valideynlər arasında pedaqoji təbliğatı gücləndirmək, uşaqların tərbiyəsi, peşəyönümü məsələlərində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq işində onlara kömək etmək məqsədi güdür. Məktəbin peşəyönümü üzrə valideynlərlə apardığı təcrübə mübadiləsinin əsas forması valideyn yığıncaqlarıdır. Valideyn yığıncağı ümumi tərbiyə, intizam və təlim müvəffəqiyyəti məsələlərinin həllində də əvəzedilməz kütləvi tədbirdir.

Beləliklə, sinif valideyn yığıncaqları ata-anaları pedaqoji cəhətdən savadlandırır və uşaqların tərbiyəsinin, peşəyönümünün konkret yol və vasitələrini onlara çatdırır.

З.З.Мамедова

Совместная деятельность семьи со школой
в организации работы выбора педагогической профессии школьников

Резюме

В статье отражены особенности совместной деятельности учителя с родителями во время организации работы выбора педагогической профессии. Выявлено, что к педагогическим про-

фессиям более склонны девушки. Главной причиной этому то, что родители профессию учителя считают для девушек более приемлемым, чем для парней. Нехватка в школах учителей мужского пола является одним из факторов, отрицательно действующих на качество обучения и воспитания.

Статья может быть также интересна учителям высших учебных заведений и исследователям.

Z.Z.Mammadova

The join activity of the family with school organization on the direction of the pedagogic vocation of the pupils

Summary

During the pedagogic profession in the article was reflected the teachers activity to the parents and their feature. It was known that for the pedagogic vocation tendency most of all are girls and for the girls the teachings are most acceptable but for the boys consider that they are non-professional. One of the main factor influences in the training and education degree are the minority of men teachers in the schools.

The article can be interesting both secondary and school family teachers and also for the investigators.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 02.06.2022

A.R.MURADOVA
e-mail: moonhva94@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRİN PEŞƏYÖNÜMÜ İŞİNİN TƏŞKİLİ FORMALARI

Açar sözlər: *pedaqoji peşəyönümü, peşəseçməyə hazırlanma, əmək tərbiyəsi, texniki peşə məktəbləri, peşə əməyi, əmək məhsuldarlığı.*
Ключевые слова: *педагогическая профориентация, подготовка к выбору профессии, трудовое воспитание, профессионально-технические училища, профессиональный труд, производительность труда.*
Key words: *pedagogic profession, preparation for choosing a profession, labor education, technical vocational schools, professional labor, labor productivity.*

Cəmiyyətimizdə şəxsiyyət və onun mənəvi keyfiyyətləri, təhsili, mədəniyyəti qarşısında qoyulmuş tələblər müntəzəm surətdə artır. Gənc nəslin formalaşması şəraiti isə nəinki yaxşılaşır, həm də xeyli mürəkkəbləşir. Bu mürəkkəbləşmənin əsas səbəblərindən biri də elektron və kosmos əsrində gənclərin mənəviyyatının formalaşmasına təsir göstərən, onların ideya və mənəvi düşüncələrini zənginləşdirən amillərin sayının getdikcə artmasıdır. Bu amillər həmçinin peşəyönümü prosesində də öz müsbət və mənfi təsirini göstərir.

Məktəblilərin peşəyönümü üzrə aparılan işlərin yeni aktuallıq və mürəkkəblik kəsb etməsinin bir səbəbi də suverenlik qazanmış respublikamızın beynəlxalq iqtisadi, siyasi və mədəni əlaqələrinin genişlənməsi, xalq təsərrüfatının bütün komponentlərinin qabaqcıl dünya dövlətlərinin qazandıqları texniki və texnoloji istehsal səviyyələri müqabilində qurmaq tələbi ilə bağlıdır. Respublikada yeni yaranmaqda olan və yaradılacaq müxtəlif sənaye sahələri, müəssisələr, qabaqcıl ölkələrin son elmi-texniki nailiyyətlər əsasında qurulacağından, məhz ona münasib, onun tələblərinə cavab verə biləcək yeni keyfiyyətli, geniş profilli kadr yetişdirməyi zəruri hesab edir. Ona görə də məktəblilərin gələcək həyata hazırlanmasında ailə və məktəbin ən yaxın köməkçisi məktəbdənkənar tərbiyə müəssisələridir.

Gənc nəsldə lazımi mənəvi və fiziki keyfiyyətlər yetişdirmək üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti kimi, məktəbdənkənar tərbiyə müəssisələrinin rolu da ildən-ilə artır. O cümlədən, böyüməkdə olan nəsillərin can sağlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və siyasi tərəqqisinin təmin edilməsində, demoqrafiya proseslərinin yaxşılaşdırılmasında ictimaiyyət olduqca mühüm rol oynayır. İnsanın xarakterinin özülü - əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Buna görə də hazırda məktəbdənkənar tərbiyə müəssisələrində ailənin, məktəbin, əmək kollektivlərinin qarşılıqlı əlaqəsini dərinləşdirmək, uşaqların tərbiyəsi üçün valideynlərin məsuliyyətini artırmaq lazımdır. XVII əsrdə yaşamış çex pedaqoqu Y.A.Komenski uşaq şəxsiyyətinin inkişafına təsir göstərən amillər barədə demokratik ruhlu daha doğru elmi fikirlər irəli sürürdü. "İrsiyyət nəzəriyyəsi"nin əksinə olaraq Komenski təsdiq etmişdir ki, uşağın psixi və mənəvi inkişafı üçün təbii imkanların (irsiyyətin), ictimai mühitin və tərbiyənin qarşılıqlı təsiri zəruridir. Komenski böyük demokratik və humanist kimi göstərmişdir ki, insanın zatından, ata-babasının kimliyindən, vəzifəli və rütbəli olub olmamasından asılı olmayaraq bütün uşaqlar tərbiyə vasitəsilə inkişaf etmək, bilikli, ağıllı, əxlaqlı və xeyirxah olmaq keyfiyyətlərinin imkanlarına malikdir. Lakin bütün insanlara xas olan belə bəşəri imkanlarla anadan doğulan bütün uşaqlar böyüklər tərəfindən lazımi şəkildə tərbiyə olunmazsa, təlim və təhsil almazsa, valideynlərdən irsən ona keçmiş həmin imkanlar inkişaf edərək insani qabiliyyətlərə heç vaxt çevrilməz, elə imkan olaraq qalar və insan heyvandan qətiyyən fərqlənməz. Bu haqda Komenski "Böyük didaktika" əsərində yazır: "Adam olmaq üçün insan təhsil almalıdır. Bilik,

əxlaqın toxumunu bizə təbiət verirsə də biliyin, xeyirxahlığın özünü vermir. Bu təlim fəaliyyəti sayəsində əldə olunur... heç bir insan təlim almadan adam ola bilməz” (3).

Qeyd etmək lazımdır ki, məktəbdənkənar tərbiyə müəssisələrinin məktəb, ailə və ictimaiyyətlə əlaqəsinin möhkəmləndirilməsi daha istedadlı uşaqların məktəbdənkənar tərbiyə müəssisələrində təşkil olunmuş dərnəklərə cəlb edilməsinə mühüm təkan verə bilər. Bu cəhətdən hüquqi demokratik cəmiyyət qurub, özəlləşdirmə, kooperasiya, xüsusi təsərrüfatçılığın özünə geniş yol açdığı, təşəbbüskarlığın, işgüzarlığın genişləndiyi indiki şəraitdə hər bir şəxsin genetik potensial imkanına uyğun formalaşmasına şərait yaratmaq tələb olunur. Keçmişdə olduğu kimi saxta sənəd-diplom xatirinə deyil, təbii imkan, fitri istedad, hüquqi maraq və ehtiyac əsas götürülməlidir. Bu baxımdan məktəbdənkənar tərbiyə müəssisələri nəzdində fəaliyyət göstərən dərnəklərdə uşaqlar gələcək həyata hazırlığın təməlini qoyur, konstruktor olmaq istəyən şagird “gənc konstruktor” dərnəyinə, texnika ilə maraqlanan “gənc texniklər” dərnəyinə və s. üzv yazılırlar və bu yolla öz istedadlarını inkişaf etdirirlər.

Uşaq şəxsiyyəti ilk növbədə ailədə və məktəbdə formalaşır. Müəllim ailədən məlumat alarkən müəyyən edir ki, burada uşağa kimlər və necə təsir edirlər. Belə təsir zamanı planlılıq, mütəşəkkillik varmı və ya hansı səhvlərə yol verilir? Uşaq yanında valideynlər və onlara təsir edən şəxslər nə dərəcədə nüfuzludurlar? Ata ilə ana uşağa tə sirdə vahid xətt tuturlarmı? Uşağın gələcək həyata hazırlanmasında, peşəyə istiqamətləndirilməsində hansı mövqeni tuturlar və s.

Məktəbdənkənar tərbiyə müəssisələri rəhbərlərinin məktəb və ictimaiyyətlə birgə işi vəhdət təşkil edərsə bu öz müsbət nəticəsini verər. Bu baxımdan aşağıdakı iş formalarından istifadə edilməsi məqsədəmüvafiq olar:

– məktəbdə və məktəbdənkənar tərbiyə müəssisələrində istedadlı uşaqların əl işlərinin sərgisini təşkil etmək;

– hətta bir şəhərdə yerləşən bir neçə məktəbdənkənar tərbiyə müəssisələrində çalışan istedadlı şagirdlərin əl işlərinin yarışını keçirmək;

– əgər mümkün olarsa kiçik tamaşalar və səhnəciklər hazırlamaq;

– respublikamızın müxtəlif şəhərlərində təşkil olunan yarışlarda iştirak etmək və s.

Bu cür maraqlı tədbirlər məktəbdənkənar tərbiyə müəssisələrinə şagird axınına səbəb olar və bekarçılıqdan bezib pis əməllərə əl atmaq istəyən şagirdlər müxtəlif maraqlı işlərlə məşğul olar ki, bu da şagirdin əməyə alışmasına, texnikaya maraq göstərməsinə səbəb olar.

Bundan əlavə, məktəbdankənar tərbiyə müəssisələrinin məktəb, ailə və ictimaiyyətlə əlaqəsinin mühüm cəhətlərindən biri də ondadır ki, bu müəssisələr məktəbdənkənar tərbiyə müəssisələrində müxtəlif tədbirlərin həyata keçirilməsinə yardım göstərir və onların köməyi ilə məktəbdənkənar tərbiyə müəssisələrinin işi sürətləndirilir. Burada aparılan işlərin keyfiyyətini artırmaq üçün oranı lazımi avadanlıqlarla, bu və ya digər sahələr üzrə ixtisaslaşdırılmış mütəxəssislərlə təmin etmək lazımdır. Buna görə də gənclərin peşəyönümü işini yalnız məktəb və məktəbdənkənar tərbiyə müəssisələrinə həvalə etmək düzgün olmazdı. Bu işdə ailə və ictimaiyyətin yaxından iştirakı vacibdir.

Apardığımız müşahidələr və əldə etdiyimiz faktlara əsasən deyə bilərik ki, məktəblərimiz-də şagirdlərin peşəyə istiqamətləndirilməsi işində həyata keçirilən tədbirlər müasir tələblər səviyyəsindən aşağıdır. Bunun başlıca səbəblərindən biri də məktəbdə aparılan peşəyönümü işlərinin məktəbdənkənar tərbiyə müəssisələrində və ailədə bu sahədə aparılan işlərlə əlaqələndirilməsidir. Bütün bunlar da bu təşkilatlar arasında əlbir işi daha dərindən təşkil etməyi, gənclərin müstəqil həyata və əməyə hazırlanmasının kökündən yax-şılaşdırılmasını, yeni müstəqil və demokratik cəmiyyətin şüurlu qurucularının tərbiyə edilməsinə daha qabiliyyətlə nail olmağı tələb edir.

Təcrübə göstərir ki, hazırda gənc peşə sahiblərinin əksəriyyəti yiyələndiyi peşəni tez-tez dəyişir, bir iş yerindən digərinə gedir və ya vəzifəsinə soyuq münasibət bəsləyir, əmək məhsuldarlığını yüksəltməyə can atmırlar. Bir çox hallarda isə hətta XI sinfi bitirmiş məzunlar da seçdikləri peşə və sənəd haqqında dəqiq fikir söyləyə bilmirlər. Onlar peşələri qohum və

tanışların, valideynlərin arzusu ilə seçirlər. Bunu pedaqoji təmayüllü universitetlərin I kurslarında oxuyan tələbələrlə "Nə üçün müəllim peşəsini seçmisən?" mövzusunda apardığımız sorğunun nəticəsindən də görmək olur. Peşənin düzgün seçilməsinin böyük ictimai və şəxsi əhəmiyyəti vardır. Qəlbə yatan peşə əməyi sevdirir, mənəvi nikbinlik yaradır, məhsuldarlığı artırır, insanı uzun müddət seçdiyi peşə sahəsində həvəslə, ilhamla işləməyə sövq edir.

Şagird bəzən peşə seçməklə müəyyən psixoloji maneələrə rast gəlir. Məsələn, orta məktəbi bitirən bəzi məzunlar ali məktəblərə qəbul imtahanlarında özlərini "sınamağı" nəzərdə tutur, texniki peşə məktəbini ehtiyatda saxlayırlar. Gənclər çox vaxt texniki peşə məktəblərinə necə deyərlər, "çarəsizlikdən" həvəs göstərirlər.

Şagirdlərin peşəyə istiqamətləndirilməsini, yuxarıda göstərildiyi kimi məktəblilərin peşə seçmək sahəsində mövcud olan bu xoşagəlməzliyin, qeyri-ciddiliyin günahını bir tək böyüklərin üstünə atmaq düzgün olmaz. Doğrudur, müəyyən dərəcədə böyüklər peşə seçməkdə öz iradələrini yeniyetmə və gənclərə qəbul endirə bilirlər. Məhz bunun nəticəsində uşaq və yeniyetmələrin təbii potensial imkanları, meyl və maraqları nəzərə alınmır. Ona görə də yeniyetmə sonralar bu peşəyə gəlməyə peşiman olur və öz peşəsindən bezir. Fikrimizcə peşəyönümü işində ən əsas çatışmamazlıqlar məktəblərdə və məktəbdənkənar tərbiyə müəssisələrində işlərin bir-birilə əlaqələndirilməməsində, peşəyönümü məqsədilə aparılan tərbiyə işlərinin informasiya xarakteri daşımasında əməli, praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılmasına çox az yer verilməsi ilə izah olunmalıdır.

Ədəbiyyat

1. Axundov S.Q. Əmək tərbiyəsi və peşəyönümü. – Bakı, "Gənclik" nəşriyyatı, 1980.
2. Qaralov Z.İ., Hüseynov Ə.M. Bütün peşələr yaxşıdır, istədiyini seç. – Bakı, Maarif, 1979, 84 s.
3. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Azərnəşr, – Bakı-1961, 84 s.
4. Məktəblərdə peşəyönümü işinin təşkilinə dair (metodik tövsiyyələr). Tərtib edən Ə.Sarıyev. Bakı, APİ, 1987, 16 s.
5. Məcidov K.T. Məktəblilərin şüurlu olaraq peşəseçməyə hazırlanması yolları. "Azərbaycan məktəbi", 1988, № 2.
6. Платонова К.К. Цели и задачи профессиональной организации. В.кн: "Професиональная ориентация молодежи". Высшая школа, 1978.

А.Р.Мурадова

Формы организации профориентации школьников

Резюме

В статье определено, что неправильно возлагать всю вину за легкомыслие и несерьезность школьников в сфере выбора профессии только на взрослых. Естейственно, в определенной степени взрослые могут навязывать свою волю подросткам и молодежи в выборе профессии. И вследствие этого не учитываются природные потенциальные возможности, склонности и интересы детей и подростков. Поэтому подросток потом жалеет, что пошел в эту профессию и профессия ему надоедает. По нашему мнению, основные недостатки профориентационной работы следует объяснять несогласованностью работы в школах и внешкольных образовательных учреждениях, это следует объяснить тем, что формированию практических знаний, умений и навыков в учебной деятельности, осуществляемой с целью профессиональной ориентации, уделяется мало места.

A.R.Muradova

Forms of organization of pupils' vocational work

Summary

In article it is determined, that it is wrong to put the blame for the unpleasantness and frivolity of schoolchildren in the field of choosing a profession, on the adults alone. It is true that to a certain

extent, adults can impose their will on teenagers and youngers in choosing a profession. As a result of this, the natural potential opportunities, inclinations and interests of children and teenagers are not taken into account. Therefore, the teenager later regrets joining this profession and gets bored of his profession. In our opinion, the main deficiencies in the work of vocational orientation should be explained by the lack of coordination of work in schools and out-of-school educational institutions, information nature of the educational work conducted for the purpose of vocational orientation, and the fact, that little space is given to the formation of practical, practical knowledge, skills and habits.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 02.06.2022

S.N.MUSAYEVA,
M.Ə.ƏSGƏROVA

DOI:10.48652/l4485-0807-0355-b

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AİLƏNİN SAĞLAMLIĞINDA QİDALANMANIN ROLU

Açar sözlər: *qidalanma, həzm, vitamin, üzvi birləşmələr.*
Ключевые слова: *питание, пищеварение, витамин, органические соединения.*
Key words*: nutrition, digestion, vitamins, organic compounds.*

Qidalanma elmi insan orqanizmində qidanın enerjiyə və insan bədənin quruluşuna çevrilməsi haqqında elmdir. Qidalanma orqanizmin əsas fizioloji tələbatıdır. Düzgün qidalanma isə orqanizmin böyümə və inkişafında, normal fəaliyyət göstərməsində, xəstəliklərə qarşı müqavimətinin olmasında mühüm yer oynayır. Düzgün qidalanma dedikdə, qidalanma rejiminə düzgün və vaxtında əməl etməkdən qidanın saxlanılma qaydasından asılıdır. Qida orqanizmdə hüceyrə və toxumaların qurulma və təzələnməsində, böyüməsində mübadilə proseslərində orqanizmin həyat fəaliyyəti üçün lazım olan "ilkin materialdır". Qidalanmada başlıca məqsəd insanın həyat və fəaliyyəti üçün enerji və üzvi maddələrin yerini doldurmaqdır. Qidanın çox müxtəlif olmasına baxmayaraq, o yalnız 6 maddədən ibarət olur: yağlar, zülallar, karbohidratlar, mineral maddələr, vitaminlər və sudan.

Səmərəli və düzgün qidalanma – kifayət miqdarda və keyfiyyətcə tam dəyərli qidalanmadır və bunun da əsasını qidanın bütün tərkib hissələrinin optimal nisbətdə olması təşkil edir. Qidalanmanın bir çox funksiyaları vardır. Bunlardan ən asası orqanizmi enerji ilə təmin etməkdir. İkinci funksiyası isə, orqanizmi üzvi maddələrlə – zülallarla, karbohidratlarla təchiz etməkdən ibarətdir. Qidalanmanın üçüncü funksiyası isə orqanizmi bioloji aktiv maddələrlə təchiz etməkdir.

Səmərəli qidalanma latın sözü olub (rationalis) mənası 'düşüncəli' qidalanma deməkdir. Sağlam adamların fizioloji tələblərini ödəyən tam dəyərli qidalanmadır.

Bu cür qidalanma orqanizmin normal inkişafina fəaliyyət göstərməsinə səbəb olur, sağlamlığın qorunmasına kömək edir, ətraf mühitin zərərli amillərindən qoruyur, ömrü uzadır. Səmərəli qidalanmanın başlıca şərti qida payıdır.

İnsan sağlamlığı, onun dözümlülüyü, uzun yaşaması bundan asılıdır. Qida payı dedikdə, onun tərkibində bir-birinə düzgün nisbətdə olan optimal miqdarda qidalı maddələrin olmasıdır. Qida payının enerjisi orqanizmin sərf etdiyi enerjiyə bərabər olmalıdır, yəni onu ödəməlidir. Vacib odur ki, qidanın yaxşı orqanoleptik xassələri:lazımi konsistensiyası, xoşa gələn dadı, iyi, müvafiq zahiri görünüşü, rəngi, şəkli, optimal temperaturu olsun. İnsanın iştahasına, qidanın həzm olunmasına qidanın bu xassələrinin böyük təsiri var. Qidaya verilən tələblərdən biridə onun rəngarəngliyidir. Bu məqsədlə yeyinti məhsulları geniş çeşiddə olmalı, müxtəlif cür bişirilmə üsulları tətbiq edilməlidir. Eyni zamanda yeyinti məhsulları sanitar-gigeyinik tələblərə uyğun və tamamilə zərərsiz olmalıdır. Səmərəli qidalanmanın ikinci mühüm şərti, qidalanma rejimidir. Bu rejimə qidanın nə vaxt yeyilməsi, qida qəbulu arasında fasilə, qida payından ibarətdir. Qida payı yeyinti məhsullarının növünə görə: səhər, günorta (nahar), axşam yeməyindən ibarətdir. Eyni zamanda qidanın yeyilməsi şəraitinində mühüm əhəmiyyəti var. Süfrənin səliqəli düzəldilməsi, ətraf mühit, yeməkdən diqqəti yayındıran amillərin olmaması yemək yeyərkən xoş əhval-ruhiyyənin olması bütün bunlar iştahanı açır, qidanın daha yaxşı həzm olunmasına kömək edir. Qidalanmadan bəhs edən bu elm 3 əsas prinsipə əsasla-

nır: qədərində yemək, qida müxtəlifliyi və qidalanma rejimi. Bunlardan ən vacibi qədərində yeməkdir. Qədərində yemək insan sağlamlığı üçün çox önəmlidir. Bir çox alimlər, filosoflor, həkimlərlər öz əsərlərində həmişə qədərində yeməyin faydalarından bəhs etmişlər. Böyük Hipokrat öz əsərlərində qeyd etmişdir: "mədənin həddindən artıq dolması xəstəlik törədir, arıq adamlar kök adamlardan daha çox yaşayırlar"

Qidalanma rejimi.

Orqanizmin normal həyat fəaliyyətinin və onun sağlamlığının qoruyub saxlanılmasında qidalanma rejiminin mühüm rolu vardır. Qidalanma rejimi dedikdə gün ərzində yeyilən qidanın miqdarı və yeyilmə vaxtdı, qida payının enerji dəyəri, kimyəvi tərkibi və s. aiddir. Ərzaqların çeşidinə və çəkisinə görə və vaxtda görə səhər yeməyinə, nahar (günorta) və şam (axşam) yeməyinə bölünür.

İnsan orqanizmi elə qurulmuşdur ki, müəyyən vaxtda həzm yolu özünü qida qəbulu üçün hazırlayır və bunu xəbər verir. Vaxtlı-vaxtında yeməyə adət etmiş adam özünü mədəsinin verdiyi siqnala görə saatı yoxlaya bilər. Əgər hər hansı bir səbəbdən adam yemək vaxtdını ötürərsə orqanizm öz işini yenidən qurmağa məcbur olur ki, bununda sonradan mənfi nəticələri olur. Yemək vaxtdı çatdıqda yaxud bir müddətdən sonra yeməyi yada saldıqda mədəyə mədə şirəsi tökülməyə başlayır. Əgər bu vaxt mədədə heç bir qida maddəsi yoxdursa həmin mədə şirəsi mədənin və 12 barmaq bağırsağın divarına təsir etməyə başlayır. Beləliklə tez-tez yemək vaxtdı pozulduüda mədə xorası, qastrit, mədə bağırsaq sisteminin başqa xəstəlikləri əmələ gəlir. Normal qidalanmanın bu cür mənfi nəticələrinin qarşını almaq üçün həmişə vaxtlı-vaxtında yemək lazımdır. Əgər bu müəyyən səbəbdən mümkün deyilsə az da olsa qida qəbul etmək lazımdır. İnsanın qidalanmasının mərkəzi sinir sistemi idarə edir. Baş beyində qida mərkəzi (iştah mərkəzi) yerləşir. Bu mərkəzin normal və düzgün işləməsi üçün düzgün qidalanmanın son dərəcədə mühüm əhəmiyyəti vardır. Gün ərzində vaxtlı-vaxtdında müəyyən saatlarda qidanı hər dəfə düzgün bölüşdürüb yemək (qida maddəsinin həm miqdarı və kaloriliyinə həmdə tərkibinə görə) lazımdır. Vaxtlı-vaxtdında yeməyə adət etmiş insanda yemək vaxtdı çatdıqda aclıq hissi: iştaha əmələ gəlir. Lakin bilmək lazımdır kı, aclıq hissi və iştaha eyni deyil. Aclıq orqanizmin elə bir fizioloji halıdır ki, bu vaxt qana orqanizmin normal həyat fəaliyyəti üçün lazım olan qida maddələrinin daxil olmasının arası kəsilir. İştaha isə ləzzətli yeməyi gördükdə, onu yada saldıqda, iyi gəldikdə yaranır, halbuki bu vaxt orqanizmin yeni qida payına fizioloji tələbatı yoxdur. Lakin bəzi hallarda orqanizmin növbəti qida payına ehtiyacına olmasına baxmayaraq iştaha olmur yemək istəmirsən. Bu artıq xəstəlik halıdır belə hala səbəb qidalanmanın əsas qaydalarının müntəzəm sürətdə pozulması olur. Normal qida refleksi uşaq vaxtlarında yaranır. Uşaqlarda qida mərkəzi refleksi nəinki qidanı gördükdə hətta onu yada saldıqda tez oyanır. Orqanizmin fizioloji tələbatı ilə əlaqədar olmayan iştahanı ödəmək hissi mütləq həzmin pozulmasına həddindən artıq çox yeməyə piylənməyə gətirib çıxarır. Gündə bir neçə dəfə yemək, yemək arası vaxt hər dəfə nə qədər yemək məsələsi tibb elminin qidalanma gigiyenanın əsas məsələlərindən biridir. Tez-tez yemək düzgün deyil, bu cür qidalanma orqanizmi daim gərgin vəziyyətdə saxlayır. Həzm sistemi, başqa orqanlar xüsusilədə sinir sistemində müəyyən pozğunluqlar əmələ gəlir. Məsələn, gündə iki dəfə yemək yedikdə insan özünü yaxşı hiss etmir, bərk acır qidanın mühüm hissəsi olan zülalın orta hesabla 75%-i həzm olunur. Gündə 3 dəfə yedikdə isə adam özünü yaxşı hiss edir, yeməyi iştaha ilə yeyir, zülalın 85%-i həzm olunur. Gündə 4 dəfə yemək yedikdə zülalın həzmi yenə 85% təşkil edir, ancaq adam özünü 3 dəfə yedikdə olduğundan daha yaxşı hiss edir. Alimlərin fikrinə görə, gündə 5-6 dəfə yemək isə həzm pozğunluğuna səbəb olur. Beləliklə sağlam insan gündə 3-4 dəfə yemək yeməlidir.

Ən böyük məsələlərdən biridə yeməklər arası fasilədir. Fizioloji baxımdan ən yaxşı qidalanma rejimi yediyimiz yemək həzm olunub qurtardıqdan sonra növbəti yeməyi qəbul etməkdən ibarətdir. Çünki digər orqanlar kimi həzm orqanlarınında dincəlməyə ehtiyacı vardır. Həzm prosesi orqanizmdə gedən bütün proseslərə xüsusən mərkəzi sinir sisteminə müəyyən

dərəcədə təsir göstərir. Bütün bunlardan belə nəticəyə gəlmək olarki vaxtlı-vaxtında yeməyə adət etmiş adamın yemək vaxtdı normal iştahası əmələ gəlir. Həzm prosesinin müddətini göstərən amillərdən biridə qidanın mədədən çıxma vaxtdıdı. Həzm prosesi normal olduqda bu proses 4 saat çəkir. Hər dəfə yemək mərkəzi sinir sisteminə çox dərəcədə təsir edir. Yeməkdən sonra xüsusən çox yedikdən sonra adamda laqeydlik əmələ gəlir, onun diqqəti azalır, iradəsi zəifləyir, yuxu əmələ gəlir. Belə hal təxminən 1-1.5 saat davam edir, sonra keçib gedir, 4 saatdan sonra həzm mərkəzi normal hala düşür və yenidən iştaha əmələ gəlir. Rejimlə qidalanan adamlar vaxtdında yemək qəbul etməsə diqqəti azalır, ümumi zəiflik əmələ gəlir, əmək qabiliyyəti azalır. Bəzi hallarda iştaha tamam kəsilə bilər. Belə hal müntəzəm sürətdə davam edərsə həzm prosesi pozulur. Qida qəbulu arasındakı ən uzun fazilə gecə yuxusu vaxtdı olur. Bu fasilə 10-12 saat saatdan çox olmamalıdır. Ən yaxşı qidalanma rejimi gündüz vaxtdı yeməklər arası fasilə 4-5 saat olmalıdır.

Gün ərzində yeyiləcək qidanın tərtib edilməsinin yəni menyunun böyük əhəmiyyəti var. Menyuda qəbul ediləcək qidanın miqdarı keyfiyyəti tərkibi hazırlanma qaydası və ayrı-ayrı yeməklərin hansı ardıcılıqla yeyilməsi nəzərdə tutulur. Normada adamın gün ərzində yediyi qidanın miqdarı duru yeməklər və içkilərdə birlikdə 3 kq-a qədərdir. Səhər yeməyi yuxudan durduqdan sonra ilk dəfə yeyilən yeməkdir. Yuxu ərəfəsində yeyilən qidanın hamısı gecə yuxuda olarkən həzm olunur. Yuxu zamanı bütün orqanlar həmçinin həzm orqanları dincəlir. Bundan sonra onların yenidən işləməsi üçün yaxşı şərait yaranır. Alimlərin fikrinə görə, həm zehni, həmdə fiziki işlə məşğul olan insanlar mütləq səhər yeməyi yeməlidir. Səhər yeməyi daha dəyərli, tez həzm olunan, eyni zamanda qida maddələri, vitaminlərlə zəngin olmalıdır. Əks halda ac qarnına işə başlayan adamlarda işi səmərəli alınmaz, iş qabiliyyəti aşağı olar. Çox vaxt insanlar səhər bir stəkan qəhvə və ya çay içməklə kifayətlənirlər. Vaxtın az olmasını bəhanə gətirirlər bu isə qidalanma rejiminin pozulmasına səbəb olur. Qidalanma rejiminin pozulması insanın öz əlindədi onu qaydaya salmaq həmişə mümkündür. Zərərli vərdişləri (alkokol, nikotin) tərgitmək insanın özündən və iradəsindən asılıdır. Nə vaxtda qədər zərərli vərdişlər insanın qidalanmasında var bu zaman bir çox xəstəliklərin yaranmasına şərait yaranır, orqazinmin immunuteti aşağı düşür maddələr mübadiləsi pozulur və s. Bu da öz növbəsində iş qabiliyyətinin aşağı düşməsinə, əlilliyə hətta ömrünün azalmasına səbəb olur.

Vitamin orqanizmin normal həyat fəaliyyəti üçün vacib olan lakin insan və heyvan toxumalarında sintez edilməyən xırda molekullu üzvi birləşmələrdir. Orqanizm vitamini ərzaq məhsullarından və bağırsaq mikroorqanizmindən alır. Vitaminlər kofermentlərin tərkibinə (kokarboksilaza) daxil olmaqla fermentativ reaksiyaların surətini tənzim edir.

Fizioloji aktiv maddələrin bir qrupuna «vitaminəbənzər» maddələr adı verilmişdir. Bu qrupa molekul zəncirində 1 neçə ikiqat rabitə olan üzvi turşular (olein, linol, linolen, araxidol turşuları), ubixinon, xolin (B4 vitamini) rutin, inozin (Bö vitamini), lipoy turşusu (N), karnitin (B7), orat turşusu (B13), panqam turşusu (B15) S-metil metionin (P) və s. aiddir. Vitaminlərin bəziləri qida maddələrinin tərkibində provitamin şəklində olur. Onlar toxumada müvafiq vitaminlərə çevrilir. Bu yolla insan orqanizmində karotindən A vitamini, erqosterindən isə D vitamini sintez edilir.

A, D, E, K vitaminiəri (yağda həll olan) toxumalarda (xüsusən qaraciyərdə) depo halında toplanır. Suda həll olan vitaminlər orqanizmin toxumalarında kofermentlərin sintezinə sərf edilir. Kofermentlər müvafiq apofermentlərlə (fermentli zülali hissəsi) birləşib mürəkkəb ferment kompleksinə çevrilir. Vitaminlər toxumalarda tədricən katabolizm prosesinə uğrayır və müxtəlif matabolitlər şəklində orqanizmdən xaric edilir. Yağda həll olan vitaminlərin katabolizmi nisbətən zəif sürətlə həyata keçir.

Orqanizmdə vitamin balansının pozulmasının 2 növü vardır: 1) vitamin çatışmamazlığı və ya vitamin aclığı (mənfi balans); 2) orqanizmdə tədricən artıq vitamin toplanması (müsbət balans).

D vitamini. Gündəlik tələbat südəmər uşaqlar üçün 13- 25 mkq-a (500-1000 BV), yaşlılar üçün 7-12 mkq bərabərdir (D3 vitamininə görə).

Uşaqlarda D avitaminozunun (raxit xəst) əsas əlamətləri inkişaf etməkdə olan sümüklərdə mineral maddələrin azalmasıdır. Raxit xəstəliyinə tutulmuş uşaqda bağırsaqlardan Ca sorulması və sümük toxumasının minerallaşması pozulur: qanda həm Ca, həm də fosforun miqdarı azalır, sümüklər deformasiyaya uğrayır.ədə

E vitamini. Orqanizmin E vitamininə tələbatı fizioloji haldan asılıdır. Orta yaşlı insan gün ərzində qida vasitəsilə 20-30 BV miqdarda E vitamini almalıdır. İnsanlarda E avitaminozu aşkar edilməmişdir. E vitamini ilə müalicə olunan bir sıra xəstəliklər məlumdur (sonsuzluq, əzələ distrofiyası və s.).

Bı vitamini (tiamin) gündəlik tələbat yaşdan, qəbul edilən ərzaq məhsularının tərkibindən və görülən işdən asılıdır. İnsan qidanın tərkibində hər 100 q karbohidrata 100 mkq tiamin qəbul etməlidir. Gündəlik tələbat 0,5-3 mq Bı avitaminozu sinir, ürək-damar və həzm sisteminin patoloji dəyişikliklərin səbəb olur. Avitaminozla əlaqədar beri-beri xəstələrində sinir liflərinin iltihabı (polinevrit) müşahidə edilir.

B2 vitamini (riboflavin) gündəlik tələbat kişilər üçün 2,2-3,4 mq, qadınlar üçün 1,9-2,5 mq-dır. Hamiləlik laktasiya, ultrabənövşəyi şüaların və termik amillərin orqanizmə təsiri bu vitaminlərə qarşı tələbatı artırır.

B6 vitamini (piridoksin) insan qida vasitəsilə gündə 2 mq-a qədər BÖ vitamini almalıdır. Avitaminoz ürəkbulanma, qusma, ağız bucağında xora, konyuktivit, dermatit.

B12 vitamini (siano kobalamin). Gündəlik tələbat 1-3 mkq.

B12 vitamini uzun müddətli çatışmamazlığı bədxassəli anemiyanın inkişafına səbəb olur. Avitaminoz zamanı qanda eritrositlərin sayı 1-3 mln/mkl olur (normal halda 5-6 mln). Avitaminozun yüngül formalarında xəstənin iştahası azalır, boy artımı ləngiyir. Hərəkət koordinasiyası. və nəsiltörətmə qabiliyyəti pozulur.

C vitamini (askorbin turşusu). Gündəlik tələbatı 50-75 mq-a bərabərdir.

Yer kökünün tərkibində şəkər,zülal, efir maddələri, çox az miqdarda yağ azotlu maddələr mineral duzlar (kobalt, kalium mis dəmir fosfor yod), fermentlər vitaminlərdən A, B, B_1, B_2, B_6 E, K pantoten turşusu vardır. Yerkökündə karotin daha çoxdur (0.4% qr). Vitaminlər yerkökünün üst qatında daha çoxdur.

Çuğundurdan həm qida maddəsi kimi, həm də bir çox xəstəliklərin müalicəsində dərman vasitəsi kimi istifadə edilir. Onun tərkibində çoxlu faydalı maddələr ilk növbədə betain adlı üzvi maddə vardır. Betain qidanın tərkibindəki zülalın parçalanmasına və mənimsənilməsinə kömək edir, xolinin əmələ gəlməsində iştirak edir. Xolin isə qaraciyər hüceyrələrinin həyat fəaliyyətini artırır. Ağ turp mikroelementlər, şəkərlə və fermentlərlə zəngindir. Sellülozun miqdarına görə bitkilər içərisində ən öndə gedənidir. Eyni zamanda B,C və xeyli miqdarda kalium duzlarıda vardır. Kahının yarpaqlarında C, B, PP, A vitaminləri var. Kahının tərkibində kalium, üzvi turşular və sinir sistemini sakitləşdirən laktusin qlükozidi var.

Ədəbiyyat

1. V.S. Mixaylov, L.A. Truşina, N.L.Mogilnı "Qidalanma mədəniyyəti və ailənin sağamlığı".
2. http://abc.az/mobile/view.php?id=11268&lng=az
3. https://evdarliq.az/index.php/metbex/erzaqlar/343-duz-haqqinda
4. https://m.modern.az/az/news/190301/ne-yemek-ne-qeder-yemek-ve-nece-yemek-meshur-logmanin-meslehetleri

С.Н.Мусаева, М.А.Аскерова

Роль питания в здоровье семьи

Резюме

В этой статье говорится о нутрициология и её важной роли в здоровье человека. Правильное питание играет важную роль в жизни семьи. Такой тип питания способствует нормальному росту и развитию организма. В то же время он защищаеи организм от различных заболеваний и окружающую среду от вредных факторов, укрепляет иммунитет и продлевает жизнь. Расстройство пищевого поведения и вредные привычки могут привести ко многим заболеваниям, которые со временем могут стать хроническими и ослабить иммунную систему организма.

S.N.Musayeva, M.A.Asgarova

The role of nutrition in the health of the family

Summary

This article is about nutrition and its important role in human health. Proper nutrition plays an important role in the life of the family. This type of nutrition contributes to the normal growth and development of the body. At the same time, it protects the body from various diseases and the environment from harmful factors, strengthens the immune system and prolongs life. Eating disorders and bad habits can lead to many diseases, which over time may become chronic and weaken the body's immune system.

Rəyçi: dos. S.X.Zamanova

Redaksiyaya daxil olub: 24.05.2022

Ə.M.NƏBİYEVA
e-mail: abili_90@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

BİOLOJİ TƏHSİLİN İNKİŞAFINA MÜASİR TƏLİM VASİTƏLƏRİNİN TƏSİRİ

Açar sözlər: *bioloji təhsil, interaktiv təlim, konstruktiv metod, təlim texnologiyaları, sxem-cədvəl*
Ключевые слова: *биологическое образование, интерактивное обучение, конструктивный метод, технологии обучения, схемы-таблицы.*
Key words: *biological education, interactive learning, constructive method, training technologies, scheme-table*

Bioloji təhsilin inkişafında yeni təhsil islahatları, interaktiv təlim, konstruktiv metodlar, kommunikativ təlim üsulları, müasir təlim texnologiyaları, modern metodika və üsullardan istifadə imkanları mühüm əhəmiyyət daşıyır. Təhsil sahəsində həyata keçirilən islahatların çoxluğu bu sahədə mövcud olan və yeni yaranmış problemlərin həllinə kömək məqsədi daşıyır. Hər gün dəyişən və yenilənən təlim texnologiyaları da hələlik bu problemlərin öhdəsindən gələ bilmir. Bir çox alimlərin fikrincə texnologiya az-çox dərəcədə, qarşıya qoyulmuş məqsədə çatmaq üçün şagird və müəllim arasındakı münasibətlərin möhkəm və dəqiq proqramlaşdırılmış prosesindən ibarətdir. Bu prosesdə qarşıya qoyulmuş təlim məqsədi aydın, yığcam və dəqiq ifadə olunmalıdır.

Bəzi tədqiqatlarda pedaqoji texnologiyaya interaktiv təlim metodları da deyilir. Nəzərə alsaq ki, interaktiv sözünün mənası insanlararası qarşılıqlı əlaqədə fəaliyyət göstərmək deməkdir, onda bu metodun tətbiqi zamanı dərsdə müəllim şagirdlə, şagird-şagirdlə qarşılıqlı məqsədyönlü fəaliyyət göstərməlidir. İnteraktiv təlimdə istifadə olunan müxtəlif üsullar, mərhələli təşkil olunmuş tədris prosesi və texnoloji imkanlar bioloji təhsilin tədrisi perspektivlərini genişləndirməlidir. Bizim təklif etdiyimiz metodikada isə müəllim-şagird, müəllim-tələbə, şagird-tələbə-müəllim, şagird-təcrübəçi müəllim, şagird-eksperimentator müəllim və s. qarşılıqlı-məhsuldar əlaqələr yaranır, tədrisin səmərəliliyi və dərsə maraq nəzərə çarpacaq dərəcədə yüksəlir.

Tədqiqat süzgəcindən keçirdiyimiz metodlardan biri də mövzunun cədvəl-sxem vasitəsilə təqdil olunmasıdırr. Bu üsulla hazırladığımız dərslər xüsusi didaktik məqsədlər daşımaqla bərabər, həm də dərkolunma və yaddaqalma kimi psixoloji anlayışların da formalaşmasına geniş imkanlar yaradır. Məsələn, aşağıdakı mövzunun sxem-cədvəllə nümayişini təqdim etməklə həm interaktivlik, həm texnoligiyadan istifadə, həm də auditoriyanın diqqətini çəkməyə nail olmağın imkanlarını göstərək:

«Yaddaş. Onun növləri» mövzusunda şagirdlərin məlumatlarını dinləmək. Yaddaşın ən yüksək inkişaf müddəti 25 - 50 yaşdır.



Təkrar etmək - yadda saxlamanın mühüm şərtidir. Lakin kortəbii təkrar yox, planlı, məqsədyönlü və düşünülmüş təkrar faydalıdır. Yadda saxlamada yaddaşı yoxlamaq və möhkəmləndirmək üçün tapşırıqların, müxtəlif təfəkkür və ağıl əməliyyatlarının və s. rolu əvəzsizdir. Dissertasiya işində, biz, bu imkanların da müəyyən olunmasına nail ola bilmişik.

Psixoloji tədqiqatlardan aydın olur ki, diqqətin əsas xüsusiyyətləri olan cəmlənmə və

möhkəmlik ehtiraslı, həvəsli insanları daha çox xarakterizə edir. Müxtəlif şəraitlərdə diqqətlə işləməyi öyrənmək, kənar qıcıqlardan yayınmaq lazım deyil. Diqqətin davamlılığının inkişafı şagirdin iradi xüsusiyyətlərinin tərbiyə dərəcəsi, diqqətin daxili nizamlanması ilə bağlanmalıdır.

Yadda saxlama iki üsulla reallaşa bilər: mexaniki və dərketmə.

Yadda saxlamanı əsas fikri seçmək, plan, cədvəl, sxem tərtib etmək, illüstrasiyalardan düzgün istifadə etmək və yaddaşı daha çox məşq etdirmək şərtləndirir. Yaddaşın növləri:



Məlumdur ki, insan beyni bir çox təfəkkür əməliyyatlarını eyni anda yerinə yetirməyə qabil bir sistemə malikdir. Məsələn, bir insane beynindəki qüsursuz quruluş sayəsində bir tərəfdən avtomobili sürərkən, digər tərəfdən maqnitofonu işə sala bilir, o əsnada sükanı da rahatlıqla idarə edə bilirik. Bir çox işi eyni anda yerinə yetirməyimizə baxmayaraq qarşımızdakı avtomobillər və ya piyadalarla toqquşmuruq. Eyni anda ayaqlarımız ilə qaz pedalını idarə edirik. Radio dinləyərkən deyilənləri də tam şəkild əanlayırıq. Söhbətə qaldığımız yerdən davam edir və ən əsası odur ki, bütün bu proseslərin hamısını eyni anda mükəmməl idarə edirik.

Təfəkkürü inkişaf etdirmək, beyinin gimnastikası üçün tapşırıq:

Üç cırtdana 5 papaq göstərirlər (3 qırmızı, 2 göy). İşığı söndürürlər. Qaranlıqda onlardan ikisinə göy, birinə qırmızı papaq geyindirdilər. Başqasından soruşmadan onlardan hansı dəqiq deyə bilər ki, onda hansı papaqdır?

III. Biliyin möhkəmləndirilməsi

Yaddaşın gigiyenası, fizioloji təbiəti, mexanizmi və əhəmiyyəti haqqında şərh vermək.

IV. Ev tapşırıqları

– Verilmiş mövzunu oxuyub, təhlil etmək, internetdən əlavə məlumat toplamaq;
– Öz fikirlərinizlə şərh etmək;
– Misallar göstərmək;
– BİBO cədvəli tərtib etmək və cədvəli doldurmaq.

Pedaqoji təcrübə zamanı tərəfimizdən təqdim olunan bu dərs modeli maraqla qarşılandı. Digər oxşar dərsi fərqli üsullarla apardıq. Yenə multimedialı təqdimatla şəkillər, cədvəl, sxem, izahat hazırladıq, lakin bu dəfə mövzuya aid video fraqment, internetdən əldə etdiyimiz laboratoriya təcrübələri də əlavə etdik. Dərsin gedişi zamanı zəruri hallarda interaktiv üsullardan da istifadə həm dərsin canlı, maraqlı keçməyinə, həm də mənimsəmə səviyyəsinin yüksəlməsinə səbəb oldu.

XXI əsr sürət əsri olduğundan hər işdə olduğu kimi təhsildə də sürətli irəliləyişlərin getməsi labüddür.Modernləşmənin başlıca vəzifəsi məktəb təhsilinin yeni müasir səviyyəyə çatdırılmasıdır. Məlumdur ki, pedaqoji texnologiyalar yalnız təhsilin elementi kimi deyil, həmçinin onun məqsədi, məzmunu, prosesi və nəticəsi kimi xidmət göstərir və bu zaman o, təhsilin ayrılmaz hissəsinə çevrilir. Təcrübə göstərir ki, bir çox yeniliklərin, texnologiyaların kortəbii şəkildə tətbiqi arzu olunan nəticəni vermir. Hər bir yeniliyin məqsədə müvafiq olması və yerində nəzərə alınması, şübhəsiz ki, görülən işin xeyrinə olacaqdır. Biologiyanın tədrisi zamanı da ən maraqlı və nümayişi zəruri olan proseslərin yeni təlim texnologiyaları ilə tədrisi auditoriyanın geniş marağına səbəb olur.

Biologiyanın tədrisində yeni məzmunlu mövzuların öyrədilməsi zamanı dünya təcrübəsindən novatorcasına istifadə, yeni təlim texnologiyalarından əsaslı şəkildə istifadə ön plana çəkilməlidir. Müasir dərs deyən müəllim özü də müasir olmalı, respublikada və dünyada gedən yeni təhsil islahatları ilə mütəmadi maraqlanmalı, öz işlərində tətbiq etməlidir. Hazırda respublikamızda da yeni təlim texnologiyalarından, interaktiv təlim metodlarından istifadəyə daha çox üstünlük verilməlidir. Nəzərdə saxlamalıyıq ki, texnologiya, ümumi halda ətraf aləmin dəyişdirilməsi, materiallar istehsalı və mənəvi dəyərlər sisteminin formalaşması ilə bağlı insanlar tərəfindən tətbiq olunan, elmi və praktik cəhətdən əsaslandırılmış fəaliyyət sistemidir.

А.М.Набиева

Возможности воздействия средств обучения на развитие биологического образования

Резюме

В статье отмечено важное значение новых образовательных реформ, интерактивного обучения, конструктивных методов, коммуникативного обучение, современных технологий обучения, модернизированной методики и возможности способов их использования в развитии биологического образования. И подтверждается тем, что большинство реформ, проведенных в области образования, направлены на решение существующих и возникающих проблем в этой области.

В настоящее время необходимо предпочитать использование новых технологий обучения и методов интерактивного обучения. Потому что, современные технологии с научной и практической точки зрения являются обоснованной системой деятельности, примененные людьми при производстве материалов и формировании системы моральных ценностей, в общем, на изменении всей окружающей среды.

A.M.Nabiyeva

Influence of modern trainings in the development of biological education

Summary

Article outlines the new educational reforms in the development of biological education, interactive training, constructive methods, communicative training, modern learning technologies, and the use of modern methods and techniques are important. It is based on the fact that many such reforms in the field of education aim at solving existing and emerging problems in this area.

At present, new training technologies and interactive learning styles should be more emphasized. Because it is based on modern technology, in general, the changing of the environment, the production of materials and the formation of the system of moral values, based on the scientific and pragmatic operating systems.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev
Redaksiyaya daxil olub: 25.05.2022

T.Ə.NƏBİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: tahmina_nabiyeva@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBDƏ ŞAGİRDLƏRİN PEDAQOJİ PEŞƏYÖNÜMÜNÜN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *pedaqoji peşəyönümü, pedaqoji proses, əlbir fəaliyyət, tərbiyə, mənimsəmə.*
Ключевые слова: *педагогическая профессиональная ориентация, педагогический процесс, совместная деятельность, воспитание, усвоение.*
Key words: *teacher professional orientation, the pedagogical process, the joint activity, upbringing, learning.*

Məktəblini dərindən öyrənmək, onların peşə meylini, maraq və qabiliyyətlərini müəyyənləşdirməkdə müəllim valideynlərin köməyinə arxalanır. Uşağı ata-anadan yaxşı tanıyan yoxdur və onun gələcək taleyi də heç kəsi valideynlər qədər maraqlandırmır. Buna görə də təlim sahəsində olduğu kimi tərbiyə sahəsində də müəllimin gördüyü hər bir iş valideyn tərəfindən müdafiə olunmalıdır. Bu, eynilə məktəbin apardığı peşəyönümü işinə də aiddir.

Müəllim valideynlərə şagirdlərin maraq göstərdiyi başlıca sahələr, onların məktəbdəki tədris və ictimai fəaliyyəti, peşəyönümü ilə bağlı məktəbdə aparılan işlər barəsində məlumat verməli, onlara övladlarının seçdikləri peşənin düzgün olması fikrini təlqin etməli, uşaqlarını daha da həvəsləndirməyə istiqamətləndirməlidir. Xüsusilə müəllimlik peşəsini seçmək istəyən şagirdlərin valideynləri ilə iş diqqət mərkəzində dayanmalıdır. Çünki son zamanlar müəllim nüfuzunun aşağı düşməsi ilə əlaqədar olaraq bir çox valideynlər müəllimlik peşəsinə meyl göstərən övladlarını bu arzudan uzaqlaşdırmağa çalışır, onları zorla istəmədikləri peşəni seçməyə məcbur edirlər. Nəticə isə çox acınacaqlı olur. Həyatda öz yerini tapa bilməmək hər bir gənc üçün çox böyük fəlakətə çevrilir. Bu isə iqtisadiyyatın geriliyi, cəmiyyətin maddi və mənəvi sarsıntısı, hər bir mütəxəssis üçün dövlətin sərf etdiyi vəsaitin havaya sovrulması deməkdir. Təəssüf ki, bu gün də məktəblərimizdə pedaqoji fəaliyyətə heç bir fitri qabiliyyəti, marağı olmayan müəllimlər çalışırlar. Onlar bir yox, bir neçə nəsli küt, savadsız və korafəhim böyüdürlər.

Valideynlərlə aparılan sorğulardan belə bir cəhət diqqəti cəlb edir ki, onların əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Bizim fikrimizcə, şagirdlərin müəllim peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Müşahidələr göstərir ki, valideynlər kiçik yaşlarından qızları həmin peşələrə daha çox rəğbətləndirirlər. Son dərəcə maraqlı olan bu sosial-psixoloji fenomeni nə ilə izah etmək olar? Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar ailə tərbiyəsinin bütün sahələrində, o cümlədən peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu hər şeydən əvvəl qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Respublika Statistika İdarəsi Demoqrafiya laboratoriyasının apardığı tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların miqdarı azalır, başqa sözlə azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqların hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. "Uşağın kələcəyini" özləri vaxtında həll etmək istəyirlər. Onu, bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edirlər. Bəs bu peşə modelində müəllimlik peşəsi hansı yeri tutur?

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi

səciyyələndirən təsəvvürlər geniş yayılmışdır. Bu təsəvvürlərin bərqərar olmasında analar xüsusilə fərqlənirlər. Bəs valideynlərin müəllimlik peşəsinə münasibətinin dəyişməsi nə ilə əlaqədardır?

Son illərdə müəllimlik mahiyyətcə kütləvi peşəyə çevrilmiş, onun əhəmiyyəti bilavasitə nəsillərin varisliyində və elmi-texniki tərəqqinin inkişafında oynadığı rola görə deyil, daha çox rentabellik dərəcəsinə görə qiymətləndirilməyə başlanılmışdır. Bu zəmində də müəllimlik barəsində yeni stereotiplər formalaşmış və o ən çox qadın peşəsi kimi qiymətləndirilmişdir.

Müasir dövrdə valideynlər peşələrə daha çox güzəran psixologiyası baxımından yanaşırlar. Müəyyən edilmişdir ki, valideynlərin üçdə iki hissəsi uşaqların nə ilə maraqlandıqlarını bilmir.

Bəs peşəseçmə kimi vacib dövlət əhəmiyyətli bir məsələyə düzgün yanaşmaqda məktəb valideynlərə hansı aspektdə kömək göstərə bilər?

Təcrübə göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək tələb olunur. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, onlara uşaqların peşəseçmə işi ilə bağlı düzgün istiqamət vermək məktəbin qarşısında duran başlıca vəzifələrdəndir. Çünki valideynlər öz uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdir. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valvdeynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək lazımdır. Bəzən peşə yararlığı sahəsində məlumatsızlıq bizim hamımıza çox baha başa gəlir. Ona görə də şagirdlərin fərdi xüsusiyyətlərinin və keyfiyyətlərinin aşkara çıxarılmasında, bu keyfiyyətlərin seçilmiş peşənin tələblərinə cavab verib-vermədiyini müəyyənləşdirməkdə məktəbin valideynlərə köməyi zəruridir.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif həlqədir. İlk baxışdan hər şey öz qaydasında görünür: indi məktəblərə təşkilatların nümayəndələri daha tez-tez təşrif gətirir, şagirdlərin maraqlarına müvafiq dərnək və fakultativlər, müəssisələrə ekskursiyalar təşkil edilir, qəzet səhifələrində təhsil və işlə təmin olunma ilə bağlı elanlar tez-tez dərc edilir.

Lakin bütün bunlara baxmayaraq, peşələr haqqında şagirdlərin məlumatları istənilən səviyyədə deyildir. Bu işdə məktəblə yanaşı, valideynlər də öz imkanlarından tam istifadə etməlidirlər.

Məktəbin valideynlərlə apardığı peşəyönümü işinin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. Valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;

2. Şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması.

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq məktəbdə valideynlərlə iş planı tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd - peşəyönümü işində valideynləri müəllimlərin, şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir.

Sinif rəhbəri valideyn komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin uçotunu və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir: qrup və fərdi şəkildə aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə silahlandırmaq üçün təşkil edilən pedaqoji lektoriyalar və s.

Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada fərdi və qrup şəklində təşkil edilə bilər.

Fərdi iş formalarına:

– valideynlərlə söhbətlər;

– hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər;

– həkim məsləhəti aiddir.

Qrup şəklində aparılan iş formalarına:

– uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi, uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi, peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər; valideyn konfransları; valideyn yığıncaqları; peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr.

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla bitməyib, məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini tələb edir.

Ədəbiyyat

1. Məhərrəmov Ə.M. Azərbaycanda pedaqoji kadr hazırlığının inkişaf tarixi. – Bakı: ADPU, 1998. – 150 s.

2. Озганбаева Р.О. Профессиональная ориентацие учащихся обшеобразовательной школы в условиях рыночных отношении. Автореф. дисс....канд. педнаук. – Алма-Ата. 1996. – 25 с.

Т.А.Набиева

Особенности оргонизации педагогической профориентации учащихся в школе

Резюме

В статье исследуется педагогическая профориентации учащихся. Устанавливаются проблемы возникающие в этом процессе и выявлены пути их решения. Определяется роль совместной работы педагогического коллектива с родителями. Это положительно влияет на педагогический процесс.

Статья может быть полезна в работе учителей - практиков и исследователей. Текст статьи позволяет повысить качество обучения.

T.A.Nabiyeva

Joint activities of schools the educational professional orientation of students

Summary

This article examines educational vocational guidance of students. Installed, the problems encountered in this process and identify ways to address them. Defines the role of the teaching staff work together with parents. This has a positive effect on the educational process.

The article may be useful in the work of teachers - practitioners and researchers. Text of the article to enhance the quality of learning.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2022

A.T.NƏZƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: nazarova.afaq@mail.ru

DOI:10.48652/n7322-4504-9259-d

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

ƏDƏBİ TƏLƏFFÜZ ÜZRƏ İŞİN TƏŞKİLİ YOLLARI

Açar sözlər: *tələffüz, ədəbi tələffüz, qrammatik formalar, söz birləşmələri, orfoepik normalar.*
Ключевые слова: *произношение, литературное произношение, грамматические формы, словосочетания, орфоэпические нормы.*
Key words: *pronunciation, literary pronunciation, grammatical forms, word combinations, orthoepic norms.*

Şagirdlərin əksəriyyətində nitq nöqsanlı olur. Bu isə müəllimdən ciddi iş tələb edir. Nitqin səs üzərində işin təşkili bir sıra sahələri əhatə edir: ədəbi tələffüz – orfoepiya, intonasiya.

Ədəbi dilin saflığı onun tələffüz normalarına necə əməl etməsindən çox asılıdır. Tə-ləf-füz aydın olduqda fikrin çatdırılması dəqiq olur və eşidənlər aydın başa düşür. Ümumiyyətlə, tələffüz dedikdə, dilimizin normalarına uyğun danışmaq nəzərdə tutulur.

Ədəbi tələffüz ədəbi dilin normalarını gözləməklə danışmaqdır. Bu cür qaydalar isə orfoepik normalarla tənzimlənir.

Ədəbi tələffüz üzrə işin təşkilində orfoepiya, intonasiya, nitq fasilələri, vurğu, nitqin sürəti, tonu üzrə işlərə xüsusi əhəmiyyət verilir. Bu cür məsələlər də ümumi ədəbi tələffüz aspektində araşdırılmalıdır.

Ədəbi tələffüz vərdişlərinin inkişafı üzrə işlərin ən əsasını orfoepiya üzrə işlər təşkil edir.

Əgər orfoqrafiya düzgün yazı qaydaları üçün əhəmiyyətlidirsə, orfoepik normalar da düzgün tələffüz, şifahi nitq üçün o qədər əhəmiyyətli və önəmlidir. "Söz daxilində, söz sonunda və söz birləşmələrinin ikinci tərəfinin ilk səsinin təsirilə birinci sözdə baş verən fonetik dəyişmələr deyiliş və yazılışda müəyyən fərqli məqamlar yaradır" (5, 272).

Orta məktəblərdə şagirdlərin orfoepiya üzrə işlərinin düzgün yerinə yetirilməsinə müəllim nəzarət etməlidir. Lakin, bəzi müəllimlər orfoqrafiya üzrə işə nəzarət yetirdikləri kimi orfoepiya qaydalarına ciddi riayət etmirlər. Belə ki, bəzən imla yazıları da orfoqrafik tələffüzə uyğun oxuyurlar. Bu isə şagirdlərdə düzgün yazı vərdişlərinə laqeydlik yaradır.

Bu işin təkmilləşməsi üçün müəllimlər orta məktəbin V-VII siniflərində sait və samit-lərin, mürəkkəb qısaltmaların, alınma sözlərin yazılış qaydalarını şagirdlərə öyrətməlidir. Yazılışında çətinlik törədən, dilçilik ədəbiyyatlarında mübahisəli olan sözlər qaydalara daxil edilməməlidir. Müəllimlər aşağı siniflərdən başlayaraq sinif divarlarında bəzi sözlərin "deyilir-yazılır" formasındakı plakatını asa bilərlər.

Saitlərin tələffüz qaydaları ayrı, samitlərinki isə ayrı öyrədilməlidir. Saitlərin tələffüzü ilə bağlı öyrədilməli olan qaydalardam biri sait səslərin kəmiyyət dəyişikləri ilə əlaqədardır. Belə ki, bəzi səslər müəyyən olunan qaydadan uzun, bəziləri isə adi qaydadan qısa tələffüz olunur. Bu cür kəmiyyət fərqlərinin öyrədilməsi nisbətən çətin olduğundan onların öyrədil-məsinə xüsusi diqqət yetirilməlidir.

Saitlərin tələffüzü zamanı öyrədilməli olan məqamlardan biri də keyfiyyət dəyişikliklə-ridir. Belə ki, dilimizdə *a* saitinin *ı, ə* saitinin *i* kimi deyilməsi, dilimizə başqa dillərdən keçən

sözlərdə *o* saitinin *a* kimi deyildiyi məqamlar vardır. Müəllim müəyyən misallar əsasında bu cür deyilmələri şagirdlərə öyrətməlidir.

Samitlərin tələffüzü ilə bağlı dəyişikliklərin demək olar ki, hamısı keyfiyyət dəyişikliyi ilə bağlıdır.

Şagirdlərə bütün bu keyfiyyət dəyişiklikləri dəqiq öyrədilməlidir. Əks təqdirdə şagirdlər ünsiyyət zamanı yersiz dəyişmələrdən istifadə edə bilər ki, bu da işə xələl gətirə bilər.

Sait və samitlərin tələffüz fərqlərinin ayrıca öyrədilməsindən asılı olmayaraq, sait və samitlərin tədrisi zamanı şagirdlərə bu hallar öyrədilir. Daha yaxşı olardı ki, sait və samitlərin tələffüzü ilə əlaqədar olan qaydalar cədvəl şəklində tərtib olunsun. Demək, sait və samitlərin tələffüzü qaydalarının öyrədilməsi V sinifdən başlanır. Lakin bu o demək deyil ki, şagirdlər ancaq V sinifdən öz danışıq və oxumalarında bu qaydalardan istifadə edirlər. Şagirdlər V sinfə qədər aşağı siniflərdə cüzi də olsa bu səs fərqlənmələri ilə tanış olurlar. Yuxarı siniflərə keçdikcə onların sayı artır. Orfoepik vərdişlərə yiyələnmək işi praktik işlərlə tamamlanır.

Orfoepik normaların tənzimlənməsi üçün müəllim aşağı siniflərdən başlayaraq bu işə nəzarət etməlidir. Saitlərin, samitlərin, qoşasaitli və qoşasamitli sözlərin tələffüzünə dair qaydalar, iki sait və iki samit səsin yanaşı gəlməsi zamanı sözlərin tələffüzü qaydası işindən başlanılmalı, XI sinfə qədər mürəkkəb mövzular üzərində iş davam etdirilməlidir.

Dilimizdə bir qisim sözlər var ki, onların tələffüzü ilə yazılışı eynidir: məsələn, *ana, ata, bal, şirin* və s. digər qisim sözlərdə isə tələffüz və yazılış fərqlidir: məsələn, *dəfdər, mə:llim, qızdar, sənnən, a:yilə* şəklində tələffüz olunan sözlər *dəftər, müəllim, qızlar, səndən, ailə* formasında yazılır. Bu cür sözlərin yazılış qaydasını öyrətməkdə orfoepiya aciz qalır. Şagirdlər belə sözləri tələffüzə uyğun öyrətdikdə yazılışda çoxlu səhvə yol verirlər.

Dilimizin orfoepik normaları çox zəngin və rəngarəngdir.

Bizə məlumdur ki, orta məktəbdə Azərbaycan dilinin qarşısında duran əsas və başlıca vəzifələrdən biri şagirdləri ədəbi dilə - nitq mədəniyyətinə yiyələndirmək və onların savadlı olmasını təmin etməkdir.

Bir çox qabaqlayıcı müəllimlərin iş təcrübəsi göstərmişdir ki, şagirdlərə ədəbi tələffüz vərdişlərinin aşılanması onlarda təkcə ədəbi dilə hərtərəfli yiyələnməyi deyil, həm də orfoqrafik vərdişlərə yiyələnmək baxımından əhəmiyyətlidir.

"Ədəbi tələffüzün orfoqrafiya ilə daha çox yaxın olması ondan irəli gəlir ki, orfoqrafik qaydaların müəyyənləşdirilməsində məhz ədəbi tələffüz əsas tutulur" (2, 5)

Ədəbi tələffüzün əsasını orfoqrafiyanın başlıca prinsipi olan fonetik prinsip təşkil edir. Elə buna görədir ki, şifahi ədəbi dildəki sözlərin fonetik tərkibinin yazıda hərflərlə ifadəsi müəyyən qanunauyğunluğa tabedir. Bu isə orfoqrafiyanın müvəffəqiyyətli mənimsənilməsinə şərait yaradır. Dilimizdəki yerli şivələr isə düzgün yazı qaydalarının mənimsədilməsində maneəyə gətirib çıxarır. Bunun əsas səbəbi odur ki, yerli şivələrin bir çoxunun fonetik xüsusiyyəti ədəbi dildən bir qədər az fərqlənir.

Ədəbi tələffüz şagirdlərin düzgün ifadəli oxu vərdişlərinə də yiyələnməsində mühüm əhəmiyyətə malikdir. Çünki oxu canlı və ifadəli nitqlə əlaqəli olan bir prosesdir. Bunun da nəticəsidir ki, tələffüz baxımından ifadəli oxuya verilən tələblə, şifahi oxuya verilən tələb arasında müəyyən fərqlər olmalıdır. Lakin təəssüflər olsun ki, orta məktəb müəllimlərimiz bu məsələyə elə də diqqət ayırmırlar. Elə müəllimlər var ki, şagirdlərin hərfi tələffüzlə oxumasının qarşısını almırlar, hətta bunu düzgü hesab edirlər. Bu isə şagirdlərin gələcəkdə bədii əsərləri ifadəli oxumasında çətinliyə gətirib çıxarır.

Bildiyimiz kimi, yazılı dil - kitab dili şagirdlərin sözləri olduğu kimi hərfi-orfoqrafik tələffüzə yiyələnməsinə səbəb olur. Uzun illərdən bəri birinci sinifdən başlayaraq şagirdlərin nitqi üzərindəki müşahidələr göstərmişdir ki, orta məktəbə yeni daxil olan şagirdlər sözləri orfoepik normalara uyğun olaraq tələffüz etdiyi halda, daha sonralar onların kitab dili üzərində işləməsi nəticəsində onlar sözləri yazıldığı kimi tələffüz etməyə başlamışlar. Qəribə olan da budur ki, onlar məhz bu cür tələffüzdən sinifdə də, dərsdə olarkən istifadə edirlər.

Hərfi tələffüz vərdişləri şagirdlərdə, əsasən, aşağı siniflərdən başlayaraq formalaşır.

Həqiqətən də, yazılı dil ədəbi tələffüzün mənimsənilməsində əsas yollardan birini təşkil edir. Ancaq onu da qeyd etmək lazımdır ki, ədəbi tələffüzə yiyələnməkdə yazılı dilin istiqamətverici rolu da unudulmamalıdır. Bu cür hal yazılı dil ilə şifahi ədəbi dil arasındakı qarşılıqlı əlaqədən irəli gəlir. Çünki ədəbi tələffüzlə düzgün yazı qaydaları arasında elə bir fərq yoxdur. Həmçinin bir çox hallarda düzgün yazı qaydaları düzgün tələffüzün əsasını təşkil edir. Məsələn, *rəf, oktyabr, sentyabr, layihə, məşhur* və s. kimi sözlərin düzgün tələffüzü bu sözlərin düzgün yazı qaydasına əsaslanır. Bəzən elə hallar olur ki, bu cür sözləri şagirdlər *irəf, oktıyabır, sentiyabr, lahiyə, məhşur* kimi tələffüz edir və tələffüz etdikləri kimi də yazırlar. Bu cür səhvlərin aradan qaldırılması üçün müəllim şagirdlərə bu sözlərin düzgün tələffüzünü öyrətməli və yazıda tətbiqinə nail olmalıdır.

Onu da qeyd etmək lazımdır ki, burada iki anlayışı- tələffüzü ilə yazılışı uyğun gələn sözlərlə, tələffüzü yazılışına görə müəyyən olunan sözləri bir-biri ilə qarışdırmaq olmaz. Birinci qisim sözlərə *ana, ata, baba, nənə, çay, el* və s. kimi sözləri tələffüzü yazılışına uyğun gələn sözlər, yoxsa yazılışı düzgün tələffüzə uyğun gələn sözlər kimi müəyyənləşdirmək bir qədər çətindir. Bunun əsas səbəbi odur ki, bu cür qaydalar bir- birinə uyğun gəlir. İkinci qisim sözlərdə isə vəziyyət başqa cürdür. Belə ki, bu növdən olan sözlər məsələn, stəkan, istəkan, stakan və s. ədəbi dildə onun ancaq bir növündən- yazılışa uyğun gələn tələffüzdən istifadə edilir. Deməli, bu cür sözlərin düzgün tələffüzü düzgün yazıya əsasən müəyyən olunmur.

Birinci qisimdən olan söz qruplarının yazılışını öyrənmədən də şagirdlər həmin sözləri düzgün tələffüz edir və yazırlar. İkinci qisim sözlərdə isə şagirdlər sözlərin yazılışını qaydayı mənimsəməklə işləyirlər. Ayrı-ayrı dövrlərdə aparılan eksperimentlər də bunu sübut edir.

Bütün bunların nəticəsidir ki, yazılı dil şagirdlərə düzgün tələffüz vərdişlərinin aşılanmasında qarşıya çıxan çətinliklərdən biridir. Bununla yanaşı yazılı dil həm də şagirdlərin düzgün və mükəmməl orfoqrafik savada yiyələnməsində mühüm rola malikdir. Bəzi sözlərin isə düzgün tələffüzü ancaq hərfi tələffüzlə müəyyənləşir. Ədəbi dilimizdəki bu cür sözlər, əsasən, aşağıdakı xüsusiyyətlərə görə müəyyən olunur:

1) Tərkibində müxtəlif cinsli yanaşı gələn samit səslə işlənən sözlər: *plan, stansiya, stəkan, film, traktor*

2) İlk hecasındakı saiti *e* ilə yazılan, lakin həm *e*, həm də *ə* ilə deyilən sözlər: *elim-əlim, enli-ənli, erkən-ərkən, pendir-pəndir, gerçək-gərçək.*

3) İlk hecasındakı saiti *ə* ilə yazılan, lakin həm *ə*, həm də *e* ilə deyilən sözlər: *çəkmək-çekmək, çəkic-çekic, əkiz-ekiz.*

4) Birinci hecasındakı saiti *ö* ilə yazılıb, həm *ö*, həm də *o* ilə deyilən sözlər: *tövlə-tovla, nöqtə-noqtə, nöqsan- noqsan.*

5) Ahəng qanununa tabe edilərək yazılan, lakin tələffüzdə bəzən həmin qanunun gözlənilmədiyi sözlər: *babat- babət, davam-dəvam, xata-xəta, salamat- səlamət, xətir- xatir.*

6) Yazılışında ahəng qanunu gözlənilməyən, lakin danışıqda həm yazıldığı kimi, həm də ahəng qanununa tabe edilmədən tələffüz olunan sözlər: *bərabər-barabar, zəmanə- zamana, həya- haya, qəbul- qabul, kənar- kanar.*

7) Qalın və ya incə saitlərlə yazılıb, həm qalın, həm də incə saitlərlə deyilən sözlər: *nağd- nəğd, xırman- xirmən, vərəq-varaq, xəmir- xamır.*

8) İlk hecasındakı saiti *i* ilə yazılıb həm *i*, həm də *ə* ilə deyilən sözlər: *vidadi-vədadi, qiraət- qəraət, riayət- rəayət.*

9) Birinci, bəzilərində də ikinci hecasındakı saiti *ə* ilə yazılıb, həm *ə*, həm də *i* ilə deyilən sözlər: *səyahət- siyahət, cəhət- cihət, səhhət- sihhət.*

10) İlk hecasındakı saiti *ü* ilə yazılıb, həm *ü*, həm də *i* ilə deyilən sözlər: *bünövrə-binövrə, Füzüli- Füzuli.*

11) Danışıqda bəzən müəyyən samitlərin yeri dəyişdirilərək işlənən sözlər: *yanlış-yalnış, məşhur- məhşur, layihə- lahiyə.*

Bu sadalamadan məlum olur ki, qeyd olunan xarakterli sözlər başqa dillərdən dilimizə keçən sözlərdir.

Bir hecada, xüsusilə də sözün əvvəlinci hecasında iki samit səsin yanaşı işlənməsi Azərbaycan dilinin xüsusiyyətlərinə ziddir. Lakin *kənd, gənc* və s. kimi sözlər istisnalıq təşkil edir. Bu hal ondan irəli gəlir ki, hələ ədəbi tələffüzə yiyələnməyən şagirdlər yuxarıda göstərilən sözləri çox zaman *pılan, pılaş* şəklində tələffüz edirlər. Bu zaman həmin sözlərdə yanaşı gələn iki samitin arasına müvafiq səs əlavə edirlər ki, bu da nitqimizdə ciddi qüsur sayılır.

Əvvəldə də qeyd etdiyimiz kimi, bir sıra sözlərin və qrammatik formaların yazılışı düzgün tələffüzündən o qədər də fərqlənmir. Bu isə ona gətirib çıxarır ki, ədəbi tələffüz normalarının çox hissəsi orfoqrafik qaydalara əsaslanır. Şərti olaraq bu cür sözləri orfoqrafiyaya görə müəyyənləşən qaydalar adlandıra bilərik. Bu cür qaydalar çox vaxt orfoepik qaydalar arasında sadalanmır. "Çünki orfoepiya yalnız tələffüzü yazılışından fərqlənən qaydaları diferensiasiya etməyə, yəni fonetik tərkibinə görə fərqlənməyən eyni bir qaydanı həm orfoqrafiyada, həm də orfoepiyada verməyə ehtiyac yoxdur" (1, 12)

Belə olan halda sözün yazılışını təyin edən orfoqrafik qayda eyni zamanda sözün necə tələffüz edildiyini də müəyyənləşdirir. Lakin bu o demək deyil ki, orta məktəbdə şagirdlər tələffüzü yazılışına əsasən müəyyənləşən qaydalara orfoqrafiyadan müəyyən olunmuş qaydaları keçməklə ona kor-koranə yiyələnirlər.

Məktəblərdə aparılmış bir sıra müşahidələr göstərmişdir ki, məsələyə bu cür yanaşılmamalıdır. İlk olaraq, bu cür hallarda sözlərin düzgün tələffüzü üzərində iş aparılmalı, onun düzgün yazılış qaydası şagirdlərə mənimsədilməlidir. Lakin iş bu cür qurulmadıqda, şagirdlər sözləri yanlış tələffüz edirlər. Ona görə də, düzgün yazılışına görə müəyyənləşən söz və qrammatik formalar üstündə iş apararkən sözlərin yazılışı ilə bərabər tələffüz forması da şagirdlərə mənimsədilməlidir.

"Şagirdləri ədəbi tələffüzə yiyələndirməkdə yazılı dilə - kitab dilinə əsaslanmağın hüdudu və əhəmiyyəti məhz bu deyilənlərlə müəyyənləşir" (1, 13)

Deməli, tələffüzü yazılışına əsasən müəyyənləşən qaydaları şagirdlərə mənimsətməkdə morfemlərin forması mühüm rol oynayır. Orfoepik cəhətdən tələffüzü yazılışından fərqli olan qaydalarda isə bunların mənimsənilməsində həmin prinsipi əsas tutmaq səhvə yol vermək deməkdir. Çünki bu cür hallarda orfoepik qayda hərfi tələffüz ilə əvəz edilmiş olardı. Bununla da onu demək olar ki, hərfi tələffüzün mənbəyi orfoepik qaydalarla orfoqrafik qaydalar arasındakı fərqli cəhətləri görə bilməməkdən, bu cür qaydaları eyniləşdirməkdən irəli gəlir. Bu isə tələffüzü süniləşdirir. Onu öz təbiiliyindən çıxarır, yazılı dilin əsiri edir.

Şagirdlərin ədəbi tələffüzü mənimsəməsinə iki yolla nail olmaq olar:

1. Ədəbi dildə danışanların nitqini təqlid etmək yolu ilə
2. Dərs prosesində düzgün tələffüz normalarını şüurlu, sistem üzrə mənimsəməklə

Bildiyimiz kimi dil bioloji yox, ictimai hadisədir. Uşaqlar dilə heç də irsi olaraq yiyələnmirlər. Onlarda şüur oyanmaqla yanaşı, başqalarına müraciət etmək hissi əmələ gəlir ki, bu ehtiyac onun danışmağına, dildən ictimai mühitdə ünsiyyət vasitəsi kimi istifadə etməsinə səbəb olur. Odur ki, uşağı əhatə edənlər hansı dildə danışırlarsa, o da həmin dili öyrənərək o dildə danışır, o dilin tələffüzünə yiyələnir. Uşaq ilk dəfə məktəbə gələn zaman onu əhatə edən insanların tələffüzünü də özü ilə gətirir. Əgər şagird gəldiyi mühitdə şivə və az da olsa ədəbi dillə danışırsa, o, məktəbdə də həmin formada danışacaqdır. Hər birimizə məlumdur ki, məktəbə təzə gələn şagirdlər arasında ədəbi tələffüzlə danışanlara az və ya çox rast gəlmək mümkündür.

Bir çox araşdırma və müşahidələr nəticəsində məlum olmuşdur ki, şagirdlərin nitqindəki qüsur və nöqsanların çoxu müəllimin nitqindəki nöqsanlardan irəli gəlir. Əgər müəllim nitqində yerli şivə xüsusiyyətlərinə yol verirsə, təbii ki, şagirdlər də həmin nitqə yiyələnəcəklər. Digər bir tərəfdən əgər müəllim *mübtəda, stol, şkaf, stəkan* və s. kimi sözləri *mübtadə, ustol, işkaf, istəkan* şəklində tələfdüz edərsə, bu hal şagirdlərin də tələffüzünə kök salacaqdır.

Müəllimin nitqi və tələffüzü isə düzgün olduqda şagirdlər də onu təqlid etməyə başlayır və düzgün tələffüz formasına yiyələnirlər.

Hər bir şagirddə öz nitqinə şüurlu münasibət aşılamaq, işlətdikləri hər sözün, cümlənin ədəbi dil baxımından düzgünlüyünü yoxlamağa nail olmaq orfoepiya normalarının qaydalarındandır. Belə ki, bu ədəbi dili, orfoepik qaydaları şüurlu surətdə öyrənməsinə istiqamət verməkdə kömək edir. Ona görə də, müəllim ilk olaraq şagirdlərə nitqlərindəki nöqsanlarda ədəbi tələffüz arasındakı fərqli xüsusiyyətləri öyrətməli, onlara ədəbi tələffüzün əhəmiyyətini anlatmalı, yanlış tələffüzü isə gözdən salmalıdır.

Ancaq onu bilmək lazımdır ki şagirdlərdə bir sıra vacib keyfiyyətləri tərbiyə etmədən bunlara nail olmaq və onları ədəbi tələffüzə yiyələndirmək mümkün deyil. Bu cür keyfiyyətlər aşağıdakılardır:

a. Dilimizdə təkcə fərqlənən səsləri deyil, hətta keyfiyyət və kəmiyyətinə görə bir-birindən az seçilən səsləri də fərqləndirə bilmək

b. Sözlərdə ayrı- ayrı səsləri və səs birləşmələrini, vurğunu tez müəyyən edə bilmək

c. Bu və ya digər səsin necə tələffüz edildiyini həm başqasının, həm də özünün nitqində tez hiss edə bilmək

d. Söz və qrammatik formaları düzgün tələffüz etmək üçün öz nitqinə nəzarət etməyi, buraxdığı səhvi tez düzəldə bilməyi bacarmaq

Bu cür keyfiyyətləri şagirdlərə aşılamaq üçün fonetik təhlillərdən tez-tez istifadə xüsusi əhəmiyyət daşıyır. Bəzən müəllimlər fonetik təhlildən yalnız fonetikanın tədrisi zamanı istifadə edir və onun təkcə sxemini öyrətməklə məhdudlanırlar. Bunun əsas səbəbi isə fonetik təhlilin praktik əhəmiyyətinin vurğulanmamasından irəli gəlir. Lakin unutmaq olmaz ki, istər düzgün tələffüz, istərsə də düzgün yazılış qaydalarının öyrədilməsində fonetik təhlilin əhəmiyyəti böyükdür. Bu sahədə şagirdlərə elə mükəmməl vərdişlər aşılanmalıdır ki, bütün tədris ilində qarşıya çıxan sözlərin düzgün tələffüzü və düzgün yazılışını vaxt itirmədən yerinə yetirə bilsin.

Azərbaycan dilinin orfoepiya qaydaları ayrıca bir mövzu kimi dərsliklərdə keçirilmir. Belə ki, yeni proqram və dərsliklərin tərtibi zamanı orfoepiyaya fonetika bölməsinin içində yer verilmişdir. Bunun əsas səbəbi orfoepiya qaydalarını şagirdlərə nəzəri deyil, praktik olaraq öyrətməkdən ibarətdir.

Müəllimlər ədəbi tələffüzü şagirdlərə yiyələndirmək üçün bütün dərs ili və hər dərsdə müntəzəm və ardıcıl olaraq iş aparmalıdır. Onu da bilmək lazımdır ki, orfoepiyanı orfoqrafiya və qrammatikadan ayrı şəkildə öyrətmək olmaz.

Düzgün tələffüz qaydalarını şagirdlərə öyrətmək üçün bir sıra yol və imkanlardan istifadə etmək yaxşı nəticə verə bilər:

1. Yalnız sinifdə deyil, sinifdənkənar işlərdə də şagirdlərin nitqində düzgünlüyə nəzarət etməli, səhvlərini yerindəcə düzəltməli

2. Xüsusi çalışmalardan istifadə etməklə ədəbi tələffüzün öyrənilməsinə nail olmaq

3. Radio və televiziya verilişlərində, teatr tamaşalarında diktorların, aktyorların nitqində olan tələffüz formalarını sinifdə müzakirə etmək. Onu da qeyd etmək lazımdır ki, hazırda orta məktəblərdə informasiya-kommunikasiya vasitələrindən, TTV-dən, kompüterdən istifadə bu sahədə şagirdlərin öyrənməsinə kömək edir.

4. Şagirdlər öz nitqləri üzərində qarşılıqlı olaraq müşahidə aparmalı, bir-birinin tələffüz səhvlərini düzəltməlidir. Müəllim şagirdlərə bu şəraiti yaratmalı, həmin sahədə onlara vərdişləri aşılamalı. Dərslərdə bu işə xüsusi nəzarət olunmalıdır.

5. Düzgün tələffüzü öyrənməyə kömək etmək üçün müəllim dərslikdə verilmiş mətnləri, şeir parçalarını şagirdlərə əzbərlətməli

6. Müxtəlif janrlarda olan bədii əsər nümunələrini, qəzet və s. ucadan oxumaq

7. Məktəblərdə, dərnək işlərində, bədii gecələrdə, tanınmış şəxslərlə keçirilən görüşlərdə və s. şagirdlərin şifahi çıxışlarını təşkil etmək

İntonasiya, fasilə və ritmik bölgü üzrə işlər. İntonasiya, fasilə və ritmik bölgünün şifahi nitqin anlaşıqlı olmasında rolu böyükdür. Ona görə də, istər Azərbaycan dili, istərsə də Ədəbiyyat dərslərində, həmçinin digər fənlər və sinifdənkənar məşğələlərdə intonasiya, fasilə və ritmik bölgüdən geniş istifadə olunur.

İbtidai məktəbin I sinfindən başlayaraq bu məsələlərlə bağlı praktik işlər gedir. İbtidai sinifdən başlayan bu iş digər siniflərdə də davam etdirilir. Lakin onu da qeyd etməliyik ki, intonasiya, fasilə və cümlələrin ritmik bölgüsü üzrə işlərə tam şəkildə sintaksisin tədrisi zamanı keçirilir.

Sintaksis bəhsində cümlənin məqsəd və intonasiyaya görə növləri buna imkan verir. Danışanın məqsədindən asılı olaraq eyni məzmun və formalı, eyni sözlərin birləşməsindən ibarət olan cümlə intonasiyaya görə həm sual, nida, həm də əmr formasında deyilə bilər.

Müəllif danışılan hər hansı məsələni öyrənmək istəsə sual intonasiyasından istifadə edir. VIII sinifdən şagirdlər artıq bu cür intonasiya növlərindən istifadə etməyə başlayırlar. Müəllim müəyyən bir sinifdə məqsəd və intonasiyaya görə cümlənin növlərindən istifadə edərkən şagirdlərə təkcə bu növləri anlatmaqla işin bitdiyini hesab etməməlidir. Çalışmalıdır ki, praktik olaraq bu işi mənimsətsin. Məsələn, müəllim sinifdə cümlənin intonasiyaya görə növlərini öyrədərkən sual və ya nida cümləsini ifadə edən vasitələri, bu vasitələrdən istifadə etməyin fərqlərini şagirdlərə anlatmalıdır.

Bildiyimiz kimi, Azərbaycan dilində sual cümləsini ifadə etmək üçün sual intonasiyası ilə yanaşı sual əvəzlikləri və sual ədatlarından da istifadə edilir. Müəllim bütün bu qaydaları elmi yollarla izah etməməlidir. Hər hansı bir cümləni bu vasitələrdən istifadə edərək sual cümləsinin müxtəlif formalarına salmalıdır.

Bəzən məktəblərimizdə müəllimlər nöqtə və vergül - durğu işarələrindən danışarkən onun izahında səhvə yol verirlər. Belə ki, bu işarələri fasilənin azlığı və ya çoxluğu ilə fərqləndirirlər. Vergül işarəsi cümlənin elə ritmik bölgülü yerində işlənir ki, onun funksiyası və buradakı fasilə nöqtə qoyulmuş yerdən çox olur və yaxud ritmik bölgüdən asılı olaraq nöqtə və vergül işarəsindən asılı olmadan cümlənin quruluşu fasilə tələb edə bilər.

Bunları nəzərə alaraq, cümlənin ritmik bölgüləri üzrə işə xüsusi fikir vermək lazımdır. Bir çox hallarda məktəblərimizdə bu işə o qədər də diqqət yetirilmir.

Hər bir sözü tələffüz edərkən hecalardan istifadə edildiyi kimi, çoxsözlü cümlələri də tələffüz edərkən ritmik bölgüdən istifadə edilir. Ritmik bölgülər böyük və kiçik fasiləli ola bilər.

Müəllim ritmik bölgülərin əhəmiyyətindən danışarkən ədəbiyyat fənninə inteqrasiya edərək görkəmli yazıçı və şairlərin əsərlərindən nümunələr əsasında bu işi yerinə yetirə bilər.

Vurğu ilə işlər. Şifahi nitqin aydın, təsirli və dəqiq olmasında vurğunun da böyük rolu vardır. Bilirik ki, vurğunun *heca vurğusu, məntiqi vurğu* və *həyəcanlı vurğu* kimi növləri var.

2002-ci ilin proqramına əlavə edilmiş heca vurğusu haqqında nəzəri və praktik məlumat V sinifdə fonetikanın tədrisi zamanı verilir. Kurikulum əsasında hazırlanmış dərslikdə isə vurğu haqqında nəzəri və praktik məlumat verilməmişdir. Bəzi müəllimlər 45 dəqiqəlik dərs müddətində vurğu haqqında nəzəri olaraq məlumat verir, onun praktik tərəfinə toxunmurlar. Bəzən isə "Azərbaycan dilində vurğu əsasən sözün sonuncu hecasının üstünə düşür" şəklində izah etdiklərindən şagirdlər digər sözlərin vurğusunu müəyyənləşdirdikdə səhvə yol verirlər. Vurğu barədə keçirilən dərsdə vurğunun yerini dəyişməklə mənası dəyişən sözləri öyrətməklə yanaşı, həmçinin azərbaycan dilində vurğu qəbul etməyən şəkilçilər də şagirdlərə öyrədilməlidir. Belə olan halda artıq şagirdlər vurğu qəbul etməyən şəkilçilərin köməyi ilə sözlərdə vurğunun yerini müəyyənləşdirə bilir.

Şagirdlər dilimizə başqa dillərdən keçmiş sözlərin - alınma sözlərin vurğusunu müəyyənləşdirməkdə də çətinlik çəkirlər. Belə olan halda yaxşı olardı ki, bu cür sözlər şagirdlərə əyani vasitələrin köməyi ilə öyrədilsin.

Məntiqi vurğu haqqında nəzəri və praktik məlumat VIII sinifdə sintaksisin tədrisi zamanı verilir. Danışan şəxsin məqsədini müəyyənləşdirməkdə məntiqi vurğunun rolu böyükdür. Cümlə üzvlərinin sıralanması zamanı da məntiqi vurğu öyrədilə bilər. Müəllim məntiqi vurğudan məlumat verərkən həyəcanlı vurğu haqqında da danışa bilər. Daha sonra bu məlumat ədəbiyyat dərslərində də möhkəmləndirilə bilər.

Ədəbi tələffüz vərdişlərinin inkişafı üçün aparılan bütün işlər ardıcıl getməlidir. Şagirdləri bu tələffüz vərdişlərinə yiyələndirmək bir neçə günə başa gələcək iş deyildir. Müəllim bütün sinifdə dərsə uyğun çalışmalara şagirdləri cəlb etməlidir. Məktəblərdə aparılmış təcrübələr göstərmişdir ki, bu işə yalnız çoxlu oxumaq və danışmaqla yiyələnmək mümkün deyil. Şa-girdlər intonasiyanı, vurğunu, fasiləni, səs və hərf dəyişmələrini fərqləndirən şərti işarələri bilməlidir.

Cümlə qurmaq vərdişlərinin inkişafı üzrə işlər.

Nitq inkişafı üzrə aparılan işin əsasını lüğət ehtiyatının zənginləşdirilməsi və ədəbi tələffüz vərdişlərinin formalaşdırılması təşkil etsə də, ən əsas nitq vahidi cümlə hesab olunur. Çünki biz fikrimizi ifadə edərkən ayrı-ayrı sözlərdən deyil, bitmiş fikir ifadə edən cümlələrdən istifadə edirik. Bütün bunları nəzərə alaraq şagirdlərin cümlə qurmaq vərdişlərinin inkişafına xüsusi əhəmiyyət verilməlidir.

Cümlə qurmaq vərdişləri üzrə işlər I sinifdən başlanır. Şagirdlər sinifdən-sinfə keçdikcə bu vərdişlər daha da inkişaf etdirilir.

Lüğət üzrə aparılan işdə olduğu kimi cümlə qurmaq vərdişlərinin inkişafı üçün də xüsusi dərs saatına ehtiyac yoxdur. Müəllim hər keçirilən dərsdə bu işi inkişaf etdirə bilər.

Həm şifahi, həm də yazılı nitq vərdişlərinin inkişafında cümlə qurmaq vərdişlərinin rolu böyükdür.

Nitq vərdişlərinin inkişafında köməklik edən digər vasitələrlə yanaşı, cümlə qurmaq vərdişlərinin inkişafına məktəblərdə geniş yer verilir. Bəzi qüsurların olmasına baxmayaraq, əksər dil və ədəbiyyat müəllimləri bu vərdişlərin inkişafı üçün rəngarəng yol və vasitələrdən istifadə edirlər.

Sual və cavablarla iş. Bu iş növündən bütün dərslərdə istifadə olunur. Sual və cavablarla iş həm konkret bir suala cavab tapmağa, həm də şagirdləri cümlə qurmağa yönləndirir. Şagirdlərin sual verməyə cəlb edilməsi onların sual cümləsini aydın, qrammatik formaya uyğun qurmasına kömək edir. Cümlə üzvlərinə sintaktik sual vermək, cavabların elmiliyinə, dəqiqliyinə diqqət ayırmaq və bu kimi bacarıqları formalaşdırmaq Azərbaycan dili dərslərinin ən faydalı komponentlərindəndir.

Buraxılmış sözləri yerinə qoymaqla cümlələri tamamlamaq. Müəllim nitq hissələrini, cümlə üzvlərini tədris edərkən şagirdləri bu tipli çalışmalar üzərində işləməyə sövq etməlidir. Məsələn, bir ismi cümlənin müxtəlif yerində müxtəlif hallarda işlətmək, müxtəsər cümləni geniş cümlə ilə əvəz etmək, pərakəndə halında verilmiş sözlərdən bitkin fikir ifadə edən cümlə tərtib etmək və s.

Söz birləşmələri tərtib etmək və bunları cümlələrdə işlətmək. Şagirdlərə müxtəlif sözlərdən ismi və feili birləşmələr tərtib etmək tapşırılır. Daha sonra həmin birləşmələri cümlələrdə işlətmək həvalə olunmalıdır. Bu cür tapşırıqlar həm də şagirdlərdə ritmik bölgü vərdişlərini də gücləndirir.

Sadə cümlələrdən mürəkkəb cümlə tərtib etmək. Məzmunu və qrammatik forması baxımından birləşdirilməsi mümkün olan sadə cümləni mürəkkəb cümləyə çevirmək, baş və budaq cümlələr əlavə etmək şagirdlərdə cümlə qurmaq vərdişini inkişaf etdirir.

Mətndən seçilmiş ifadə və sözləri yeni mətndə işlətmək. Atalar sözü və məsəllər, aforizmlərin mətndən seçilərək ayrı-ayrı cümlələrdə işlədilməsi nəzərdə tutulur.

Dağınıq verilmiş sözlərdən cümlələr qurmaq. Böyük bir cümlədən ibarət olan sözlərin yeri dağınıq verilir. Müəllim yazı lövhəsində sözləri yazır və cümlənin birinci sözünü böyük hərflə yazır, həmin sözlərdən cümlələr qurmağı tapşırır. Şagirdlər böyük hərflə verilmiş sözdən sonra cümlələri öz ideyalarına uyğun genişləndirərək cümlələr qurur.

Cümlədə bu və ya digər sözü, qrammatik formanı başqası ilə əvəz etmək. Bu metoddan əvvəl şagirdlərin sinonim haqqında əvvəlki bilikləri təkrar olunur. Müəllim verdiyi cümlədən hər hansı sözü onun sinonimi ilə əvəz etməyi tapşırır. Məsələn, şagird cümlədə olan gözəl sözünü onun sinonimi olan qəşəng, yaraşıqlı sözləri ilə əvəz edir. Ola bilər ki, müəllim cümlədə olan feili şəxsə və zamana görə dəyişməyi tapşırsın.

Verilmiş mətndən obrazlı ifadələri seçib, onları başqa cümlə içərisində işlətmək. Hər hansı mətndən obrazlı ifadəni seçmək tələb olunur. Şagirdlərə seçilən ifadələri başqa cümlələrdə işlətmək tapşırılır.

Cümlədə sözlər arasındakı əlaqəni müəyyənləşdirmək. Şagirdlər cümlədəki sözlər arasında əlaqəni müəyyən edir və sözləri sıra ilə yazmaq tapşırılır. Məsələn, Vüqar atası ilə dənizə getdi- cümləsində şagirdlər: - Vüqar getdi, atası ilə getdi, dənizə getdi – kimi cümlə formalarını seçir və onları sxem formasına salırlar.

Verilmiş model əsasında müxtəlif sintaktik quruluşda cümlələr qurmaq. Müəllim yazı taxtasında mübtəda + II dərəcəli üzv + xəbər; mübtəda + II dərəcəli üzvlər + xəbər və s. tipli sxemlər yazır və şagirdlər bu sxem əsasında cümlə qururlar.

Mənanı saxlamaqla cümləni başqa formada ifadə etmək. Müəllim lövhədə hər hansı bir cümlə yazır və şagirdlərə həmin cümlənin mənası saxlanılmaqla onu başqa formada ifadə etməyi tapşırır.

Metodik ədəbiyyatlarda şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsinin müxtəlif yolları göstərilmişdir. Hər bir müəllim bu işi bacardığı səviyyədə yerinə yetirməyə çalışsa da, çox vaxt bu, istənilən nəticəni vermir. Müəllim şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirmək üçün müxtəlif yolları sınamalıdır. Bunun üçün interaktiv təlim metodlarından istifadə edilməsi nitq inkişafı üzrə işin səmərəliliyini artırır.

Şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirməyin digər bir yolu hazırki dərsliklərdə mətnə uyğun olan yoxlama yazı növləridir. Şagirdlərə müəyyən olunmuş mövzu əsasında inşa və ya esse yazmaq tapşırılır.

Ədəbiyyat

1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum. № 1, 2008, s. 31-37.
2. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013, 277 s.
3. Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası (Milli Kurikulum) // Kurikulum. №1, 2008, s. 131-151.
4. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 380s.
5. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikasına dair praktik işlər. Bakı: Maarif, 1992, 168 s.

А.Т.Назарова

Пути организации работы по литературному произношению

Резюме

Литературное произношение – это говорит с опережением норм литературного языка. Такие правила регулируются орфоэпическими нормами.

При организации работы над литературным произношением особое внимание уделяется работе над орфоэпией, интонацией, перерывами речи, акцентом, скоростью и тоном речи. Такие вопросы также следует исследовать с точки зрения общего литературного произношения.

Важнейшей работой по развитию навыков литературного произношения является работа по орфоэпии. В последнее время в наших школах мало времени уделяется орфоэпии. На это есть несколько объективных причин. Прежде всего, можно сказать, что в наших школах до сих пор нет полноценного орфоэпического словаря. С другой стороны, правила орфоэпии систематически не преподаются на курсах азербайджанского языка в средних школах. Следует отметить, что работа по орфоэпии должна вестись как теоретически, так и практически.

A.T.Nazarova

Ways of organizing work on literary pronunciation

Summary

Literary pronunciation - this speaks ahead of the norms of the literary language. Such rules are governed by orthoepic norms.

When organizing work on literary pronunciation, special attention is paid to working on spelling, intonation, speech breaks, accent, speed and tone of speech. Such questions should also be examined in terms of general literary pronunciation.

The most important work on the development of literary pronunciation skills is the work on orthoepy. Recently, in our school's little time has been devoted to orthoepy. There are several objective reasons for this. First of all, we can say that our schools still do not have a full-fledged orthoepic dictionary. On the other hand, the rules of orthoepy are not systematically taught in Azerbaijani language courses in secondary schools. It should be noted that the work on orthoepy should be carried out both theoretically and practically.

Rəyçi: dos. S.H.Qafarova

Redaksiyaya daxil olub: 31.05.2022

A.Y.QASIMOVA
müəllim, doktorant
e.mail: aynurmehdiyeva84@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

TƏHSİLİN İNKİŞAFI ÜZRƏ DÖVLƏT STRATEGİYASINDA MÜƏLLİM HAZIRLIĞI PROBLEMİ

Açar sözlər: *təhsil, strategiya, ali məktəb, müəllim, qabiliyyət*
Ключевые слова: *образование, стратегия, высшее образование, учитель, способность*
Key words: *education, strategy, high school, teacher, ability*

Azərbaycan dövlət müstəqiliyini əldə etdikdən sonra cəmiyyətdə formalaşmağa başlayan ictimai-iqtisadi sistemin doğurduğu dəyişikliklər, respublikada siyasi quruluşun yeniləşməsi, iqtisadiyyatda bazar münasibətlərinə keçid, inkişaf etmiş ölkələrə və dünya birliyinə inteqrasiya olunmaq meyillərinin güclənməsi başqa sahələrdə olduğu kimi təhsil sahəsində də əsaslı islahataların aparılmasını nəzərədə tuturdu. Müstəqilliyin ilk illərində təhsil sistemində forma və məzmun baxımında dəyişikliklərin aparılmasında cəhdlərin edilməsinə baxmayaraq Azərbayacan təhsilinin beynəlxaq standartlar əsasında qurulması orta və ali məktəb qarşısına bir sıra vəzifələrin yerinə yetirilməsini vəzifəsini qoyurdu. Bütün bunlar təhsilin, o cümlədən ali təhsilin keyfiyyəti məsələsini ön plana çıxarır. Məhz buna görə də Azərbayacan təhsilində genişmiqyaslı islahatlar aparılmalı, ölkə iqtisadiyyatının inkişafı üçün müasir dövrün tələblərinə cavab verən kadr hazırlığını təmin edən keyfiyyətli yeni təhsil istiqaməti müəyyənləşməlidir. Bugün dünyanın aparıcı ölkələri təhsil sistemlərini müasir tələblərə uyğun olarq yenidən qurmağa, geniş və hərtərəfli islahatlar proqramı həyata keçirməyə başlamışlar. Azərbaycan Respublikasında səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədi ilə "Azərbaycan 2020: Gələcəyə Baxış" konsepsiyasının təhsillə bağlı ana xəttinə uyğun olaraq 2013-cü ilin oktyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul edilmişdir.(1) Strategiyanın həyata keçirilməsi təhsilin məzmununun, təhsil infrastrukturunun, təhsili idarəetmə sisteminin və kadr hazırlığının qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin etməkdən ibarətdir.

Qeyd olunanlarla yanaşı sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruri məsələ kimi qeyd edilmişdir. Strategiyada müəllim hazırlığı və nüfuzunun artırılması məsələsinə xüsusi yanaşma qeyd edilmişdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən sərişt əli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir. Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir. Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşəixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir. Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur. Biz bilirik ki, təhsilalanın savadlı və sərişt əli şəxs kimi formalaşması, əsasən, müəlimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Sərişt əyə əsaslanan təhsil ölkənin sosial-iqtisadi inkişafına daha effektiv xidmət göstərir. Bunu nəzərə alaraq ali məktəbin bütün iş formalarında (mühazirə, seminar, tələbə sərbəst işləri, pedaqoji praktikada) nəzəriyyə və təcrübənin vəhdəti təmin olunmalı, tələbənin nəzəri bilikləri və onların tətbiqinə, müstəqil yaradıcı düşüncəsinin inkişafına, yeni pedaqoji təfəkkürün formalaşmasına xüsusi diqqət yetirilməlidir. Ali məktəblərdə müəllim hazırlığını pedaqoji fəaliyyətin strukturuna uyğun şəkildə – pedaqoji qabiliyyətlər üzrə qurmaq daha səmərəli təşkil oluna bilər: müəllim hazırlığını təkcə akademik və didaktik qabiliyyətlərlə məhdudlaşdırma olmaz. Müasir müəllim həm də digər zəruri pedaqoji qabiliyyətlərə yiyələnməlidir. Bu zaman müəllim daha hazırlıqlı, sərişt əli, nüfuzlu, rəqabət qabiliyyətli peşəkar kadr kimi yetişə bilər, daha səmərəli fəaliyyət göstərər. Ali məktəb müəllimi müəyyən pedaqoji qabiliyyətlərə malik olmalıdır:

Konstruktiv qabiliyyətlər tələbə şəxsiyyətini lahiyələşdirmə, öz fəaliyyətinin strate-giyasını müəyyənetmə, təlim-tərbiyənin taktiki məqəsədini reallaşdırır. Diaqnostlaşdırma və onunla qırılmaz surətdə əlaqədar olan proqnozlaşdırma pedaqoji prosesi düzgün istiqamətləndirməyə şərait yaradır. Əlində dəqiq diaqnozu olan və əlverişli proqnoza əsaslanan peşəkar pedaqoq təhsil-tərbiyə fəaliyyətini səmərəli və məhsuldar şəkildə təşkil edir, gələcək fəaliyyətin modelini qura bilir, həm özünün, həm də tələbələrinin fəaliyyət növlərini layihələşdirir.

Didaktik qabiliyyətlər məlumatın seçilməsi, tədris materialının hazırlanması, şəxsiyyətyönümülü imkanlarının təyini, təlim metodlarının seçilməsində, intizamın bərpa edilməsində və işgüzar təlim şəraitinin yaradılmasında, tələbələrin idrak maraqlarının, tələbatlarına həvəs, öyrənənlərdə müstəqillik, təşəbbüskarlıq və təlim-idrak fəallığının artırılmasında təzahür edir.

Təşkilati qabiliyyətlər tələbələrin fəaliyyətinə düzgün rəhbərlikdə, onları aktiv təlim-idrak prosesinə cəlb etməkdə, asudə vaxtlarını günün tələbləri səviyyəsində qurmaq bacarığında, habelə özünün ali məktəbdə pedaqoji əməyini təşkil etmək məharətində istifadə olunur.

Akademik qruplarda şəxsiyyətlərarası münasibətləri tənzimləmək, tələbələri ictimai işlərə cəlb etmək və vəzifə bölgüsü aparmaq, planlaşdırmaq, görülmüş işləri yekunlaşdırmaq və s. təşkilati qabiliyyətlərlə bağlıdır. Müəllim təkcə tələbələrin fəaliyyət və davranışını deyil, öz fəalliyyətini də real şəraitə uyğun dəyişdirməyi bacarmalıdır.

Kommunikativ qabiliyyət münasibətlərin nizama salınması, tələbələrlə, öz həmkarları və rəhbər işçilərlə məqsədəuyğun pedaqoji ünsiyyətin yaradılması, tərbiyə işlərinin həyata keçirilməsi, pedaqoji prosesin gedişinin təhlili, yol verilmiş səhvlərin, yaxud arzuolunmaz nəticələrin səbəblərinin aşkarlanması və qısa zaman kəsiyində korrektə edilməsilə bağlıdır.

Suqqestiv qabiliyyət (latınca suqqestio – təlqin, eyham, işarə deməkdir). Bu, təhsil alanlara təlqinedici, iradi-emosional təsir göstərməkdə ifadə olunur.

Perseptiv qabiliyyət (latınca auctorotas, almanca autoritat – nüfuz, hakimiyyət deməkdir) – təhsil alanlara iradi-emosional təsir göstərməklə onların nüfuzunu qazanmaqda özünü göstərir. Avtoritar qabiliyyət müəllimin bir sıra kompleks keyfiyyətləri, xüsusən də, qətiyyət, təkidlilik, dözüm, tələbkarlıq və digər iradi keyfiyyətləri, yetirmələrinin təhsil və tərbiyəsi üçün məsuliyyət hissi, özünəinam kimi şəxsi psixi xüsusiyyətləriylə sıx vəhdətdədir.

Qnostik qabiliyyət (yunanca qnosis – bilik, qnostis – idrak deməkdir) dedikdə, müəllimin ixtisas fəaliyyətinin əsasını təşkil edən bilik və bacarıqlar sisteminə dərindən bələd olması başa düşülür. Təlim-idrak fəaliyyətinin effektivliyini təmin edən amillərin müəyyənləşməsi, fərziyyənin irəli sürülməsi və yoxlanılması, ziddiyyətlərin aşkarlanması və həll edilməsi, alınan nəticələrə tənqidi münasibət – qnostik qabiliyyətlərlə bağlıdır. Qnostik qabiliyyət pedaqoji nəzəriyyəyə dərindən bələd olması başa düşülür. Təlim-idark fəaliyyətinin effektivliyini təmin edən amillərin müəyyənləşdirilməsi, fərziyyənin irəli sürülməsi və yoxlanılması, ziddiyyətlərin aşkarlanması və həll edilməsi, alınan nəticələrə tənqidi münasibət – qnostik qabiliyyətlərlə bağlıdır. Qnostik qabiliyyət pedaqoji nəzəriyyəyə dərindən bələd olmaq və ondan yaradıcı şəkildə istifadə etmək, qabaqcıl təcrübəni öyrənib ümumiləşdirmək, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq, təkcə öz fənnini deyil, onun tədrisi metodikasını və habelə psixologiyanı dərindən bilmək, elmi yenilikləri müntəzəm izləmək və innovasiyaları təhsilin məzmununa daxil etmək bacarıqları ilə müəyyənləşir. (4) Pedaqoji faəliyyətə yaradıcı münasibət və təlim-tərbiyənin ən yeni metodlarından səmərəli surətdə istifadə olunması müəllimin qnostik qabiliyyətlərinin göstəricisidir. Pedaqoji qabiliyyətlər bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Bu qabiliyyətlərin hər birinin özünəməxsus tərəfləri müəllimin fəaliyyətində özünü göstərir.

Müəllim hazırlığında pedaqoji təcrübənin rolunu gücləndirmək lazımdır. Univerisitet təhsilində qısamüddətli pedaqoji təcrübə səriştəli müəllim hazırlamq üçün yetəli deyildir. Kadr hazırlığı probleminin həlli yollarından bir digəri innovativ təlim texnolgiyaları, qiymətləndirmə metodologiyası, müasir vasitə və resurslar, stimullaşdırıcı mexanizmlər və bir sıra digər vasitələrin tətbiqi ilə hazırlıq prosesinin keyfiyyətini yüksəltmək olar. Təhsil sisteminin daha da keyfiyyətli göstəricilərlə təmin etmək məqsədi ilə mövcud korpusunun təkmilləşdirilməsi tələb olunur. Müəllim hazırlığında başlıca strategiya fənn biliklərinin mənimsənilməsindən daha çox tələbələrin peşə uyarlılığına, pedaqoji ustalığın inkişafına, zəruri kompetensiyaların formalaşdırılmasına, müasir təlim texnologiyalarının mənimsənilməsinə yönəldilməlidir. Təhsil islahatlarının uğurla həyata keçirilməsi üçün müəllimin ictimai nüfuzunun özünə qaytarılması, onun yüksək maddi və mənəvi motivasiyası, pedaqoji təhsilə istedadlı gənclərin cəlb olunması çox vacib amillərdir.(2) Müəllim sənətinə istedadlı gənclərin cəlb edilməsi məqsədi ilə dövlət sifarişinin imkanlarından səmərəli istifadə olunmalı, orta məktəb dövründən başlayaraq pedaqoji peşə yaradılmalıdır. Müəllim hazırlığı sistemində internatura modelinin tətbiqi də səmərəlidir. Bu model gələcək müəllimlərin diferensasiyasını həyata keçirməyə, müəllimlik peşəsinə təsadüfi gələn gənclərdən xilas olmağa, pedaqoji peşəyə daha yararlı, səriştəli kadraları cəlb etməyə kömək göstərər.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planı. "Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178.
2. Alışov M.Ə. Təhsil və cəmiyyət: Təhsil islahatlarının dinamikası. "Adiloğlu" Bakı-2020, 222 s.
3. Əhmədov H.H. Azərbaycan Təhsilinin İnkişafı Strategiyası, Bakı: Elm, 2010, 799 s.
4. Rüstəmov F.A. Ali məktəb pedaqogikası, Bakı, Nurlan, 2007, 576 s.

А.Я.Гасымова

Проблема обучения учителей
в государственной стратегии развития образованя

Резюме

В стате определены направления соответствуюших широкоммасштабных реформ в сфере образования и подготовки кадров, обеспечивающих соответствие требованиям современной эпохи. Отмечены реконструкция системы упровления образоавнием для повыщения, развития кадрового потенциала в етой сфере и повышения престижа профессии учителя. Формирование учащихся как образованных людей зависит главным образом от уровня профессионализма педагога.

A.Y.Gasimova

The problem of teacher training in the state strategy for the development of education

Summary

The article about large-scale reforms in the education and training of staff to ensure that meet the requirementsof the modern trend is reflected in the identification of issues. Recanstruction of the education management system to improve the quality of education was noted in this area and increasing the prestige of the teacher's profession. The formation of student as educated and competent people depends mainly on the level of professionalism of the teacher.

Rəyçi: dos. K.Səmədov

Redaksiyaya daxil olub: 17.05.2022

E.N.QULİYEV
e-mail: quliyeveltun001@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

HƏRBİ MƏZMUNLU MİLLİ – İDMAN OYUNLARINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

Açar sözlər: *milli – idman oyunları, hərbi əhəmiyyətli oyun, fiziki tərbiyə, təlim–tərbiyə prosesi, milli mentalitet.*

Ключевые слова: *национально - спортивные игры, игра военного значения, физическое воспитание, учебн0-воспитательный процесс, национальный менталитет.*

Key words: *national - sports games, game of military significance, physical education, training process, national mentality.*

Düşünmək, fakt və hadisələri təhlil etmək, oxuyub öyrənmək - əqli iş, fiziki hərəkət və fiziki əmək insana xas olan atributlardır. Bunların sırasında idman iradə ilə bağlı olub, məqsədyönlü, sistemli və ardıcıl məcmusu kimi insanın bütövlükdə fəal həyat mövqeyi qazanmasında mühüm rol oynayır.

Dünya xalqlarının görkəmli nümayəndələri hərəkəti, fiziki fəaliyyəti sağlam həyat tərzi üçün mühüm saymışlar. İnsanın hər cür hərəkətləri, fəaliyyət növü və vərdişləri ali sinir sistemi ilə sıx bağlıdır. Bunların ahəngdarlığı normal həyat üçün başlıca şərtdir. Ümumiyyətlə, hərəkət çox böyük təsir qüvvəsinə malik vasitə kimi dəyərləndirilir.

Azərbaycan ictimai – bədii və pedaqoji fikir tarixinin görkəmli nümayəndələri fiziki sağlamlığa, insanın bədəncə möhkəm, dözümlü və kamil olmasına, tarixi ənənə və təcrübə əsasında, böyük dəyər vermişlər.

İstər qədim və orta əsr ədəbiyyatımızda, istərsə də XX əsr sənəti nümunələrində müsbət ədəbi qəhrəmanları səciyyələndirən ən mühüm keyfiyyətlər sırasında fiziki sağlamlıq, yenilməz fiziki gücə malik olmaq, qılınc oynatmaq, ox atmaq, şahmat və nərd oynamaq, bacarıqlı süvari olmaq, covqan oynamağı bacarmaq, ovçuluq, üzgüçülük, fiziki dözümlülük, yaraşıqlı qədd- qamət sahibi olmaq və s. xüsusi dəyər – fiziki mədəniyyət elementləri dəyəri daşıyır.

Ədəbi – tarixi mənbələrdən bəlli olan budur ki, Azərbaycan ictimai (bu kontekstdə həm də pedaqoji) fikrində insanın ümumi tərbiyəsi çoxtərkibli sayılmış, buraya əqli, əxlaqi, mənəvi, milli – bəşəri, estetik, əmək tərbiyəsi, natiqlik bacarığı onun fiziki tərbiyəsi ilə əlaqəli, vəhdətdə götürülmüşdür. Ədəbi qəhrəmanların bədii – estetik təqdimatı və tarixi şəxsiyyətlərin real nümunəsindən aydınlaşır ki, fiziki mədəniyiyət cəmiyyətin ümumi inkişafını əks etdirən bədii, etik, siyasi, nitq mədəniyyəti kimi ümumi və daimi kateqoriya kimi xüsusi əhəmiyyət kəsb edir.

Şagirdlərin fiziki sağlamlığının təmin olunmasında, fiziki inkişafının reallaşdırılmasında, ümumi mədəniyyətin tərkib hissəsi olan, fəal həyat mövqeyi tutulmasında başlıca vasitələrdən sayılan fiziki mədəniyyətin formalaşmasında milli klassik oyun nümunələri həm mütəhhərrik – hərəki hərəkətləri, həm rəvan nitq elementlərini, həm bədii – estetik dəyərləri özündə əks etdirən, daşıyan mənəvi sərvətdir.

Aparılmış pedaqoji tədqiqat, mövcud məktəb təcrübəsinin öyrənilməsi, tarixi mərhələləri əks etdirən ədəbi mənbələrin təhlilindən doğan pedaqoji qənaət belədir ki, milli idman növləri sosial fəallığın artırılması, adamların sağlamlığının möh-kəmləndirilməsi, asudə vaxtın daha mənalı təşkili sahəsində başlıca amillərdən biridir.

Hazırda Azərbaycan təhsili sivil ölkələrin inkişaf etmiş təhsilinə uğurla inteqrasiya olunmaqdadır. Bu işin seçilən tərəfləri bunlardır:

1. Azərbaycan təhsili dünya təhsili səviyyəsinə qalxmaq üçün beynəlxalq saziş və müqavilələrə qoşulub, respublika təhsil müəssisələri öz fəaliyyətlərini yaxşılaşdırıb səmərəliliyi artırmaq üçün innovasiyalardan, internet imkanlarından, informasiya və kommunikasiya texnologiyalarından başlıca faktor və vasitə kimi götürürlər.

2. Çoxkomponentli və geniştərkibli bu uzunmüddətli islahat prosesində milli mentalitet ciddi gözlənilir, dövlət miqyaslı bu sosial – pedaqoji, tarixi – ictimai-iqtisadi dəyər və əhəmiyyəti olan islahat növbədə Milli Təhsil Konsepsiyası əsasında hazırlanan və hazırlanmaqda olan fənn kurikulumları əsasında aparılır.

3. Milli kurikulumların tərtibində ümumbəşəri dəyərlər ən yüksək göstərici kimi götürülür, Azərbaycan təhsilinin tarixi təcrübəsi və uğurlar başlıca qaynaq, zəngin mənbə kimi istifadə olunur.

4. Dünyəvi elmlərin (kimya, biologiya, fizik, riyaziyyat, astronomiya, coğrafiya və s.) kurikulumlarında Azərbaycan elminin nailiyyətləri də tədris materialları kimi əksini tapır. Bu, milli qürur hissi zəminində şagirdlərin bəşəri duyğulu dünya vətəndaşları kimi tərbiyə olunması üçün təlimi şərait və əvəzsiz pedaqoji – psixoloji şərait deməkdir.

Məsələyə bu baxımdan yanaşanda aydınlaşır ki, Azərbaycan milli idman oyunlarından təlim – tərbiyə prosesində istifadənin təbii və real pedaqoji - psixoloji əsasları var. Belə ki, təsdiq olunmuş ibtidai siniflər üçün fiziki tərbiyə kurikulumunda milli oyunlardan istifadə məsələsi də əksini tapmışdır. Pedaqoji mətbuatda dərc olunmuş yuxarı siniflər üçün fiziki tərbiyə kurikulumu layihəsində də milli idman oyunları ilə bağlı fikirlər, fiziki tərbiyə prosesində milli oyunlardan istifadə tövsiyəsi təsbit olunmuşdur.

Buradan isə milli oyunlardan təlim – tərbiyə prosesində istifadə yollarının tədqiqinin aktual və vacib olduğu bir daha ortaya çıxır.

Məktəblərdə apardığımız müşahidə və eksperimentlər, müəllim təcrübələrinin təhlili və ümumiləşdirilməsi bu qənaətə gəlməyə imkan verir:

– milli idman oyunları haqqında məlumatlar şagirdlərin qan yaddaşında olur; onlar bu xalq yaradıcılığı dəyərlərini ailədə, bağçada, məktəbdə tənəffüslərdə, asudə vaxtlarda həyətdə təbii və könüllü olaraq, həvəslə ibtidai siniflərin fiziki tərbiyə kurikulumunun tələbləri ilə məşğul olurlar;

– bu oyunlar müxtəlif formalı, zəngin və rəngarəng mövzulu olduğu üçün şagirdləri yormur;

– fasiləsiz olaraq, mədəni – fiziki tələbatı ödəmək niyyətilə, təbii və həyati olaraq keçirilən, asudə vaxtın fiziki inkişafa yönələn, fiziki mədəniyyətin formalaşmasına sərf edilən bu oyunlar xeyli dərəcədə stabil məzmunu və hərəki vərdişlər sistemi gözlənildiyi üçün problemlər doğurmur.

Beləliklə, milli oyunlardan təlim – tərbiyə prosesində istifadənin aşağıdakı imkan və yollarının daha səmərəli olduğunu müəyyənləşdirdik:

1. Təlim prosesində: a) fiziki tərbiyə dərslərində bədən tərbiyəsi və idman tarixi, idman növləri, idmançılarımız haqqında nəzəri – tarixi məlumat çatdırmaq (proqram tələbi ilə), milli oyunlar barədə informasiya və şərhlər vermək (əyani vəsaitlər əsasında) yolu ilə şagirdlərə nəzəri bilik mənimsətmək. Bu, daha səmərəli, daha effektli və məqsədyönlü yoldur. Dərs cədvəli əsasında, tədris proqramı ilə, müəllim mühazirəsi, şəhri vasitəsilə reallaşdırılan bu yol planlı, sistemli, məqsədyönlü, empirik və vərdişlərə əsaslanan tədris prosesidir.

b) tədqiqat nəticəsində aşkara çıxardıq ki, yuxarı sinif şagirdləri hələ aşağı siniflərdə ibtidai siniflərdə oxu, Azərbaycan dili, fiziki tərbiyə dərslərində; əsas təhsil pilləsində Azərbaycan dili, ədəbiyyat, Azərbaycan tarixi dərslərində (Azərbaycan dili dərslərində çalışmalarda oyunlar barədə cümlələr, mətnlər olur; ədəbiyyat fənni üzrə folklor materialları sırasında; Azərbaycan tarixindən milli mədəniyyətlə bağlı mövzuların tədrisində) milli idman oyunları ilə bağlı məlumat mənimsədilməsi imkanları reallaşdırılır.

2. Milli idman oyunlarını öyrətmənin ikinci yolu təlim prosesini davam və inkişaf etdirən, şagirdlərin asudə vaxtlarını həvəs və maraq, meyil və qabiliyyət, həyati bacarıq və təbii vərdişlər əsasında həyata keçirilən sinifdənxaric və məktəbdənkənar tədbirlərdir. Buraya fərdi, qrup və kütləvi formalı müxtəlif növ işlər (milli idman oyunlar üzrə yarışlar, milli oyunlar haqqında stend hazırlanması, milli oyunlarla bağlı radio və televiziya verilişlərinin izlənilməsi və bunlar əsasında yazılı və illüstrativ materiallar toplusunun tərtibi və s.) daxildir.

Ədəbiyyat

1. Abbasov T.T. İdman və mütəhərrik oyunlar. Bakı: Maarif, 2007, 263 s.
2. Ağayev Ə.Ə., Səmədov Y.B. Ümumtəhsil məktəblərində xalq oyun ənənələrindən istifadə: metodik vəsait. Bakı: Mütərcim, 2005, 152 s.
3. Ağayev H.H. Azərbaycan milli xalq oyunları. Bakı: Azərbaycan Dövlət Nəşriyyat-poliqrafiya Birliyi, 2002, 79 s.
4. Ağayev M.H. Yuxarı sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsi. NDA, Bakı, 1981, 126 s.
5. Azərbaycan qədim milli oyunları / I Ümumrespublika konfransının materialları. Bakı, 1991, 96 s.

Э.Н.Кулиев

Возможности организации национально-спортивных игр военного значения

Резюме

В статье показано, что одним из важнейших средств для продолжения и развития учебного процесса и реализации в жизнь свободного времени школьников, на основе энтузиазма и интереса, жизненных навыков и естественных привычек - являются внеклассные и внешкольные мероприятия. Он включает в себя индивидуальные, групповые и массовые формы различных видов национально- спортивных игр военного значения. Используя национально-спортивные игры военного содержания на уроках физкультуры, внеклассных и внешкольных мероприятиях по физическому воспитанию у школьников наряду с формированием физического усовершенствования и культуры, возможно, обогатить у них военно-патриотические чувства и знания.

E.N.Guliyev

Possibilities of organizing military national sports games

Summary

Article deals with research of one of the most important tools for continuing and developing the learning process is that the leisure time of the learner is based on enthusiasm and interest, inclination and ability, vital skills and natural habits. It includes a variety of national, military, and military sports, including individual, group and massive forms. Using military-style national sports games, physical education and physical education classes can be further enriched with students' physical-personality, physical culture, and their military-patriotic feelings and knowledge.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 08.04.2022

R.QURBANOVA
müəllim
e-mail: rena_qurbanova@bk.ru

DOI:10.48652/l2219-0797-1187-s

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

HƏSƏN BƏY MƏLİKOV ZƏRDABİNİN AZƏRBAYCAN MƏTBUATINDA GİGİYENA VƏ TİBBƏ DAİR FİKİRLƏRİ

Açar sözlər: *H.Zərdabi, tibb, məktəb gigiyenası, sağlamlıq, mətbuat*
Ключевые слова: *Г.Зардаби, медицина, школьная гигиена, здоровье, пресса*
Key words: *G.Zardabi, medicine, school hygiene, health, press*

H.Məlikovun gigiyenaya və tibbə dair məqalələri həm rus, həm də ana dilli mətbuatda yer alır. Onun rus dilində çıxan "Kaspi" qəzetində bu mövzuda xeyli elmi yazısı işıq üzü görmüşdür. Onlardan "Orqanizmdə yoluxucu mikroblarla mübarizə" (1899, 28 avqust), "Məktəb gigiyenası" (1900, 4 fevral), "Vərəm və onun müalicəsi" (1900, 2 mart), "İnsandakı parazitlər" (1900, 18 iyul) və s. məqalələri göstərmək olar.

"Orqanizmdə yoluxucu mikroblarla mübarizə" məqaləsi XIX əsrin 70-ci illərində əsası qoyulmuş mikrobiologiya elmi, "mikrob nəzəriyyəsi" və onun insanın, həmçinin heyvanların sağlamlığının qorunmasındakı əhəmiyyəti ilə bağlıdır. Əsası rus alimi, zoopataloq İ.İ.Meçnikov və həmkarları tərəfindən qoyulan "mikrob nəzəriyyəsi" əslində biologiya və təbabət elmində böyük kəşf və inqilab idi. İlk dəfə mikrobiologiya elminin yaranması ilə sübut olunurdu ki, həyatda çoxhüceyrəli, gözə görünən heyvanlardan başqa, gözə görünməyən, daha doğrusu, yalnız mikroskopla görmək mümkün olan təkhüceyrəli heyvanlar da mövcuddur. Mikroblar və bakteriyalar bu qəbildəndir. Hər yerdə – həm təbiətdə, həm insan, həm də heyvan orqanizmində mövcud olan belə təkhüceyrəli orqanizmlər surətlə yayılıb çoxalır. Onlar insan və heyvanlar üçün son dərəcə təhlükəli olub bir sıra xəstəliklərin yaranmasına səbəb olur. Ona görə də belə mikrob və bakteriyalardan, təhlükəli parazitlərdən qorunmaq lazımdır.

Həsən bəy mikrob və bakteriyaların xassəsi, növləri, insan və heyvanları müxtəlif xəstəliklərə yoluxdurma riski, yoluxmanın səbəb və xüsusiyyətləri, əlamətləri və s. barədə dolğun elmi məlumat verir. Eyni zamanda bu qorxulu təkhüceyrəlilərdən qorunmağın, onların yaratdığı fəsadları önləməyin və aradan qaldırmağın yolları barədə də dəyərli fikirlər söyləyir. Alim eyni zamanda insan orqanizminin immunitet qabiliyyəti və onun parazitlərə qarşı müqavimət xüsusiyyəti, bu qabiliyyəti necə yaratmaq, həmçinin bəzi xəstəliklərə qarşı peyvənd etmək, peyvəndin əhəmiyyəti və elmi mahiyyəti haqqında da oxuculara kifayət qədər maraqlı bilgilər verir. İnsanlar və heyvanlar arasında geniş yayılmış bir sıra xəstəliklərin adını çəkir, son dövrlərin elmi nailiyyəti əsasında həmin xəstəliklərdən xilas olmağın yollarından söhbət açır.

Alimin adını çəkdiyimiz məqaləsi Azərbaycan elmində mikrobiologiyaya həsr olunmuş ilk elmi məqalə olmaqla yanaşı Azərbaycan ictimaiyyətini ilk dəfə bir sıra yoluxucu xəstəliklər törədən mikroorqanizmlərlə də tanış edir.

H.Zərdabinin 1900-cü ildə (4 fevral) "Kaspi" qəzetində işıq üzü görmüş "Məktəb gigiyenası" məqaləsi aktual bir məsələyə həsr olunmuşdur. Məsələnin aktuallığını müəllif özü dönə-dönə nəzərə çatdırır. Qeyd edir ki, gigiyena elmi gəncdir və bu yaxın illərdə təşəkkül tapmışdır. Buna səbəb isə son dövrlərdə iqtisadiyyat və sənayenin inkişafı, insanların sənaye mərkəzlərinə cəmləşməsi, şəhərlərdə sıxlıq yaranması və s. bir sıra səbəblər ucbatından insan sağlamlığının qorunmasına ciddi ehtiyacın yaranmasıdır. Məhz bu ehtiyac və zərurət gigiyena

elminin yaranmasına səbəb olmuşdur. Müəllif insan xislətində olan belə bir naqis cəhətə də toxunur ki, adamlar çox zaman var-dövlət arxasınca qaçıb öz sağlamlığına o qədər də diqqət yetirməmiş, sərvəti səhhətdən üstün tutmuş, belə bir naqis düşüncə isə nəticədə ona fiziki mənada böyük xətərlər yetirmişdir.

Getdikcə pisləşən antigigiyenik şərait böyüklərdən daha çox uşaqların səhhətinə mənfi təsir göstərir. Çünki onların orqanizmi hələ bərkiməyib və daha dözümsüzdür. Onların səhhətinin qayğısına qalmaq ictimai və tibbi bir vəzifə kimi xüsusi əhəmiyyət kəsb edir: "Uşaq orqanizmi hələ bərkiməyib, formalaşıb başa çatmayıb; belə orqanizm tez zədələnir və yetkinlik yaşına qədər zəifləməyə başlayır, sözün tam mənasında pərvazlanmaqdan qalır. Ona görə də gigiyenistlər gənc nəslin qorunmasına bütün güclərini sərf etməlidirlər. Bu mənada qarşıda duran vəzifə çox genişdir, bunun üçün həm də həmin uşaqların valideynlərinin şəraitini yaxşılaşdırmaq gərəkdir, halbuki hal-hazırda buna nail olmaq müşküldür" (8, 286).

H.Zərdabi böyüməkdə olan övladların səhhətinin qayğısına qalmağı gələcək nəslin taleyi ilə əlaqələndirir. Göstərir ki, nəsillərin davamlı şəkildə sağlamlığı üçün uşaqların sağlamlığı daim diqqət mərkəzində olmalıdır. Bu işdə uşaqların toplaşdığı məkanlar xüsusi gigiyenik diqqət və qayğı tələb edir. Yəni məsələnin həllinə uşaqların cəm olduğu yerdən – məktəbdən başlamaq lazımdır. Müəllif məktəb mühitində gigiyenik normalara əməl edilməsi ilə əlaqədar maraqlı və dəyərli təkliflər verir, pedaqoqların diqqətindən yayınan bu məsələni diqqət mərkəzində saxlamağı tövsiyə edir. Problemin mahiyyətini inandırıcı dəlillərlə açıqlayaraq yazır: "Bunun üçün o yerlərdən başlamaq lazım gəlir ki, bizim uşaqlarımız toplaşırlar, hansı ki, burada heç də az vaxt keçirmirlər, xüsusilə bizim məktəblərdə ki, həmin məktəblərdə uşaq orqanizminin fiziki inkişafına az diqqət yetirirlər: bizim pedaqoqların bütün cəhdi beyinin inkişafına yönəlir; sanki onlar bütün bədəni qida ilə təchiz edən qanla, qidalanmır; o havadan nəfəs almır ki, bütün orqanizm ondan hava udur. Məktəbdə belə bir yanlış baxış ona gətirib çıxarır ki, biz övladlarımızı şikəst edirik və onların çoxu gələcəkdə fiziki inkişafa qabil olmurlar: onların gözü zəifləyir, bel sütunu əyilir, əzələləri süstləşir, nəhayət, pedaqoqların qayğısına qaldıqları beyin özü də bununla birlikdə kütləşir" (8, 286).

Alim məktəblərə həkimlərin cəlb edilməsi barədə ölkədəki tibbi mətbuatın təklifini bəyənir. Yeni yaradılmış gigiyena şöbəsinin tərbiyə və təhsildəki fəaliyyət sferasına müdaxiləsini yaxşı hal sayır.

Eyni zamanda doktor A.A.Lozinskinin təhsil müəssisələrində fiziki tərbiyə ilə bağlı islahatlar keçirmək barədə təklif və tövsiyələrini alqışlayır. Təkliflər sırasında bunlar da var idi ki, hər bir təhsil dairəsində tibbi inspektor vəzifəsi yaradılmalı, təhsil müəssisələrində təlim prosesinə müxtəlif oyunlar, fiziki məşğələlər daxil edilməlidir.

H.Məlikovun "Vərəm və onun müalicəsi" məqaləsinin oxuculara təqdim olunduğu 1900-cü ildə ("Kaspi", 1900, 2 mart) hələ vərəm xəstəliyinin müalicəsi tam şəkildə mümkün deyildi. Bu istiqamətdə uğurlu işlər görülsə də, xəstəliyin ilkin mərhələlərində onu müalicə etmək mümkün olsa da, ağır mərhələlərinin şəfası hələ ki tapılmamışdı. Həsən bəy öz məqaləsində ictimaiyyəti həmin xəstəlik, onun xüsusiyyətləri, ondan qorunmağın yolları, İngiltərə, Almaniya və s. qabaqcıl ölkələrdə xəstəliyin müalicə metodları, insanları ictimai və fərdi həyatda vərəmin əlindən qurtarmaq üsulları və s. barədə faydalı məlumatlar verir. Xəstəliyə yoluxmamaq və ya ondan qurtuluş üçün hansı gigiyenik üsullara əl atmağın zəruri olduğunu oxuculara başa salır. Göstərir ki, bunun üçün ilk növbədə bədənin və yaşayış yerinin təmizliyi bərqərar olmalı, təmiz hava, təmiz qida, təmiz su, işıqlı və quru otaq rejiminə əməl edilməlidir. Müəllif belə bir fars məsəlini xatırladır: "hara işıq və təmiz hava az daxil olursa, oraya həkim tez-tez gəlir" (8, 300).

Alimin "İnsandakı parazitlər" ("Kaspi", 1900, 18 iyul) məqaləsi insanların məişətdə tez-tez üzləşdikləri vacib bir məsələyə həsr olunmuşdur. Burada insanlarda, həmçinin heyvanlarda mövcud olan bəzi parazit qurdlardan və onların törətdikləri fəsadlardan söhbət açılır. Azərbaycan mühitində təbabətin və tibbi biliklərin zəif inkişaf etdiyi tarixi bir şəraitdə zikr olunan

məqalənin böyük əhəmiyyəti var idi. Belə ki, parazit qurdlar insanlar və heyvanlar arasında sıx-sıx müşahidə olunurdu. Onlar müalicə olunmadıqda ağır nəticələrə gətirib çıxarırdı.

Həsən bəy öz məqaləsində elmi maarifləndirmə işi aparmaq, ictimaiyyəti qurd xəstəlikləri, onların törəmə səbəbləri və onlardan qorunma yolları ilə tanış etmək istəyir. Qeyd edir ki, insan və heyvan orqanizmində bəzi qurdlar, məsələn, soliter, trixin və s. geniş yayılmışdır. Onlar heyvandan insana və əksinə yoluxa bilir. Bəzi ev heyvanlarında, o cümlədən donuzlarda həmin parazitlərə daha çox rast gəlinir. Yoluxma prosesindən sonra qarşısı alınmadıqda onlar orqanizmdə ağır xəstəliklərə gətirib çıxarır. Müəllif aydın və elmi şəkildə həmin qurdların xüsusiyyəti, yaşama və yoluxma tərzi, insan və heyvan orqanizmində necə mövcud olmaları və çoxalmaları, orqanizmdə bu parazitlərin mövcudluğunun əlamətləri və s. barədə bilgi verir. Ən başlıcası izah edir ki, insanlar həmin qurdlardan özlərini və uşaqlarını necə qorumalı, yoluxmanın qarşısı necə alınmalı, əgər yoluxma halı baş veribsə, ondan necə qurtulmalı. Alimin tibbi-fiziki tərbiyə ilə bağlı əsərləri sırasında haqqında danışdığımız məqalənin ciddi dəyəri vardır. Buradakı mətləblər bu gün də öz aktuallığını saxlayır.

H.Zərdabinin Azərbaycan dilində də fiziki tərbiyəyə həsr olunmuş xeyli məqaləsi vardır. Bunlar o zaman "Həyat" qəzetində, "Füyuzat", "Dəbistan", "Məktəb" kimi jurnallarda, habelə ayrıca kitabça halında nəşr olunmuşdur. Onlardan bəzilərinin təkrar-təkrar çap olunub oxuculara çatdırıldığının da şahidi oluruq. Müəllifin deyilən mövzuya həsr edilmiş əsərlərindən aşağıdakıları göstərə bilərik: "Xörək yemək, su içmək", "Qan nə tövr bədəndə dövr edir", "Nəfəs almaq", "İnsan bədəninin hissələri", "Həvasi-xəmsə", "Hifzüs-sihhə", "Bədəni salamat saxlamaq düsturüləməlidir" (3; 4; 5; 6) və s.

Adı çəkilən əsərlərdən sonuncudan başqa qalan hamısı mətbuat orqanları vasitəsilə oxuculara çatdırılmış, sonradan bəziləri ayrıca kitabça halında işıq üzü görmüşdür. Sonuncu əsər – "Bədəni salamat saxlamaq düsturül-əməlidir" isə ilk dəfə 1914-cü ildə Kiyevdə təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü və maddi vəsaiti hesabına kitab şəklində nəşr edilmişdir. Onu da deyək ki, bu, alimin fiziki tərbiyəyə dair ən iri həcmli əsəridir. Adını yuxarıda çəkdiyimiz bütün məqalələrdəki məzmun və mətləblər bu sonuncu əsərdə daha müfəssəl şəkildə şərh edilmiş və ümumiləşdirilmişdir. Ona görə də biz təkrardan qaçmaq məqsədilə ayrı-ayrılıqda əvvəlki məqalələr üzərində dayanmayıb məhz bu əsəri analizdən keçirməyi məqsədəuyğun hesab edirik. Çünki mətləblər uyğun və oxşar olduğundan əvvəlki məqalələrə də nəzər salmaq təkrara səbəb ola bilərdi.

Deyildiyi kimi, "Bədəni salamat saxlamaq düsturüləməlidir" əsəri müəllifin ölümündən, sonra əvvəlcə 1914-cü ildə Kiyevdə təhsil alan tələbələrin təşəbbüsü ilə işıq üzü görmüşdür. Əsər 1960-cı ildə H.Zərdabinin "Seçilmiş əsərləri"nə də daxil edilmiş, nəhayət, 2010-cu ildə T.Aydınoğlunun tərtibatı ilə latın əlifbası ilə Bakıda ayrıca kitab halında nəşr edilmişdir.

Azərbaycan dilində "natural gigiyena"ya dair ilk elmi əsər kimi diqqəti cəlb edən kitaba ön sözdə o zaman Kiyevdə təhsil alan və nəşriyyət qrupuna rəhbərlik edən Y.V.Çəmənzəminli əsərin nəşrinin səbəbi ilə bağlı bunları yazır: "Mərhum Həsən bəy Məlikzadə tərəfindən qələmə bir çox elmi əsərlər alınıb, lakin indiyədək onlar camaatımızın himmətsizliyindən çap olunmayıb qalırdı. "Kiyev islam tələbələrinin nəşriyyat heyəti" bu əsəri Həsən bəyin möhtərəm zövcəsinin razılığı ilə nəşr etməyə şüru etdi. Əvvəl "Torpaq, su və hava" ünvanlı kitabça təb olunub, indi isə oxucularımıza "Bədəni salamat saxlamaq düsturüləməli"ni təqdim edirik. Bu kitaba "heyət" tərəfindən haşiyə olaraq bəzi şeylər artırılıb, bir də bir neçə sözün dərci namünasib görüldüyündən bilmərrə ötürülüb, yerləri nöqtələr ilə nişanə olunub, qalanı isə mərhum Həsən bəyin əlyazılarından yazılıb eynən dərc olunur.

Student: Yusif Vəzir" (7, 8-9).

Onu da əlavə edək ki, pedaqoq alimlərimizdən Ə.Seyidov və Y.Talıbov H.Zərdabinin fiziki tərbiyə ilə bağlı görüşləri barədə araşdırma apararkən alimin, əsasən, haqqında söhbət açdığımız bu əsərinə istinad etmişlər (1; 147).

H.Zərdabinin fiziki tərbiyəyə dair dolğun və elmi mündəricəyə malik bu kitabı "natural gigiyena"ya aid səviyyəli bir əsərdir. İnsanların təbiət qanunları ilə yaşamasını əsas götürən (süni yaşayışı, süni məişət və həyat tərzini qəbul etməyən) "natural gigiyena" XIX əsrin II yarısında təşəkkül tapmışdı. Alimin öz əsərini qələmə aldığı dövr üçün gənc elm sahəsi hesab olunurdu. Əsərin 2010-cu il nəşrinə yazılmış ön sözdəki belə bir fikirlə razılaşmaq lazım gəlir: "Başlanğıcını ötən əsrin ikinci yarısından götürən natural gigiyena, naturopatiya hərəkatı Həsən bəy Zərdabinin yaşadığı illərdə Avropada və Amerikada sürətlə yayılmağa başlamışdı. Mədəniyyət və tərəqqi aşiqi olan böyük soydaşımız ixtisasca təbiət alimi olduğundan həmin baxışları dərindən əxz etmiş və öz xalqına çatdırmaq üçün elmi təbliğatın müxtəlif vasitələrindən istifadə etmişdir. Həsən bəy, nəhayət, sağlam yaşamaq qaydaları barədə öz dövrü üçün mükəmməl, bu gün də elmi-gigiyenik dəyərini saxlayan, eyni zamanda populyar üslubu ilə belə nəşrlərə nümunə olan bir kitab yazmışdır" (7, 10).

Alim elmi-kütləvi əsər kimi nəzərdə tutduğu və sadə, aydın, məntiqli bir dildə qələmə aldığı fiziki tərbiyə haqqında risaləsinə yığcam bir müqəddimə də yazmışdır. Burada müəllif "bədəni salamt saxlamaq elmi" adlandırdığı gigiyena elminin cəmi 20-30 yaşı olduğunu, onun təşəkkül tapmasının səbəblərini açıqlayır. Urbanizasiya prosesinin, şəhərlərdə əhalinin sayının yüksəlməsinin, əhali sıxlığının artmasının, sənaye müəssisələrinin çoxalamasının, ekologiyanın pozulmasının nəticəsində şəhər mühitində bir sıra xəstəliklərin meydana gəlməsini xatırladır. Deyilən amilin elmi araşdırılması bunun natəmizlikdən, natəmiz mühitdə xəstəlik törədicilərinin, mikrobların, bakteriyaların və s.-in daha sürətlə çoxalması və yayılmasından əmələ gəldiyini müəyyənləşdirmişdir. Belə bir elmi müəyyənlik "bədəni salamat saxlamaq elmi"nin ərsəyə gəlməsinə təkan vermişdir. Müəllif məsələnin mahiyyətini bu şəkildə şərh edir: "Elə ki, məlum oldu ki, insan nə qədər özünü yaxşı saxlaya, özlərini yaman saxlayanlardan, onlara zikr olan yoluxma naxoşluqları düşəcəkdir, şəhər camaatı və hakimlər hər vilayətdə qanunisəlaməti bina etdilər və hükəmayi-elm aşkar elədiyi təcrübələri o qanunlar ilə müvafiq edib, bədəni salamat saxlamaq elmini bina etdilər" (7, 12).

Həsən bəy Avropa ölkələrində camaatı zikr olunan elmlə bağlı maarifləndirmək, onları başa salmaq üçün çoxlu sayda kitabların yazılıb nəşr edildiyini nəzərə çatdırır. Öz həmvətənlərinin də "dilimizdə" belə kitablara zəruri ehtiyacını nəzərə alaraq belə bir əsər qələmə aldığını söyləyir.

Alimin risaləsində "bədəni salamat saxlamaq düsturüləməli" ilə bağlı gözəl bir sistem, elmi ardıcıllıq, münasib prinsip vardır. Doğrudan da: "H.B.Zərdabi sağlamlığın gözlənilməsinə təsir edən amillər sırasına evi, havanı, suyu, xörəyi, bədəni təmiz saxlamağı, paltarı, yuxu və yatacağı daxil edir və bunların arasındakı əlaqələri sistemlə, elmi əsaslarla, maraqlı, həyati misallarla təhlil edir. O, sağlamlığın gözlənilməsinə yalnız bioloji, pedaqoji-tibbi problem kimi deyil, sosial problem kimi baxır. Onun fikrincə sağlamlığın qorunması cəmiyyətin, ailənin, bəşəriyyətin qorunmasıdır, mühafizəsidir" (2, 41).

Pedaqoq alim Ə.Seyidov Həsən bəyin əsərinin adını şərti olaraq "Sağlamlığın gözlənilməsi üçün rəhbərlik" şəklində verir ki, məzmunu əhatə etməsi baxımından belə bir adı məqbul saymaq olar (1, 286-287).

H.Zərdabinin fiziki tərbiyə barədə bu mötəbər risaləsi ardıcıl, nizamlı və bir-biri ilə elmi cəhətdən əlaqələnmiş yeddi bölmədən ibarətdir: 1. Ev; 2. Hava; 3. Su; 4. Xörək; 5. Bədəni natəmiz saxlamaq; 6. Paltar; 7. Yuxu və yatacaq paltarı.

Göründüyü kimi, bu komponentlərin hər biri insanın həyatı, şəraiti və səhhəti ilə bağlı mütləq, vacib komponentlərdir. Bütövlükdə insanın yaşayış sferasındakı ən zəruri ünsürləri özündə ehtiva edir. İnsan sağlamlığa – bəşər övladı üçün ən gərəkli, zəruri nemətə nail olmaqdan ötrü zikr olunan komponent və ünsürlərdən necə yararlanmalı, nədən, necə istifadə etməli, öz yaşayışını hansı tərzdə qurmalı, cismani mənada övladını necə tərbiyə edib onun sağlamlığı, qayğısına qalmalıdır? Adı çəkilən bölmələrin hər birində həmin suallara kiçik detallarına qədər cavab tapmaq mümkündür.

Məqalənin aktuallığı: Məqalədə görkəmli maarifçi H.B.Zərdabinin hər zaman aktual olan gigiyena və tibb ilə bağlı dövri mətbuatda işıqlandırılan fikirləri və tövsiyələri tədqiqata cəlb edilmiş, hazırki dövrdə təsiri üzə çıxarılmışdır.

Məqalənin elmi yeniliyi: Məqalədə ilk dəfə H.B.Zərdabinin gigiyena və tibb ilə bağlı mətbuatda dərc olunmuş məqalələri araşdırılmışdır.

Məqalənin praktiki və nəzəri əhəmiyyəti. Məqalədən Azərbaycan məktəb və pedaqoji fikir tarixinin kursunda tədrisində mühazirə və seminar məşğələlərində istifadə etmək olar.

Ədəbiyyat

1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 331 s.
2. Ağayev Əhməd bəy. Zərdabinin dəfn mərasimində nitq. “İrşad” qəzeti, Bakı, 1907, 2 dekabr
3. Ağayev Əhməd bəy. Veyl. Əmini-küfr və Nəmrud. Bizim ürəfamız və onları inkar edənlər. “İrşad” qəzeti, Bakı, 1907, 27 dekabr
4. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri: Pedaqoji elm.nam. ...dis., Bakı, 1969, 291 s.
5. Ağayev Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin başlıca problemlərinə dair // Azərbaycan məktəbi, 1975, №1, s.48-53
6. Ağayev Ə. Azərbaycan maarifpərvərləri şəxsiyyət haqqında. Bakı: Maarif, 1978, 53 s.
7. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Pedaqoji elm.dok. ... dis., Bakı, 1996, 358 s.
8. Ağazadə F. Müəllimlər ictimainə dair. “İrşad” qəzeti, Bakı, 1906, №177, 188

Р.Курбанова

Взгляды Гасан бека Маликова Зардаби на гигиену и медицину в азербайджанской прессе

Резюме

В статье исследуются взгляды и рекомендации видного просветителя Г.Б. Зардаби, опубликованные в периодических изданиях по гигиене и медицине, актуальные и на сегодняшний день. Автором раскрывается их влияние в настоящий период. Каждый из этих компонентов обобщает обязательные, важные составляющие жизни, состояния и здоровья человека, а также важнейшие элементы в сфере жизнедеятельности человека в целом.

Газета Г.Зардаби «Хаят», такие журналы, как «Фуюзат», «Дабистан», «Школа» также опубликовали много статей по физическому воспитанию на азербайджанском языке, а также издали отдельным учебным пособием. Также были детально изучены многие статьи, перепечатанные и представленные читателям.

R.Gurbanova

Hasan bey Malikov Zardabi's views on hygiene and medicine in the Azerbaijani press

Summary

The article explores the views and recommendations of the prominent enlightener HB Zardabi, published in periodicals on hygiene and medicine, which are still relevant today, and reveals their current impact. Each of these components summarizes the absolute, important components of human life, conditions and health, as well as the most important elements in the sphere of human life as a whole.

H.Zardabi's many articles devoted to physical education in the Azerbaijani language in "Hayat" newspaper, magazines such as "Fuyuzat", "Debistan", "School", as well as many articles published in a separate booklet and even reprinted and delivered to readers were studied in detail.

Rəyçi: dos. N.Abdinova

Redaksiyaya daxil olub: 24.05.2022

S.A.QURBANOVA
e-mail: sebine.qurbanova54gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr., 429)

KLASSİK PEDAQOQLAR TOLERANTLIQ HAQQINDA

Açar sözlər: *tolerantlıq, tolerant dünyagörüş, millətlərarası münaqişə, tolerantlığın əsasları, tolerantlıq mühiti, çoxmillətli kollektiv*

Ключевые слова: *толерантность, толерантное мировоззрение, межнациональный конфликт, основы толерантности, толерантная среда, многонациональный коллектив.*

Key words: *tolerance, tolerant worldview, interethnic conflict, basics of tolerance, environment of tolerance, multinational collective.*

Ümumbəşəri və milli dəyərlərə əsaslanan tərbiyə yalnız pedaqoji problem kimi deyil – həm də cəmiyyətin inkişaf problemi baxımından həyati əhəmiyyət kəsb edir. Şəxsiyyətin mühüm dəyərlərinin təməli təlim-tərbiyə prosesinin ilkin mərhələsində qoyulduğundan, məhz bu problemin həlli məktəbəqədər tərbiyə müəssisələrində tolerantlığın formalaşması üçün xüsusi təşkil olunmuş prosesdən kənarda qala bilməz. Bir çox beynəlxalq, həm də respublikamızda qəbul edilən dövlət səviyyəli bəyannamə və hüquqi-normativ sənədlərdə tolerantlığın müxtəlif növlərinin tərbiyə olunmasının vacibliyi, tolerantlığın formalaşdırılması üçün siyasi, sosial və pedaqoji mühitin yaradılması məsələləri təsbit olunmuşdur Avropa İttifaqı rəsmi olaraq çoxmədəniyyətlilik (multikultural) tərbiyəni əsas kurs elan etmiş, millətlərarası təşkilatlar isə təhsildə bu istiqaməti dəstəkləyəcək sənədlər paketi qəbul etmişdilər.

Qərbi Avropa və ABŞ-da bu günə qədər tolerantlıq tərbiyəsi məsələlərinə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin əməkdaşlığı və birgə əlaqəsi üçün yeganə əsas kimi çıxış edən multikulturalizm çərçivəsində baxılır.

Multikulturalizm tədris proqramlarını müxtəlif etnik qruplardan olan uşaqların birgə təhsili, həm də digər mədəniyyət və ənənələrə hörmətlə yanaşmaq tələbinə uyğun qurmağı nəzərdə tutur.

Multikulturalizm hər şeydən bütün dünyada və ya ayrılıqda götürülmüş bir ölkədə müxtəlif mədəniyyətliliyin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə yönəlməlidir. Bu, tolerantlığın paralel mədəniyyətlərin mövcud olması tələbinə yönəlmiş aspektlərindən biridir. Əsasən multikulturalizm ideyası ümumi avropa mədəniyyəti məkanına müxtəlif ölkə immiqrantlarının mədəniyyət elementlərinin qoşulmasını nəzərdə tutan avropa cəmiyyətində irəliliyir.

Dözümlülük anlayışı "Yeni dövr" mərhələsində meydana gəlmişdir. İlk öncə o, dini və siyasi dözümlülük prinsipləri ilə bağlı olmuş, sonralar daha da genişlənərək müxtəlif aspektləri özündə cəm etməklə, tədricən hazırda bəlli olan tolerantlıq anlayışının dərk olunmasına gətirib çıxarmışdır. Elmi-nöqteyi nəzərdən tolerantlığı başa düşüb, dərk etməyin başlanğıc nöqtəsi XVII əsrə məxsusdur. Məhz bu yüzilliklərdən başlayan "Yeni dövrdə" sonrakı əsrlərdə Avropa təfəkkürünü müəyyənləşdirəcək əsas aparıcı ideyalar formalaşmağa başlayır. Tarixən qısa bir müddət ərzində insana olan baxışlar köklü surətdə yenidən nəzərdən keçirilir ki, bu da öz növbəsində sonrakı yüzilliklərdə empirik təbii biliklərin inkişafına təkan verir. Müzakirə olunan məsələlərin dairəsi genişləndi, hətta bu və ya digər elm sahəsinə aid fənnin maraq dairəsi ilə birbaşa bağlı olmayan bir çox məsələlər də diskussiyaların predmetinə çevrildi. Məhz o dövrdə alimlər tərəfindən əxlaq məsələləri şəxsiyyətlərarası münasibətlərlə, digər xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələrinə qarşı dözümlülük münasibətləri ilə, həmçinin tolerantlıq münasibətləri ilə sıx əlaqəli şəkildə müzakirə olunmağa başladı. Bu mənada deyə bilərik ki, pedaqogikanın inkişafı ən erkən çağlardan başlayaraq əxlaq problemləri

və tolerantlıq münasibətlərinin dərk edilməsi ilə sıx bağlı olduğundan onun kökləri "Yeni dövrün" dahi pedaqoqlarının elmi irsində gizlənmişdir.

İntibah dövrünün fəlsəfəsində humanist pedaqoji ideyalar səslənilir (Avropada Vitterina de Feltre, Fransua Rable, Mişel de Monten, Yaxın Şərqdə, o cümlədən Azərbaycanda İmadəddin Nəsimi, Əssar Təbrizi, Əvhədi Mərağai, Şah İsmayıl Xətai və b.), insan şəxsiyyətinin hərtərəfli olması vurğulanırdı. Qeyd etmək vacibdir ki, milli, dini və sosial mənşəyindən asılı olmayaraq, insanın vahid təbiətinin tanınması çox zaman əmək tərbiyəsinin gedişində üzə çıxarılmış və əsaslandırılmışdır. Buna görə də İntibah və Yeni dövrün bir çox sosial-fəlsəfi konsepsiyaları pedaqoji sistem və konsepsiyaların yaranmasının əsası oldu. Belə ki, XVIII əsrin humanisti, yazıçısı və siyasətçisi Tomas Morun utopik sosializmi (işgəncəli ölümünə görə XX əsrdə katolik kilsə tərəfindən şəhidlərin sırasına daxil edilmişdir) ümumi icbari təhsil və əmək tərbiyəsi konsepsiyasının meydana gəlməsinin əsası oldu. Bunun ardınca eyni ilə F. Bekonun sensualist fəlsəfəsi əyani təlimin əsasına çevrildi.

Digər insanlara hörmət və dözümlü münasibəti özündə cəmləşdirən əxlaq haqqında düşüncələrə Y.A. Komenskinin pedaqoji irsində (1) daha çox diqqət ayrılmışdır. Böyük didakt, pedaqogika elminin "atası", XVII əsrin nümayəndəsi əxlaqın on altı qaydasını irəli sürərək, onu əxlaq tərbiyəsinin incəsənəti adlandırmışdır. Y.A. Komenski uşaq şəxsiyyətinin formalaşması məsələsinə üstünlük verərək, "incəsənəti həqiqi şəkildə tətbiq etməyi", məktəbləri isə adlandırıldığı kimi "insanlıq emalatxanasına" çevirməyi vacib hesab edirdi (1, s.38-46).

Böyük çex didaktı tərbiyənin vəzifəsini – şəxsiyyətin hərtərəfli inkişafına humanistcəsinə cəhd göstərməyin nəticəsi kimi dərk edirdi. O, zamanlarda hakim olan universal təhsilə cəhd göstərilməsinə uyğun olaraq Y.A. Komenski təlim və tərbiyə məsələlərini bir-birindən ayırmamışdır.

Y.A. Komenskinin ideyaları sonrakı əsrlərdə həm Qərb, həm də Şərq mütəfəkkir və tədqiqatçılar tərəfindən istifadə edilərək, davam etdirilmişdir ki, bu da onun zamansız dəyərə və daima aktuallığına bir daha sübutdur. Rus pedaqogikasında gözlənilmədən, özünəməxsus tərzdə əxlaq tərbiyəsi barədə Komenski ideyaları L.N. Tolstoy tərəfindən (2) inkişaf etdirilmişdir.

Tolstoyun pedaqoji konsepsiyası meydana gəldiyi ərəfədə Komenski ideyaları artıq iki əsrə yaxın idi ki, Rusiyada tanınırdı və böyük Çex pedaqoqunun ideyalarının bir çox orijinal şərhlərini özündə əks etdirirdi. Lakin məhz Tolstoy özünəməxsus inadkarlığı ilə bəşəriyyətin elmi və mədəni nailiyyətlərindən, o cümlədən də Komenskinin "Böyük didaktika"sından istifadə edərək, bütün diqqətini uşağın əxlaq tərbiyəsi məsələlərinə yönəltmişdir.

Komenski və Tolstoy konsepsiyalarının ayrı-ayrı müddəaları arasında ideya və metodologiyaların reallığa çevrilməsi səviyyəsi üzrə daxili, dərin oxşarlıq məhz bundadır. Böyük çex humanistinin ideyaları bunlar idi: ümumi və xüsusi, tam və özəl tərbiyə və inkişafın vəhdəti, ümumi təhsil sistemi və şəxsiyyətin tam, azad, təbii inkişafı, fərdi və sosial inkişafı. Bir sıra konseptual fərqlərin olmasına baxmayaraq bu sıraya tam hüquqla Tolstoyun tolerantlıq, pisliyə zorakılıqla müqavimət göstərməmək və s. kimi "təbliğat" çağırışlarını da daxil etmək olar. Y.A. Komenskiyə görə tərbiyənin məqsədi insanı əbədi həyata hazırlamaqdır. Bunun üçün də insan xarici aləmi dərk etməli, özünü və əşyaları idarəetməyi bacarmalı və daima hər şeyin yaradıcısı olan Allaha cəhd göstərməlidir. L.N. Tolstoya görə isə tərbiyənin məqsədi, uşaqlara əzəldən xas olan yüksək əxlaqi keyfiyyətlərin təbii yolla üzə çıxarılması, həm də onların şüurunun zənginləşdirilməsi prosesidir.

Tolstoyun insan və həyatın mənası haqqında düşüncələri arasında tərbiyə və təhsil məsələləri əsas mərkəzi yer tutur. Müasir tədqiqatçılar böyük yazıçının pedaqoji elm və məktəb haqqında məqalə və yazılarında, deyimlərində tərbiyəyə dair orijinal baxışları özündə əks etdirən, bu günə qədər – XXI əsrin əvvəllərinə kimi öz aktuallığını qoruyub saxlamış ideyalar və yenilikləri üzə çıxarırlar.

Aydındır ki, bəşəriyyətin inkişafı XXI əsrin əvvəllərində yalnız zorakılıqlardan xilas olmaq sayəsində mümkün ola bilər ki, bu isə ilk növbədə böyüyən nəslin tərbiyəsi məsələləri-

nin həllini nəzərdə tutur. Bu işdə incəsənətin tərbiyəedici imkanlarından fəal surətdə istifadə etmədən uğur qazanmaq mümkün deyil, bu fikirlə vaxtilə Y.A. Komenski və L.N. Tolstoy da razı olmuşdular.

Müasir pedaqogika bu nöqteyi-nəzərdən incəsənət üsulları vasitəsilə tolerantlığın əsaslarının formalaşdırılmasına dair vahid konsepsiyaya ehtiyac duyur. Bir halda ki, XXI əsrin əvvəllərində Azərbaycanda da yaranmış sosial vəziyyət millətlərarası münaqişələrlə, məktəbəqədər təhsil müəssisələrində və ümumtəhsil məktəblərində qrupların çoxmillətli tərkibə malik olması ilə xarakterizə olunduğundan, kiçik məktəbyaşlı uşaqlarda tolerantlığın əsaslarının formalaşdırılması ən vacib pedqoji problemlərdən biri hesab olunur.

Ədəbiyyat

1. Komenski Y.A. Böyük didaktika / Y.A.Komenski // Elmi redaktoru, nəşrə hazırlayan və ön sözün müəllifi prof. F.A.Rüstəmov. – Bakı: Elm və təhsil, – 2012. – 388 s.
2. Толстой Л. Путь жизни / Л.Толстой. – М.: Республика, – 1993. – 431 с.

С.А.Курбанова

Классики педагогики о толерантностьи

Резюме

Доказано, с данной точки зрения современная педагогика посредством художественных методов нуждается в единой концепции формирования основ толерантности. Так как, социальная ситуация в Азербайджане в начале XXI века охарактеризована полиэтническими группами в дошкольных и общеобразовательных учреждениях, формирование основ толерантности у детей младшего школьного возраста является одной из важнейших педагогических проблем.

S.A.Gurbanova

Classici pedagogy o tolerance

Summary

From this point of view, it is proved that modern pedagogy needs a unified concept of forming the foundations of tolerance through artistic methods. While the social situation in Azerbaijan at the beginning of the XXI century is characterized by interethnic conflicts and the multi-ethnic composition of groups in primary and secondary schools, the formation of the foundations of tolerance in young school-age children is one of the most important pedagogical problems.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 14.04.2022

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV
baş müəllim

B.R.SƏLİMZADƏ
magistr

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

ƏZƏLƏ KÜTLƏSİNİN ARTIRILMASI YOLU İLƏ MAKSİMAL QÜVVƏNİN İNKİŞAF ETDİRİLMƏSİ METODİKASINA DAİR

Açar sözlər: *əzələ kütləsi, hərəkətlər, qüvvə, məşq, yükləmələr*
Ключевые слова: *мышечная масса, движения, сила, тренировка, нагрузки*
Key words: *muscle mass, actions, strength, training, workload*

Əzələ qüvvəsinin artırılmasına bir neçə amil təsir edir. Bu amillərdən biri də əzələ kütləsinin artırılması yolu ilə maksimal qüvvənin inkişaf etdirilməsi metodikasıdır. Bu barədə prof. M. Mustafayevin fikri belədir: "...Əzələnin kütləsi böyük olduqca həmin əzələnin inkişaf etdirdiyi gərginlik də o qədər çox olur. Əzələnin kütləsi isə əzələ liflərinin (hüceyrələrinin) yoğunluğundan və həmçinin ayrı-ayrı əzələ lifinin uzunluğundan asılıdır. Məşq nəticəsində əzələ liflərinin yoğunluğu artır (hipertrofiya edir), bu da öz növbəsində əzələnin kütləsini artırır. Bundan əlavə əzələnin qüvvəsi həmin əzələnin fizioloji en kəsiyindən (yəni, əzələdəki liflərin düzülüşündən – lələkşəkilli, iyşəkilli, paralel olmasından) asılıdır" (1, s. 91-92).

Əzələ kütləsinin artması sinir-əzələ tənziminin təkmilləşməsi hesabına baş verir. Və çəki artır. Çəkinin artması qüvvənin artmasına səbəb olur. Bu baxımdan D. Novruzovun fikri maraqlıdır: "Güləşmə praktikasında bu metod çox yüksək qiymətləndirilir. Çünki idmançının çəkisinin hiss edilmədən artması ilə yanaşı qüvvənin artmasına da nail olunur" (3, s. 97).

Bu, qüvvə hazırlığı metodikasının istiqamətidir. Onun mahiyyəti – əsas yükləmələrə məruz qalan əzələlərdə zülalların intensiv şəkildə hissələrə ayrılmasına imkan yaradan məşq prosesinin təşkil edilməsidir. Zülalların parçalanma məhsulları bərpaolunma dövründə onların sintezini və sonrakı miozinin superkompensasiyasını və ona müvafiq olan əzələ kütləsinin artmasını stimullaşdırır. Uşaqlarla, yeniyetmələrlə və fiziki cəhətdən zəif hazırlıqlı yaşlı insanlarla aparılan məşğələlərdə əzələ kütləsinin artırılması yolu ilə qüvvənin inkişaf etdirilməsi daha məqsədyönlüdür. Bu, nəinki şəxsi qüvvənin inkişafına, eyni zamanda da dayaq-hərəkət aparatın ümumi möhkəmlənməsinə və vegetativ sistemlərin funksional imkanlarının artırılmasına kömək edəcək.

"Əzələ amilləri, əzələlərin gördüyü işin fizioloji və mexaniki gücünü müəyyən edir. Bunlara əzələlərin yığılma xüsusiyyəti, fizioloji diametri və əzələlərin çəkisi, həm də əzələarası koordinasiyanın keyfiyyəti aiddir" (2, s. 163).

Əzələ kütləsinin inkişaf etdirilməsi üçün əşyalar kütləsi ilə yükləmə hərəkətləri, elastik əşyaların müqavimətinin dəf edilməsi ilə aparılan hərəkətlər və xüsusi trenajorlardakı hərəkətlər daha da səmərəlidir. Tərəfdaşla olan hərəkətlər və əlavə yükləmələrlə öz bədəninin müqavimətinin dəf edilməsi hərəkətləri də olduqca səmərəlidir.

Bu həkəkətləri fasiləli (intervallı) və uzlaşdırılmış (kombinə edilmiş) metodlardan istifadə etməklə bir sıra metodiki müddəalara əsaslanaraq icra etmək məqsədəuyğundur. Xarici müqavimətin qiyməti sərbəst seçilir və hər bir insan tərəfindən onu 20-35 saniyə

ərzində keçə biləcəyi qədər olmalıdır. Belə gərgin iş dövründə əzələlərdə fosfogenlərin ehtiyatı tükənir və zülalların dağılması aktivləşir. Hərəkətlərin müddəti daha az (10 s.-dək) olduqda zülallar, demək olar ki, dağılmır. Hərəkətlər arasındakı istirahət vaxtlarında isə əzələlərdəki KF istifadə olunmayan ehtiyatları ATF çatışmazlığını tezliklə bərpa edir. İşin müddəti 40-45 saniyə artıq olduqda zülalların parçalanma aktivliyi cüzi olacaq ki, bu da əzələ kütləsinin effektiv artmasına kömək etməyəcək.

Dinamik hərəkətlərin icrasının tempi əzələ kütləsinin artırılması üçün mühüm məna daşıyır. Hərəkətin qət edən fazası 1-1,5 san., güzəşt fazası 2-3 san. olduqda ən yüksək məşq effekti əldə edilir. Məsələn, ştanqı arxası üstə uzanaraq qaldırmağa 1 saniyə, ilkin vəziyyətə qayıtmaq üçün aşağı saldıqda 2 saniyə sərf edilir. Bu templə müəyyən bir fiziki hərəkətin birdəfəlik icrasına 3-4,5 san. sərf olunur. İşin optimal davamiyyətini (20-35 san.) bir hərəkətin optimal müddətinə (3 – 4,5 san.) bölsək, bir yanaşmada hərəkətin icrasının təkrarlarının labüd olan sayını 6-8-dən 10-12-dək müəyyən edə bilərik (şək.1).



Şəkil 1. *Bir yanaşmadakı çalışmaların, təkrarlamalarının sayı və qüvvənin artırılması arasındakı asılılıq (ağırlaşdırılmanın qiyməti maksimalın 50-75%-i təşkil edir, ədəbiyyatdan ümumiləşdirilmiş məlumatlar)*

Müəyyən əzələ qrupunun inkişaf etdirilməsi zamanı yanaşmaların sayı insanların fiziki hazırlığının səviyyəsi ilə şərtləndirilir. Bir qayda olaraq bir əzələ qrupuna yeni başlayanlar 2-3 yanaşma, fiziki hazırlıqlı yaxşı olanlar isə 5-6 yanaşma icra edirlər. Bir əzələ qrupu üçün labüd olan sayda yanaşmaları icra etdikdən sonra, digər əzələ qrupun məşqolunmasına keçirlər. Bu zaman ilk öncə iri əzələ qrupları üçün hərəkətlər, sonra isə xırda əzələ qrupları üçün hərəkətlər icra edirlər.

Yanaşmalar arasında ekstremal istirahət araları (ÜVS qiyməti 101-120 vur/dəq^{-1}-dək bərpa olunmalıdır) tətbiq olunur. Müxtəlif əzələ qrupları üçün hərəkətlər seriyası arasında tam istirahət arasını (ÜVS qiyməti 91-100 vur/dəq^{-1}-dək bərpa olunmalıdır) tətbiq etmək məqsədəuyğundur.

Yanaşmalar arasındakı istirahətin xarakteri aktiv (asta idman yerişi, tənəffüsün bərpa olunması üçün hərəkətlər, boşalma və s.), müxtəlif əzələ qrupları üçün hərəkətlər seriyası arasında – uzlaşdırılmış (istirahətin ümumi həcminin 25-30% aktiv + 50% passiv + 20-25% aktiv) olmalıdır.

Əzələ kütləsinin inkişafına yönəldilən məşqlər çox vaxt (nisbətən uzunmüddətli istirahət fasilələri ilə məşqlərin bir çox təkrarlanması) yüksək enerji xərcləri tələb etdiklərinə görə bir dərs ərzində skelet əzələlərinin üçdə birindən çox olmadan işlədilməsi məqsədəuyğundur.

Məsələn, təkcə əllərin və çiyin kəmərinin əzələlərini və ya təkcə bədən əzələlərini. Yanaşı məşqlər sistemində əzələ kütləsinin artırılması məsələlərini iki yolla həll etmək olar:

1. Müxtəlif əzələ qruplarının ardıcıllıqla inkişaf etdirilməsi. Məsələn: 1-ci məşğələ – ayaq və çanağın əzələləri; 2-ci məşğələ – bədən əzələləri; 3-cü məşğələ – əl və çiyin nahiyəsinin əzələləri. Sonrakı məşğələlər zamanı 4-6 həftə ərzində məşq proqramı dəyişmədən dövrü olaraq təkrarlanır. Bu proqram üzrə 4-6 həftə məşq etdikdən sonra başqa hərəkətlər qurmaq lazımdır. Çünki, orqanizm artıq bu hərəkətlərə uyğunlaşıb və əzələ kütləsinin, qüvvənin adekvat artmasına cavab verməyəcək.

Fiziki cəhətdən zəif hazırlıqlı olan insanlarla, uşaqlarla və yeniyetmələrlə iş zamanı məşğələlərin belə yanaşı şəkildə qurulması olduqca yüksək məşq effekti yaradır.

2. Bir neçə əzələ qrupunun cəmləşdirilmiş inkişaf etdirilməsi. 4-6 həftə ərzində hər məşqdə eyni əzələ qrupların inkişaf etdirilməsi üçün iş aparılır. Bu zaman nəzərə almaq lazımdır ki, zülalların sintezinin aktivləşməsi olduqca ləng gedir və böyük yükləmələrdən sonra 48-72 saat davam edir. Məhz buna görə də eyni qrup əzələlərə böyük yükləmələrin təkrarlanmasını yalnız 2-3 gündən sonra planlaşdırmaq olar. Sonralar lazım gəldikdə o əzələlərin kütləsinin artırılması üzrə iş yenidən davam etdirilə bilər. Lakin məşqin səmərəliliyinin artırılması üçün digər fiziki hərəkətlərin tətbiqi məqsədəuyğundur. Labüd olan məşq effekti əldə edildikdə digər əzələ qruplarının inkişaf etdirilməsinə keçirlər. Əldə edilmiş məşq effektini saxlamaq üçün lazımi səviyyədə inkişaf etmiş əzələ qrupları üçün də qüvvə hərəkətlərinin icrasını davam etdirmək lazımdır. Bunun üçün də dövri inkişafetdirici yükləmələrinin 30-40%-ni təşkil edən qüvvə yükləmələrinin tətbiq edilməsi labüddür.

Əzələlərin kütləsinin və onların qüvvəsinin artması ilə məşq yükləmələrinin göstəriciləri də adekvat (uyğun) şəkildə artmalıdır. Yadda saxlamaq lazımdır ki, yükləmələrin qiyməti elə olmalıdır ki, insan bir yaxınlaşmada onu 5-6 dəfədən 10-12 dəfəyədək təkrarlaya bilsin.

Qüvvə hazırlığı prosesində əks istiqamətli hərəkətlərin icrasını təmin edən əzələlərin adekvat inkişafını təmin etmək lazımdır. Məsələn, bədənin bükücü əzələlərinin qüvvəsinin inkişafı üzərində aparılan iş, eyni işin açıcı əzələlərin üzərində də aparılmasını tələb edir; çiyinin bükücü qüvvəsinin artması açıcı qüvvənin də müvafiq inkişafını tələb edir və s. Əks istiqamətdə hərəkətlər edən müəyyən bir oynağın (oynaqların) əzələ qruplarının inkişaf səviyyəsi arasındakı uyğunluq təmin edilmədikdə mənfi nəticələr yarana bilər: qamətin pozulması, oynaqların düzgün mövqeyinin pozulması, oynaq qığırdaqlarının və vətərlərinin zədələnmə riskinin artması (4; 5).

Ədəbiyyat

1. Mustafayev M. Q., Fiziki hərəkətlərin və idmanın fizioloji əsasları (qısa kurs) Bədən tərbiyəsi institutu üçün dərs vəsaiti, Bakı: Maarif, 1972.

2. Nəsrullayev M., Hüseynov E., Əliyev İ., Nuriyev Y., Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. (Dərs vəsaiti), Bakı: Araz , 2012, 372 s.

3. Novruzov D.F., Güləşmə: Ali məktəblər üçün dərslik və dərs vəsaitləri seriyasından. Bakı: Maarif, 1992, 328 s.

4. PlatonovV.M., Bulatova M.M., Fiziçeskaya podqotovka sportsmena. K.: Olimpiyskaya literatura,1995, 320 s.

5. Martin D., Carl K., Lehneriz K., Handbuch Trainingslehre, Schorndorf: Hoffman, 1991, S.240-290.

Я.Б.Самедов, В.М.Велиев, Б.Р.Салимзада

Развитие максимальной силы путём повышения мышечной массы

Резюме

В статье рассматривается методика развития силы путем повышения мышечной массы. Также анализируются механизмы последовательного развития различных мышечных групп.

Дается обобщенная информация и взаимосвязь между увеличением силы и повторов, упражнений в одном подходе. В статье дается ссылка на научные источники и предположения известных ученых о развитии силы с целью повышения мышечной массы.

Y.B.Samadov, V.M.Valiyev, B.R.Salimzadeh

Methodology of developing maximum strength by increasing muscle mass

Summary

The article explains the method of developing strength by increasing muscle mass. The mechanism of sequential development of different muscle groups is also explained in detail based on examples. The relationship between the number of repetitions and the increase in strength is given in one approach and in general. The article refers to scientific sources and the scientific opinions of well-known scientists on develop mint of strength in order to increase muscle mass.

Rəyçi: dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 12.04.2022

Ə.M.XƏLFƏYEV
pedaqoji elmlər namizədi, professor əvəzi

B.H.BABAYEV
magistrant
e-mail: baba.babayev2020@sport.edu.az

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

VELOSİPEDÇİLƏRİN SÜRƏT-GÜC HAZIRLIĞININ TƏKMİNLƏŞDİRİLMƏSİ METODİKASININ TƏDQİQİ

Açar sözlər: *məşq yükləri, fiziki işgörmə qabiliyyəti, şiddət, intensivlik, pedallama, ürək döyüntülərinin tezliyi, şosse velosipedçiləri.*
Ключевые слова*: тренировочные нагрузки, физическая работоспособность, мощность, интенсивность, педалирование, частота сердечных сокращений, велосипедисты-шоссейники.*
Key words*: training loads, physical performance, power, intensity, pedaling, heart rate, road cyclists.*

Müasir dövrdə velosiped idmanın inkişafı elə səviyyədədir ki, müxtəlif miqyaslı yarışlarda qalib gəlmək üçün velosipedçilər böyük həcmli və yüksək gərginlikli məşq yüklərinin yerinə yetirmək məcburiyyətindədirlər. Son 15-20 ildə şosse velosipedçiləri tərəfindən göstərilən orta yarış sürəti 29-30% artmışdır (39 km/saatdan 49-52 km/saata çatmışdır). Orta yarış sürətinin artmasına məşq yüklərinin intensivliyinin və şiddətinin yüksəlməsi, idman avadanlığının keyfiyyətinin yaxşılaşması, məşq metodikasının təkminləşdirilməsi və velosipedçilərin məşqində böyük gərginlikli fiziki yüklərin yerinə yetirilməsi səbəb olmuşdur. İndiki zamanda veloyürüşçülərin birillik məşqlərində ümumi kilometraj 26-28 min kilometrə bərabərdir. Bunun 12-14 min km-ri yüksək gərginlikli məşq yükü, o cümlədən, şosse və trekdə 60-65 yarış startları təşkil edir. Veloidmanın təcrübəsində məşq prosesinin ümumi göstəriciləri müntəzəm olaraq qeydə alınır (məşq yükünün həcmi, şiddəti, intensivliyi və yarış dövründə fiziki hazırlığa ayrılan vaxt, şossedə qət edilmiş kilometrajın miqdarı və gərginliyi və i.x.).

Bir çox idman mütəxəsislərin və alimlərin (1, 3, 5) məlumatlarına görə velosipedçilərin orqanizminin funksional hazırlıq səviyyəsinin yüksəldilməsi üçün məşqin mütərəqqi forma və metodlarından geniş istifadə edilməlidir, bu aktual məsələlərdən biridir.

Azərbaycan şəraitində velosipedçilər ilə keçirilən məşqlərin səmərəliliyi ən vacib elmi problemlərdən biridir və aktualdır. Məlum olduğu kimi, şosse velosipedçilərin təlim-məşq prosesində xüsusi fiziki qabiliyyətlərin inkişafına və təkminləşdirilməsinə böyük diqqət yetirilir. Alimlərin fikrincə (2, 4, 6) veloyürüşçülərin aerob dözümlülüklərinin inkişafı onların yüksək xüsusi fiziki iş görmə qabiliyyətlərini əldə edilməsində yardımçı vasitə kimi sayılır.

Müasir yanaşma fərdi məşq yüklərinin bir qədər artmasına imkan yaratdığına görə şosse velosipedçilərin yarış fəaliyyətlərinə müsbət təsir göstərir. PWC_{170}, 15 saniyəlik və 5 dəqiqəlik veloerqometrik yoxlama hərəkətləri vasitəsilə velosipedçinin fiziki iş görmə, sürət-güc və xüsusi dözümlülük qabiliyyətlərini dəqiq müəyyən etmək mümkündür. Bu yoxlama testlərin keçirilməsi sayəsində veloyürüyüşçülərin təlim-məşq prosesinin daha effektli olmasına yardım edir. Beləliklə, həftəlik və biraylıq məşq yüklərinin həcmini və intensivliyinin təhlilini aparılan zaman, velosipedçilərin orqanizmlərinə həmin məşq yüklərinə uyğunlaşmasına imkan yaradır və bu öz növbəsində müsbət yarış nəticələrin əldə edilməsi üçün böyük təsir göstərir.

Pedaqoji eksperimentdə böyük miqyaslı ötüşmələrdə müntəzəm çıxış edən yüksək ixtisaslı 19-20 yaşlı 12 şosse velosipedçi iştirak etmişdir. 12 həftə ərzində aparılmış pedeksperimentdə veloyürüşçülərin fiziki iş görmə qabiliyyətləri keçirilmiş PWC_{170} testindən istifadə

edərək müəyyənləşdirilmişdir, 15 saniyəlik veloerqometriya test vasitəsi ilə pedallama və ürək döyüntülərinin tezlikləri qeyd etməklə yanaşı, spirometriya və oksimetriya laborator sınaqlarında keçirilmişdir. Məşq yüklərinin intensivliyi və şiddəti idmançının ürək fəaliyyətinin dəyişiklik dərəcəsi ilə müəyyən edilirdi.

Tədqiqatın məqsədinə görə 12 həftəlik məşq proqramı üzrə 19-20 yaşlı yüksək dərəcəli şosse velosipedçilərin fiziki iş görmə qabiliyətlərinin və sürət güc imkanlarının göstəricilərini aşkar edilməsidir.

Telemetrik "Kadens" cihazı vasitəsi ilə təlim-məşqlər zamanı təbii şəraitdə velosipedçilərin ürək döyüntülərinin miqdarı (ÜDT) və pedallamanın tezliyi (PT) müxtəlif relyefli şosse yollarında (düzənliklər, yoxuşlar, enişlər) sürətin qeyd edilməsi hərəkətin şiddətini və intensivliyini bir qədər yüksəltmək və nisbətən aşağı endirmək imkanı yaradırdı. Beləki, müxtəlif profilli şossedə velosipedçilərin hərəkəti zamanı fiziki iş görmə qabiliyyətlərinin göstəricilərinə görə ÜDT = 98 d/dəq – 176 d/dəq, işin şiddəti (W) 290-300 W, PT = 90-98 d/dəq sürət (V) 34-36 km/saata bərabər olmuşdur. Yolun çətin sahələrində məsələn 7-8% yoxuşda veloyürüşün 18-ci dəqiqəsində fiziki işin şiddəti = 290-310 W, ÜDT – 178-180 d/dəq, PT = 88-90 d/dəq, V = 19-20 km/s olmuşdur. Veloötüşmənin 26-cı dəqiqəsində düzənlik ərazidə**:** W = 260-270 vat, ÜDT = 176-178 d/dəq, PT = 96-98 d/dəq, V = 38-42 km/s bərabər idi. Yoxlama veloötüşmələrdən başqa velosipedçilər 5 aprel – 30 iyun 2019-cu ilin 3 ay müddətində pedaqoji eksperimentin iş planına uyğun müxtəlif şiddəti və intensivliyi olan təlim-məşqlərdə fəal iştirak edərək 4500 km məsafə qət etmişlər, xüsusi sürət-güc, dözümlülük, cəldlik və çeviklik xüsusi qabiliyyətlərini inkişaf və təkminləşdirirdilər (cədvələ bax).

sınaq növləri	ilkin sınaqlar	yekun sınaqlar	göstəricilərin artımı %
PWC 170: kq m / dəq kq m / kq	1490 24,7	1820 24,4	22,1 16,6
15 saniyelik v/e testi: dövrə nəbz	24 168	31 162	22,0 3,6
5 dəqiqəlik v/e testi: dövrə nəbz	568 202	618 198	8,1 7,3
ağciyərlərin həyat tutumu (spirometriya) ml ml/kq	4950 26,7	5400 31,0	10 19,2
Oksimetriya: şətri vahid	95-96	98-99	9,5

Cədvəldə göstərilən rəqəmlərdən məlum olur ki, şosse velosipedçilərin funksional idman texniki göstəriciləri müsbət şəkildə artmışdır. Təlim-məşq proqramlarının yerinə yetirilməsi nəticəsində (ümumi kilometraj – 4500 km, intensiv kilometraj – 2000) velosipedçilərin fiziki iş görmə qabiliyyətlərinin göstəriciləri**:** xüsusi dözümlülük, sürət-güc, cəldlik, çeviklik, qüvvə yüksəlmişdir və bunun sayəsində veloidmançıların göstərilən nəailiyyətləri yüksəlmişdir. Sürət və qüvvənin inkişafı üçün müxtəlif hərəki hərəkətlər icra edilirdi. Zədələnmələrin qarşısını almaq üçün hər məşğələnin başlanğıcında isinmə hərəkətlərindən istifadə olunurdu. Məşqin sonunda əzələlərin gərginliyini azaltmaq məqsədi ilə sərbəst hərəkətlər yerinə yetirilirdi və sonrakı mərhələdə istirahət verilirdi.

Ədəbiyyat

1. Ковылин М.М. Показатели максималной аэробной мощности у велосипедистов высшей квалификации. М. ТПФК. №5. 2011. с.60-63

2. Зулаева И.И. Структура соревновательной надежности спортсменов. М. ТПФК. №1. 2012. с.50-52.

3. Свечкарев В.Г. Хажилиев Н.Ю. Автоматизирование управления тренировки велосипедистов по ответной реакции сердечной сосудистой системы. М.ТПФК.№6 . 2012. с.60-64.

4. Крылова Т.И. Брасалин М.А. Структура годичного цикла тренировки высококвалифицированных велосипедистов. М. ТПФК. №11. с.13-15.

5. Хорунжий К.А. Николаев А.А. Пульсосой тест и его применение в спорте высших достижений. М. ТПФК. №3. 2012. с.66-69.

6. Антипов Ф.В. Пик-тест как современный метод оценки работоспособности спортсменов. М. ТПФК. №5. 2018. с.68-70.

А.М.Халфаев, Б.Г.Бабаев

Исследование методов повышения скоростно-силовой подготовки велосипедистов

Резюме

Проводилось исследование показателей физической работоспособности и деятельности сердечно-сосудистой системы 12 велосипедистов-шоссейников 19-20 лет, участвующих в велогонках Чемпионатов Азербайджанской Республики и в международных соревноианиях. На базе отдела велоспорта кафедры массово-оздоровительных видов спорта Азербайджанской ГАФК и С были проведены определение физической работоспособности велосипедистов-шоссейников по тестам PWC_{170}, частоту педалирования по 15 -секундному велоэргометрическому испытанию, измерялось частота сердечных сокращений (ЧСС), проводилась спирометрия и оксиметрия. Интенсивность и мощность тренировочных нагрузок определялось по степени изменений ЧСС. Тренировочный модуль продолжался 12 недель. В качестве ключевого фактора был взят принцип индивидуального подбора интенсивности тренировочных нагрузок с последующим определением физической работоспособности и ЧСС при работе на велоэргометре за 15 секунд каждого велосипедиста-шоссейника, Помимо упражнений педалирования на скорость применялись также различные двигательные действия для развития силы. Перед каждой тренировкой проводились упражнения на гибкость чтобы подготовить мышцы к интенсивным занятиям и избежать травм В конце тренировки проводились упражнения на мышечное расслабление и переход к отдыху. Исследование продемонстрировало достоверное улучшение физической работоспособности, работы сердца и спортивной результативности велогонщиков.

A.M.Khalfayev, B.H.Babayev

Research of methods for improving the speed and strength training of cyclists

Summary

The study of the indicators of physical performance and the activity of the cardiovascular system of 12 road cyclists of 19-20 years old, participating in the cycling races of the Championships of the Republic of Azerbaijan and in international competitions. On the basis of the cycling department of the Department of Mass Health-Improving Sports of the Azerbaijan SAPES and the physical performance of road cyclists was determined using the PWC_{170} tests, the pedaling frequency was based on a 15-second bicycle ergometric test, the heart rate (HR) was measured, and oximetry was performed. The intensity and power of training loads was determined by the degree of heart rate changes. The training module lasted 12 weeks. As a key factor, the principle of individual selection of the intensity of training loads was taken with the subsequent determination of physical performance and heart rate when working on a bicycle ergometer for 15 seconds for each road cyclist.In addition to pedaling exercises for speed, various motor actions were also used to develop strength. Before each workout, flexibility exercises were performed to prepare the muscles for intense workouts and to avoid

injury. At the end of the workout, exercises were performed to muscle relaxation and transition to rest. The study has demonstrated significant improvements in physical performance, heart function, and athletic performance in cyclists.

Rəyçi: p.f.d., dos. Y.B.Səmədov

Redaksiyaya daxil olub: 28.04.2022

A.M.ZEYNALOVA
e-mail: azeynalova847@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRİN MİLLİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

Açar sözlər: *Heydər Əliyev irsi, sosial mühit, milli vətənpərvərlik, dövlət müstəqilliyi, milli dövlətçilik.*
Ключевые слова: *наследие Гейдара Алиева, социальная среда, национальный патриотизм, государственная независимость, национальная государственность.*
Key words: *Haydar Aliyevs heritage, social environment, national patriotism, public independence, national statehood.*

Böyük tarixi şəxsiyyət 10 ildən artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuş Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyəti milli vətənpərvərlik, o cümlədən milli hərbi-vətənpərvərlik ideologiyasının və onun reallaşdırılması mexanizminin də açarıdır. Ulu Öndərin həyat yoluna qısa nəzər salaq. Ötən əsrin 40-cı illərinin ortalarında Azərbaycan Daxili İşlər Nazirliyi sistemində kapitan rütbəsində fəaliyyətə başlamış Heydər Əliyev az sonra dövlətdə ən vacib və həssas qurumlardan biri olan Təhlükəsizlik Sistemində məsul işə dəvət edildi.

Sonralar Dövlət Təhlükəsizliyi Komitəsində sədr müavini təyin edilən Heydər Əliyevə 1964-cü ildə general-mayor rütbəsi verildi və üç il sonra, 1967-ci ildə onu həmin Komitəyə sədr təyin etdilər. Göstərilən vaxta qədər Sovet siyasi sistemində heç bir azərbaycanlı bu vəzifəyə təyin edilməmişdi. Bundan iki il sonra isə Heydər Əliyevə Azərbaycana rəhbərlik kimi məsul bir vəzifə tapşırıldı.

Beləliklə, göstərilən bu vəzifələrin icrasında Heydər Əliyevin fəaliyyət dairəsi həmişə Doğma Azərbaycanımızın müdafiəsi və inkişafı ilə bağlı məsələlərlə bilavasitə bağlı olmuşdur.

Heydər Əliyev Türkiyə jurnalisti İrfan Ülkiyə 1992-ci ildə Naxçıvanda verdiyi müsahibəsində II dünya müharibəsinin nəticələri ilə əlaqədar olan, lakin son vaxtlara qədər açıqlanmayan bir faciə haqqında söyləmiş və bu məlumat işıq üzü görmüşdür: II dünya müharibəsində Türkiyədə sığınacaq tapmış müsəlman hərbi əsrlərdən 143 nəfər (onlardan 100 nəfərdən çoxu azərbaycanlı idi) Sovet hökümətinin təkidli tələbi ilə 1945-ci ilin sentyabrında İqdırdakı Baraltac körpüsündə rus hərbiçilərinə təhvil verilmiş və oradaca həmin hərbi əsirləri güllələyərək cəsədlərini Araz çayına atmışlar. (4, 18)

Heydər Əliyevin II dünya müharibəsindən sonrakı 60 illik fəaliyyəti rəhbər partiya və dövləti vəzifələrdə öz xalqının müqəddəratı ilə bilavasitə bağlı olmuşdur. Bu 60 illik fəaliyyətin ilk 50 ili Azərbaycanın SSRİ tərkibində olduğu dövrə aiddir.

Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsi, xalqın mədəniyyətinin və təhsilinin, gənclərin hərbi xidməti məsələləri ilə bilavasitə məşğul olan general Heydər Əliyev üçün Vətəni müdafiə və milli-vətənpərvərlik məsələləri həmişə ön planda olmuşdur.

Ulu Öndərin birbaşa rəhbərliyi ilə Bakıda general C. Naxçıvanski adına hərbi məktəb yaradıldı. Azərbaycanlı gənclərin SSRİ-nin mərkəzi şəhərlərində və digər respublikalarında yerləşən hərbi məktəblərə təhsilə göndərilməsinə başlanıldı.

Heydər Əliyev Rusiya ərazilərində müxtəlif hərbi hissələrdə xidmət edən azərbaycanlı general və admirallardan Tofiq Ağahüseynovu, Hüseyn Rəsulbəyovu, Valeh Bərşadlını, Həmid Qasımbəyovu Azərbaycana xidmətə dəvət etdi. Onların respublikaya gəlməsi nəticəsində Azərbaycan gənclərinin hərbi hazırlığı işi xeyli gücləndi.

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Heydər Əliyevin Naxçıvanda olduğu üç illik dövrün (iyun 1990-iyun 1993) son iki ilində o, faktiki olaraq Ermənistan ilə müharibə vəziyyətində olan Azərbaycanın bu ayrılmaz ərazisinin xarici hücumlardan müdafiəsini çox ağır bir şəraitdə təmin etdi. 1991-ci ilin 7 sentyabrında Naxçıvanda Müdafiə Komitəsi yaradıldı. Nəzərə almaq lazımdır ki, Azərbaycanın Ermənistanla sərhəddinin 260 kilometri Naxçıvan ərazisi boyunca keçir. Deməli, Naxçıvanın müdafiəsi eyni zamanda Azərbaycanın müdafiəsi idi.

Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyə qayıtması (iyun 1993) dövrü xalqın və ölkənin tarixi müqəddəratında son dərəcə təhlükəli və məsuliyyətli bir dövr idi. Azərbaycanın müstəqilliyinin elan edilməsindən iki il keçməsinə baxmayaraq, ölkəyə Ermənistanın hərbi hücumları davam edirdi. Bunun qarşısını almaq üçün isə dövlətin əsas siyasi qüvvəsi olan milli ordunun yaradılması üçün heç bir iş görülmürdü. Həmin dövrdə Ermənistanın işğalçı ordusuna müqavimət göstərən əsas qüvvə Daxili İşlər Nazirliyinin rayon şöbələrinin növbə ilə göndərdikləri pərakəndə dəstələri və sərhəd rayonlarında təşkil edilmiş müdafiə dəstələri idi.

1993-cü ilin 3 oktyabrında xalqın böyük əksəriyyətinin həmrəyliyi ilə ölkə prezidenti seçilmiş Heydər Əliyev həmin ilin 2 noyabrında televiziya, radio və mətbuat vasitəsilə "Xalqa müraciət" ilə çıxış etdi. Bu müraciətində o, bütün xalqı milli ordu quruculuğunda fəal iştirak etməyə çağırdı. Prezident Heydər Əliyev bu müraciətində ölkədə hərbi-siyasi vəziyyəti təhlil edərək, xüsusi olaraq qeyd etdi ki, "Əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik. Buna görə də Sizə müraciət edirəm. İndi bizim ordumuz yaranmalı və qurulmalıdır... Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim orduda qulluq edə bilərsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gəlib orduda xidmət etmək lazımdır". Göründüyü kimi bu müraciət proqram xarakterli tarixi sənəddir.

Ulu Öndər Heydər Əliyev həmin müraciətdə qarşıdakı vəzifələri bütün qətiyyəti ilə belə şərh etdi: "İndi insanları ayağa qaldırmaq, milli vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrdən biridir".

Beləliklə, ölkə Prezidentinin xalqa bu müraciətində Azərbaycan ordusunun yaradılmasının konkret yolları şərh edilmişdi. Həmin müraciət ərəfəsində Prezidentin xüsusi fərmanı ilə Dövlət Müdafiə Şurası yaradılmışdı və noyabrın 1-də həmin şuranın ilk iclası keçirildi. Noyabrın 7-də Prezident və Ali Baş Komandan Heydər Əliyev ordunun vəziyyəti ilə şəxsən tanış olmaq üçün cəbhə zonasına rəsmi səfər etdi. Prezidentin cəbhə zonasına ikinci səfəri dekabrın 11-12-də oldu. Belə səfərlər sonralar da olmuşdur.

Həmin dövrdə etdiyi çıxışların birində Heydər Əliyev demişdir: "Azərbaycan Sovet İttifaqının tərkibində olanda hər il sovet ordusuna 60 min nəfər çağrışçı yola salırdı. İndi Azərbaycan müstəqil dövlət olanda nə üçün bunu etmək mümkün olmasın? Nə üçün gənclərin bir hissəsi çağrışdan boyun qaçırır, orduda xidmət etmək istəmir, valideyinləri isə cürbəcür vasitələrlə onları hərbi xidmətdən azad etdirirlər? İndi adamları ayağa qaldırmaq, milli və vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrimizdən biridir".

Ermənistan silahlı qüvvələrinin 1993-cü ilin dekabrında başladıqları yeni hücumlar istədikləri nəticəni vermədi və 1994-cü ilin 12 mayında cəbhə zonalarında atəşkəs haqda saziş əldə edildi. Bu saziş Azərbaycan ordusunun möhkəmləndirilməsi üçün şərait yaratdı. 2002-ci ilin iyununda Ölkə Prezidenti, Ali Baş Komandan Heydər Əliyev bu sahədə görülmüş işlərin yekunu olaraq bəyan etdi: "Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır".

Azərbaycanın Milli ordusu qardaş Türkiyə Respublikasının böyük köməyi nəticəsində xeyli gücləndi və NATO standartlarına uyğun olaraq inkişaf etdi və etməkdədir.

Respublika gənclərinin II forumundakı çıxışında ölkə Prezidenti Heydər Əliyev qeyd etdi ki, Azərbaycanın milli ordu quruculuğuna 1993-cü ilin noyabrından sonra başlamasına baxmayaraq, qısa bir müddətdə milli ordumuzu yarada bilmişik: "Azərbaycanda cəmiyyətdə,

xüsusilə gənclər arasında orduya münasibət müsbət mənada tamamilə dəyişibdir. Gənclər indi orduya həvəslə gedirlər, orduya xidmət edirlər, öz vətəndaşlıq borclarını yerinə yetirirlər və Azərbaycan ordusunu gücləndirirlər, inkişaf etdirirlər" (3).

Əraziləri nisbətən kiçik, lakin təbii sərvətlərlə zəngin olan ölkələrin müstəqil yaşamasına xaricdən müdaxilələr adətən daha çox olur. Bununla belə, Avropanın Avstriya, Hollandiya, Danimarka, İsveç, İsveçrə, Finlandiya kimi ərazicə kiçik ölkələrinin müasir müstəqilliyi göstərir ki, yüksək iqtisadi və intellektual nailiyyətləri olması nəticəsində belə ölkələrin milli müstəqilliyini təmin etmək mümkün olmuşdur. Azərbaycan üçün də bu yolun reallaşmasına imkanlar çoxdur və vacibdir. Azərbaycanın Avropa Şurasına qəbul olunması, onun müasir iqtisadi və siyasi gücü ABŞ ilə strateji əməkdaşlıq və müttəfiqliyi bu imkanlar üçün əsas vasitə və amildir.

Ədəbiyyat

1. "Xalq" qəzeti, 4 fevral 1997.
2. Heydər Əliyevin televiziya ilə xalqa müraciəti. 2 noyabr 1993-cü il.
3. "Azərbaycan" qəzeti, 3 mart 1999.
4. İrfan Ülki, Qızıl Ulduzdan Hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı). Türkcədən tərcümə. B., 1994.
5. Əliyev H.Ə. Qətiyyətin təntənəsi. Bakı, 1996.

А.М.Зейналова

Национально-потриотическое воспитании подростков в эпохи Гейдара Алиева

Резюме

В статье расследованы возможности формирования с новым содержания национальных и нравственных ценностей, в том числе патриотизма в современной социальной среде Азербайджана, также раскрыто содержание патриотизма и национально – идеологического воспитания, формированного благодаря незаменимым и глобальным заслугам Гейдара Алиева. Статья имеет педагогическую, идеологическую и философскую важность.

A.M.Zeynalova

Formation and modern situation of national patriotism in the social environment of Azerbaijan

Summary

Article deals with the social environment of national and moral values, patriotism, including the possibility of the formation of the new content being investigated in this case, and global services free of charge, thanks to Heydar Aliyev formed nurturing patriotism and national ideological contents disclosed. Articles pedagogical, ideological and philosophical importance.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 15.05.2022

Ф.А.МЕХБАЛИЕВА
e-mail: faridamehbaliyeva@mail.ru

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ИСПОЛЬЗОВАНИЕ ДИКТАНТОВ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

Ключевые слова: *письмо, правописание, словарный запас, написание письма, коммуникация.*
Açar sözlər: *yazı, orfoqrafiya, dilin lüğət tərkibi, məktub yazısı, əlaqə*
Key words*: writing, spelling, vocabulary, letter writing, communication*

Важность письма. В области EFL письмо имеет множество применений и функций. Во-первых, умение писать на приемлемом научном английском языке важно для аспирантов, которые должны писать свои диссертации на английском языке. Более того, написание EFL позволяет общаться с большим количеством людей по всему миру. Он также предоставляет студентам вещественные доказательства их достижений.

Это, в свою очередь, помогает им определить, что они знают, а что не знают. Как отмечает Ирмшер (1) «Мы можем обмануть себя в уме. Не на бумаге. Если в нашем сознании нет мыслей, ничего не выходит. Ментальная нечеткость переводится в слова только как нечеткость или бессмысленность».

Письмо также может улучшить навыки мышления учащихся. Как отмечает Ирмшер, «письмо стимулирует мышление, главным образом потому, что оно заставляет нас концентрироваться и организовываться. Разговор тоже помогает, но письмо дает больше времени для самоанализа и размышлений».

Кроме того, письмо может улучшить словарный запас, правописание и грамматику учащихся. Наконец, навыки письма часто необходимы для формального и неформального тестирования.

Обучение письму. Учителя, ориентированные на навыки, обучают письму фрагментированными частями, исходя из предположения, что учащиеся не могут сочинять, пока не овладеют дополнительными навыками, вытекающими из письма. Эти вспомогательные навыки преподаются в явной форме с использованием таких методов, как следующие: 1) Копирование модельных композиций; 2) Организация набора неорганизованных заметок по тематическим областям с тематическими предложениями и второстепенными пунктами; 3) Преобразование зашифрованных предложений в абзац; 4) Предсказание методов развития тематического предложения; 5) Анализировать отрывок с помощью таких вопросов, как: 6) В каком предложении изложена основная идея? 7) Какие предложения напрямую поддерживают основную идею? 8) Какой метод использовал писатель для развития основной идеи? 9) Заполнение недостающих связок в композиции; 10) Заполнение недостающих слов или предложений в композиции; 11) Объединение набора предложений в композицию; 12) Написание тематических предложений к заданным абзацам; 13) Прочитать отрывок и ответить на вопросы по нему полными предложениями, чтобы составить абзац; 14) Составьте краткое изложение прочитанного или прослушанного отрывка, используя, насколько это возможно, собственные слова; 15) Переписывание отрывка с точки зрения другого человека; 16) Превращение повествования в диалог;

Все учителя языка учат письму, погружая студентов в процесс письма. В целых языковых классах ученики пишут целые сочинения и с самого начала делятся ими с

учителем или другими людьми. Следующие техники соответствуют концепции всего языка: написание диалогового журнала

Дневник диалога – это длительный письменный разговор между учеником и учителем в классе или за его пределами. Студенты пишут на любую тему, а учитель отвечает каждому студенту, делая комментарии и предлагая мнения. Учителя не исправляют журналы в традиционном смысле этого слова. Скорее они отвечают, задавая вопросы и комментируя содержание. Такие ответы управляют процессом и наделяют деятельность смыслом. Партнер диалогового журнала не обязательно должен быть учителем, и ученики могут работать в паре друг с другом. Вместо того, чтобы оставлять темы диалогового журнала полностью открытыми, учитель может использовать их, чтобы сосредоточить обсуждение на определенной теме.

В классах с текстовыми редакторами, которые легко доступны для всех учащихся, журнал может находиться на диске, передаваемом туда и обратно, и если в школах есть доступ к электронной почте, сообщение может быть отправлено без обмена дисками. Имея доступ к компьютерным сетям, студенты могут вести дневники диалога с другими студентами в разных частях мира. Преимущества ведения диалогового журнала в целом включают индивидуальное обучение письму, использование письма и чтения для реального общения, повышение ориентированности учащихся на процесс, сокращение разрыва между устной и письменной речью, развитие у учащихся осознания реальных целей чтения и письма, помогая учащимся стать более расслабленным писателем, способствуя автономному обучению, улучшая словарный запас и навыки пунктуации, повышая уверенность в себе, помогая учащимся научиться писать более свободно, а также расширяя возможности для взаимодействия между учащимися и учителями и между самими учащимися.

В дополнение к вышеуказанным преимуществам электронные журналы диалога позволяют студентам отправлять свои журналы в любое время дня и ночи, а респонденту отвечать в удобное для него / ее время. Более того, в исследовании разницы между дискурсом в диалоговых журналах, написанных на бумаге, и рассылаемых по электронной почте, Ван (2) (1993) обнаружил, что студенты ESL, которые использовали электронную почту, писали больше текста, задавали больше вопросов и использовали больше языков. функций, чем студенты, которые писали на бумаге.

По мнению автора, использование диалоговых журналов со студентами EFL должно перейти от переписки между студентами и преподавателем к переписке между самими студентами, а от контролируемых тем к открытым.

Написание письма. Написание писем - это еще один метод погружения студентов в письмо реальной аудитории с реальной целью. Учащиеся используют эту технику, когда хотят общаться в письменной форме с кем-либо в школе или за ее пределами. После написания своих писем студенты доставляют или отправляют их по почте в надежде, что им ответят. Респонденты принимают письма и комментарии студентов по их значению, а не по форме. Самая важная причина использования письма заключается в том, что ученикам нравится писать и получать письма. Другая причина заключается в том, что описательные, пояснительные, убедительные, выразительные и повествовательные формы письма могут практиковаться в письмах, независимо от того, предназначены они для реального использования или нет. Хилд-Тейлор (3) (1994) в своей книге «Стратегии целого языка для студентов ESL» описывает процесс написания следующим образом:

Процесс письма - это подход, который побуждает молодых людей (и взрослых) ESL передавать свои собственные письменные сообщения, одновременно развивая свои навыки грамотности ... вместо того, чтобы откладывать участие в процессе написания, как рекомендовалось в прошлом, до тех пор, пока студенты не усовершенствуют свои способности в почерк, чтение, акустика, орфография, грамматика и пунктуация. В процессе написания передача сообщения имеет первостепенное значение, поэтому

принимаются развивающиеся, но неточные попытки почерка, орфографии и грамматики. Процесс письма, как описано выше, может улучшить письмо учащихся, потому что он побуждает их писать и продолжать писать, независимо от уровня их способностей.

В попытке понять способности маленьких детей как писателей писем, могут ли очень маленькие англоговорящие дети, являющиеся носителями английского языка, поддерживать диалог по написанию писем. Исследователи обнаружили, что дети с самого начала функционировали в качестве корреспондентов совершенно эффективно и надлежащим образом. По мере развития обмена дети показали, что они могут создавать новые темы, поддерживать темы и, при необходимости, близкие темы. Написание диалоговых писем улучшило навыки письма учащихся, а также их самооценку.

Литература

1. Irmscher Teaching Expository Writing. New York, 1979. p.34
2. Wang E-mail Dialogue Journaling in an ESL Reading and Classroom. 1993. p.98
3. Хилд-Тейлор. The possibilities of using the project method in education and work with young people at the present time. L., 1994, p. 165

F.Ə.Mehbaliyeva

İngilis dilinin tədrisində imladan istifadə

Xülasə

EFL sahəsində yazının bir çox istifadəsi və funksiyası var. Birincisi, dissertasiyalarını ingilis dilində yazmalı olan magistr tələbələri üçün məqbul elmi ingilis dilində yazmaq bacarığı vacibdir. Üstəlik, EFL yazmaq sizə dünyanın hər yerindən çoxlu sayda insanla ünsiyyət qurmağa imkan verir. O, həmçinin tələbələrə nailiyyətlərinin fiziki sübutlarını təqdim edir. Bundan əlavə, yazı tələbələrin lüğətini, orfoqrafiyasını və qrammatikasını inkişaf etdirə bilər. Nəhayət, yazı bacarıqları tez-tez rəsmi və qeyri-rəsmi testlər üçün tələb olunur. Məktub yazmaq, tələbələri həqiqi bir məqsədlə həqiqi auditoriyaya yazmaq üçün başqa bir üsuldur. Şagirdlər məktəb daxilində və ya kənarda kimsə ilə yazılı ünsiyyət qurmaq istədikdə bu texnikadan istifadə edirlər. Tələbələr məktublarını yazdıqdan sonra cavab almaq ümidi ilə onları çatdırır və ya poçtla göndərirlər. Respondentlər tələbələrin məktublarını və şərhlərini formalarına görə deyil, mənalarına görə qəbul edir. Yazı prosesi həm də yazıçının mənanın qurulmasında iştirak etdiyi prosesə aiddir. Bu prosesi üç əsas mərhələyə bölmək olar: yazıdan əvvəl, yazı və yazıdan sonrakı. Yazıdan öncəki mərhələ planlama, eskiz, beyin həmləsi, məlumat toplama və s.

F.A.Mehbaliyeva

Using distations in teaching English

Summary

There are many uses and functions of writing in the field of EFL. First, the ability to write a dissertation in English, which is acceptable for master's students who need to write their dissertations in English, is important. In addition, writing an EFL allows you to communicate with a large number of people from all over the world. It also provides students with physical evidence of their achievements. In addition, writing can improve students' vocabulary, spelling, and grammar. Finally, writing skills are often required for formal and informal tests.Writing a letter is another way to write students to a real audience for a real purpose. Students use this technique when they want to communicate in writing with someone inside or outside the school. After students write their letters, they deliver or mail them in the hope of receiving a response. Respondents accept students' letters and comments according to their meaning, not their form. The process of writing also refers to the process in which the writer participates in the construction of meaning. This process can be divided into three main stages: before writing, after writing and after writing. Pre-writing planning, sketching, brainstorming, data collection, etc.

Rəyçi: dos. A.Q.Musayeva
Redaksiyaya daxil olub: 11.06.2022

Р.А.ПАШАЕВА
старший преподаватель

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ОБУЧЕНИЕ ПРАВОПИСАНИЮ РУССКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА

Ключевые слова: *приставка, согласное, слово, существительное, буква, суффикс, гласное, основа, числительное, союз, прилагательное.*
Açar sözlər: *prefiks, samitlər, söz, isim, hərf, şəkilçi, sait, söz kökü, say, birləşmə, sifət.*
Key words: *prefix, consonants, word, noun, letter, suffix, vowels, word stem, numeral, union, adjective.*

Ведущим принципом русского правописания является морфологический, то есть на письме сохраняется графическое единство одних и тех же морфем (корней, суффиксов и т.д.). Однако существуют орфограммы, подчиняющиеся фонетическому принципу (его девиз – «пиши, как слышишь») среди них:

А) написание приставок с конечным З, С, БЕЗ, ВОЗ, ИЗ, НИЗ и т.д. перед следующим звонким согласным они пишутся с буквой З, перед глухим с буквой – С:

Избранный – исполненный;

Приставка С пишется – и перед звонкими, и перед глухими согласными:

Сделать – схватить;

Б) написание приставки РОЗ. В безударной позиции пишется приставка РАЗ (РАС), под ударением РОЗ (РОС):

Разлив металла – розлив нарзана (спец.) – разливной;

Россыпь – россыпной, розыск – розыскной. (Долгое время исключением из этого правила было написание слова РОЗЫСКНОЙ; однако издание Орфографического словаря русского языка 1991 г. уже дает написание этого слова с А – разыскной);

В) написание Ы вместо И в корне после русских приставок, оканчивающихся на твёрдый согласный:

Предынфарктный – безыдейный.

Написание И в корне после твердых согласных сохраняется в словах после русских приставок МЕЖ и СВЕРХ, а также после иноязычных приставок и частиц СУБ, ГИПРЕ, ДЕЗ, СУПЕР, КОНТР, ТРАНС, ПАН:

Межинститутский – контригра.

В безударном слоге корня слова пишется та же гласная, что и в соответствующем ударном слоге однокоренного слова, например: чистота – чистый, частота – частый, развевать – развеять, развивать – развить. Гласные О – А в безударных корнях глаголов совершенного вида нельзя проверять формами несовершенного вида на -ЫВАТЬ (-ИВАТЬ). Например: выносить, хотя вынашивать, установить, хотя устанавливать.

Всегда слитно пишутся:

– слова с приставками ДО, ВНЕ, ПОД, СВЕРХ, КОНТР, АРХИ, А и др., а также с начальными составными частями ПСЕВДО, ПАН, КВАЗИ и др.

(сверхприбыль, контрудар);

– сложные существительные, прилагательные, наречия, первым элементом которых является числительное (трехтонка, пятилетка);

– все сложносокращенные слова (завкафедра, нефтегазопровод);

– наречия, образованные от существительных (вдали, вначале, сбоку – с боку, на лице).

Полуслитные (дефисные) написания:

– существительные с приставками ОБЕР, УНТЕР, ЭКС, ШТАБС и др.

(экс-чемпион, обер-лейтенант);

– сложные существительные без соединительных гласных (социал-демократ, генерал-лейтенант);

– сложные прилагательные (аграрно-промышленный);

– сложные слова – повторения (еле-еле, чуть-чуть), однокоренных слов (день-деньской, полным-полно); синонимических слов (тихо-мирно, неожиданно-негаданно);

С прописной буквы пишутся сложносокращенные слова, обозначающие названия учреждений и организаций и выступающие в роли собственного имени, например: Моссовет, Профиздат.

Аббревиатуры, читаемые по названиям букв, пишутся одними прописными буквами независимо от того, образованы ли они от собственного имени или нарицательного наименования, например: ЦСУ (Центральное статистическое управления), РТС (ремонтно-техническая станция).

Аббревиатура, читаемая по звукам, пишется:

1) одними прописными буквами, если она образована от собственного имени, например: ТАСС (телеграфное агентство Советского Союза).

2) одними строчными буквами, если она образована от нарицательного наименования, например: ВУЗ (высшее учебное заведение), РОНО (районный отдел народного образования).

Обычно слова переносятся по слогам (ДО-РО-ГА, ПРЕД-РАС-СВЕТ-НЫЙ, ПРО-ДОЛ-ЖИ-ТЕЛЬ-НОСТЬ).

Данное правило имеет следующие ограничения:

1) начальные и конечные гласные буквы, обозначающие отдельный слог, не оставляются на строке и не переносятся на строку (аме-ри-кан-ский, япон-ский, по-эзия, тру-до-лю-бие);

2) конечные согласные буквы приставок необходимо оставлять на строке (под-бро-сить, воз-ра-зить, над-бров-ный);

3) нельзя переносить на следующую строку, начинающуюся с буквы Ы (по-ды-тожить);

4) нельзя разбивать при переносе суффикс -СК (со-вет-ский, фран-цуз-ский, русский); производные от него суффиксы -ЕСК, -ЧЕСК и др. при переносе разбиваются (вра-жес-кий, упа-доч-ни-чес-кий);

5) нельзя оставлять на строке или переносить на следующую строку две одинаковые согласные (кол-лек-ция, ком-му-низм, осен-ний).

Правописание сложных слов.
Сложные слова с соединительными гласными.

В сложных словах после основы на твердый согласный пишется соединительная гласная О, после основы на мягкий согласный на шипящий и на Ц – соединительная гласная Е. Например: лесозаготовки, грязелечение, овощехранилище, отцеубийца.

В некоторых случаях конечный мягкий согласный первой основы В, Н, Р, Т произносится твердо и после него пишется соединительная гласная О. Например: кровотечение (кровенаполнение), песнопение (песнетворчество), конокрадство (коневодство), косторезный (костедробильный).

Сложные слова без соединительной гласной

Количественные числительные, образующие первую основу сложных слов, входят в них в форме родительного падежа, например: пятилетка, трехэтажный. Однако числительные девяносто и сто сохраняют в составе сложных слов свою начальную форму, а слово тысяча употребляется с соединительной гласной Е, например: девяностолетний, стократный, тысячекилометровый.

Числительное ПОЛ в составе сложных слов:

Azərbaycanı turizm baxımından vahid coğrafi məkan kimi qəbul etmək təbiidir, lakin bu, turizmin bütün potensialını reallaşdırmaq üçün kifayət etmir. Bu, coğrafi, iqtisadi və s. sahələrlə də eynidir. Ona görə də ölkə ərazisi müxtəlif meyarlara görə rayonlaşdırılır. Onların arasında dövlət proqramının perspektivində regionların sosial-iqtisadi inkişafı xüsusi yer tutur. Burada tətbiq edilən rayonlaşdırmanın müvafiq təcrübəsini və ölkənin tarixi inkişafını nəzərə alaraq aşağıdakı tarixi-turizm rayonlarını ayırmaq olar: Bakı-Abşeron, Gəncə-Qazax, Qoba-Xucmaz, Şirvan, Qarabağ, Naxçıvan, Şəki-Zaqatla. Eyni zamanda, Xəzər dənizi Azərbaycanın tarixi turizm məkanı sayıla bilər (4).

Son iyirmi ildə Azərbaycan Respublikasında iqtisadi inkişafa nail olmaq üçün həyata keçirilən kompleks tədbirlər nəticəsində milli iqtisadiyyatın rəqabət qabiliyyəti yüksəlmiş, ümumi daxili məhsul 3 dəfədən çox artmışdır. Hazırda yaxın onillikdə iqtisadi artımın iki dəfə artıq təmin edilməsi gələcək üçün əsas strateji vəzifələrdən biri hesab olunur. Xüsusilə pandemiyadan sonrakı dövrdə illik iqtisadi artım templərinin artırılması üçün yeni mexanizmlərin formalaşdırılması və işlənib hazırlanması əsas vəzifədir. Turizm sektoru da gələcək dövrdə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsində mühüm rol oynaya bilər. Nəzərə alaq ki, son illər turizm sənayesinin inkişafı istiqamətində xeyli işlər görülüb, infrastruktur yaradılıb. Xüsusilə, ölkədə beynəlxalq hava limanlarının tikintisi, dağ-xizək kurortlarının yaradılması (Qusar və Qəbələdə), müxtəlif regionlarda mehmanxana və restoranlar şəbəkəsinin inkişafı bu məqsədə xidmət etmişdir. Həmçinin Azərbaycanda müxtəlif beynəlxalq idman yarışlarının və mədəniyyət tədbirlərinin (məsələn, Eurovision Mahnı Müsabiqəsi, Avropa İdman Oyunları, Formula 1 Qran Prisi və s.) keçirilməsi ölkənin turizm potensialının ictimaiyyətə təqdim edilməsi məqsədilə həyata keçirilən tədbirlərdəndir.

2010-2021-ci illər ərzində turizmlə bağlı hər bir göstərici artmışdır. 2015-ci ildə Avropa Oyunları və 2016-cı ildə Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22% artıb. 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Müsəlman ölkələrindən gələn turistlərin sayı sürətlə, bəzi ölkələrdən isə 3-4 dəfə artıb. Formula 1 yarışı birbaşa ölkənin xidmət sektoruna təxminən 300 milyon funt sterlinq göndərmişdir.

Rayonun inkişafı ilə bağlı dövlət proqramı və strateji yol xəritəsi qəbul edilib. Azərbaycan Respublikasında 2025-ci ildən sonrakı dövr üçün ixtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi Azərbaycanı dünyanın ən populyar 20 turizm məkanından birinə çevirmək və mövcud turizm resurslarından səmərəli istifadə etmək məqsədi daşıyır. Sağlamlıq, qış, mədəniyyət, biznes, ekoturizm və kənd turizminə əsaslanaraq, regional turizmi daha da inkişaf etdirmək və uzunmüddətli perspektivdə ölkəyə daha çox turist cəlb etməklə Azərbaycanın turizm sektorunu şaxələndirmək məqsədi daşıyır (1).

Koronavirus pandemiyasından əvvəlki beş ilin təhlili də göstərir ki, turizm sektoru Azərbaycan iqtisadiyyatında öz mövqeyini gücləndirir və perspektivli sahələrdən biridir. Rəsmi məlumatlara görə, 2016-cı ildən Azərbaycana gələn turistlərin sayı dinamik şəkildə artmaqdadır. Belə ki, 2015-ci ildə Azərbaycana gələn turistlərin sayı 2014-cü illə müqayisədə 11 faiz azalsa da, 2016-cı ildə müsbət artım əldə edilib. 2015-ci illə müqayisədə 2016-cı ildə ölkəyə gələn turistlərin sayı 6,4 faiz artıb. 2019-cu ildə ölkəyə gələn turistlərin sayı 2015-ci illə müqayisədə 49 faiz artıb.

Qrafik 1. Azərbaycana gələn turistlərin sayı, min nəfər

Mənbə: www.stat.gov.az

Qeyd edək ki, 2020-ci ildə turizm sektorunda ciddi artım proqnozlaşdırılmışdır. Təəssüflər olsun ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejim, habelə sərhəddən keçidə müvəqqəti məhdudiyyətlər tətbiq edilir. Səfərlər əsasən qeyri-turizm istiqamətləri ilə olub.

Araşdırmamız göstərdi ki, 2010-cu ildə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cəmi 65%-i Azərbaycana turizm məqsədi ilə gəlmişdisə, 2019-cu ildə bu sahədə vəziyyət müsbətə doğru dəyişib. Statistik məlumatların təhlilindən məlum olub ki, 2019-cu ildə Azərbaycana gələnlərin 90%-i turizm məqsədi ilə səfərlər edib. 2010-cu ildə Azərbaycan vətəndaşlarının 57%-i, 2019-cu ildə isə 78%-i turizm məqsədilə xaricə səfər edib (2).

2020-ci ildə ölkəmizə gələnlərin 28,3 faizi Rusiya Federasiyasına, 23,2 faizi Gürcüstana, 20,2 faizi Türkiyəyə, 9,1 faizi İrana, 2,1 faizi Ukraynaya, 1,6 faizi Hindistana, 1,5 faizi isə gəlib. faizi Səudiyyə Ərəbistanın payına düşür. Göstəricilər görə bəzi ərazilərdən gələn turistləri faizə görə bu cür sıralaya bilərik: Qazaxıstan 1,1 faiz, Pakistan, BƏƏ və Türkmənistan 1,0 faiz, Küveyt və Böyük Britaniya 0,9 faiz, Belarus 0,8 faiz, Özbəkistan 0,7 faiz, İsrail 0,5 faiz, Almaniya və İtaliya 0,4 faiz, digər ölkələrin vətəndaşları 4,5 faiz, vətəndaşlığı olmayan şəxslər 0,1 faizdir.

Dövlət Sərhəd Xidmətinin məlumatına görə, 2021-ci ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 134 ölkəsindən 162,9 min əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə azdır ki, bu da əsasən turist hədəflərinin buraxılmaması ilə bağlıdır.

2021-ci ilədək ölkəmizə gələn ziyarətçilərin 32,7%-i Rusiya Federasiyasından, 27,6%-i Türkiyədən, 16,7%-i İrandan, 10,8%-i Gürcüstandan, 2,5%-i Ukraynadan, 1,1%-i Böyük Britaniyadan, 1,0%-i Belarusdan, hər biri 0,7%-i olmaqla Qazaxıstan və Özbəkistandan, Türkmənistandan və Almaniyadan 0,6%, İtaliyadan 0,5%, digər ölkələrdən 4,5% olmuşdur. Ziyarətçilərin 92,6 faizini kişilər, 7,4 faizini isə qadınlar təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-aprel aylarında ölkəmizə gələnlərin sayında azalma müşahidə olunmuşdur: Gürcüstandan - 8,6 dəfə, Türkmənistandan - 6,9 dəfə, Qazaxıstandan - 5,7 dəfə, Özbəkistandan - 3,8 dəfə, Rusiya Federasiyasından - 3,1 dəfə, Ukraynadan - 2,7 dəfə, Böyük Britaniyadan - 2,7 dəfə, Belarusdan - 1,8 dəfə, Türkiyədən - 1,5 dəfə, İrandan - 1,2.

2020-ci ilin yanvar-aprel ayları ilə müqayisədə Fars körfəzi ölkələrindən gələnlərin ümumi sayı 2,5 dəfə azalaraq 27,7 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,1 dəfə azalaraq 63,1 min nəfər, ölkələrdən gələn immiqrantların sayı isə 3,1 dəfə azalmışdır. Üzv ölkələrdən gələnlərin sayı 2,6 dəfə azalaraq 5,9 min nəfər olub.

Sxem 1. Turizm xidmətinin idxal və ixrac göstəricisi, min ABŞ dolları ilə



Mənbə: www.stat.gov.az

Sxem 2.1-dən də göründüyü kimi 2016-cı ildan etibarən turizm sektorunun dövriyyəsində müsbət saldo yaranmış va sonrakı 3 il ərzində bu tendensiya davam etmişdir. Lakin burada

mənfi olan tendensiya ondan ibarətdir ki, 2017-ci ildən sonra turizm xidmətləri ixracından əldə edilən gəlirlərdə azalma olmuşdur. 2017-ci illə müqayisədə 2019-cu ildə turizm xidmətindən əldə olunan gəlirlər 41 faiz azalmışdır. Amma bu müddətdə ölkəyə gələn turistlərin sayı 16,7 faiz artmışdır. Turist sayının artdığı bir vaxtda onların ölkəmizdə xərclədiyi vəsaitin məbləğinin azalmasının dəqiq səbəblərini müəyyənləşdirmək isə aktual məsələ olaraq qarşımıza çıxır (3).

Ümumilikdə, Aİ-na üzv ölkələrdən gələnlərin sayı 5,9 dəfə azalaraq 23,0 min nəfər, Fars körfəzi ölkələrindən gələnlərin sayı 5,0 dəfə azalaraq 110,7 min nəfər olmaqla, MDB ölkələrindən gələnlərin sayı 4,2 dəfə azalmışdır.

Azərbaycan Respublikası üçün ən mühüm göstəricilərdən biri 2016-cı ildən etibarən qarşılıqlı turizm xidmətlərinin dövriyyəsində müsbət saldonun qeydə alınmasıdır.

Rublər üzrə müqayisə apardıqda aydın olur ki, 2018 və 2019-cu illərdə ən çox turizm xidmətləri ixracı və idxalı 3-cü rübdə reallaşdırılmışdır. Belə ki, ixraca baxdıqda ölkəmizə yay aylarında gələn turistlər daha çox vəsait xərcləmişdilər.

Nəticə: Qarabağ bölgəsi turizm potensialına görə Cənubi Qafqazın cənnəti sayılır və ölkəmizə gələn turistlərin əsas axını məhz bu bölgəyə yönələcək. Xalqımız müharibədə böyük qələbə qazandığı kimi, səylə öz gücünü verəcək, Qarabağın sürətlə dirçəlişinə öz töhfəsini verəcək. Qarabağın bərpasının genişmiqyaslı layihələr əsasında sürətlə davam etdirilməsi bütün dünyaya göstərir ki, bu qədim diyarın əsl sahibləri Azərbaycanlılardır. Xalqımız bu dəyişməz həqiqəti həm yenidənqurma proseslərində fəal iştirakı və məharəti, həm də qalibiyyətli müharibədə göstərdiyi tarixi şücaətlə sübut edir.

Ölkəmizdə turizm sənayesinin regional inkişafi üçün aşağıdakı məsələlərə əsaslı diqqət edilməlidir.

1. Bazar iqtisadiyyatı sahəsində strukturların fəaliyyətinin iqtisadi səmərəliliyi təşkil olunmalıdır. Bu səbəbdən də turizm müəssisələrinin yer seçmək, turistləri qəbul etmək, turist xidmətləri göstərmək imkanları müəyyənləşdirilərək, sərmayəli işləmələrinə imkan yaratmaq lazımdır. Sahil ərazilərindəki olan turizm müəssisələri bir-bir analiz olunduqda Yalama-Nabran və Abşeron bölgələrində yerləşən qısa müddətli istirahət mərkəzlərinə tələbatın yüksək olduğunu görə bilərik. Ona görə də ilk növbədə bu bölgələrdəki istirahət və tibb müəssisələrinə investisiya qoyulmalıdır. Bundan əlavə, Şamaxı, İsmayıllı, Quba, Qusar və Xaçmaz rayonlarında istifadə olunan turizm müəssisələrinin yenidən qurulması və xarici turizmə qapıların açılması ölkə iqtisadiyyatına əsaslı fayda verəcəkdir.

2. Turizm sektorunun inkişafı üçün ölkənin milli maraqlarına uyğun siyasət aparılmalıdır. Bu gün aparılan siyasətin ən mühüm vəzifəsi qarşılıqlı fayda əsasında işləyən birgə strukturların sayını artırmaq olmalıdır.

3. Dövlət müntəzəm turizm siyasəti həyata keçirməklə xarici və yerli iş adamlarını, investorları bu sektora sərmayə qoymağa təşviq etməlidir.

4. Turizm sektorunun inkişafi üçün turizm müəssisələrinə və tur şirkətlərinə zəruri ehtiyac vardır.

5. Ölkədə turizm üzrə kurikulumlar həyata keçirən universitetlərə dəstək göstərilməlidir.

Turizmin inkişafina mane olan nüansların aradan qaldırılması istiqamətində dövlət səviyyəsində aşağıda göstərilən addımların atılmasını təklif edirik:

- turizm təşkilatçıları üçün dövlət tərəfindən müvafiq vergi güzəştləri tətbiq olunmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmininkişafına dair Dövlət Proqramının təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı.

2. Bayramov V., Aliyeva L. CESD Policy Report on Tourism Sector inAzerbaijan, Baku, Azerbaijan, 2011, 10 səh.

3. Bəşirqızı Z. Qarabağın turizm potensialı heyranedicidir. //Xalq qəzeti. 2021, 25 noyabr, 10 səh.

4. Mürvətov Ə. Azərbaycanda turizmin inkişafı ulu öndərin adı ilə bağlıdır, Azərbaycan. 2009, 7 may, 3 səh.

5. www.stat.gov.az

С.Р.Байрамов

Перспективы развития туризма в регионах

Резюме

В силу своей значимости, социальных и экономических последствий развитие туризма в настоящее время оценивается как устойчивая отрасль современной мировой экономики. Туризм является структурной политикой и приоритетной рыночной экономикой для стран с социально-экономическим потенциалом. Сегодня современное состояние туризма оценивается по его роли в росте ВВП и решении социальных проблем, а эффективность туризма оценивается по его роли в экономическом росте и решении социальных проблем. С этой точки зрения научно актуальным является прогнозирование развития туризма, его последствий, а также организация и цель планирования.

Методология и модели исследования, планирование и эффективная организация его факторов имеют практическое и теоретическое значение для ускорения социально-экономических последствий развития туризма. Туризм, как сильный фактор экономики, как эффективный социальный институт, способствует повышению уровня жизни и духовному обогащению общества как показатель общественного благосостояния и культуры. Республика объявила развитие отечественной туристической отрасли приоритетным направлением в ненефтяном секторе экономики страны. С региональной точки зрения перспективы туристической отрасли в нашей стране оцениваются высоко. Развитие туристической отрасли на освобожденных территориях, в Карабахской области, придаст большой импульс дальнейшему развитию туризма в стране, так как этот регион, отличающийся красивой природой, будет привлекать как местных, так и иностранных туристов.

S.R.Bayramov

Prospects for the development of tourism in the regions

Summary

Due to its importance, social and economic consequences, the development of tourism is currently assessed as a sustainable sector in the modern global economy. Tourism is a structural policy and a priority market economy for countries with social and economic potential. Today, the current state of tourism is assessed by its role in GDP growth and the solution of social problems, and the effectiveness of tourism is assessed by its role in economic growth and the solution of social problems. From this point of view, it is scientifically relevant to predict the development of tourism, its consequences, as well as the organization and purpose of planning.

The methodology and models of the research, the planning and effective organization of its factors are of practical and theoretical importance for accelerating the socio-economic consequences of tourism development. Tourism, as a strong factor of the economy, as an effective social institution, contributes to the improvement of living standards and spiritual enrichment in society as an indicator of social welfare and culture. The republic has declared the development of the national tourism sector a priority in the non-oil sector of the country's economy. From a regional point of view, the prospects of the tourism industry in our country are highly valued. The development of the tourism industry in the liberated territories, in the Karabakh region, will give a great impetus to the further development of tourism in the country, as this region, distinguished by its beautiful nature, will attract both local and foreign tourists.

Rəyçi: i.ü.f.d., prof. P.Qurbanov

Redaksiyaya daxil olub: 25.05.2022

N.A.HƏSƏNOVA
e-mail: hesenzade_98@list.ru

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
(Bakı şəh., İnşaatçılar pr., 9)

MUSİQİ MƏHSULLARININ SATIŞI ÜÇÜN ELEKTRON BİZNES ÜSULLARINDAN İSTİFADƏ

Açar sözlər: *musiqi biznesi, strategiya, marketinq siyasəti, qiymətləndirmə metodları, musiqi satışı.*
Ключевые слова*: музыкальный бизнес, стратегия, маркетинговая политика, методы оценки, продажи музыки*
Key words: *music business, strategy, marketing policy, valuation methods, music sales*

Məqalədə musiqi məhsullarının satışında elektron biznes üsullarından səmərəli istifadə ilə bağlı müəyyən tövsiyələr yer almışdır. Bildiyimiz kimi internet dövrüdür və bu amil musiqi biznesinə təsirsiz ola bilməz. İnternet vasitəsilə musiqi məhsullarının marketinqi bu gün ənənəvi marketinqi əvəz edərək marketinq fəaliyyətinin ən perspektivli sahələrindən birinə çevrilib.

İnternetin meydana çıxması ilə iş görmək anlayışı əhəmiyyətli dərəcədə dəyişdi. O, ərazi sərhədlərini "sildi" və bu, hətta kiçik şirkətlərə də qlobal səviyyəyə çıxmağa imkan verir. İnternetdə vaxt miqyası da kommunikativ xüsusiyyətlərinə görə biznesin səmərəliliyini əhəmiyyətli dərəcədə artırdı. İnternet sponsorların və ya tərəfdaşların axtarışına, sövdələşmələrə, məlumatların toplanmasına və s. üçün sərf olunan vaxtı azaltmaq imkanı verir. (1)

Bundan əlavə, internetdə məlumat və xidmətlər gecə-gündüz mövcuddur. Eləcə də onun ünsiyyət xüsusiyyətləri çevikdir. Bu da təqdim olunan məlumatları asanlıqla dəyişdirməyə və vaxt itirmədən aktual saxlamağa imkan verir. Musiqi məzmunu üçün bu mühüm amildir, çünki bu sahədə informasiya axını, demək olar ki, əlçatmazdır, tendensiyalar çox yüksək sürətlə yaranır və yox olur.

Əsas kontingent ölkə əhalisinin 71%-i təşkil edir, 16-29 yaş arası (istifadəçilərin 98%-i), onlar da qrupumuzun əsas dinləyicisinin təsvirinə uyğundur. Beləliklə, bizim vəziyyətimizdə internetdə marketinqin danılmaz üstünlüyü vardır. (2)

İnternet marketinqinin ikinci əhəmiyyətli üstünlüyü onun nisbətən aşağı qiymətidir. Bu, ənənəvi marketinqin kağız reklam, bilbord, radio və s. vasitəsilə şirkətin məhsullarını təbliğ etməsi ilə əlaqədardır ki, bu da reklam sahəsinin icarəsi, efir vaxtının alınması və reklam emalatxanalarının ödənişi ilə bağlı yüksək xərclərə səbəb olur. Bu marketinq strategiyası internet marketinqi ilə müqayisədə olduqca baha başa gəlir, burada yeganə xərc çox vaxt marketinq mütəxəssisinin xidmətləri üçün ödənişdir.

Bundan əlavə, ənənəvi marketinq üsullarından istifadə edən şirkətlər (oflayn sorğular, fokus qrupları, sınaq marketinqi) tez-tez hədəf bazarlarını tapmaq üçün əsassız olaraq külli miqdarda pul xərcləyirlər. Sosial media bizneslərə bazar araşdırmalarına böyük sərmayə qoymadan insanların şirkət və ya sənayedəki rəqibləri haqqında nə dediyini tez öyrənmək imkanı verir. Çünki bu musiqi biznesi üçün xüsusilə vacibdir. Rəqib məlumatı, dinləyici rəyi və digər məlumatlar nisbətən tez-tez və böyük miqdarda toplanmalıdır ki, bu da ənənəvi marketinq mühitində qeyri-mütənasib xərclər deməkdir.

İnternet mediası bu gün böyük nüfuz qazanıb və populyarlaşıb. 2017-ci ildə Yandexin araşdırmasına görə Rusiyanın hər üçüncü sakini həftədə ən azı bir dəfə xəbər platformalarına baş çəkir. İnternet nəşrlərinin digər üstünlüyü onların açıqlığı və ünsiyyətcilliyidir: onlar tez-tez sosial şəbəkələr vasitəsilə ictimaiyyətlə əlaqə saxlayırlar.(1)

İnternet marketinqinin bu növü bu işdə nəzərdən keçirilən hər şeydən olduqca baha olsa da, (böyük bir onlayn nəşrdə nəşrin yaradılması əhəmiyyətli investisiyalar tələb edə bilər) bu, bir layihə üçün yeni auditoriya cəlb etmək, layihənin imicini gücləndirmək və artırmaq üçün əla şansdır. Nəşrləri sərfəli şərtlərlə internet mediasında yerləşdirmək üçün əlverişli imkan olduqda planlaşdırılan kampaniya çərçivəsində bu üsuldan köməkçi üsul kimi istifadə oluna bilər. (3)

Musiqi rəqəmsal olaraq yükləndikdə və ya yayımlandıqda istehlakçının portativ media pleyerində və ya noutbukunda kompüter yaddaşından başqa heç bir fiziki media yoxdur. Bu səbəbdən Taylor Swift, Paul McCartney, Kings of Leon və başqaları kimi sənətçilər sosial medianın musiqilərini onlara qonorar ödəmədən yayımlamaq hüququnu inkar edən hüquqi dəyişikliklərə çağırıblar. Rəqəmsal yükləmələri satın alarkən və ya musiqi axınına qulaq asarkən istehlakçıdan müəllif hüququna xas olan şərtlərdən başqa, səsyazma şirkəti və satıcının lisenziyalaşdırma şərtləri ilə razılaşması tələb oluna bilər. Məsələn, bəzi xidmətlər istehlakçılara qeyri-sərbəst şəkildə paylaşmağa icazə verə bilər, lakin digərləri istifadəçiyə musiqini müəyyən sayda sabit disklərdə və ya cihazlarda saxlamağı məhdudlaşdıra bilər.

Səsyazma yayımlandıqda performans hüquqları təşkilatları (ABŞ-da ASCAP və BMI, Kanadada SOCAN və ya Böyük Britaniyada MCPS və PRS kimi) üçüncü mahnı müəlliflərinə, bəstəkarlara və səsyazma sənətçilərinə ödənilən ifa qonoraları kimi tanınan qonorar növü müəyyən edirlər. Bu qonorar adətən nəşriyyat və ya mexaniki qonorardan çox kiçikdir.

YouTube-dan həddən artıq istifadə və oflayn yayıma görə albom satışları son bir neçə ildə 60 faiz azalmışdır. Yazılar televiziya və filmdə istifadə edildikdə bəstəkar və onların nəşriyyat şirkəti adətən sinxronizasiya lisenziyası vasitəsilə ödənilir. 2000-ci illərdə onlayn abunə xidmətləri (məsələn, Rhapsody) həm də bilavasitə səsyazma şirkətlərinə və onlar vasitəsilə sənətçilərə müqavilələrə icazə verən gəlir axını təmin edir.

Marketinq kampaniyasının aparılması üsul və vasitələrini seçərkən layihənin hədəf auditoriyasının xüsusiyyətlərinə diqqət yetirmək lazımdır, ona görə də bizdə auditoriyanın mühüm xüsusiyyətlərindən biri onun formalizmi sevməməsi, birbaşa reklamlara az məruz qalma və yüksək şəbəkə fəaliyyəti aid edilə bilər.

Bu amillər mediada ənənəvi təbliğat və televiziya və radio reklamları ilə müqayisədə layihənin təşviqi üçün dolayı internet marketinqini xüsusilə cəlbedici edir.((5)

Nəticə. Ümumiləşdirərək deyə bilərik ki, dövrümüzdə internet marketinqi olduqca perspektivlidir. Bu marketinq metodundan istifadə edərək musiqi məhsulları istehsalçısı olan şirkətin və ya ifaçının fəaliyyətinin nüfuzlu mediada işıqlandırılması daha uğurlu həyata keçirilə bilər. Nüfuzlu mediada maraqlı nəşrlər şirkətin və ya ifaçının həyatında baş verən əsas hadisələri işıqlandırır və şirkətin açıqlığını və şəffaflığını nümayiş etdirir, müştəri loyallığını və onun imicini artırır. Nüfuzlu medianın nəşrlərinə asanlıqla istinad edilir ki, bu da brend şüurunu artırır və şirkətin internetdə mövcudluğunu gücləndirir. Beləliklə, marketinq daha uğurlu baş tutmuş olur, bu isə satışlarda özünü göstərir.

Ədəbiyyat

1. Kaplunov D.A. İnternetdə müştəriləri fəth etmək üçün kitab-muse: monoqrafiya / D. A. Kaplunov, Moskva: Mann, İvanov və Ferber, 2017, 497 s.

2. Xəlilov D. Sosial şəbəkələrdə marketinq: monoqrafiya / D. Xəlilov, Moskva: Mann, İvanov və Ferber, 2016, 240 s.

3. Şugerman D. Reklam mesajları yaratmaq sənəti / D. Şugerman, Moskva: Eksmo, 2016, 448 s.

4. Rosen E. Marketinqin anatomiyası: monoqrafiya / E. Rosen, Moskva: Mann, İvanov və Ferber, 2013, 416 s.

5. Elliot R. Reklam kampaniyalarının strateji planlaşdırılması: monoqrafiya / E. Rosen, Moskva: Grebennikov, 2014, 416 s.

Н.А.Гасанова

Использование методов электронного бизнеса для продажи музыкальных продуктов

Резюме

В статье рассматривается продвижение и популяризация музыкальных продуктов с помощью инструментов электронного бизнеса. Распространение Интернета и глобализация повлияли на консервативный музыкальный бизнес, изменив то, как музыка диктуется крупными продюсерами и звукозаписывающими компаниями. Это положительно сказывается на продажах музыкальной продукции.

N.A.Hasanova

Use of e-business methods for the sale of music products

Summary

The article examines the promotion and popularization of music products with the help of electronic business tools. The spread of the Internet and globalization have affected the conservative music business, changing the way in which music is dictated by major producers and record companies. This has a positive effect on the sale of music products.

Rəyçi: sənətşünas.f.d., dos. N.Qaralova

Redaksiyaya daxil olub: 12.05.2022

A.Ə.MEHDİYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: ayten-69@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

AZƏRBAYCANIN ORTA ƏSRLƏR DÖVRÜNÜN ÖYRƏNİLMƏSİNDƏ NEMƏTULLAH NAXÇIVANİ İRSİNİN ROLU

Açar sözlər: *Azərbaycan, Naxçıvan, Nemətullah Naxçıvani, təvsir, tarix, alim*
Ключевые слова: *Азербайджан, Нахчыван, Нематуллах Нахчыван, интерпретация, история, ученый*
Key words: *Azerbaijan, Nakhchivan, Nematullah Nakhchivany, tafsir, history, scientist*

Azərbaycan dünya elm və mədəniyyət tarixinə mühüm töhfələr vermişdir. İstər müasir Azərbaycan Respublikası, istər Cənubi Azərbaycan, istərsə də tarixən Azərbaycan torpağı olmuş ərazilərdə fəaliyyət göstərmiş çox sayda alim, mədəniyyət xadimi və başqalarının adları müxtəlif mənbələrdə saxlanmışdır. Azərbaycan xalqının nümayəndələri Yaxın və Orta Şərqin siyasi-ictimai həyatında mühüm rol oynamışlar. Onların adları mühüm dövlət vəzifələri, məşhur təhsil ocaqlarının müəllimləri və dünya şöhrətli ustad alimlərin cərgəsində çəkilir. Dünya fəlsəfi fikri elm, ədəbiyyat və incəsənətinin yaranması və inkişafı Şərq ölkələrində özünəməxsus formada getmişdir. Belə ki, orta əsrlər Şərq fəlsəfi dünyagörüşü yalnız fəlsəfə tarixi üçün deyil, eyni zamanda mədəniyyət fəlsəfəsi üçün mühüm əhəmiyyət kəsb edən geniş bir elm sahəsini əhatə etmişdir. Bu səbəbdən qeyd olunan dünyagörüşünün doğru, təhrif edilmədən və obyektiv şəkildə araşdırılması orta əsrlər Azərbaycan alim və mütəfəkkirlərinin irsinin öyrənilməsini aktual mövzuya çevirmişdir. Şamaxı, Bakı, Naxçıvan, Qarabağ, Quba, Gəncə, Dərbənd və digər bölgələrdən olan həmvətənlərimiz Şərq ölkələrində müxtəlif məqamlarda çalışmış, sufi təriqətlərinin şeyxi olmuş, ictihad və mərcəiyyət dərəcələrinə yüksəlmişlər (15, s. 4). Onlardan biri Azərbaycanın görkəmli elm xadimi, dövrünün böyük şeyxi və təfsir ustadı Baba Nemətullah Naxçıvani hesab oluna bilər.

Orta əsrlərdə Naxçıvanda yaşayan müəllif, mütəfəkkir, filosof və yazıçıların dünyagörüşü, istedadı, bədii və fəlsəfi sənətkarlığı, elmə verdikləri yenilikləri və s. özündə əks etdirən yazılı abidələr yalnız Naxçıvanın deyil, eyni zamanda Şərq mədəniyyət tarixinin əsaslı və başlıca məxəzləridir (8, s.81).

XIII-XV əsrlərdə ədəbi inkişafı xarakterizə edərkən bu dövrdə sxolastika, saray şeiri, qəsidəçilik və mədhiyyəçilik tendensiyalarının getdikcə azaldığını müşahidə etmək mümkündür. Nəticədə Şəbüstəri, Nəimi, Əvhədi, Nəsimi və Kişvəri kimi mütəfəkkirlərin yaradıcılığı ilə fəlsəfi lirika qüvvətlənmiş, işğalçı müharibələr və ədalətsizliyə etiraz motivləri mistik formada öz ifadəsini tapmış və etiqad sərbəstliyi ideyalarının tərənnümü qüvvətlənmişdir (3, s. 134).

Anadolunun fəthindən sonra İslamın yayılması üçün türk dünyasının müxtəlif bölgələrindən sufi və övliyaların bu ərazidə yerləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Osmanlı sultanları II Mehmet Fateh və II Bəyazidin dövründə elmin inkişafına xüsusi diqqət yetirilməsi ilə bağlı olaraq alimlərin burada çalışması üçün şərait yaradılmışdır. Bu alimlərdən biri sufi şeyxi və filosof, əsl adı Nemətullah ibn Mahmud Şeyx Əlvan olan və Naxçıvanda doğulduğuna görə "Naxçıvani" nisbəsini daşıyan Nemətullah Naxçıvanidir. Eyni zamanda o, nəqşibəndiyyə təriqətinin əsas rəhbərlərindən biri olmuşdur (7, s. 250). Nəqşibəndiyyə təriqətinin böyük şeyxləri arasında fərqlənən Nemətullah Naxçıvani "Gizlənən dərviş" kimi tanınmışdır. Eləcə də onun anadan olduğu Naxçıvan şəhərinin bəktaşiyyə sufi təriqətinin geniş

yayıldığı ərazilərdən biri olduğu bəllidir. Bunu müasir dövrdə əslən Naxçıvandan olan Bəktaşi soyadlı insanlara rast gəlinməsi, onlardan bəzilərinin özünü nəinki bu təriqətin davamçıları, hətta Nemətullah Naxçıvaninin nəslindən olmasını hesab etmələri göstərir. Digər tərəfdən, Nemətullah Naxçıvaninin daşıdığı və sufiliklə bağlı olan "baba" titulu da onun bəktaşi dərvişi olduğunu təsdiqləyir. Bu təriqətdə ən yüksək məqama çatmaq üçün beş mərhələ (Aşıq, Mühib, Dərviş, Baba və Xəlifə) keçilməli idi. İlk üç mərhələni keçən dərvişlərin başına sarıq sarılaraq ona "baba" rütbəsi verilmişdir. Ümumiyyətlə, ölkəmizdə fəaliyyət göstərən bəktaşi dərvişlərinə bu titulla müraciət edilmişdir (20, s. 211, 212). Bu titulu daşıyan dərvişlərin cəmiyyətdə böyük söz sahibi olduqlarını 1500-cü ildə baş verən bir tarixi hadisə təsdiqləyir. Belə ki, həmin ildə Ağqoyunlu taxtı uğrunda mübarizə aparan Murad və onun əmisi oğlu Əlvənd arasında Təbriz yaxınlığında Əbhər adlı yerdə sülh müqaviləsinin imzalanması məhz Baba Xeyrulla adlı bir dərvişin köməyi ilə həyata keçirilmişdir (2, s.402).

Bu sufi aliminin həyatı haqqında məlumatlar məhduddur. Belə ki, o, Naxçıvan mədrəsələrində müəllimlik etmişdir. Güman ki, ömrünün 50 ildən artıq bir dövrünü Naxçıvanda yaşayan Baba Nemətullah göstərilən rütbəyə qədər yüksəldikdən sonra bölgədə yayılan nəqşibəndlik təriqətinə daxil olmuş və Naxçıvandan ayrılmışdır (20, s.211, 212). Naxçıvanı tərk edən alim dövrün böyük sufi alimi Seyyid Yəhya Şirvaninin davamçısı, xəlvəti təriqətinin şeyxi Dədə Ömər Rövşəni ilə bağlı olaraq Təbrizə gəlmiş (1487) və bir müddət burada qalmışdır. Məhz burada yazdığı məşhur Quran təfsiri kitabını 1497-ci ildə bitirmişdir. Qeyd etmək lazımdır ki, XV əsrin sonunda Azərbaycanda elm və mədəniyyətin inkişafı üçün daha əlverişli şərait yaradılmışdır. Ağqoyunlu hökmdarları arasında Yaqub Mirzə öz təhsili, elm və mədəniyyətə diqqət yetirməsi ilə seçilmişdir. Onun sarayında keçirilən məclislərdə Baba Füqani, Baba Nəsimi, Dərviş Dəhki və başqa şairlər fərqlənmişlər (9, s. 180). Qeyd olunan mərhələ Baba Nemətullah kimi elm xadimlərinin yetişməsi və cəmiyyətdə tanınması üçün əlverişli şərait olduğu və onun Təbrizə getməsinin təsadüfi xarakter daşımadığını göstərir. XV əsrdə Təbriz Yaxın Şərqin mədəniyyət mərkəzlərindən biri olmuş, burada çoxlu məktəb fəaliyyət göstərmiş və elmi kadrlar hazırlanmışdır (14, s. 38). Fransız səyyahı J.B.Tavemyenin sözlərinə görə Azərbaycan şəhərlərinin hər məhəlləsində bir neçə məktəb olmuşdur. Alman səyyahı A.Oleari bu fikri inkişaf etdirərək Azərbaycanda küçələri qədər məktəbləri olan şəhərə rast gəlmədiyini bildirmişdir (17, s. 16). XV-XVI əsrlərdə bu məktəblərdə ixtisaslaşma getmişdir.

XV-XVI əsrlərdə Azərbaycanda elm, mədəniyyət, maarif və incəsənətlə yanaşı bədii fikrin inkişafında irəliləyiş nəzərə çarpmışdır. Göstərilən sahələrə nisbətən ədəbi həyatda daha böyük canlanma və yüksəliş müşahidə olunmuşdur. Anadilli söz sənətimizin inkişafında gurlaşma hiss edilmişdir.

Həmin dövrdə yaranan bədii təfəkkür məhsulumuzun mühüm bir sahəsini mühacirət ədəbiyyatı təşkil etmişdir. Müxtəlif sənətkarlar ölkəni tərk edərək Osmanlı imperiyası və ya Mərkəzi Asiyaya üz tutmuşlar. Mühacirətin müxtəlif səbəbləri olmuşdur. Məmləkətdə baş verən feodal müharibələri, iğtişaşlar, qayğısızlıq, maddi çətinlik, özlərinə qarşı münasibətdən doğan inciklik hissi, daha yaxşı güzəran və şan-şöhrət istəyi və s. bu səbəblər sırasında idi. Osmanlı imperiyası ərazisində nisbi sabitlik və əmin-amanlıq mövcud olmuşdur. İstər Osmanlı sultanları, istərsə də müxtəlif yüksək rütbəli mənsəb sahibləri elm və sənət adamlarını himayə etmiş, onlara qayğı ilə yanaşmışlar. Azərbaycan sənətkarlarının əksəriyyəti Türkiyəyə mühacirət etmişlər. Qeyd olunan dövrdə Osmanlı imperiyasına gedən azərbaycanlı sənətkarların sayı 30-dan artıqdır (4, s. 314-315). Güman ki, bu rəqəm daha çox olmuşdur.

1498-ci (1499) ildə vəziyyətin gərginləşməsi, Ağqoyunlu taxtı uğrunda müharibələrin vüsət aldığını görən Baba Naxçıvani Təbrizi tərk etmişdir (13, s. 11). Bu gediş tarixi şəraitlə bağlı olmuşdur. Belə ki, Uzun Həsənin vəfatından sonra onun beş oğlu və Ağqoyunlu sülaləsinin digər hakim qolları arasında kəskin mübarizə başlanmışdır. Onlardan yalnız Yaqub Mirzə 12 il hakimiyyətdə qalmağa müvəffəq olmuşdur. Yaqub Mirzənin hakimiyyətinin möh-

kəmlənməsində Bayandurbəy, Sufi Xəlil və Süleyman Bicanoğlu kimi sərkərdələr mühüm rol oynamışlar. Məhz Sufi Xəlilin əldə etdiyi uğurlar nəticəsində Ağqoyunlu dövlətinin üzərinə edilən bir sıra hücumlar dəf edilmiş və Osmanlı imperiyası bu dövlətlə mübarizəni zəiflətmişdir. Sultan II Bəyazid dərviş (1481-1512) güzəştə getmək siyasətinə üstünlük vermişdir (9, s. 99-100). Əslində, bu şahzadələr Ağqoyunlu feodallarının əlində oyuncağa çevrilmişlər. Belə ki, Baysunqurun adından dövləti idarə edən Sufi Xəlil (1490-1491) bütün rəqibləri və ayrı-ayrı feodal qruplarını məğlub edərək Ağqoyunlu dövlətinin idarəçiliyini öz əlində birləşdirməyə nail olmuşdur. Başqa sözlə, sufi təriqətləri bu dövrdə ölkənin ictimai-siyasi və ideoloji həyatında mühüm rol oynamış və dövlət siyasəti səviyyəsinə qalxa bilmişdi (18, s. 88).

Alim Təbriz şəhərini tərk edərək İstanbulda üzvü olduğu nəqşibəndiyyə təriqəti üzvlərinə üz tutmuşdur (12, s. 18). Bu dövrdə Anadolunun elm xadimlərinə ehtiyacının olmasını nəzərə alaraq Nemətullah Naxçıvani Konya vilayətinin Ağşəhər bölgəsinə göndərilmişdir. 1499-cu ildə burada əvvəlcə zaviyyə, sonra isə təkkə qurub sufizmin təbliği ilə məşğul olan alimin təşkil etdiyi bu mərkəz sənədlərdə "Əfkafi-zaviyeyi-Nemətullah Naxçıvani" adı ilə qeyd edilmişdir. Alimi ağşəhərlilər Şeyx Əlvan, Əlvanül Ağşəhəri, Nemətullah Naxçıvani, Baba Nemətullah və Nemətullah Sultan kimi tanımışlar. Gənclərə təhsil verən, müridləri öz ətrafında toplayan bu alimin kitabları və yazdığı təfsirlər yerli əhalinin maariflənməsində mühüm rol oynamışdır. Həmin təkkə müasir dövrdə saxlanmamışdır. 1499/1500-cü ildən Konya yaxınlığında Ağşəhərdə məskunlaşan Naxçıvani həyatını elm və irfana həsr etmiş, Anadolu sufiləri, təfsir alimləri və fəqihlər arasında şöhrət tapmışdır. O, dövrün siyasi hadisələrindən kənar durmuşdur. Mənbələrdə onu "kənə yuhfi nəfsəhu" ("özünü gizlətməyə adət etmiş") dərviş adlandırmışlar (13, s. 11). Onun haqqında məlumatların azlığı məhz bununla bağlıdır. Bu dövrdə şeyxlik və fəqihlik adı ilə bəzilərinin xalqı aldatması və sərvət toplaması onun gizlənməsinin daha bir səbəbi kimi göstərilmişdir.

Naxçıvandan geniş dünyagörüşünə malik bir alimin çıxmasında həmin dövr mühitinin böyük rolu olmuşdur. Hələ qədim zamanlardan Naxçıvan bölgəsindən mühüm ticarət yollarının keçməsi burada sufi təriqətlərinin yayılmasını şərtləndirən əsas amillərdən biri olmuşdur. Orta əsrlərdə təriqət mənsubları olanlar daha çox ünsiyyətdə olmaq və ticarətlərini genişləndirmək üçün öz xanəgahlarını gediş-gəlişin gur olduğu yerlər və mühüm ticarət yollarının kənarlarında qurmuşlar. Bu fikri dövrümüzə gəlib çatan toponimlər də sübut edir. Bu baxımdan Şərurda Dərvişlər və sufiliklə bağlı olan Zaviyə (Zeyvə), Culfa və Ordubadda Xanəgah, Xanağa kəndlərini və digərlərini göstərmək olar. Bu fikir E.Çələbi "Səyahətnamə"si və "Naxçıvan sancağının müfəssəl dəftəri" kimi etibarlı mənbələr, toponimçi alimlər T.Əhmədov, A.Bağırov və başqalarının tədqiqat əsərlərində öz təsdiqini tapmışdır (19, s. 27-28).

Naxçıvan bölgəsində sufiliklə bağlı başqa toponimlər Hacıvar, Tumbul, Göynük, Alışar, Zeynəddin və Şahtaxtı kimi kəndlər də müxtəlif dərviş ordenlərilə əlaqələndirilmişdir (19, s. 29). Rus etnoqraf-şərqşünası K.M.Smirnovun məlumatına əsasən orta əsrlərdə Naxçıvanda Nemətullahiyyə, Heydəriyyə, Nöqtəviyyə və Bəktaşiyyə kimi sufi təriqətlərinə məxsus dərvişlər fəaliyyət göstərmişlər (21, s. 61). Azərbaycan təsəvvüfündə iki cəhəti qeyd etmək lazımdır. Birinci, dərvişanə sufilik olub türk xalq İslam anlayışı, ikinci, elmi təsəvvüf anlayışı ilə bağlı olmuşdur. Baba Naxçıvani elmi təsəvvüf anlayışına sahib olan sufilər arasında ali təhsil almış və bir təfsir alimi kimi şöhrət qazanmışdır.

Orta əsrlər əlyazma mətnləri Naxçıvan mədəniyyətinin tarixi köklərinin araşdırılması baxımından olduqca önəmlidir. Eyni zamanda onlar ədəbiyyat tarixi ilə yanaşı mədəniyyət tarixi üçün də böyük əhəmiyyət kəsb edən geniş elmi sahəni əhatə etmişdir. Orta əsrlərdə qədim Naxçıvan diyarında yaradılmış abidə əsərləri ayrı-ayrı müəlliflər, mütəfəkkirlər, filosoflar və başqalarının dünyagörüşü, istedadı, bədii sənətkarlığı, elmə verdikləri yeniliklər və s.-i əks etdirən yazılı abidələr olmaqla bərabər, həm də Naxçıvan mədəniyyət tarixini işıqlandıran əsaslı və başlıca məxəzlərdir (8, s.81). Bu baxımdan Nemətullah Naxçıvani irsinin araşdırılması böyük maraq doğurur.

Nemətullah Naxçıvaninin əsərlərində Qurani-Kərim insanlığın həyatının ictimai-iqtisadi, siyasi, fərdi və dini həyat tərzini müəyyənləşdirən və hüquqi şəkildə əsaslandıran bir məcmu kimi geniş təhlil edilmişdir (16, s. 109). Onun ən böyük əsəri "Əl-Fəvatihul-İlahiyyə vəl Məfatihul-Qeybiyyə əl-muzihatu li`l-kəlimi`l-Qur`aniyyə və`l-hukəmi`l-Furkaniyyə" adlı təfsir kitabıdır. "Sufi qəlbinə dolan batini məna və işarətlərə görə ayələrin təvil edildiyi təsəvvüfi təfsirlər" kimi dəyərləndirilən bu əsər İslam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təvsir edən ilk əsərdir. O, özündən sonra bütün sufi və təsəvvüf alimlərinin mənbə kitabına çevrilmişdir (13, s. 11).

Nemətullah Naxçıvaninin ədəbiyyatdan istifadə etməyərək yazdığı "Quran" təfsir kitabı ("Əl-Fəvatihül İlahiyyə vəl Məfatihül Qeybiyyə") üç cilddən ibarətdir. İlk cilddə 13, ikinci cilddə 20, üçüncü cilddə isə 81 surənin təfsiri və şərhi yer almışdır (5, s. 12). Nemətullah Naxçıvani öz təfsir əsərinin müqəddiməsində heç bir rəvayətə yer vermədən onu Tanrıdan gələn ilhamla yazdığını göstərmiş və rasional arqumentləri rədd etməmişdir. O, sadəcə rasional arqumentlə mistik ilhama istinad edən idrak formalarının müxtəlif mahiyyətlərini göstərməyə çalışmışdır (10, s. 47). O, bu təfsir əsərinin müqəddiməsində İbn Ərəbi kimi heç bir kitaba baxmadan kəşf və ilham yolu ilə yazdığını qeyd etmişdir. Hər surəyə müvafiq giriş yazmış və nəticə ilə tamamlamışdır. Hər bir surənin giriş və nəticəsi digərindən fərqli olmuşdur. Əsərin 17 səhifəlik müqəddiməsində o, öz təfsir metodunu təsəvvüfi çərçivədə, yəni vəhdəti-i-vücud, mütləq varlıq, mərifət və həqiqətləri və s. mövzuları izah etmişdir. Müəllif öz təfsir metodunu isə qısaca bu formada ifadə etmişdir: "... bu təfsir əsərinə təsəvvür və təfəkkür gözüylə deyil, ibrət gözüylə, dəlil və arqument gözü ilə deyil, daxili sezmə, şəkk və şübhə ilə deyil, kəşf və əyan olma vasitəsilə nəzər yetirəsiniz" (10, s. 56). Bu səbəbdən Nemətullah Naxçıvaninin "Əl-Fəvatihul-ilahiyyə" adlı əsəri Quran elmlərindən işari təfsir sahəsində özünəməxsus metodu olan və təfsirçilərin ən çox müraciət etdikləri əsərlərdəndir (1, s. 62).

Nemətullah Naxçıvaninin ikinci əsəri "Şərhi əsrarin əl-nöqtə" adlanır və vəhdəti-vücud anlayışının şərhindən ibarətdir. Uzun illər ərzində Baba Naxçıvaninin bu əsərin müəllifi olması şübhə altına alınsa da, əsərin yeni nüsxələrinin tapılması bu şübhəni aradan qaldırmışdır. Nemətullah Naxçıvaninin üçüncü əsəri "Hidayətül-ixvan" çox qiymətli bir mənbə kimi Türkiyədə tərcümə olunaraq nəşr edilmişdir. Bu 3 əsas əsərdən əlavə daha 7 risalə ("Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mukaşəfa" və "Əsilə və əcibə"), müəllifliyinin ona aid olması güman edilən və dffə adı ilə tanınan bir neçə risalə Baba Naxçıvaninin adı ilə bağlıdır (13, s. 11). Onun "Nöqtənin sirlərinin şərhi" (Şərhi əsrar əl-nüktə) adlı bir əsərinin olması da xatırlanır (11, s. 6).

Dövrünün məşhur sufisi Nemətullah Naxçıvani XIII əsr məşhur türk filosofu Mövlanə Cəlaləddin Ruminin yaradıcılığına böyük maraq göstərmişdir. Bu, onun "Şərhi-rubai-Şeyx Cəlaləddin" risaləsində öz əksini tapmışdır. O, burada Cəlaləddin Ruminin rubailərini şərh etmişdir.

Nemətullah Naxçıvaninin yalnız əsərlərinə diqqət yetirmək kifayətdir ki, görkəmli alim və geniş dünyagörüşünə malik şəxs olması anlaşılsın. Mühyiddin ibn Ərəbinin məşhur "Füsusül əl-hikəm", Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" kimi olduqca mürəkkəb və çətin əsərlərinə şərhlər, Beyzavinin böyük şöhrət qazanmış təfsirinə qeydlər və Quranın sufi təfsirini yazmaq üçün İslam dini ilə yanaşı qədim yunan fəlsəfəsi, təfəvvüfü, panteizmi və vəhdəti-vücud təlimini çox dərindən bilmək tələb olunurdu. Məhz belə biliyə malik olan Nemətullah Naxçıvani dövrünün ən ziddiyyətli şəxsiyyətlərindən olan İbn Ərəbi irsinə yaradıcılıqla yanaşmış, onun tərəfdarları və əleyhdarlarına münasibətini bildirmişdir.

XV əsrdə Azərbaycanın fəlsəfi fikrinin inkişafı üçün keçmiş dövrlərdə yazılmış sufi-panteist istiqamətli əsərlərin Azərbaycan dilinə tərcümə olunmasının müəyyən əhəmiyyəti olmuşdur. Belə ki, Şirazi təxəllüslü şair Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsəri Azərbaycan dilinə çevrilmişdir. Bu dövrdə Azərbaycan mütəfəkkirlərindən Seyid Yəhya Xəlvəti, Yəhya Şirvani, Şəmsəddin Məhəmməd ibn Əli Lahici, Kəmaləddin Hüseyn Ərdəbili

və b. Mahmud Şəbüstərinin əsərinə şərhlər yazmışlar (3, s. 167). Baba Naxçıvaninin bu əsərlə bağlı yazdığı şərhlər özünəməxsusluğu ilə fərqlənmişdir. 1317-ci ildə Mahmud Şəbüstəri tərəfindən yazılan "Gülşəni-raz" əsərinə yazdığı şərhin əsas ideyası varlığın panteistcəsinə izah olunmasıdır. Burada müəllif müxtəlif Şərq peripatiklərinin emanasiya nəzəriyyəsi, mərtəbəli quruluşunun Quran surələrinə nisbətdə ətraflı təhlilini vermiş, ayələrin əql, nəfs, göy və ulduzlara müvafiqliyini yüksək qiymətləndirmişdir (16, s. 110). İnsan nəfsini universal nəfs ilə eyni tutan və onu bütün aləmə şamil edən Nemətullah Naxçıvani varlığın idrakında zahiri cəhətləri qavramağı şəriət, daxili cəhətləri dərk etməyi isə həqiqətə bağlamışdır. Həqiqəti bilmək üçün şəriət ilə həqiqət arasındakı yolu – təriqəti qət etməyin vacibliyini əsaslandırmışdır. Şəbüstərinin fikirlərinin ziddiyyətli olması Baba Nemətullaha onun yaradanın keyfiyyətləri haqqında Quran və Sünnədəki mühakimələrə uyğun olan fikirlərini yüksək qiymətləndirməyə mane ola bilməmişdir. Müəllif, hətta Şəbüstərinin dualist cərəyan və təriqətləri tənqidinə tərəfdar çıxmışdır (16, s. 110).

Nemətullah Naxçıvani irsinin araşdırılmasında mühüm rolu olan XVI əsr Osmanlı salnaməçisi Əhməd Əfəndi Taşköprüzadənin "Şeqayiq ün-Numaniyyet-ü fi Ülemad Devletil-Osmaniyye" adlı irihəcmli əsərində alimin nəqşibəndiyyə təriqətinin xəlvətiyyə qoluna mənsub olması barədə ətraflı məlumat vermişdir (12, s.18). Həmin məlumat XVII əsr Osmanlı müəllifi Katib Çələbi tərəfindən təsdiq olunmuşdur. Topqapı sarayı Sultan III Əhməd kitabxanasında Nemətullah Naxçıvaninin öz əli ilə yazdığı "Qurani-Kərim"in bütün ayələrini sufizm baxımından şərh edən "Əl-Fəvatihül-İlahiyyə vəl-Məfatihül-Qeybiyyə" adlı təfsiri indi də saxlanılmaqdadır. Əsər 1907 və 1908-ci illərdə Sultan II Əbdülhəmidin göstərişi ilə nəşr olunmuşdur. Türkiyəli alim Ali İhsan Türcan bu əsəri üç cilddə 2013-2016-cı illərdə Kayseri şəhərində "Naxçıvani təfsiri" adı ilə nəşr etdirmişdir (12, s.18).

2019-cu ilin martında Türkiyənin Naxçıvandakı baş konsulu Mehmet Emin Kıraz AMEA-nın Naxçıvan Bölməsində olmuş, Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan 12 əlyazma nüsxəsinin elektron variantını bölməyə təqdim etmişdir. Bölmənin sədri, akad. İ.Hacıyevin məlumatına əsasən alimin "Əl-Fəvatihul-ilahiyyə vəl məfatihul-qeybiyyə əl-muzihatu li`l-kəlimi`l-Qur`aniyyə və`l-hukəmi`l-Furkaniyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) üçcildlik əsərinin birinci cildi Türkiyə türkcəsindən Azərbaycan dilinə tərcümə olunaraq çap olunmuş, ikinci və üçüncü cildlər üzərində iş gedir. Eyni zamanda "Hidayətül-ixvan" kitabı tərcümə olunaraq çapa hazırlanmışdır (6, s. 5). 2018-ci ildə AMEA-nın Naxçıvan Bölməsində "Baba Nemətullah Naxçıvani və orta əsrlər İslam mədəniyyəti" və 2019-cu ildə "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzularında konfransların keçirilməsi alimin yaradıcılığı və irsinə verilən yüksək qiyməti bir daha təsdiq edir. Nemətullah Naxçıvaninin dövrü, yaradıcılığı, fəlsəfəsi, dünya mədəniyyətinə verdiyi töhfələr və s. ilə bağlı kompleks tədbirlər planının hazırlanması məqsədi ilə verilən "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 2018-ci il 29 oktyabr tarixli sərəncamın rolu olduqca diqqətəlayiqdir.

Beləliklə, məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi Azərbaycan və Türkiyə elm tarixində mühüm yer tutan Nemətullah Naxçıvani irsinin öyrənilməsi müasir dövrdə orta əsrlər Azərbaycan mənbələrinin öyrənilməsi və tədqiqi baxımından böyük əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Abuzərov N. Azərbaycanlı hədis alimləri // Azərbaycanda ənənəvi din, Bakı: Elm və təhsil, 2014, s. 62-81.

2. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). I c. Bakı: Çıraq, 2007, 720 s.

3. Azərbaycan tarixi. Yeddi cilddə. III c. (XIII-XVIII əsrlər), Bakı: Elm, 1999, 584 s.

4. Babayev Y.M. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), Bakı: Elm və təhsil, 2018, 760 s.

5. Baba Nemətullah Naxçıvani və orta əsrlər İslam mədəniyyəti // Mədəniyyət, 2018, 21 sentyabr, s.12.

6. Hacı Tofiq. Nemətullah Naxçıvani irsi tədqiq olunur // Azad Azərbaycan. – 2019. 12 mart, s. 5.

7. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar, Bakı: Elm, 2001, 280 s.

8. İbrahimov S. Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərinin araşdırılması, Naxçıvan: [s.n.), 2011, 201 s.

9. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı: APİ nəşriyyatı, 1958. – 210 s.

10. İlyasov R. Quran elmləri və Azərbaycan //Azərbaycanda ənənəvi din. Bakı: Elm və təhsil, 2014. – s. 47-61.

11. Qasımov R. Türk – islam alimi Baba Nemətullah Naxçıvani və orta əsrlər Naxçıvan mühiti // 525-ci qəzet. – 2018. – 9 may. – S. 6.

12. Quliyev Ə. Nemətullah Naxçıvani və Anadolu elləri // 525-ci qəzet. – 2018. – 15 dekabr. – S. 18.

13. Nəcəf Ə. "Gizlənən dərviş" – Baba Nemətullah Naxçıvani // Xalq qəzeti. – 2013. – 13 noyabr. – S. 11

14. Onullahi S.M. Təbrizin maarif və məktəb tarixindən (XIV-XV əsrlər) //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1976, № 4, s. 31-39.

15. Rəhimov N. Azərbaycanın din alimləri. Bakı: Nurlar, 2014. – 216 s.

16. Rzayev M. H. Fəlsəfə tarixi. Bakı: MBM, 2015. – 534 s.

17. Səfərli F. Azərbaycanda Orta əsr təhsil və elm mərkəzləri – mədrəsələr // Dövlət və Din. – yanvar- fevral. – 2011. - № 1. – S. 13-19.

18. Səfərli H.F.Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. Bakı: Elm, 2003. – 392 s.

19. Səfərli F. Toponimlər Orta əsrlərdə Naxçıvanda sufi təriqətlərinin fəaliyyət göstərməsini təsdiq edən qaynaq kimi //Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin "Xəbərlər"i, 2010, № 3, s. 27-33.

20. Səfərli F., Rzayev M. Orta əsr təfsir elminin görkəmli nümayəndəsi // Dövlət və Din. – noyabr – dekabr. – 2009. - № 6. – S.209-217.

21. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.

А.А.Мехтиева

Роль наследия Нематулла Нахичевани
в изучении средневекового периода Азербайджана
Резюме

Азербайджан вошел в историю человечества не только своими природными ресурсами, выгодным геостратегическим положением и важной ролью на исторической арене, но и известными историческими деятелями, учеными и деятелями культуры. Азербайджанцы, добившиеся больших успехов в различных областях науки, так же добились значительных успехов в развитии философских и религиозных мировоззрений. Средневековые мыслители сыграли важную роль в достижении этих успехов. Изучение жизни и творчества Нематуллаха Нахичевани, великого ученого и философа своего времени, отличавшегося своим вкладом и новаторством в науке, следует считать бесценным источником в изучении исторических событий, наряду с философией, религией и другими областями. С этой точки зрения изучение данного выдающегося ученого и его богатого наследия, являющегося живым свидетелем истории, привлекает внимание своей актуальностью во все исторические периоды.

A.A.Mehdiyeva

The role of investigation of Nematullah Nakhchivany heritage
in research of period of middle ages of Azerbaijan
Summary

Azerbaijan became the history of world civilization not only with its history of natural resources, convenient geostrategic position and important part in historical scene, at the same time

with its well-known historical persons, representatives of science and culture. The Azeri men gained the great achievements in different spheres of science got the important improvements in process of development of philisophic and religious world outlooks. The thinkers of Middle Ages took the important part in gaining of these achievements. The investigation of life and creative work of Nematullah Nakhchivany, who was the great scientist, philosopher of his period, differred with his contribution and discoveries in science, must be considered as the valuable source not only in research of philosophy, religion and other spheres, also the historical events of his period. From this point of view, the investigation of scientist, who was the real witness of the history and his rich heritage attract the attention with its actuality in all historical periods.

Rəyçi: prof. N.C.Mehdiyeva

Redaksiyaya daxil olub: 11.06.2022

N.C.MEHDİYEVA
tarix üzrə elmlər doktoru, professor
e-mail: nisbetmehdiyeva@mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

ƏHMƏD ZƏKİ VALİDİ TOĞAN VƏ AZƏRBAYCAN

Açar sözlər: *Başqırdıstan, dövlət xadimi, alim, Azərbaycan, tədqiqatlar*
Ключевые слова: *Башкирия, политический деятель, ученый, Азербайджан, исследования*
Key words: *Bashkortostan, statesman, scholar, Azerbaijan, investigations*

Türk xalqları tarixinin hər bir sahəsinin araşdırılması özünəməxsusluğu və mahiyyəti etibarı ilə seçilir. Bu xalqların tarixi olduqca zəngin və bənzərsiz olmuşdur. Onların dövlətçilik ənənələri, yetişdirdiyi şəxsiyyətlər, dövlət xadimləri, siyasət insanları, ictimai-siyasi həyatda apardıqları mübarizələri heç bir xalqın təcrübəsinə oxşamamışdır. Bu xalqlar özünəxas inkişaf yolu keçmişdir. Həmişə azadlıq uğrunda mübarizə tarixinə sadiq olmuş, heç nədən çəkinmədən öz obyektiv işlərindən dönməmişdir. Türk xalqları haqq yolunu seçdiyi üçün son nəticədə bu, uğurlu və məqsədyönlü şəkildə özünü əks etdirmişdir. Dünya mədəniyyəti xəzinəsinə öz töhfələrini verən türklər həmin işə sadiq qalaraq sivilizasiyanın inkişafında müəyyən nailiyyətlər əldə etməyə müvəffəq olmuşlar. Belə şəxsiyyətlərdən biri başqırd Zəki Validi Toğan idi. O, öz yaradıcılıq fəaliyyətini türk xalqları, o cümlədən başqırd xalqının milli azadlıq mübarizəsinə həsr etmişdir. Onun həyat kredosu öz dövləti və xalqını azad görmək idi. Z.V.Toğan dövlət xadimi və görkəmli alim olmuşdur. Olduqca istedadlı olan bu şəxs yalnız öz xalqı deyil, həm də digər türk xalqlarının tarixi ilə çox maraqlanmışdır. O, Azərbaycanda çox sevilir, yaradıcılığına böyük maraq göstərilir, yubileyləri keçirilir, auditoriyalarda bu böyük insan haqqında tələbələrə məlumat verilir, məqalə və əsərlərdə onun siyasi və elmi fəaliyyəti işıqlandırılır. İlk təhsilini Başqırdıstanda almış, Vyanada təhsilini davam etdirmiş, daha sonra burada "İbn Fədlanın şimal bulqarları, türklər və xəzərlərin ölkəsinə səyahəti" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Bu alimin yaradıcılığı kütləvi informasiya vasitələrində öz əksini tapmış, xalqımıza onun şəxsiyyəti və keçdiyi yol haqqında məlumat verilmişdir. Türk xalqlarının bu şəxsiyyəti həmişə respublika ziyalılarının diqqət mərkəzində olmuşdur. Əfsuslar olsun ki, onun bəzi sənədlərindən SSRİ dövründə Azərbaycanda istifadə olunmasına imkan verilməmişdir (5, s. 14-15).

1917-ci ilin oktyabr hadisələrinin təsiri altında noyabr ayının 15-də Orenburqda keçirilən yığıncaqda Başqırd Mərkəzi Şurası Başqırdıstanın muxtariyyətini elan etmişdir. Dekabr ayında III Başqırd qurultayı toplanmışdır. Burada başqırdların ali hakimiyyət orqanı kimi ilk Başqırd Xalq Məclisi təşkil edilərək onun daxilindən Mərkəzi Başqırd Milli Şurası və ilk Başqırd Milli hökuməti seçilmişdir. Hökumətin sədri vəzifəsi Manatova, sədrin müavini isə Z.V.Toğana tapşırılmışdır. Belə bir şəraitdə yeni bolşevik hökuməti qurultayın qəbul etdiyi qərarlardan sonra yaranmış şəraiti müzakirə etmək üçün başqırd liderlərini mərkəzə dəvət etmişdir. Danışıqlar zamanı bolşevik rəhbərliyi yalnız sovet sosialist quruluşlu muxtariyyəti tanıyacağını bildirmişdir. Lakin Z.V.Toğanın təkidi ilə bu təklif başqırdlar tərəfindən rədd edilmişdir. Yanvarın sonunda bolşeviklər Orenburqu almışlar. Orenburqda bolşeviklərin nəzarəti altında Orenburq Müsəlman Hərbi-İnqilab Komitəsi təşkil edilmişdir. 1917-ci il fevralın 16-da Hərbi-İnqilab Komitəsinin qərarı ilə Başqırd Mərkəzi Şurasının

rəhbərləri Z.Validi, Vaqapov, Adiqamov və Altbayev həbs olunmuşlar. Həbsdən çıxandan sonra 1918-ci il yanvar ayının 27-də Z.Validinin rəhbərliyi ilə qurulan yeni Başqırd Hökuməti Müstəqil Başqırd Demokratik Respublikasının təşkil edilməsi üçün hazırlıq tədbirlərinə başladığını bəyan etmişdir. Z.V.Toğan 1920-ci ildə sovetlərin siyasətindən narazı olaraq gözlənilən repressiyalardan yaxa qurtarmaq üçün Türküstana getməli olmuşdur (3, s. 70-71, 75). Görünür, Z.V.Toğan da M.Ə.Rəsulzadə kimi yeni hakimiyyətin mahiyyətini zamanında anladığından bu qərarı qəbul etmişdir. Türküstan Milli Şurası yaradıldıqdan sonra bolşevik rejiminə qarşı mübarizə başlanmışdır (5, s. 14-15).

V.İ.Leninə ünvanladığı məktubda Z.Validi Toğan haqlı olaraq sovet hakimiyyəti tərəfindən türk xalqlarının hüquqlarının açıq-açığına tapdandığını qeyd edərək yazmışdır: "Rusiya Kommunist Partiyasına Rusiyadan çox uzaqlarda yerləşən Asiya və Afrika ölkələrindəki xalqların xilasından danışması daha yaxşıdır" (4, s. 45).

1925-ci ildə Atatürkün göstərişi ilə Berlində siyasi mühacir kimi müvəqqəti sığınacaq tapan Z.Validiyə Türkiyə vətəndaşlığı verilmişdir. O, maarif nazirinin müşaviri təyin edilmiş, eyni zamanda İstanbul Universitetində Türkiyə tarixindən mühazirələr oxumağa başlamışdır. Mühacirətdəki Türküstan Milli hərəkatının liderlərindən biri kimi tanınmış, əqidə yoldaşları ilə birlikdə hərəkatın bir sıra nəşrlərinin əsasını qoymuşdur. Özünün də bir neçə əsəri nəşr olunmuşdur. İstanbulda dünya şərqşünaslarının XXI Beynəlxalq konqresi keçirilmişdir. Burada o, yeni elmi mərkəz – İslam Araşdırmaları İnstitutu yaratmış və ilk direktoru olmuşdur (5, s. 14-15).

Z.V.Toğan Vyana Universitetinin yetirməsi olsa da, əslində, o V.V.Bartold məktəbinin nümayəndəsidir. Z.Validinin yetirmələrindən olan, tanınmış türk tədqiqatçısı Emel Esin yazılarının birində ustadının gənclik illəri haqqında qeyd etmişdir: "Zəki Validinin Rusiya Arxeoloji Cəmiyyətinin "Qeydlər" adlı dərgisində çıxan məqalələri V.V.Bartoldun diqqətini çəkmişdi. V.V.Bartold gənc başqırd alimini Petroqrada dəvət etmişdi. Beləcə, Z.Validi Rusiya Arxeoloji və Coğrafiya Cəmiyyətinin və Radlov Dərnəyinin toplantılarında iştirak etməyə və V.V.Bartoldla çalışmağa başlamışdı. V.V.Bartoldun Türküstan haqqındakı əsərlərindən basılmaqda olanların təshihinə Z.Validi baxmışdır. V.V.Bartold da Z.Validinin hazırladığı əsərlər üçün Rusiya arxivlərindən istifadə izni alınmasında ona yardım etmişdir". Rusiya türkologiya tarixinin qızıl səhifələri isə çoxlarının da etiraf etdiyi kimi, V.V.Bartoldla başlayıb, V.F.Minorski ilə davam edir və Zəki Validi Toğanla tamamlanır" (7, s. 5).

Azərbaycanda Z.V.Toğanla bağlı müxtəlif tədqiqatçılar 90-cı illərdən başlayaraq araşdırmalar aparmışlar. Onlardan Mirzə Ənsərli, Bəşarət Bəşirova, Tofiq Nəcəfli, İsfəndiyar Vahabzadə, Aydın Mədətoğlu və Vaqif Piriyevi göstərmək mümkündür. Onun bəzi əsərləri Azərbaycan dilinə tərcümə edilmiş, həyatı, ictimai-siyasi və elmi fəaliyyəti ilə bağlı məqalələr yazılmış, müxtəlif qəzet və jurnallarda çap edilmişdir. M.Ənsərli 1998-ci ildə 56 səhifədən ibarət "Prof. Dr. Əhməd Zəki Validi Toğan" haqqında kitabça çap etdirmişdir. Sonra isə M.Ənsərli və B.Bəşirova Z.V.Toğanın "Ümumtürk tarixinə giriş" əsərini Azərbaycan dilində nəşrə hazırlamışlar. M.Ənsərli və T.Nəcəfli Z.V.Toğanın "Azərbaycan" adlı məqaləsini Azərbaycan dilində 2007-ci ildə çap etdirmişlər. T.Nəcəfli "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" adlı namizədlik dissertasiyasını yazan zaman Z.V.Toğanın əsərlərindən istifadə etmişdir. AMEA-nın "Elmi Araşdırmalar" və "Xəbərlər"ində M.Ənsərlinin 2 məqaləsi – "Professor Əhməd Zəki Validi Toğanın əsərlərində Azərbaycanın qədim tarixinin bəzi məsələləri haqqında" və "Əhməd Zəki Validi Toğanın əsərlərində türk və monqol fəthlərinin dünya tarixində əhəmiyyətinə dair irəli sürülən fikirlər" adlı məqalələri nəşr edilmişdir. 1997-ci ildə M.Ənsərli və İ.Vahabzadə "Mühacirət tarixindən yarpaqlar" adlı publisistik əsər çap etdirmişlər. Burada Z.V.Toğanla yanaşı bəzi mühacirlər haqqında da məlumat verilmişdir. Türkoloq-tədqiqatçı A.Mədətoğlu 2004-cü ildə "Milliyyət", 2007-ci ildə isə "Türküstan" qəzetlərində "Böyük Türk Mücahidi Əhməd Zəki Validi Toğan" adlı məqalələr çap etdirmişdir. Bu məqalələrdə prof. Z.V.Toğanın siyasi fəaliyyəti öz əksini

tapmışdır. V.Piriyev Z.V.Toğanın 1928-1931-ci illərdə İstanbul Universitetində oxuduğu 4 mühazirənin Türkiyədə nəşr olunmuş variantını Azərbaycan dilində çap etdirmişdir. Tədqiqatçı V.Piriyev Z.V.Toğanın "Azərbaycanın tarixi coğrafiyası" işinə ön söz yazmışdır. Bu əsərdə müəllif Dərbənd, Bərdə, Quba, Şabran, Şamaxı, Bakı, Ərəş, Şəki və Zaqatala toponimləri, onların mənası və tarixi haqqında məlumat vermişdir (2, s. 89, 90, 91, 92).

Müasir türk tarixşünaslığının banilərindən biri sayılan görkəmli başqırd professoru Z.V.Toğanın 2010-cu ildə anadan olmasının 120 illiyi qeyd olunmuşdur. Bu münasibətlə 2010-cu il TÜRKSOY tərəfindən Z.V.Toğan ili elan olunmuş və təşkilata üzv olan ölkələrdə onunla bağlı bir sıra tədbirlər keçirilmişdir. Bu tədbirlər çərçivəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında alimin yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın iştirakçıları Azərbaycan Milli Kitabxanası, TÜRKSOY, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu olmuşdur.

Milli Kitabxanada Z.V.Toğanın yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans

Konfransdan öncə Milli Kitabxanada "Əhməd Zəki Validi Toğan – 120" adlı kitab sərgisi açılmışdır. Milli Kitabxanasının direktoru Kərim Tahirov Z.V.Toğanın 120 illiyinə həsr olunan bu konfransın kitabxanada keçirilməsinin böyük hadisə olduğunu vurğulamışdır. Professor Gövhər Baxşəliyeva "Prof. Dr. Əhməd Zəki Validi Toğanın həyatı və fəaliyyəti" mövzusunda məruzə etmişdir. Z.Validi Toğanın keçdiyi həyat yoluna nəzər salan G.Baxşəliyeva onun Başqırdıstanda ilk və orta təhsili, Kazandan Vyanayadək yiyələndiyi ali təhsili, elmi və pedaqoji fəaliyyəti, Milli Başqırd hökumətində tutduğu yüksək vəzifələr və s. haqqında məlumat vermişdir. 1925-ci ildə Türkiyəyə gələn Z.V.Toğanın yaşadığı dövrü iki hissəyə bölmək mümkün olduğunu qeyd edən məruzəçi (1925-1932; 1939-1970) onun bu illərdəki elmi yaradıcılığı barədə ətraflı danışmışdır. Z.V.Toğanın "Türk metodologiyası", "Ümumtürk tarixinə giriş", "Tarixdə üsul", "Türkün müqəddəratı", "Quran və türklər", "Oğuz dastanı" və digər kitablarından söz açan G.Baxşəliyeva onun elmi fəaliyyəti zamanı Azərbaycanın tarixinə çox böyük əhəmiyyət verdiyini qeyd etmişdir: "Zəki Validi Azərbaycan türklərinin tarixi, etnoqrafiyası, ictimai-siyasi, iqtisadi və mədəni vəziyyətinə dair çoxlu sayda elmi məqalə yazıb müxtəlif dövrlərdə ayrı-ayrı dillərdə buraxılan elmi-kütləvi jurnal və ensiklopediyalarda çap etdirmişdir. O, 1927-ci ildə "Azərbaycan etnoqrafiyasına dair" adlı məşhur tədqiqatını işləyib nəşr etdirmişdir. Z.Validinin "Ümumtürk tarixinə giriş" əsərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünə geniş yer verilmişdir. O, bu əsərində Azərbaycan tarixinin müxtəlif məsələlərini işıqlandırmağa cəhd göstərmiş və buna müəyyən mənada nail ola bilmişdir".

Türkiyə Milli Kitabxanasının direktoru Tuncel Acar "Əhməd Zəki Validi Toğanın həyatı və fikri mücadiləsi" mövzusunda məruzə etmişdir. O, görkəmli siyasətçi, dövlət xadimi olan Z.V.Toğanın mücadiləsinin bu gün siyasətçilərə bir örnək olduğunu dilə gətirmişdir. Onun tarixdə qoyduğu izlərin əbədiliyini, tarix elmində yaratdığı əsərlərin mükəmməlliyini qeyd edən T.Acar Toğanın türkə aid bütün dəyərləri öyrənmək istəyən alim olduğunu söyləmişdir.

Z.V.Toğanın qızı İsenbikə Toğan "Zəki Validi Toğanın tarixçiliyində coğrafiyanın rolu" mövzusunda çıxış etmişdir. İ.Toğan atasının əsrin əvvəllərində Bakıda olmasının onun üçün çox əhəmiyyəti olduğunu və həyatının qərarlarını o vaxt məhz Bakıda verdiyini bildirmişdir. Atasının coğrafiya elminə verdiyi önəmi onun Azərbaycana dair çalışmaları üzərində görmək mümkün olduğunu qeyd edən İsenbikə görkəmli alimin Azərbaycan coğrafiyası haqqında geniş məqaləsindən ətraflı söz açmışdır. Z.V.Toğan bu məqalədə Bakı və Azərbaycanın digər şəhərləri haqqında məlumat vermişdir. O, 1932-ci ildə çap etdirdiyi məqalədə həmin vaxtlar İçərişəhərdə 8 məscidin olduğunu qeyd etmişdir. Məqalədə müəllif bölgələrdən keçən yolları təsbit etmiş və karvan yollarının ticarətdə malik olduğu əhəmiyyətdən danışmışdır. İ.Toğan atasının coğrafiyaya aid əsərlərində yararlandığı qaynaqlardan da söz açmışdır.

Ə.Z.Validi adına Başqırdıstan Respublikası Milli Kitabxanasının direktoru Azad İbrahimov "Ə.Z.Validi adına Başqırdıstan Respublikası Milli Kitabxanası başqırd xalqının mənəvi-mədəni irsinin qoruyucu mərkəzi kimi" adlı məruzəsində bu müəssisənin dünyada başqırdlar haqqında kitabların toplandığı yeganə kitabxana olduğunu qeyd etmişdir. O, rəhbərlik etdiyi kitabxananın başqırd muxtariyyətinin adını daşıdığından fəxr duyduğunu bildirmişdir. Milli Kitabxananın fondunda Ə.Z.Validinin saxlanılan əsərlərindən söz açan A.İbrahimov, onun bu sırada Azərbaycana aid yazılarının xüsusi yeri olduğunu, ümumiyyətlə, əsərlərində türk əhalisinin yaşadığı bütün ərazilərin coğrafiyasını əhatə edə bildiyini söyləmişdir.

TÜRKSOY-un baş katibinin müavini Firat Pustas bu təşkilatın 2010-cu ili Toğan ili elan etmək qərarını ötən il məhz Bakıda verdiyini bildirmişdir. O, bundan öncə İstanbulda təşkil edilmiş simpoziumu və Qazaxıstanda keçirilmiş toplantını xatırlamış və Bakıdakı tədbirin hazırlıq prosesindən söz açmışdır. Təmsil etdiyi təşkilatın məqsədinin bütün dünya türklərinin mədəni xəzinəsini qorumaq olduğunu deyən natiq Z.V.Toğan yaradıcılığının məhz belə qiymətli xəzinə olduğunu qeyd etmişdir.

İ.Qaspıralı adına Krım Tatar Kitabxanasının direktoru Aydar Emirov "Zəki Validi Toğan və Cəfər Seydaməd Kırımər. İki lider – iki tale: parallel kəsişmə" mövzusunda çıxış etmişdir. O, Krım tatarlarının azadlıq mübarizəsinin lideri olan Cəfər Seydaməd Kırımərlə Əhməd Zəki Validi Toğanın həyat və fəaliyyətində oxşar cəhətlərdən söz açmışdır. A.Emirov hər iki liderin təxminən eyni vaxtda kəndli ailəsində dünyaya göz açdığını, hər ikisinin İ.Qaspıralının "Tərcüman" qəzetindən təsirləndiyini qeyd etmişdir. Hər ikisi xalqlarının ruslaşdırılmasına mane olmağa çalışmış və qadın hüquqlarına eyni münasibət bəsləmişdir. Hər ikisi ömrünün sonunu Türkiyədə keçirmişdir (6, s. 10).

Elmin inkişafı hadisələr və tarixi faktların yenidən dəyərləndirilməsinə əsas verir. Z.V.Toğanın "Ümumtürk tarixinə giriş" kitabı türk tarixşünaslığının müqəddəs kitabı hesab oluna bilər və kitab elə elmi ucalıqda, elə vüsətlə qələmə alınıb ki, oradakı hər hansı tarixi hörgünün, ilmələrin yerini dəyişməyə, ona yenidən qələm çalmağa heç kəsin nə cürəti, nə də elmi təfəkkürü müsaidə edə bilər. Z.V.Toğan Türküstanın və Turan aləminin tarix səhifələrini əzbər bildiyi kimi, buradakı boyalar və böyük nəsil şəcərələrinin yeddi arxadan dönənlərini də tanıyırdı. Z.V.Toğan sanki tarixşünaslığın göydən gələn kitabını yazıya köçürmüşdür. "Ümumtürk tarixinə giriş" 3000 illik bir keçmişdən üzü bəriyə qədər tarixi dönəmləri ehtiva edir və 1905-ci ildə azərbaycanlı Əli bəy Hüseynzadənin səsləndirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?" sualına ən dolğun cavabı yalnız Z.V.Toğanın bu kitabı vermişdir (7, s. 5).

Z.V.Toğan "Xatirələr"ində aşağıdakı fikri vurğalamağı lüzum görmüşdü: "Ermənilərə Baqrat dövründəki böyük Ermənistanı əhya etmək xülyası ilə azərbaycanlılarla amansız müca-

diləyə girmək və mədəni dünyanı vəlvələyə salmaq əvəzinə öz dil və dinləri əsasında milli kültürlərini inkişaf etdirməyi tövsiyə etmiş və bu yolla Qafqaz müsəlmanlarının sevgisini qazanmışdı". Bu sitat Qafqazda erməni millətçilərin körüklədikləri münaqişəyə Z.V.Toğanın münasibətini aşkara çıxarmaq baxımından da səciyyəvi sayılmalıdır (5, s. 14 – 15). Bunu 2020-ci ildə baş vermiş 44 günlük müharibə də sübut etmişdir. Azərbaycan heç də ermənilərə qarşı mübarizəyə başlamamış, döyüşlər bizim ərazimizdə getmişdir. Z.V.Toğan əsrin əvvəlində ermənilərin azərbaycanlılara qarşı haqsız mübarizəsinin mahiyyətini açıq şəkildə əks etdirmişdir.

Müasir dövrdə Azərbaycan Respublikasının Başqırdıstanla elmi əlaqələri müxtəlif aspektlərdə davam etdirilir. Belə ki, Bakı Dövlət Universitetində Başqırdıstan Dövlət Pedaqoji Universiteti Sosial-humanitar fakültəsinin dekan müavini, dosent Qilmiyanova Kitabxanaçılıq-informasiya fakültəsində I kurs tələbələrinə "Kitabxana işinin tarixi" fənni çərçivəsində "Müasir kitabxana mədəniyyəti" mövzusunda mühazirə oxumuşdur. Tələbələr mühazirəni maraqla qarşılamış və qonağa suallar vermişlər.

Qilmiyanova Bakı Dövlət Universitetində

Qilmiyanova fakültədə İKT işinə həsr edilmiş elmi konfransda çıxış etmişdir. Respublikanın qabaqcıl kitabxana-informasiya müəssisələrinə gedişlər də təşkil edilmişdir. Təcrübə mübadiləsi universitetlərarası memorandum əsasında həyata keçirilmişdir. Həmin razılaşmaya görə, Kitabxanaşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru P.Kazımi 2020-ci ilin may ayında Başqırdıstan Dövlət Pedaqoji Universitetində təcrübə mübadiləsində olmuşdur (1, s. 2). Bu iki türk respublikası universitetlərinin elmi əlaqələri bu gün də maraq doğurur.

Azərbaycan türk respublikaları və Rusiya Federasiyasının tərkibində olan türk subyektləri ilə əlaqələrin genişlənməsinə xüsusi diqqət yetirir.

Ədəbiyyat

1. Başqırdıstan Dövlət Pedaqoji Universiteti Sosial-humanitar fakültəsinin dekan müavini Kitabxanaçılıq-informasiya fakültəsində. Bizim söz qəzeti, 2013, 25 dekabr, s. 2.

2. Ənsərli Mirzə. Professor Əhməd Zəki Validi Toğanın həyatı və elmi fəaliyyətinin Azərbaycanda öyrənilməsi // Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı: MKM, 2010, s. 88-92.

3. Göyüşov Altay. Rusiyada monarxiyanın süqutundan SSRİ-nin yaranmasına qədər olan dövrdə müsəlman-türk xalqlarının milli-azadlıq mübarizəsi (1917-1921). Bakı: EL – ALliance, 2002, 120 s.

4. Koygeldiyev Mambet. "Alaş Orda" Sovet hakimiyyətinə alternativ siyasi qurum kimi // Alaş Orda: Qazax dövlətçiliyinin tarixində əhəmiyyəti. Bakı: Şərq-Qərb, 2018, s. 27-49.

5. Quliyev Vilayət. Zəki Validi Toğanın "Xatirələr"ində Azərbaycan. 525-ci qəzet, 2014, 6 dekabr, s. 14-15.

6. Məmmədov Vüqar. Türk milləti üçün ədəbi qürur qaynağı. Türküstan qəzeti, 2010, 9-15 may, s. 10.

7. Turan Azər. Zəki Validi Toğan. Ədəbiyyat qəzeti, 2013, 1 mart, s. 5.

Н.Дж.Мехтиева

Ахмед Зеки Валиди Тоган и Азербайджан

Резюме

Государственный деятель, человек, который в нужный момент умел реализовать политику, ученый и выдающийся представитель башкирского народа Ахмед Зеки Валиди Тоган также был великим сыном тюркского мира. Его жизнь и творчество, своеобразные черты имеют большое значение. З.В.Тоган, который еще в раннем возрасте получил прекрасное образование, учился в Европе, защитил докторскую диссертацию и получил звание профессора, также в сложившейся ситуации примкнул к национально – освободительному движению и старался делать выводы из событий, которые происходили в России. Его жизнь была тяжелой. Он со временем превратился в одного из лидеров национально-освободительного движения в Башкирии, где родился и вырос. В творчестве З.В.Тогана нашли свое отражение его родина и дальнейшая судьба башкирского народа. Одновременно ученый в своих трудах воспел почти все тюркские государства. Ученый и политический деятель З.В.Тоган наряду со всеми тюркскими народами, питал большое уважение и любовь также к азербайджанскому народу. В начале XX века он дал ценную информацию о Баку и других городах Азербайджана. После распада Советского Союза память З.В.Тогана была отмечена в его родине Башкирии, а также в других государствах, членах ТЮРКСОЙ. Этот великий сын тюркского народа достойный внимания своей бесценной деятельностью.

N.J.Mehdiyeva

Ahmed Zeki Validi Togan and Azerbaijan

Summary

The statesman, person, who was able to realize the policy in necessary moment, the scholar and well – known man of Bashkir people Ahmed Zeki Validi Togan was the great son of the Turkish world too. His life and creative work, characteristic features are very important. Z.V.Togan who was perfectly educated in childhood, also got the European education, became the doctor, then the professor, at the same time applied to the movement of national liberation in current situation and drew a conclusion from the events occurred in Russia. His life was very hard. He became one of the leaders of the movement of national liberation in Bashkortostan where he was born and grew up. His country and future of Bashkir people had been reflected in his works. At the same time the scholar wrote in his works about nearly all of Turkish countries. The scholar and statesman Z.V.Togan applied with best respect and love not only to all Turkish peoples, also Azerbaijani one. In the beginning of XXth century he gave the valuable information of Baku and other cities of Azerbaijan. After the disintegration of Soviet Union, the memory of Z.V.Togan had been celebrated in his country Bashkortostan, also by other states members of TURKSOY. This great son of the Turkish people is worthy of interest with his perfect activity.

Rəyçi: dos. A.A.Mehdiyeva

Redaksiyaya daxil olub: 13.05.2022

R.İ.MƏMMƏDOV
magistrant
e-mail: mammadov.ramil.2001@atmu.edu.az

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

QUBA RAYONUNDA MÖVCUD OLAN AZSAYLI ETNİK QRUPLAR

Açar sözlər: *etnik qruplar, Qrız, Xınalıq, Buduq, Əlik, Qırmızı Qəsəbə*
Ключевые слова*: этносы, кыргызы, хыналыг, будуг, алик, красная слобода.*
Key words*: ethnic groups, Qriz, Khinalig, Budug, Alikli, Red Settlement*

Azərbaycan təkcə təbii gözəlliyi, tarixi abidələri ilə deyil həm də, respublika ərazisində yaşayan etnik qrupların çoxluğu ilə digər ölkələrdən seçilir. Bu etnik müxtəlifliyin illərdir sülh və əmin amanlıq içində yaşaması və dostcasına qarşılıqlı əlaqəli şəkildə mövcudluğu ölkənin ədalətli idarə olunmasının nəticəsində mümkün olmuşdur. Bu etnik qruplar ölkə ərazisində qeyri bərabər paylanmış və bütün ölkə ərazisinə səpələnmişdir. Etnik qrupların çoxluğu bəzi regionlarda özünü daha çox göstərir. Bunun da əsas səbəbi tarixi proseslər – köçürülmə siyasətləri, müharibələr, sürgünlər və s.-dir. Məhz bu səbəbdən bəzi etnik qruplar pərakəndə şəkildə səpələnmiş, bəziləri isə sıx halda kompakt məskunlaşmışdırlar. Azərbaycan respublikası ümumiyyətlə, ərazisində yaşayan xalqların sayına görə çox zəngin ölkədir. Bu etnik zənginlik çaları özünü bəzi bölgələrdə, bəzi rayonlarda daha qabarıq şəkildə büruzə verir. belə ki, bəzi regionlarımızda etnik müxtəliflik daha çoxdur.

Azərbaycan əlverişli təbii-coğrafi mövqeyə malik olan bir ölkədir. Ərazisində yaşayan etnik birliklərin sayına görə Quba ölkə rayonları arasında Abşerondan sonra ikinci yerdədir. 2009-cu ildə keçirilmiş siyahıyaalınmaya əsasən əhalinin 79,2%-ni azərbaycanlılar, 9,1%-ni tatlar, 5,9%-ni ləzgilər, 1,8%-ni yəhudilər, 1,4%-ni xınalıqlılar, 1,4%-ni türklər, 0,5%-ni qrızlılar və 0,7%-ni digər millətlərin nümayəndələri təşkil edir. Bundan əlavə rayon ərazisində buduqlular, qrız etnosuna aid edilən hapıtlılar, ceklilər, əliklilər, yerguclülər kimi nadir etnik qruplar da yaşayır. Burada yaşayan hər bir azsaylı etnik qrupun özünəməxsus adət - ənənələri, dünyada heç bir dil ailəsinə aid olmayan dilləri vardır. Bu xalqların hər birinin fərqli dildə danışması buraya gələn tarixçiləri və turistləri təəccübləndirmişdir. (1, s.15)

Xınalıq Azərbaycanın qədim kəndidir. Kənd Quba şəhərindən yeni yolun kənarında bir saatlıq məsafədə yerləşir. Xınalıq öz mədəniyyətini və adət-ənənələrini, hətta öz dilini inkişaf etdirib. Kəndin 5000 ildən çox yaşı var. Əsrlər boyu bu kənd hündür dağlar və təhlükəli qayalarla sivilizasiyanın qalan hissəsindən ayrılıb. Təcrid nəticəsində kəndlilər heç bir başqa dil ailəsinə aid olmayan özünəməxsus dillərini, heç yerdə rast gəlinməyən adət və ənənələrini qoruyub saxlaya bilmişlər.

Kənddə 4 ailə birliyinə (nəsilə) bölünmüş 2000-ə yaxın əhali yaşayır. Hər nəslin öz qəbiristanlığı, xalça və geyim naxışları var. Xınalıq kəndliləri evlərini üst-üstə tikirlər. Ümumiyyətlə, onlar çoxmərtəbəli evə bənzəyir, burada bir evin damı onun üstündə tikilmiş evin həyətidir. Kənddə hər birinin təxminən 200-300 illik yaşı olan 360 daş ev var. (3)

Xınalıq sakinləri çox dindardırlar. Kənddən çox uzaqda müqəddəslərin qəbirləri, mağaralar, öyrənilməmiş arxeoloji abidələr kimi çoxlu müqəddəs yerlər var. Onların bəziləri hələ orta əsrlərdə tikilmişdir. Xüsusi tədqiqatçılar Xıdır Nəbi türbəsini, Şeyx Şəlbuza məscidini, Əbu Müslim məscidini (12-ci əsr) və Pirchomyard məscidini (1388) tapa bilərlər. Xınalıq Tarix-Diyarşünaslıq Muzeyində yerli mədəniyyət qorunub saxlanılır, burada ziyarətçilər ənənəvi həyatda istifadə olunan əşyalar və yerli kənd sakinlərinin tarixi və adət-ənənələri ilə bağlı kiçik eksponatlar tapa bilərlər. (7, s.135)

Qubanın təbii ekzotikliyi ilə seçilən destinasiyalarından biri də Qrız kəndidir. Qudyalçayın sahilində yerləşən Qrız kəndi dəniz səviyyəsindən 2000–2050 m hündürlükdə yerləşir. Kəndə getmək digər dağ kəndlərinə nisbətən daha çətindir. Bunun da əsas səbəbi dar kənd yollarıdır. Bu yollar xüsusilə də yağışlı və qarlı günlərdə daha çox təhlükəli olur. Çünki bura Azərbaycanın ən çox qar düşən ərazilərindəndir, həmçinin yağıntılı dövrlərdə kəndə gedən cığır daha sürüşkən olur. Qrız kəndinin ərtaf ərazilərində bir necə mağara, bulaq, çay və şəlalə var. (5, s.57)

Qubada turizmin inkişafı üçün geniş potensiala malik olan kəndlərdən biri də Əlik kəndidir. Bu kənd Yan silsilənin ətəyində, qudyalçayın sağ sahilində yerləşir. Bu kənd də xınalıqlılarda və qrızlarda olduğu kimi özünəməxsus dilə və adət ənənəyə malikdir. Strabonun əsərində deyilir ki, azərbaycan ərazisində 26 albaniya tayfası yaşayır və bu tayfaların hər birinin ayrıca dili və mədəniyyəti vardır. Güman edirəm ki, Qafqaz dil qrupuna aid olan bu etnik qruplar da həmin albaniya tayfalarındandır. Bəzi alimlərin fikrincə bu kəndin adı "dağlarda çuxur, çökəklik" mənasına gələn, qədim türk dillərində işlənən "alık" sözü ilə bağlıdır. Bu fikir kəndin coğrafi yerləşməsi iləvdə uyğunluq təşkil edir. (2, s.45)

Qubada ucqar dağ kəndlərində turizm potensialı daha yüksəkdir. Buradakı kəndlərin əksəriyyəti yüksək dağlıq ərazilərdə yerləşir. Bu kəndlərə misal olaraq Haput kəndini göstərmək olar. Bu kənd dəniz səviyyəsindən təxminin 2000 metrə yaxın yüksəklikdə, dağların qoynunda yerləşir. Haputlular da Xınalıqlılar kimi Şahdağ xalqalarına mənsubdur. Bu qrupa mənsub olan ikinci ən çoxsaylı xalq da elə Haputlulardır. Bu kəndin sakinləri əsasən köçəri maldarlıqla məşğuldur. Qış aylarında əhalinin bir qismi kənddən kənara, qışlaqlara gedirlər. Onların qışlaq əraziləri əsasən Hacıqabul və yaxınlıqdakı digər düzənlik rayonlarıdır. 2021 ci ilin qış köçündə Azərbaycan Dövlət Turizm Agentliyi də bu tərəkəmə xalqı köç zamanı müşaiət edərək bu barədə məlumat toplamışlar. Bunun əsas məqsədlərindən biri də Şahdağ xalqlarını və onların həyatını UNESCO-nun mədəni irs siyahısına salmaqdır. Yox olmaq təhlükəsi ilə qarşı-qarşıya olan bu etnik qruplar və onların mədəniyyəti sözsüz ki Azərbaycanın mədəni zənginliyinə, tolerantlığına və əsrarəngizliyinə sübutdur.

Quba - Xaçmaz regionunda yaşayan etnik qruplardan biri də Buduqlulardır. Buduqlular da Şahdağ xalqlarına aiddir. Qədim mənbələrdə verilən toponimik məlumatlara və etnoqrafik materiallara əasən onlar da erkən orta əsrlərdə Sasani hücumlarından qorunmaq üçün Qubanın hündür dağlıq ərazilərinə üz tutmuşdurlar. Buduqluların məskunlaşmaları ilə bağlı bu faktlara və yerli əhalinin danışdığı əhvalatlara əsasən bu nəticəyə gəlmək olar ki, onlar ilk öncə dağətəyi ərazidəki Bed (Bəd) kəndinin yanındakı meşədə yaşamışlar. bu toponimə həm də Musa Kalankatlının "Alban tarixi" əsərində də rast gəlirik. Bəzi mülahisələr görə Buduqluların əcdadları da məhz elə "Bed" adlanırmış. Eyniadlı mahal da mövcud olmuş və xınalıqlıların əcdadları "Qat" həmçinin Hapıtlıların əcdadları "Hər" tayfalarının yaxınlığında yerləşmişdir. Bu xalqlar hal hazırda da qonşu kəndlərdə yaşayırlar. Bu ərazidə yaşayan etnik birliklərin məskunlaşma tarixləri arasında müəyyən uyğunluqlar vardır. Bunlara əsasən deyə bilərik ki, Buduqlular da indiki Şəki-Zaqatala ərazisindən köçmüş Musa Kalankatlının kitabında bəhs etdiyi 26 Alban tayfasından biridir. Həmçinin onların əcdadlarının Bed mahalından gəldiyini və bu adı Qubada məskunlaşdıqları əraziyə də verklərini söyləyə bilərik. Buduqlular da Xınalıqlılar kimi bir neçə ailə qruplarına – nəsillərə bölünür. Hər nəslin özünəməxsus adət ənənələri, geyimləri və qəbiristanlıqları olur. Son zamanlarda Buduqlular əkinçilik üçün əlverişli torpaqların azlığı səbəbi ilə öz dədə-baba torpaqlarını tərt edərək daha əlverişli ərazilərə köçmüşlər. (6, s.78)

Quba rayonunda yaşayan xalqlardan biri də yəhudilərdir. Yəhudilərin Qubaya gəlişi Nadir şahın dövründə olmuşdur. O qubaya hücum edərkən özü ilə gətirdiyi Yəhudilər əvvəlcə Küpçal və Qələdüz kəndləri arasında yerləşdirilir. Burada təhlükədə olan yəhudlərin ağsaqqalları o vaxtki Quba xanı Hüseynəli xanın sarayına xahişə gəlirlər. Hüseynəli xan onların istəyini nəzərə alaraq onları bugünki "Qırmızı qəsəbə"-nin şimal hissəsində

yerləşdirir. Burada gecə hücumları, qəfil basqınlar olduğundan Fətəli xan 1765-ci ildə onları indiki qəsəbə ərazisinə köçürür. Fətəli xanın dəstəyi ilə altı gün ərzində buraya yerləşən Yəhudilər Fətəli xanın buraya gəlişi zamanı onun qarşısına duz-çörəklə çıxırlar. Hal hazırda həmin yerdə Yəhudilərin buraya 6 günə yerləşdirilməsiylə bağlı "Altı Günbəz Sinaqoqu" yerləşir. Bu qəsəbə "Qafqazın Yerussəlimi" adlanır. Burada yaşayan dağ Yahudiləri özlərini "cuğur" adlandırırlar və fars dilinə oxşayan ivrid dilində danışırlar. (4)

Ədəbiyyat

1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Qafqaz Albaniyasının etno-mədəni irsi" №2 məqalələr toplusu
2. Məclis Şəmsəddinov. "Şah dağın ziynət kəməri". Bakı, "Nasir" nəşriyyatı, 2002
3. Mədəniyyət qəzeti, "Dağların tacı – Xınalıq" , 4 sentyabr 2009.
4. Məhəmmədəli Qəribli "Azərbaycanda yəhudi icması" Bakı Xəbər qəzeti - 2021. - 3 mart. - № 40
5. Şıxbala Qrızlı (Süleymanov). "Qrızlar və Qrız dili" Bakı: 2002.
6. Vaqif Piriyev, Aydın Səlimzadə, Zavər Qafarov "Buduq və buduqlular" Bakı: 1994, Sabah nəşriyyatı
7. Yusif İsmayıl. "Bir nağıldı Xınalıq", Bakı: 1992, Gənclik nəşriyyatı,

Р.И.Мамедов

Этнические меньшинства в Губинском районе

Резюме

Азербайджан является одной из стран, выбранных на Кавказе по количеству этнических групп, проживающих на его территории. Каждый из редких этносов, проживающих здесь, имеет свой язык и традиции. К этническим меньшинствам Губы относятся евреи и шахдагцы. Эти народы проживают в компактных условиях в регионе. Народы Шахдага – это народы хыналыг, грыз, алик, хапут, будуг и ергудж, поселившиеся в высокогорных районах Шахдага. Каждый из этих народов проживает в одноименных деревнях.

R.I.Mammadov

Minority ethnic groups in Guba region

Summary

Azerbaijan is one of the countries selected in the Caucasus for the number of ethnic groups living in its territory. Each of the rare ethnic groups living here has its own language and traditions. Ethnic minorities in Guba include Jews and Shahdag peoples. These peoples live in compact conditions in the region. The peoples of Shahdag are the people of Khinalig, Gryz, Alik, Haput, Budug and Yerguj, who settled in the high mountainous areas of Shahdag. Each of these peoples lives in villages of the same name.

Rəyçi: s.e.f.d., dos. R.Z.Rəhimli

Redaksiyaya daxil olub: 31.05.2022

M.H.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: muslimnazarov@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MƏDƏNİYYƏTİN FƏLSƏFİ ƏSASLARININ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *mədəniyyət, mədəniyyət fəlsəfəsi, aksiologiya, ontologiya, qnoseologiya, antropologiya*
Ключевые слова: *культура, философия культуры, аксиология, онтология, эпистемология, антропология*
Key words: *culture, philosophy of culture, axiology, ontology, epistemology, anthropology*

Mədəniyyət cəmiyyətin fundamental hadisəsidir, çünki bəşəriyyət hələ də mədəniyyətin dağıdıcı sosial proseslərdən üstün olması hesabına yaşayır və inkişaf edir. O, subyektlərin layiqli insan varlığının tarixi inkişafı prosesində formalaşır və onların yaratdığı qiymətli sərvətləri ehtiva edir. Mədəniyyət insanlar tərəfindən dəyərlərin istehsalı və inkişafının humanistləşdirilmiş təcrübəsidir.

Mədəniyyət – ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusudur. (1)

Fəlsəfənin qlobal və ümumbəşəri formalarının mənşəyi haqqında danışarkən, ilk növbədə, mədəniyyətin fəlsəfi mahiyyətinə uyğun olaraq mədəniyyətin nə ilə müəyyən edildiyi, onun ümumi formalarla əlaqəsi və nəyi müəyyənləşdiyini başa düşmək lazımdır. Bütövlükdə mədəniyyət fəlsəfi fikrin obyektlərindən biridirsə, onun əsasları da fəlsəfənin predmetidir.

Mədəniyyətin əsaslarının nəzəri təsvirində fəlsəfi məzmun, təbii ki, mədəniyyətşünaslıqla sintez edilməlidir. Materialın düzgün sistemləşdirilməsi mədəniyyətin əsaslarını fəlsəfənin əsas bölmələrinə uyğun olaraq nəzəri fənn kimi strukturlaşdırmağa kömək edəcək və müvafiq olaraq mədəniyyətin aksioloji, ontoloji, qnoseoloji, fəlsəfi-antropoloji və sosial-fəlsəfi əsaslarından danışmaq olar. Mədəniyyətin fəlsəfi əsasları onun səbəb-nəticəsini ehtiva etdiyi üçün bu əsaslar onun şərhinin ümumi prinsiplərini təşkil edir. Lakin mədəniyyətin fəlsəfi baxımdan süniliyini nəzərə alsaq, onu izah etmək kifayət deyil, onun necə hasil olunduğunu da göstərmək lazımdır. Belə nəticəyə gəlmək olar ki, onun təfsir prinsipləri ya onun istehsalının və inkişafının rəhbər prinsipləridir, ya da onlarla sıx bağlıdır.

M.S.Kaqan hesab edir ki, fəlsəfədə "mədəniyyət onun həqiqi bütövlüyü, quruluşu, fəaliyyəti və spesifik varlıq formalarının inkişafı ilə dərk edilə bilər". (6, s.21) Kaqanın fikrincə, fəlsəfə sistemli tədqiqat metodologiyasına yiyələnmək və mədəniyyəti mürəkkəb sistem kimi nəzərdən keçirməklə bu məqsədə nail ola bilər.

Beləliklə, mədəniyyət fəlsəfəsinin predmetini bütövlükdə fəlsəfənin mahiyyətinə uyğun dərk etmək, mədəniyyətin əsaslarını şərh edərkən onun mahiyyətini nəzərə almaq lazımdır.

Diqqəti sırf fəlsəfi problemlərin əhəmiyyətli hissəsini cəlb etmək üçün fəlsəfənin bölmələrinə uyğun olaraq onun yekun əsaslarının nəzərdən keçirək:

Mədəniyyətin aksioloji əsasları. Dəyərlər insan davranışının tənzimləyicisi və onun fəaliyyətinin ali məqsədidir. Mədəniyyət aləmini təbiət aləmindən fərqləndirən dəyər mülkiyyətidir. Mədəniyyətin bu anlayışına dəyər (aksioloji) deyilir. (7)

Aksioloji yanaşmaya görə etnik və milli mədəniyyətlərin hər biri ümumbəşəri əhəmiyyət kəsb edən dəyərlər yaradır. Bu danılmaz fakt mədəniyyətlərin dialoqunda, bir etnik qrupun və ya xalqın nailiyyətləri başqalarına məlum olanda, böyük sosial birliklər tərəfindən

müsbət qarşılandıqda və onların sosial-mədəni inkişafında mühüm rol oynamağa başlayanda özünü büruzə verir.

Mədəniyyətin formalaşması proseslərindən biri insan fəaliyyətinin hərtərəfli qiymətləndirilməsidir. İnsanın ətraf mühiti, özünü, hərəkətlərini düzgün qiymətləndirməsi, davranış fəaliyyətinin mənəvi determinantı kimi qiymətləndirmək üçün bu hərəkətlər arasında mədəni dəyərlərin seçilməsini zəruri edir.

Mədəni obyektivliyin yaradılması və inkişafının məcburi komponenti ona dəyərli münasibətin formalaşdırılmasıdır. İnsan fəaliyyətinə və onun yaratdığı obyektlərə dəyərli münasibət onların mədəni dövriyyəyə cəlb edilməsi üçün zəruridir: bu cür fəaliyyətlər öyrədilir, belə obyektlər əzizlənir və çoxaldılır, onlara qiymət verilir və heyran olur, təhlil edilir və s. birini qəbul edir. Digər tərəfdən, başa düşmək lazımdır ki, qeyri-dəyərlərin, hətta daha çox anti-dəyərlərin qiymətləndirilməsi xəyali dəyərlər iyerarxiyasının qurulmasını və onun mahiyyət etibarı ilə qeyri-mədəni və ya anti-mədəni mədəniyyət kimi tərcüməsini tələb edir. (3, s.8)

Dəyərlərin istehsalı, müəyyən edilməsi, inkişafı, saxlanılması və çoxaldılması, habelə qiymətli mülkiyyət subyektlərinə faydalı təlimatların verilməsi mədəniyyətin əsas və dəyişməz keyfiyyətləridir.

Mədəniyyətin ontoloji əsasları. Mədəniyyətin varlığı (ontologiyası) onun daxili mahiyyətinin, mənasının hermenevtik tədqiqinə əsaslanaraq ən mürəkkəb sosial hadisə, onun bütün sferalarını, formalarını, istiqamətlərini, növlərini əhatə edən hərtərəfli tədqiqatın predmeti kimi çıxış edir. Mədəniyyətin mahiyyəti haqqında ümumi doktrina kimi onun ontologiyasının mahiyyətini dərk etmək yolunda yaranır. İnsan varlığının vahid kütləsi kimi çıxış edərək onun mövcudluğu mədəniyyətin elmi-nəzəri tədqiqindən tutmuş gündəlik qavrayış və təcrübəyə qədər çox geniş baxışlarda bərabərliyini üzə çıxararaq insan həyat tərzi kimi özünü göstərir.

Mədəniyyət bütövlükdə fəlsəfənin köməyi ilə ontologiyaya çevrilir. Ontologiyaya qədər mədəniyyət aləmi açılmır, kateqoriyalar baxımından heç kimi görünür, yəni tərkib hissələrinə differensiallaşdırılmır. Lakin bu kateqoriyaya istinad etmədən mədəni ontologiya qurmaq kifayət qədər çətindir, çünki kainatı dərk etməyin başlanğıcında hər şey heç nəyə bərabər görünür.

Dünyada mövcud olan hər şey realdır, reallaşır və ideal proqramlar, layihələr, planlardan və s. ibarətdir. Mədəniyyət idealla realın qarşıdurması məkanında üzə çıxır. Sosial təcrübə zamanı görülən və istehsal olunan hər şeydən əvvəl, vəzifə və ideal uca olur, subyekt istehsal olunan və görülənlərlə müqayisə edir, sonra nəyi və necə edəcəyi barədə özü üçün nəticə çıxarır.

Transformasiya olunmuş varlıq, öz növbəsində, idealın yenilənmiş formasiyalarının yaranması üçün əsasdır. Mədəniyyət, xüsusən də, insanın müxtəlif materiallardan və substratlardan istifadə edərək fəaliyyət üsullarını düzgün müəyyənləşdirmək, insan üçün dəyərli olan nəticələr əldə etmək qabiliyyətinə əsaslanır, bunun sayəsində varlıq inkişaf edir.

Mədəniyyətin qnoseoloji əsasları. Dəyərli və humanistləşmiş bir fenomen kimi mədəniyyət təkcə biliyə deyil, həm də ictimai həyatın geniş və dərin dərkinə əsaslanır. Amma varlığı biliksiz dərk etmək mümkün deyil və biliyin mahiyyəti qnoseoloji obrazların məcmusundadır. Bəşəriyyətin əldə etdiyi biliklərin toplanması həm istehsalın, həm də mədəniyyətin inkişafının əsaslandığı ən güclü tövhələrdən biridir. Biliyin əldə edilməsi prosesində emosional və rasional, intuitiv və şüurlu, obyektiv və sosial, elmi və qeyri-elmi biliklərin sintezi baş verir.

Bundan əlavə, varlığın dərketmə vasitələri sosial qiymətləndirmə, şərh, mənaların müəyyən edilməsi, məna formalaşması və semantik oxu, anlama və təcrübədir ki, bu prosesdə sosial həyatı uğurla dərk edən insan subyektin və obyektin qarşılıqlı təsir göstərdiyi yerdə həyatın dərkinə çatır.

Ona görə də mədəniyyətin qnoseoloji əsasını əldə etmək üçün bütövlükdə insanın mənəvi fəaliyyətinə müraciət etmək lazımdır. Eyni zamanda müəyyən şeylərin kifayət qədər biliyə malik olması şərti var, yəni qnoseologiya varlığın ontologiyası üçün əvəzsiz şərtlərdən biridir. Odur ki, dünya onun mövcudluğunun yekun nəticələrindən biri olan mənəvi mədəniyyət vasitəsilə mədəniyyətin konkret dərk edilməsi vasitəsilə bizə açılır.

Mədəniyyətin fəlsəfi və antropoloji əsasları. Mədəni antropologiya həm ayrı-ayrı xalqların mədəniyyətlərinin, həm də bütövlükdə bəşər mədəniyyətinin formalaşması və inkişafını öyrənir. Bu fundamental elmdir, onun predmeti insan cəmiyyətinin bütün sahələrində fəaliyyətin nəticələrinin və üsullarının, xalqların həyat tərzi və davranışının unikallığını təşkil edən və müəyyən edən bütün amillərin məcmusudur. Mədəni antropologiyası mədəniyyətin inkişafını bütün aspektləri ilə öyrənir: həyat tərzi, dünyagörüşü, mentalitet, etnik psixologiya, insanın mənəvi fəaliyyətinin nəticələri və formaları. Bundan əlavə o, həm də bəşər mədəniyyətlərinin böyük müxtəlifliyini nəzərə alaraq insanın ünsiyyət yolu ilə mədəniyyəti inkişaf etdirmək qabiliyyətini öyrənir.

Mədəni antropologiya mədəniyyəti insanların birgəyaşayışının məhsulu, razılaşdırılmış birgəyaşayış yolları sistemi, qrupların və fərdlərin ehtiyaclarını ödəmək üçün tənzimlənən norma və qaydalar sistemi kimi təqdim edir. Bu fikir ondan ibarətdir ki, müəyyən bir ərazidə insan qruplarının uzun müddət birgə yaşaması, kollektiv təsərrüfat fəaliyyəti, kənar müdaxilələrdən qorunması, dünyagörüşü, vahid həyat tərzi, ünsiyyəti, geyim tərzi, yemək bişirmə vərdişləri təşkil edir. Bu amillərin nəticəsi olaraq müstəqil mədəniyyət sistemi formalaşır ki, bu da adətən konkret xalqın etnik mədəniyyəti adlanır. Bu baxımdan mədəniyyət insanların həyatının çoxtərəfli özünə təşkilinə ehtiyacı, dünyanın insan tərəfindən inkişafının universal xarakteri ilə şərtlənir.

Fəlsəfi antropologiyada insanın təkcə müsbət deyil, həm də mənfi keyfiyyətlərini reallaşdırır, özünü məhv etmə ehtimalı barədə xəbərdarlıq edilir. Nəzərə alsaq ki, insan fəaliyyəti məhv edilə bilər və bəşəriyyətin sağ qalmasını şübhə altına alır, sosial tarixin gedişatında kompleks qoruyucu mədəniyyət inkişaf edir. Onun sayəsində həm diqqətsiz, həm də qəsdən dağıdıcı insan fəaliyyəti nəticəsində yaranan müxtəlif növ zədələrin və deformasiyaların qarşısı müəyyən dərəcədə alınır.

Mədəniyyətin sosial-fəlsəfi əsasları. Sosial determinizmin bütün növləri – coğrafi, demoqrafik, sosial-iqtisadi, texnoloji və s. müəyyən şəkildə mədəniyyətlərin ölkə və regionlar üzrə spesifik görünüşünə təsir göstərir. Bütövlükdə sosial determinizmin təbiəti – onun obyektiv-subyektiv xarakter daşıması mədəniyyətin sanballı əsasını təşkil edir. Bir tərəfdən cəmiyyətdə obyektiv qanunların hərəkəti dəyişməzdir, digər tərəfdən, ictimai həyatın bir çox hadisələrinin formalaşması subyektlərin çox geniş yaradıcılıq sahəsini təşkil edir.

Sosial determinizmin subyektiv tərəfi sosial həyatın gedişatının cəmiyyətdə formalaşan sosial subyektlərin xarakterindən, inkişaf səviyyəsindən və fəaliyyətindən asılılığını ifadə edir. Sosial determinizm insanların paylaşdığı əsas dəyərlər, müəyyən edilmiş sosial və maddi normaların məzmunua riayət etməsinin təbiiliyi ilə müəyyən edilir.

Deməli, mədəniyyətin izahının sosial-fəlsəfi prinsipləri sosial determinizmin obyektiv-subyektiv mahiyyətində, cəmiyyətin müəyyən dərəcədə yaradılmasında və onun insanlar üçün sosial məkan kimi yetişdirilməsinin zəruriliyindədir. Gerçəkliyin mədəni tərbiyəsində maraqlı olan və buna qadir olan subyektlərin məqsədyönlü formalaşdırılması mədəniyyət istehsalının sosial-fəlsəfi prinsipini təşkil edir. Onun mövcudluğunun nəticələrindən biri də mədəni vasitələrlə sosiallığın və bütövlükdə cəmiyyətin qorunub saxlanmasıdır.

Ədəbiyyat

1. Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu, Azərbaycan qəzeti, 2013 / 17 fevral, s.2-4.

2. Məmmədova S.K. Mədəniyyətşünaslıq (dərs vəsaiti), Bakı: Kooperasiya, 2001, 202 s.

3. Nəzərov M.H.,Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları, (Dərs vəsaiti), Bakı: Mütərcim, 2016, 200s.

4. Süleymanlı M. Sosial-mədəni sahənin idarə olunması (Mədəniyyət kontekstində**),** Bakı: Qanun, 2011, 288 s.

5. Грушевицкая Т.Г., Садохин А.П. Культурология: учебник. М.: Юнити- Дана, 2010, 683 с.

6. Каган М.С.Философия культуры. Учебное пособие.- М.:Издательство Юрайт, 2019, 353с.

7. https://iskusstvoed.ru/2017/03/22/aksiologicheskij-podhod-v-izuchenii-ku/

М.Г.Назаров

Особенности философских оснований культуры

Резюме

В статье речь идет о гуманизированном опыте производства и развития ценностей людьми, синтезе философского содержания в теоретическом описании оснований культурфилософии с культурологией, осмыслении предмета культурфилософии в целом, интерпретация основ культуры, речь идет об учете ее сущности.

Для того чтобы привлечь внимание к значительной части чисто философских проблем, ее окончательные основания рассматриваются в соответствии с разделами философии. Широко анализируются аксиологические, онтологические, гносеологические, философско-антропологические, социально-философские основания философии культуры. Социально-философские принципы культуры говорят об объективно-субъективном характере социальной детерминированности, необходимости в определенной мере создавать общество и культивировать его как социальное пространство для людей.

M.H.Nazarov

Features of the philosophical foundations of culture

Summary

The article deals with the humanized experience of the production and development of values by people, the synthesis of philosophical content in the theoretical description of the foundations of cultural philosophy with cultural studies, the understanding of the subject of cultural philosophy as a whole, the interpretation of the basics of culture. It is about taking into account its essence.

In order to draw attention to a significant part of purely philosophical problems, its final foundations are considered in accordance with the sections of philosophy. The axiological, ontological, epistemological, philosophical and anthropological, socio-philosophical bases of the philosophy of culture are widely analyzed. The socio-philosophical principles of culture speak of the objective-subjective nature of social determinism, the need to create a society to a certain extent and to cultivate it as a social space for people.

Rəyçi: fəls.e.d. Z.B.Ağayeva

Redaksiyaya daxil olub: 07.04.2022

E.M.PAŞAYEVA
dosent

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

XVIII ƏSRDƏ KRIM BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Açar sözlər: *beynəlxalq münasibətlər, Krım xanlığı, Rusiya, Osmanlı İmperiyası, sərhədlər, sərhəd, basqın sistemi.*

Ключевые слова: *международные отношения, Крымское ханство, Россия, Османская империя, границы, погра-ничье, набеговая система.*

Key words: *international relations, the Crimean Khanate, Russia, the Ottoman Empire, border, frontier, raiding system.*

